*Xəliyəddin Xəlilli*

*Ş.C.Əfqaninin ruhuna*
*ithaf edirəm*

# AZƏRBAYCAN TÜRKLƏRİNİN ETNOGENEZİ VƏ MİLLİ İNKİŞAF TARİXİ

**Bakı - 2007**

Rəyçilər: **A.Balayev** – tarix elmləri doktoru,
**Q.Kazımov** – filologiya elmlər doktoru, professor
**M.Mirzəyev** – tarix elmlər namizədi, dosent

Elmi redaktorlar: M.Allahmanlı – tarix elmləri namizədi
T.Şahbazov – tarix elmləri namizədi

**Xəliyyəddin Xəlilli. «Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi». Monoqrafiya.**
Bakı, «MBM», 2007, 384 s.

Monoqrafiyada antropoloji, arxeoloji, etnoqrafik, dil materialları və etnososial inkişaf qanunauyğunluqları kompleks tədqiqata cəlb olunmaqla Azərbaycan türklərinin etnogenezinin qan qohumluğuna malik türk tayfalarının etnokonsolidasiyası zəminində formalaşması, milli inkişaf prosesində digər etnoslardan etnik komponentlər qəbul etməsi və onun xüsusiyyətləri şərh olunur. Azərbaycan türklərinin milli zəminində ona həyat eşqi, yaşamaq qabiliyyəti verən etnogenezin element və hissələrinin vahid etnik sistem kimi formalaşması elmi əsaslarla şərh olunur.

ISBN 978-9952-29-003-5

© X.Xəlilli
Bakı, «MBM»



# GİRİŞ

## və ya etnososial inkişafda tarix elmimin rolu

Hər bir xalqın inkişafında tarixi yaddaş və milli tarix elmi iqtisadiyyat, sosial-mənəvi həyatın müxtəlif sahələri, məhsuldar qüvvələrin təmin olunması qədər əhəmiyyətə malik zəruri mənəvi sahədir. A.A.Bakıxanov "Gülüstani-İrəm" əsərində tarix elminin funksiya və vəzifəsi haqqında yazırdı: "Tarix elə bir danışmayan natiqdir ki, sələflərin vəsiyyətlərini bütün təfsilat və tərəfləri ilə xələflərə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır. Gələcəkdə törəyə bilən əhvalatı keçmişin libasında insanların nəzərinə çatdırır. Bəli, keçmişdə vaqe olan bir iş gələcək üçün düstürüləməldir və elmə əsaslanan bir əməl möhkəm və payıdar olar... Tarix elmi isə dünyanın təcrübəsini bizə kəşf edir. Bundan daha yaxşı nə ola bilər? Xüsusən hər bir ölkənin tarixi orada yaşayan xalq üçün faydalıdır: çünki tarix ona öz millətinin tələb və adətlərindəki xüsusiyyətləri bildirər, qonşu tayfaların rəftarından məlumat verər, müxtəlif xalqlarla saxlanılan əlaqənin əsas xeyir və zərərini ona məlum edər"[282, 10].

XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan milli-azadlıq hərəkatı liderləri milli varlığın qorunması və inkişafında tarixi yaddaşın və tarix elminin əvəzedilməz rolunu dərk etmiş, xalqın mənəvi dəyərlər sistemində yaranmış boşluğu doldurmaq məqsədilə çox çalışmışlar. Milli-azadlıq hərəkatının lideri M.Ə.Rəsulzadə Azərbaycan türklərinin düşdüyü ağır mənəvi, ideoloji, siyasi durumun əsas səbəblərindən bəhs edərkən göstərmişdir ki, Azərbaycan türkləri "öz tarixlərini bilmədiyinə görə cəhalətdə qalmış, öz yolunu müəyyən edə bilməmişdir" [330, 162]. Azərbaycan Cümhuriyyətinin qurucularından biri, Müdafiə naziri, general S. Mehmandarov milli tarixin yazılmasını dövlət və ordu quruculuğunun tərkib hissəsi kimi qiymətləndirərək təcili olaraq

Azərbaycan türklərinin tarixinin yazılması üçün ziyalılara müraciət etdi [341, 55-57;343,108-111]. Azərbaycan Cümhuriyyətinin varlığı illərində milli tarixin yazılmasına xüsusi qayğı göstərildi. M. Baharlının "Azərbaycan", Rəşid bəy İsmayılovun "Azərbaycan tarixi", C. Zeynaloğlunun "Müxtəsər Azərbaycan tarixi" əsərləri yazıldı. Lakin 1920-ci il 28 aprel Azərbaycanda yeni kommunist rus işğalı bu əsərlərin nəşrini ləngitdi. M. Baharlının əsəri 1921-ci ildə, Rəşid bəy İsmayılovun əsəri 1923-cü ildə Bakıda, C. Zeynaloğlunun əsəri 1924-cü ildə İstanbulda nəşr olundu. Bu əsərlər A. A. Bakıxanovun "Gülüstani-İrəm" əsərindən sonra Azərbaycan tarixşünaslığında elmi və milli mövqedən yazılan ilk və son əsərlər oldu. Bu əsərlərin oxunması qadağan edildiyindən xalq arasında yayıla və mənimsənilə bilmədi. Bununla da Azərbaycan tarixinin milli mövqedən öyrənilməsi ideyası beşiyindəcə boğuldu. Azərbaycanın qədim sivilizasiyanın ilkin beşiklərindən olması folklorda, dini ədəbiyyatda, M. Kalankaytuklunun "Albaniya tarixi" əsərində ifadə olunmuşdu. Bu ideya hələ orta əsrlərdən burada olmuş Avropa səyyah və elmi fikir adamlarının diqqətini cəlb etmiş, onlar bu mədəniyyət ocağı haqqında xatirə və hesabatlarında məlumat vermişlər. Lakin XIX əsrdə Azərbaycanın Rus imperiyası tərəfindən işğalından sonra Azərbaycanda olmuş isveç, fransız, alman, qismən rus elmi düşüncə sahibləri buradakı zəngin arxeoloji abidələrə istinadən Azərbaycanı sivilizasiya beşiyi hesab etmiş, pərakəndə də olsa arxeoloji qazıntılar aparmaqla onun qədim tarixini öyrənməyə təşəbbüs etmişlər. Lakin 1920-ci il 28 apreldə Azərbaycanın kommunist Rus imperiyası tərəfindən ikinci işğalı ilə Azərbaycan tarixinin dünya və milli elmi fikir adamları tərəfindən öyrənilməsi də dayandırıldı. Bolşevik inkvizasiyası hər şeyin, birinci növbədə tarixin marksizm-leninizm metodologiyası ilə öyrənilməsinə, kommunist ideologiyası əsasında izah və şərh olunmasına qərar verdi. Azərbaycanın bolşevik hökuməti Azərbaycan tarixinin öyrənilməsini nəzarətə götürmək üçün 1923-cü ildə Azərbaycan





Arxeoloji Komitəsini və Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətlərini yaratdı. Bu cəmiyyətlərin tərkibinə Rusiyadan dünya şöhrətli alimlər V.V.Bartold, N.Y.Marr, İ.İ.Meşşaninov və b. daxil edilməsi bolşeviklərin də Azərbaycanı qədim və güclü sivilizasiya beşiyi kimi dəyərləndirdiyini göstərir. Odur ki, kommunist Rus imperiyası bu sivilizasiyanı yaradıcı gücündən məhrum etmək məqsədilə onu güclü alimlər vasitəsilə nəzarətə götürmək, ona məqsədə müvafiq forma və məzmun vermək istəyirdi. Bu cəmiyyətlərin tərkibinə Azərbaycandan milli ziyalı mühitində yetişmiş istedadlı gənclər - Ə.Ələkbərov, Q.T.Qaraqaşlı, M.V.Quliyev, İ.M.Cəfərzadə, M.Baharlı və b. daxil edilmişdilər. Bu cəmiyyətlərin orqanı kimi "Xəbərlər" məcmuəsi nəşr olunurdu. Lakin bu cəmiyyətlərə daxil edilmiş alimlərin dünyagörüşü onlara Azərbaycana kommunistlərin arzu etdiyi tarixi uydurmağa imkan vermirdi. Çünki onların hamısı dünyanın qabaqcıl təhsil ocaqlarında yetişmiş, zadəgan silkindən çıxmış alimlər idi. Onların yaradıcılığında Avropa mərkəzçilik, velikorus şovinizmi olsa da, tarixi Rus imperiyasının geopolitik mənafeyinə uyğun yazsalar da, milli və tarixi həqiqətləri danmırdılar. Xalqlara yanaşma tərzində imperiyaya məsləhətçi olurdular. Bu cəmiyyətlərə daxil olmuş Azərbaycan gəncləri ölümlə olum arasındakı təhlükəli bir şəraitdə milli tarixdə hifz olunan ləyaqət, mənlik və qüruru tarix elmi vasitəsilə yeni nəsillərə ötürməyə çalışırdılar.

Marksizm-leninizm-kommunist ideologiyasını ancaq elmi şüurdan məhrum proletar, muzdur və dünyagörüşcə onlar səviyyədə olan sosial təbəqələr, simasızlaşmış, faktı və həqiqəti danmağı bacaran qruplar və fərdlər qəbul edə bilərlər. Kommunist ideologiyası mühitində dünyaya göz açmış insanların elmi şüura yiyələnənə qədər bu ideologiyanın təsirinə düşməsi də mümkündür. Yüksək elmi şüura, bəşəri dəyərlərə malik insanların kommunist ideologiyasını qəbul etməsi və bu ideoloji qəlibdə xalqlara tarix uydurması mümkün deyil. Odur ki, kommunist Rus imperiyasının istəyinin əksinə olaraq V.V.Bartold, N.Y.Marr,

İ.İ.Meşşanınov və başqalarının rəhbərliyi ilə Azərbaycan mühitində elmi və milli şüura yiyələnmiş Ə. Ələkbərov, Q.T.Qaraqaşlı, M.V.Quliyev, İ.M.Cəfərzadə, M.Baharlı kimi ziyalılar vasitəsi ilə yaradılan Azərbaycan tarixşünaslığı başqa cür deyil, məhz elmi və milli mövqedən yaranırdı. Oktyabr çevrilişindən sonra bütövlükdə Rus imperiyasında yaranan tarixşünaslığın elmi-ideoloji səviyyəsi uyğun idi. Kommunist liderləri aydın görür və dərk edirdilər ki, həbs və güllələnmə qorxusu Oktyabr çevrilişindən əvvəl təhsil almış alimlərin dünyagörüşünü və siyasi baxışlarını dəyişə bilmir. Odur ki, bu nəsil ziyalılarını kütləvi surətdə güllələnmə, həbs və sürgünlə məhv etməyə başladılar. Kommunist liderlər aydın görürdülər ki, kommunist ideologiyası mühitində, SSRİ imperiyasında doğulmuş, dünyadan təcrid olunmuş adamlar elmi şüura yiyələnənə qədər bu ideologiyanın təsirində qala bilirlər.

Odur ki, Rus kommunist imperiyası 1937-ci ildə bolşevik doqmasını qəbul edə bilməyən bütün alim və ziyalıları, elmi və milli şüurun daşıyıcılarını, müstəqil düşünmək və düşündüklərini açıq ifadə etmək qabiliyyətində olan insanların hamısını məhv etdilər. Rus kommunistlərin imperiyalar tarixinə gətirdiyi birinci yenilik metropoliyalarla bərabər özünün də irsi elitasını və ziyalısını məhv etmək oldu. İkinci yenilik isə metropoliyalarda milli şüurun daşıyıcılarını fiziki cəhətdən məhv etməklə onun bir daha meydana çıxmasına yol verməmək idi. Onun bu amansızlığının nəticəsi idi ki, 1926-cı ildə SSRİ-də əhalinin ilk siyahıya alınması zamanı qeydə alınan 195 xalqdan, 1989-cu il, əhalinin son siyahıya alınması zamanı cəmi 128 etnos qalmışdı. Kommunist rus imperiyası varlığının 63 ili ərzində 67 xalqı tarix səhnəsindən sildi [103, 201].

Kommunist rus imperiyası varlığı dövründə assimilyasiyanın - ideologiya, dil, mədəniyyət, metisləşdirmə və s. bütün üsul və vasitələrindən istifadə edirdi. Lakin assimilyasiyanın başlıca aləti, vasitəsi tarix elmi idi. Kommunist sovet imperiyası tarix elmindən assimilyasiya etməyi planlaşdırdığı xalqlara qarşı müharibə zamanı döyüş zonasında rəqibin yaddaşını və şüurunu süstləşdirib iradəsini qırmaq üçün istifadə etdiyi zəhərli maddə, vasitə kimi milli şüuru öldürən, keçmişə nifrət yaratmaqla milli iradənin bərpa olunmasına imkan verməyən başlıca vasitə, alət kimi istifadə edirdi.





Kommunist rus imperiyasının tarixinə nəzər saldıqda aydın görünür ki, bu ölkədə qısa müddətli iqtisadi sistemlər yarada bilsələr də, tarixşünaslıqda bu mümkün olmamışdır. Sovet tarixşünaslığında elmdən danışsalar da, o, heç vaxt bütünlüklə elmi baxış səviyyəsinə yüksələ bilmədi. Çünki o, tarixə obyektiv elmi baxışla deyil, subyektiv siyasi məqsədlər güdən baxışla yanaşırdı. Odur ki, imperiyanın varlığı dövründə bu ölkədə tarix elmi tarixşünaslıq deyil, tez-tez dəyişən subyektiv konsepsiyalar yığını oldu. Bu konsepsiyaların doğuluşu ilə ölümü çox qısa zaman kəsiyində baş verirdi. Bəzən də doğulmamış ölürdü. Təsadüfi deyil ki, üç cildlik "Azərbaycan tarixi"nin 3-cü cildinin 3-cü hissəsi bir neçə dəfə "yazılsa da" nəşri mümkün olmadı. Yazılışı başa çatana qədər konsepsiya ölürdü. Belə ki, birinci yazılış başa çatana qədər kommunizm quruculuğu proqramı öldü. Sovet tarixşünaslığı XX əsrin 60-80-ci illərin "inkişaf etmiş sosializm" dövrü adlandırmaq istəyirdi ki, imperiyada iqtisadi tənəzzül, böhran başlandı. İmperiya ideoloqları onu "yenidən qurma" adı altında təmir edib ömrünü uzatmaq istəyirdilər ki, ölkədə başlayan milli-azadlıq hərəkatları onu tarixin arxivinə göndərdi.

Ona qədər olan imperiyalarla müqayisədə kommunist Rus imperiyası xalqları assimilyasiya etməkdə geniş imkanlara - kütləvi təhsil, mətbuat, radio, televiziya kimi informasiya və təbliğat vasitələrinə malik idilər. Ən başlıcası isə Rus imperiyası əsarət altına aldıqları xalqların dünya ilə əlaqəsini kəsmişdi. İmperiya əhalisi dünya haqqında ancaq ölkə informasiya mərkəzlərinin verdiyi forma və məzmunda məlumat ala bəlirdi. Verilən informasiyaya görə guya dünya kapitalist dövlətlərində

aclıq və səfalət hökm sürür, bundan çıxış yolu kimi dünya xalqları sovet həyat tərzi, sosializm uğrunda mübarizə aparırlar. Kapitalizmin birinci dünya böhranı sosializmi doğdu, ikinci böhranı sosializmi sistemə çevirdi, kapitalizmin başlayan son böhranı sosializmin dünyada qələbəsi ilə nəticələnəcək. "Böyük rus xalqı" onunla birgə yaşayan xalqlar kimi bütün dünya xalqlarını milli və sosial ədalətsizlikdən xilas edəcək. Beləcə Rus imperiyasının informasiya vasitələri beyinləri iflic edirdi. Beyinlərinin iflic edilməsi mümkün olmayan, məntiq gücü ilə fərqli düşünən tək-tək fərdlər antikommunist, burjua təxribatına uymuş düşmən kimi fiziki cəhətdən məhv edilirdi. Sovet adamı manqurtlaşmış, proqramlaşmış standart düşüncəyə malik kütləyə çevrilirdi. Bütün iqtisadi, sosial-siyasi ideoloji tədbirlərin məqsədi xalqları ilk öncə manqurtlaşdırmaq, növbəti mərhələdə rus təfəkkürü əsasında qidalandırmaqla onları assimilyasiya etmək məqsədi güdürdü. Bütün xalqlar Rus imperiya maşınının bu təcavüzü qarşısında davam gətirə bilmir, kiçik xalqların etnik, mənəvi strukturu, sistemi pozulub dağılmaqla ruslar içərisində əriyib assimilyasiya olunurdu. Qədim, möhkəm etnik-mənəvi sistemlərə malik xalqlar imperiyanın bu təcavüzündən varlıqlarını qoruya bilsələr də, onların da mənəvi dünyasında deformasiya, parçalanma, manqurtlaşma, kosmopolitizm, simasızlaşma ardıcıl artmaqda idi. Etnik proseslərin belə zorakı istiqamətləndirilməsi velikorus şovinizminin arzusunun əksinə olaraq, rus xalqının özünü də zəiflədirdi, imperiyanın mənəvi dayaqlarını ardıcıl çökdürürdü. Çünki imperiyada hakim, hegemon millət olan ruslar mədəni-əxlaqi səviyyəsinə görə imperiyanın əksər xalqlarından aşağı səviyyədə olmaqla, mentalitetcə onlarla ziddiyyət təşkil edirdi. Rus imperiyası qadın azadlığı, hüquq bərabərliyi pərdəsi altında rus qadınları vasitəsilə fahişəliyi yaymaqla, xalqların mənəvi sistemini pozur, fahişə qadınlar vasitəsilə yaratdığı metislərlə xalqları konsolidasiya etmək istəyirdi. Artıq 70-ci illərin əvvəllərində Rus imperiyasının bu





siyasəti də xalqlar arasında əks reaksiya doğurdu. İmperiyanın assimilyasiya siyasəti rus xalqının mədəni-mənəvi gücü, passionarlığı hesabına deyil, hakimiyyətin zorakılığı hesabına həyata keçirilirdi.

Rus sovet imperiyasının etnik-milli siyasətinin, başlıca vasitəsi tarix elmi idi. Qarşıya qoyulan bütün milli, sosial-siyasi, geopolitik məqsədlər uydurulan tarixi konsepsiyalar vasitəsi ilə xalqlara aşılanır, onlar ideoloji-siyasi cəhətdən bu istiqamətə yönəldilirdi. Odur ki, tarix elmi nüvə silahı səviyyəsində dövlətin nəzarətində idi. Onun kadrlarının seçilməsi və yetişdirilməsinə xüsusi həssaslıqla yanaşılırdı.

Kommunist Rus imperiyasının assimilyasiya siyasəti müəyyən uğurlar qazansa da, onun işinin həmişə müvəffəqiyyətlə getdiyini demək mümkün deyil. SSRİ nə qədər qapalı ölkə olsa da, dünyada baş verənlər onun daxili həyatına təsir edirdi, etnik proseslərdə onun üçün gözlənilməz situasiyalar meydana çıxırdı. Ümumən əsarət altına aldığı bütün xalqları assimilyasiya kommunist Rus imperiyasının siyasəti olsa da, bütün xalqlara münasibət eyni deyildi. Məsələn, Qafqazın türk və müsəlman xalqlarını bütünlüklə assimilyasiya planlaşdırıldığı halda, gürcü və erməniləri bir qədər ruslaşdırmaqla onlardan türk-müsəlman düşməni bufer dövləti yaratmaq planlaşdırılırdı. Odur ki, onlara milli şüurlarını və mədəniyyətlərini inkişaf etdirməyə planlı şərait yaradılırdı. Ermənilərə münasibət gürcülərdən qismən fərqli və üstün idi. Ermənilərin dünyada yayılması və onlara Azərbaycan ərazisində dövlət yaratmaq məqsədilə Moskva erməni tarixçilərinə geniş imkan yaratmışdı. Azərbaycan ərazisində erməni dövlətinin tarixən mövcudluğu haqqında yazılmış əsərlər vasitəsilə ermənilər Qafqazın yerli əhalisi kimi insanların şüuruna yeridilməsi sonra isə bu konsepsiyaya uyğun Azərbaycan tarixinin "yazılması" planlaşdırılırdı. Məsələ bununla bitmirdi. Azərbaycan ərazisinin böyük bir hissəsi, milli özünüadlandırmanın ilkin ocaqlarından biri - Borçalı bütünlüklə Gürcüstana, il-

kin mədəniyyət mərkəzlərindən biri Dərbənd şəhəri Dərbənd vilayəti ilə birlikdə RSFSR-ə verilmişdi. Beləliklə, kommunist ruslarının yenidən işğal etdiyi ölkələrin, 190-a qədər xalqın tarixi planlı surətdə rus imperiyasının siyasətinə uyğunlaşdırılırdı.

Rus imperiyası işğal etdiyi ölkələrdə hakimiyyətə gətirdiyi şəhər proletariatı, kənd muzdur və nökərləri vasitəsilə milli şüurun fəal daşıyıcıları zadəgan və ziyalıları fiziki cəhətdən ardıcıl məhv edirdi. İşğal olunmuş ölkələrin proletariat və muzdurlarının ruslarla asan qaynayıb-qarışması, ruslaşması Moskvanı eyforiyaya gətirmişdi. Onların rəhbərliyi ilə bütün dünyada proletariat diktaturası dövlətlərinin qurulacağı xülyası ilə sovet "tarixçilərinin" uydurmaları dünyanı dolaşırdı. SSRİ-nin eyforiyaya qapılmış kommunist rəhbərliyi 1936-cı ildə "SSRİ Konstitusiyası"nı qəbul etdi. Bu sənəd imperiyanın türk və müsəlman xalqları, birinci növbədə Azərbaycan türkləri üçün ölüm hökmü idi. Azərbaycan türklərinin etnik-mənəvi dəyərlər sistemində tarixi yaddaşı, qürur, ləyaqət və s. yaşadan milli özünüadlandırma-türk etnonimi qadağan olundu. Azərbaycan türklərinə Azərbaycanda yaşayan əhali mənasını verən "azərbaycanlı" adı verildi. Azərbaycan türkcəsi "Azərbaycan dili" adlandırıldı. İmperiyanın bu addımının Azərbaycan türklərinin yeni nəslini uydurma bir tarixlə milli köklərindən ayıracağı aydın idi. Yuxarıda göstərdiyimiz kimi, 1937-1938-ci illərdə zadəgan təbəqəsindən yetişmiş tarixçi, ziyalı nəsli məhv edilmiş, proletar-muzdur təbəqəsindən hələ tarixçi yetişməmişdi. Odur ki, tarixşünaslıqda bir boşluq yarandı. 1937-ci ildə Moskvada nəşr olunan "SSRİ tarixi" adlı 3 cildlik əsər ali məktəblərdə, onun qısaldılmış və sadələşdirilmiş variantı orta məktəblərdə "Vətən tarixi" kimi tədris olunurdu. Adının əksinə olaraq dərslikdə ancaq rus xalqının tarixindən irqçilik, hakim millətçilik mövqeyindən bəhs olunurdu. Rus xalqı yaranışdan fövqəlbəşər, işğalları da mədəni nəticələr doğuran bir xalq kimi ruslarla bərabər əsarət altına alınmış xalqların yeni nəslinin şüuruna yeridilirdi. Dərslikdə rusların hər bir xalqın işğal günü həmin xalqın bəşəriyyətə mədəniyyət yayan mütərəqqi rus xalqına qovuşduğu tarixi bir gün kimi izah olunurdu. Oktyabr çevrilişi ilə rus proletariatı guya bütün milli-sosial ədalətsizliyin mənbəyini məhv etmişdir. Rus proletariatının hakimiyyəti illərində rus işğalı rusların bu ölkələrə gətirdiyi xoşbəxtlik, sosial ədalət, mədəni inkişaf mərhələsi kimi şərh olunurdu. Ruslar istisna olmaqla Oktyabr çevrilişinə qədər bütün xalqların tarixi cəhalət dövrü, quldur, qaçaq, vəhşi, mədəniyyət düşməni bir ünsürün tarixi kimi şərh olunurdu.





Mövcud vəziyyəti Azərbaycan kommunistlərinin lideri N.Nərimanov həyəcanla belə etiraf edir: "Özlərinin bütün taktikası ilə Azərbaycanı simasızlaşdırmaq istəyirdilər. Bunun üçün "oğurluq etmiş, rüşvət almış, bakirə kəndli qızlarını, arvadlarını zorlamış" adamlardan ibarət hakimiyyət orqanı yaradırlar. "...Bu, məlum proqram üzrə məlum şəxslər tərəfindən həyata keçirilirdi ki, onları nəyin bahasına olursa-olsun, Azərbaycanı simasızlaşdırmaq, öz miskin məqsədləri üçün onu gücdən salmaq istəyirlər. Bu məqsədə nail olmaq üçün onlar özləri çıxış etməyib, Azərbaycandan olan türkləri (türk fəhlə və kəndli kommunistləri - X.X.) Azərbaycanın mənafeyini müdafiə edənlərə qarşı çıxış etməyə məcbur edirlər. İş "parçala və hökm et" şüarı altında getmiş və gedir". Orconikidzenin nəzəriyyəsinə görə, əlbəttə, kiçik Azərbaycanın əhalisini müntəzəm olaraq məhv etmək olar, lakin onda da respublika kimdən ibarət olacaqdır?". Odur ki, Azərbaycan əhalisi kütləvi məhv edilmir. Kommunist partiyasının fəaliyyəti isə məhz Azərbaycanın simasızlaşdırılmasına yönəldilmişdir. Bir tərəfdən kommunist bayrağı altında daşnaklar öz işlərini görür, digər tərəfdən keçmiş eserlər".[363]

Sovet məktəbi, mətbuat və təbliğat maşını sosial-mənəvi, iqtisadi-siyasi, milli-ideoloji strukturları dağıdılmış Azərbaycan xalqının sağ qalmış savadsız fəhlə və muzdur hissəsində keçmişinə ikrah, nifrət hissi aşılayırdı. Sanki Azərbaycan tarixində yeni nəsillər üçün nümunə olacaq, qürur doğuracaq, fəxr oluna-

caq bir şəxsiyyət, sosial-mədəni hadisə olmamışdır. Azərbaycan xalqı 28 aprel işğalından sonra böyük qardaşı rus xalqının köməyi, mədəniləşdirici təsiri ilə mədəni, sosialist bir xalqa çevrilmişdi. Lenin dilini, böyük rus xalqının dilini öyrənməklə rus mədəniyyətinə və xalqına qovuşmaqla əbədi xoşbəxtliyini təmin etmişdir. Bu qoşulma gün-gündən sürətlənir, imperiyanın bütün xalqları rus dili vasitəsilə rus mədəniyyətinə qovuşur, "xoşbəxt sovet xalqı"nın yaranması prosesi gedirdi. Yaranan sovet xalqı böyük rus mədəniyyətinin daşıyıcısına çevrilirdi. Sovet xalqı - rus xalqının sinonimi kimi şüurlara yeridilirdi. Hər beş ildən bir əhalinin siyahıya alınmasında əyalətlərdə insanların ana dilindən imtina edib rus dilini ana dili, milli özünüadlandırmadan imtına edib özünü rus adlandırması sosializmin böyük qələbəsi, nailiyyəti kimi qiymətləndirilir və təbliğ olunurdu.

Etnik mənşəyindən imtina edib rus etnik mənsubluğunu qəbul edən etnik qrupların nümayəndələri yüksək rəhbər vəzifələrə irəli çəkilir, sosializmin milli nailiyyəti kimi nümayiş və təbliğ olunurdu. Artıq kommunist rus imperiyası, əsarət altına aldığı xalqların ziyalı, zadəgan və milli şüurun fəal daşıyıcılarını məhv etdiyindən milli ucqarların proletariat və muzdurları ruslaşmaya can atır, rus və rus dilli xristian qadınları ilə evlənməklə asanlıqla hakimiyyətdə təmsil olunurdular. Beləliklə, xalqın milli, sosial-mənəvi, siyasi-iqtisadi strukturları ilə bərabər biososial gen bazası da dağıdılırdı. Biososial assimilyasiyanın ilk uğurları Moskvaya milli siyasətində tezliklə qələbə çalacağına inam yaratdı. Kommunist Rus imperiyasının bu qələbələri hazırlanmaqda olan İkinci Dünya Müharibəsində iştirak etməklə yeni ərazilər işğalına sövq etdi. Rus kommunistlərinin proletariat və kəndli sinfinin hakim və dövlət idarəçiliyinə layiq siniflər olması haqqında təbliğatı dünyanın bir çox ölkələrində bu siniflərlə dövlət və irsi elita arasında mənfi münasibət yaratmışdı. Odur ki, Avropa kapitalist dövlətləri rus qoşunlarını ərazilərinə buraxmamaq üçün təxminən eyni ideoloji qəlibli rus kommunistləri





ilə alman faşistlərini toqquşdurmağa qərar verdilər və məqsədlərinə də nail oldular. Sanki kommunistlərə elə bu lazım imiş. O, faşist təhlükəsi haqqında elə qorxulu, həyacanlandırıcı təbliğata başladı ki, ölkədə hər kəsi faşizmi, alman xalqını məhv etməyə psixoloji cəhətdən hazırladı.

SSRİ ilə Almaniya arasında müharibə başlayanda Staxanov hərəkatı kimi bəzi uydurmalar istisna olmaqla, SSRİ-də nümunə göstəriləcək elə bir fəxri qəhrəmanlıq, igidlik nümunəsi yox idi. Odur ki, kommunistlər xalqlara uydurmaq istədiyi tarixi konsepsiyalarına dəyişiklik etməyə məcbur oldular. İdeoloji təbliğatlarının dayanıqlı olması üçün xalqların tarixinə söykənməyə məcbur oldular. Əsarət altına alınmış xalqların qəhrəman sərkərdələrin, böyük şəxsiyyətlərin varisləri olması haqqında əsərlər yazıldı və təbliğ olundu. Bu hadisə keçmişi qəhrəmanlıqlarla zəngin, dünyaya böyük sərkərdə, alim və mütəfəkkirlər vermiş Azərbaycan türklərinin yaradıcı tarixini üzə çıxarıb, xalqına təqdim etməklə onun milli ruhunu yenidən canlandırmağa imkan verdi. Azərbaycanın qəhrəmanlıqlarla zəngin tarixi, dünya şöhrətli sərkərdələri, alim və mütəfəkkirləri haqqında əsərlər yazıldı, nəşr olunub təbliğ olundu. Azərbaycan xalqının böyük, əzəmətli bir mədəniyyətin varisi olmasının imperiya tərəfindən etiraf olunması təqib və həqarət altında yaşayan xalqın mənəvi cəhətdən rahatlanmasına, özünəqayıdışına imkan verdi. Müharibənin ağır iqtisadi-sosial, mənəvi nəticələrinə baxmayaraq, 1920-ci ildən gözümçıxdıya salınmış, hər dəqiqə təhqir olunan, adı dəyişdirilən Azərbaycan türklərinin şərəfli keçmişi haqqında azərbaycanlı adı altında yazılan və təbliğ olunan tarixi əsərlər onun milli ruhunu canlandırdı, ona yaradıcılıq qüvvəsi verdi. Bununla bərabər, döyüş cəbhələrindən azərbaycanlıların qəhrəmanlığı haqqında xəbərlər onları qəhrəmanlıq tarixi ilə qovuşdurur, milli ruha təkanverici güc verirdi. Bütün bunlar müharibə şəraitində Azərbaycan türkləri arasından böyük elmi kəşflərin müəllifi, alimlər və sərkərdələr çıxması ilə nəticələndi. Müharibənin ağır

iqtisadi-sosial, mənəvi nəticələrinə baxmayaraq, elə müharibə illərində milli təzyiqdən azad olması Azərbaycan türklərinə onun mənəvi tələbatını ödəyəcək yeni milli ziyalı nəsli yetişdirməsinə imkan verdi. Bu hadisə Azərbaycan türklərinin güclü biososial genlərindən məlumat verir. Azərbaycan xalqının ən ağır şəraitdə yetişən bu ziyalı nəsli milli mənafe naminə fədakarlıq göstərdi. Moskva ilə hesablaşmadan 1956-cı il avqustun 25-də Azərbaycan SSR Ali Sovetinin Sessiyası Azərbaycan SSR-in Konstitusıyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil etdi. Bununla da milli varlığın qorunması və yaşadılmasının başlıca mənbəyi dilini qorumaq, ona yaradıcılıq imkanı vermək üçün hüquqi baza, dayaq yarandı. Bu hadisə həmin dövr üçün həqiqi mənada milli inqilab idi. Hərəkatın lideri İ.Mustafayev milli ideallar naminə ölümün gözünə dik baxdı. Bu hadisə Azərbaycan türklərinə qarşı amansız olan imperiyanı daha da quduzlaşdırdı. Rus imperiyası Azərbaycan xalqını assimilyasiya etmək üçün kompleks biososial, etnik, iqtisadi-sosial, siyasi-ideoloji tədbirlər həyata keçirdi. Milli ruhun köklərinin əsasən tarixi yaddaşda olduğunu nəzərə alan kommunist ideoloqlar tarix elmindən bir alət kimi istifadə edirdilər. Bu dövrdə yazılan tarixi əsərlərdən aydın görünür ki, sovet tarixşünaslığı bu işdə az baş sındırmamışdır.

Sovet tarixşünaslığı imperiya xalqlarının tarixində diqqəti daha çox Oktyabr çevrilişindən sonrakı sosializm mərhələsinə cəlb edirdi. Almaniya üzərində qələbə kommunizm ideoloqlarına rus xalqının böyük tarixi rolu, sosializmin dünya iqtisadi sistemində üstünlükləri, sovet beynəlmiləlçiliyinin yaradıcı gücü haqqında zəngin tarixi ədəbiyyat yaratmasına imkan verdi. Ölkədə müharibədən sonrakı kiçik iqtisadi tərəqqi də buna zəmin yaratdı. Tərəqqi, mənəvi yüksəliş xalqın mədəni irsə, keçmişə marağını gücləndirir. Müharibədən sonra ruslarla bərabər əsarət altına alınmış xalqlarında mənəvi dirçəlişi, tarixi mədəni irsə münasibəti canlanmışdı. Bu canlanmanın qarşısını almaq üçün





kommunist ideoloqlar əsarət altına alınmış xalqların mənşəyi haqqında tələsik tarixlər uydurmaqla onları milli köklərindən ayırır, onların da ruslar kimi hind-avropa mənşəli olmaqla ruslarla eyni mənşəli olmasını şüurlara yeridir, milli tarixi yaddaşdan məhrum edir ki, əsarət altına alınmış xalqlar “biz və onlar" fərqləndirilməsində özlərini ruslarla müqayisə edib onlardan fərqləndirməyə can atmasın, özlərini ona qarşı qoymasın, əksinə ruslarla bir kökdən olması ideyasına yiyələnib, ona qovuşmağa can atsın. Əsarət altına alınmış xalqların ruslarla eyni xalq olması, "Sovet xalqı məzmunca sosialist, formaca milli mədəniyyətdir". Formuləsi ilə pərdələnərək şüurlara yeridilirdi. Fəlsəfi kateqoriya olmaq etibarı ilə məzmunla formanın vəhdəti haqqında deyilir: "Məzmun ilə forma arasında dinamik və çevik münasibətlər mövcuddur. Çünki məzmunun inkişafı formanın dəyişməsi və yeniləşməsini şərtləndirir. Bu prosesdə köhnəlmiş formalar tədricən aradan çıxır".[364, 132-135, 276-287] Nəzərə alsaq ki, sosialist mədəniyyətinin müəllifi rus xalqı idi, "məzmunca sosialist, formaca milli mədəniyyət" formulasında rus imperiyasının əsarət altına aldıqları bütün xalqları assimilyasiya etmək məqsədi çox aydın və aşkar şəkildə ifadə olunmuşdu.

Özlərinin etiraf etdiyi kimi sovet tarixşünaslığı tez-tez özünü inkar edən, dəyişən, ayrı-ayrı şəxslərin fikirlərini ifadə edən süni konsepsiyalar yığını idi, elmi tarixşünaslıq deyildi. Bu, Azərbaycan Sovet tarixşünaslığının yaradıcılarından biri - akademik Ə.S.Sumbatzadənin "XIX-XX əsrlər Azərbaycan tarixşünaslığı" (B., 1987) adlı monoqrafiyasında aydın ifadə olunmuşdu. Hətta əsərin 3-cü, 4-cü və 5-ci fəsillərinin adında da aydın görünür. Üçüncü fəsil "Böyük Oktyabr və Azərbaycan sovet tarixşünaslığının formalaşması", IV fəsil "Azərbaycan tarixşünaslığı 40-cı - 50-ci illərin birinci yarısında. Konsepsiya axtarışlarında", V fəsil isə "Azərbaycan tarixinin konsepsiyasının yaradılması və 3 cildlik "Azərbaycan tarixinin yazılması" adlanır. Fəsillərin adı ilə bərabər məzmunu ilə tanışlıqdan aydın görünür ki, Azərbaycan

xalqının keçmişi, tarixi inkişafı haqqında fikir, mülahizə və çıxarılan nəticələr faktlara deyil, subyektiv fikir və ideyalara söykənir.

Kommunist Rus imperiyasında ən sərt, amansız münasibət türk və müsəlman xalqlara, onlar arasında isə Azərbaycan türklərinə qarşı olmuşdur. Çünki Azərbaycan bəşəri sivilizasiyanın beşiklərindən biri, türklər onun avtoxoton əhalisi idi. Qafqazın - Azərbaycanın türk ocağı kimi etiraf olunması Rus imperiyasının geopolitik siyasətinə zərbə vururdu. Odur ki, sovet tarixşünaslığı Azərbaycana tarix uydurmaq üçün akademik Ə.S.Sumbatzadənin sözləri ilə desək, uzun müddət "konsepsiya axtarışından" sonra, 1954-cü ildə "Azərbaycan tarixi"nin iki cilddə maketi hazırlandı. Lakin bu maket nəşr olunmadı. Onun islah olunub, 1961-ci ildə nəşr olunan birinci cildinin girişində 1954-cü il maketinin nəşr olunmama səbəbi haqqında yazılır ki, "həmin maket ölkəmizin elmi ictimaiyyəti tərəfindən əsasən müsbət qiymətləndirilsə də, bir sıra problem və məsələlərin işıqlandırılmasında ciddi nöqsanlara malik idi" [163,8]. "Azərbaycan tarixi"nin maketi Kremlin yerli tələbələri- tərəfindən Bakıda rusca hazırlanır, Moskvada süzgəcdən keçirildikdən sonra öncə rusca, sonra isə Azərbaycan türkcəsinə çevrilib çap olundu. "Azərbaycan tarixi"nin 1954-cü il maketi Azərbaycan SSR EA-nın müvafiq elmi müəssisələrindəki müzakirəsindən sonra SSRİ EA Tarix İnstitutu, SSRİ EA Şərqşünaslıq İnstitutu, SSRİ EA Maddi-Mədəniyyət Tarixi İnstitutu, SSRİ EA N.N.Mikluxo-Maklay adına Etnoqrafiya İnstitutu, Ukrayna SSR EA Tarix İnstitutu, Gürcüstan SSR EA İ.D.Cavahaşvili adına Tarix İnstitutu, Ermənistan SSR EA Tarix İnstitutu, SSR EA Dağıstan Filialının Tarix, Dil və Ədəbiyyat İnstitutlarında müzakirə edilmişdir. SSRİ EA-nın akademikləri İ.İ.Mints və A.M.Pankratova, SSRİ EA-nın müxbir üzvləri G.V.Xaçapuridze, A.A.Arzumanyan, K. A. Pajitnov, K.V.Trever, Ermənistan SSR EA-nın müxbir üzvü B.B.Piotrovski, Tacikistan SSR EA-nın müxbir üz-





vü İ.S.Brakinski, tarix elmlər doktorları V.İ.Avdıyev, B.N.Zaxoder, B.B.Kafenqauz, M.O.Kosven, P.B.Mosesov, İ.İ.Petruşevski, N.A.Sımirnov, S.L.Utçenko, A.V.Fadayev, O.N.Çaadayeva və başqa imperiya səlahiyyətlilərinin nəzarəti və redaktəsi altında 1956-1957-ci illərdə təkmilləşdiriləndən sonra, onun birinci cildi 1958-ci ildə rus dılində çap olunduqdan sonra, Azərbaycan türkcəsinə tərcümə edilib 1961-ci ildə nəşr olundu. Yazılan "Azərbaycan tarixi" 1936-cı ildə türk adı qadağan olunub, azərbaycanlı adlandırılan xalqın etnogenezində türk qəbilə və tayfalarının iştirak etmədiyini, türk olmadığını "əsaslandırmalı" idi. Odur ki, rus, erməni və gürcü tarixçilərinin sərəncamına verilmiş "Azərbaycan tarixi"nin 1954-cü il maketindən Azərbaycan xalqının etnogenez mərhələsində ki, türk elementləri maketdən təmizləndi, aşağıda iqtibas edəcəyimiz fikir tamamilə çıxarıldı. Maketdə deyilirdi: "Midiyalıların tayfalararası dillərindən birinin əsasını azəri dili kimi məşhur olmuş qədim azərbaycanlıların dili təşkil edirdi... Azərbaycan xalqının yaranması digər etnik qruplardan izolə olunmuş halda baş vermirdi. Azərbaycandakı tarixi proseslərin gedişində yerli əhali tərəfindən assimilyasiya olunmuş və oturaqlaşmış müxtəlif etnik qruplar yarandı. Bunların içərisində e.ə. I minilliyin sonlarında Azərbaycana daxil olmuş türkdilli tayfalar da çox idi" (354, 33-34) "Azərbaycan tarixi"nin 1961-i ildə nəşr olunan 1-ci cildində mənbələrin ziddinə olaraq eradan əvvəlki dövrə aid Azərbaycanda türk qəbilə və tayfalarından bəhs olunmur. Midiyanın etnik tərkibi və dili haqda isə 1954-cü il maketindən tamamilə fərqli olaraq yazılır: "Miladdan əvvəl V əsrdə yaşamış Herodot yazır ki, Midiyalılar vaxtı ilə 6 tayfaya bölünmüşdülər. Bunlar buslardan, paretakenlərdən, struxatlardan, arizontlardan, budilərdən və maqlardan ibarət idi... Midiya tayfaları İran dilli tayfalar deyildilər, yalnız sonralar onlar iranlaşdırılmağa məruz qalmışdılar... Sonralar Midiyalılar farsların sakin olduqları vilayətə - İrana da hakim oldular.

Kiaksar (miladdan əvvəl 625-584-cü illər) və onun oğlu

Fraortın hakimiyyəti dövründə Midiyalılar Mannanı özlərinə tabe etdilər. Manna dövləti süqut etdi. Bundan sonra ümumi "Midiyalılar" məfhumu Azərbaycanın cənub hissəsində yaşayan mannalıları və başqa tayfaları da əhatə etdilər" [163, 50]. Kitabda Midiya dövlətinin ərazisi, sərhədləri haqqında yazılır:

"Midiya qədim Şərqin ən qüdrətli dövləti oldu. Onun sərhədləri qərbdə - Kiçik Asiyada Qalis (Qızıl İrmak) çayına, şərqdə Gilmənd çayına, cənubda - İran körfəzinə və şimalda - Araz çayına qədər uzanırdı. Bu ərazidə müxtəlif dillərdə danışan çoxlu tayfa və xalq yaşayırdı" [163. 51]. Midiya dövləti, e.ə. 612-ci ildə yeni Babılistan çarlığı ilə ittifaqda Assuriyanın paytaxtı Ninəvanı, e.ə. 605-ci ildə Assuriyanın son istinadgahı olan Karexmiş qalasını tutdular. Bunun ardınca Urartunun paytaxtı Tuşpanı tutmaqla süqut etdirdi. Skif çarlığını e.ə. 585-ci ildə, bunun ardınca Lidiyanı tutaraq böyük imperiyaya çevrildi. [48,121-122]

E.ə. 550-ci ildə saray çevrilişi ilə fars əhəməni sülaləsi Midiyada hakimiyyəti ələ keçirir. e.ə. 331-ci ilə kimi Midiya fars Əhəməni sülaləsinin hakimiyyəti altında qalır. E.ə. 331-ci ildə Əhəməni sülaləsinin Qavqamel döyüşündə Makedoniyalı İsgəndərə məğlub olub Əhəməni dövləti süqut etdiyi ildə "Azərbaycan tarixi"nin birinci cildində Midiyalıların etnik tərkibi haqqında məlumatda deyilir: "Döyüş zamanı Midiyalılar Əhəməni qoşunlarının sağ cinahında dururdular. Miladın II əsrində yaşamış yunan tarixçısi Flavi Arrianın yazdığına görə, "Midiyalılarla birlikdə kadusilər, albanlar və sakezinlər var idi". Döyüş zamanı albanlar başqaları ilə birlikdə "İsgəndərin özünün və çar dəstəsinin qarşısına" çıxarılmışdılar. Kadusilər gözəl dağ qoşunları kimi şöhrət qazanmışdılar. Miladın XII əsrində yaşamış yunan tarixçisi Evstafi, antik müəlliflərin məlumatlarına əsaslanaraq yazır ki, kadusilər "qayalar üzərində böyük çevikliklə gəzən, yaylardan əla ox atandılar... döyüşlərdə piyadalar süvarilərdən geri qalmırdılar". Miladdan əvvəl I əsrdə və miladın I əsrində yaşamış yunan çoğrafiyaşünası Strabon, onları ən yaxşı nizə atan adlandırır. Həmin döyüşdə Əhəmənilərin ordusunda kaspilər də iştirak edirdilər" [163, 56-57].





Bütün mənbə və tədqiqatlar Midiyalıların maddi və mənəvi mədəniyyətinin bütün çalarları ilə farslardan fərqləndiyini və mədəni cəhətdən onlardan üstün olduğunu, farsların Midiyalılardan mədəniyyət əxz etməsi haqqında məlumat verir. Əhəməni əsarəti dövründə Midiyalıların etnik özünəməxsusluqlarını, adət-ənənələrini yaşadıb inkişaf etdirdiklərini yuxarıdakı məlumatlar, digər mənbə və tədqiqatlar da təsdiq edir. Midiyalıların mədəni üstünlüyünün nəticəsi idi ki, Əhəməni sülaləsinin süqutu ilə farslar müstəmləkəyə çevrildiyi halda, Midiyalılar müstəqilliyə nail olub dövlətlərini qurur, azad milli inkişaf yolu keçirirlər. Etnomədəni inkişaf prosesində ölkənin və etnosun adında dəyişiklik yaranır. Midiya adından Atropatena adına keçilir. Burada etnomədəni proses haqqında "Azərbaycan tarixi"nin birinci cildi yazır: "Ölkənin daxili inkişafının qanuna uyğunluğu nəticəsi olaraq meydana çıxmış və iki yüz ildən artıq yaşamış Atropaten dövləti Azərbaycan ərazisində xalqın təşəkkülünü sürətləndirmişdi. Miladdan əvvəl VII-VI əsrlərdə bir sıra qeyri Midiyalı tayfaları və Şərq xalqlarını öz hakimiyyəti altında birləşdirən Midiya dövlətindən fərqli olaraq, Atropatena dövləti, əsasən, müasir azərbaycanlıların əsil əcdadlarından birini təşkil edən yerli əhalinin sakin olduğu ərazini əhatə edirdi. Yeni dövlət həm də Atropaten xalqının təşəkkülü üçün əlverişli zəmin yaradan siyasi vəhdətə və hələ zəif iqtisadi əlaqələrə malik idi.

Atropaten xalqının yaranması prosesində onun dili də formalaşırdı. Bu dil çox güman ki, sonralar azəri adlanan dildir. O, fars dilindən çox fərqlənirdi və talışların dilinə daha yaxın idi.

Beləliklə, hələ miladdan çox əvvəl Azərbaycanda gələcək Azərbaycan xalqının özəyi - tarixən daimi ərazisi, öz dili, müəyyən mədəniyyət vəhdəti və nisbətən zəif iqtisadi əlaqələri olan Atropaten xalqı təşəkkül tapmışdı. Hər bir xalqın vacib nışanəsi olan ümumi cəmləşdirici ad - "atropatenlilər" adı da mövcud idi

ki, qonşuları da onları bu adla tanıyırdılar" [163, 63].

"Azərbaycan tarixi"nin 1954-cü il 1-ci cildinin maketindəki e.ə. I minillikdə Midiyada çoxlu türkdilli tayfaların yaşaması və "Midiyalıların tayfalararası dillərindən birinin əsasını azəri dili kimi məşhur olmuş qədim azərbaycanlıların dili təşkil edirdi" fikirləri "Azərbaycan tarixi"nin 1-ci cildi 1961-ci il nəşrinə daxil edilməmişdir. Bu nəşrdə atropaten xalqının və dövlətinin irandilli olmayan "yerli əhalidən" formalaşdığı və dilinin də azəri adlandığı göstərilir [169, 50, 63].

Maraqlıdır, "Azərbaycan tarixi"nin 1954-cü il maketində azəri dili yerli Midiya tayfalarından birinin ümumünsiyyət vasitəsi kimi məşhur olan dili olduğu göstərildıyi halda, Midiyalıların birbaşa varisləri, hələ ikili - Midiya və atropatena etnonimi ilə tanınan, yaşayan xalqın azəri adlanan dili haqqında deyilir: "Bu dil çox güman ki, sonralar azəri adlanan dildir. O, fars dilindən çox fərqlənirdi və talışların dilinə çox yaxın idi". "Azərbaycan tarixi"nin 1-ci cildi 1961-ci il nəşrində Midiyalıların irandilli olmadığı xüsusi vurğulanır [163, 50]. Atropatenalıların məhz yerli irandilli olmayan Midiya tayfaların etnokonsolidasiyası prosesində formalaşdığı göstərildiyi halda, Midiyalıların atropatenalı kimi etnokonsolidasiyasında ümumünsiyyət vasitəsi olan azəri dilinin iran sistemli dil olması "çox güman" edilir. Başlanğıcda bütünlüklə gümana əsaslanan bu fikir sonda heç bir dəlil, sübut gətirilmədən azəri dili "fars dilindən çox fərqlənirdi və talışların dilinə daha yaxın idi" hökmü verilir.[161, 63] Sosial-siyasi inkişafın ilk dövlət quruculuğu mərhələsində, natural təsərrüfatın hökmranlığı, kütləvi təhsilin olmadığı şəraitdə çox böyük say üstünlüyünə malik olmadan bir etnosun digərini assimilyasiya etməsi mümkün deyil.

"Azərbaycan tarixi"nin 1-ci cildinin 1961-ci il nəşrinin və bu dövrə aid digər mənbə və tədqiqatlardan göründüyü kimi Midiyalılar əhəməni əsarəti dövründə etnomədəni, ideoloji və dil assimilyasiyasına məruz qalmadı, özünün bütün milli xüsusiyyətlərini qoruyub saxladı və inkişaf etdirdi. Onun ümumünsiyyət vasitəsi azəri adlanan dili vardı. Bunu "Azərbaycan tarixi"nin 1-ci cildi 1954-cü il maketindən əlavə çoxsaylı mənbə və tədqiqatlar da təsdiq edir. Yerli azəri dili varisliyi itirmədən, assimilyasiya olunmadan burada ikinci iran sistemli azəri dilinin yaranması mümkün deyil. Mənbə və tədqiqatlardan göründüyü kimi, azəri dili qeyri-iran dilli yerli türk dilidir.





Yuxarıda "Azərbaycan tarixi"nin 1-ci cild 1961-ci il nəşrində etnik tərkib, dil mənsubiyyəti və etnik proseslər haqqında verilən məlumatlarla nəticələr ziddiyyət təşkil edir. Atropaten xalqının Midiyanın əsasını təşkil edən, aborigen qeyri-irandilli yerli tayfaların konsolidasiyasından yarandığı göstərildiyi halda, dillərinin İran sistemli olması yazılır.

"Azərbaycan tarixi"nin 1-ci cild 1961-ci il nəşrinin konsepsiya yaradıcılarının ixtirasına görə Atropatena dövlətinin varlığı dövründə atropatenanın yerli qeyri-iran dilli tayfalarının birləşməsindən yaranan atropatena xalqının dili iran sistemli azəri dili yarandı. Bu dil "XIII əsrdə türk dilində danışan köçəri tayfanın buraya gələn güclü dalğası azəri, aran və başqa dillərin sıxışdırılması və Azərbaycan dilinin tamamilə qələbə çalması üçün şərait yaratdı. Bütün Azərbaycan əhalisi üçün anlaşılan və ümumi danışıq dili olan Azərbaycan dili türk dilləri sisteminə daxildir. Bu zamandan azəri dili öz əhəmiyyətini itirməyə başlayır və monqol hakimiyyətinin sonlarına yaxın bu termin özü belə aradan çıxır" [163, 188]. “Konsepsiya” müəllifləri daha sonra yazır: "Beləliklə, bir çox başqa xalqların tarixində olmuş hadisə - yerli əhalinin dilinin gəlmələrin dili ilə əvəz olunması Azərbaycanda da baş vermişdi. Bir çox müasir Şərq xalqları öz əcdadlarının danışdıqları dildə danışmırlar. Orta Asiyada xarazmlilər, soqoliyalılar, baktiryalılar və parfiyalıların İran dilləri türk dilləri ilə əvəz olunduğu kimi, Azərbaycanda da yerli dilləri Azərbaycan dili əvəz etmişdi" [163, 188-189]. Maraqlı məntiqdir: "Azərbaycanda da yerli dilləri Azərbaycan dili əvəz etmişdi".

"Lakin dillərin dəyişməsi heç də yerli əhalinin sıxışdırılması demək deyildi. Buna görə də müasir xalqlar öz ölkələrinin qədim əhalisinin bilavasitə nəsilləri olub, onların mədəni, tarixi və antrapoloji xüsusiyyətlərini indiyədək saxlamaqdadırlar" [163, 189]. Dünya xalqlarının tarixində çoxsaylı faktlar göstərir ki, xalqların mədəniyyət dəyişməsi həmişə dil dəyişməsi və ya əksinə dil dəyişməsi mədəniyyət dəyişməsi ilə paralel gedir. Yuxarıda göstərildiyi kimi Azərbaycan xalqı ilkin "mədəni, tarixi və antropoloji xüsusiyyətlərini indiyədək saxlamışdırsa", deməli, onun həyatında heç bir dil dəyişməsi baş verməmişdir, azəri dili yerli türk dili olaraq ən qədimdən Azərbaycan türklərinin doğma ümumünsiyyət dili olmuşdur. Tarixi faktların müqayisəli təhlili göstərir ki, Azərbaycan xalqının etnik tarixi bilərəkdən, qəsdən saxtalaşdırılır, Rus imperiyasının geopolitik siyasətinə xidmət etməsi və etnik proseslərə təsir imkanı yaratmaq məqsədilə subyektiv konsepsiyalarla yazılır və şüurlara yeridilirdi.

Sovet imperiyası əsarət altına aldığı xalqların adət-ənənəsini, milli və dini bayramlarını qadağan edib, ruslarla bir kökdən olması haqqında fikirləri onların şüuruna, yaddaşına yeritməklə xalqların şüurundan biz və onlar fərqləndirməsini, milli psixologiya və ideyaları sıxışdırıb çıxarırdılar.

Kommunist Rus imperiyası təhsili, elm və dövlət idarələrinin dilini kütləvi ruslaşdırmaq, rus qadınları ilə qarışıq nikahlar qurdurmaq, mətbuat, radio, televiziya, kütləvi informasiya vasitələri, ictimai-siyasi tədbirlər, dövlət bayramları (əslində dövlət bayramları milli-rus bayramları idi - X.X.) və s. tədbir, üsul və vasitələrlə əsarət altına alınmış xalqları zorakı surətdə assimilyasiya etməyə cəhd göstərirdi. Azsaylı xalqları, etnik qrupları zorakı surətdə assimilyasiya etsə də, milli-mənəvi strukturları tarixən formalaşmış və möhkəmlənmiş etnoslar ruslaşdırmaya ciddi müqavimət göstərirdilər. Tarix elmi Rus imperiyasının başlıca assimilyasiya silahı olduğu kimi, həm də əsarət altına alınmış xalqların başlıca milli müqavimət silahı idi. Moskva əsarət altına alınmış xalqlara nə qədər tarixi konsepsiya istehsal etsə də, onlar qısa ömürlü olurdu. Rus imperiyasında və xaricdə aşkarlanan və nəşr olunan mənbə və arxiv materialları, yeni tədqiqatlar dil tarixi ilə bağlı araşdırmalar xalqların etnogenezi və etnik tarixi haqqında Moskvanın uydurduğu konsepsiyalara şübhə yaradır və ona öldürücü zərbə vururdu.





Sovet mətbuata nəzarət idarəsi imperiyanın Oktyabr çevrilişindən sonrakı tarixinin standart konsepsiyada aparılmasına nəzarət edə bilsə də, ondan əvvəlki dövrün tarixini standart qəlibə sala bilmirdi. Çünki əvvəlcədən, nəyin qadağan olunmasını, nəyin nəşr olunmasına icazə verilməsini müəyyən etmək mümkün deyildi. İmperiyanın ideoloq tarixçilərinin hökmü dil tarixinə çatmırdı. Onlar epiqrafik abidələri müvəqqəti uydursalar da, qısa müddətdə ölkə və dünya dilçiləri qarşısında məğlub olurdular. Sovet tarixşünaslığı və dilçiliyində ardıcıl gedən bu proses Azərbaycanı da əhatə edirdi.

"Azərbaycan tarixi"nin 1961-ci il akademik nəşrində etnogenez terminindən bircə dəfə də olsun istifadə olunmaması imperiyanın planlı məqsədi idi. Çünki, termin ictimai şüurda problemə ardıcıl reaksiya doğuracaqdı. Azərbaycan tarixşünaslığında etnogenez terminindən ilk dəfə Mingəçevir qazıntıları zamanı aşkar olunmuş insan qalıqlarının tədqiqi zamanı, 1960-cı ildə R. Qasımova istifadə etmişdir. Onun bundan sonrakı məqalə və kitablarında etnogenez problemindən bəhs olunsa da, az tirajlı idi və, xüsusi mütəxəssis qrupu üçün nəşr olunduğundan geniş oxucu kütləsini əhatə etmir və ictimai fikirdə kütləviləşə bilmirdi.

"Azərbaycan tarixi"nin 1-ci cildinin akademik nəşrindən bir neçə il sonra, 1965-ci ildə akademik Z.Bünyadovun nəşr olunan "Azərbaycan VII-IX əsrlərdə" (rusca) monoqrafiyası Azərbaycan türklərinin tarixinə elmi, obyektiv baxışın bərpa olunmasında inqilabi hadisə oldu. Əsərdə Azərbaycan xalqının etnogenezinə xüsusi paraqraf ayrılmış, Azərbaycan xalqının al-

ban etnik birliyinə daxil olan "türk aborigenləri" ilə digər türk qəbilə və tayfalarının etnokonsolidasiyası prosesində formalaşması, yaranması antropoloji arxeoloji, etnoqrafik, materiallar və yazılı mənbələr əsasında sübut edilirdi. Problem birmənalı, qəti, "Azərbaycan - qədimdən türklərin yaşadığı ölkədir" - kimi cavabını tapdı [171, 162-174]. Z.Bünyadovun bu elmi müddəası 1970-ci ildə nəşr olunan Azərbaycan Sovet Ensiklopediyasının I cildində dilçilərdən Ə.Dəmirçizadə və tarixçi Y.Yusifov tərəfindən daha ətraflı əsaslandırıldı və inkişaf etdirildi [367, 111-135, 176-178]. İkinci Dünya müharibəsinə qədər sovet imperiyasında Sovet İttifaqı qəhrəmanları güllələnsə də, müharibədən sonra belə hadisə baş verməmişdi. Odur ki, Z. Bünyadov ciddi təqib olundu, əsər müsadirə edilib məhv edildi. AKP MK-nın 1971-ci il oktyabr plenumunun qərarı ilə ASE-nin birinci cildi məhv edildi, baş redaktoru R.Rza vəzifəsindən azad edilib təqiblərə məruz qaldı. AKP MK-nın 1971-ci il oktyabr plenumu türk etnonimi və milli adət-ənənədən bəhs edilməsini "millətçilik", "milli məhdudluq"adlandırıb "millətçiliyin və milli məhdudluğun hər-hansı təzahürünə qarşı hücumçu mübarizə aparıl"masını bir vəzifə olaraq irəli sürdü. Yaradıcılığında millilik duyulan bir qrup yazıçı, şair, musiqiçi, tarixçi, alim, jurnalist təqiblərə məruz qaldı [368]. Milli tarixin obyektiv yazılması istiqamətindəki bu ilk təşəbbüslər məhv edildi. Z. Bünyadovun adıçəkilən əsəri yalnız, 1989-cu ildə Azərbaycan türkcəsinə çevrilib nəşr oluna bildi. Qazax şairi və siyasi xadımi O. Süleymanovun 1975-ci ildə nəşr olunan "Az-Ya" əsəri türk xalqlarının tarixinə qarşı kommunist Rus imperiyasının monopoliyasına, təxribatlarına ağır zərbə vurdu. Elə bu illərdə Çinin SSRİ-yə ərazi iddiaları Rus imperiyasını türkoloji tədqiqatları məhdudlaşdırmaq, türk tarixinə hind-avropa calağı vurmaq siyasətində güzəştə getməyə məcbur etdi. 1972-ci ildə "Sovetskaya türkologiya" jurnalının türk ocağı Bakıda nəşrə başlaması bu sahədə geniş elmi polemikaya meydan verdi. Kommunist qəddarlığı ilə pozulmuş milli türk şüurunun bərpası və yenidən canlanmasına, türk xalqlarının etnogenezi və etnik tarixi haqqında tarixi qaynaqların, obyektiv bilgilərin aşkarlanmasına imkan verdi.





Moskvanın Azərbaycan türklərinin etnogenezi haqqında uydurma konsepsiyası Azərbaycan tarixşünaslığında hökm sürdüyü bütün dövrlərdə Azərbaycan dilçiliyində türklərin Qafqazın aborigen xalqı olması birmənalı ifadə olunurdu. Belə əsərlərin müəllifi Ə. Dəmirçizadə idi. 1951-ci ildə Moskvanın göstərişi ilə Azərbaycan Kommunist Partıyası tərəfindən "Kitabi-Dədə Qorqud" dastanı "soyğunçuluğu" tərənnüm edən, "qardaş gürcü və erməni xalqına qarşı" millətçılik təbliğ edən əsər kimi qadağan olunanda, "Kitabi-Dədə Qorqud" dastanı sahəsində tədqiqat aparmış bir çox alimlər yaradıcılıqlarından imtina etdikləri halda, Həmid Araslı və Əbdüləzəl Dəmirçizadə olumla ölüm arasında yaşasalar da, hakimiyyətin hədələri qarşısında geri çəkilmədilər, "Dədə Qorqud" əleyhinə bircə söz də yazmadılar!" [352, 27]. Ə. Dəmirçizadənin "Azəri ədəbi dili tarixi" (B., 1967), "Azərbaycan ədəbi dilinin tarixi" (1-ci cild, B., 1979) adlı dərsliklərində Azərbaycan türkcəsinin aborigen türk qəbilə və tayfalarının dili ilə sakların dilinin konsolidasiyasından yarandığı elmi dəlillərlə əsaslandırılırdı. XX əsrin 70-ci illərində elmdə ilk sözlərini deyən Tofiq Hacıyevin "Azərbaycan ədəbi dili tarixi" (B., 1976) əsərini isə Azərbaycan milli-azadlıq hərəkatının lideri Ə. Elçibəy Azərbaycanda xalqın milli türk ruhunu özünə qaytaran ən güclü ideoloji əsər hesab edirdi. Onun sözlərinə görə, T. Hacıyevin özünün sonradan yazdığı əsərlər də daxil olmaqla Sovet imperiyasının əsarəti illərində bu əsər səviyyədə Azərbaycanda türk ruhunu canlandıran ikinci bir əsər yaranmamışdı. Bu illərdə milli ruhun canlanması bədii ədəbiyyatda, incəsənətdə, jurnalistikada da hiss olunurdu. Sovet tarixşünaslığında Azərbaycan tarixinin saxtalaşdırılması nəinki elmi işçilərin, adi vətəndaşların da diqqətini cəlb edirdi. Artıq bu dövrdə zəif də olsa, Azər-

baycan sovet tarixçiləri arasında milli tarixçilər nəsli yaranmaqda idi. Azərbaycan tarixçilərinin bu nəslinin yetişməsinə AMEA-nın müxbir üzvü Mahmud İsmayılov rəhbərlik edirdi. 1984-cü ilin aprel ayında onun rəhbərliyi ilə Tarix İnstitutunda "Azərbaycan xalqının etnogenezi haqqında" elmi seminar keçirildi. Tarixçılərdən S.Əliyarov, K.Əliyev, antropoloq R.Qasımova, etnoqraf Q.Qeybullayev və arxeoloq R.Göyüşovun Azərbaycan xalqının etnogenezi haqqında məruzələri dinlənildi. R.Qasımovanın məruzəsi istisna olmaqla, digər məruzələrin elmi-nəzəri səviyyəsinin aşağı olması diqqəti dərhal cəlb etdi. Məruzələrin zəif olması obyektiv və təbii idi. Z.Bünyadovun yuxarıda bəhs olunan əsərindəki bir paraqraf istisna olmaqla, Azərbaycan tarixşünaslığında etnogenez anlayışı altında bir dənə də olsun xüsusi tədqiqat aparılmamış, bir dənə də olsun məqalə yazılmamışdı. Beləliklə, etnogenez problemi 1984-cü ildə milli qüvvələrin səyi nəticəsində Azərbaycan tarixşünaslığının tədqiqat obyektinə çevrildi. Bu zaman Kremlin yerli canişini, Tarix İnstitutunun direktoru İ.Əliyev Moskva mətbuatında çıxış edərək milli tarixçıləri "pantürkist", "mürtəce burjua millətçi cərəyan tərəfdarları" və s. 1937-ci il möhürləri ilə damğaladı və böhtanladı. İ.Əliyev guya yuxarıda haqqında bəhs olunan "Azərbaycan tarixi"nin 1-ci cildinin konsepsiyasını yaradanlardan biri idi. Yaradıcılığı ilə tanışlıqdan aydın olur ki, əslində onun heç bir konsepsiyası olmamışdır. O, yaradıcılığa başlayanda Midiya dilini türk sistemli dil hesab etmiş, sonra bu fikrindən imtina etmişdir. Əvvəllər irandilli tayfaların Azərbaycana Orta Asiyadan gəlməsi fikrini təbliğ etmiş, sonradan bu fikrindən də əl çəkib, irandilli tayfaların Azərbaycana Rusiya düzənliyindən gəldiyini yazmışdır. Son əsərlərində bu fikirlərindən də üz döndərib, Alban dilinin Qafqaz mənşəli olması, xüsusən Qarabağın yerli əhalisinin qafqazdilli udinlər olması ideyasını canfəşanlıqla təbliğ etməkdə idi. Halbuki "...Kür-Araz çaylararası ərazidə bircə dənə də olsa, Qafqaz dilləri və o cümlədən, udin dili vasitəsilə





izah oluna bilən qədim toponim yoxdur». Onun Azərbaycan xalqının mənşəyi haqqında yazdıqları "praşeklərin, xuzinqlərin, hersfeldlərin, şvarasların, qrantovskilərin, novoseltseklərin, şanidzelərin, yeremyanların və başqalarının təkrarından başqa bir şey deyildir [81, 12; 165]. İ.Əliyevin böhtan kompaniyası sovet şər maşınını təkrar işə sala bilmədi. 1985-ci ildə sovet imperiyası rəhbərliyinin yeni siyasi xətti sovet tarixşünaslığının süni konsepsiyaları zorakı müdafiədən imtina etdi. Tarixi həqiqətlərin deyilməsinə zaman yol açdı. Elə bu vaxtdan Azərbaycan tarixşünaslığında iki cərəyanın açıq mübarizəsi başladı. Birinci cərəyan sovet imperiyası zamanı yaranmış tarixi konsepsiyaları müdafiə edənlər və bu cərəyanın lideri İ. Əliyev idi. İkinci cərəyan isə milli vətənpərvər qüvvələr idi, bu cərəyanın lideri isə M.İsmayılov idi. Onun dünyasını dəyişməsindən sonra bu cərəyana Q.Qeybullayev liderlik etdi.

Bu dövrdə Azərbaycan xalqının etnogenez probleminin elmi müzakirələri milli tarixi yaddaşı bərpa etməklə istiqlal ideologiyasını canlandırır, milli mənlik şüuru, qürur və ləyaqət hissi doğurmaqla problemin müzakirələrinə çoxlu ziyalı və gəncləri cəlb edirdi. Problemə aid yeni-yeni əsərlər yazılırdı. Azərbaycan xalqının etnogenez probleminin elmi ideologiya olaraq hazırlanmasında M.İsmayılov, Q.Qeybullayev, R.Qasımova, T.Hacıyev, Y.Yusifov, S.Əliyarov, M.Seyidov, F.Zeynalov, A. Məmmədov, V.Aslanov, E.Əlıbəyzadə, Q.Voroşil, F.Cəlılov, Ə.Haqverdıyev, gənc alim və aspırantlardan Ə.Tahirzadə, A.Rəhimov, R.Əhmədov, A.Balayev, İ.Qəmbər, X.Xəlilli, Ə.Əsgər, M.Kazımoğlu, S.Kərımov, A.Acalov və b., jurnalistlərdən Ə. Fərzəli və başqalarının xüsusi əməyi olmuşdur. Tarix elmlər doktoru, professor Ə. Cəfərovun "İnsanlığın səhəri" (B., 1994) əsərində Azərbaycan xalqının etnogenezi haqqında əsaslı elmi fikirlər söylənmişdir. Filologiya elmlər doktoru, professor Q.Kazımovun "Azərbaycan dilinin tarixi" (B., 2003) monoqrafiyası etnogenez problemi sahəsində uğurlu tədqiqatlardandır.

1984-2004-cü illərdə Azərbaycanda etnogenez problemi sahəsində nəşr olunmuş əsərlərin müqayisəli elmi təhlili tarixçılərdən Q.Qeybullayev, R.Qasımova, Y.Yusifov və dilçilərdən T.Hacıyevin yaradıcılığında elmi konsepsiya səviyyəsinə yüksəldiyini deməyə imkan verir. Lakin onların əsərlərində də problemin - etnogenezin öyrənilməsi üçün əsas olan bütün elm sahələrinin məlumat və nəticələrindən kompleks istifadə olunmamışdı.

Dünya etnoqrafİya elmində etnogenez, etnik proseslər, etnik tarix problemi haqqında obyektiv elmi fikir mövcuddur. Sadəcə olaraq dövlətlər, siyasətçilər, tarixçilər bu elmi nəticələrdən siyasi məqsədlər üçün istifadə etməklə onu saxtalaşdırırlar, xalqlarda etnogenezi haqqında aydın təsəvvür yaranmasına imkan vermirlər. Çünki etnogenezi haqqında aydın təsəvvürü olmayan xalqda milli kimlik şüuru, onun doğurduğu milli qürur, ləyaqət və s. hisslər yarana bilmir. Kommunist Rus imperiyasının Azərbaycan türklərinin etnogenezinin xüsusi tədqiqat obyekti olaraq öyrənilməsinə imkan verməməsinin, onu daim saxtalaşdırmasının da səbəbi elə bu idi.

Etnogenez etnosun inkişafının elə bir mərhələsidir ki, bu mərhələdə o, özünəməxsus bütün əxlaqi-mənəvi dəyərlər sistemini, milli simasını və adını, onu başqalarından fərqləndirən mental xüsusiyyətləri yaradır. Etnogenez prosesində yaranan milli sıma, mənəvi dəyərlər sistemi ilə başqalarından fərqlənən xüsusiyyətləri ilə milli adı altında varlığını davam etdirir. Hər bir xalq etnogenez mərhələsində qazanılmış milli simanın, mənəvi dəyərlər sisteminin pozulması ilə etnos yaşamaq qabiliyyətini, mənəvi gücünü itirir, parçalanıb başqa xalqlar arasında əriyib yox olur. Bütün imperialist dövlətlər əsarət altına aldıqları və əsarət altına almağı planlaşdırdıqları xalqların öz etnogenezi, etnik tarixi, ümumiyyətlə, etnik proseslərin obyektiv qanunauyğunluqları, onların iqtisadi, siyasi, dini, ideoloji, mədəni, psixoloji vasitələrlə məqsədyönlü istiqamətləndirilməsi üsullarını öyrənməyə, bilməyə imkan vermirlər. XX əsrdə dünyada etnik proseslər əvvəl-





ki dövrlərlə müqayisədə qat-qat sürətlənmişdisə, XXI əsr sanki xalqları, millətləri udur, yeyir. Xüsusilə, Azərbaycan xalqı kimi əsarətdən yenicə qurtulmuş yorğun, zəif, kosmopolit, tarixləri və tarixi qanunauyğunluqlar haqqında aydın, elmi biliyə malik olmayan xalqları. Odur ki, varlığını qorumaq, yaşamaq istəyən xalqların etnogenezləri, milli inkişafın qanunauyğunluqları haqqında maariflənməsinə zərurət vardır.

Hər kəs bilməlidir ki, xalqın tarixi onun hissi, ruhu, düşüncəsi, təfəkkürü və məntiqidir. Bunsuz heç bir xalq mənəvi, elmi, sosial-siyasi yaradıcılıq və xarici mədəni-mənəvi təsirlərə müqavimət göstərə bilmir. Başqa xalqlara həsəd aparır, onlara bənzəməyə çalışır, tədricən onlara qovuşur, xalq olaraq tarixin səhnəsindən silinir, ancaq onun yaddaşında xatırlanır.

Hazırda etnogenez problemi haqqında tarix elmində iki nəzəriyyə mövcuddur. L.N.Qumilevin nəzəriyyəsinə görə, etnosun meydana çıxmasından - doğulub, inkişaf edib, nəhayət qocalıb və müxtəlif səbəblərdən parçalanıb məhv olmasına qədər olan dövr etnogenez mərhələsi adlanır. İkinci nəzəriyyəyə görə etnosun etnik simasının formalaşıb özünəməxsus milli sımaya malik etnos kimi meydana çıxmasına qədərki mərhələ etnogenez, onun başqa etnoslarla təmasda, onlara mədəni təsir göstərmə və onlardan mədəni təsirlənmə prosesində etnik simasını qoruyub saxlayaraq yaşadığı dövr etnik tarix mərhələsi ilə ifadə olunur. Biz tədqiqatımızda ikinci nəzəriyyəni əsas götürmüşük.

Sovet tarixşünaslığının Azərbaycanda etnosid siyasətinin həyata keçirilməsi konsepsiyasına qarşı mübarizə aparan, Azərbaycan türklərinin etnogenezinə aydınlıq gətirməklə onun tarixi milli yaddaşını bərpa etmək uğrunda mübarizə aparan ziyalı nəsli Azərbaycan türklərinin milli-azadlıq hərəkatının ideoloji əsaslarını yaratmaqda yetərincə iş gördülər. Bu illərdə onların etnoqrafİya, etnik tarix, milli psixologiya, arxeologiya, antropologiya, mədəniyyətşünaslıq, dilçilik, folklorşünaslıq, coğrafiya, genetika və s. elm sahələrində apardıqları tədqiqatlar

Azərbaycan türklərinin etnogenezi və etnik tarixi haqqında kompleks elmi baxışla ümumiləşmiş əsər yazmaq təşəbbüsü göstərmək üçün yetərlidir. Oxucuya təqdim olunan əsər bu sahədə ilk təşəbbüs olduğundan qüsur və çatışmazlığın olacağı təbiidir. Müəllif əsərdəki çatışmazlığın aradan qaldırılması üçün ona obyektiv tənqid, mülahizə və təklifləri ilə kömək edəcək oxuculara əvvəlcədən təşəkkürünü bildirir.





# I FƏSİL

## AZƏRBAYCAN ƏRAZİSİNDƏ BİOLOJİ VARLIĞIN İNSAN KİMİ TƏŞƏKKÜLÜ VƏ ETNOGENEZİN İLKİN MƏRHƏLƏSİ

Bəşəri sivilizasiyanın ilkin ocaqlarından biri olan Azərbaycanın cənub sərhədləri Ümman dənizi (indiki Fars körfəzi), qərbdən Kiçik Asiyanın Van hövzəsi, şimaldan Baş Qafqaz dağlarının zirvələri, şərqdən Dərbənd keçidi vasitəsilə hüdudlanırdı. Rus imperiyasının XIX əsrdə ermənilən xarici ölkələrdən gətirib məskunlaşdırdığı və 1920-ci ildən Ermənistan adlandırıb erməni dövləti yaratdığı İrəvan, Göyçə və Zəngəzur vilayətləri, Gürcüstana ilhaq edilən Borçalı, Dağıstan vasitəsilə RSFSR-ə birləşdirilən Dərbənd vilayəti Azərbaycan türklərinin etnogenezinin ilkin formalaşmasından 1920-ci ilə qədər Azərbaycan türklərinin vətəni idi. Kommunist Rus imperiyasının hakimiyyəti illərində Azərbaycan türkləri göstərilən vətənlərindən deportasiya olundu. Sovet tarixşünaslığı isə bu Azərbaycan torpaqlarını Ermənistan, Gürcüstan, Dağıstan əraziləri kimi yaddaşlara yeritdi.

Yer kürəsinin müasir formaya düşdüyü dördüncü dövr - eopleystosen, pleystosen və holosen mərhələlərini əhatə edir və milyon illərin təkamülü prosesində formalaşmışdı. Təbiətin istiləşməsi və soyuması ilə canlılar aləminin yaranması və məhv olması, bəzi canlıların miqrasiya edərək müəyyən ərazilərdə varlıqlarını davam etdirməsi, bir çox regionlarda bunun da mümkün olmaması kimi uzun bir təkamül prosesi keçmişdir. Bu proseslər eyni ilə Azərbaycanda baş vermişdir. Xəzərin suyunun qalxması və enməsi, təbiətin istiləşməsi və soyuması ilə buzlaqların yaranması və əriməsi, yeraltı qabarmalarla, dağların yüksəlməsi ilə Azərbaycanın relyef və iqlimi yeni formalar almışdır. Dördüncü dövrün son mərhələsi holosen, arxeoloji dövrlə mezolit dövründə Yer kürəsinin qlobal istiləşməsi gedir, buzlaqlar əriyir, nəhayət yer kürəsi, o cümlədən Azərbaycanın

relyef və iqlimi müasir formasını alır.

Azərbaycanın uca dağları, yüksəklikləri, düzləri, meşələri, çayları, gölləri, bulaqları, çox çeşidli mineralları, 9 iqlim tipi yaranır ki, yaşayış üçün maksimum təbii iqlim imkanına malik və təbii sərvətlərin zənginliyi ilə dünyanın heç bir ölkəsi ilə müqayisə olunmaz sivilizasiya ocağına çevrilir. Dördüncü dövrün istiləşmə və buzlaşmaları Azərbaycanın bəzi ərazilərində iqlimi, yaşayış üçün zəruri olan təbii şəraiti bütünlüklə dəyişə bilməmişdir. Ayrı-ayrı mikroiqlim zonalarında həyat fasiləsiz davam etmişdir [30; 32; 66,54-85]. Elə bu səbəbdən də paleolit dövründə Şərqi Afrika ilə bərabər Azərbaycanda - Zaqafqaziyada həyat fasiləsiz davam edir, bəşəri sivilizasiyanın ilkin ocağı funksiyasını yerinə yetirir.

Araz çayının hər iki sahilində Qarabağla Qaradağın dağlarındakı mağara və təbii sığınacaqlar, meyvəli ağaclarla zəngin meşələr və düzənlər hər iki tərəfdən axıb Araza qovuşan dağ çayları, bulaqlar, rəngarəng təbii şərait, zəngin bitki və heyvanat aləmi insanların ulu əcdadlarının burada məskunlaşması haqda düşünməyə imkan verir. Araz və Quruçay vadilərində aparılmış arxeoloji tədqiqat işləri ulu sakinlərin burada 1,5-2 milyon il bundan əvvəl məskunlaşdığını göstərir [42, 10-11]. Kür-Araz çayları arasında aparılmış kompleks tədqiqatlar sübut edir ki, üçüncü geoloji dövrün sonu dördüncü dövrün əvvəllərində burada insanın əcdadının məskən salması, yaşaması üçün hər cür şərait olmuşdur. Qarabağda Şərqi Afrika ilə birlikdə bəşəriyyətin ulu əcdadlarının mövcud olduğu əraziyə daxil olmuş və Qarabağda da insan biososial varlıq kimi təşəkkül etmişdir [39, 8-12; 40, 8-13; 41, 19-26; 42, 6-29; 47, 5].

Azərbaycan paleolit abidələri ilə zəngindir. Lakin onun ən qədim abidəsi Azıx abidəsidir. Arxeoloji tədqiqatlar Azıx mağarasında insanın ulu əcdadlarının 1,8-2 milyon il bundan əvvəl məskunlaşdığını sübut edir. Azıx arxeoloji abidəsi tapıldığı yerin adı ilə Quruçay arxeoloji mədəniyyəti adlanır. Quruçay mədəniyyətinin möhtəşəm abidəsi olan Azıx mağarasından 350 min il bundan əvvəl yaşamış 18-22 yaşlı qadının alt çənəsi tapılmışdır. Azıx paleolit düşərgəsində aparılan elmi tədqiqatlar Azərbaycan ərazisində ibtidai insanların uzun müddət yaşadıqlarını göstərirsə, Tağlar mustye düşərgəsindəki arxeoloji tədqiqatlar neondertal tipli adamların inkişaf edib müasir insanların ulu əcdadlarının bu ərazidə yaşayıb formalaşmasını elmi əsaslarla təsdiq edir [41, 44]. Quruçay mədəniyyəti paleolitin bütün mərhələlərində burada insan həyatının davam edib, təkamül prosesi keçdiyini göstərir. Əmək alətləri daim təkmilləşmiş, 700 min il əvvəl oddan istifadə olunması burada insanlığın sosiallaşması prosesinin sürətlə getdiyini göstərir. Oddan istifadə nəinki onların həyat tərzinə təsir edir, şüurunu, idrakını fəallaşdırır. Burada ibtidai icma sürüsünün formalaşması və ibtidai icma quruluşuna keçid fasiləsiz davam edir. Sürü icmasından nəsli icmaya keçid başlayır.





Azıx mağarasından aşel tikinti qalığı tapılmışdı. Ocaqdan istifadə və yaşayış binasının tikintisi bəşər tarixinin ən qədim nailiyyəti sırasına daxildir. Aşel dövründə insanlar tədricən ətraf aləmi dərk edir, ibtidai dini təsəvvürlər yaradır və sadə incəsənətlə məşğul olurdular. Azıx mağarasında xüsusi düzəldilmiş taxçalarda tapılmış ayı kəllələrindən bəzilərinin üzərində xüsusi işarələr cızılmışdı ki, bu da dini ayinlər və totemik görüşlərlə bağlı olmuşdur [39, 36-64; 42, 31-41; 48, 22]. Orta paleolit (mustye) dövründə insanların mənəvi həyatında əvvəlki dövrlərlə müqayisədə ciddi yüksəliş baş verdi. İnsanlar müxtəlif daşlardan çoxsaylı daha incə, yeni formalı əmək alətləri istehsal etdilər. Artıq onlar rəngləri, müxtəlif rəngli daşların keyfiyyət fərqini də seçə bilirdilər. Mağara ilə bərabər açıq düşərgələrdə tikdikləri komalarda da yaşayırdılar. Dəfn adətləri formalaşmışdı. Əmək alətlərinin təkmilləşməsi, əmək məhsuldarlığının yüksəlişi, nəinki zehni inkişafın yüksəlişi, sosiallaşmanı daha da sürətləndirmiş, qəbilə icması qəti formalaşmış, onun inkişafı sabit, davamlı şəkil almışdı.

Qarabağ paleolit abidələri ilə daha zəngin olmaqla bərabər, Azərbaycanın digər bölgələrində daş dövrünə aid yaşayış məskənləri, arxeoloji materiallar mövcuddur [42, 56-57; 43; 48, 19]. Bu abidələr arasında Quruçay mədəniyyəti ən qədim və xüsusi özünəməxsuslu-

ğa malikdir. Quruçay mədəniyyətini tədqiq etmiş arxeoloq M. M. Hüseynov yazır ki, maraqlı cəhətlərdən biri istehsalın inkişafında baş verən dəyişikliyin izlənilməsi ilə yanaşı Quruçay mədəniyyətinə xas olan istehsal texnikası ənənələrinin sonrakı dövrlərdə də saxlanmasının müşahidə edilməsidir. İstehsal texnikasının təkamülü heç də əvvəlki ənənənisilə bilməmişdi. Bu ənənə sonrakı dövrlərin hamısında davam etmişdir. Həmin ənənənin davamı göstərir ki, Quruçay mədəniyyəti burada inkişaf etmiş olan sonrakı mədəniyyətin əsası olmuşdur. Azərbaycanda deyil, bütün Zaqafqaziyada Quruçay mədəniyyəti qədim paleolit mədəniyyətinin özülü olmuşdur [49, 8]. Həmçinin Orta Asiya və Türkmənistanın Xəzərsahili vilayətlərinin alt paleolitinin Qafqaz və Kiçik Asiya ilə əlaqələri ehtimal olunur [139, 22]. Tarix elmləri doktoru Ə.Cəfərov apardığı müqayisəli araşdırmalar sayəsində belə nəticəyə gəlmişdir ki, "bütün Zaqafqaziya və Yaxın Şərq abidələri içərisində Tağlar mustye düşərgəsi yeganə abidədir ki, buradan tapılan əmək alətləri olduqca zəngin tarixə malikdir və eyni zamanda təbəqədən təbəqəyə yeni-yeni əmək alətlərinin yaranma xüsusiyyətlərini izləmək olur" [43, 215]. O yazır ki, "Azərbaycan orta paleolit düşərgələrinin Qafqaz və Yaxın Şərq ölkələri içərisində analogiyası və yeri müəyyən olunmuşdur. Bəzi alimlərin fikirlərinin əksinə olaraq Yaxın Şərq abidələrinin Orta Asiya abidələri ilə deyil, məhz Azərbaycan abidələri ilə əlaqəli olduğu və Tağlarda hazırlanmış əmək alətlərinin İran, İraq ərazilərində yayılması və Tağlar düşərgəsinin Şərqdə əsas düşərgə olduğu müəyyən olunmuşdu" [41, 45; 43, 216; 66, 68]. Arxeoloji tədqiqatlar göstərir ki, Orta Asiya mustye mədəniyyəti Yaxın Şərqlə əlaqəli olmuş, Orta Asiya neandertalı Yaxın Şərq neandertalı ilə təmasda ümumi mədəniyyət yaratmışlar [139, 47-49]. Dünya tarixşünaslığında bu fikrin tərəfdarları artmaqdadır.

Üst paleolit dövründə Azərbaycan ərazisində müasir insan tipinin formalaşması başa çatmış və ibtidai icma quruluşunun ilkin pilləsi yaranmışdır. Bu formalaşma paleolitin son mərhələsində yaşamış adamların əqli və fiziki cəhətdən kamilləşməsi, onların sosial obyekt kimi təşəkkülü, şüurlu birgəyaşayış qaydalarına əməl etməyə qadirliyi məhsuldar qüvvələrin inkişafı nəticəsində mümkün olmuşdur [48, 23].





Qəbilələr orta paleolitin sonlarından başlayaraq daimi yaşayış məskənləri mağaraları tərk edib açıq ərazilərdə məskunlaşmağa başlayırlar. Bu proses mezolit dövründə daha da sürətlənir. İnsanlar geniş ərazilərdə məskunlaşırlar. Qafqaz üst paleolit mədəniyyətinin Orta Asiyada geniş yayılması üst paleolit adamı Homo sapiensin Orta Asiyaya Qafqazdan getdiyini deməyə əsas verir [139, 57-58].

Mezolit dövrü öz yenilikləri ilə cəmiyyətin inkişafına, etnik inkişafa təkan verir. İnsanlar ox və yayı kəşf edirlər. Bu kəşf insanların həyat fəaliyyətini canlandırır, tələbatlarının ödənilməsi üçün yeni imkanlar açır, ovçuluq fəaliyyəti daha məhsuldar olur. Yeni əmək alətləri yaradılır və sürətlə təkmilləşir, quraşdırılmış alətlər, ox və nizə ucluqları istehsal olunur. Bu dövrdə balıq ovunda istifadə olunan qayıq nəqliyyat vasitəsi kimi də istifadə olunur [46, 51-61; 48, 24-25; 49, 16-18]. Heyvanların ilkin əhilləşməsinə başlanır. Əkinçiliyin əsası qoyulur. İqtisadi fəaliyyətin, istehsal sahələrinin yaranması ilə əmək məhsuldarlığının yüksəlməsi, yeni ərazilərdə məskunlaşma əhalinin artımını da sürətləndirir. İqtisadi sosial həyatda çoxçalarlı inkişaf başlayır. Mezolit dövrünə aid Qobustan qayaüstü rəsmləri və dəfn adətləri, meyitlərin yanına bəzək əşyaları və əmək alətlərinin qoyulması mezolit adamının dünyagörüşünün, inam və etiqadlarının formalaşması və yeniləşməsini göstərir. Orta Asiya, Türkmənistan mezolit mədəniyyəti vahid Xəzərsahili, Qafqaz və Ön Asiya mənşəlidir [139, 60]. Orta Asiya neoliti isə Xəzərsahili mezoliti zəminində yaranmışdı [139, 130]. Mezolit dövrü öz yenilikləri ilə "neolit inqilabı" adlanan yeni bir tarixi inkişaf mərhələsini hazırladı. Azərbaycanda e.ə. VII minilliyin əvvəllərində başlayan bu mərhələdə cəmiyyət əsaslı surətdə istehsal təsərrüfatına keçdi. Əhali sürətlə düzən zonaların əkinçiliyə yararlı ərazilərində məskunlaşdı, əkin və biçin alətləri kəşf etdi. Əkinçilik, onunla bərabər maldarlıq təşəkkül tapdı. Toxuculuq və gil qablar istehsalı

məişətin bütün sahələrində əsaslı dəyişikliyə şərait yaratdı. Möhrə və çiy kərpicdən hörülmüş evlərdən ibarət kəndlər salındı. Əhalinin iqtisadi təminatında ovçuluq və balıqçılıq əhəmiyyətli rol oynasa da, əkinçilik və maldarlıq iqtisadiyyatın əsasını təşkil etməyə başladı. Qəbilələrararası məhsul mübadiləsi yarandı. Beləliklə, həyat şəraitinin yüksəlişi, qəbilələrararası dinc iqtisadi münasibətlərin qurulması əhalinin artımını sürətləndirdi, etnik inkişafa təkan verdi [48, 26-27; 49, 17-18; 50, 17-18; 51, 11-12]. Neolit inqilabı fərdi və sosial şüurun inkişafına təkanverici təsir göstərdi. Xüsusilə, təbiətin dərk edilməsi və onun dəyişdirilməsinə cəsarətlə nüfuz olundu. Onlar nəinki ayrı-ayrı ərazilərdəki torpaqların əkinə yararlılıq keyfiyyətini müəyyənləşdirir, rəng və başqa əlamətlərinə görə torpaqları bir-birindən fərqləndirir, Həmçinin rəng və quruluşuna görə müxtəlif əşyalar hazırlamaq üçün torpaqların yararlılıq xüsusiyyətlərini də müəyyən edə bilirdilər. Odur ki, torpaqdan kərpic istehsal edib ev tikmək, ərzaq məhsulu ehtiyatını mühafizə etmək üçün müxtəlif formalı qablar istehsal edir, kultlarına heykəllər düzəldirdilər. Bütövlükdə əmək vasitələrinin sirlərini kəşf etməyə inadkarcasına təşəbbüs göstərirdilər. Onların bu səyləri nəticə etibarı ilə cəmiyyəti inqilabi surətdə yeniləşdirirdi. Neolit dövrünün bəhs olunan yenilikləri birinci növbədə insanların mənəvi inkişafından xəbər verir. Bu, özünü insanların təbiətin sirlərini açma bacarığında, qaya üstü rəsmlərdə və incəsənətdə göstərir. Qəbilələrin mənəvi dünyasının zənginləşməsi, adət-ənənələrin möhkəmlənməsi ilə bərabər yeniləşməsi də özünü göstərir. Ana icmanın əsası olaraq qaldığı üçün ona pərəstiş yaranır. Müqəddəslik simvolu kimi ona heykəl qoyulur. Beləliklə, əcdad kultu yaranır. Dəfn zamanı mərhumun yanına əmək əşyaları və silah qoyulması davam edir. Beləliklə, e.ə. VII minillik öz yenilikləri ilə yeni inkişaf mərhələsini hazırlayır.

İnsanların zəkası cəmiyyətin inkişafına təkan verəcək təbiətin yeni bir sirrini kəşf edir. Bu, metalın - misin kəşfi idi. E.ə. VI minilliyin başlanğıcında Azərbaycanda metalın kəşfi, ondan əmək aləti və s. məqsədlərlə istifadə edilməsi cəmiyyətin, etnik inkişafın yeni





mərhələsini qoydu. Eneolit - mis-daş dövrü adlanan bu mərhələdə insan təfəkküründə böyük irəliləyiş baş verdi. Enolit mədəniyyəti Zaqafqaziya və bütövlükdə Azərbaycanda zəngin olsa da, onun əsas mərkəzi, çoxsaylı, zəngin abidələri Qarabağdadır. Maraqlı cəhətdir ki, Qarabağın paleolit abidələri üzərində eneolit, tunc və orta əsrlər təbəqələri yaranmışdır [41, 23, 42, 57; 44, 39-61; 49, 30]. Burada insanın misi kəşf etməsi onun sadə döymə üsulu ilə 1084 dərəcə istilikdə əritməklə müxtəlif məqsədli əmək alətləri istehsal etməsi şüurda baş verən böyük yüksəlişin nəticəsi idi. Azərbaycanın ən zəngin mis yataqlarının Qarabağda, ümumən Kiçik Qafqazda yerləşməsi də regionun eneolit mədəniyyətinin mərkəzinə çevrilməsinin başlıca səbəbidir. Təsərrüfat fəaliyyətinin genişlənməsi təbii olaraq sosial-mənəvi inkişafla müşayiət olunurdu. Mislə bərabər dulus çarxının kəşf edilməsi, dəmyə əkinçiliklə bərabər suvarma əkinçiliyinin inkişafı, demək olar indiki heyvan növ və cinslərinin hamısının əhilləşdirilməsi, daimi yaşayış məskənləri, möhrə və çiy kərpicdən tikilmiş daş bünövrəli evlər insanların həyat şəraitini, güzəranını əvvəlki dövrlərlə müqayisədə yüksəldirdi. Bu da öz növbəsində əhalinin sürətli artımı ilə nəticələnirdi. Bütün bu yüksəliş etnik strukturda yeniliklər yaradır. Ailənin yeni forması, qoşa nigahlı ailələr yaranır. Ana xaqanlığını ata xaqanlıq əvəz edir. İctimai həyatda kişilərin mövqeyi möhkəmlənir. Tədricən qəbilə icmasının dağılması qohumlardan ibarət böyük ailə icmasının yaranması ilə nəticələnir. İcmanın ağsaqqallar şurası yaranır. Bütün bunlar əvvəlki dövrlərlə müqayisədə cəmiyyətin inkişafında, etnik inkişafda böyük irəliləyiş idi [44, 165-171; 48, 27-32; 49, 19-31; 50, 19-22]. Etnik inkişaf yeni mənəvi dəyərlərdə də özünü göstərirdi. Dəfn adətləri formalaşır. Ölüləri evin döşəməsinin altında, ya da evlərin arasında dəfn edirdilər. Meyitləri qırmızı oxra ilə boyayırdılar. Eneolitin son mərhələsində meyitlərin gil küplərdə dəfn olunması adəti də olmuşdur. Dini ayinlər, yağış çağırma mərasimləri, ovsunçuluq əhalinin dünyagörüşündə mühüm yer tuturdu [44, 167-171]. Eneolit dövrü Azərbaycan əhalisinin dünyagörüşündə ümumi cəhətlərlə bərabər

lokal cəhətlər də vardır. Bu lokallıq, yeniləşmə lokal təbii coğrafi şəraitlə bağlı idi. Eneolit dövrü Azərbaycanda sosial-iqtisadi, mədəni həyatın inkişafı etnik inkişafla müşayiət olunurdu. Dünya və Azərbaycan tarixçiləri Zaqafqaziya, o cümlədən Şimali və Cənubi Azərbaycan eneolit mədəniyyətinin Ön Asiya və Türkmənistanla iqtisadi-mədəni əlaqəli-qarşılıqlı təsirdə inkişaf etdiyini təsdiqləyirlər. Azərbaycanın maddi və mənəvi mədəniyyətində bu əlaqə özünü daha qabarıq göstərir. Arxeoloqlar Azərbaycan, Ön Asiya və Türkmənistan əhalisinin mədəniyyətində ümumi cəhətlərin yaranmasını onların mədəniyyətlərinin vahid mənşəliliyi bu ölkələrin əhalisinin fasiləsiz qarşılıqlı miqrasiyası və ticarət əlaqələri vasitəsilə yarandığını göstərirlər [44, 158-164; 54; 55, 64-125; 139; 93, 126-127; 141, 9].

Antropoloji tədqiqatlar göstərir ki, bu dövrdə Azərbaycanda gəlmə mədəniyyət elementləri zəif olmuş yerli mədəniyyətə dəyişdirici təsir edəcək səviyyədə olmamışdır. Eneolit dövründə Azərbaycan əhalisinin (şimallı-cənublu - X. X.) etnogenezi yerli - aborigen etnik mədəniyyət əsasında formalaşmışdır. Bu antropoloji tip elmdə əvvəllər "Şərqi Aralıq dənizi", hazırda isə "Kaspi" tipi adlanır. Azərbaycanlılar antropoloji cəhətdən cənublu avropoid irqinə mənsub olsa da, özünəməxsusluğu ilə seçilən məhəlli antropoloji tipdir. [59, 14-16; 60]

Azıx mağarasında aşkar edilmiş insan çənəsinin antropoloji tədqiqi göstərir ki, Kiçik Qafqazın Azərbaycana aid hissəsi Avropa neandertallarının müasir insana doğru inkişaf etmiş erkən qrupuna yaxın qədim insanların məskəni olmuşdur. Qobustanda aşkar edilmiş mezolit adamının (homo sapiens) sümük qalıqları Cənubi Azərbaycanda mezolit və eneolit dövrünə aid antropoloji materiallar burada etnosun avropoidlərin cənublu qoluna məxsus olduğunu sübut edir. Bu da onu göstərir ki, Şərqi Zaqafqaziya hələ mezeolit dövründə cənublu avropoidlərin arealına daxil olmuşdur. [40; 60]

Azərbaycan xalqının əsas özəyini təmsil edən kaspi tipi nəinki Zaqafqazıyanın, habelə Qafqazın Şimali-Şərq rayonlarının enolit





dövrünə aid paleontropoloji qalıqlarında da müəyyən edilmişdir. Paleoantoloji və antropoloji tədqiqatlar göstərir ki, azərbaycanlılara məxsus kaspi tipi yerli mədəniyyətin varisliyi əsasında yaranan Şərqi Avropoidlərin yerli, məhəlli tipidir [59, 6-7; 60, 180-181].

Elmi tədqiqatlar göstərir ki, Azərbaycanda etnomədəni proseslər yerli mədəniyyətin fasiləsiz inkişafı əsasında, Xəzərsahili və Ön Asiya qəbilələri ilə iqtisadi və mədəni təmasda getmişdir. Azərbaycanın əkinçi-maldar qəbilələri enolit dövründə istehsal prosesində yeni-yeni əmək və məişət alətləri yaratmış, təbiətin yeni sirlərini kəşf etmişdir. Bu zaman onları düşündürən başlıca problem kəsiciliyi və deşiciliyi ilə misdən möhkəm metal əldə etmək başlıca vəzifəyə çevrilmişdi. Ağacı, daşı, sümüyü müxtəlif üsul və vasitələrlə məqsədə müvafiq formaya salmaq, onlara yeni keyfiyyət vermək bacarığına malik insanlar yumşaq misi möhkəm metala çevirməyin mümkünlüyünə inanırdılar və bu yolda axtarışlarını davam etdirirdilər. Azərbaycanın eneolit dövrü sənətkarları nəhayət e.ə. IV minilliyin ikinci yarısında misə sürmə, mərgümüş, nikel, qalay qatmaqla möhkəm metal-tunc yarada bildilər. Tuncun kəşf edilməsi ilə daşdan, misdən, sümükdən hazırlanan kəsici alətlər və silahlar tuncdan hazırlanmağa başladı. Beləliklə, Azərbaycan tarixinin tunc dövrü adlanan yeni mərhələsi başlandı. Tuncdan hazırlanan əmək alətləri əvvəlki dövrlərlə müqayisədə əmək məhsuldarlığını qat-qat yüksəltdi. Ağac və sümük toxanın tuncdan hazırlanmış xışla əvəz olunması əkinçiliyin sürətli inkişafına təkan verdi. Tunc alətlərin əmək məhsuldarlığını artırması, silahların insanların döyüş və müdafiə imkanlarını, həyat səviyyəsini yüksəltməsi Azərbaycan qəbilələlərinin etnomədəni inkişafına, konsolidasiyasına təkan verdi, qəbilələlərin birləşməsindən tayfalar yarandı. Əhali artımı və iqtisadi tələbat kənd təsərrüfatının və sənət sahələrinin diferensallaşmasına tələbat doğurur.

İlk tunc dövründə Azərbaycanda birinci ictimai əmək bölgüsü baş verdi. Müstəqil maldarlıq təsərrüfatı ilə məşğul olan əhali qrupları yarandı. Oturaq əkinçi əhalidən ayrılan maldarlar yeni ərazilər-

də məskunlaşmağa başlayırlar. Bütün dağətəyi və dağlıq zonalar yerli əkinçi əhalidən ayrılmış maldar əhali ilə məskunlaşır. Maldarlığın yeni köçmə forması yaranır. Yeni yaşayış məskənləri salınır. Bu proses Azərbaycanın bütün ərazisində baş vermiş, Qarabağda daha güclü olmuşdur. Kiçik Qafqaz, onun Qarabağ düzü, yaylası, dağları adlanan ərazisi əhali ilə məskunlaşmışdır [49, 32-44; 61; 66, 104].

İlk tunc dövründə əvvəlki sənət sahələri dulusçuluq, toxuculuq sürətlə inkişaf edir. Sosial-iqtisadi və mənəvi inkişafa təkan verən metallurgiya və metal işləmə sənəti yaranır və sürətlə inkişaf edir. Onun ən güclü mərkəzlərindən biri metal mədənləri ilə zəngin olan Kiçik Qafqaz - Qarabağ idi.

Arxeoloji tədqiqatlar göstərir ki, ilk tunc dövründə bütün Azərbaycanda əhalinin sosial strukturunda yeniləşmə gedir. Cəmiyyətdə kişinin rolu üstün mövqe qazanır, ana xaqanlığı ata xaqanlıq əvəz edir. Kişiyə pərəstiş yaranır [66, 115]. İqtisadi təbəqələşmə gedir, varlı tayfa ağsaqqalları, hərbi rəhbərlər kimi sosial təbəqələr yaranır. Yaşayış məskənlərinin ətrafında istehkamlar qurulur. Əhali daha böyük yaşayış məskənlərində məskunlaşır. Etnokonsolidasiya prosesinin getməsi yalnız böyük tayfa ittifaqlarının yaranmasında deyil, mənəvi sahədə də özünü göstərir. Çoxsaylı ibtidai inam və etiqadların sintezi, təmərküzləşməsi prosesində böyük tayfa birlikləri, geniş əraziləri əhatə edən əhalinin inam və etiqadlarının dinləşməsi prosesi gedir. Bunlar ibadət üçün tikilmiş xüsusi ibadət evlərində, ayin və adətlərin yeni xüsusiyyətlərində və s. özünü göstərir [48, 34; 66, 115-117]. İlk tunc dövründə dəfn adətində də yeniliklər yarandı. Artıq ölüləri yaşayış ərazilərində deyil, xüsusi ərazilərdə dəfn edirdilər. Ayrı-ayrı ailələrə və nəsillərə aid dəfn abidələri tikilirdi. Ölüləri tək-tək və kollektiv dəfn adətləri mövcud idi. Tayfa başçıları xüsusi əzəmətli kurqanlarda dəfn olunurdu. Bu cəhətdən Xaçbulaq kurqanları diqqəti xüsusilə cəlb edir. İlk tunc dövründə Azərbaycanda yaranmış və sürətlə mənimsənilmiş adətlərdən biri ölüyandırmadır. "Ölüyandırma adətinə Azərbaycan əhalisinin möh-





kəm etnik əlamətlərindən biri kimi baxılmalıdır" [61; 48, 34-37; 66, 115-116].

Yekcinslıyi ilə heyrət doğuran [66, 113] ilk tunc dövrü iqtisadi-sosial, mədəni-mənəvi, yüksəlişi ilə Azərbaycan etnosunu ilkin şəhər mədəniyyəti, dövlət qurumları yaradacaq bir səviyyəyə çatdırdı. Kür-Araz mədəniyyəti adlanan bu dövrdə vahid maddi mədəniyyətə malik Azərbaycan qəbilələri Mərkəzi və Şərqi Zaqafqaziyada, Şimali-Şərqi Qafqazda, Cənubi Azərbaycanda, Şərqi Anadolunun əsas ərazilərində məskunlaşmışdılar [66, 104]. Bu mədəniyyət Azərbaycan hüdudlarını aşıb İran, Suriya, Şimalda Çeçen-İnquş və Şimali Osetıyaya qədər yayılmışdı [46, 98-104]. Kür-Araz mədəniyyəti tədricən yayıldığı ərazilərdə yerli xüsusiyyətlər qazanmaqla lokallaşırdı. Azərbaycan cəmiyyəti, etnosu yerli mədəniyyət əsasında orta tunc dövrü mərhələsinə daxil oldu.

Təəssüflə qeyd etməliyik ki, tədqiqatlarından istifadə etdiyimiz bəzi müəlliflərin Kür-Araz mədəniyyəti haqqında son "nəticələri" bizim üçün gözlənilməz oldu. Azərbaycan tarixi" dərsliklərinin birində e.ə. III minilliyin sonunda mədəniyyətin "pozulması" [50, 26], digərində "parçalanması" [48, 38] göstərilir. İ. Əliyev isə yazır ki, həmin dövrdə "Kür-Araz mədəniyyətinin tənəzzülü, dağılması baş verir" [47, 15]. "Azərbaycan tarixi"nin son akademik nəşrində e.ə. III minilliyin sonunda Kür-Araz mədəniyyətinin "süquta" uğraması yazılır [66, 118]. Lakin həmin müəlliflər elə həmin səhifədə yazırlar: "Bu dövrdən etibarən vaxtilə Kür-Araz mədəniyyətinin əvvəllərdə yayıldığı ərazilərdə nəzərə çarpacaq hadisələrdən biri heyvandarlığın inkişafı sayəsində əmək məhsuldarlığının artması olmuşdur... İlk tunc dövrünün sonları, Xüsusilə orta tunc dövrünün əvvəllərində həmin tayfaların yayılması nəticəsində dağətəyi, dağlıq və hətta yüksək dağ əraziləri də yaylaq kimi istifadə olunmağa başladı. Ümumi kütlədən ayrılmış maldar tayfalar filizlə zəngin olan ərazilərin sahiblərinə çevrildilər. Bu ərazilərin bəziləri tezliklə dağmədən işi və metal emalı mərkəzlərinə çevrildi" [66, 118; 47, 15-16]. Göründüyü kimi, iqtibasda Kür-Araz mədəniyyətinin süqutu,

tənəzzülü deyil, e.ə. II minillikdən orta tunc dövründə varisi olduğu mədəniyyət zəminində yeni inkişaf mərhələsi ifadə olunmuşdur.

Kür-Araz mədəniyyətinin tədqiqatçısı H. Cəfərov yazır ki, "E.ə. III minilliyin axırı və II minilliyin əvvəllərində bütövlükdə Zaqafqaziyada, o cümlədən Azərbaycanda Kür-Araz mədəniyyəti birlıyi parçalanmış, ayrı-ayrı etnik mədəni birliklər yaranmışdı" [61, 47]. Elə həmin abzasda fikir belə davam etdirilir. "Məhsuldar qüvvələrin güclü inkişafı təsərrüfatın bütün sahələrində, xüsusilə maldarlıqda, metallurgiya və metalişləmədə baş vermiş yeniliklər cəmiyyətin ictimai quruluşunda əsaslı dəyişikliklərə yol açdı... Orta Tunc dövrü əkinçilik maldarlıq və sənətkarlığın böyük sürətlə inkişafı, hələ ilk Tunc dövründə təşəkkül tapmış əmlak və sosial bərabərsizliyin dərinləşməsi, Yaxın Şərqin mədəniyyət mərkəzləri ilə mədəni-iqtisadi əlaqələrin müntəzəm xarakter alması və bu əsasda Azəbaycanda ilk şəhər mədəniyyətinin formalaşması, beləliklə sinifli cəmiyyətə keçid mərhələsinin başlanması ilə xarakterizə olunur" [48, 38]. Göründüyü kimi, burada da Kür-Araz mədəniyyətinin - ilk Tunc dövrünün Azərbaycan cəmiyyətinin, etnosunun yerli mədəniyyət zəminində sürətli inkişafından, etnokonsolidasiyasından bəhs olunur, mədəniyyətin tənəzzülünə hər hansı bir işarə yoxdur.

Kür-Araz mədəniyyətinin etnik coğrafi hüdudlarını aşmış qəbilə və tayfaların müəyyən ərazilərdə lokallaşması, məskunlaşması, etnik varlığını qoruyub saxlaya bilməsi və ya yerli əhali ilə etnomədəni birliyə daxil olması şəraitdən asılı olan etnomədəni tarixi təbii prosesdir. Ümumi Azərbaycan mədəniyyəti daxilində ayrı-ayrı regionlarda lokal xüsusiyyətlərə malik olması, tarixi-etnoqrafik əyalətlərin, mədəni vilayətlərin yaranması bütün dünya xalqlarının inkişafı yolunda özünü göstərən prosesdir. Odur ki, Kür-Araz mədəniyyətinin Azərbaycanda və onun hüdudlarından kənarda lokallaşmasının, tarixi etnoqrafik əyalətlər kimi formalaşmasının Kür-Araz mədəniyyətinin "süqutu", "dağılması" kimi qiymətləndirilməsinin heç bir elmi əsası yoxdur. Kür-Araz mədəniyyəti Azərbaycanda əhali artımını və etnososial diferensiallaşmanı daha da sürətləndirdi





[62, 191]. Sənətkarlığın yeni-yeni sahələri meydana çıxdı. Əhali artımı, istehsalın genişlənməsi və onun ixtisaslaşmasına ciddi tələbat doğurdu. Daxili və xarici ticarət sürətlə inkişaf etdi. O cümlədən Qarabağda arxeoloji mədəniyyətlərin bütün mərhələlərdə yerli etnik mədəniyyət əsasında fasiləsiz inkişaf, etnokonsolidasiya prosesinin getməsi, sosial-mənəvi strukturun yeniləşməsi haqqında fakt, dəlil və sübutlar həmin dövrdə mədəniyyətin tənəzzül etməsi haqqında nəticəyə ziddir [61]. E.ə. III minilliyin sonunda Azərbaycanda mədəniyyətin "parçalanması", "pozulması", "tənəzzülü", "dağlıması" terminlərinin əvəzinə etnosun həyatında onu yeniləşdirəcək kəmiyyət və keyfiyyət dəyişikliyi baş verdi - anlayışının işlədilməsi cəmiyyət həyatında yeniləşməni ifadə etmək üçün daha məqsədəmüvafiqdir. Göründüyü kimi, ilk tunc dövründə söhbət ibtidai etnik strukturların dağılması, yeni daha möhkəm, yüksək səviyyəli etnik, sosial strukturların yaranmasından gedir. Belə bir vəziyyət isə tənəzzülü deyil, inkişafı ifadə edir, göstərir.

Azərbaycan tarixşünaslığında Kür-Araz mədəniyyətinin nəticələri R.Qasımovanın əsərlərində aydın və dəqiq ifadəsini tapmışdır. O, yazır: "Azərbaycan xalqının etnogenezinin erkən mərhələsinə arxeoloji baxımdan yanaşdıqda diqqəti Kür-Araz mədəniyyəti cəlb edir. İlk tunc dövründə inkişaf edib geniş yayılmış bu əzəmətli mədəniyyət yekcinsdir. Adını daşıdığı Kür-Araz ovalığı onun tarixi vətəni hesab edilir. Bəzi tədqiqatçılara görə, onun ilk vətəninə Şimali Azərbaycanla yanaşı Cənubi Azərbaycan da daxildir". Beləliklə, demək olar ki, Azərbaycan xalqının etnogenezinin erkən mərhələsində antropoloji dəlillərlə arxeoloji dəlillər üst-üstə düşür, yəni xalqımızın soykökündə duran tayfalar həm fiziki tipcə, həm də mədəniyyətcə yekcins olmuşdur [60, 181; 59, 16-24]. Anpopoloji tapıntılar və tədqiqatlar göstərir ki, Azərbaycan etnosu orta tunc dövründə də öz etnik zəminində inkişaf etmişdir [59, 24-25; 84, 76-78].

Əhali artımı, ticarət və sənətkarlıq kimi peşə sahələrinin sürətli inkişafı sənətkarlığın əkinçilikdən ayrılması kimi ikinci ictimai əmək bölgüsü ilə nəticələnir, bağçılıq və bostançılıq kimi yeni təsər-

rüfat sahələri yarandı. Sosial təbəqələşmə, kiçik qəbilə və tayfalar birləşərək daha böyük tayfa ittifaqlarına çevrildi. Bu da öz növbəsində möhkəm qala divarları ilə əhatə olunmuş ilkin şəhərlərin yaranmasına səbəb oldu. Azərbaycanın bu yaşayış məntəqələri Qədim Şərqin şəhər dövlətlərini xatırladırdı.

Orta tunc dövründə Azərbaycanın düzən ərazilərində ilkin qala-şəhərlərin yaranması ilə eyni vaxtda varlı maldarlar dağlarda möhkəm daş divarlarla əhatə olunmuş yaşayış məntəqələri qalalar tikdilər. Bu qalalar elmdə siklop qalalar adlanır. Siklop qalaları ilkin olaraq varlı maldar tayfaların yaylaq düşərgələri, sığınacaqları olsa da, tədricən onların çoxu daimi yaşayış məskənlərinə, mühafizə qalalarına çevrilirdi.

Orta tunc dövrünün ilkin şəhərləri, siklop qalalar bütün Azərbaycanı əhatə etsə də, bu tipli yaşayış məntəqələri Qarabağda daha çox salınmışdır [62, 6-56; 61, 47-55; 49, 43-47; 48, 38-44; 66, 131-133; 67, 21-44; 63; 64; 45, 44-45; 50, 26-27]. Bütün bunlar Qarabağda, bütün Azərbaycanda əhalinin artımı, yeni ərazilərdə məskunlaşması, sosial təbəqələşmə, qəbilə və tayfaların etnokonsolidasiya prosesinin sürətlə getməsinin nəticəsi idi. Tunc əmək alətləri istehsalı əmək məhsuldarlığını yüksəltdiyi kimi, döyüş silahları - balta, xəncər, bıçaq, nizə, yaba, ox ucluqları və s. istehsalı tayfalararası münasibətlərə təkan verdi. Atdan hərbi məqsədlərlə istifadə edilməsi bu prosesi daha da sürətləndirirdi [67, 96-111; 65, 16-29; 56, 14-31; 61, 47-61; 50, 26-29]. Əmlak bərabərsizliyinin inkişafında tayfalararası müharibə və qarətlər də yetərincə rol oynadı. Tədricən hərbi başçılar və hərbçi zümrələr yarandı. Adətən tayfa başçıları hərbi rəhbər olurdu.

Orta tunc dövründən əmlak və ictimai bərabərsizliyin sürətli inkişafı ibtidai icma quruluşunun, tayfa ittifaqının əsaslarını sarsıdırdı. Təbii və hərbi siyasi üsullarla yaranan daha böyük tayfa ittifaqları etnik birliyin yüksək mərhələsinə keçid üçün zəmin hazırlayırdı.

Orta tunc dövründə Azərbaycan tayfa ittifaqlarının həyatında baş





vermiş iqtisadi-sosial yüksəliş, etnokonsolidasiya prosesi mədəni-mənəvi çulğaşma və yüksəlişlə müşayiət olunurdu. Adət-ənənələrin sintezi və sabitləşməsi ilə bərabər mənəvi istehsal özünü qabarıq şəkildə göstərirdi. Yeni inam və etiqadlar, simvollar yaranırdı. Dəfn adətləri torpaq, daş qutu və kurqan qəbir abidələri ilə səciyyələnir. Ölü yandırma, meyitin oxra ilə boyanması, mərhumun yanına əşyalar və əmlak qoyulması adəti davam edir. Tayfa başçıları və kahinlərin təmtəraqlı və möhtəşəm kurqanlarda dəfn olunması adəti daha da canlanır, xüsusi ibadət evlərinin tikilməsi inkişaf edirdi. Orta Tunc dövrü Azərbaycan incəsənətinin çiçəklənmə dövrüdür. Bu dövrdə müxtəlif formalı saxsı qabların istehsalı genişlənir. Onların üzərinə həkk olunmuş həndəsi və nəbati rəsmlər həmin dövrün bədii təfəkkürünün inkişafından xəbər verir. Bu rəsmlərdə Həmçinin həmin dövrün inam və etiqadları da əks olunur. Orta tunc dövrünün bədii təfəkkürünü, inam və etiqadların özündə əks etdirən ən qiymətli sənət abidələri Qobustan, Gəmiqaya və Qarabağın Kəlbəcər qayaüstü rəsmləridir [48, 43-44; 62, 168-190; 66, 139-141; 37, 43-45; 87].

Sosial-iqtisadi, mədəni-mənəvi inkişaf toplumun intellektual yüksəlişi ilə müşayiət olunurdu. E.ə. II minilliyin sonu-I minilliyin başlanğıcında Azərbaycan əhalisi hələ ona çox qədimlərdən məlum olan dəmirin 1539-2740$^0$ istilikdə müxtəlif üsullu istehsalına başladılar [68, 68-74; 69, 27]. Beləliklə "dəmir qılınc, bununla da birlikdə dəmir kotan və balta dövrünü keçirir. Tarixdə inqilabi rol oynamış bütün xammal növlərindən axırıncısı və ən mühüm olanı... dəmir insana xidmət etməyə başladı. Dəmir böyük sahələrdə tarlaçılıq üçün, geniş meşə sahələrini təmizləyib əkin yerinə çevirmək üçün imkan yaratdı; dəmir sənətkara elə möhkəm və kəskin alətlər verdi ki, bunların qarşısında heç bir daş, hətta o zaman məlum olan metallardan heç biri çıxa bilmədi" [70, 312].

Son tunc və ilk Dəmir dövrü bir sıra xüsusiyyətləri ilə əvvəlki tarixi mərhələdən əhəmiyyətli dərəcədə fərqlənirdi. Məhsuldar qüvvələrin, təsərrüfatın bütün sahələrinin, xüsusilə sənətkarlığın o vaxta

qədər görünməmiş sürətlə inkişafı, sosial təbəqələşmənin sürətli inkişafı ictimai quruluşda əsaslı dəyişikliklər yaratdı. Hələ erkən tunc dövründə yaranmağa başlayan tayfa ittifaqları yeni sosial-iqtisadi şəraitdə daha da güclənir, ibtidai icma quruluşunun əsaslarını dağıdırdı. Lakin bu proses Azərbaycanın bütün ərazisində eyni səviyyədə getmirdi, Mesopotomiya ilə həmsərhəd ərazilərdə e.ə. IV minilliyin sonu-III minillikdə başlamışdı. E.ə. III minilliyin birinci yarısında bu ərazilərdə Aratta, ikinci yarısında Lullubi və Kuti ilkin dövlət qurumları yaranmışdı [48, 61-77; 96, 331-340; 367;368;369, 11-19,21-23].

Uzun tarixi dövrdə Azərbaycan əhalisinin sosial mənəvi təkamülü, istehsalda baş vermiş ictimai əmək bölgüləri, tayfaların parçalanması, yeni ərazilərdə məskunlaşması, yeni tayfa birliklərinin yaranması, köçmə maldarların daha geniş ərazidə əhalinin iqtisadi, mədəni-mənəvi, qohumluq əlaqələrini daima canlandırması, iqtisadi-ticarət əlaqələrinin yüksələn xətlə inkişafı Azərbaycan tayfa ittifaqlarını ümumi mədəniyyətə yiyələndirmişdir. Geniş ərazilərdə, məskunlaşmış böyük tayfa ittifaqlarının ilkin dövlət qurumları, fasiləsiz iqtisadi-mədəni əlaqədə olan regionların əhalisinin ümumi inam və etiqadları, adət-ənənələri ilə bərabər ortaq dilləri də yaranmışdı.

Sosial təbəqələşmə və əhali artımı regionlar arasında mövcud olan iqtisadi mədəni əlaqələri daha da gücləndirirdi. Böyük tayfa ittifaqlarının və dövlət qurumlarının yaranması ilə dinc iqtisadi-mədəni əlaqələrə zorakı və siyasi üsul da əlavə olunmuşdu. Qonşu tayfaların ərazilərini işğal etmək, onları özlərinə birləşdirmək siyasətinə önəm verilmişdi. Birləşən və birləşdirilən tayfaların ilkin inam və etiqadlarının, adət-ənənələrinin, allahlarının, siyasi baxışlarının sintezindən yeni daha güclü, etnobirləşdirici, mənəvi, ideoloji və siyasi sistem yarandı. Bu, Zərdüştlük - Azərbaycan milli fəlsəfəsi idi ki, özündə milli, dini, dövlətçilik ideologiyasını, adət-ənənələri, əxlaq qaydalarını, varlığa münasibəti və s. cəhətləri birləşdirirdi [90; 91, 18-61; 95, 41-82; 92, 12-42; 48, 166-169; 93; 94, 10-11; 96, 385-396; 97, 14-17; 98, 161-181]. Vahid milli-dini ideologiyanın, dövlətçilik ideyasının yaranması Azərbaycanda etnokonsalidasiya prosesini daha da gücləndirdi. Artıq e.ə. II minillıkdə Zərdüştlük ideologiyası bütün Azərbaycan hüdudunda yayılmışdı [48, 43; 45, 102; 91, 18-61]. Təkallahlılığı, dövlətçiliyi, əxlaqda xeyir fikir, xeyir söz, xeyir əməli təbliğ edən Zərdüştlük ideyaları sürətlə qalib gəlir, bütün sosial təbəqələri vahid ideologiya əsasında birləşdirirdi. Təsadüfi deyil ki, Zərdüştlüyün meydana çıxmasından az sonra Manna və Midiya dövlətləri yarandı və Astiaqın (e.ə. 585-550) hakimiyyəti illərində Midiyada rəsmi dövlət dininə çevrildi [96, 390]. Göründüyü kimi, Azərbaycan əhalisinin xalq kimi ilkin təşəkkülü üçün nəinki iqtisadi-sosial əsaslar, siyasi, dini və fəlsəfi ideoloji əsaslar da yaranmışdır. Təbii ki, bu ideoloji əsaslar Midiya ilə Manna dövlətinin tezliklə birləşməsinə, Albaniyada ilkin dövlət qurumlarının yaranmasına və onun Cənubi Azərbaycanla iqtisadi əlaqələrlə bərabər mənəvi-ideoloji, dini və siyasi əlaqələrinin sürətlə canlanmasına təkan verdi.





Bütün imperiyalar tutduqları ölkələri yalnız iqtisadi-siyasi cəhətdən deyil, həm də ideoloji-mədəni cəhətdən mənimsəyirlər. Xüsusilə əsarət altına aldıqları xalq onlardan mədəni cəhətdən üstün olanda. Zərdüştlüyün Azərbaycan xalqının ilkin milli dini deyil, farsların və digər İran mənşəli xalqların yaratdığı din olması haqqında yazılar da bu məqsədlə uydurulmuşdur. Azərbaycanın işğalından sonra Əhəməni hökmdarlarının andiçmə mərasiminə Azərbaycanın paytaxtı Qazaka şəhərinə, atəşpərəst ibadətgahına gəlməsi, o cümlədən bu dini qəbul etmiş digər xalqların nümayəndələrinin də məhz bu məkana və ibadətgaha ziyarətə gəlməsi Zərdüşt dininin ilkin vətəninin Azərbaycan, peyğəmbəri Zərdüştün azərbaycanlı olmasına şübhə yeri qoymur. Zərdüştlüyün müqəddəs kitabı Avestada ata-qız, ana-oğul, bacı-qardaşın evlənməsinə icazə verilməsi farsların sonradan olan əlavəsidir.

Azərbaycanın son tunc - ilk dəmir dövrü inkişaf mərhələsində etnomədəni inkişafın bütün sahələrində yeniləşmə, yüksəliş özünü göstərir. Ümumi cəhətləri ilə yekcins olan Azərbaycan mədəniyyə-

tində istehsalın, məhsuldar qüvvələrin inkişaf sürəti ilə əlaqədar olaraq Azərbaycanın ayrı-ayrı təbii-coğrafi zonalarında, torpaq, bitki və heyvanat aləminə uyğun ümumi etnik əlamətlər daxilində lokal mədəniyyətlər də yaranırdı. Müxtəlif təbii-coğrafi şəraitdə yetişən eyni adlı xam materialların, məhsulların keyfiyyət fərqi, onların istehsal məhsullarında özünü əks etdirməsi, sənətkarlığın yerli çalarları ölkənin ümumi mədəniyyəti daxilində regional mədəniyyətlərin yaranmasına səbəb olurdu. Bunun sosial-mənəvi nəticələri ayrı-ayrı region əhalisinin inam və etiqadlarında, adət-ənənələrində, davranış normalarında fərqli xüsusiyyətlər kimi özünü göstərsə də, sənətkarlığın və ticarətin inkişafı regionların istehsal sahəsindəki fərqli müsbət xüsusiyyətləri sürətlə ümumi mədəniyyətə çevirirdi. Lakin təbii-coğrafi şəraitin yaratdığı fərqlilik təbiətin əbədi qanunu kimi davam edir.

Ümumi Azərbaycan mədəniyyəti daxilində təbii-coğrafi şəraitdən doğan yerli mədəni xüsusiyyətləri özündə əks etdirən son tunc - ilk dəmir dövrü mədəniyyətini arxeoloqlar Xocalı-Gədəbəy*, Lənkəran-Muğan, Naxçıvan mədəniyyəti adı altında təsnif edirlər. Arxeoloji tədqiqatlar e.ə. II minilliyin sonu - birinci I minilliyin əvvəllərində Şimali Azərbaycanda iqtisadi-sosial etnomədəni proseslərin sürətlə getdiyini etnosun tayfa ittifaqlarından daha böyük ərazini əhatə edən ümumi mədəniyyətə malik etnomədəni birliyin - xalqın və onun idarə təşkilatı olan dövlətin yaranması mərhələsinə daxil olduğunu göstərir. [61; 48, 44-57; 67, 153-160; 50, 29-33; 49, 48-52, 73, 29-38].

* Arxeoloq H. Cəfərov Xocalı-Gədəbəy mədəniyyətinin Gəncə-Qarabağ mədəniyyəti də adlandığını göstərir [48, 45]. Təbii-coğrafi rayon kimi Kiçik Qafqaz etnomədəni rayon kimi Gəncə-Qarabağ tarixi etnoqrafik əyaləti adlanır. Xocalı-Gədəbəy, Gəncə-Qarabağ etnomədəni rayonunun bir hissəsidir. ona görə də Qarabağ mədəniyyəti adlandırılmalıdır. Bu mədəniyyətin Gəncə-Qarabağ deyil Xocalı-Gədəbəy, mədəniyyəti adlandırılması Rus imperiyasının, erməni siyasətçilərinin Qarabağ mədəniyyətinin dünyada tanınmasına imkan verməmək, onu unutdurmaq siyasətidir, onların təsiri ilə Azərbaycan tarixşünaslığına gətirilmişdir.





Sosial-iqtisadi, mədəni həyatın inkişafı əhali artımı ilə müşayiət olunurdu. "Əhalinin artmaqda olan sıxlığı adamları istər daxildə, istərsə xarici aləm qarşısında daha sıx birləşməyə məcbur edir. Qohum tayfaların ittifaqı hər yerdə bir zərurət olur, tezliklə də bunların hətta birləşməsi və beləliklə də tayfaların ayrı-ayrı ərazilərinin bütün xalqın ümumi bir ərazisi halında birləşməsi zəruri olur. Xalqın hərbi rəisi - rex, basilevs, thiudans - zəruri, daimi bir vəzifəli şəxs olur. Xalq yığıncağı hələ mövcud olmadığı yerdə meydana gəlir. Hərbi rəis, şura, xalq yığıncağı qəbilə quruluşunda inkişaf edən hərbi demokratiyanın orqanlarını təşkil edir. Ona görə hərbi demokratiya idi ki, indi müharibə və ondan ötrü təşkil olunmaq xalq həyatının daimi vəzifələri olur... irsi, kral hakimiyyəti və irsi əyanlar üçün təməl qoyulur" [70, 314].

Beləliklə, dəmirdən daha məhsuldar əmək alətləri və vasitələrinin yaradılması əmək məhsuldarlığını yüksəltməklə əkinçılikdə, maldarlıqda, sənətkarlıqda, maddi və mənəvi mədəniyyətin bütün sahələrində inqilabi bir irəliləyiş, sosial təbəqələşmə və etnokonsolidasiya prosesində e.ə. I minilliyin ikinci yarısında Alban xalqı və Alban dövlətinin təşəkkülü ilə nəticələndi. Sərhədləri şimalda Sarmatiya, cənub və cənub-qərbdə Atropatena və Araz çayı ilə Armeniyanın* bir hissəsi ilə həmsərhəd Alban xalqı və dövləti ya-

* Kiçik Asiyada Fərat çayının şərqində Böyük Armeniya, Fərat çayının qərbində isə Kiçik Armeniya adlanan əyalət var idi. Bu əyalətlərin ərazisi heç vaxt Qafqazı əhatə etməmişdi. Armeniyanın Ermənistan anlayışı ilə eyniləşdirilməsi XIX əsrdə Rus imperiyası tərəfindən işlənmişdi. Albaniyanın - Azərbaycanın Ermənistanla sərhədlənməsi ermənilərin Qafqaz xalqı olması XIX-XX əsr rus-erməni tarixşünaslığının Azərbaycan ərazilərini işğalı üçün ideoloji zəmin hazırlamaq üçün yaradilmışdır. 1828-ci ildə ermənilər rus imperiyası tərəfindən xarıci ölkələrdən Azərbaycana köçürüldükdən sonra I Nıkolayın fərmanı ilə Naxçıvan və İrəvan xanlığı ləğv edilib onların ərazisi "Erməni əyaləti" adlandırıldı. Lakin ermənilər burada Azərbaycan türklərini sıxışdırıb bölgəyə "Erməni əyaləti" adı verə bilmədilər. 1920-ci ildə rus imperiyası Azərbaycanı ikinci dəfə işğal edəndə, İrəvan mahalını Ermənistan adlandırıb burada erməni dövləti yaratdı. Azərbaycan türklərini vətənindən deportasiya etdi. [Ətraflı bax: 78, 56-61; 79, 19-54]

randı [74, 40-86; 75, 28-45; 76, 76-144; 80, 7-45; 77, 34-44; 78, 56-61].

Albaniyada sosial təbəqələşmə, etnokonsolidasiya, dövlətləşmə prosesi cənubi Azərbaycandan ləng getmişdi. Lakin heç də Azərbaycan tarixi dərsliklərində və başqa əsərlərdə deyildiyi kimi, birdən-birə e.ə. IV-III əsrlərdə yaranmamışdır. Mənbə və tədqiqatlarda Şimali Azərbaycan - Alban tayfalarının hələ qədimlərdən Cənubi Azərbaycanın ərazisində də yaşadığını, Şimali Azərbaycan tayfalarının Cənubi Azərbaycan tayfaları ilə fasiləsiz etnokonsolidasiya prosesində olduğunu antropoloji, arxeoloji materiallar və yazılı qaynaqlar təsdiq edir [44; 54; 37; 57; 59; 60; 61; 81, 35-36]. Maraqlıdır ki, e.ə. 550-ci ildə fars Əhəməni sülaləsi Midiyada hakimiyyəti ələ alandan sonra Albaniya da onun nominal asılılığına düşmüş, ona vergi ödəmiş, ordusunda əsgəri hissələri ilə iştirak etmişdir [99, 12; 73, 39; 48, 151]. Akademik V.V.Bartold Əhəməni-Albaniya münasibətlərinə toxunaraq yazır ki, Əhəməni hökmranlığının sahilyanı (Xəzərsahili - X. X.) ölkələrə təsirinə gəldikdə isə, bu barədə Herodotun məlumatında iranlıların hakimiyyətinin Qafqaz dağlarına yayıldığı bildirilirdi, lakin bu məlumat böyük şübhə doğurur. Əgər iranlılar nə vaxtsa Qafqaz dağlarına qədər gəlmişlərsə, hər halda onların buradakı hökmranlığı çox da möhkəm olmamışdır. Bundan başqa, Əhəmənilərin hakimiyyətinin Qafqaza qədər uzanmadığı barədə məlumatlar vardır [99, 12].

Yuxarıda istinad etdiyimiz faktlar Albaniyada dövlətin, bəzi əsərlərdə yazıldığı kimi, e.ə. IV-III əsrlərdə deyil, ondan xeyli əvvəl yarandığını deməyə əsas verir [48, 151].

E.ə. VII əsrdə yaranan Skif-sak çarlığı Urmiya gölü sahillərindən başlayaraq Göyçə gölü də daxil olmaqla Assuriya və Urartu sərhədləri boyunca Azərbaycanın qərb ərazilərini əhatə etmişdir [83; 48, 104-105; 66, 220].

E.ə. 331-ci ildə Makedoniyalı İskəndər ordularının Əhəmənilər üzərində qələbəsindən sonra bu imperiyanın süqutu ilə Azərbaycan etnosu sürətlə dövlətçiliyini bərpa etdi. Manna-Midiya hüdudunda





müstəqilliyini bərpa edən dövlət Atropatena, şimal ərazidə müstəqilliyini bərpa edən isə Albaniya adı ilə tarix səhnəsinə çıxdı.

Azərbaycan etnosunun həyatında izlənilən antropoloji, arxeoloji və maddi mədəniyyət, etnomədəni, mənəvi, sosial-psixoloji, iqtisadi siyasi hadisələr onun güclü passionarlığa malik olduğunu göstərir. Məhz bu passionarlıq əsasında antropoloji, etnomədəni, mənəvi-psixoloji, siyasi cəhətdən Azərbaycan xalqının ilkin təşəkkülü yerli mədəniyyət əsasında başa çatır.

Azərbaycan xalqı antropoloji cəhətdən avropoid irqinin məhəlli tipi olub, kaspi tipi adlanır və yerli, avtoxoton əhalinin təkamülü prosesində formalaşmışdır. Kaspi tipi Azərbaycanın hüdudlarından kənara çıxıb Dağıstanın cənub şərqində də yayılmışdır və Orta Asiyanın cənubunda yaşayan türkmənlər üçün də səciyyəvidir. Lakin onlar azərbaycanlılardan monqoloid irqinin qarışığını göstərən cüzi əlamətlərə görə fərqləndiyi üçün antropoloji ədəbiyyatda "zakaspi" tipi adlandırılmışdır [59, 10; 60, 183]. Görkəmli antropoloqlar R. M. Qasımova və M. Q. Abduşelişvili yazırlar ki, Azərbaycan xalqının əsas özəyini təmsil edən kaspi tipi nəinki Zaqafqaziyanın, habelə Qafqazın şimal-şərq rayonlarının eneolit dövrünə aid paleoantropoloji qalıqlarında da müəyyən edilmişdir. Kaspi tipinin təmsil etdiyi əhalinin gəlmə olmasını sübut edən elmi dəlil yoxdur. Şərqi Zaqafqaziyanın paleoantropoloji materiallarında yerli tipdən fərqlənən formaların gəlməsini göstərən dəlil də yoxdur. Əksinə, onların hamısı ən qədim zamanlardan bu ərazidə yaşayan əhalinin varisliyini göstərir. Azərbaycan xalqının soykökündə duran tayfalar həm fiziki tipcə, həm də mədəniyyətcə yekcins olmuşdur [59, 43; 60, 181].

R. Qasımova yerli qəbilə və tayfalarla bərabər Qaradənizyanı və Xəzəryanı skif-sakların Azərbaycan xalqının etnogenezində etnik komponent kimi iştirakı dərəcəsini də müəyyənləşdirmişdir. O yazır ki, antropoloji və arxeoloji materiallar skiflərin (Qaradənizyanı - X.X.) Azərbaycanda kütləvi surətdə məskunlaşması və burada "skif çarlığı" yaratması haqqındakı mülahizələrə haqq qazandırmır. "Ya-

zılı mənbələrdə isə skiflərin Şərqə doğru hərəkətinin hərbi xarakter daşıması məlumdur. Həm də onların ailəsiz olmalarına da şübhə yoxdur. Çox ehtimal ki, Dərbənd keçidi ilə Azərbaycana daxil olmuş (Qaradənizyanı - X.X.) skif tayfalarının bəzi qrupları əlverişli yerlərdə məskən salıb burada ailə qurublar. Lakin sayca azlıq təşkil etdiyinə görə, bir neçə nəsildən sonra Avropa irqinin zərif cənub şaxəsinin məhəlli variantı kaspi antropoloji tipinin xüsusiyyətləri ilə səciyyələnən yerli əhalinin tərkibində iz qoymadan "əriyib". Antropoloji dəlillərə əsaslanan bu elmi nəticə bəhs edilən dövrdə skiflərin bəzi qruplarının hərbi səfər zamanı Albaniyada məskən salıb, alban qadınları ilə evlənməsi haqqında yazılı mənbələrdə verilən məlumatlarla üst-üstə düşür " [59, 29].

Hələ XX əsrin 20-ci illərində görkəmli şərqşünas akademik V.V.Bartold da bu fikirdə olmuşdur. O, "Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri" adlı əsərində yazmışdır: "Qafqaz boynundan Orta Asiyaya daha qədim köçürülmələrin mövcud olması haqqında məsələ meydana çıxdı. Birinci hərəkata gəldikdə deyilməlidir ki, bunun Xəzəryanı bölgələrlə o qədər az əlaqəsi var ki, onun haqqında, məncə, heç danışmağa dəyməz. Qafqaz köçürülməsinə gəldikdə isə, əlimizdə bəzi məlumatlar, hətta məs..., Yunan tarixçisi Heredotun Qafqaz boynu üzərindən Şimali İrana (Cənubi Azərbaycana - X.X.), Kiçik Asiyaya köçürülmələri haqqında məlumatları varsa da, bu məsələ bizdə şübhə doğurur, çünki köçürülmələrin heç bir etnoqrafik izləri qalmayıb [99, 8].

R.Qasımova Xəzəryanı skiflər - sak-massogetlərlə Azərbaycanın əlaqəsi haqqında yazır ki, Azərbaycanda sak-massagetlərin adı ilə bağlı yer adları, sak-tiqraxudun möhür-üzükdə həkk edilmiş surəti, dəfn mərasimləri, yaraqlar və s. bəhs edilən dövrdə əlaqələrin təmayülünün Xəzərin şərqinə doğru olduğunu göstərir. Sadalanan dəlillər B.B.Piotrovskinin Mingəçevir skif abidələrinin Şərq skifləri, yəni Orta Asiya skifləri-saklarla əlaqələndirməsini təsdiq edir. Eyni sözləri antropoloji dəlillər haqqında da demək olar.

L.V.Oşanin Orta Asiya xalqlarının etnogenezindən bəhs etdiyi





əsərində qeyd etmişdir ki, Türkmənistanın Xəzəryanı düzlərində məskun olmuş massagetlər, kaspilər və digər qədim tayfalar paleoantropoloji qalıqlara görə, kaspi irq tipinə mənsub olublar. Beləliklə, demək olar ki, Azərbaycana basqın zamanı zəbt etdikləri və məskun olduqları yerlərdə adları qalmış, mədəniyyətdə təsiri görünən sak-massagetlər fiziki tipcə iz qoymadan yerli əhali ilə qaynayıb-qarışıblar. Ola bilsin ki, tarixi-arxeoloji ədəbiyyatda geniş yer verilmiş "Skif çarlığı" da sakların adı ilə bağlıdır [59, 32-33]. Qeyd edək ki, Azərbaycanda skif adlı toponim və etnonim qeydə alınmamışdır. Mənbələrdən məlum olduğu üzrə skif yunanların saklara verdiyi addır. Massaget və sakla bağlı toponim və etnonim Cənubi və Şimali Azərbaycanın bütün regionlarını əhatə etməklə bərabər, mənəvi mədəniyyətdə, milli xarakterdə hazırda dominantlıq göstərir. Sak, Sakkat adam, nəsil, el - cəsur, qorxmaz, döyüşkən mənalarında bu gün də xalq arasında işlənməkdədir. Topladığımız bu etnoqrafik faktlar R.Qasımovanın e.ə. VII əsrdə Azərbaycanda yaranmış "Skif-sak çarlığı"nı Xəzəryanı sakların yaratması ehtimalının həqiqətə uyğunluğu mülahizəsini daha da gücləndirir.

Yuxarıda paleolit dövründən başlamış bütün tarixi dövrlərdə Azərbaycandan, xüsusən onun mədəni mərkəzlərindən biri Qarabağdan Cənubi Azərbaycana, Şimali Mesopotomiyaya, Xəzərin cənub və cənub-qərb vilayətlərinə qəbilə və tayfaların gedişi və qayıdışını, etnik, iqtisadi və mədəni əlaqələrinin oxşar və ümumi maddi mədəniyyət yaratdıqlarını arxeoloji və etnoqrafik tədqiqatlar təsdiq edir [41, 45; 43, 216; 54; 44, 158-164; 55, 64-125; 46, 91-104; 48, 33-34; 66, 68, 104-117]. Orta tunc dövründə Zaqafqaziyadan, bütövlükdə Azərbaycandan və Ön Asiyadan qəbilə və tayfaların Xəzərsahili vilayətlərə, xüsusilə cənub vilayətlərinə doğru gedişi, mədəni təsiri daha da sürətlənir [46, 120; 57, 113-124; 62, 181-190; 369;11-35;370].

Arxeoloji ədəbiyyatlar göstərir ki, ilk yaşayış məskənlərini çayların sahillərində salmış qəbilə və tayfaların yayılması prosesi, onların yaratdıqları yollar da çay sahilləri boyunca olmuşdur. Çay, göl və

dəniz sahillərində məskunlaşmaqla insanlar başlıca olaraq suya olan tələbatlarını ödəyirdi. Bununla bərabər zəngin çay, göl və dənizlər insanların ən etibarlı qida mənbəyi idi. İnsanların çayların sahillərində məskunlaşması, çayların sahilləri boyu yollar salması, bu yolların əsasən çayların töküldüyü göl və dəniz sahillərində birləşməsi, qəbilə və tayfaların təmas yerinə çevrilməsinin əsas səbəblərindən biri də elə bu idi, balıqçılıqla bağlı idi. Vahid antropoloji tipə və mədəniyyətə malik Xəzərətrafı xalqların yaranmasının səbəbi Xəzər dənizi və ona qovuşan çaylardır.

Təəssüflə qeyd etməliyik ki, dənizlərin və çayların insanların məskunlaşması və sivilizasiyaların yaranmasında rolu haqqında əhali coğrafiyası və etnoqrafiya elmində yetərincə bəhs olunsa da, Xəzərsahili xalqların tarixi yazılarkən bu başlıca və təbii-coğrafi səbəbdən bəhs olunmamışdır.

Tarixi ədəbiyyatda balıqçılığın yaranması dövrü orta paleolit, bəzi ədəbiyyatlarda mezolit dövrü kimi göstərilir. Bizcə bu fikrin heç bir elmi əsası yoxdur. İnsan yaranışdan, hələ bioloji varlıq ikən o da başqa heyvanlar kimi balıq ovu ilə məşğul olmuşdur. Mezolit dövründə balıqçılıq ilkin peşə sahələrindən birinə çevrilmişdir. Bu dövrdə qayıqların düzəldilməsi, balıq ovu üçün torların ixtirası da bunu deməyə əsas verir.

Avrasiyanın Xəzərsahili vilayətlərinin ən qədim dövrlərdən ümumi mədəniyyət yaratması təbii-tarixi bir proses olub, Xəzər dənizi və ona tökülən çayların bu prosesdə rolu danılmazdır. Hər tərəfdən dağlarla əhatə olunmuş Xəzər dənizinə axan çayların sahillərində məskən salmış qəbilə və tayfalar zaman-zaman bu çayların deltasına enir, Xəzər sahillərində təmasda olur, birləşir, parçalanır, yeni birliklər yaradır, onun sahillərində yollarını dəyişir, bir çayın sahilindən digərinə keçir, hansı çayın sahilində olmasından asılı olmayaraq təkrar Xəzərin sahilinə enir. Mövsümü Xəzər ətrafına enən, burada müvəqqəti dayanan qəbilə və tayfalar mezolit dövründən Xəzər sahillərində daim məskunlaşmağa başlayırlar. Onlar nəinki dənizin sahillərini zəbt edir, ixtira etdikləri qayıqlar, gəmilər vasitəsilə Xəzərin sularını da zəbt etməyə başlayırlar. Balıq ovçuluğu təkmilləşir, xüsusi peşəyə çevrilir. Beləliklə, əvvəllər Xəzərə tökülən çayların sahili ilə mövsümü Xəzərə enib qayıdan qəbilə və tayfalar onun sahillərində məskunlaşmağa başlayır, Xəzər sahillərində böyük toplumlar yaranır. Bu toplumların parçalanması və yeni ərazilərdə məskunlaşması, parçalanmış qəbilə və tayfaların yeni birliklər yaratması əhali artımını və yeni ərazilərdə məskunlaşmanı, etnokonsolidasiya prosesini sürətləndirir. Xəzərsahili yaşayış məskənlərindən toplanmış maddi mədəniyyət nümunələrinin tədqiqi hələ mezolit dövründə qohum qəbilələrlə məskunlaşmış Şərqi və Cənub-Şərqi Xəzər əhalisinin, Azərbaycanın, Qərbi və Şimal-Qərbi Xəzər əyalətlərini əhatə edən etnomədəni "Xəzər arxeoloji əyalətini" yaratdığını göstərir [III, 57; 59, 13-14]. Xəzərsahili vilayətlərin mezolit dövründə formalaşan bu etnik mədəniyyəti, Şimali Mesopotomiya ilə təmasda neolit, eneolit, tunc və ilk dəmir dövründə də inkişafını fasiləsiz davam etdirmiş, yekcinsliyini qoruyub saxlamış ümumi, oxşar maddi və mənəvi mədəniyyət, adət-ənənə, inam və etiqad, Avropa irqinin kaspi tipi adlanan məhəlli antropoloji irqini yaratmışdır [46, 27-68, 86-129, 137-138, 153-156; 54; 59; 60; 84; 66, 54-142; 44; III, 57-74; 112, 213; 113, 204-207; 114, 49-52; 115; 116, 15-27].

Antik mənbələr Xəzərsahili vilayətlərin əhalisinin mədəniyyətinin oxşar, bir çox hallarda eyniyyət təşkil etdiyini, yüksək passionarlıq göstərdiyini yazmışlar. Tədqiqatlar göstərir ki, Xəzərsahili ölkələrdəki böyük çaylardan Volqa və Don, Kiçik Asiyadan başlayıb Azərbaycanın içərisindən keçib Xəzərə tökülən Araz çayı, Türkmənistanın cənubunda yerləşən Aral gölünə, müəyyən tarixi dövrlərdə Xəzər dənizinə tökülən Amurdərya və Sırdərya çayları Araz adlanmışdır [105, 31-126; 100; 48, 25]. Antik mənbələr üzrə müqayisəli araşdırma aparmaqla yanlışlıqları və toponimləri dəqiqləşdirən İ.V.Kuklina yazır ki, Sırdəryanın (Arazın) şərq qurtaracağından Aral gölünə qədər ərazi Qafqaz adlanmışdır [105, 191]. Göründüyü kimi, Xəzərsahili vilayətlərin əhalisi nəinki ümumi mədəniyyətə, anlayışların yaradılmasında vahid dünyagörüşə malik ol-

muşlar. E.ə. II minilliyin sonu - I minilliyin başlanğıcında Xəzərsahili əhalinin sosial-iqtisadi, mədəni həyatındakı canlanma güclü etnokonsalidasiya və dövlətləşmə prosesi doğurur.

E.ə. III-II minillikdə ilkin dövlət qurumları yaranması prosesini keçirmiş Cənubi Azərbaycan ərazisində Manna və Midiya dövlətləri, Şimali Azərbaycan və Xəzərin cənub vilayətlərində ilkin dövlət qurumları yaranır. E.ə. I minilliyin başlanğıcında Xəzərin ətrafında tarixən getmiş etnokonsolidasiya prosesinin nəticəsi kimi meydana çıxan toplum, etnik birlik tarixə sak-skif adı ilə daxil olmuşdur. Sak mədəniyyəti Şərqi Avropada Dnepr çayından Mərkəzi Asiya, Sibir və Çinə qədər ərazini əhatə etmişdir [110; 114].

Skif mədəniyyətinin ilkin ocağı haqqında fərqli mövqelər var. Lakin sakşünasların əksəriyyəti cənubi Xəzər vilayətini, Mərkəzi Asiyanı bu mədəniyyətin ilkin ocağı hesab edirlər. Biz də bu mövqeyi əsas götürürük*.

E.ə. I minilliyin əvvəllərində Mərkəzi və Cənub-Şərqi Asiyadan Kiçik Asiya istiqamətində iki miqrasiya başlayır. Bunlardan biri e.ə. IX əsrdə Hindistandan çıxıb Elam ərazisinə qədər gəlib onun ərazisində məskunlaşan fars tayfaları idi. Onların yolları haqqında akademik V.V.Bartold yazır ki, onların Şərqdən qərbə hərəkəti Xəzəryanı bölgələrdən cənubda baş vermişdir. Əsas ticarət yolu Xəzəryanı bölgələrdən yox, onlardan cənubdan keçir. Xəzər sahilinin yüksək dağlarına və sıx sahilyanı meşələrinə görə Xəzəryanı bölgə xalqlar köçməsinin bu əsas yolundan kənarda qalırdı [99, 10]. Gəlmə farslar Elam ərazisində məskunlaşdılar e.ə. VI əsrin əvvəllərində Azərbaycan-Midiya dövlətinin hakimiyyəti altına düşdülər [96, 307,

* Sak-skifşünaslıqda çoxlu ziddiyyətli və süni fikirlər mövcuddur. Bu suallara cavab vermək məqsədimiz olmadığından, ancaq sak-skif tayfalarının Azərbaycan xalqının etnogenezi və etnik tarixi ilə bağlı məsələlərdən bəhs edəcəyik. Bir məsələni də nəzərə çatdırmaq istəyərdik ki, mənbə və tədqiqatlarda kimmerlər haqqında ötəri bəhs olunsa da, əksər tarixçılər onları saklarla eyniləşdirir, arxeoloqlar isə, ümumiyyətlə, kimmerlərdən bəhs etmir, onları saklarla eyniləşdirir. Son qənaətə üstünlük verdıyımizdən və biz də kimmerləri sak kimi qəbul etdiyimizdən ondan ayrıca bəhs etmırik.





361].

İkinci miqrasiya isə Xəzərin cənub sahillərindən Azərbaycana və Kiçik Asiyaya sak-skiflərin gəlməsidir. Onlar e.ə. I minilliyin ilk əsrlərində Qafqaz dağlarının demək olar ki, hər yerində səyyar atlı tayfalar kimi yayılmışdılar. Cənuba yayılan kimmerlər hələ skiflərdən əvvəl Qafqazın bəzi rayonlarında olmuşdular [66, 213]. Onların Azərbaycan, Zaqafqaziya və Kiçik Asiyaya kütləvi axını e.ə. VIII əsrin sonu - VII əsrdə başlamışdı. Şişpapaq, üzərində vəhşi heyvan təsviri olan əşya, onlara məxsus ox ucluqları və xəncər, meyitlərin arxası üstə dəfn olunması, at südü içmələri onların maddi mədəniyyətinin fərqləndirici xüsusiyyəti idi.

At üstündə "qartal kimi şığıyan" sakları çaparaq vəziyyətdə oxla hədəfi vurmağı bacarmaları, məğrur və çevik hərbçi olmaları mənəvi cəhətdən fərqləndirən xarakter xüsusiyyət idi. Tutduqları ərazini yerli əyanlar vasitəsilə idarə edirdilər.

Məğrur süvari döyüşçü sakların Azərbaycana miqrasiyası onların qarətçi, işğalçılıq hərəkətləri, onlara qarşı hər hansı hərbi mücadilə ilə müşayiət olunmamışdır, onların "Manna əleyhinə hər hansı düşmənçilik hərəkəti barədə məlumat yoxdur" [117, 41-42]. Sakların Azərbaycana kütləvi miqrasiyası başlayanda Manna və Midiya Assur dövləti ilə hərbi mücadilədə idi. Saklar sürətlə Manna, Midiya ərazilərində və Zaqafqaziyada, məskunlaşır, onlarla Assuriyaya qarşı müttəfiq kimi çıxış edirlər. Manna və Midiyanın Assuriya tərəfindən işğal olunmuş ərazilərini azad edirlər, hətta Assuriyanın müəyyən ərazilərini tuturlar [83, 29-36]. Manna, Midiya və Sakların Assuriya üzərində qələbəsindən sonra e. ə. VII əsrin 70-ci illərində müstəqil Midiya çarlığı yarandı. Elə bu dövrdə Sak çarlığının yaranması da başa çatır. Onun ərazisi Assuriya ilə sərhəddən başlayıb Gəncə rayonunda Kürdən başlayaraq Kiçik Qafqazı, Urmiya gölündən şimalında Savalan dağı və Qaradağa qədər ərazini əhatə edirdi [83, 29-36; 79, 28]. E.ə. VI əsrin 90-cı illərində saklar çox zəhmli bir qüvvə sayılırdı [66, 220]. Sak çarlığı Azərbaycan ərazisində nisbətən sabit əraziyə malik olmaqla 80 il mövcud olmuşdur [66, 224;

83, 37-38]. Saklar Azərbaycanda sürətlə məskunlaşdılar. Midiyada hakimiyyətə gəlib, onu 28 il (e.ə. 653-625) idarə etdilər. Saklar "böyük yaradıcılıq qüvvəsinə malik" idilər, Midiya əyanlarının uşaqlarına hərbi təlim keçirdilər, onlara at üstündə ox atmaq taktikasını öyrədirdilər. Onlar Azərbaycanın yerli əhalisinə arxalanaraq möhkəm dövlət yaratmışdılar, hakimiyyətlərinə daxil olan ölkələrin hökmdarlarına toxunmur və onların daxili işlərinə qarışmır, yalnız müxtəlif formalarda xərac alırdılar. Manna və Midiya onlara vergi ödəyirdi. Azərbaycanda möhkəm dövlət yaradan, onun yerli əhalisinə arxalanan saklar Urartuya, Assuriyaya, Suriyaya, Fələstinə, hətta Misirə hərbi basqınlar edirdi, onlardan xərac alırdı [83, 38-39; 66, 222].

"Böyük yaradıcılıq gücünə malik" saklar Assuriya və Urartunu zəiflədib, şərqə yürüşlərinin qarşısını aldılar. Zaqafqaziyada-Azərbaycanda, Ön və Kiçik Asiyada sosial-iqtisadi, siyasi-mənəvi, etnik proseslərə yaradıcı, yeniləşdirici təsir göstərdilər. Əsasən Azərbaycanda məskunlaşdıqlarından sakların sosial-iqtisadi, siyasi-mənəvi yaradıcılıq gücü birinci növbədə özünü burada göstərdi. Onlar Azərbaycana Assuriya və Urartuların qarətçi yürüşlərinin qarşısını almaqla Azərbaycanın azad, müstəqil sosial-iqtisadi, siyasi-mənəvi inkişafına şərait yaratdılar. Kiçik və Ön Asiyaya hərbi yürüşlərlə əldə etdikləri sərvətləri Azərbaycana gətirməklə onun iqtisadi-sosial inkişafına güclü yardım etdilər*.

Yuxarıda göstərdiyimiz faktlarla bərabər, Azərbaycanın yerli əhalisi ilə gəlmə saklar arasında hər hansı etnopsixoloji ziddiyyətin olmaması, adət-ənənələrinin, inam və etiqadlarının eyniyyət təşkil etməsi onların qohum, hətta doğma xalq olduğunu deməyə əsas verir. Yuxarıda biz onların vahid antopoloji tip olduğunu demişik. Bir

* Qaradənizyanı sak-skiflərinin Dərbənd keçidi vasitəsilə Azərbaycana və Kiçik Asiyaya keçməsi fikri bütün skifşünaslıqda ehtimaldan artıq bir səviyyədə sübut olunmamışdır, bu fikri uydurma hesab edən alimlər də var. Odur ki, biz sakların Azərbaycan və Kiçik Asiyaya Xəzərin cənubundan keçməsi fikrini əsaslı hesab edirik.





çox mənbələrdə sakları "Mannalılar ölkəsinin sakinləri adlandırırlar" [66, 215].

Mənbə və tədqiqatlarda gəlmə saklarla yerli əhalinin nisbəti haqqında məlumatlar Azərbaycanda etnik proseslərin obyektiv dəyərləndirilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatçılar göstərirlər ki, Azərbaycan sak "çarlığı əhalisinin əksəriyyəti yerli tayfalardan ibarət olmuş, onu yaradan sak-skiflər özləri isə azlıq təşkil etmişdi" [83, 38; 66, 221].

Maraqlıdır Azərbaycanda etnik tərkib belə olduğu halda, gəlmə azlıq "bütün Asiyada" "zəhmli bir qüvvəyə" necə çevrilə bilər [66, 220-223], Azərbaycanda saklarla bağlı etnonim və toponimlərin üstünlüyü necə yarana bilərdi [79; 81; 85; 86; 118; 119]?

Etnik tərkibin belə yanlış qiymətləndirilməsi bəzi tədqiqatçıların obyektiv nəticə çıxara bilməməsindən, bəzilərinin qəsdən Azərbaycan, Zaqafqaziya, Şimali Mesopotomiya və Kiçik Asiyadakı Sak etnonim və toponimlərinin bütünlüklə e.ə. VIII əsrdən Sak toplumlarının bu ərazilərə miqrasiyası nəticəsində yaranması kimi qiymətləndirilməsindən irəli gəlmişdir. Lakin e.ə. I minilliyin başlanğıcından Cənubi Xəzər vilayətindən Xəzərin qərb vilayətlərinə sak adlanan toplumların miqrasiyasına qədər bu vilayətin qərbi Xəzər vilayətləri ilə mədəni yekdillik təşkil etdiyi antropoloji, arxeoloji-etnoqrafik və digər maddi mədəniyyət nümunələri əsasında təsdiqlənmişdir.

Bu faktlar göstərir ki, Azərbaycan, Zaqafqaziya, Şimali Mesopotomiya və Kiçik Asiyada sak toponim və etnonimi kimi qiymətləndirilən toponim və etnonimlər heç də e.ə. I minillikdən Cənubi Xəzər vilayətləri əhalisinin buraya miqrasiyası zamanı yaranmamış, onların böyük çoxluğu yerli etnonim və toponimdirlər. Onların yuxarıda gəlmə azlıq kimi göstərilən hissəsinin yaratdığı toponimlər sonradan yaranmadır.

Azərbaycanda sak etnonim və toponimlərinin əsasən yerli toponim olduğunu, avtoxoton əhalinin yaratdığını sak etnonim və toponimlərinin başlıca olaraq Xəzərsahili vilayətlərin böyük su hövzələ-

rində, çayların sahillərində yarandığı da bir daha təsdiq edir.

Təəssüflə qeyd etməliyik ki, tarixi ədəbiyyatda saklar ancaq köçəri maldar xalq kimi göstərilmişdir. Lakin bu həqiqəti əks etdirmir. Həyat tərzi və təsərrüfat formalarını etnos təbii-coğrafi şəraitin təsiri altında yaradır. Köçəri maldarlıq təsərrüfat forması sakların ancaq səhra və yarımsəhra şəraitində yaşayan hissəsinə aid həyat tərzi idi. Sakların Azərbaycandakı həyat tərzi isə tamam fərqli idi. Heredot yazırdı ki, Araz çayının aşağı hissəsində məskunlaşmış saklar "əsasən Xəzər dənizi hövzəsində tutduqları balıqla qidalanırdılar" [104, 138]. Deməli sakların böyük hissəsi balıqçı dənizçilər idi.

Yuxarıda qeyd etdiyimiz kimi, qədim daş dövründən dəmir dövrünə qədər Xəzərsahili vilayətlərin vahid etnik mədəniyyətə malik olduğunu müxtəlif elm sahələri təsdiq edir. E.ə. I minilliyin başlanğıcından region tayfalarının xalq kimi formalaşması, dövlətləşməsi prosesi başlayır. Bu proses regionun ayrı-ayrı əyalətlərində eyni mənşəli müxtəlif adlı güclü tayfaların təsiri altında gedir. Xəzərin şimali-qərb vilayətində Alban tayfa ittifaqının, qərb vilayətlərində Manna və Mada tayfalarının, cənub vilayətlərində Sak tayfa ittifaqının təsiri altında getdiyindən, yaranan toplum da Alban, Manna, Midiya və Sak adlanır. Sak, Manna, Midiya və Alban dövlət qurumları Kiçik fərqlərlə eyni adlı və mənşəli tayfalardan təşəkkül tapır.

E.ə. I minilliyin başlanğıcından Sak vilayətindən müxtəlif istiqamətlərə, o cümlədən Manna, Midiya və Albaniya ərazilərinə miqrasiya başlayır. Əhali sıxlığı və ya ekoloji səbəblərdən baş vermiş bu miqrasiyada tayfaların köçü çox cüzi idi. Antik Yunan və Roma müəllifləri Xəzəryanı ölkələrin digər bölgələrinin Sak toplumu ilə eyniadlı yerli tayfalarını bütünlüklə gəlmə kimi qeyd edir. Bu yanlışlıq sonrakı tarixşünaslıqda anlaşılmazlıq, dolaşıqlıq, xüsusi siyasi məqsəd güdənlər üçün isə tarixi qəsdən təhrifə şərait yaratdı.

Azsaylı saklar inqilabi etnomədəni, sosial siyasi yüksəlişi necə yarada bildi?

Təbiət və sosial tarixin təcrübəsi, bu sahədəki elmi araşdırmalar





göstərir ki, eyni mənşəli, qohum genlərin birləşməsi bioloji və biososial genlərdə müsbət genləri daha da gücləndirir, hətta inqilabi nəticələr doğurur. Əksinə, yad, qohum olmayan, bioloji, biososial və sosial genlərin birləşməsi çox əzablı olur və mənfi nəticələr verir. Dominantlıq kəsb edən tərəf qəbul etdiyi genləri məhv edənə [bioloji, biososial, sosial və mənəvi] qədər əzablı mübarizə dövrü keçir. Məğlubun bütünlüklə sıradan çıxması, dominat genin tam qələbəsi üçün 4-5 nəslin dəyişməsi lazım gəlir. Bu prosesdə qalib tərəfin inkişafında ləngimə baş verir, bir çox hallarda o, məğlub tərəfdən mənfi genlər qəbul etməyə məcbur olur. Beləliklə, dominant genlərin yaradıcı inkişafı yolunda pozuntu və ləngimələr baş verir [120, 82-88; 121; 122]. Belə bir biososial prosesi və nəticələrini e.ə. I minilliyin başlanğıcında Azərbaycana gəlmiş sakların və farsların yerli əhali ilə etnomədəni münasibətlərində aydınlıqla görmək mümkündür.

Azərbaycanlılarla doğma biososial genlərə malik saklar Cənubi Xəzər vilayətinin sərt səhra və yarımsəhra iqlim şəraitində yaşamaq uğrunda mübarizədə onlar arasında təbii seçmə baş vermiş, genetik cəhətdən dözümlü, iradəli, möhkəm etnik birlik kimi formalaşmışdılar. Sakların bioloji sistemini yaratmış təbii-coğrafi şərait onlarda buna müvafiq etnopsixoloji, sosial-mənəvi sistemi də yaratmışdır. Xəzərsahili vilayətlərin sakları dağ, meşə şəraitində deyil, başlıca olaraq səhra və yarımsəhralarda maldarlıqla məşğul olur, ovçuluq edirdilər. Tez-tez tayfalararası münaqişələrə, müharibələrə cəlb olunurdular. Ovu, düşməni, rəqibi pusquya salmaq şəraiti çox az idi. Belə relyef, təbii-coğrafi şərait sakları çevik süvari olmağa, at üstündə çaparaq vəziyyətdə hədəfi vurmağı bacarmağa məcbur edirdi. Beləliklə, zaman sakların at üstündə çaparaq vəziyyətdə ovunu, düşmənini hədəfə alıb susdurmağı bacaran birinci nəslini yaratdıqdan sonra onların sonrakı nəsilləri üçün belə mübarizə, yaşayış həyat tərzinə çevrildi. "Sürətli atlı turlar", "qartal kimi şığıyan" bir xalq kimi tarix səhnəsinə çıxdılar. Elə şiş papağı da səhra şəraiti onlara kəşf etdirmişdir. Bu formada papaq sakları yayda istidən, qışda so-

yuqdan asanlıqla qoruyurdu. Ox ucluqları və qılıncları yüngül və kəsərli olmalı idi, necə ki, seçilmişdi. Onların həyat tərzi təbii olaraq hərbi intizam doğururdu.

Müxtəlif etnosların ilkin qarşılıqlı təması biz və onlar nümunəsində fərqlənmək cəhdi, hər biri adət-ənənəsinin, rəftar və davranış normalarının məhz belə olmalıdır təkəbbürlülüyünü nümayiş etdirir. Lakin sakların Azərbaycana kütləvi miqrasiyası zamanı yerli əhali ilə onlar arasında belə münasibət baş vermədi. Bu onların adət-ənənəsinin, rəftar və davranış normasının əsasən uyğun olduğunu, fərqli cəhətlərin anlaşılmazlıq yaradacaq səviyyədə olmadığını göstərir. Sakların yüksək hərbçilik, intizamlılıq kimi fərqləndirici etnopsixoloji əlaməti yerli əhalinin adət-ənənəsinə nəinki zidd idi, arzu olunan idi.

Saklarla Azərbaycanın yerli tayfaları arasında belə etnopsixoloji yaxınlıq onların Azərbaycana kütləvi miqrasiyasına qədər etnomədəni əlaqələrin fasiləsiz davam etdiyini, Azərbaycanın Cənubi Xəzər vilayəti saklarının yaddaşında vətən kimi yaşadığını göstərir.

Antropoloji, arxeoloji, etnoqrafik materiallar, qədim mənbələr Manna, Midiya, Albaniya əhalisinin saklarla doğma, qohum olduğunu, sakların Azərbaycana kütləvi miqrasiyasına qədər onlar arasında etnomədəni varisliyin fasiləsizliyini təsdiq edir. Bu sakların Azərbaycana kütləvi miqrasiyası zamanı onlarla yerli əhali arasında biz və onlar qarşılıqlı müqayisəsi prosesində onlar arasında etnopsixoloji ziddiyyət yaratmadı, onlar bir-birini doğma etnos kimi qəbul etdilər. Çünki onların biososial genləri doğma, eyni tipli idi. İlkin dövlət qurumunu yaradanda saklar "qartal kimi şığıyan" bir xalq, yorulmuş Manna və Midiyalıların babaları isə "dağ əjdahası" adlanırdı. "Qartal kimi şığıyan" sakların genində "dağ əjdahası"nın genləri olduğunu yuxarıda demişik. Odur ki, sakların Azərbaycana gəlişi biososial və mənəvi-siyasi bir canlanma doğurmalı idi. Ona görə ki, hər iki tərəfdə eyni tipli biososial, mənəvi genlər mövcud idi. Onların dominantlıq təşkil edən tərəfləri bir-birinə zidd deyildi. Bir tərəfdə olan dominantlıq digər tərəfin dominantlığı ilə üst-üstə





düşdüyündən qarşılıqlı canlanma yaradır, yeni yaradıcılıq impulsu verirdi. Ona görə də bu birləşmə biososial və mənəvi cəhətdən yaradıcılıqla, inkişafla nəticələnirdi.

Mənbələrin məlumatlarından göründüyü kimi, sakların hərbi ruhu Azərbaycan cəmiyyəti tərəfindən acgözlüklə mənimsənildi. Manna, Midiya və Sakların Assuriya və Urartuya qarşı hərbi-siyasi mübarizəsi ölkədə mədəni-mənəvi birliyi son dərəcə gücləndirdi. Bu da öz növbəsində etnokonsolidasiya prosesinə təkan verdi. Doğmalaşma, etnokonsolidasiya prosesi o qədər sürətlə getdi ki, ziddiyyətsiz Midiyanın siyasi hakimiyyəti 28 il (e.ə. 653-625) saklara keçdi. Yerli Midiya sülaləsinin hakimiyyətini bərpa etməsi də ciddi münaqişə ilə müşayiət olunmadı. Manna və Midiyanın birləşməsi də hərbi münaqişə ilə nəticələnmədi, təbii proses kimi başa çatdı. Manna Midiyanın mədəni-iqtisadi mərkəzi olaraq qalırdı [66, 228]. Sak çarlığında ciddi hərbi münaqişə olmadan Midiyaya birləşdi. Bütün bunlar ölkədə etnomədəni yekdilliyin yaranmasının nəticəsi idi. Beləliklə, Azərbaycanda mərkəzləşmiş dövlətin yaranması başa çatdı. Midiya bölgədə hegemon dövlətə çevrildi. Hərbi yürüşlərə başladı. Birinci farsları hakimiyyətinə tabe etdi. E.ə. 604-cü ildə Babil ordusu ilə birlikdə Assuriya dövlətinin varlığına son qoydu. Urartunu məğlub edib, öz hakimiyyəti altına aldı. Lidiya üzərinə hərbi səfər etdi. Midiyaya sona qədər hərbi müqavimət göstərə bilməyəcəyini başa düşən Lidiya çarı qızını Kiaksarın oğluna ərə verib, Qızıl İrmaq çayı sərhəd olmaqla, iki dövlət arasında sülh müqaviləsi imzaladı. Midiya Şərqin birinci imperiyası kimi tarix səhnəsinə çıxdı [97, 244]. Şərqin ilkin mərkəzləşmiş dövlətlərinin yaranmasından az sonra mərkəzi hakimiyyətin asanlıqla süqutu hadisəsi Midiyada da baş verdi [125; 126; 96]. Midiya, Manna və Sak çarlığının birləşməsi hərbi üsulla baş verməsə də, Midiyanın üstün gücünün təsiri altında getmişdir. Odur ki, Azərbaycanın Kiçik çarlıqları hakimiyyətlərinin itirilməsi ilə asanlıqla razılaşa bilmədiklərindən mərkəzi hakimiyyəti yekdilliklə müdafiə etmirdilər. Uzun illərin müharibəsinin yorduğu, bezikdirdiyi əhalinin yenidən fasiləsiz

müharibəyə cəlb edilməsi xalqı mərkəzi hakimiyyətdən narazı salır, mərkəzi hakimiyyət xalqın dəstəyini itirir. Yaranmış şəraitdən istifadə edən, e.ə. VII əsrdə Azərbaycan hüduduna gəlmiş farslar Midiya hakimiyyətində onlara etimad edilmiş vəzifələrdən istifadə edib, xəyanətlə, saray çevrilişi ilə mərkəzi hakimiyyəti ələ keçirib, yerli sülaləni devirdilər, Azərbaycanda siyasi hakimiyyəti mənimsədilər [97, 246-256]. Elə həmin andan da farslarla - Midiyalılar, mannalılar, albanlar, saklar arasında qanlı mücadilə başladı. Bu mübarizə yalnız siyasi hakimiyyət, siyasi müstəqillik uğrunda deyil, biz və onlar milli fərqləndirməsi kontekstində milli varlığını qorumaq, ona məxsus adət-ənənəni, mənəvi dəyərləri qorumaq uğrunda mübarizə idi. Odur ki, farsların siyasi hakimiyyəti ilə bərabər, mənəvi dəyərlərinə, adət-ənənələrinə qarşı da mübarizə aparır, qəbuledilməzlik göstərirdilər. Ona görə ki, hər iki xalqın totemi də daxil olmaqla, bütün mənəvi dəyərləri bir-birinə zidd idi. Midiyalıların, mannalıların, sakların və albanların ilkin totemi Boz qurd idi. Onların əfsanəvi qəhrəmanlarını ana qurd əmizdirir, tərbiyə edirdi [127, 30-34; 128; 129, 21-75; 130; 131, 96-107; 132, 158-182]. Cənubi Xəzər saklarında, Midiyalılarda, albanlarda amazonka adlandırılan qadın cəmiyyətlərinin nümayəndələri hər kişi ilə deyil, ancaq igid, qorxubilməz, hər bir şəraitdə döyüşməyi bacaran cəsur kişilərə ərə getmək, ailə qurmaq adəti ciddi gözlənilirdi. Onlar bu adəti məhz bozqurddan əxz etmişdilər. Ümumiyyətlə, Boz qurddan əxz olunmuş bir çox mənəvi dəyərlər, inam və etiqadlar çox güclü qorunur və yeni nəsillərə aşılanırdı. Qurd adı daşıyan, onun mənəvi psixoloji keyfiyyətlərini yaşadan böyük ellər, tayfa ittifaqları mövcud idi [128; 129; 130; 132, 158-182]. Midiyalıların, mannalıların, alban və sakların əksinə olaraq, farsların totemi it idi, fars Əhəməni sülaləsinin, dövlətinin yaradıcısı Keyxosrovu da itin xilas edib, əmizdirib, tərbiyə etməsi haqqında əfsanə yaranmışdı [102, 84; 125, 469]. Midiyalılarda, mannalılarda, sak və albanlarda düşmənlə döyüşüb, qalib gəlmək psixologiyası, əxlaqı hökm sürürdüsə, farslar ancaq hiylə və xəyanətlə qalib gəlmək psixologiyası, əxlaqı ilə yaşayır və





mübarizə aparırdılar [101; 102; 97, 246-256; 125, 477-480]. Midiyalılar, mannalılar, sak və albanlarda yaxın qohumla evlənmək qadağan olunduğu halda, farslarda ata-qız, ana-oğul, qardaş-bacı ilə evlənməsi qəbahət hesab olunmurdu. Əhəməni sülaləsinin hakimiyyətinə düşmüş xalqlar, farsların bu adəti ilə qətiyyən uyuşmur, onlara nifrət bəsləyirdi. Əhəməni sülaləsi farslara qarşı bu nifrətin qarşısını almaq üçün "Avestaya" bu etnik əxlaqsızlığı qanuniləşdirmək üçün maddə əlavə etdilər [125, 486; 90].

Azərbaycan xalqı ilə fars xalqı arasında yuxarıda göstərilən və başqa adət-ənənədən doğan psixoloji uyuşmazlıq idi ki, farslar Midiya sarayında hakimiyyəti ələ keçirən andan onlara qarşı mücadilə, üsyanlar başladı, müxtəlif üsul və vasitələrlə davam etdirildi. Ona görə ki, midiyalılar farslarla müqayisədə özlərini üstün, daha ləyaqətli hesab edirdilər.

Midiyalılarda müstəqil dövlətçilik şüuru, hakim ideologiya səviyyəsinə yüksəlmişdi. Şəxsi narazılığı zəminində Midiya hakimiyyətinin farslara satılmasını bağışlanılmaz hesab edərək Astiaq, Harpaqa sübut etməyə başladı ki, o, ən axmaq və vicdansız adamdır, axmaqdır, ona görə ki, Harpaq hər işi özü düzəltdiyi halda, özü padşah olmaq istəməyib, padşahlığı özgəyə verir, vicdansızdır, ona görə ki, öz şəxsi qərəzi xatirinə Midiyalıları qul vəziyyətinə salmışdır. Əgər taxtda özü oturmaq istəmirdi və mütləq bir başqasını oturtmaq lazım idisə, bu adamı Midiyalılar arasından seçmək daha doğru olardı. İndi Midiyalılar heç bir təqsirləri olmadığı halda qul oldular, keçmişdə Midiyalıların qulu olan farslar onların üzərində ağalıq edəcəklər [102, 86-87]. Göründüyü kimi, milli dövlətçilik, Harpaq kimi fərdlər istisna olmaqla Midiyalıların ali hisslərinə, əxlaqına, etnopsixoloji düşüncəsinə çevrilmişdir. Astiaq onun hakimiyyətini devirdiyi üçün deyil, "şəxsi-qərəzi xatirinə Midiyalıları qul vəziyyətinə saldığı" üçün, taxta özü və ya hər hansı Midiyalını gətirmədiyi üçün Harpağı ittiham edir. Astiaq Midiyalıların farsların əsarətinə düşüb, onların qullarına çevrilməməsi naminə hakimiyyətini öz xalqından olan şəxsi düşməninə verməyə hazır olduğunu sübut edir.

Astiaqın çağırışı ilə Midiya, Manna, Albaniya və Sak çarlığı hüdudunda farsların hakimiyyətinə qarşı üsyanlar, mücadilə başlayır [97, 253-313; 125, 447-504; 48, 120-130].

Midiyalıların fars əsarətinə düşməmək uğrunda mübarizəsini əks etdirən "Astiaq" əfsanəsi, onlarla qonşu Sak-Turan vilayətində "Alp Ər Tunqa" dastanında eynilə qeydə alınmışdır. "Astiaq" dastanında Astiaqın qızından doğulmuş Keyxosrov Midiyada, Sak padşahlığında isə Alp Ər Tunqanın qızından doğulmuş Keyxosrov Sak padşahlığında - Turanda hiylə ilə hakimiyyəti ələ keçirmişdir. Bir çox tədqiqatçılar dastanlardakı eyniyyətə əsasən Astiaq əfsanəsi ilə Alp Ər Tunqa dastanını eyniləşdirirlər. Midiya və Sak (Turan) ayrı-ayrı ölkələr olsa da, Farsistan bir əyalət, Keyxosrov bir şəxsiyyət idi. Bir ölkədə baş vermiş hadisənin eyni ilə ikinci ölkəyə aid edilməsi və ya bir ölkənin xalq yaradıcılığının eyni ilə qonşu ölkənin folklorunda əks olunması təsadüfi hadisənin deyil, təbii-tarixi prosesin nəticəsi olub, bu ölkələrin xalqlarının mənşəyi, onlar arasında etnomədəni münasibətlərin, əlaqələrin səviyyəsini müəyyən etmək üçün xüsusi əhəmiyyət kəsb edir [123, 35-45; 124, 66-67; 133, 41].

Kirin Massaget çarlığını işğalına təşəbbüsü zamanı bu xalqın, müstəqil dövlətçilik ideyasını hər şeydən - hakimiyyətdən, şəxsi mənafedən üstün tutduğu qabarıq şəkildə özünü göstərir. Kir qoşunları Massaget çarlığına yaxınlaşır. Bu zaman Massaget çarlığına padşahın dul qadını Tomris şahlıq edirdi. Kir elçilər vasitəsilə Tomrislə evlənmək istədiyini bildirib, onu bu işə razı salmaq istəyir. "Lakin Tomris anladı ki, Kir onu deyil, massagetlərin padşahlığını almaq istəyir və ona görə də təklifi rədd etdi" [101, 88]. Massagetlər fars ordusu ilə müharibəyə qərar verdilər. Açıq döyüşə cəsarət etməyən farslar hiylə ilə Tomrisin oğlu Sparqanişesin komandanlıq etdiyi hərbi hissəsinin yemək zamanı çoxlu şərab içmələrinə şərait yaratdılar. Sparqanişes və döyüşçüləri şərabdan məst olub yatdılar. Fars qoşunları onları əsir götürdü. Sparqanişes ayılan kimi hər şeyi anladı, Kirdən onun buxovdan azad edilməsini xahiş etdi. Açdılar, əllərini sərbəst hərəkət etdirmək imkanı tapan kimi özünü öldürdü.





Tomris Kirə məktub yazaraq bildirdi ki, "çox hiyləgər olmağına və oğlumu belə bir vasitə ilə ələ keçirdiyinə görə öyünmə, onu döyüş və hərbi şücaətlə ələ keçirməmisən... İndi mənə qulaq as, nə qədər doymaz olsan da, mən səni qanla doyuracağam".

Tomrisin başçılığı ilə massaget ordusu qalib gəldi. Tomris Kirin meyitini tapdırıb, başını insan qanı ilə dolu tuluğa saldırıb dedi: "İç, istədiyin qədər iç, bəlkə doyasan!" [101, 91-92].

Göründüyü kimi, farsların hakimiyyətini, əsarəti qəbul etmədiyindən Tomrisin oğlu cəsarətlə intihar etdi. Tomris əri olmasına razılıq versə belə, Kirin massagetlərə şah olmasına, xalqının farsların hakimiyyəti altına düşməsinə razılıq vermədi. Hərb yolunu üstün tutdu və qalib gəldi.

Massagetlərin Kirlə müharibəsi zamanı [e.ə. 530] iki massaget çarlığı var idi. Hər ikisi Qafqaz dağlarının ətəyində, Xəzər dənizi sahilində yerləşirdi. Hər ikisindən axan Araz çayı suyunu Qafqaz dağlarından götürüb, Massaget çarlığı ərazisində Xəzər dənizinə tökülürdü, hər ikisində dövlətçiliyə münasibət eyni idi, şəxsi həyatdan yüksək qiymətləndirilirdi, müqəddəs bir ideal idi [48, 124-125; 105, 114-126, 191].

Farsların Midiyada dövlət çevrilişi zamanı Astiaqın, Kirin Massaget çarlığı üzərinə hərbi səfəri zamanı Tomrisin əxlaqi, rəftar və davranışı tarixi hadisə olmaqla dövrün mənbələrində dərin iz qoymaqla, folklora çevrilib fasiləsiz milli həmrəylik, müstəqil dövlətçilik ideologiyası doğurdu. Bu hadisənin Orta Asiyada Sırdərya sahillərində, yoxsa Azərbaycanda baş verdiyini tarixçilərin birmənalı təsdiq edə bilməməsi təəssüf doğurmur. Hər iki xalqın adı massaget, dənizinin adı Xəzər, çayının adı Araz, dağının adı Qafqaz adlanmaqla, antropoloji quruluşları, adət-ənənəsi, etnik psixologiyası, davranış stereotipi eyni olduğu halda, onlarda ciddi fərqləndirici xüsusiyyətin tapılmaması təbii bir hadisədir. Təəssüf ki, Azərbaycan və Orta Asiya tarixçiləri bu eyniyyəti yaradan səbəbləri açmaq əvəzinə, bir hissəsi hadisənin Azərbaycanda, digərləri isə Orta Asiyada baş verdiyini əsaslandırmağa cəhd edirlər.

Mənbə və tədqiqatlarda Sak və Midiyalıların farslarla e.ə. VII əsrdən başlayan ilk təmasının dini-ideoloji düşmənçiliklə müşayiət olunduğu qeyd olunur. Farslar türklərin milli qəhrəmanı Alp Ər Tunqaya özlərinin şər, pislik ilahisi Əfrasiyabın adını verirdilər. Farslar Midiyalılardan qəbul etdikləri Zərdüşt dininə İran - Turan düşmənçiliyi ideyasını daxil etdilər. "Avesta"dakı xeyirlə şərin mübarizəsini İran-Turan mübarizəsi ideyasına çevirirdilər. Beləliklə, İran-Turan (fars-türk) düşmənçiliyi ideyası fars folklor, ədəbi əsər və tarixşünaslığında fasiləsiz olaraq yaşadilir, inkişaf etdirilir və etdirilməkdədir [123, 37; 124, 66-67; 95, 82-87; 134],

Farslar qısa vaxtda 80 ölkə işğal etdilər. Bu ölkələrdə özlərini hakim xalq elan etdilər. Mühüm dövlət vəzifələrinə ancaq farslar təyin olunurdu. Fars dilinə üstünlük verilir, tətbiqi genişləndirilirdi. Farslar hətta pul vergisindən azad edilmişdi [96, 375-376].

Farslar Hindistandan - Yunanıstana qədər əraziləri işğal edib, böyük bir imperiya qurdular. Əsarət altına alınmış bütün xalqlar Əhəməni imperiyasına qarşı mübarizə aparırdılar. Lakin üsyanın mərkəzi Midiya, əsas dayaqları saklar idi. Digər xalqların üsyanları onlardan bəhrələnirdi. Midiyalı Qaumat fars-əhəməni imperiyasına, onun alçaldıcı hakimiyyətinə qarşı istiqlal, milli birlik ideologiyasını yaratdı. Qaumat üsyanı qalib gəldi. Midiyalılar fars əsarətindən azad oldular. Əhəmənilər fars üsulu ilə - yəni döyüşlə deyil, hiylə üsulu ilə Qaumatı öldürüb, Midiyada yenidən hakimiyyəti ələ aldılar. Qaumatın ölümü "Asiyada farslardan başqa hamını heyifsiləndirdi" [96, 359-378; 125, 477-504; 97, 257-313].

Lakin fars-əhəməni imperiyasının amansız, zorakı tədbirləri kimi, ideoloji-psixoloji və siyasi təzyiqləri də Midiya və sak xalqının iradəsini sındıra bilmədi. Əksinə, Midiyada mərkəzləşdirilmiş dövlətin yaradılması prosesində hakimiyyətdən narazı qalmaqla yadellilərə meyllənmiş orta təbəqədə fars əsarətinə qarşı mübarizədə müstəqillik ideyası qəti formalaşdı. Adət-ənənəsi, inam və etiqadı, bütün əxlaqi dəyərləri onlara zidd olan bir xalqın əsarətindən qurtarmaq uğrunda mübarizə Midiya və Alban əhalisində etnomədəni





konsolidasiya prosesini daha da sürətləndirdi, onun etnomədəni birlik səviyyəsinə yüksəlməsi, xalq kimi formalaşması ilə nəticələndi. E.ə. 331-ci ildə Qavqamel döyüşündə III Daranın məğlubiyyəti ilə Əhəməni imperiyası dağıldı. Əhəməni imperiyasının hakimiyyəti altında olan xalqlar Makedoniyalı İsgəndərin qurduğu dövlətlərin hakimiyyəti altına düşdülər. Midiya sərkərdəsi Atropatın başçılığı ilə Midiya-Manna hüdudunda müstəqil Atropaten (Azərbaycan), Şimali Azərbaycanda isə mərkəzləşmiş Alban dövləti yarandı.

Strabon Midiya-fars qarşılıqlı mədəni təsiri haqqında yazır ki, farslar Asiya üzərində hökmranlıq edən Midiya hakimiyyətini devirdikdən sonra Midiyalılar" ata-babalarının yolunu davam etdirib onların şərəfini qorudular", farslar çara məxsus geyim hazırlamağı, ona xidmət etməyi, at üstündə ox-yayla döyüşməyi, şalvar, qollu köynək geyməyi, keçə papaq qoymağı və s. geyinməyi Midiyalılardan öyrəndi [136, 27-29].

Göründüyü kimi, Midiyalılar siyasi hakimiyyətlərini itirsələr də, yüksək mədəni təsir gücünə, yaradıcılıq enerjisinə malik olduğundan, yad fars mədəniyyətinin təsirinə düşmədilər, əksinə, gəlmə farslara mədəniləşdirici təsir göstərdilər. Azərbaycanda mərkəzləşmiş dövlətin yaranması, Azərbaycan xalqının ilkin təşəkkülü yad fars mədəniyyətinin, siyasi hakimiyyətinin dəf edilməsi şəraitində baş verdi. Midiya-Manna mədəniyyəti bütün komponentləri ilə fars mədəniyyəti üzərində dominantlıq göstərdi.

Lakin sakların Manna-Midiya və Alban tayfaları ilə antropoloji eyniyyəti, mədəniyyət və dil qohumluğu onlar arasında biz və onlar müqayisəsində heç bir etnopsixoloji uyğunsuzluq yaratmadı, onların yerli əhali ilə sürətli konsolidasiyası getdi. Bütün ölkəyə yayılmaqla Manna, Midiya və Albaniya əhalisi arasında birləşdirici rol oynadı, yaradıcılıq enerjisi verdi. Azərbaycan əhalisinin xalq kimi formalaşmasında, ona məxsus etnomədəni simanın, milli xarakterin müəyyənləşməsində etnomədəni komponent kimi iştirak etdi.

Mənbə və tədqiqatlar göstərir ki, Azərbaycan xalqının ilkin təşəkkülü mərhələsində iştirak etmiş etnik komponentlər həm fiziki

tipcə, həm də mədəniyyətcə avtoxoton və yekcins olmuşdur. Bunu antropoloji materiallar da təsdiq edir. Mənbələr Azərbaycan xalqının vahid adla deyil, Atropaten və Alban adlanmasına baxmayaraq, onların milli xarakterinin, inam və etiqadlarının eyniyyət təşkil etdiyini göstərir. Antik mənbələrdə Atropatenalıları "ən çox süvari döyüşən və müharibə üçün hər bir şeyi olan cəsur xalq", albanlar isə "ən cəsur xalq", "məğrur" xalq adlandırılır [136, 15-16; 137, 19-20; 59, 43; 60, 181; 48, 139, 146].

Bu dövrün diqqəti çəkən məsələlərindən biri Atropatena və Albaniyanın vahid Azərbaycan anlayışı altında təqdim olunması prosesidir. Qədim dilləri bilən tarixçi Y.Yusifov yazır ki, Urmiya gölü hövzəsindəki Azərbaycan padşahlığı Əhəmənilər imperiyası dövründə müstəqilliyini qoruyub saxlamış, Makedoniyalı İsgəndərin hakimiyyəti illərində də müstəqilliyini qorumağa nail olmuşdur. Bir çox hallarda hökmdarının adı ilə "Artabazanın vilayəti" adlanırdı [48, 133-139; 136, 54; 142, 113]. Əhəməni imperiyasının mövcudluğu dövründə azadlıqsevərliyi, bunu qorumaq cəsarəti ilə fərqlənən bu vilayət Midiya və Albaniyada müstəqillik ideologiyasının mərkəzinə, milli qürur mənbəyinə çevrilir. Beləliklə, vahid etnomədəni dəyərlərə malik əhalinin özünü milli qürur doğuran Azərbaycan mədəniyyətinin bir hissəsi kimi nümayiş etdirir və Azərbaycan etnopsixoloji dəyərləri ilə fərqlənməyə can atan əhali ilə məskunlaşan Midiya və Albaniyanı qonşu xalqlar tədricən Azərbaycan adlandırır. Midiya və Albaniya hüdudunda Azərbaycan xalqının etnik coğrafiyası qəti müəyyənləşir. III-V əsrlərdə Ümumxalq Azərbaycan dilinin yaranması başa çatır [147, 394]. Tədqiqatçılar arasında Azərbaycan anlayışının Az-As, Azəri etnonimlərindən yaranması fikirləri də var (180,12-23;361,3).

Azərbaycan ərazisində qəbilə və tayfaların minillərlə davam edən fasiləsiz birgə yaşayış, etnomədəni, maddi və təsərrüfat fəaliyyəti onların ümumi dilinin, həyat tərzinin, adət və ənənəsinin, mədəniyyətinin, psixikasının yaranması, onun vahid topluma - xalqa çevrilməsi ilə nəticələndi. Etnik coğrafiyası olan Azərbaycan xalqı yarandı.





Yuxarıda Azərbaycan xalqının yaranması prosesinin təbii-coğrafi, sosial-mədəni, etnopsixoloji, iqtisadi-siyasi səbəblərindən ardıcıl bəhs etdik. Lakin etnosun başlıca yaradıcı, fərqləndirici xüsusiyyəti, etnokonsolidasiyanın əsas vasitələrindən biri dildən bəhs etmədik. Halbuki, dil hər bir etnosun başlıca, fərqləndirici əlamətidir. Sovet imperiyası, o cümlədən Azərbaycan tarixşünaslığında, dilçilik ədəbiyyatında qəsdən, bilərəkdən elə qarışıqlıq yaradılıb ki, ondan ayrıca, xüsusi bəhs etmədən məsələyə aydınlıq gətirmək çətindir.

Dilçilik ədəbiyyatında dil nitq, ünsiyyət vasitəsi və s. kimi qiymətləndirilir, müxtəlif funksiyalarından bəhs olunur. Lakin dünya dilçilik və fəlsəfi ədəbiyyatında XIX əsr alman filosofu və dilçisi V.F.Humboldtun tərifi bu gün də özünün ən yüksək qiymətini saxlamaqdadır. O yazır: "Dil xalqın ruhunun sanki xarici təzahürüdür; xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir - bundan güclü olan eynilik təsəvvür etmək çətindir. Xalqın dilinin mənəvi özünəməxsusluğu və onun quruluşu bir-birinə o qədər sirayət edir ki, əgər biri mövcuddursa, digərini ondan almaq olar" [150, 23].

V.F.Humboldt hesab edir ki, dil ruhun və təfəkkürün fəaliyyətidir. İnsan ruhunda gerçəkliyin əksi vardır. V.F.Humboldt ruhu ilkin hesab edir. Belə nəticəyə gəlir ki, dil xalqın ruhundan doğur, dillərin müxtəlifliyi xalqların ruhunun müxtəlifliyindən asılıdır. O, dilin yaranmasını bəşəriyyətin daxili tələbatı kimi düzgün qiymətləndirərək yazır: "Dilin yaranması bəşəriyyətin daxili tələbatı ilə şərtləndirilir. O, təkcə insanların cəmiyyətdə xarici ünsiyyət vasitəsi deyil, insanların təbiətinin əsasında dayanır, onların mənəvi qüvvələrinin inkişafı, dünyagörüşünün əmələ gəlməsi üçün zəruridir" [146, 101-102]. Dahi Humboldtun bu nəzəriyyəsi yaranan kimi mütərəqqi alimlər, maarifpərvərlər tərəfindən yüksək qiymətləndirilib alqışlandığı halda, müstəmləkəçilər ondan əsarət altına aldıqları xalqlara qarşı silah kimi istifadə etməyə başladılar. Avropa müstəmləkəçiləri əsarət altına aldıqları xalqları dillərindən məhrum etməklə onları milli ruhlarından ayırmaqla assimilyasiya etmə siyasəti yerit-

dilər. Bu, birbaşa mümkün olmadıqda, xalqların doğma dilini yad dil elan edib, onların qədimdən əsarətində olduğu xalqla bir mənşədən və dildən olması haqqında uydurmaları onların şüuruna yeritməyə başladılar. Beləliklə, XIX-XX əsrlərdə bütün dünyanın işğalını başa çatdırmış Avropa irqçi, müstəmləkəçi tarixşünaslıq, dilçilik, fəlsəfə və s. yaratdı. Onlar süni surətdə antropologiya kimi dəqiq elmi, dilçilik, arxeologiya, etnoqrafİya, tarix və s. elmləri saxtalaşdırmaqla bütün sivilizasiyanın, hər şeyin "Avropadan başlanması" haqqında elmə, məntiqə uyğun gəlməyən nəzəriyyə və miflər uydurdular. Böyük mütəfəkkir Cəvahirləl Nehrunun sözləri ilə desək, Şərqin tarixini "baş-ayaq" qoydular. İlk öncə "Ari", bir qədər sonra "Hind-Ari", sonradan və hazırda "Hind-Avropa" adlı nəzəriyyə ilə Asiya xalqlarının tarixini saxtalaşdırdılar. Bu nəzəriyyənin başlıca mahiyyəti ondan ibarətdir ki, guya dünya mədəniyyəti ali irq olan avropalılardan başlanır, onların dünyaya yayılmasına qədər bütün xalqlar vəhşi olmuş, onlar mədəniyyət payladıqdan sonra bəşər mədəniləşmişdir. Odur ki, ali irq olaraq onlar dünyanı idarə etmək və dəyişdirmək səlahiyyətinə malikdirlər.

Bu uydurma nəzəriyyəyə görə, guya e.ə. II minilliyin ortaları - I minilliyin əvvəllərində cənubi-şərqi Avropadan Orta Asiyaya ari tayfaları gəlmiş, bir hissəsi Hindistana getmiş, digər hissəsi indiki farsların, taciklərin, əfqanların və Pamir xalqlarının yerində qalmışdır. Ari tayfaları o qədər "mədəni, güclü, təsirli" olmuşdur ki, bütün Mərkəzi və Ön Asiya, Azərbaycan və b. ölkələrin yerli əhalisinin dilini və mədəniyyətini dəyişmişdir. Onları ari-irandilli və mədəniyyətli xalqa çevirmişdir [126, 382-401; 48, 83; 111, 97; 144, 179-194]. Lakin antropologiya və arxeologiya elmi sübut edir ki, nə qədim, nə də orta əsrlərdə Avropadan Asiyaya, burada etnik proseslərə təsir edib onu az-çox dəyişdirə biləcək hər hansı miqrasiya olmamışdır. Ümumiyyətlə, antropologiya və arxeologiya elmində bu haqda heç bir məlumat yoxdur. Bu haqda bütün yazılanlar mənbəyi olmayan uydurmalardan başqa bir şey deyildir.

Yuxarıda istifadə etdiyimiz bütün arxeoloji, antropoloji və etnoqrafik ədəbiyyatlar Azərbaycanın Şimali və Şərqi Afrika, Ön Asiya ilə bərabər antropogenez zonasına düşdüyünü təsdiq edir. Avropa mərkəzçilər Şərqi Avropanın da antropogenez zonası olmasını iddia edir. Şərqi Avropanın antropogenez zonası hesab olunması da ari nəzəriyyəsinin təsirindən doğmuş, fakta əsaslanmır.





Görkəmli antropoloq Y.Y.Roqinski yazır ki, Homo insanın Avropa mənşəli olması fikri əleyhinə bir sıra dəlillər var. Avropanın üst pliosenində antropomart meymunların tapıntıları əldə olunmayınca bu qitədə insanın mənşəyi haqqında fikir söyləmək olmaz. O ki, qaldı erkən formalara Darvin driopitekinin kök dişləri ilə insan dişlərinin yaxınlığına baxmayaraq, hər halda belə hesab etmək olar ki, məs. svalik çöküntüləri və yaxud Cənubi Afrikadan tapılan insanabənzər varlıqlar Avropada olmamışdır [148, 306]. Bütün dünya xalqlarının bir kökdən yaranması haqqında monogenez nəzəriyyənin irəli sürdüyü antropoloji, arxeoloji və dilçilik materialları Avropanın, Cənub-Şərqi Asiyanın insanın yarandığı ilkin ocaqlar olduğunu inkar edir. Arxeoloji tədqiqatlar, antropoloji materiallar sübut edir ki, insanın əcdadları olan arxantroplar və paleantroplar müxtəlif qitələrdə yayılsalar da, onların hamısı öz inkişafını sona çatdıra bilməmiş, müasir insan tipinə çevrilməmişlər. Müxtəlif irqli müasir insanlar bir və bir-birinə çox yaxın olan bir qrup neandertallardan tədricən inkişaf edərək formalaşmışdır. Neandertallara məxsus qeydə alınmış digər qalıqlar isə sadəcə olaraq öz sonrakı inkişafını dayandırmış və tədricən məhv olmuş növə aiddir [46, 32]. Dilçilik elmində monogenez nəzəriyyəsini əsas götürən və bu nəzəriyyəyə öz töhfələrini verən, cəsarətlə demək olar ki, onu nəzəriyyədən sübut olunmuş elmi-praktiki əsas səviyyəsinə yüksəldən professor Q.Kazımov yazır ki, hələ dillərin təşəkkül tapmadığı dövrlərdə (alt və orta paeolit nəzərdə tutulur - X.X.) Avropa, Asiya və Afrika kimi qitələrdə neandertal insanın geniş yayılması nəticəsində" sonrakı 35-40 min il ərzindəki (üst paleolit nəzərdə tutulur - X.X.) təşəkkül dövründə müxtəlif dillər yaranmalı idi və deməli, bir ulu dildən söhbət gedə bilməzdi. Belə olduqda, xalqlar da kök etibarı ilə fərqlənməli

və dini inkişaf da tamamilə fərqli olmalı idi. Lakin tarixi faktlar və arxeoloji materiallar göstərir ki, bütün etnoslar, bütün dillər, bütün dinlər bir kökdəndir" [147, 11]. Onda qarşımıza belə bir sual çıxır: Müasir insan harada formalaşmışdır?

Tarixi, arxeoloji, etnoqrafik və antropoloji ədəbiyyatda müasir insanın formalaşması üst paleolit dövrünə, yəni - e.ə. 35-ci minillikdən e.ə. 12 minilliyə qədər dövrə aid edilir. Onun formalaşdığı ərazi isə Şimali Afrika, Orta Asiya, Cənub-Şərqi Avropa, bəzi ədəbiyyatlarda isə Cənub-Şərqi Avropa deyil, Qərbi Avropa hesab edilir [14, 142-169; 46, 32; 148, 281-472]. Antropoloji və arxeoloji tədqiqatlar irqlərin üst paleolit və mezolit dövründə formalaşdığını göstərir. Bütün xalqları bir kökdən hesab edən antropoloqlar irqlərin müxtəlif iqlimlərin təsirindən yarandığını göstərirlər, Ön və Kiçik Asiyada yaranan avropoidləri birinci irq, monqoloid və neqroidləri ondan ayrılandan sonra düşdüyü yeni iqlimin təsirindən formalaşan irq hesab edirlər. Avropoidlərin gözün və saçın qara rəngini qafqazlılardan aldığını göstərirlər. Coğrafi vəziyyətinə görə Qafqazı Qərbi Avropa ilə müqayisədə insanın ilkin vətəni olmasını daha əsaslı hesab edirlər. Belə ki, Qafqaz üç - Asiya, Avropa və Afrika qitəsinin kəsişməsində yerləşməklə ilkin insanın məskunlaşması üçün vacib olan yüksək dağlarla daha zəngindir [148, 367-368].

Monogenez nəzəriyyəsi əsaslandırır ki, müasir insan son paleolitdə Aralıq dənizinin şərq sahillərində formalaşmış, buradan Şimal-Qərbi Avropaya, Cənubi Afrikaya, Cənub-Qərbi və Cənubi Asiyaya, Asiyanın dərinliklərinə yayılmış, ardıcıl olaraq yeni ərazilərə keçmişlər. Qədim insanın əcdadlarının (neandertalların) müxtəlif qrupları ilə qarışmış insan nəslinin yeni-yeni populyasiyalarını yaratmışlar. Afrika qitəsinin cənubunda, Yava adasındakı neandertallar bu prosesə qoşula bilmədiklərindən məhv olub sıradan çıxmışlar. Beləliklə, müasir insanın qədim əcdadı yaranıb dünyaya yayılır və sonrakı prosesdə məskunlaşdıqları ərazilərin təbii-coğrafi şəraitinə uyğun bir kökdən olan xalq avropoid, avstroloid, neqroid və monqoloid irqləri yaranır [14, 151]. Antropoloji ədəbiyyatdan göründüyü kimi, "avropoid" adlanan bu irq aborigendir, Asiya mənşəlidir, Cənub-Qərbi Asiyada yaranmış, buradan Avropa qitəsinə keçmişdir [148, 442-443; 371, 94]. Göründüyü kimi tarix zorlanmış Asiaoid adlandırılmalı irq avropoid adlandırılmışdır. Monogenez nəzəriyyəsini təsdiq edən antropologiya və arxeologiya elmi insanın ilkin yaranışını dünyaya yayılmasını, irqlərin və xalqların yaranması haqqında dini fəlsəfəni, xalq yaradıcılığından gələn mifoloji məlumatları təsdiq edir. Bu tarixi, dini-mifoloji məlumatları Azərbaycan tarixçisi Musa Kalankakatuyklu da təkrar etmişdir [159; 160].





Əldə olunmuş antropoloji materiallar və bu sahədə aparılmış tədqiqatlar Şərqi Aralıq dənizi əhalisi ilə bərabər Zaqafqaziya, onun etnik ocağı Quruçay-Qarabağ əhalisi də ilkin avropoid irqinin yaranmasında iştirak etmişdir. "Avropoid" termini Avropa irqçilik ideologiyasının yaranmasından sonra meydana çıxmışdır. Aralıq dənizinin şərqində yaranan bu irqi antropoloqlar əvvəllər "Aralıq dənizi" irqi, bir qədər sonra "Hind-Aralıq dənizi" irqi adlandırmışdılar. Avropada hakim millətçilik ideologiyasının yaranmasından sonra "Hind-Aralıq dənizi" irqi avropoid adlandırılmağa başlandı, şərhlər süni surətdə elə uyduruldu ki, guya bu irq Avropada yaranıb, sonradan buradan Asiya, Afrika və digər qitələrə keçərək, dünyanı mədəniləşdirmişdir. Antropoloji materiallar və tədqiqatlar göstərir ki, bugünkü Avropa əhalisi - irqi Cənub-Qərbi Asiya "Aralıq dənizi" sahili irqin ondan ayrılmış bir qoludur. Onlar Asiya qitəsinə hər hansı etnik impuls verməmişlər, özlərini ali irq adlandırmaqla, işğalçılıq siyasətləri ilə Asiya və b. qitələrin etnik və tarixi inkişaf prosesini, ekoloji əsaslarını pozmuşlar [148, 512-518; 371].

İnsanın bioloji varlıqdan sosial varlığa çevrilməsinin başlıca səbəbi onda başqa bioloji varlıqlardan fərqli olaraq şüur və nitq-dil aparatının olmasıdır. Məhz şüurlu fəaliyyət, fikrini açıq nitq vasitəsi ilə həmcinsinə çatdırması imkanı, bu imkanın yaratdığı yeni imkanların inkişafı sayəsində o, heyvanı həyatdan tədricən ayrılmış, şüurlu, planlı yaşayış sistemi insanı bioloji varlıqdan sosial varlığa çe-

virmişdir. Bu proses çox uzun vaxt aparmış, milyonlarla illərin təkamülü, inkişafı nəticəsində yaranmışdır. Alimlər ilk insanların təfəkkür və nitqini iki mərhələyə bölürlər: birinci mərhələ arxantroplar və paleontroplar mərhələsi, ikinci mərhələ - Homo Sapiens mərhələsidir. Birinci mərhələdə insanın yalnız hissi-əyani təfəkkürə malik olduğunu, nitqin üzvlənmədiyini qəbul edirlər. Abstrakt təfəkkür, üzvlənən nitq insanın inkişafının ikinci mərhələsinə aid edilir. Son paleolitə qədər insanın nitqi üzvlənməmişdir. Üzvlənən nitqin təşəkkülü e.ə. son 40-35 min il ərzində baş vermişdir [147, 15]. Deməli, ilk irqin formalaşması ilə üzvlənən nitqin - dilin təşəkkülü eyni zamanda baş vermişdir.

Ən qədim insanların nitqi bir hecalı, dəyişməyən və bir-biri ilə bağlanmayan sözlərdən ibarət olmuşdur. Onlar əksərən başqa canlılar kimi kəsik-kəsik qışqırıqlarla danışmışlar. Birgə fəaliyyət tədricən eşidilən səsin mahiyyətini anlamaq imkanı yaratmışdır. Lazımi mənalar müəyyən səslərlə mənimsənilmişdir. Başqa canlılardan fərqli olaraq, insan rəngarəng səslər tələffüz edə bilmiş və onların birləşmələri tədricən söz şəklində formalaşmışdır. İnsan zərurət nəticəsində elə əşyaları adlandırmalı olmuşdur ki, onunla daim əlaqədə olmuş, həmin əşyalar onun məişətinə daxil olmuşdur. Dil tədricən, yavaş-yavaş inkişaf etmişdir [151, 34-35].

Dil tarixçisi, professor Q.Kazımov yazır: "Beləliklə, məhdud coğrafi ərazidə (Ön Asiya hüdudları nəzərdə tutulur - X.X.) təşəkkül tapan dil ibtidai insan dəstələrinin ilkin adlandırma və fərdi nitq xüsusiyyətləri ilə fərqlənsə də, tədricən vahid dil kimi ümumiləşmə prosesi keçirmişdir. Biz bu dili ulu dil adlandırırıq" [147, 16]. O, bu qənaətə gəlir ki, üst paleolit "dövründə ulu dil tam təşəkkül tapmış, mürəkkəbləşmə istiqamətində böyük inkişaf yolu keçmiş, sonrakı minilliklərdə miqrasiyaların çoxalması ilə parçalanmağa başlamış, tədricən ilkin forma-quruluş etibarı ilə bir-birindən fərqlənən və gələcək dil ailələrinin başında duran protodilləri doğurmuşdur. Nəticədə yer üzərində yaranmış ulu dildə təqribən e.ə. XII minillikdə böyük bir mərhələ başa çatmış, ulu dilin parçalanması, müxtəlif dialektlərin, müasir dil ailələrinin başında duran protodillərin yaranması prosesi sona yetmişdir (müxtəlif dillərin bir-birindən sonrakı təcrid olunmalarını inkar etmirik). Müxtəlif dil ailələrinin yaranması bundan sonrakı inkişaf prosesinin nəticəsidir". O, sözünə davam edərək yazır ki, tarixdən aldığımız təəssürat əsasında deyə bilərik ki, 14 min il əvvəl ulu dil artıq parçalanmışdı və hazırda Yer üzərində yaşayan dil ailələrinə aid kök dillər, yəni prahindavropa, protosami, prototürk (pratürk və s.) mövcud idi [147, 16]. Ulu dil nəzəriyyəsinin yaradıcıları və bu nəzəriyyə zəminində dil tarixinə yanaşan dilçilər ulu dilin mezeolit dövründə parçalanmasını bu dövrdə iqlimin dəyişməsi, istiləşməsi ilə Ön Asiyadan dünyanın müxtəlif ölkələrinə güclü miqrasiyaları ilə izah edirlər.





Təqribən miladdan əvvəl XII minillikdən dilin inkişafında ikinci böyük mərhələ - proto dillərin parçalanması mərhələsi başlayır və e.ə. XII-VI minilliklər arası dövr dil ailələrinin təşəkkül dövrü hesab olunur.

E.ə. VI minilliyə qədərki dövr haqqında yalnız arxeoloji materiallar əsasında məlumat almaq olur. Mezolitdə insanın əmək fəaliyyətində, dünyagörüşündə, ətraf aləmə münasibətində əmələ gələn dəyişikliklər onun təfəkkür və nitqinin inkişafına səbəb olur. 12 min il əvvəl Qobustan düşərgəsi materialları bunun əyani sübutu sayılır. Neolit dövründə insanın oturaq həyata keçməsi, maldarlıq və əkinçiliklə əsaslı surətdə məşğul olmağa başlaması onun dərketmə qabiliyyətinin yüksəlməsi üçün güclü zəmin yaradır, ibtidai insan ilkin incəsənət vərdişləri əldə edir. İnsan sürətlə artır, dillər uzaq ərazilər və uzun minilliklər hesabına tədricən bir-birindən fərqli keyfiyyətlər qazanmağa başlayır: "Artıq ibtidai tarixin sonunda ən iri dil ailələri, başqa sözlə, qrammatik quruluşuna və əsas lüğət fonduna görə yaxın olan dil ailələri mövcud idi: Hind-Avropa (müasir slavyan, baltik, german, kelt, roman, İran, hind, yunan və b. dillər), sami-hami dilləri (qədim Misir, sami-akkad (babil, assur), Finikiya, qədim yəhudi, ərəb, həbəş (amxar) və b. dillər), həm də Şumer, xurrit, Altay (türk, monqol və b. dillər, Çin-Tibet (çin xalqlarının dilləri,

Tıbet, Vyetnam, Birma), Ural (fin-uqor-somodiy dilləri) və s." [152, 35-36; 147, 52-53].

Bu dövr hazırki türk dilləri üçün pratürkün parçalanması dövrüdür. Professor Y.B.Yusifov yazır: "Hind-Avropa leksikası qədim şumer, elam, sami və müasir kartvel, türk dillərində ayırd edilmişdir, lakin Türk-Hind-Avropa dil ünsiyyətini Orta Asiyanın ərazisi ilə bağlayırlar. Tədqiqatlar göstərir ki, Ön Asiyada Hind-Avropa dil birliyinin parçalanması zamanı burada prototürk (yaxud pratürk) etnosu yaşayırdı. Bunu xüsusilə qədim Azərbaycanın ərazisi ilə əlaqədar müəyyən edilmiş prototürk ünsürləri və şumer dilinə keçmiş prototürk leksikası aydın göstərir. Çox güman ki, pratürk dil birliyinin parçalanması e.ə. VIII-VII minilliklərdə baş vermiş və bu dövrdə Hind-Avropa dili ilə ünsiyyətdə olmuşdur. Bu etnoslar arasında qarşılıqlı leksik mənimsəmələr prototürklərin ilk vətəni Ön Asiyada baş vermişdir" [48, 83].

Monogenez nəzəriyyəsini əsas tutan dilçilər, bütün dünya dillərinin bir ulu dildən yaranmasını dil materialları əsasında izah və sübut edirlər. Azərbaycan türklərinin tarixinin ilk dəfə bu nəzəriyyə zəminində tədqiqinə tarixçi alimlərdən professor Y.B.Yusifov təşəbbüs göstərmişdir. Dilçi alimlərdən professor Q.Kazımov isə Azərbaycan türklərinin etnogenezi və dil tarixinin bu nəzəriyyə əsasında tədqiqinə samballı monoqrafiya həsr etmişdir. Onun əsərində monogenez nəzəriyyəsinin tarixi, dil materialı əsasında izahı, türk dilinin yaranması və inkişaf yolu elmi əsaslarla şərh olunmuşdur. Qeyd edək ki, monogenez nəzəriyyəsi yalnız dil materialı ilə deyil, antropoloji və arxeoloji materiallarla da təsdiq olunur. Yuxarıda diqqətə çatdırılan, antropoloji, arxeoloji faktlar, dilçiliyin verdıyi qədim dil materialları göstərir ki, avropoid adlanan irq, Hind-Avropa dil qrupu Avropanın yetişdirməsi deyil, Asiya qitəsinin, məhz Ön Asiyanın tarixi sosial-mədəni inkişafının məhsuludur. Bir daha təkrar edirik ki, Avropadan Asiya qitəsinə keçən və burada etnomədəni prosesləri, mədəniyyəti dəyişəcək miqrasiya nə qədim dövrdə, nə də son dövrlərdə baş verməmişdir. XIX-XX əsrlərdə Avropada





yaranmış Hind-Avropa nəzəriyyəsinin bir dil ailəsini ali irq adlandırması, digərlərini mədəniyyətə yad, geridə qalmış dağıdıcı kimi təbliğ etməsi burada xalqlar arasında düşmənçilik, etnik separatçılıq salmaqla işğalçılıq planlarını asanlıqla həyata keçirmək siyasətindən başqa bir şey deyildir. Arxeologiya elmi sübut edir ki, insan nəsli Avropaya Ön Asiyadan Zaqafqaziya vasitəsi ilə keçmişdir [46, 37; 148, 442-443].

Professor Y.B.Yusifov yazır ki, "pratürk dil birliyinin parçalanması e.ə. VIII-VII minillikdə (Ön Asiyada - X.X.) baş vermiş və bu dövrdə Hind-Avropa dili ilə ünsiyyətdə olmuşdur" [48, 83]. Onun bu fikirlərini prof. Q. Kazımov yeni elmi arqumentlər və dəlillərilə daha da zənginləşdirir. O yazır ki, "tipoloji cəhətdən fərqlənən protodillər ulu dilin daxilində güclü dialekt kimi fərqlənmişlər... tipoloji cəhətdən fərqlənən ilk protodillər ilkin təcridolunma mərhələsində eyni quruluşlu bütün dil ailələrinin başında durmuşlar" [147, 17]. Q.Kazımov bu nəzəri müddəasının şərhini əsaslandırmasını əyaniləşdirmək üçün e.ə. VIII-V minillikdə dünya əhalisinin məskunlaşma və miqrasiya xəritəsindən istifadə etmişdir [147, 12]. Dünya dillərinin bir kökdən olub, Ön Asiyada yaranıb, buradan başlayan miqrasiyalar nəticəsində parçalanıb, təcrid olunub yayılmaqla, yeni dillər kimi formalaşmasını aydın ifadə edir. Q.Kazımovun yeni dillərin yaranması üçün "ulu dil"in daxilində güclü dialektlərin olması düzgün elmi arqumentdir. Alt paleolit dövründən başlayaraq, bütün arxeoloji dövrlərdə etnomədəni inkişafın fasiləsiz davam etdiyi Ön və Kiçik Asiya, Qafqaz, Azərbaycan, Xəzərin qərb, şimal-qərb, cənub bölgələri vahid etnik məkan kimi formalaşmışdır. Mezolit dövründən bu etnik məkandan başlayan miqrasiya Afrikaya, Afrikanın şimal-qərbindən Avropaya, Bəsrə, Ərəb dənizi sahilləri ilə Cənubi Asiyaya hərəkət etdilər. Bu məkanda ulu dilin daxilində xüsusi dialektlər yaratmış toplumun birgə köçü təbii idi. Ona görə ki, onların ünsiyyət vasitəsi - dili (dialekti), anlayışları, məişəti bir-biri üçün daha aydın və anlaşıqlı idi. Bu dövrün miqrasiyasına nəzər salanda dəqiqliklə görünür ki, Ön Asiyadan Bəsrə, Ərəb dənizi sahilləri ilə

Asiyanın cənub-şərqinə gedən miqrasiya irandilli və digər xalqları yaratmışdır. Ön Asiya ilə ümumi mədəniyyətə malik İkiçayarası, Azərbaycan, Zaqafqaziya, Xəzərsahili vilayətlərin vahid mədəniyyət yaratmış tayfaları ulu dil daxilində pratatürk dialektini də yaratmışdılar. Odur ki, onların burada və buradan mərkəzi, şərqi, Şimali Asiyaya, Xəzərin sahillərindən Şərqi Avropaya keçən miqrasiyaları türk dillərini və xalqlarını yaratdılar. Prof. Q.Kazımov doğru olaraq yazır ki, türk dilinin ilk ocağı Ön Asiya ilə birlikdə Zaqafqaziyadır. "Azərbaycan əraziləri pratürkün vətəni olmaqla, onun parçalanma sahəsi kimi mərkəzi mövqe tutmaqdadır" [147, 53].

R.A.Ağayeva yazır ki, tarixşünaslıqda mövcud fikrə görə, yaşayış məntəqələrinin adı ilə müqayisədə hidronimlər tarixi daha yaxşı mühafizə edirlər. Göllərin, böyük çayların, onun qollarının adları sahillərində məskən salmış tayfaları, onların totemlərini, bir yerdən başqa ərazilərə köçmələrini, yeni ərazilərdə məskunlaşmalarını, bir əhalini digərinin əvəz etməsini aydınlıqla ifadə edir. Sözünə davam edən müəllif yazır ki, Volqa çayının sahillərində yaşayan xalqlar onu müxtəlif cür adlandırmışlar: türkcə İtil (müasir çuvaş dilində Etel, Atal), mari dilində Yul, bu çayın daha qədim adı Ra mordav dilində mühafizə (Ptolomey xatırlamışdı) olunmuşdur. Hidronimlərin əksəriyyəti etnonimlərlə əlaqədardır. Ona görə də etnogenez probleminin tədqiqi zamanı hidronimlərə xüsusi diqqət yetirmək lazımdır [140, 68-69]. R.A.Ağayevanın hidronimlərin tarixi daha yaxşı mühafizə etməsi fikri dünya tarixşünaslığında qəbul edilmiş fikirdir. Volqa çayının xatırlatdığı qədim adlarında tədqiqatımızın əsaslandırılması üçün faydalı, sübut edici material verilir. Görünür, R.A.Ağayeva mənbə və tədqiqatlarla lazımınca işləmədiyindən ikinci əsrə aid Ra adını Volqa çayının ən qədim adı kimi təqdim edir. Halbuki, e.ə. V əsrdə tarixin atası Heredotun əsərlərində Volqa çayının adı Araz adlandırılır və Heredot və digər antik müəlliflər beş Araz çayı haqqında məlumat verirlər. Bunlar Kiçik Asiyadan mənbəyini götürən, Azərbaycandan keçib qədimlərdə Xəzərə tökülmüş, sonradan Kürə qovuşan Araz, Sırdərya, Amurdərya, Volqa,





Tanais (Don) çaylarıdır [105, 114-126]. Tədqiqatçılar hələ Heredotdan əvvəl, e.ə. VI əsrdə yunan coğrafiyaşünası Hekatayın Kiçik Asiyadan başlayıb Xəzərə tökülən Araz çayı haqqında məlumat verdiyini yazırlar [100, 59; 79, 67]. Həmçinin e.ə. V əsr müəllifləri Mesopotomiyada Araz adlanan çayın olduğunu yazırlar [79, 68]. Tədqiqatçılar Araz hidronimlərinin Skif-Sak hüdudunda yayılması, yaranması ideyasını təsdiq edirlər [105, 114-126; 100; 79, 67-68; 155, 65]. Təəssüf ki, bu müəlliflər Altay nəzəriyyəsini əsas götürdüklərindən e.ə. VII əsrdə Sakların Ön Asiyaya miqrasiyası ilə burada türk dilli toponimlərin, Araz hidroniminin yaranması qənaətinə gəlmişlər. Bu yanlışlıq skiflərin tarixinə subyektiv yanaşmadan qaynaqlanmışdır. Sak-skiflərin obyektiv tarixi bu tipli yanlışlığı aradan qaldırmağa imkan verir.

Skif-sakların mənşəyi antik dövrdən maraq doğursa da, onlar haqqında verilən yarımçıq, bir çox hallarda bir-birinə zidd fikirlər, XIX-XX əsr tarixşünaslığının qədim tarixə siyasi məqsədlərlə yanaşması skiflərin tarixinin obyektiv dəyərləndirilməsinə imkan verməmişdir. Lakin müsbət cəhət odur ki, bu sahə tədqiqatçıları arasında tarixi-elmi həqiqətə çatmaq istəyində olan alimlər az da olsa, olmuşdur.

Dunaydan - Çinə, Xəzərsahili ərazilərə, Şimali Mesopotomiyaya, Kiçik Asiyaya yayılmış vahid Aralıq dənizi antropoloji irqinə, mədəniyyətə malik (coğrafi şəraitin yaratdığı bəzi fərqlər nəzərə alınmaqla) bu xalqın mənşəyi obyektiv və subyektiv mülahizələrə səbəb olmuşdur. Onu Asiya və Avropa sak-skiflərinə ayırmaq cəhdləri olsa da, onların vahid mənşədən olmalarını inkar etmək mümkün olmamışdır. Ön və Kiçik Asiya, Xəzərətrafı, Orta Asiya Sayan dağlarına qədər ərazinin sak-skif mədəniyyətinin formalaşdığı əsas ocaq hesab edilməsi ideyası üstünlük təşkil etmişdir. Skiflərin - türklərin monqoloid irqinə aid edilməsi qəti təkzib edilmişdir. Sayan, Tyanşan dağları ərazilərinə cənubdan tunc dövrünün sonlarında monqoloid irqi çox zəif gəlib çatmışdı [148, 410-411; 105, 37-48].

Yuxarıda istifadə etdiyimiz arxeoloji və antropoloji ədəbiyyatlar,

digər elmi tədqiqatlar göstərir ki, skif-saklar Ön Asiya, Zaqafqaziya, Xəzərsahili vilayətlərin, Mərkəzi Asiyanın aborigen əhalisinin etnokonsolidasiyası zəminində formalaşmış, buradan ardıcıl olaraq Şimala, Şərqi Asiyaya, Şərqi Avropaya miqrasiya etmişlər. Azərbaycan tarixşünaslığında mövcud olmuş, bu gün də davam edən e.ə. VII əsrdə sak-skiflərin Azərbaycana, Ön Asiyaya miqrasiyasına istinad edib bu ölkələrin türk mənşəli etnonim və toponimlərinin Mərkəzi Asiya, Sibir və Şərqi Avropadan gəlmə kimi izah etmək ciddi yanlışlıqdır. Yuxarıda istifadə etdiyimiz antropoloji və arxeoloji tədqiqatlar, etnoqrafik materiallar göstərir ki, e.ə. VII əsrdə sakların Azərbaycana və Ön Asiyaya miqrasiyası türklərin bu istiqamətdə əks miqrasiyasının başlanmasıdır. Azərbaycan və Ön Asiyanın türk mənşəli etnonim və toponimləri irqlərin yaranması və ulu dilin dialektlərə parçalanması zamanından yaranmışdır. E.ə. VII əsrdən türklərin əks miqrasiyası ilə daha da zənginləşmişdi. Azərbaycanın türk mənşəli etnonim və toponimlərinin, Şərqi Avropa, Orta Asiya və Sibir paralellərini müəyyən etmiş görkəmli toponomist Q.Qeybullayev Azərbaycanın türk mənşəli toponim və etnonimlərində aborigen toponimlərlə türklərin əks miqrasiyası zamanı yaranmış etnonim və toponimlərin nisbətini dəqiq müəyyən edə bilməmiş, bu məsələ haqqında yazmışdı: "Azərbaycanda, o cümlədən Qarabağda qədim türk tayfalarının yaşamasından danışarkən onların adlarını VIII-XIII əsrlərdə Cənubi Rus çöllərində yaşamış tayfaların adları və Şimali Qafqazda, Orta Asiya, Qazaxıstan və Sibirdə indi də mövcud olan etnonimlərlə müqayisə etməyimizdən belə nəticə çıxarılmamalıdır ki, Azərbaycandakı tayfaların hamısı həmin ölkələrdən gəlmişdir. Biz sadəcə olaraq mənbələrin azlığı üzündən fikrimizi sübut etmək üçün etnonimik və toponimik paralellər gətirməyə məcburuq [81, 90].

Antik yunan və roma müəlliflərinin etnonim və toponimləri qeydə aldığı tarix onların yaranma tarixi kimi qiymətləndirilir. Bu tarix müəllifin etnonim və toponimlə rastlaşma və ya onun haqqında məlumat tarixidir. Antik müəlliflərin qeydə aldığı etnonim və toponimlər 500-1000 il, əvvəl yarana bilərdi. Miqrasiyaların və sosial-siyasi hadisələrin müqayisəli təhlili ilə etnonim və toponimlərin yaranma tarixini obyektiv müəyyən etmək olar. Sovet tarixşünaslığında Azərbaycan türklərinin gəlmə olmasına cəhd o qədər güclü olmuşdur ki, hətta Alban tayfalarının da gəlmə olmasını yazmağa təşəbbüs göstərilmişdir. Unutdular ki, Alban etnonim və toponimləri öz paralellərini ancaq türk xalqları arasında tapır. Kuban əyalətində Albanoviç adlı kənd, Dağıstanda Alpan kəndləri, qazax, qırğız, özbək, qaraqalpaq, türkmən xalqları arasında da alban tayfaları və toponimləri mövcuddur [81, 31, 34, 52; 85, 194-197; 119, 74]. Qədim və orta əsr mənbələrində Azərbaycana alban adlı tayfanın gəlməsi haqqında heç bir məlumat yoxdur. Antropoloji, arxeoloji etnoqrafik məlumatlar, qədim mənbələr, elmi tədqiqatlar albanların Azərbaycanda yerli, aborigen xalq olduğunu təsdiq edir. Deməli, Avropa və Asiyadakı türk xalqları tərkibindəki albanlar çox qədimlərdə Azərbaycandan şərqə miqrasiya etmiş türk tayfalarındandır. Elə Araz hidroniminin yaranma tarixi də qərbdən şərqə məkan və zaman oxunda yaranmışdır. Dünyanın antropogenez zonasında formalaşmış alban türkləri digər türk xalqlarının etnogenezində iştirak etmişdir.

Yuxarıda mənbə və tədqiqatlara istinadən sak-skiflərin Xəzərsahili vilayətlərdən Ön Asiyaya, Azərbaycana miqrasiyası zamanı yerli əhali ilə ciddi qarşıdurma olmadan sakların sürətlə Manna, Midiya, Albaniya əhalisi ilə etnokonsolidasiyasının getdiyini, özünü Azərbaycan təəssübkeşi kimi göstərdiyini qeyd etmişik. Antik müəlliflərin məlumatından belə nəticə çıxır ki, guya sakların Azərbaycana gəlişi az qala bütün vilayətlərin adlarının Sak adı olmasına səbəb oldu. Manna ərazisində sak vilayəti, Kürün Xəzər hövzəsi - Midiya-Albaniya əraziləri (Muğan düzü qədim Kaspian), Balasakan, Çola-Dərbənddən Beşbarmaq dağına qədər Kür çayının aşağı axarına qədər) Xəzər sahili vilayəti Maskut vilayəti, Gürcüstan sərhədlərindən cənubi Sakatala (Zakatala) və Azərbaycan ərazisinin böyük hissəsini əhatə etməklə Sakasen (sak çarlığı), onun daxili

vilayəti Sünik-Sisakan (Zəngəzur), Kiçik Asiyanın Qars vilayətində Şəki adlı vilayət, əyalət və kəndlər yaradır [76, 80; 85, 48, 155-170; 86, 90-94; 137, 18-19, 22-23; 157, 13; 158, 60; 83, 26-28]. Sak etnonim və toponiminin bütün Azərbaycanı əhatə etməsi, hətta ən böyük vilayətlərin belə, onların adı ilə adlanması, sak etnonim və toponimlərinin Azərbaycan hüdudlarını aşmasına baxmayaraq, tarixçilər gəlmə sakların yerli əhali ilə nisbətdə az olduqlarını yazırlar [66, 221; 83, 38].

Sak-skiflərin antropologiyası haqqında tədqiqatlara əsaslanan R.Qasımova yazır ki, Azərbaycanda sak-massagetlərin adı ilə bağlı yer adları, sak-tığraxaudun möhür üzükdə həkk edilmiş surəti, dəfn mərasimləri, yaraqlar və s. bəhs edilən dövrdə əlaqələrin təmayülünün Xəzərin şərqinə doğru olduğunu göstərir, Mingəçevirin skif abidələrini Orta Asiya skifləri saklarla əlaqələndirilməsini təsdiq edir. Eyni sözləri antropoloji dəlillər haqqında da demək olar. Antropoloji tədqiqatlar göstərir ki, Xəzəryanı düzənliklərdə məskun olmuş massagetlər, kaspilər və digər qədim tayfalar paleoantropoloji qalıqlara görə Kaspi irq tipinə mənsub olublar. Beləliklə, demək olar ki, Azərbaycana basqın zamanı zəbt etdikləri və məskun olduqları yerlərdə adları qalmış, mədəniyyətə təsirləri görünən sak-massagetlər fiziki tipcə iz qoymadan əhali ilə qaynayıb-qarışıblar. Nəzərə alsaq ki, antropoloji tədqiqatlarda sakların etnogenezinin Ön Asiya, Zaqafqaziya və Azərbaycanla bağlılığı haqqında mülahizələr təsdiq olunmaqdadır, "heyvan üslub"da incəsənətin ilk rüşeyimləri Ön Asiyadadır [59, 31-33; 83, 12-13, 19, 23]. Urartı dilində türk sözlərinin olması, antik müəlliflərdən Strabonun alban tayfalarından gellər və leqtəri skiflər hesab etməsi, Plininin "skif xalqına mənsub udinlər" ifadəsi, hətta bəzi müəlliflərin sakesenlərin adını albanlarla birgə çəkməsi, bir çox tədqiqatçıların Midiya mədəniyyəti ilə sak mədəniyyəti arasında ciddi oxşarlıqlar görməsi, Midiyanın qədim paytaxtı Ekbatanın Parfiya-sak dövlətinin paytaxtına çevrilməsi bu xalqların mənşə birliyinə dəlalət etməsi ilə izah oluna bilər [137, 18-19, 22-23; 59, 27-28; 85, 48, 155-170; 86, 90-94; 169, 18, 20; 26;





157, 13; 158, 60; 170, 56-58].

Arxeoloji və antropoloji tədqiqatlar göstərir ki, sak-türk xalqlarının yaranması və miqrasiyası, onun adı və dili ilə bağlı etnonim, toponim və hidronimlərin meydana gəlməsi Qərbi Asiyadan Mərkəzi və Şərqi Asiya istiqamətində yayılmışdır. E.ə. VII əsrdə Cənubi Xəzər vilayətlərindən Ön Asiya və Azərbaycana sakların əks miqrasiyası zamanı burada türk dilli etnonim, toponim və hidronimlərin yaranması tam yanlış fikirdir. Azərbaycan və Ön Asiyaya sakların əks miqrasiyası zamanı bu ərazilərdə onların adı ilə bağlı yeni etnonim və toponimlər yaranmışdır. Lakin Azərbaycan və Ön Asiyada sak etnonim və toponimlərinin böyük çoxluğu tarixin ən dərin qatlarında yaranmışdır. Azərbaycan və Xəzərin cənub sahilindəki sak vilayətlərindəki etnonim, toponim və hidronimlərin paralellərinin daha çox olması, e.ə. VII əsrdə sakların əks miqrasiyasına qədər Xəzərətrafı saklarla Azərbaycan tayfaları, başlıca olaraq eyni adlı tayfalar arasında birbaşa etnomədəni, xüsusilə qohumluq əlaqələrinin davam etməsinin nəticəsidir. Azərbaycan folklor ədəbiyyatında və fars mənbələrində Midiya çarı ilə sak çarı Alp Ər Tunqanın eyniləşdirilməsi, Atropatenanın paytaxtı Gəncək şəhərini, Mərənd şəhəri yaxınlığındakı Baruc qalasını da Alp Ər Tunqanın tikdirməsi, Alp Ər Tunqanın Urmiya gölü yanında öldürülməsi məlumatları mülahizəmizi təsdiq edən faktdır [85, 73, 158-159, 211-213; 119, 326-329; 161, 17-20]. Məhz elə bu səbəb idi ki, gəlmə saklarla Manna, Midiya, Albaniya əhalisi arasında hər hansı etnik konflikt yaranmadı. Saklar Assuriya və Urartu işğalına qarşı mübarizədə yerli əhali ilə birləşdilər. Onlar hərbi işin, Azərbaycanın müdafiəsinin təşkilatçısına çevrildilər, sürətlə yerli əhali ilə etnomədəni, etnososial orqanizmə çevrildilər. R.Qasımovanın sözləri ilə desək, az vaxtda "iz qoymadan yerli əhali ilə qaynayıb-qarışdılar" [59, 32-33]. Bəzi tarixçilər isə belə sürətlə yaxınlaşmanı "dil yaxınlığı" ilə izah edirlər [83, 29].

Arxeoloji, antropoloji, maddi və mənəvi mədəniyyət sahəsində aparılan tədqiqatlar göstərir ki, Azərbaycan əhalisi etnososial varlı-

ğa çevrildiyi dövrdən fasiləsiz inkişafla, qəbilə-tayfa mərhələsindən xalq mərhələsinə qədər, xalqın etnogenezinin formalaşması mərhələsi vahid mədəniyyət zəminində baş vermişdir. Bu təkamül prosesində o, etnik coğrafiyasını, mədəniyyətini, psixologiyasını və dilini yaratmışdır. Bu dil türk dili adlanmışdır. Hələ XX əsrin 30-cu illərinin əvvəllərində akademik N.Y.Marr Aralıq dənizi sahilləri ölkələrinə səfərindən sonra qətiyyətlə yazmışdır ki, türk dilinin ilkin vətəni Aralıq dənizi hövzəsidir, qədim türklərin ilkin hərəkəti qərbdən şərqə, yəni Aralıq dənizindən Mərkəzi Asiyaya doğru olmuşdur [162; 147,54]. Marrın bu əsərinin nəşrindən iki il sonra, SSRİ-də türk tarixi və dili qadağan oldu. Türk xalqlarına yeni adlar altında tarixlər uyduruldu. Altay nəzəri cəhətdən türklərin ilkin vətəni hesab olunsa da, yer kürəsində onların harada yaranması belə bildirilmir, Altayın özünə belə gəlmə hesab olunurdu. Türklərin ilkin vətənini başqa planetdə axtarmaqdan başqa çarə qalmırdı. Bu zaman türk xalqları arasında özünü türk, dilini türk dili adlandıran yeganə xalq - sonradan azərbaycanlı adlandırılan xalq idi. Sovet tarixşünaslığı ona belə bir etnogenez uydurdu. "...Azərbaycanın şimalında və cənubunda yaşayan əhalinin müxtəlif dillərdə danışmalarını və bütün ölkə üçün ümumi danışıq dilinin olmamasını təsdiq edirlər. Türk dilində danışan tayfaların kütləvi hücumlarından, xüsusən XI-XII əsrlərdən sonra başqa bir vəziyyət yarandı. Bu vaxt türk dili yerli dilləri əsaslı surətdə sıxışdırdı. O, Azərbaycanda geniş surətdə yayılmış və yerli dillərlə yanaşı işlənirdi. Səlcuqların və Eldənizlərin hakimiyyəti dövründə türk dilinin geniş yayılmasına baxmayaraq, azəri dili hələ də istifadədə qalmaqda idi. XIII əsrdə türk dilində danışan köçəri tayfaların buraya gələn güclü dalğası azəri, aran və başqa dillərin sıxışdırılması və Azərbaycan dilinin tamamilə qələbə çalması üçün şərait yaratdı" [163, 188]. Azərlər etnos olaraq Azərbaycandan Avrasiyaya yayılmış türk və digər xalqların etnogenezində iştirak etmiş ən qədim türk soyu idi. Qədim, orta əsrlər, yeni və ən yeni dövr tarixşünaslığında ondan yetərincə bəhs olunmuşdu [153; 359; 360; 180, 12-24]. Sovet tarixçisi Azərbaycanda yerli dilləri





assimilyasiya etmiş səlcuqlarla onların işğal etdiyi Azərbaycanın və digər ölkələrin mədəni səviyyəsinin müqayisəsini belə təsvir edir: "Səlcuqlar özlərinin ictimai-iqtisadi və mədəni səviyyəsinə görə işğal etdikləri ölkələrin əhalisindən xeyli aşağıda dururdular... Köçəri həyat tərzi keçirirdilər". Onların "Yaxın və Orta Şərqdə yaratdıqları dövlətin iqtisadi əsası yox idi. O, davamsız bir hərbi inzibati birləşmədən ibarət idi" [163, 156]. Onların hakimiyyəti illərində "Kargüzarlıqda, elm və ədəbiyyatda ərəb və fars dilləri hakim idi. Fars dilinin təsiri daha qüvvətli idi. Ədəbi əsərlər bu dildə yaradılırdı" [163, 189]. Məhz belə bir şəraitdə türk sistemli Azərbaycan dili XIII əsrdə ədəbi dilə çevrilir [163, 210]. Sözünə davam edən tarixçi yazır ki, yerli əhali dilini dəyişsə də, etnik mənsubiyyət və mədəniyyətini davam etdirməklə əcdadının varlığını davam etdirirdi [163, 189]. İqtibasdan göründüyü kimi, bu şərh faktlara söykənmədiyindən, faktları təhrif etdiyindən onun məntiqi də süni və saxtadır. Əvvəla, dünya dilçilik və tarixşünaslığında birmənalı sübut edilmişdir ki, mərkəzləşmiş dövlətlərin yaranması ilə ümumxalq dilinin yaranması eyni zamanda, paralel baş verən hadisələrdir. Azərbaycan ümumxalq dilinin yaranması Atropatena və Alban dövlətlərinin yaranması prosesində başa çatmışdı. Digər tərəfdən, mədəni səviyyəsi yerli əhalidən aşağı olan, köçəri həyat tərzi keçirən tayfanın, ədəbi və elmi əsərlərin fars, ərəb dilində yazıldığı bir ölkədə fars dilini assimilyasiya etməsi ideyası həqiqətə və elmi məntiqə qəti şəkildə sığmır və bu mümkün də deyil. Sovet imperiyasının yerli xalqlara, xüsusən türk xalqlarına belə tarixlər uydurması siyasi məqsədlərdən irəli gəlirdi və yerli xalqlar bu uydurmaları qəbul etmədiyindən tez-tez dəyişdirilirdi. Məsələn, onun Azərbaycandakı nümayəndəsi İqrar Əliyev 1998-ci ildə nəşr olunan VII cildlik "Azərbaycan tarixi"nin 1-ci cildində etnik məsələlərlə bağlı fəsil və paraqrafların müəllifidir. Özündən süni miqrasiyalar uydurub, qəbilə və tayfa inkişafı mərhələsində, natural təsərrüfat hökmranlığı, kütləvi təhsilin olmadığı bir dövrdə, 50 il müddətində bir ölkə əhalisinin assimilyasiya edilməsindən bəhs edir ki, bu da elmilikdən uzaq düş-

məsinin məhsuludur. Bu məsələ tarixçilərimizdən Q.Qeybullayev, Y.Yusifov tərəfindən, dilçilərimizdən Ə.Dəmirçizadə, T.Hacıyev, F.Cəlilov, E.Əzizov, Q.Kazımov və b. tərəfindən yetərincə təhlil olunmuş, Azərbaycan türklərinin dil tarixi və onun inkişaf yolu elmi əsaslarla yazılmışdır. Odur ki, problemin bu cəhətindən deyil, tədqiqatımızla bağlı onun siyasi-ideoloji məqsədlərindən qısaca bəhs edəcəyik. Azərbaycan xalqının etnik tərkibinin 80 faizdən çoxunu antropogenez zonasında formalaşan türklər qalan hissəsini talış, tat, ləzgi, avar və b. etnik qruplar təşkil edir. Birgə vətən, ümumi həyat tərzi, dini-ideoloji birlik, yiyələndikləri ümumi adət-ənənələr, inam və etiqadlar, əxlaq, ümumi ünsiyyət vasitəsi olan türk dili hələ orta əsrlərdən onları etnomədəni birliyə, vahid xalqa çevirmişdir. Uydurma sovet tarixşünaslığı türk mənşəli əhalini gəlmə, işğalçı köçəri, mədəni səviyyəsi digər etnik qruplardan aşağı, azlıqda qalan iran mənşəli etnik qrupları aborigen, mədəniyyətin əsas yaradıcısı kimi şərh etməklə, hətta sonda türkləri dilini dəyişmiş, dilini köçəri türklərdən qəbul etmiş iran mənşəli əhali kimi qələmə verməklə etnik birliyi parçalamaq, onu bütövlükdə mədəni-mənəvi köklərindən ayırmaq məqsədi güdürdü. Bu tarixi konsepsiyanın məqsədi bu və digər vasitə və üsullarla Azərbaycanda etnokonsolidasiya funksiyasına malik yerli mədəniyyətin etnomədəni, mənəvi sistemini pozmaq, etnik-mədəni nüvəni məhv etmək idi. Azərbaycan xalqının tərkibindəki iran dilli etnik qrupların onlarla birlikdə qazanılmış mədəniyyətin nümayəndələri ilə deyil, hind-iran, ari mənşəli hakim ruslarla eyni mənşəli olması ideyasını aşılamaqla onların rus mədəniyyətinə - dilinə, təhsilinə, yemək, geymək və s. keçirməklə tədricən ruslaşmasını, assimilyasiya olunmasını ideoloji cəhətdən hazırlamaq məqsədi güdürdü. Bu tarixşünaslıq sistemli olaraq türk keçmişinə nifrət aşılamaqla Azərbaycan türklərinin türk dilini qəbul etmiş iran və ya Qafqaz mənşəli əhali olduğunu təlqin etməklə onları da öz kökündən ayırmaqla rus mədəniyyətinə transformasiya etmək siyasəti yeridirdi. Rus imperiyasının hazırladığı bu tarixi konsepsiyanın başlıca məqsədi etnomədəni nüvə funksiyası yerinə yetirən mədəniyyəti məhv etməklə Azərbaycan xalqını - türkləri, talışları, tatları, ləzgiləri parçalamaqla assimilyasiya etmək məqsədi güdürdü. Bu siyasəti Rus imperiyası icad etməmişdi, hələ ən qədim dövrlərdən imperiyaların istifadə etdiyi ənənəvi üsul idi.





Türk xalqlarının tarixi Moskvada müxtəlif forma və məzmunda uydurulurdu. Respublikalarda yazılan hər bir əsər yerli əlaltılar vasitəsilə Moskvanın "ustanovka"sına uyğunlaşdırılaraq nəşr edilirdi. Beləliklə, sovet imperiyasının əsarətində olan türk xalqlarının keçmişinə nifrət aşılayan, milli ruhdan, tarixindən qürur duymaq hissindən məhrum edilmiş əsərlər nəşr edilirdi. XX əsrin 60-cı illərində Çinin sovet imperiyasına ərazi iddiası rus imperiyasının türklərin "yerə enməsinə" icazə verməyə məcbur etdi. L.N.Qumilev Sibir ərazilərini qədim türk torpaqları kimi şərh etməyə başladı. Lakin 1975-ci ildə Qazax şairi, milli xadimi və dissidenti Oljas Süleymanovun "Az-Ya" kitabı rus nəzarətindən yayınıb nəşr oluna bildi. Bu əsər beynəlmiləl maskası geymiş rus hegemonluğuna bir daha özünü bərpa edə bilməyəcək zərbə vurdu. O.Süleymanov ən qədim və müasir dil materiallarını müqayisə edərək yazırdı: "Yer" - bir vaxtlar beynəlxalq söz olub, sami, german və türk dillərinə daxil olmuşdur. Onların hamısı bir nöqtədən başlamışdır, lakin "yer" praforması dəyişikliyə uğramadan, xalis halda yalnız türk dillərində qalmışdır" [144, 78]. Onun qədim Şumer sözləri ilə qədim və müasir türk sözlərinin paralelləri arasında apardığı müqayisələr, çıxardığı nəticələr təkzib edilməz faktlardır [144]. Bu sahədə dünya və Azərbaycan alimlərindən Y.Yusifov, Q.Qeybullayev, T.Hacıyev, A.Məmmədov, F.Ağasıoğlu, İ.Miziyevin və Q.Kazımovun tədqiqatları şumer-türk dillərinin eyni mənşəliliyini sübuta yetirməklə Azərbaycan türklərinin vətənində aborigen xalq olduğunu təkzibedilməz surətdə sübut etdi [48, 5-19, 58-236; 81; 85; 86; 118; 119; 157; 167; 168; 169; 156, 147].

Hələ 70-ci illərdə dünya miqyaslı antropoloq Y.Y.Roqinski yazırdı: "Digər tərəfdən, bəzi hallarda antropoloji analizlər kütləvi miqrasiya haqqında hipotezləri inkar edir. Belə ki, Azərbaycanın

türkdilli əhalisində monqoloid əlamətlərinin olmaması türk dilinin Şərqi Qafqazda monqoloid irqinə məxsus işğalçıların hücumunun nəticəsində yaranması fikrinin tamamilə inkar edilməsinə gətirib çıxarır" [148, 340].

İstifadə etdiyimiz antropoloji, arxeoloji, etnoqrafik, toponomik, dilçilik və tarixi materiallar Azərbaycan xalqının dünyanın antropogenez zonasında aborigen xalq olaraq ilkin etnik mədəniyyəti zəminində fasiləsiz inkişaf prosesində, qazandığı antropoloji, maddi və mənəvi, dil, adət-ənənə və etnopsixoloji dəyərləri zəminində qəbilə-tayfa mərhələsindən xalq səviyyəsində təşəkkül tapmışdır. Onun etnogenezində əsas nüvə dominant qüvvə türk tayfaları olmuşdur. Etnogenezin və etnik tarixin bütün mərhələlərində aborigen türk tayfaları dominant mövqedə olmuşdur [171, 171]. Artıq eramızın birinci minilliyinin başlanğıcında vahid antropoloji tipə, maddi və mənəvi mədəniyyətə, etnopsixoloji dəyərlərə, ümumxalq dilinə malik Atropaten və Alban xalqı yaranmış, onların siyasi birliyinin yaranmasını regionun siyasi hadisələri ləngidirdi. Siyasi birlik olmasa da, iqtisadi, etnomədəni əlaqələr vahid xalq səviyyəsində idi. Lakin siyasi yekdilliyə nail olmaq üçün hər iki tərəf fasiləsiz təşəbbüsdə idi.

Rus sovet imperiyasının Azərbaycan xalqına uydurduğu etnogenez və bu sahəyə təyin etdiyi nəzarətçilərin sayəsində 1984-cü ildə SSRİ-də yenidənqurma siyasətinə qədər R.Qasımovanın antropologiya sahəsində yazdığı kitab və məqalələr istisna olmaqla, bu sahədə tarixi və etnogenetik aspektdə bir dənə də olsun əsər yazılmamışdır. Azərbaycan tarixşünaslığında problemin tədqiqat metodu və nəzəriyyəsi mənimsənilməmişdir. Odur ki, 1984-cü ildən başlayaraq bu mövzuda yazılan əsərlərin metodologiya və nəzəriyyəsində yanlışlıqlar özünü göstərməkdədir. Qeyd edək ki, MEA Tarix İnstitutunda problem hələ də Rus imperiyasının bu sahədə hazırladığı kadrların nəzarətindədir. Onlar bu problemin xüsusi elmi-tədqiqat obyektinə çevrilməsinə imkan vermirlər. 1984-cü ildən Azərbaycan tarixşünaslığında bu sahədə aparılmış tədqiqatlar, vətənpərvərlik





hisslərinin məhsuludur. Bu sahədə fədakarcasına tədqiqatlar aparmış Q. Qeybullayevin, Y.Yusifovun, M. İsmayılovun ruhları qarşısında baş əyərək, oxucunun nəzərinə çatdırırıq ki, onların yaradıcılığında bəhs etdiyimiz çatışmazlıq onlar haqqında mənfi fikir oyatmamalıdır. Onların bu sahədə gördüyü iş alman xalqının rus imperiyasının onların arasına çəkdiyi beton səddi dağıtması qədər dəyərlidir.

Etnogenez və etnik tarix problemi tarixşünaslığın ən çətin tədqiqat problemidir. Təbii ki, bu sahənin tədqiqatına özündə cəsarət tapmış tarixçilərin əsərlərinin təkmilləşdirilməsi prosesində onun təkmil tədqiqat metodu və nəzəriyyəsi yaranacaq.

Etnoqraf E.Kərimov Azərbaycan xalqının etnogenezi haqqında yuxarıda adlarını çəkdiyimiz əsərlərdən bəhs edərək yazır: "Bu məsələyə bir neçə monoqrafiya və onlarca məqalə həsr olunmuşdur. Monoqrafiyaların hər birini problemin həlli sahəsində irəliyə doğru addım hesab etmək olar. Alimlərin bir qrupu məsələni tarixi faktlar, başqaları isə onomastika və dilçilik əsasında həll etməyə çalışmışlar". E.Kərimov müəlliflərdən birini "etnik tarixi etnogenez kimi təsəvvür" etməkdə tənqid edir [172]. Qeyd edək ki, E.Kərimovun bu tənqidi bir nəfər müəllifə deyil, bu günə qədər Azərbaycanda etnogenez haqqında kitab yazmış bütün müəlliflərin yaradıcılığına aid edilə bilər.

Dünya tarixşünaslığında qəbul edilmiş elmi prinsipə görə qəbilə və tayfaların birləşməsi və inkişafı prosesində nəticə etibarı ilə yaranan, özünüadlandırma və milli şüura malik yeni etnik birlik xalq adlanır. Bu etnik birliyin sonrakı inkişafı etnik tarix anlayışı ilə ifadə olunur. Təəssüf ki, Azərbaycan tarixşünaslığında etnik proseslərin hüdudun müəyyən edən bu sərhəd nəzərə alınmır.

Q.Qeybullayev yazır ki, "Cənubi Azərbaycan ərazisində, Əhəmənilər dövlətinin tərkibində olan Manna və Maday əyalətinin türk mənşəli əhalisi etnos (xalq - X.X.) kimi formalaşmışdı"..., türkdilli gəlmə kəmərləri, iskitləri və sakları da konsolidə etmişdi. Maday adını daşıyırdı [174, 73]. Q.Qeybullayev sonrakı əsərində yazır ki, Azərbaycan ərazisində əsrlərlə getmiş etnik proseslərin nəticəsində

Manna, Maday, Kas və b. etnoslar əsasında yeni etnos formalaşdı. E.ə. IV əsrdən sonra Kiçik Midiya ölkəsi və xalqı Atropatena adlandı [85, 210]. Şimali Azərbaycanda da Alban özünüadlandırması və milli şüuruna malik xalq eyni zamanda yarandı [174, 60].

Atropaten və Alban ayrı-ayrı etnonimlər altında meydana çıxsa da, onlar Arazın hər iki sahilində eyni antropoloji tipə, maddi və mənəvi mədəniyyətə, dilə məxsus, əsasən eyni adlı türk tayfalarının etnokonsolidasiyası, iqtisadi, sosial-mədəni, müəyyən dövrlərdəki siyasi birgəyaşayışı əsasında yaranmışdı. Bu xalqın etnogenezi türk etnik mədəniyyəti təməlində yaranıb, onun passionar inkişafı prosesində Atropaten və Alban xalqı adı ilə təşəkkül tapmışdır [40; 42; 44; 46; 50; 59; 60; 84; 85; 86; 112; 115; 118; 147; 148; 157; 162; 164; 167; 171; 174; 175; 176; 177].

Təəssüf ki, Azərbaycan ictimai ədəbiyyatında etnik tarixlə bağlı bütün məsələlər etnogenez anlayışı altında verilmişdir. Bu səhvi doğuran başlıca səbəb bu problemdən bəhs edən müəlliflərin bu elmin nəzəriyyəsini mükəmməl bilməməsidir. Digər səhv isə Azərbaycanda son dövrlərdə bu mövzuda yazan müəlliflərin başlıca olaraq L.N.Qumilyovun əsərlərinin təsiri altında yazmalarıdır. Keçmiş postsovet məkanında etnogenez nəzəriyyəsi sahəsində sovet ideologiyasını tar-mar edən L.N.Qumilyov xalqların qədim dövr ilkin formalaşmasından, yaranmasından deyil, başlıca olaraq orta əsrlər və son dövr ayrı-ayrı xalqların etnomədəni mübarizə, inkişaf, miqrasiya prosesində etnomədəni, etnososial sistemini qoruya, yaşada bilməməsi səbəbindən, daha güclü etnomədəni sistemə, mədəni dominantlığa malik xalqlar tərəfindən ayrı-ayrı etnosların assimilyasiya edilməsi, onların birləşməsindən yeni etnosun formalaşmasından bəhs olunur. Bunu əsas götürən Azərbaycan yazarları etnik tarix məsələlərini etnogenez hadisəsi kimi şərh edirlər.





## II FƏSİL

## ETNOGENEZİN SON MƏRHƏLƏSİ VƏ AZƏRBAYCAN TÜRK XALQININ FORMALAŞMASININ BAŞA ÇATMASI

Atropaten və Alban xalqının yaranmasından sonra onun vahid vətən - Azərbaycan anlayışına sahiblənməsi, türk etnonimi altında özünüadlandırması, bu şüura yiyələnməsi, onun sonrakı inkişafının, yekdil mədəniyyətinin, etnogenezi zəminində dominatlıq, passionarlıq göstərməsi, etnomədəni və etnik tarixin inkişafının məntiqi nəticəsidir. Qədim və orta əsrlərdə, sonrakı millətləşmə mərhələsində xalqların etnik özünüadlandırmasının dəyişməsi, yeniləşməsi bütün dünya xalqlarının həyatında baş vermişdir. Tək-tək hallar istisna olmaqla, bütün hallarda etnosun yeni özünüadlandırması, onun daxili etnonimlərindən biri olur [120; 178; 179].

Biz e.ə. IV əsrdə yadelli işğalçılara qarşı, birinci növbədə farslara qarşı mübarizə şəraitində yerli türk tayfaları, onunla qonşuluqda yaşayan fasiləsiz etnomədəni təmasda olan sak-türk tayfalarının etnokonsolidasiyası nəticəsində Atropaten və Alban xalqı yarandığını şərh etdik. Bu xalqların ilkin olaraq ayrı-ayrı adlar altında meydana çıxması əsasən coğrafi səbəblərdən, qismən şimalda və cənubda eyni adlı tayfalarının nisbət fərqindən irəli gəlmişdir. Atropaten və Alban xalqı hər ikisi, şimalda və cənubda yaşayan başlıca olaraq eyni adlı türk tayfalarının konsolidasiyasından təşəkkül tapdılar [48, 58-169; 81; 85; 86; 142; 118; 119; 174; 157; 175; 171, 162-175; 167; 153; 180].

Dünyadan təcrid olunmuş, digər etnoslarla təmasda olmadan yaranmış xalq yoxdur. Bütün xalqların etnogenezi və etnik tarixi qonşu etnoslarla, dünya xalqları ilə etnomədəni təmasda, qarşılıqlı surətdə bir-birinə etnik hissə vermə və qəbul etmə prosesində gedir, inkişaf edir. Azərbaycan xalqının etnogenezi və etnik tarixi də bu təbii və sosial tarixi qanun əsasında getmişdir və gedir.

Tarixin məlumatlarından aydın olur ki, qəbilə və tayfa mərhələ-

sində etnos üçün ən müqəddəs dəyər adət-ənənədir, dilin dəyişməsi, yeniləşməsi isə son dərəcə çətindir. Natural təsərrüfat, ticarətin son dərəcə aşağı inkişaf səviyyəsində olduğu dövrdə dilin inkişafı, bir qəbilənin digər qəbilənin, tayfanın dilini öyrənməsi, dillərin qarşılıqlı təsiri son dərəcə zəif olmuşdur. Məsələn, əkinçi ildə bir dəfə, bəlkə də 2-3 dəfə əmək aləti almaq üçün bazara gedirdi. Ölkələrarası ticarətdə isə əsas yeri hakim sosial təbəqənin zövqünü oxşayacaq malların mübadiləsi tuturdu. Belə bir şəraitdə hər hansı bir tayfanın digərinin dilinə köklü təsirindən danışmaq əbəsdir.

Qədim və ilk orta əsrlərdə hər-hansı bir tayfanın dilini və adət-ənənəsini dəyişməsi ancaq digər dilli əhalinin ən azı 2-3 qat üstünlüyü şəraitində 5-6 əsr müddətində mümkün ola, baş verə bilərdi. Tarixdən məlum olduğu kimi, qəbilə və tayfalar dilinə, adət-ənənəsinə son dərəcə mühafizəkar idi. Yad dilli və mədəniyyətli etnosların işğalını dəf edə bilməyəndə dilini və adət-ənənəsini qorumaq naminə vətənini tərk edib yeni ərazilərdə məskunlaşırdı [178, 59-95]. Qədim dövrlərdə qəbilə və tayfalararası konsolidasiya başlıca olaraq qohum qəbilə və tayfalar arasında gedir, xalqların etnogenezi məhz qohum tayfalardan formalaşırdı. "Qohum tayfalar arasında ittifaqlar bəzi yerlərdə müvəqqəti ehtiyac olduqda bağlanırdı və bu ehtiyac aradan qalxdıqda, ittifaqlar da pozulurdu. Əvvəllər qohum olub, lakin bir-birindən ayrı düşmüş olan tayfalar isə ayrı-ayrı yerlərdə yenidən birləşib uzun müddətə ittifaqlar yaradırdılar, beləliklə də millətlərin yaranması yolunda ilk addımlar atırdılar" [70, 249]. Biz belə bir tarixi qanunauyğunluğu Azərbaycan xalqının etnogenezinin formalaşmasında müşahidə etdik. Manna, Midiya və Alban tayfaları vaxtilə ondan ayrılmış, lakin etnik təması itirməmiş sak tayfalarının yenidən Azərbaycana qayıtması zamanı onlara heç bir müqavimət göstərmədi, onlar sürətlə birləşib, etnokonsolidasiya olunub yekdil etnos kimi xarici işğalçılara qarşı mübarizə apardılar. Lakin saklarla təxminən eyni dövrdə Azərbaycan hüduduna gəlmiş fars tayfalarına qarşı manna, midiya, kas, alban, sak və b. yerli tayfalar qanlı mücadiləyə qalxdılar. Tərəflər arasında bu mübarizə o





qədər şiddətli, barışmaz oldu ki, onlar bir-birini əbədi düşmən elan etdilər. Çünki farslar dili, adət-ənəsi ilə midiya, manna, alban və sak tayfalarına yad olmaqla bərabər, mədəni cəhətdən də onlardan aşağı səviyyədə idi [96, 294-413; 97; 134]. Farslar Azərbaycanda siyasi hakimiyyəti ələ alsalar da, milli mənlik şüuruna malik midiya, sak, alban etnosu ilə etnik təmasa girə bilmədilər, Azərbaycan etnosları tam müstəqilliyə qədər onlara qarşı mübarizə apardılar.

Tarixçilər Əhəməni imperiyasının e.ə. 331-ci ildə Qavqamel döyüşündə məğlub olmasının səbəbini bütünlüklə Makedoniyalı İsgəndər qoşunlarının güc ilə deyil, imperiyada farslara qarşı milli-azadlıq hərəkatının ən yüksək zirvəsinə çatması, onun yekdil etno-siyasi dayağının olmaması ilə izah edirlər.

Təsadüfi deyil ki, elə bu məğlubiyyətlə farslar siyasi hakimiyyətlərini və müstəqilliklərini itirib ellinlərin əsarətinə düşdülər. Midiyalılar (azərbaycanlılar), parfiyalılar müstəqillik qazandılar. A.Fazili antik mənbələrə istinadən yazır ki, Qavqamel döyüşündə kaduslar, albanlar, sakasenlər farslara deyil, madaylara köməyə gəlmişdilər [142, 119]. A. Fazili mühakiməsində tamamilə haqlıdır, məhz bu döyüşdə Midiya qoşunları komandanı Atropatın diplomatik səyi ilə Midiyalılar müstəqillik qazandı, farslar əsarətə düşdü. E.ə. VII əsrlərdən e.ə. 331-ci ilə qədər farslarla Midiya, Manna, Sak və Alban etnosları arasındakı qarşıdurma göstərir ki, farslarla bu etnoslar arasında hər hansı müsbət etnik təmas yaranmamışdır, fars-iran tayfaları Azərbaycan xalqının etnogenezində, iştirak etməmişdir.

Cənubi Azərbaycan ərazisindəki azsaylı farsdilli etnonim, toponim və antroponimlər Əhəməni sülaləsinin hakimiyyəti illərində yaranmışdır. Albaniya ərazisindəki farsdilli etnonim, toponim və antroponimlər isə konkret olaraq üçüncü əsrdə sasani hakimiyyəti dövründə Şimali Azərbaycana farsdilli tayfaların köçürülməsindən sonrakı dövrdə yaranmışdır. Şimali Azərbaycan ərazisində də Alban xalqının etnogenezində farsdilli əhali iştirak etməmişdir. Farsdilli əhali Albaniyada da xalqın etnik tarixində iştirak etmişdir.

Şimali Azərbaycanda alban türk tayfası etnik nüvə olmaqla buradan "yerli böyük və çox yığcam türk tayfalarını" xalq səviyyəsində təşəkkülə çatdırdı [171, 171]. Akademik Z.Bünyadov tamamilə haqlıdır və məsələni elmi cəhətdən düzgün əsaslandırmışdır. Alban xalqının etnogenezinin formalaşması buraya Xəzərətrafı ölkələrdən türk tayfalarının gəlməsinə qədər artıq başa çatmışdır. Artıq Özünü Alban adlandıran, alban etnik şüuruna malik etnos yaranmışdı. Özünü alban adlandıran alban milli şüuruna malik tayfaların etnik xəritəsi Alban dövlətinin inzibati-siyasi xəritəsini yaratmışdır. Albanlar haqqında məlumatında Strabon yazır: "Onların hökmdarları da çox gözəldir. İndi, doğrudur, onlarda bir hökmdar bütün tayfalara başçılıq edir, qabaqlar isə hər müxtəlif dilli tayfanı öz hökmdarı idarə edirdi. Onlarda 26 dil vardır, belə ki, onlar bir-biri ilə ünsiyyətə çətin girirlər" [169, 18]. Alban tarixçisi M.Kalankatuyklu beşinci əsrdə Alban dini məclisinin "müxtəlif dillərdə" dua oxunması şəraitində getdiyini yazır [160, 63]. Strabonun məlumatından aydın olur ki, qabaqlar ayrı-ayrı tayfa başçısının rəhbərlik etdiyi 26 tayfa artıq özünü vahid maddi, mənəvi mədəniyyətə, ümumi adət-ənənəyə yiyələnmə prosesində, onlar arasında ünsiyyət vasitəsi olan dilə və vahid hakimiyyətə qovuşmuşlar. Bu vahidliyi yaradan, onun mərkəzində duran alban tayfa ittifaqı idi. Etnoqrafik məlumat və tədqiqatlar göstərir ki, hər bir etnosun tərkibində ümumi xalqı ifadə edən etnonimlə bərabər ayrı-ayrı tayfaları ifadə edən etnonimlər də olur. Bu hal əsrlərlə davam edir. Albaniyanın etnik tərkibi haqqında mənbələrin məlumatlarında bu özünü aydın şəkildə göstərir. Əsrlərlə birgəyaşayış, tayfalararası iqtisadi, mədəni-mənəvi əlaqə ümumi Alban etnosunu yaratmışdır. Mənbə və tədqiqatlar göstərir ki, Alban xalqı üçün etnik nüvə rolunu oynayan alban tayfaları bütün Azərbaycanın hüdudunda yayılsa da, hətta onun hüdudlarını aşsa da, Albanlar başlıca olaraq Kür-Araz ovalığında Kürün hər iki sahilində məskunlaşmışdılar [74, 42; 48, 146; 81, 31-37; 85, 171-172; 119, 73-82]. Bu isə Qafqazın təbii coğrafi, relyefindən, şəraitindən, təsirindən doğan biososial hadisədir. Belə ki, istehlak təsərrüfatının





yaranması ilə Kür-Araz ovalığında əhali sürətlə məskunlaşdı. Eneolit dövrü əkinçi-maldar tayfalarla sıx məskunlaşma, sürətli əhali artımı, əhali sıxlığı, etnik təmas, iqtisadi, sosial-mədəni əlaqələrin güclənməsi onları etnomədəni birlik səviyyəsinə çatdırdı. Kür çayı sahili yaşayış məntəqələri, əkinçi tayfaları ilə, Ön Asiya-Qafqaz dünyasının etnomədəni birliyini yaradan bölgəyə çevrildi. Onlar böyük yaşayış məntəqələri yaratdılar. Zaqafqaziyada belə 150-dən artıq yaşayış məntəqəsinin əksəriyyəti Azərbaycanda yaranmışdı [44, 172-173; 46, 91]. Eneolit dövründə Qafqaz, Xüsusilə cənubi Qafqaz üçün etnomədəni yadro funksiyasına malik mədəni rayon Kür-Araz ovalığı və Xəzərsahili düzənlik idi. Məhz bu regionun eneolit mədəniyyətinin yaratdığı ilk tunc dövrü Kür-Araz mədəniyyəti Alban (Azərbaycan) xalqı üçün etnik nüvə olmaqla bütün Yaxın Şərqə, Ön Asiyaya təsir etdi, Şimali Qafqazın ən yüksək dağ zirvələrini fəth etdi [46, 100]. Kür-Araz və Xəzərsahili ovalıqda eneolit dövründə formalaşan, ilk tunc dövründə dominant etnomədəni təsir göstərən bu etnos tarix səhnəsinə Alban adı ilə çıxdı.

Azərbaycan tarixçiləri Azərbaycan mədəniyyətinin Ön Asiya və Şimali Mesopotomiya ilə təmasda inkişafından bəhs etsələr də, təmasın, təsirin nədən ibarət olması haqqında bir kəlmə də olsun bəhs etmirlər. O cümlədən bütün qonşu ölkələrə mədəni təsir göstərmiş ilk tunc dövrü Kür-Araz mədəniyyətinin mahiyyətini açmırlar. Azərbaycan arxeoloqları Şimali Qafqazın ən məşhur arxeoloji abidəsi Maykop kurqanının Azərbaycanın Qarabağ və digər abidələri ilə mədəni yaxınlığından bəhs etsələr də, kimin kimə mədəni təsirinə, hətta eyham vurmamışlar. Şimali Qafqazın eneolit və tunc dövrü mədəniyyətinin Ön Asiya, Şimali Mesopotomiya, Zaqafqaziya mədəniyyətinin təsiri altında formalaşması haqqında Rus Sovet tarixşünaslığında yetərincə məlumat verilmişdir [156, 30-31].

Dağıstanda, Şimali Qafqazda tam Qafqazdilli mühitdə türk toponimlərinə, ən çox hidronimlərə rast gəlinir. Dargin, ləzgi, lak kəndlərinin içərisində bulaqlar türkcə Qarabulaq, Qazanbulaq, Soyuqbulaq adlanırdı. Buradakı bu xalqlardan tarixçi, dilçi olmayan dostları-

mın izahatlarından həqiqəti araşdırmaq mümkün olmurdu. Sadəcə olaraq, bildirirlər ki, bu sözlər bizim ana dilimizdədir. Sualın cavabını tapa bilməsəm də, ehtimali cavabımı qəlbimdə yaşadırdım.

Dağıstanın, Şimali Qafqazın bulaqlarının, çaylarının türkcə adı məni deyil, elmi şüuru və milli ləyaqəti olan başqalarını da düşündürmüşdür. İsmayıl Miziyev yazır ki, Mərkəzi Qafqazın 5000 m-dən yüksəklikdə yerləşən aşırımlarının, buzlaqlarının türkcə adını verən tayfalar və onun dövrü dəqiq müəyyən edilməlidir [156, 36]. O, özü bu işin öhdəsindən tam gələ bilməsə də, bu məqsədə çatmaq yolunda çox böyük iş görmüşdür. Tədqiqatımızın düzgün, səmərəli istiqamət alması üçün onun tədqiqatları əhəmiyyətli söykək oldu. Axtarışımız zamanı arxeoloq R.B.Göyüşov və A.İ.Martınovun Qafqaz haqqında aşağıdakı fikirləri diqqətimizi cəlb etdi: "Qafqazda ilk tunc dövründə ən geniş yayılmış arxeoloji mədəniyyətlərdən biri də Kür-Araz abidələri kompleksidir. Kür-Araz mədəniyyəti üçün xarakterik olan abidələrin yayılma ərazisi olduqca genişdir. Tədqiqatçılar Kür-Araz mədəniyyətinin izlərinə bütün Zaqafqaziyada, İranın şimal-qərbində, Şərqi Anadoluda, Dağıstanda, Çeçen-İnquşetıyada və b. yerlərdə rast gəlmişlər. Bu abidələr düzən, dağətəyi və hətta dağ zirvələrində belə, öyrənilmişdir" [46, 100]. Qafqaz yüksəkliklərini fəth edən, buraya özünün adı və dilində anlayışlarını verən tayfalar e.ə. III minillikdə Kür-Araz ovalığının, Xəzərsahili düzənliklərin, məhz Azərbaycanın əkinçiliyinin, maldarlığının yüksək inkişafı sayəsində artan əhalisinin köçmə maldarlıq təsərrüfat formasının yaranması, onların yeni ərazilərdə məskunlaşması prosesində Qafqaz dağlarında onun türkdilli etnonim, hidronim və toponimləri yarandı [46, 98-104; 59, 14-17].

Təbii-coğrafi şəraitinə görə dünyanın antropogenez zonalarından biri olan Qafqazın təbii-coğrafi şəraiti, başlıca olaraq relyefi burada etnokonsolidasiya prosesinin sürətli inkişafına imkan verməmişdir. Kür-Araz ovalığı, Xəzərsahili düzənlərin əhalisinin etnokonsolidasiyası hələ üst paleolit, mezeolitdən başlasa da, Qafqaz dağlarının, bitki və heyvanat aləmi ilə zəngin böyük dağ və dərə vadilərində məskun qəbilə və tayfalar minillər boyu qapalı həyat keçirmiş, qonşu qəbilə və tayfalarla iqtisadi, etnomədəni təmasa girə bilməmişdilər, çünki buna zərurət yaranmamışdır. Odur ki, burada etnomədəni, sosial-siyasi proseslər ləngimiş, Qafqaz dağları qəbilə və tayfalarının inkişafı bilavasitə şərqdən və cənubdan Zaqafqaziyanın və Xəzərətrafı vilayətlərin etnomədəni konsolidəsi, əkinçi və maldar türk tayfalarının təsiri altında canlanmışdır. Qafqazın yazılı tarixi haqqında ilk məlumatları antik yunan müəllifləri verir. Onlar Avropa ilə Asiya arasında bu dağ səddinin adını türkcə Qafqaz, onun zirvələri Elbrus, Kazbek və Dəmirçi adlanması haqqında məlumat verirlər. Bu fakt göstərir ki, hələ arxeoloji dövrlərdən Qafqazda etnomədəni proseslər türk tayfalarının üstün mövqeyi şəraitində getmişdir. Antik yunan müəllifləri Krımda yunan kolonistləri ilə türk tayfalarının paralel yaratdıqları etnonim və toponimlər haqqında ətraflı məlumat verirlər [150, 30-33, 36-37; 181, 86-88; 182, 17, 106-110]. Antik yunan və roma mənbələrinin məlumatlarından, dilçilik sahəsində obyektiv tədqiqatların nəticələrindən aydın olur ki, Xəzərətrafı ölkələrin və Şimali Qafqazın ilkin dövlət qurumlarının və dövlətlərinin yaradıcıları türk dilli xalqlardır. Qafqazda təxminən Albaniya ilə eyni dövrdə Kür çayının şimal vadisində Gürcü dövləti yaransa da, başqa Qafqaz xalqları ilə etnomədəni, iqtisadi-sosial, ümumi ədəbi dil birliyi istiqamətində etnokonsolidasiyaya gedə bilmədi. Qafqaz dialektlərindən hər hansı biri eyni kökdə dayanan dilləri birləşdirməklə Qafqazdilli xalqlar üçün ümumi ədəbi dil səviyyəsinə qalxa bilmədi. Bu da Qafqazın təbii-coğrafi şəraiti, birinci növbədə relyefinin doğurduğu etnososial nəticədir. Etnomədəni, etnososial proses mədəniyyətlərin, maddi və mənəvi mədəniyyətin, ideologiyanın, adət-ənənənin, dillərin sintezi qovuşması prosesində gedir. Bu sahədə tarixi məlumatlardan aydın olur ki, dünyanın ayrı-ayrı ölkələrində etnik proseslər özünəməxsusluq kəsb edir. Bir ölkənin xalqları arasında etnokonsolidasiya dildən başladığı halda, digərində, ideologiyadan, mədəniyyətdən, başqa birisində, əxlaqdan və ya adət-ənənədən başlayır. Konkret olaraq hər hansı bir

ölkənin xalqları arasında etnik münasibətdən bəhs edərkən bu xalqların yaşadığı təbii-coğrafi şərait, relyef, təsərrüfat məişəti, əhalinin inam və etiqadı, dini, ideologiyası, dili, adət-ənənəsi, əhalinin psixikası, ölkədə təhsilin səviyyəsi və əhalini əhatə etmək imkanı, əhalinin informasiya şəraiti və s. xüsusiyyətləri nəzərə alınmalı, etnik münasibətlərin sərbəst və ya siyasi-mədəni təşviqatları planlı, məqsədyönlü təsiri altında baş verməsi, onun üsul və vasitələri nəzərə alınmalıdır. Dilçilik sahəsində aparılmış tədqiqatlar göstərir ki, ibtidai icma mərhələsində dillərin və mədəniyyətlərin inkişafı, birləşməsi min illərlə vaxt aparmışdır. Etnomədəni, iqtisadi-sosial birliklərin nəticəsi kimi siyasi birliklərlə tamamlanan ilkin dövlət qurumlarının və dövlətlərin yaranması, ümumiyyətlə, siyasi dövlət təsisatlarının yaranması etnomədəni prosesləri əvvəlki dövrlərlə müqayisədə daha da sürətləndirir. Lakin nəzərə almaq lazımdır ki, bütün siyasi təsisatlar, dövlətlər etnik proseslərə eyni səviyyədə təsir edə bilmir. Sovet tarixşünaslığı bilərəkdən, siyasi məqsədlər güdərək Strabonun albanlarda "26 dil vardır, belə ki, onlar bir-biri ilə ünsiyyətə çətin girirlər" (169, 17-18) məlumatını burada əhalinin çox dilliliyi, müxtəlif mənşəliliyi kimi şərh edirlər. Yuxarıdakı məlumatda Alban xalqının etnomədəni yekdilliyi, ümumxalq dilinə malikliyi və eyni mənşəliliyi səviyyəsini müqayisəli dəyərləndirmək üçün Çin tarixindən aşağıdakı məlumatı oxucuya təqdim edirik.

E.ə. I minillikdə vahid qədim Çin etnosu formalaşmışdı. E.ə. III əsrdə Çində vahid dövlət yarandı. Hazırda Çində 1 milyard 200 milyondan artıq əhali yaşayır. Çin dilinin Pekin dialekti ilə Şanxay dialekti o qədər fərqlənir ki, həmin dialektlərin nümayəndələri bir-birini başa düşmürlər. Hətta Şanxaya gələn Pekin qatarının bələdçiləri saatı işarə ilə soruşurlar [146, 436]. Tarixi məlumatdan göründüyü kimi, təxminən 2500 illik etnomədəni birlik Çin xalqının dil anlaqlığını Alban (Azərbaycan) xalqının ilkin təşəkkül səviyyəsinə çatdıra bilməmişdir. Xalq kimi ilkin təşəkkül mərhələsində 26 alban tayfasının, əyalətinin əhalisinin bir-birinin dilini başa düşməsi onların dil və mədəniyyətcə eyni mənşəliliyini təsdiq edir. Dilçilərin





Strabon və digər antik müəlliflərin albanların məişət və mədəniyyət yekdilliyi haqqında məlumatlarına əsasən "26 dil" ifadəsini "26 ləhcə" kimi dəyərləndirilməsi tam məntiqlidir. Mənbə və tədqiqatlar Alban xalqının etnogenezinin türk tayfalarının etnokonsolidasiyası zəminində formalaşdığını göstərir. Həmçinin mənbə və tədqiqatlar Albaniyada müxtəlif dilli tayfaların varlığını təsdiq edir [74; 75; 76; 79; 81; 82; 85; 103; 160]. Bu dillər - türk və qafqaz dilləridir.

Qonşuluqda, iqtisadi-mədəni təmasda yaşayan aborigen tayfa və xalqların müxtəlif dərəcəli etnomədəni təsiri daha fəal olur. Odur ki, alban türk tayfaları ilə Qafqazın Dağıstan dilli tayfalarının qarşılıqlı fəal etnomədəni təsiri təbiidir. Qafqaz anlayışı türkcə olsa da, dil təsnifatçıları bu ad altında qeyri-türk dilli etnik qrupları ifadə etmişlər. Yuxarıda bəhs olunduğu kimi, Qafqazın Ön Qafqaz adlanan Xəzərsahili düzənliyi, Kür-Araz ovalığı bütövlükdə Kiçik Qafqaz, Cənubi Azərbaycan, Şimali Mesopotomiya əhalisi ilə hələ ən qədimlərdən etnomədəni əlaqədə sıx əhaliyə malik olmuşdur.

Təbii-coğrafi şərait, təsərrüfat məişəti qəbilə və tayfaların etnokonsolidasiyasına şərait yaratmış, hələ eneolit dövründə burada tayfaların etnogenezinin ilkin mərhələsi formalaşmışdır. İlk tunc dövründə Kür-Araz ovalığında başlayan etnik yüksəliş, digər ərazilərlə bərabər Qafqazın yüksəkliyini və Şimali Qafqazı əhatə edən miqrasiya, köçmə maldarlıq təsərrüfatı ilə məşğul olan əhalinin yeni məskunlaşmaları onun etnomədəni təsir dairəsini daha da gücləndirilmişdi. Lakin Böyük Qafqaz dağlarının landşaftı dağ vadilərində, dərin dərələrdə məskunlaşmış qəbilə və tayfaları kənar hücumlardan qorusa da, etnomədəni əlaqələri çətinləşdirir, etnik inkişafa mane olurdu. Elə bu səbəbdən də Qafqaz dağlarında məskunlaşan qəbilə və tayfaların etnokonsolidasiyası o qədər zəif olmuşdu ki, bir kökdən olan bu dil ailəsi üçün ortaq ümumxalq dili, ədəbi dil yarana bilmədi. Alban xalqının formalaşması başa çatanda bu dağlıq ölkədə hələ 70-dən 360-a qədər dil olduğu haqqında məlumat verilir [75, 111; 156, 12]. Dağıstan dilli tayfalar Albaniyanı hər tərəfdən deyil, şimal-şərqdən əhatə edirdi. Kür-Araz ovalığında, Xəzərsahili düzən-

likdə bir dənə də olsun Dağıstandilli toponim qeydə alınmamışdı [48, 222; 85, 172; 119, 142-166]. Artıq e.ə. I əsrdə alban yazısı, əlifbası vardı, alban dilində alban ədəbiyyatı yaranırdı [48, 157; 76, 234; 160; 82, 24-73]. Yuxarıda göstərdiyimiz faktlar şəraitində Dağıstandilli tayfaların Alban xalqının etnogenezində iştirakından bəhs etməyə imkan vermir. İstifadə etdiyimiz mənbə, ədəbiyyat və etnoqrafik materiallar Alban xalqının etnogenezinin türk tayfalarının konsolidasiyası əsasında yaranması nəticəsini çıxarmamıza imkan verir.

Antik mənbələrdə və bu dövr haqqında tədqiqatlarda həmin dövrdə ümumi mədəniyyətə, adət-ənənəyə, inam və etiqada, əxlaqi dəyərlərə malik özünü alban adlandıran xalq, özünü alban adlandırmaqla bərabər ilkin tayfa etnonimini hələ yaşadan türkdilli və dağıstan dilli əhali haqqında məlumat verilir. Xalqın bu etnik mənzərəsi onun daha qədimlərdə formalaşmış etnogenezi və həmin dövrdə mövcud olan etnik tarixini əks etdirir. Antik mənbələrdə özünü alban adlandırmaqla bərabər, tayfa etnonimlərini, dil, adət-ənənə və digər əlamətlərini XXI əsrə gətirib çatdırmış yerləşdiyi əraziyə görə Şahdağ qrupu adlanan Xınalıq, Buduq, Qrız, Cek, Əlik, Haput kəndləri, udi və inqiloylardır. Bunlardan yalnız udilər xristian, ingiloyların bir hissəsi xristian, bir hissəsi müsəlmandır, qalanları müsəlman dininin sünni təriqətinə mənsubdurlar. Albaniyanın şimali-şərq hissəsində, yaşayan ləzgilər və Şahdağ qrupu tayfa etnonimi ilə bərabər həm də alban özünüadlandırmasını daşımışlar, azərbaycanlı adlanmışlar. Dağıstan dil qrupuna aid saxurların, hətta avarların Azərbaycana XVI-XVIII əsrlərdə gəlməsini yazırlar. Lakin biz avarların qədim avar türklərinin varisləri olması mövqeyində olan tədqiqatçıların mülahizələrinə üstünlük veririk. Şahdağ qrupunun Xınalıq dilinə bu kənddən başqa heç yerdə təsadüf edilməmişdir. Özlərindən başqa bu dili bilən, başa düşən yoxdur. Digər beş kəndin dillərində fərqlər olsa da, bir-birini başa düşürlər. Xristian udilər Azərbaycanda dil, din, adət-ənənə digər etnik xüsusiyyətlərini yaşatdığı halda 1920-ci ildə buradan Gürcüstana köçürülmüş udilər assimilyasiya olunub tarix səhnəsindən çıxarılmışlar. Azərbaycan





xalqı ilə ümumi adət-ənənələrə, psixi xüsusiyyətlərə malik dağıstan dil qrupuna aid etnik qruplar üçün Azərbaycan türkcəsi tarixən ümumünsiyyət vasitəsi və yazılı ədəbi dil olmuşdur. Azərbaycan vətənpərvərliyinin, əxlaqi dəyərlərinin, milli qürurunun yaradılması prosesində Azərbaycan türkləri ilə vahid etnopsixoloji dəyərlər ifadə etmişlər [174, 62-64; 183; 184, 167-315; 85, 175-176].

Etnogenez prosesində və etnik tarixdə özünüadlandırma xüsusi əhəmiyyət kəsb edir. Qəbilələr ilk özünüadlandırmanı mifik əcdadları hesab etdikləri totemlərindən alırlar [355, 12]. Qəbilə və tayfaların parçalanıb yeni ərazilərə miqrasiya edən hissələri ilkin özünüadlandırmanı saxlamaqla bərabər, miqrasiyaya başçılıq edən liderin adından, çıxdıqları və məskunlaşdıqları ərazinin adından və s. yeni özünüadlandırmalar yaradırlar. Miqrasiya prosesində yayıldıqları ərazilərdə onların mədəniyyətlərindən, dünyabaxışlarından xəbər verən etnonim, toponim, hidronim və s. yaradırlar. Uzun müddət ikili, hətta üçlü özünüadlandırmaya malik olurlar. Bir-birini canlandırır, nəslə, xalqa və Vətənə mənsub olmaq hisləri çulğaşıq çıxış edir. Bu cəhətdən Azərbaycanı bütünlüklə əhatə edən qurd etnonim, toponim, hidronimləri, folklor materialları, günümüzə gəlib çatmış qurd adlı kəndlər, şəhər məhəllələri Vətənimizin türkün ilk ocağı olmasına hər hansı şübhəyə yer qoymayan sübutlardır. Bütün hallarda etnonim etnosun qəhrəmanlıq hisslərini, milli qürurunu qoruyub saxlayır, yaşadır və onda özünə güvənmə hissi oyadır. Bu milli hisslər Atropaten və Azərbaycan özünüadlandırmasında da aydınlıqla özünü göstərir. Azərbaycan – Albaniya və Atropatena hüdudunda müstəqillik, qələbə simvolu idi, Atropat isə bu ölkənin xalqlarının istiqlalını təmin edən bir sərkərdə idi. Antik müəlliflər göstərirlər ki, ölkənin, dövlətin yeni adı öz başçısının adındandır [142, 108].

Urmiya gölü sahillərindəki sasani, İsgəndər imperiyası dövründə qəhrəmanlıq göstərib müstəqilliyini saxlayan Azərbaycan əyaləti idi. Təsadüfi deyil ki, milli psixologiyanın qanununa uyğun Atropat və Azərbaycan idealizə olunur və birləşdirici təsir göstərilir. Atropa-

tın dövləti ilkin olaraq Azərbaycan ərazisində yaranır, sonra bütün Midiyaya yayılır, qohum tayfa və xalqlar üçün də qürur mənbəyinə, istiqlal ideologiyasına çevrilir [48, 136-138; 142, 113].

Biz eyni prosesi bir qədər fərqli formada Albaniyada görürük. Albaniyada mərkəzləşmiş dövlətin yaranmasında onun banisi Aranın "yumşaq xasiyyəti", mehriban birləşdiriciliyi, yaradıcı faktor kimi çıxış edir. O, Nuh peyğəmbərin oğlu - türklərin atası Yafəsin nəslindəndir və bütün Albaniya torpaqlarını, tayfalarını birləşdirərək Alban-Aran dövlətini yaratmışdır [160, 17-19; 48, 176-177; 81, 84-94]. İlk Alban hökmdarları "Aranın nəslindən olan məşhur və cəsur ərlər" idi, "Uti, Girdman, Tsovd və Qarqar knyazlıqlarında yaşayan xalqlar da həmin Aranın oğullarının nəslindəndir" [160, 17; 48, 176-177]. Aranın Nuh peyğəmbərin nəslindən olmaqla, Alban dövlətinin və bu ölkənin ilk şəhərlərinin qurucusu olması haqqında məlumatlar XIX əsr Azərbaycan tarixşünaslığında da öz əksini tapmışdır. M.C.Cavanşir yazır: "Qarabağ vilayəti Aran məmləkətinin bir hissəsidir. Çünki Nuh peyğəmbərin... zamanında tufan olduqda və tufandan bir qədər keçdikdən sonra Nuhun övladlarından biri Kür və Araz çayları arasındakı Tiflis, Gəncə, İrəvan, Naxçıvan, Ordubad şəhərləri və hal-hazırda Qarabağ torpağında xaraba qalmış Bərdə və Beyləqan vilayətləri və torpaqlarında hökmran və sahib olmuş, buraları abad etmiş və hamısına öz adını qoymuşdur. Onun adı Aran idi" [3, 108; 7, 206; 8, 249; 9, 272]. Şimali Azərbaycanda etnik mədəniyyət ümumiliyi, ondan duyulan qürur zəminində Albaniyada, ilk dövlətin, bizcə mərkəzləşmiş dövlətin yaradıcısı tarixi şəxsiyyət Aranın şərəfinə Aran adlanmışdır. Avropada merovinqlərin frank dövləti, Böyük Karl imperiyası və s. ilkin dövlətlərin xalqların yaranması, yeniləşməsi prosesində milli etnik və ölkə adlarındakı dəyişmələr eyni qanunauyğunluqla getmişdir [178]. Görünür hakim müstəmləkəçi ölkələrin tarixçilərinin, məğlub xalqlara tarix uydurması da tarixi qanunauyğunluqdur [66; 185].

Azərbaycan xalqının etnogenezinin formalaşmasının başa çatması ilə xalqın cənubda yeni ad alması Azərbaycan əyalətinin, toponiminin də, Atropatın qəhrəmanlığının yaratdığı yenilik zəminində baş verdi. Ölkə ərazi adı ilə Azərbaycan və mərkəzləşmiş dövlətin qurucusunun adı ilə Atropaten, Şimalda isə etnotoponimin adı ilə Albaniya, onun mərkəzləşmiş dövlətinin qurucusunun adı ilə Aran adlandı. Beləliklə, Azərbaycan-Atropaten və Alban-Aran sözləri xalq mənasında eyni fikri ifadə edən anlayışlardır. Azərbaycan və ya Atropaten xalqı və ya dili ilə Alban və ya Aran xalqı və ya dili eyni mənalı sözlər, anlayışlardır (ətraflı bax: 175]. Arazın şimalında və cənubunda Azərbaycan-Atropaten və Alban-Aran xalqı etnonimləri adı altında xalq kimi təşəkkül tapsalar da, aralarında davam edən etnomədəni, iqtisadi-sosial və siyasi münasibətlər onları mədəni-sosial cəhətdən vahid xalq kimi təşəkkül etdirmişdir. Bütün dünya xalqlarında olduğu kimi Atropatena və Albaniyanın da siyasi birliyi etnomədəni yekdilləşmənin ardınca gəldi, ondan sonra baş verdi. Öz növbəsində siyasi müstəqillik, suverenlik etnosun sosial-psixoloji, iqtisadi, etnomədəni, inkişafını şərtləndirən başlıca şərtdir. Siyasi müstəqillik, suverenlik qədər xalqın inkişafına təsir edəcək digər səbəb, hadisə yoxdur. Odur ki, Əhəməni-İskəndər imperiyasının süqutu prosesində Azərbaycan xalqı və onun siyasi liderləri yaranmış siyasi şəraitdən maksimum bəhrələnməklə itirilmiş dövlət müstəqilliyini bərpa etdilər. Çünki hələ Midiya dövründə milli mənlik və müstəqillik şüuru onlarda yüksək səviyyəyə çatmışdı [102, 74-87; 142, 141].

Azərbaycanın Əhəməni və İsgəndər imperiyasına qarşı mübarizəsi Xəzərin Cənub və Cənub-şərq sakları (Türkmənistan, Özbəkistan, Qərbi Qazaxıstan) ilə etnomədəni və siyasi əməkdaşlıq şəraitində keçdi. Selevkilər üzərində qələbə çalmaqla Parfiya dövlətini quran saklar (parfiyalılar) özlərini Şərq xalqlarını Makedoniya-yunan əsarətindən azad edəcək xilaskarlar adlandırırdılar və bu məqsəd uğrunda ağır müharibələr aparırdılar. Azərbaycan bu mübarizədə onlara tam müttəfiqlik göstərirdi. Parfiya Arşakilər sülaləsi Atropat sülaləsi ilə qohum idi, bu münasibət fasiləsiz davam etdirilirdi. Azərbaycan və sak (parfiya) xalqı arasında möh-

kəm müttəfiqliyi, sıx etnomədəni əməkdaşlığını tarixçilər onların dil və mənşə birliyi ilə izah edirlər. Parfiya və Azərbaycan müttəfiqliyi Azərbaycan xalqının təşəkkülü mərhələsində onun milli dəyərlərinin zənginləşməsi və möhkəmlənməsində əhəmiyyətli rol oynadı [142].

Mənbə və tədqiqatlar göstərir ki, Azərbaycan xalqının e.ə. IV-III əsrlərdə təşəkkülü dövründə ən fəal etnomədəni əməkdaşlıq Cənubi Xəzərsahili sakları ilə olmuşdur.

Parfıya-sak Arşakılər sülaləsinin Kiçik qolunun Albaniyada hakimiyyəti etnomədəni yekdilliyə malik Atropaten-Alban etnosunu vahid milli siyasi şüura yiyələndirməklə xalq kimi ilkin təşəkkülünü tamamladı.

Ön Asiya və Zaqafqaziyada - antropogenez zonasında ilkin qəbilə parçalanması zamanı türk adı ilə meydana çıxan soy ilkin adını saxlamaqla yeni adlarla Sakit okean sahillərindən Avropanın mərkəzinə qədər yayıldılar. Onlar etnik inkişafın yeni mərhələsinə sak adı altında çıxdılar. Etnik inkişafın xalq kimi formalaşması mərhələsində Hun adı ilə bütün Asiyanı hərəkətə gətirdilər, "ölməkdə olan Avropanı yeni həyat qüvvəsinə ruhlandırdılar" (F.Engels). Tədqiqat əsərlərində hunları bəzən səhvən, əksərən qəsdən saklarla əlaqəsi olmayan yeni etnos kimi göstərməyə cəhd göstərirlər. Lakin onların etnik tərkibinə və tarixinə nəzər saldıqda, Sak soylarının daha yüksək səviyyədə konsolidasiyasının, hun adı altında daha yüksək səviyyədə etnik birlik kimi formalaşma olduğu aydın görünür [147; 185; 187; 189, 10-23; 190; 191; 192; 119, 124-129; 48, 179-180, 211-214; 143; 193, 53-54]. Hunların tarixi haqqında mənbə və tədqiqatlar göstərir ki, Mərkəzi Asiya hunlarının Avropa istiqamətində miqrasiyasına qədər onların bir qismi eramızın birinci əsrlərində Şimali Qafqaz, Qaradəniz sahillərində məlum idi. İkinci əsr müəllifi Dionisi hunları və skifləri Xəzərətrafı xalq adlandırır [119, 125; 136, 90; 143]. Araşdırmamız deməyə imkan verir ki, hunların Avropa istiqamətində miqrasiyasına digər türk tayfa ittifaqlarında olduğu kimi, hun ittifaqına daxil olan sabir, bulqar, basil, peçeneq,





qıpçaq və s. tayfaların Azərbaycana-Albaniyaya gəlişinə qədər burada yerli türk tayfalarının hun etnoniminə, özünüadlandırmasına keçidi olmuşdur. Təsadüfi deyil ki, elə bu dövrdə 2-ci əsr müəllifi Qarabağın Uti vilayəti əhalisini hun adlandırırdı [119, 124-128; 187, 12; 82, 83; 193, 53-54]. Görkəmli etnoqraf Q. Qeybullayev təxminən bizim bu qənaətimizə yaxınlaşmışdır, milli tariximizi imperiya tör-töküntülərinin toxuduğu tordan çıxarmaqda çəkdiyi əzabın yorğunluğu ona aydın qənaətə gəlmək imkanı verməmişdir [119, 82-100, 124-128]. Mənbə və tədqiqatların nəticələri göstərir ki, Çoladan Beşbarmaq dağına qədər Xəzərsahili vilayətləri əhatə edən Masha hun çarlığı, Kür-Araz ovalığı Paytarakan hun (Balasakan) çarlığı yerli türk tayfalarının etnokonsolıdasiyası, yeni etnonimə keçməsi nəticəsində yaranmışdı. Paytarakan (Beyləqan) hun çarlığının hökmdarı Sanatürk (298-338) haqqında M. Kalankatuyklu yazır ki, o, "albanlara hökmranlıq etməyə başladı", otuz min alban ordusunu toplayıb", "saysız-hesabsız hunların qoşunları ilə Ermənyyəyə basqın etmişdi" (160, 25, 27; 48, 179-181]. Sanatürk ermənilərin Albaniyadakı işğalçılıq siyasətini dəf etmək üçün Dərbənddən şimalda yaşayan hunlar və digər türk tayfaları ilə sıx ittifaqa girmişdı. Şimalın türk tayfaları hətta Sanatürkün ölümündən sonra Albaniyanı ermənilərdən və sasani işğalından qorunmasında ardıcıl iştirak edirdilər. Bu fakt göstərir ki, Albaniya hunları ilə şimal hunları arasında Sanatürkün qurduğu siyasi münasibətlər onlar arasında mövcud olan etnomədəni prosesin bir hissəsi idi. Sanatürkün ölümündən sonra da Dərbənddən şimalda yaşayan hunlar Albaniyaya gəlir və burada məskunlaşırdı [48, 180]. Artıq IV əsrin 60-cı illərində hun birliyi Dunay, Zaqafqaziya və Ön Asiyada hakim etnik hərbi-siyasi qüvvə idi. "Sasani dövləti özünün ən böyük qüdrətə malik olduğu dövrdə... 395-396-cı illərdə hunların qoşun dəstələri sel kimi Azərbaycana axıb gəldi". Sasanilər bu axının qarşısını ala bilmirdi [198, 110]. Böyük hun birliyi, ordası Albaniya - Azərbaycandan keçib Suriya və Kiçik Asiyaya yayıldılar. Elə bu vaxt Xəzərsahili düzənlər, Dağıstanın dəniz sahilləri, Şərqi Albaniya,

Cənubi Azərbaycan hunlarla məskunlaşdı [194, 34-35]. Lakin yuxarıda istifadə etdiyimiz mənbə və tədqiqatlar göstərir ki, eramızın birinci əsrindən Xəzərətrafı ərazilərdən Azərbaycana miqrasiya edən türk tayfaları vaxtı ilə buradan köç etmiş tayfalar idi. Erkən orta əsrlərdə Azərbaycanda məskunlaşmış "hun, peçeneq, kəngər, heptal, sabir, xəzər və başqa türk etnoslarını" hun ittifaqı adlandırırlar [48, 213; 119, 125]. Elə həmin müəlliflərdən Y.Yusifov yazır ki, "bu tayfalar qədim qaynaqlarda müxtəlif cür, məsələn, kimmer, sak, skif, nevr, massaget, saurmat adları altında göstərilir" [48, 213]. Həmçinin, Azərbaycan tarixi və dilçiliyi sahəsində aparılmış tədqiqatlar göstərir ki, hun birliyi adı altında tanınan və Azərbaycana gələn tayfa və ellər Azərbaycan ərazisində Assur, Babil, Urartu mixi yazılarından və ilkin antik müəlliflərin əsərlərindən məlumdurlar [48, 58-235; 74; 79; 81; 82; 83; 85; 86; 100; 103; 105; 118; 119; 136; 137; 142; 143; 147; 153; 155; 156; 157; 175; 82]. Mənbə və tədqiqatlar göstərir ki, hun adı altında türk tayfalarının Zaqafqazıya və Ön Asiyaya əks miqrasiyasına qədər hun tərkibinə malik türk tayfaları Azərbaycanda xalq kimi təşəkkül etmişdi və Ön Asiyada iqtisadi və mədəni üstünlüyə malik idi. Azərbaycan türkcəsi region etnosları arasında ümumi ünsiyyət vasitəsi rolu oynayırdı [82, 70]. Gürcü mənbələri Makedoniyalı İsgəndərin Asiyaya yürüşləri zamanı Gürcüstanda buntürklərin yaşaması haqqında məlumat verir. Erməni mənbələri isə e.ə. 2-ci əsrdə Ermənistanda (Kiçik Asiyada - X.X.) onoğurlardan bəhs edirlər [82, 82-83]. Milliyyətcə erməni akademikləri M. Abeğyan və R.Açaryan yazırlar ki, IV əsrdə Kiçik Asiyada "Azərbaycan və türk dillərinin təsiri nəticəsində erməni dilinin sintaksisi xeyli dəyişərək Hind-Avropa dillərinin sintaksisindən uzaqlaşmış, iltisaqiləşmişdir" [82, 79]. Hələ XIX əsrdə görkəmli dilçi Mordtman yazırdı: "Məlumdur ki, ermənilər Hind-Avropa mənşəli xalqdır, amma onların dili Turan (türk - X.X) dilinin güclü təsirinə məruz qalmışdır. Mən həmin ifadə ilə heç də çoxəsrlik kontakt nəticəsində osmanlı türkcəsindən alınmış sözləri nəzərdə tutmuram. Söhbət IV, V, VI və VII əsrlərdə erməni ədəbi dilinə keçmiş





Turan elementlərindən gedir. Bu elə bir dövr idi ki, dünyada hələ nə səlcuqlar, nə osmanlılar... var idi" [82, 80]. XIX əsr erməni tarixçisi K.Patkanyan isə IV əsrdə türk dilinin nəinki erməni, gürcü dilinə təsirindən bəhs edir [82, 80], 440-cı ildə erməni dilinə tərcümə olunmuş, erməni əlifbası ilə yazılmış "İncildə" türk sözlərindən istifadə olunduğundan xəbər verir [82, 89]. Antik mənbələr, bu dövrə aid tədqiqatlar göstərir ki, Hun ittifaqının miqrasiyasına qədər Ön Asiya və Qafqazda türk mədəniyyəti dominant mədəniyyət olmuşdur [82, 78-98]. Azərbaycanın aborigen Hun tayfa ittifaqları ilə eyni adlı tayfaları burada Azərbaycan-Alban xalqı kimi ilkin təşəkkülünü başa çatdırmışdı. Azərbaycana miqrasiya edən tayfalar burada məskunlaşmaqla, onun etnik tarixində iştirak edirdilər.

Azərbaycan-Alban xalqı istiqlalını yüksək qiymətləndirən, dövlətçilik siyasi şüuruna malik etnos idi. 226-cı ildə saray çevrilişi ilə Parfiyada hakimiyyəti ələ keçirən fars Sasani sülaləsi Parfiya və ona tabe olan ölkələrə məktub göndərib hakimiyyətlərini tanımasını tələb edir. Azərbaycan-Albaniya yalnız 262-ci ildə bu sülalənin hakimiyyətini tanısa da, ölkəni yerli sülalə və hakimlər idarə edirdi, daxili muxtariyyətlərini qoruya bildilər [142, 148-149; 48, 178-179]. Azərbaycan imperiyanın iqtisadi-mədəni cəhətdən ən inkişaf etmiş ölkəsi idi. Atropatenanın paytaxtı Qazaka zərdüştlüyün, sasanilərin dini-ideoloji mərkəzi idi [142, 150-153; 195, 16; 51, 69]. Albaniya Xəzərilər və digər Qafqaz etnosları ilə ittifaqa girərək ardıcıl Sasani əsarətinə qarşı mübarizə aparırdı. Albaniyada milli iradəni zorakı surətdə qıra bilməyən Sasanilər, burada hakimiyyətə onlara xidmət edəcək adamları gətirmək, zərdüşt dinini yaymaqla ideoloji birlik yaratmaq vasitəsilə hakimiyyətlərini möhkəmləndirməyə can atırdılar. 387-ci ildə Armeniya Sasanilərlə Roma imperiyası arasında bölündükdən, 428-cı ildə dövlət qurumları ləğv edilib sasanilərin canişinliyinə çevrildikdən sonra sasanilər Albaniyanı birmənalı tabe etmək istiqamətində addımlar atdılar. Alban xalqı Sasani işğalına qarşı vahid milli iradə nümayiş etdirdi, bütün Albaniyanı Sasani işğalına qarşı üsyan bürüdü. 450-ci ildə Xal-

xal şəhəri yaxınlığında sasani qoşunları üsyançılar tərəfindən darmadağın edildi, Çolada yerləşən qoşunları isə tərkisilah edilib ölkədən qovuldu. Bu mübarizədə şimal hunları albanların müttəfiqi idi [51, 71-72]. Sasani şahı I Qubadın "parçala hökmranlıq et" siyasəti yeritməklə Qəbələ ətrafında məskunlaşmış "igid hunları", "çox döyüşkən xalq" sabirləri [198, 110] albanlara qarşı qoymaq, onlar vasitəsilə Dərbənd keçidini bağlamaq siyasəti nəticə vermirdi. Xəzərlər Albaniyada sürətlə məskunlaşır, yerli əhali ilə konsolidə olunurdular. Xosrov Ənuşirəvanın xəzərilərin Azərbaycana miqrasiyasının qarşısını almaq üçün göstərdiyi amansızlıqlar da nəticə vermir, 10 minə qədər xəzəri Qəbələ ətrafında yerləşdirməyə məcbur olur [199, 18]. Xosrov 568-ci ildə Şimali Qafqazın 4 türk tayfasından 50 min əhalini Azərbaycan və Aranın müxtəlif ərazilərinə köçürüb onlardan hərbi hissələr təşkil edir [194, 36]. Lakin bu türk tayfalarının da yerli əhali ilə sürətlə etnokonsolidasiyası onları sasanilərin siyasi nəzarətindən çıxarır. Xosrov Ənuşirəvan "576-cı ildə külli miqdarda sabir hunlarını Gəncə (Sakaşen) sahəsinə köçürmüşdü, beləliklə də Kür və Araz çayları arasındakı yerlərdə hunlar ölkəsi əmələ gəlmişdi" [171, 172]. Hələ sasani hökmdarı Qubadın hökmranlığının son illərində Şimali-Azərbaycan xəzərlərin əlində olduğu və onların içərisində türklər böyük yer tutduğu üçün bu ölkələri Azərbaycanla birlikdə "Xəzərilər ölkəsi" adlandırırdılar [160, 76; 75, 42; 48, 189; 171, 172-173].

Fərqli dini-ideoloji baxışlara malik olmaq albanlarla xəzərlər-hunlar arasında müəyyən məqamlarda anlaşılmazlıq, uyuşmazlıq doğursa da, dil birliyi, adət-ənənə yaxınlığı onların etnik təmasını, əməkdaşlığını sürətləndirirdi, birgəyaşayışa şərait yaradırdı. Onları dil, din, inam və etiqadı, adət-ənənəsi yad fars işğalçılarına qarşı birləşdirirdi. Sasani işğalına qarşı mübarizə zərurəti alban-xəzər etnik birliyini daha da sürətləndirirdi. V əsrin sonlarına kimi alban-xəzər birliyi sasanilərin Albaniyada hökmranlığına imkan vermədi [196, 71-72]. Sasani imperiyası Albaniyada tam hökmranlıq etmək məqsədilə Dərbənd keçidində möhkəmlənib alban-xəzər etnik-siyasi





birliyinin yaranmasının qarşısını almaq üçün tədbirlər gördü. Bu məqsədlə V əsrin üçüncü rübündən Beşbarmaq qalasından Dərbəndə qədər qədim hərbi istehkamları təmir etmək, yenilərini tikməklə burada möhkəmlənməyə can atdı. Dərbənd qalasını daha da möhkəmləndirib burada güclü qoşun saxladı [196, 71-72]. Lakin onlar xəzər-hun miqrasiyasının qarşısını ala bilmədilər. M.Kalankatyuklu yazır ki, "Onlar (hunlar - X.X.) qəflətən Çola qapısından keçir və şəhərin keşikçiləri və İran şahının keçidin ətrafında yerləşdirdiyi başqa qoşunlarına əhəmiyyət vermədən qartallar kimi başı aşağı hücum edərək Kür çayı tərəfinə yönəlirdilər [160, 96].

Tədqiqatlarda konkret tarix göstərilmədən Albaniyada etnik-siyasi dayaq yaratmaq məqsədilə tat adlanan fars mənşəli əhalinin Sasani hakimiyyəti illərində Şimali Azərbaycana köçürüldüyünü yazırlar. Bizcə bu əhali Şimali Azərbaycana məhz V əsrin ikinci yarısında Sasani imperiyasının etnik-siyasi dayaq və hərbi bazalarının yaradılması prosesində köçürülmüşdür.

Sasani imperiyasının hərbi-siyasi tədbirləri Alban xalqının mənəvi-siyasi iradəsini qıra bilmir, antisasani üsyanlar (571-572, 603-604-cü illər) davam edir. Alban tarixçisi M. Kalankatyuklu Sasani işğalı ilə bərabər xəzərlərin tez-tez Albaniyaya basqınlarından bəhs etsə də, burada xəzərilərə qarşı kütləvi mübarizədən məlumat vermir. "Albaniya tarixi" əsərində Xəzərlərlə - albanlar arasında əsasən dini-etiqad ziddiyyətlərindən bəhs olunur. Albaniyada xristian dini hələ kütləviləşməmişdi, əsasən hakim təbəqənin dini idi ki, o da çox möhkəm deyildi. Odur ki, xristian dini alban türklərinin gəlmə xəzər türkləri ilə etnokonsolidasiyasına əsaslı maneçilik yarada bilmirdi. Dil birliyi, adət-ənənə yaxınlığı xəzərilərin Albaniyada etnokonsolidasiyasını iz qoymayacaq səviyyədə asanlaşdırırdı. Bunun əsas səbəbi albanların milli yazıya, məktəbə malik olmaqla Xəzərilərdən mədəni səviyyəsinin ciddi üstünlüyü idi [160; 75, 100-115; 82, 24-77].

Eranın əvvəllərindən hunların Ön Asiyaya başlayan miqrasiyası birbaşa Qafqazdan - Azərbaycandan keçirdi. Avropaya keçən

miqrasiyanın dalğası da fasiləsiz Azərbaycana öz təsirini göstərirdi. Tarixi mənbələr miqrasiya prosesində burada gəlmə əhalinin sayı haqqında dəqiq təsəvvür yaratmağa imkan verməsə də, bəzi siyasi hadisələrlə bağlı xəzərlərin - hunların Azərbaycanda - Albaniyada məskunlaşması haqqında hərdən göstərilən rəqəmlər burada etnik tərkib haqqında müəyyən təsəvvür yaradır.

627-ci ildə Bizans imperiyası ilə Xəzər xaqanı arasında razılaşmaya əsasən 40 minlik Xəzər qoşunu Albaniyaya gətirilir. Qəbələ şəhərində və Kürün hər iki sahilində məskunlaşdırılır. Qəbələ şəhəri xəzərilərin inzibati mərkəzinə çevrilir, Xəzər Qəbələ adlanır. Hunlar dağ keçidləri vasitəsilə Xəzər xaqanlığı ilə əlaqə saxlayırdılar [171, 51; 198, 112; 199, 18-19; 51, 80; 169, 67-71; 200, 7, 24]. Xəzərilərin Qəbələ və Kürün hər iki sahilində məskunlaşması zamanı yerli əhalinin hər hansı müqaviməti haqqında məlumat yoxdur. Bu onu göstərir ki, Alban türkləri sasanilərə qarşı mübarizədə xəzərlərlə əməkdaşlığı onların etnokonsolidasiyasını sürətləndirmiş, etnik həmrəyliyi birləşəcək dərəcədə yüksəltmişdir. 628-ci ildə Xəzər qoşunları Uti vilayətinə keçəndə yerli əhali tərəfindən himayə olunmayan sasani Mərzibanı qaçır. Xəzər xaqanının Alban katalikosuna toxunulmazlıq verməsi ilə Albanlarla xəzərilər arasında siyasi, etnomədəni konflikt yaranmır, həmin ilin payızında Albaniya Türk xaqanlığının hakimiyyətinə keçir [160, 108-109; 48, 194; 171, 53]. 630-cu ildə Türk xaqanlığı ilə Sasani dövləti arasında Armeniyanı tutmaq uğrunda hərbi mübarizə başlayır. Qoşunlar Göyçə gölü sahilində toqquşurlar. Sasani qoşunlarının komandanı və döyüş gedən ərazinin əhalisi türk idi. Elə bu səbəbdən də Sasani qoşunları asanlıqla məğlub olur, Göyçə gölü əraziləri Türk xaqanlığının hakimiyyətinə keçir [48, 195; 171, 59]. Sasani dövləti zəifləməsinə baxmayaraq, Cənubi Azərbaycanda hakimiyyətini qoruya bilir, lakin Albaniyada yerli sülalə hakimiyyətini bərpa edib, asılı, vassal dövlətə çevrilir. Bu zaman Albaniya həm də xəzərilərə vergi verirdi.

Albaniyanın sasanilərə və xəzərlərə münasibəti fərqli idi. Albaniyada sasanilərə qarşı daimi siyasi mübarizə getdiyi halda,





Albaniya-Xəzər münasibətlərində dini ixtilaflar istisna olmaqla, etnomədəni əlaqələr, qarşılıqlı anlaşma sürətlə inkişaf edirdi. Azərbaycan nəinki etnomədəni cəhətdən Xəzərsahili türklərlə konsolidə olunurdu, hətta onların siyasi birliyi prosesi gedirdi. Təsadüfi deyil ki, artıq VII əsrin ortalarında Orta Asiyadan Qafqaza qədər uzanan böyük Türk xaqanlığının şimal-qərb sərhədi sol sahil Albaniyanı içinə almışdı [160, 132; 99, 30-31]. Hələ bundan xeyli əvvəl Kür-Araz çayları arası ərazi hunlar ölkəsi, onların başçısı tarxan adlanırdı, V əsrdə Muğanda yerləşən böyük türk tayfa təşəkküllərindən biri hunlar Muğanın cənubunda Ağhun (ərəbcə - Balasaqun) şəhərini salmışdılar [171, 172]. Bütün bunlar Azərbaycan-Albaniyada Xəzərsahili türklərlə güclü etnomədəni konsolidasiya getdiyini göstərir. Bu dövrdə türk xalqları, tayfa ittifaqları arasında dini ideoloji birliyin olmaması, zərdüşlük və xristian dininin onları ideoloji cəhətdən parçalasa belə, Bizans, Sasani, Ərəb imperiyaları ilə döyüşlər türk soylarının qüdrətini, onların digər soylarla müqayisədə üstünlüyünü üzə çıxardı. Türk milli qüruru etnomədəni, etnosiyasi birlik ideyası doğurdu. Xristian təəssübkeşi, Alban tarixçisi M.Kalankatyuklu "Albaniya tarixi" əsərinin ilk fəsillərində albanların Yafəs-Türk nəslindən olduğunu yazsa da, bu fikri əsərdə çox da qabartmır, əsər boyu albanların xristianlığa münasibətini alqışlayır, bütpərəst və b. dinlərə etiqad edənlərə mənfi münasibət təlqin edir. Ərəb Xilafəti ilə müharibədə Alban sərkərdəsi Cavanşirin və türklərin qüdrəti bir daha üzə çıxır. Elə bu səbəbdən M. Kalankatyuklu dini etiqadını unudub, etnik mənsubiyyətindən doğan qürurdan da bəhs edir. O, ərəb xəlifəsinin Cavanşirə xoş münasibətini onun şəxsi şücaəti, igidliyi ilə bərabər, qüdrətli Türküstan qəbilələri ilə qohumluğundan bəhs edərək yazır: "Cənub hökmranı (ərəb xəlifəsi - X.X.) eşitmişdi ki, bizim knyazımızın... Türküstan qəbilələri ilə qohumluğu sayəsində onları itaətdə saxlayıb istədiyi vaxt yürüşə çağıra və ya yürüşdən saxlaya bilərdi. Buna görə məğrur dünya fatehinin beynində həsəd əmələ gəldi və o, inanılmış adamları ilə Cavanşiri öz böyük adamları və hesabsız mükafatları ilə birlikdə öz yanına dəvət

etdi" [160, 134], böyük hörmətlə qarşıladı və Cavanşirin xahişi ilə xəlifə Albaniyaya bir sıra vergi güzəştləri etdi.

Göründüyü kimi, M. Kalankatyuklu xəlifənin Cavanşirə bu müsbət münasibətini "Türküstan çarı" ilə qohumluğu ilə deyil, "Türküstan qəbilələri ilə qohumluğu" ilə izah edir.

665-ci ildə hunların Albaniyaya basqını zamanı onların Cavanşirlə asanlıqla anlaşaraq bütün qarət olunan əmlakı və əsirləri qaytarması, xristian dininin qadağan etməsinə baxmayaraq, Cavanşirin Xəzər xaqanının qızı ilə evlənməsi, hakimiyyətdə onu əvəz etmiş Varaz-Trdatın hunlar ölkəsi ilə münasibətləri tənzimləmək üçün nümayəndə göndərərkən dediyi: "qoy bu gündən onlarla (hunlarla - X.X.) qohumluğa girmək bizə rüsvayçılıq sayılmasın" [50, 186; 160, 132-136, 154], sözləri və göstərilən faktlar Albaniyada türk soylarının yüksək səviyyədə etnokonsolidasiyası nəticəsində milli türk şüurunun dini şüurdan üstün olduğunu göstərir. Etnosiyasi şüurun dini şüurdan üstünlüyünün, etnik mədəniyyətin yüksək dəyərləndirilməsinin nəticəsi idi ki, Alban çarı ölkənin "Türküstan" adlanan əyaləti ilə etnomədəni əlaqələrə, etnik yekdilliyə mane olan dini-ideoloji səbəbi, dini idarənin razılığı olmadan, aradan qaldırmaq haqqında xalqın ali-zadəgan təbəqəsinin iştirakı ilə qərar qəbul edir [50, 186; 160, 132-135, 154]. Bu, artıq Albaniyada ikili alban-türk özünüadlandırmasından özünü türk adlandırmanın üstün mövqe qazanmaqda olduğunu, milli türk şüurunun hakim mövqeyə çevrilmədə olduğunu göstərir. Bu proses yalnız Azərbaycan-Albaniyada deyil, bütün Xəzərətrafı ölkələrdə gedirdi. Xəzərətrafı türk el və xalqlarının ikili hun-türk, alban-türk, Xəzər-türk və s. özünüadlandırmasından türk özünüadlandırmasına keçid onların sürətli etnokonsolidasiyası, xalqlaşması şəraitində gedirdi. Göytürklər birinci olaraq (552) dövlətlərini türk adlandırdılar. Türk birliyi istiqamətində fəal xarici siyasət yeritdilər. Sasani imperiyasının Mərkəzi Asiya türkləri ilə Azərbaycan arasında etnomədəni, etnososial əlaqələrinə maneçiliyini aradan qaldırdılar [202, 16]. VI əsrin 60-70-ci illərində Qaradənizə qədər türk xalq və ellərinin etnomədəni və etnosiyasi





birliyini yaratdılar. Azərbaycan siyasi-inzibati cəhətdən bütövlükdə bu birliyə daxil olmasa da, onun müəyyən əraziləri bu siyasi birliyin təsirinə keçmişdir. Lakin Azərbaycan bütünlüklə bu etnomədəni tərkibin etnik proseslərinin bir hissəsi olacaq səviyyədə ona qovuşmuşdu. Xaqanlıq iki hissəyə parçalananda (582) Atropatena Şərqi Türk xaqanlığının, Albaniya Qərbi Türk xaqanlığının təsirində qaldı [111, 185; 171, 172-175]. Bu etnomədəni əlaqə, proses nəticəsində Azərbaycan şimal-şərqdən "Türküstan" adlandığı kimi, Cənubda da "türklər ölkəsi" - "Türküstan" kimi tanınır və adlanırdı. Ərəb müəllifləri yazır ki, ərəb qoşunları "türklərlə döyüşə-döyüşə Azərbaycana daxil oldu" [169, 56], Xilafətdə hakimiyyətə gələn I Müaviyyə (661-680), Şərqə yeni hərbi əməliyyatların hazırlanması zamanı, Azərbaycan haqqında arayış almaq üçün, iti ağlı, biliyi ilə seçilən müşaviri Übeyd ibn Şəriyyədən Azərbaycan haqqında məlumat verməsini istəyərək soruşur: "Azərbaycan haqqında əlaqəniz, təlaşınız və xatirəniz nədir?" O isə belə cavab verir: "Ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri ilə qarışmış və təkmilləşmişlər" [169, 56-57]. Mənbə və tədqiqatların məlumatından aydın olur ki, ərəb işğalına qədər Azərbaycanda türk özünüadlandırması qəti formalaşmışdı.

Antropogenez zonasında türk etnoniminin yaranması, qəbilə və tayfa adı kimi yaşaması, xalq özünüadlandırmasına çevrilməsi uzun bir tarixi dövr keçmişdir.

Arxeoloji, antropoloji, etnoqrafik, dilçilik, yazılı mənbələr göstərir ki, türklər antropogenez zonası Ön Asiya və Zaqafqaziyadan, Xəzər sahillərindən Mərkəzi və Şərqi Asiyaya, Avropaya keçmişlər. Artıq son dövrlərdə onların ən qədimlərdən Asiyadan Amerika qitəsinə keçməsi haqqında məlumatlar meydana çıxmaqdadır. Türklərin qədim miqrasiyası tədqiqatımızın məqsədi olmadığından ancaq problemimizlə bağlı məsələyə toxunacağıq.

Türk etnonimi ilkin olaraq ulu qəbilənin dilinin antropogenez zonasında şivələrə parçalanması zamanı bir şivədə danışan hissəsinin özünüadlandırması olmuşdur. Onlar yalnız şivələri ilə deyil, məs-

kun olduqları ərazinin təbii-coğrafi şəraiti, digər səbəblərdən, adət-ənənələri, inam və etiqadları, psixi xüsusiyyətləri ilə də ulu qəbilədən fərqli xüsusiyyətlər qazanmışlar. Bu fərqlərin inkişafı nəticə etibarı ilə onları müstəqil toplum kimi formalaşdırmışdır. Türk sözünün mənası müxtəlif cür izah olunsa da, güclü, qüvvətli, əsgər mənasını bütün tədqiqatçılar qəbul edir [123, 25; 127, 31; 143].

Əhali artımı, iqlim dəyişmələri və s. səbəblərdən türk qəbilələrinin şərqə miqrasiyası başlayır. Qəbilələr bölünmə və parçalanmalarla yeni ərazilərdə məskunlaşırdılar. Qəbilənin yeni ərazidə məskunlaşan hissəsi ulu qəbilənin adını yaşatmaqla bərabər, qəbiləsindən, tayfasından ayrılıb yeni ərazilərdə məskunlaşan hissələri yeni ad alır, bununla bərabər, ulu türk etnonimini də yaşadırdı. Müxtəlif səbəblərdən bəzən bütün qəbilə və tayfa yurdunu tərk etməli olurdu. Bütün hallarda köçən tayfa - əhali maddi və mənəvi mədəniyyətini, adət-ənənəsini, dil və adını da özü ilə aparırdı. Onlar yeni məskunlaşdıqları ərazilərə, dağlara, dərələrə, yarğanlara, çaylara, bulaqlara keçmişdə onlara məxsus düzlərin, dağların, çayların, bulaqların adlarını verirdilər. Beləliklə, min kilometrlərlə məsafədə eyni etnonim, toponim, hidronimlər yaranırdı. Qəbilə və tayfaların, xüsusilə köçərilərin yeni ərazilərdə məskunlaşması zamanı fövqəladə intizam gözlənirdi, ayrılan, yeni ərazilərdə məskunlaşan hissə ümumi icmanın strukturundan kənarda qalmamalı, etnik yekdilliyi pozmamalı idi. Tayfa ondan ayrılan hissənin harada, hansı məsafədə, necə şəraitdə məskunlaşması haqqında dəqiq məlumata malik olmalı idi. Onların köçü, yeni ərazilərdə məskunlaşması zamanı hər hansı pərakəndəliyə yol verilmirdi. Tayfanın yeni ərazidə məskunlaşan hissəsi kök tayfanın nəzarətində, himayəsində olurdu. Qəbilə, tayfa və yeni formalaşan xalqlar ikili ad daşıyırdı. Bunlardan biri qabarıq özünüadlandırmanı, digəri ulu əcdadı və ya ümumi mənsubiyyəti bildirirdi. Bu etnik qanunauyğunluq türk tayfa və xalqlarının həyatında özünü qabarıq şəkildə göstərirdi. Yeni adlarla yeni ərazilərdə məskunlaşan tayfalar ulu türk adını da özləri ilə aparırdılar [53; 181; 203; 204; 205]. Bir-birlərindən uzaq düşmüş tayfalar





qabarıq özünüadlandırma etnonimi ilə deyil, ulu əcdad türk özünüadlandırması, türk nəslinə mənsub olma hissləri ilə ünsiyyətə girirdilər. Belə tayfaların birləşməsi zamanı onlar asanlıqla etnik qürur mənbəyi türk özünüadlandırmasına keçirdilər. Maraqlıdır, türk xalqları tarixin yaddaşında əsasən müxtəlif adlarla, köçəri xalq kimi qaldığı halda, birmənalı olaraq türk etnonimini, özünüadlandırmasını oturaq əkinçi və şəhər əhalisi yaşadırdı [48, 16-17, 73; 136, 86; 127, 179; 206; 207; 143; 156].

Bütün dünya xalqlarında olduğu kimi, türk xalqlarında da əkinçi və şəhər əhalisi etnomədəni nüvə funksiyası yerinə yetirirdi. Ona görə də dövlətləşmə prosesində oturaq həyat tərzinə keçən türk tayfaları və elləri fəal yaşatdığı tayfa etnonimi ilə deyil, passiv yaşatdığı ulu türk etnonimi, özünüadlandırması ilə əkinçi və şəhər əhalisinə konsolidə olunurdu. Onlar bir məhəllə təşkil edəcək qədər çox olduqda, kəndin və ya şəhərin bu hissəsində passiv şəkildə tayfa etnonimini də yaşadırdılar. "Elat həyatından oturaq həyata keçid insanların mənsub olduğu tayfalarla əlaqəni qırır", "el və tayfa mənsubiyyətini itirir və türk adlanmağa başlayırdı" [208, 139]. Tarixi şərait ilk orta əsrlərdə türk tayfa və ellərinin konsolidasiyasını, xalqlaşmasını sürətləndirirdi. 552-ci ildə Göy türklər qurduqları dövləti türk dövləti adlandırırlar. Təxminən elə bu dövrdə Azərbaycanda "Türküstan", "türklər ölkəsi" adlanır. Lakin Göytürklərdən fərqli olaraq Azərbaycandakı türk özünüadlandırması siyasi birlik deyil, etnik özünüadlandırma idi. Orta Asiya ilə müqayisədə Azərbaycanda türk özünüadlandırmasına keçid asan olur. Bunun obyektiv və subyektiv səbəbləri vardır. Əvvəla, Azərbaycan antropogenez zonası olmaqla, burada türklüyün təməl əsasları daha güclü idi. Azərbaycanın antropogenez zonası, türklərin ilkin vətəni olmasını arxeologiya, antropologiya, etnoqrafİya, ən qədim mənbələrlə bərabər xristian və müsəlman ideologiyalı mənbələr də təsdiqləyir. Skandınavıya əfsanələrinin birində türklərin ilkin vətəninin Kiçik Asiya və Zaqafqaziya olduğu, Nuhun oğlu Yafətin nəslindən olmaları yazılır [95, 58-59]. Xristian təəssübkeşi M.Kalankatyuklu midiyalıların və albanla-

rın Yafətin nəslindən olduğunu yazır [160, 14-16]. Əbdülqazi Bahadır xan da "Şəcərəyi-tərakimə" əsərində türklərin Nuh peyğəmbərin oğlu Yafətin nəsli olduğunu təsdiq edir [209, 47-51]. Urartu və antik mənbələri də Azərbaycanın türklərin ilkin vətəni olması ilə bərabər burada türk etnoniminin fasiləsiz yaşaması haqqında məlumat verirlər. "Türk" etnoniminin ən qədim forması "turukki"lərin e.ə. II minillikdə Urmiya hövzəsində yaşaması haqqında Assur mənbələri məlumat verir. "Turukki ölkəsinin adamları"ndan, "turikki ordusu"ndan söhbət açırlar [48, 73-80; 50, 39-42; 365; 366]. Urartu mənbələri də Azərbaycan ərazisində turikkilər adlanan əhalinin yaşamasından bəhs etmişdir [206, 63]. Antik müəllifdən Herodot türk etnonimini iirk, Plin turk, Mela türk kimi yazmışdır [136, 86; 206, 63; 186, 28]. E.ə. VII əsr mənbəi "Avesta"da tur tayfası iranlıların düşməni kimi izah olunur. "Şahnamə"də tur - türklə, Turan - Türküstanla eyniləşdirilir. Yuxarıda müxtəlif formalarda qeydə alınan etnonimlər türk etnoniminin unudulmadığını, passiv özünüadlandırma olaraq fasiləsiz yaşadığını deməyə əsas verir. Bu, nəinki Ön Asiyada, Qafqazda, hətta Şərqi Asiya türk tayfaları arasında da belə idi [143; 208].

Əlverişli təbii-coğrafi şərait, çoxlu bulaq, çay və göllərin olması, hələ eramızdan əvvəl süni suvarma sistemlərinin yaradılması Azərbaycanı qədimdən əkinçi-maldar ölkəsinə çevirmişdi. Əhali başlıca olaraq oturaq həyat tərzinə malik idi [210, 5-210]. Elə bu səbəbdən də Azərbaycanda qədimlərdən daimi yaşayış məskənləri, kəndlər, böyük şəhərlər yaranmışdı. Təbriz, Marağa, Ərdəbil, Xoy, Zəncan, Salmas, Həmədan, Qəbələ, Dərbənd, Beyləqan, Hunan (Torpaqqala), Bərdə, Şamaxı, Ağoğlan, Şabran, Naxçıvan, Bakı, Gəncə və b. ticarət və sənətkarlıq, əyalət və paytaxt şəhərləri mövcud idi. Mənbələr Muğan və Mildə 5 min yaşayış məntəqəsi haqqında məlumat verir [51, 86].

Azərbaycanda sistemli əkinçilik və şəhər həyatının mövcudluğu, əhali sıxlığı, yerli türklərin yazıya və məktəbə malik olmaqla, gəlmə türk tayfa və ellərindən mədəni üstünlüyü hunların Azərbaycana





miqrasiyası zamanı onların burada yerli türk əhalinin mədəni təsiri altında asanlıqla konsolidasiya olunmasına imkan verdi. Etnokonsolidasiya prosesi hər iki tərəfi tayfa etnonimını passiv yaddaşa keçirməklə, ulu türk etnonimi altında birləşməyə sövq etdi. Beləliklə, hunların Azərbaycana miqrasiyası prosesində Azərbaycanda Alban və Atropaten və b. özünüadlandırmalardan ümumi etnik mədəniyyəti, etnonimi olan türk özünüadlandırmasına keçildi. Azərbaycan "türklər ölkəsi", hətta "Türküstan" adlandı. Albaniyada yerli türk tayfaları ilə gəlmə türk tayfalarının etnokonsolidasiyası prosesində alban etnonimindən və toponimindən "Türküstan" toponim və türk özünüadlandırmasına keçid prosesi "Kitabi-Dədə Qorqud" dastanı və M.Kalankatuklunun "Albaniya tarixi" əsərində aydınlıqla izlənilir [160; 212, 63, 69, 95].

Xəzərşünas M.İ.Artamonov yazır ki, "Zaqafqazıyada, Xüsusilə düzən Albaniyada savir, xəzər, bolqar və s. türklərin yerləşməsi, ehtimal ki, onların bu ölkəyə ilk basqınları zamanından olmuşdur. Sonralar onların sayını yeni türk tayfaları artırmışdır ki, bu da Azərbaycanın müasir etnik simasını müəyyən etmişdir" [211, 132]. Hunların Azərbaycana miqrasiyası və onun nəticələri antropoloqların da diqqətini cəlb etmişdir. V.Alekseyev yazır ki, "Azərbaycanda qədim əhalinin antropoloji tipi hazırda necədirsə, eləcə də olmuşdur. Bunlar ensiz sifətli miniatür xəzərlər (kaspilər) idilər. Deməli, aqvanlar (albanlar) azərbaycanlıların qohumları deyil, onların babaları və ulu babalarıdır" [201, 54]. Azərbaycanın görkəmli antropoloqu R.Qasımova məsələyə daha ciddi, bütün incəliyi ilə yanaşmışdır. O yazır: "Müqayisəli - antropoloji tədqiqatlara əsasən demək olar ki, ölüləri katakombalarda dəfn etmiş Mingəçevirin orta əsr əhalisi Azərbaycanın daha qədim əhalisinin fiziki tipini təmsil edir [59, 35]. Göründüyü kimi, M.İ.Artamonovla razılaşmaq olmaz. Antropoloji, arxeoloji və etnoqrafik məlumatlar göstərir ki, Azərbaycan türklərinin milli simasını yerli Alban türkləri vermişdir. Gəlmə sabir, xəzər, bulqar və s. türk tayfaları Azərbaycan türklərinin etnik simasındakı xüsusiyyətlərə bu və ya digər dərəcədə təsir edə bilərdi.

Antropoloji, etnoqrafik, tarixi və dilçilik sahəsində aparılmış tədqiqatların nəticələri, mənbələrin məlumatları göstərir ki, eramızın əvvəllərində, ilk orta əsrlərdə Azərbaycana miqrasiya etmiş hun-türk tayfa və elləri Azərbaycan türkləri ilə etnomədəni əlaqəni davam etdirmiş, Xəzərətrafı türk mədəniyyətini daha da canlandırmışdı. Onlar Azərbaycan türkləri ilə antropoloji cəhətdən eyniyyət təşkil etməklə bərabər, adət-ənənə, inam və etiqad cəhətdən də çox yaxın idilər. Odur ki, ümumtürk etnonimi ilə Azərbaycanın yerli əhalisi ilə asanlıqla ünsiyyətə girir, məskunlaşır və konsolidə olunurdu. Belə təbii, müsbət etnokonsolidə prosesinin tarixi-təbii zəmini vardı. Mezolit dövründən yaranan, fasiləsiz davam edən etnomədəni, sosial-iqtisadi əlaqələri e.ə. I minilliyin VII yüzilliyindən sakların canlandırdığı etnomədəni yüksəlişi Əhəməni imperiyasının süqutu ilə Parfiya və Azərbaycanı daha da gücləndirdi. Fars mənbələrində Atropatenanın paytaxtı Qanzak şəhərini Turan (sak) hökmdarı Alp Ər Tunqa nəslinin tikdirməsi haqqında məlumat vardır [161, 17-23; 85, 159-160; 119, 327-328] Azərbaycanda saklarla bağlı tarixi ədəbiyyatda, folklor materiallarında mənfi iz qoymaması, müsbət dəyərlər ifadə etməsi bu xalqların qohum deyil, eyni mənşəli olmasını deməyə əsas verir. Parfıya (sak) ölkəsinə və Azərbaycana hunların miqrasiyası prosesində, hər iki ölkədə eyni etnomədəni prosesin baş verməsi, türk özünüadlandırmasına keçid və bu ölkələrdə eyni etnomədəni təməlin olmasını göstərir. Elə bu səbəbdir ki, üç xalqın (Türkmənlərin, Azərbaycan türklərinin, Anadolu türklərinin) "etnik sərhədlərinin harada birləşib, harada ayrılması"nı izləmək problem yaradır [208, 137].

Azərbaycan xalqının tam təşəkkülü feodalizmin ilkin təşəkkülü, iqtisadi-sosial yüksəlişi ilə eyni vaxta düşürdü. İqtisadi-siyasi, sosial-mədəni inkişaf vəhdətdə gedir, bir-birini tamamlayırdı. Eranın başlanğıcında Azərbaycanda məktəblərin yaranması, elmin inkişafı, nəinki şəhərlərdə, hətta kəndlərdə məktəblərin açılması, yəhudi və xristian dini kitablarının və başqa əsərlərin alban dilinə tərcümə edilməsi Azərbaycanı dünyanın qabaqcıl, mədəni ölkələri səviy-





yəsinə çatdırmışdı. "Uca Böyük və Kiçik Qafqaz dağlarının qoynunda yerləşən Alban ölkəsi öz saysız-hesabsız təbii sərvətlərilə həddindən artıq gözəl və heyranedici bir məmləkətdir. Böyük Kür çayı sakit-sakit bu ölkənin düz ortasından axır və iri və xırda balıq gətirib Xəzər dənizinə tökür. Çayın sahilləri boyu münbit çöllərində külli miqdarda taxıl və üzüm, neft və duz, ipək və pambıq və çoxlu zeytun ağacları var. Onun dağlarında qızıl, gümüş, mis və oxra çıxarılır" [160, 16-17]. Belə zəngin təbii-coğrafi şərait, bol sərvətlər, yeraltı mədənlər Azərbaycanı qabaqcıl sənətkarlıq, şəhər və əkinçilik-maldarlıq ölkəsinə çevirmişdi. Odur ki, eramızın başlanğıcından Azərbaycana gələn hun adı altında əksəriyyəti Azərbaycan tayfaları ilə eyni adlı türk tayfaları və elləri burada şəhər, oturaq əkinçi-maldar həyatına, qanunla idarə olunan sosial-siyasi mühitə düşdülər. Etnik mənşə və dil birliyi, adət-ənənə uyğunluğu gəlmə türk tayfalarının yerli mədəniyyəti asanlıqla mənimsəyib, iz qoymadan yerli əhali ilə konsolidasiyasına imkan verdi. Digər türk əyalətlərində olduğu kimi, Azərbaycanda da oturaq həyata keçən, şəhərdə məskunlaşan gəlmə əhali tayfa adı ilə deyil, ümumtürk etnonimi ilə digər tayfa və əhali ilə birləşir, bir yerdə məskunlaşırdı. Azərbaycanda güclü şəhər həyatı, sənətkarlıq və ticarət, suvarma əkinçiliyi, əkinçi-maldar təsərrüfat mühiti, türk etnonimi ilə yaşayan yerli əhalinin çoxluğu burada hunların məskunlaşması prosesində əhalinin kütləvi türk etnoniminə keçməsinin zəmini, əsası idi. Artıq VI əsrin sonu - VII əsrin başlanğıcında Azərbaycan əhalisi türk özünüadlandırmasına keçmişdi [48, 213]. Atropaten və Alban etnonimindən türk etnoniminə keçid məhz hun tayfa ittifaqının Azərbaycana miqrasiyasının etnomədəni nəticəsi oldu. Lakin bu fakt hunların Azərbaycana gəlməsi "Azərbaycanlıların müasir etnik simasını müəyyən etmişdir" nəticəsini çıxarmağa imkan vermir. M.İ.Artamanovun bu qənaətinin bir qədər düzəlişə ehtiyacı var. Hun tayfa ittifaqı Azərbaycana gələndə onlar hərbi demokratiya mərhələsində, hər şeyi hərbi üsulla həll edən tayfa və ellər idi. Azərbaycan türkləri artıq xalq kimi ilkin təşəkkülünü tamamlamışdı. Azərbaycan türk mədəniyyətinin ilk oca-

ğı, məktəbin, elmin, sənətkarlığın şəhər mədəniyyətinin və suvarma əkinçiliyinin ilk beşiklərindən biri olmaq etibarı ilə gəlmə türk tayfalarına mədəni təsir imkanlarına görə çox üstünlüklərə malik idi. Azərbaycan türklərinin milli simasının formalaşmasında gəlmə türk tayfa və ellərinin təsiri inkar edilmir, lakin onun başlıca xarakter xüsusiyyətləri - keyfiyyətləri yerli etnik mədəniyyət zəminində yaranmışdır, formalaşmışdır. Azərbaycan türklərinin xalq kimi təşəkkülünün başa çatdığı bu dövrdə onun rəftar və davranış normaları, etnik stereotipləri, adət-ənənələri, bütövlükdə milli xarakteri "Kitabi-Dədə Qorqud" dastanında və görkəmli ərəb islam mütəfəkkiri Əbu Osman B.Bəhr Əl-Cahiz Əl-Bəsirinin "Türklərin fəzilətləri" adlı əsərində belə göstərilir:

Türk öz gücü və iradəsinin təsdiqi uğrunda çalışır. Türk gözlənilməz qəribəliklərdən və ümidsizlikdən uzaqlaşmağa can atır və düşmənlə üz-üzə gələndə imkan vermir ki, qətiyyət , həyata olan sevgi yerini çaşqınlığa (özünü itirməyə) tərk etsin.

Türk vəhşi heyvana, quşa, havadakı hədəfə, insana, hərəkətsiz müqəvvaya, öz ovu üzərinə şığıyan quşa da eyni məharətlə ox atır. O, atını sürətlə sürməklə önə, arxaya, sağa, sola, yuxarı və aşağıya ox atır... Türkün dörd gözü var: ikisi üzündə, ikisi isə qafasının arxasında.

Türk qaçdıqda da təhlükədən qorxmur. Cəsarət nümayiş etdirdikdə isə mükafat istəmir. Onlar təqib olunmaz, təqib edərlər.

Türk öz həyatı üçün heç nədən qorxmaz. Əgər özünü toplamaq (gücünü bərpa) üçün yuxu zərurəti olmasaydı, o yatmazdı.

Türklər elə bir xalqdır ki, onlar yaltaqlıq, aldatma, təfriqə, dedi-qodu, uydurma, böhtan, riyakarlıq, dostlara qarşı pislik bilməzlər.

Türklərin qadınları da kişiləri kimidir.

Türklər hərbdə əvəzedilməzdir.

Vətən üçün əsmək, onun üçün darıxmaq, ona olan sevgi... bütün insanlar arasında yayılmış... ancaq türkün çəkdiyi həsrət daha şiddətli, daha güclüdür.

Türklər kütləşdirən zənginliyə, ağlı başdan alan sərvətə sahib olmadılar. Alçaldılmaya, qəlblərinə toxunmaya, özlərini öz gözlərində





kiçiltməyə əsla dözməmişlər.

Bir türk ayrılıqda bir millət deməkdir.

Yunanlar fəlsəfədə, çinlər sənətkarlıqda, türklər isə hərbdə əvəzedilməzdir [212; 214, 37-48] [Azərbaycan türklərinin milli xarakteri haqqında ətraflı bax: 212; 213; 214; 215; 216; 217].

Böyük islam mütəfəkkiri Cahiz türklər haqqında fikrini belə yekunlaşdırır: "Onlar iti zehin, güclü təşəxxüs sahibidirlər. Onlar öz qabiliyyətlərini sərf edib, öz güclərini şer deməyə, bəlağətli nitqə, aydın tələffüzə, sözlərin düzgün təriflərinə, qiyafətin təsirindən sonra insanın qabiliyyətini öyrənməyə, nəsibin hifz edilməsinə, ulduzlarla yol tapmağa, izlərlə nəticə çıxarmağa, təbiətdə baş verən hadisələri öyrənməyə, at, silah və hərb alətinə diqqət göstərməyə, bütün eşidilənləri yadda saxlamağa, hiss edilən hər şeydən ibrət götürməyə, ləyaqətli və nöqsanlı cəhətləri yaxşıca öyrənməyə yönəltdikdə, bunlarda yüksək dərəcədə məqsədə çatmış və hər cür etibarlılığa nail olmuşlar. Bu bir neçə səbəbdən onlar özləri ən böyük işləri, ən dəyərli, bütün millətlərdən fəxarətli və məşhur günlərini ən çox xatırlayan oldular" [214, 48-49].

Nəslin, tayfanın, elin, xalqın və onun adının şərəfinin qorunması tarixi onun yaranması tarixi qədərdir və bütün tarix boyu milli tərbiyənin baş xətti olmuşdur. Adət-ənənə, folklor və bədii əsərlər vasitəsilə keçmişdən gələcəyə, yeni nəsillərə ötürülərək yaşadılmışdır. Böyük islam mütəfəkkiri Cahizin türklərin milli xarakteri haqqında yuxarıda iqtibas etdiyimiz elmi ümumiləşdirməsi Nizami Gəncəvi yaradıcılığında eynilə əks olunmuşdur. Sasani şahı Xosrov Pərviz (590-628) Bərdənin gözəli Şirinə sevgisini bildirir. Ailə qurulmasına türk adəti ilə yanaşdığından Şirinin anası onun Xosrovun sevgisinə asanlıqla cavab verəcəyi, türk adətlərinə əməl etmədiyi təqdirdə, türk məninə, ulu əcdadlarının ruhuna xələl gətirə biləcəyini nəzərinə çatdırıb deyir:

Arxanca kölgətək gəzir səadət,
Sənin bəzəyindir ismət, nəzakət.

Camalın dünyaya daim nur saçır,
Hüsnün ismətinin pənahıdır.
Şirin dilə tutar, min bir söz deyər,
O şirin halvanı müftəcə yeyər.
Sən rüsvay olarsan, qalarsan belə,
Əgər o aydırsa, biz afıtabıq,
O, Keyxosrov, biz isə Əfrasiyabıq. [218, 118-119].

Göründüyü kimi, Azərbaycan türklərində milli sıma təşəkkül tapmış, keçmişinin və bu gününün milli simasının qorunması şərəf işinə çevrilmişdi. Milli şərəf və ləyaqət davranış stereotipində başlıca yer almışdı.

Türklərin milli dövlət quruculuğunun, hərbi zəfərlərinin yüksəldiyi bir dövrdə Qərbi Asiyada ərəb etnik passionarlığı sürətlə yüksəldi və türklərlə qarşılaşdı.

VI əsrin sonlarında Ərəbistan yarımadası qəbilə və tayfalarında sosial təbəqələşmənin güclənməsindən doğan hərbi münaqişələr, şərqdən Sasani, şimaldan Bizans imperiyasının tez-tez təkrarlanan təcavüzü ərəb qəbilə və tayfalarını birləşdirəcək ideologiyanın yaranmasını zərurətə çevirmişdi. Elə bu zaman meydana gələn İslam dini ərəb qəbilə və tayfalarının milli birlik ideologiyası funksiyasını yerinə yetirdi. Müxtəlif bütlərə sitayişi, çoxallahlılığı qadağan etdi, fərqli adət-ənənələrlə yaşayan ərəb qəbilələri üçün Quranda göstərilən ümumi əxlaq qaydaları müəyyən edildi, müsəlman müsəlmanın qardaşı elan edilməsi, müsəlman dinini qəbul edənlərin qulçuluqdan azad edilməsi, əmlak və qadın hüququ və s. əxlaq qaydaları və İslam hüququ ilə tənzimlənən, vahid yaradan Allah qarşısında bütün müsəlmanların bərabərliyi ərəb cəmiyyətinin ideologiyasına çevrildi. İnsan psixologiyasının xüsusiyyətlərini incəliklə əks etdirən İslam ideologiyası müxtəlif iman və etiqadlı ərəb qəbilə və tayfalarının sürətlə birləşməsinə imkan verdi, onların xalq kimi formalaşmasına şərait yaratdı. Bu ideologiya yalnız ərəb qəbilələrinin birliyini, dövlətini yaratmaq deyil, onun müstəqilliyini qorumaq,





ərəblərə qarşı olan işğalları dəf etmək, başqa ideologiyalı xalqlar üzərində onların üstünlüyünü yaratmağı qarşıya məqsəd qoyurdu. Odur ki, elmə yiyələnmək, İslam ideologiyasının ana xətti, nüvəsi kimi "Qurani-Kərim"də özünü göstərir. Ərəb birliyinin yaranması, qədim Misir, Assuriya, Yunanıstan, Çin və s. elmi və fəlsəfi əsərlərin ərəb dilinə tərcüməsi və mənimsənilməsi paralel gedirdi. Dünya elmi acgözlüklə mənimsənilirdi. Vahid yaradan Allaha etiqad, elmə yiyələnmə zərurəti "Qurani-Kərim"in ana xətti kimi özünü göstərir və cəmiyyətə təlqin olunaraq yazılır:

"Yeddi [qat] göyü və bir o qədər də yeri yaradan Allahdır. Allahın hər şeyə qadir olduğunu, Allahın hər şeyi öz elmi ilə ehtiva etdiyini biləsiniz deyə, Allahın əmri onların arasında [mövcud olan bütün məxluqata] nazil olar". "[Ya Məhəmməd!] Yadına sal ki, bir zaman sənə: "Rəbbin [öz elmi və qüdrəti ilə] insanları ehtiva etmişdir". "Sizin tanrınız ancaq o Allahdır ki, Ondan başqa heç bir tanrı yoxdur. O, elmi ilə hər şeyi ehtiva etmişdir". Hətta Peyğəmbərə tövsiyə olunur ki, Quran ona tamam-kamal çatana qədər onu oxumağa tələsməsin. "Mənim elmimi artır!" deyə Pərvərdigara dua etsin. Qurani-Kərimdə deyılir ki, "Elmdə qüvvətli olanlar isə: "Biz onlara inandıq, onların hamısı Rəbbimiz tərəfindədir", - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edirlər" [221, 43, 256, 294, 296, 578]. Beləliklə, Quran çox allahlılığı - bütpərəstliyi qadağan edir, bütün kainatı, bəşəriyyəti, insanı gözəgörünməz tək Allahın "öz elmi" ilə yaratdığı təlqin olunur. Xoşbəxt həyat qazanmağın yeganə mümkün yolunun Quranda göstərilən əxlaq qaydaları ilə elmə yiyələnmədən ibarət olduğu ilə izah olunurdu. Qurani-Kərimdə Allahın mahiyyəti az qala onun elmi yaradıcı sistemi ilə izah olunur və 73 ayədə elm tövsiyə olunurdu. Beləliklə, Quranda elm islam ideologiyasının nüvəsi kimi yer tutdu. Sürətlə vahid ideologiya və elmə yiyələnmək ərəblərin milli-mənəvi enerjisini coşduracaq səviyyədə yüksəltdi. Ərəblər daima Şimaldan onlara təzyiq göstərən Bizans imperiyası qoşunları üzərində bir neçə dəfə, dalbadal qələbə çaldılar. Bizans imperatoru İrakli 636-cı ildə Suriya ərazisində 24 minlik ərəb dö-

yüşçüsü üzərinə 200 minlik qoşunla hücuma keçdi və Yarmuk çayı sahilində baş verən döyüşdə 70 min itki verərək mövqelərini tərk etməyə məcbur oldu. 637-ci ildə ərəb qoşunları asanlıqla Sasani imperiyasının paytaxtı Ktesifonu tutdu, şahənşah III Yezdəgird şəhəri müdafiəsiz qoyub qaçdı. Beləliklə, ərəb qoşunları İslam ideologiyasının yaradıcısı, səfərbəredici gücü ilə sayca 100 dəfələrlə ondan çox olan Bizans və Sasani imperiyasının qoşunları üzərində ardıcıl qələbələr çalmaqla onların hakimiyyətləri altında olan əraziləri tutmağa başladılar [195, 82-91]. Mənbə və tədqiqatlardan aydın olur ki, ilk dörd xəlifənin hakimiyyəti illərində ərəblərin yürüşləri məhz İslamı yaymaq xarakteri kəsb etmişdir. Bu xəlifə Əbu Bəkrin (632-634) ərəb qoşunlarına verdiyi əmrdən aydın olur. Əmrdə deyilir: "Düşmənləri şikəst etməyin, nə kiçik uşaqları, nə çox qoca adamları, nə də qadınları öldürməyin; xurma ağaclarını qırıb yandırmayın; meyvə ağaclarını tələf etməyin, yemək üçün lazım olandan başqa, qoyun, inək və dəvələri kəsməyin. Siz, hücrələrdə dini ayinlə məşğul olan adamların yanından keçəcəksiniz: onları rahat buraxın və məşğələlərinə mane olmayın". Sonra əmrdə deyilir: "Sizi qəbul edən hər bir şəhər və xalq ilə müqavilə bağlayın, onlara verdiyiniz vədlərə sadiq olun, qoy onlar biz gələnədək əməl etdikləri qayda və qanunlarla yaşasınlar. Onlarla aranızda bir hədd olmaq üçün bac qoyun ki, onlar öz din və torpaqlarında qalsınlar. Sizi qəbul etməyənlərlə müharibə edin" [171, 79].

Ərəb İslam ordusunun Sasani imperiya ordusunu asanlıqla darmadağın etməsi Azərbaycan türklərində məğlubiyyət hissi, ruh düşgünlüyü yarada bilmədi. Azərbaycan türkləri ərəblərin itaət təklifini qətiyyətlə rədd etdi. Rədd cavabı alan ərəblər 643-cü ildə "yüzminlik ordu ilə türklərlə döyüşə-döyüşə Azərbaycana daxil oldu" [169, 56] lakin Azərbaycan qoşunlarının şiddətli müqavimətinə rast gəldi. Azərbaycan qoşunlarına Mərzban İsfəndiyar ibn Fərruxzad komandanlıq edirdi. O, Bəcrəvan, Maymənd, Nariz, Şiz, Miyanəc və digər yerlərin əhalisindən Ərdəbildə böyük qoşun toplayıb ərəblərlə vuruşmağa girişdi; vuruşma bir neçə gün davam etdi. Ərəblər qalib





gəldi, İsfəndiyar əsir düşdü. İsfəndiyar ərəblərə dedi ki, Azərbaycan əhalisini tabe etmək çətin olacaq. Ərəblər İsfəndiyara inanmasalar da, tezliklə bunun şahidi oldular. Çox keçmədən ərəblər İsfəndiyarın qardaşı Bəhramın komandanlığı altında olan Azərbaycan qoşunlarının günlərlə davam edən hücumlarına tab gətirməli oldular, çətinliklə Azərbaycan qoşunlarına qalib gələ bildilər. Ərəblər İsfəndiyarla onun hakimiyyətini tanıması haqqında müqavilə bağladılar. Müqavilədə xəlifə Əbu Bəkrin əmrində göstərilən bütün şərtlər nəzərə alınmışdı [171, 79]. Xəzər sahili ilə Dərbəndə, Kiçik Asiyadan Tiflisə hərəkət edən ərəb qoşunları hər iki şəhər hüdudunda ərəblərin hakimiyyətini qurdu [222, 25-31].

Mənbə və tədqiqatların məlumatına görə, Xilafətin hakimiyyəti və İslam dini Azərbaycanda asanlıqla qəbul edilmişdi. Xəlifə Əlinin (655-661) hakimiyyətinin ilk günlərində Azərbaycan əhalisinin çoxu Qurani-Kərimi oxuyurmuş. Cənubi Azərbaycan ərəb qoşunlarının bu əraziyə daxil olmasından sonra Xilafət canişinləri vasitəsilə, Albaniya isə 705-ci ilə qədər asılı ölkə kimi yerli əyanlar vasitəsilə idarə edilmişdir. 705-ci ildə erməni kilsəsinin saxta məlumatları nəticəsində Alban knyazlığının hakimiyyəti ləğv edilmiş, ərəb canişinləri vasitəsilə idarə edilməyə başlanmışdır [222, 29, 32-33]. Görünür, bu dövrdə ölkənin ikili Alban-Arran adlanmasından Arran adlanması üstün mövqeyə malik olduğundan onu Arran adlandırmışlar.

Ərəb və dünya tarixşünaslığının etirafına görə, ərəb-İslam qoşunları qarşısında dayanan, ona müqavimət göstərə bilən yeganə xalq türklər olmuşlar. Xəzərlər müstəqilliklərini qorumaq üçün 100 il ərəblərə qarşı müharibə apardılar. Dünya tarixşünaslığının etiraf etdiyi kimi, "hərbdə əvəzedilməz", "təhlükədən qorxmaz", Avropaya, Çin imperiyasına diz çökdürən türklər nəyə görə sayca onlardan qat-qat az olan ərəblərə məğlub oldular?

Ərəblər müqəddəs yaradıcı qüvvə vahid Allah, hamı üçün eyni dərəcədə müqəddəs olan anlayışlar, onların bütün hiss, emosiya və düşüncələrini vahid məcraya yönəldəcək inam və etiqadlar məcmu-

su İslam ideologiyasına malik idilər. Odur ki, ərəb toplumu, vahid orqanizm kimi bütün enerjisini ümumi məqsədə, vahid istiqamətə, obyektə yönəldə bilirdilər.

Türklər, o cümlədən Azərbaycan türkləri əxlaq, xarakter, davranış stereotipi cəhətdən qonşu xalqlar arasında yüksək qiymətləndirilsələr də, onlarda vahid milli ideologiya hələ yaranmamışdı. Bir hissəsi Tanrıcı, bir hissəsi zərdüşt, bir hissəsi xristian, böyük çoxluğu isə bütpərəst olaraq qalırdı. Bütün xalqlar üçün təşəkkül mərhələsində dinlər milli ideologiya funksiyası yerinə yetirmişdir. Türklər arasında Tanrıçılıq və Zərdüştlük təkallahlıq ideologiyası istiqamətində böyük inkişaf yolu keçsə də, ona gəlib çata bilmədi. Lakin bu ideologiyaya keçidin əsaslarını hazırladı. "Öz mədəni səviyyələrinə görə türklər öz mənəvi həyatlarını dini ideyalara daha asan tabe edə bilirdilər" [99, 52]. Odur ki, İslam dini Azərbaycanda, o cümlədən Mərkəzi Asiya türkləri arasında asanlıqla yayıldı, qəbul edildi. Xilafət rəhbərliyinin düzgün psixoloji, ideoloji, iqtisadi və siyasi yanaşması da İslam dininin türklər arasında sürətlə yayılması, qəbul edilməsi səbəblərindəndir. Farslardan fərqli olaraq ərəblər özlərini ali irq elan etmir, bütün müsəlmanları bərabər, bir-birinin qardaşı hesab edir və onlara eləcə də yanaşırdı; dünyəvi dinləri və yerli adət-ənənələri qadağan etmirdi; İslam dinini qəbul etməyənlər üzərinə qoyulan vergilər Sasani dövrü vergilərindən çox aşağı idi, hətta müəyyən müddət vergidən azad edilir, pul mükafatı verilirdi. İslam dinini qəbul edənlər bütün Xilafət hüdudunda böyük imkanlar qazandılar. Odur ki, hətta "müsəlman silahı vasitəsilə fəth edilməyən böyük xalqlar tərəfindən islam dininin könüllü qəbul edilməsi" sürətlənirdi [99, 52; 171, 86-90; 222, 60-74].

Yuxarıda gördüyümüz kimi, iqtisadi, siyasi, sosial səbəblərlə bərabər Azərbaycan türkləri, xüsusilə hakim aristokratiya arasında təkallahlıq ideologiyasının yetərincə mənimsənilməsi İslam dininin asanlıqla qəbul edilməsinin, Azərbaycan türklərinin xalq kimi tam təşəkkülünü sürətləndirən səbəblərdəndir. Lakin Azərbaycan etnosunun İslam dinini qəbul etməsi şəraitində türk özünüadlandırması-





na keçməsi uzun bir etnomədəni, sosial-siyasi təkamülün nəticəsi idi. Azərbaycan bəşəri sivilizasiyanın ilk ocaqlarından biri olmaqla, türklər Şumer və Misirdən sonra tarixdə üçüncü olaraq dövlət qurumu, Qədim Şərqin Assur, Babil, Urartu dövlətləri ilə eyni vaxtda Manna və Midiya dövlətlərini yaradan, tarixdə ilk imperiya quran etnosdur. Bütün dünya xalqları kimi onlar da tərəqqi, tənəzzül keçirir, başqalarını hakimiyyətlərinə alır, müharibələrdən yorulub rəqib dövlətlər tərəfindən məğlub edilərək siyasi hakimiyyətlərini itirir, təkrar istiqlal mübarizəsinə qalxıb siyasi hakimiyyətlərini bərpa edirdilər. Etnik miqrasiyalar və siyasi köçürmələr Azərbaycandan da yan keçmirdi. Lakin yuxarıda təqdim olunan tarixi faktlardan göründüyü kimi, qədim və ilk orta əsrlərdə Azərbaycan etnik əsası dəyişə biləcək hər hansı miqrasiyaya məruz qalmamışdı. Kiçik miqrasiyalar və siyasi ekspansiyalar onlar tərəfindən əridilmişdir.

Aratta, Lullubi, Kuti dövründə bəhs olunan etnik xarakter Manna, Midiya dövründə daha da canlandı. Midiya dövründə antik müəlliflər Azərbaycan türklərini özünəməxsus xarakteri olan etnos kimi xarakterizə edirdi. Atropatena və Albaniya dövründə artıq onlar vahid xalq kimi xarakterizə olunurdu. İslam dininin qəbulu dini-ideoloji baxışlarındakı fərqləri aradan qaldırmaqla onların vahid türk özünüadlandırması altında xalq kimi tam təşəkkülünə ideoloji təkan verdi. VII əsrin ortalarında Azərbaycan türkləri tam təşəkkül tapmış vahid toplum, xalq kimi milli iradə nümayişini daha da gücləndirdilər.

# III FƏSİL

## AZƏRBAYCANDA ORTA ƏSRLƏRDƏ ETNOSOSİAL PROSESLƏR VƏ TÜRKLƏRİN MİLLİ İNKİŞAFI

Yeddinci əsrdə İslam dininin qəbul edilməsi Azərbaycan türklərinin etnomədəni, ideoloji, sosial-iqtisadi, siyasi inkişafına güclü təkan verdi. Milli xarakterin xüsusiyyətləri etnosun xalqlar arasında mövqe tutmasında özünü aydın göstərir. "Hərbdə əvəzedilməz" olan türklər Xilafət ordusunda hərbi hakimiyyətə malik olacaq səviyyədə təmsil olundular. Ərəb dili Xilafət hüdudunda dövlət, ədəbiyyat və elm dili oldu. Azərbaycanda açılmış ərəbdilli mədrəsələrdə təhsil alan türklər bu dil vasitəsilə tezliklə dünya elmini mənimsədilər və Xilafət sarayında yer tutdular, təmsil olundular [215]. Zəngin şəhər mədəniyyətinə, yüksək ticarət və sənətkarlığa malik Azərbaycan türkləri Xilafət tərkibində geniş mədəni əlaqələr qurmaq, dünya mədəniyyəti ilə tanış olmaq imkanı qazandılar.

Ərəblər "qüdrətli... xəzərlər" ilə yüz ildən artıq apardığı müharibədən sonra onlara qalib gəldilər. Bu qələbəni qorumaq üçün Azərbaycanda şəhər və qalaları möhkəmləndirdilər, özlərinə etnik dayaq yaratmaq məqsədilə buraya ərəb tayfaları köçürdülər [171, 164-171]. Elə bu dövrdən ərəblərin Azərbaycanda iqtisadiyyatı mənimsəmək səyləri və Azərbaycanın Xilafət kimi böyük əmtəə-ticarət bazarına daxil olması ölkədə iqtisadiyyatı canlandırdı. Elə bu dövrdən də Azərbaycanda ərəb Xilafəti əleyhinə istiqlal mübarizəsi başladı. Bu mübarizə yalnız Azərbaycanı deyil, Xilafətin mərkəzində yaşayan Azərbaycan türklərini də əhatə edirdi. Azərbaycan türk ziyalıları xalqlarının mədəni cəhətdən ərəblərdən üstün olduqlarını iddia edirdilər [171, 213-317; 215, 24-26]. Göründüyü kimi, İslam dini Azərbaycan türkləri üçün milli ideologiya funksiyası yerinə yetirir, onların vahid milli məqsəddən çıxış etməsinə imkan verirdi. İslam dini onu qəbul etmiş bütün etnoqrafik və etnik qrupların etnokonsolidasiyasının ideoloji əsası, zəmini oldu, etnik prosesləri sürətləndirdi. Müsəlman etnik qrupların müsəlman türklərlə etnomədəni, ideoloji birliyini əvvəlki dövrlərlə müqayisədə daha da sürətləndirdi. Azərbaycan türklərinin qafqazdilli əhali ilə etnomədəni əlaqələri mənəvi münasibətləri türklərin bir-biri ilə münasibətləri qədər asan və təbii idi. Ona görə ki, dil fərqi istisna olunmaqla, onların bütün adət-ənənələri, psixoloji xüsusiyyətləri eyni idi. Türk dili isə ən qədim zamanlardan onlar arasında ümumi ünsiyyət vasitəsi idi. İslam dini ideologiyası isə bu etnomədəni münasibətləri bütünlüklə vahid məcraya gətirdi.





Azərbaycanda məskunlaşmış iran mənşəli etnik qruplarla Azərbaycan türklərinin, o cümlədən Qafqaz mənşəli əhalinin münasibəti ziddiyyətli idi. Onlar arasında adət-ənənə fərqi, psixoloji uyuşmazlıqla bərabər siyasi gərginlik də var idi. Əhəmənilər hakimiyyəti dövründə isə Cənubi Azərbaycana köçürülmüş irandilli tayfalar, Sasanilərin hakimiyyəti dövründə Şimali Azərbaycana köçürülmüş iran mənşəli tatlar siyasi hakimiyyətdə olduqları dövrdə özlərini hakim xalq, ali irq elan etməklə Azərbaycanın və Zaqafqaziyanın digər xalqlarına qarşı qoymuşdular. Azərbaycanın, Zaqafqaziyanın yerli əhalisi ilə gəlmə iran mənşəli əhali arasında etnomədəni münasibətlər zəif və ziddiyyətli idi. Azərbaycan türklərinin və iran mənşəli əhalinin İslam dinini qəbul etməsi onların etnomədəni əlaqəsinə müsbət təsir göstərdi, qarşılıqlı etnokonsolidasiyaya yol açdı. Bu dövrün tədqiqatçısı N.Vəlixanlı yazır: "Beləliklə, sərhədlər dəyişir, hökmdarlar dəyişir, yalnız yerli əhali - azərbaycanlılar nə öz simalarını, nə də doğma dillərini dəyişmirdilər. Onların türk mənşəlisi özünü türk, hamısı bir yerdə isə özünü müsəlman adlandırırdı" [222, 66].

Dünyəvi dinlərdən xristianlığın İslama qədər Azərbaycanda zəif də olsa, mövcudluğu burada İslam dininin yayıldığı dövrdə ideoloji zəmində etnik parçalanma yaratdı. Azərbaycanın düzən zonasında, şəhərlərində İslam dini kütləvi qəbul edildiyi halda, dağlıq zonalarda Alban kilsəsi, xristianlıq fəaliyyətini davam etdirdi. İslam dininin qəbulundan sonra da müxtəlif tayfa və el adları ilə yaşayan yerli və

gəlmə türk əhalisinin türk etnonimi altında etnokonsolidasiyası davam edirdi. Azərbaycanın dağlıq zonalarında yaşayan, İslam dinini qəbul etməyən albanlar İslam dininin qəbul etmədiklərindən türk etnoniminə də keçmədilər, alban etnonimi altında xristian türk mədəniyyətini davam etdirdilər və türkdilli mədəniyyət, folklor və ədəbiyyat, etnonim və toponimlər yaratması davam edirdi. Dini məbədlərdə xristian ayin və mərasimləri yaşadılırdı. Ərəb xəlifəsi Alban kilsəsinə nəzarəti erməni qriqorian kilsəsinə tapşırsa da, Alban kilsəsi xristian olaraq erməni kilsəsi ilə əlaqələrə yer versə də, daima müstəqilliyini qoruyub saxlamağa çalışırdı.

VII əsrdə Xilafət Azərbaycana ərəb tayfaları köçürdü və onları burada məskunlaşdırdı. Onlar burada Azərbaycan türklərinin etnik tərkibinə daxil oldular, sosial-mənəvi strukturlarına qovuşdular.

Hər bir xalqın keçdiyi həyat yolu onun tarixi simasında dərin izlər qoyur, onu başqalarından fərqləndirir, onun özünüadlandırmasını dəyişməsinə, kənar etnosların ona ad verməsinə səbəb olur. Ən qədim dövrlərdə və orta əsrlərdə də Azərbaycanda yaşayan qəbilə və tayfaların həyatından xəbər verən müəlliflər burda müxtəlif dillərin olmasından asılı olmayaraq, onları doğma, vahid etnos kimi təqdim edirlər. Qədim, orta əsr müəlliflərinin əsərlərindən belə qənaətə gəlmək olur ki, Azərbaycanda etnokonsolidasiya prosesi assimilyasiya prosesi olmadan gedir. İlk orta əsrlərdən mənbələrdə adı çəkilən Qafqaz və İran mənşəli kənd əhalisi XXI əsrə qədər türk kəndləri ilə yaxın qonşuluq, etnomədəni əməkdaşlıq şəraitində, doğma dilini saxlamaqla yaşayır. Sual olunur, bir Xınalıq kəndi dilini saxladığı halda, dini ideologiyası Azərbaycanda qalib gələn, dili, dini mərasim dilinə çevrilən ərəblər nəyə görə qısa müddətdə dilcə də, adət-ənənə cəhətdən də assimilyasiya olunub türkləşdilər. Akademik P.K.Juze bu prosesin XV əsrdə başa çatdığını güman edir [171, 171].

Bizcə bunun ilkin psixoloji səbəbi ərəblərin ilkin olaraq yayıldığı ölkələrdə, o cümlədən Azərbaycanda milli iddia ilə çıxış etmələridir. Onların müsəlmanların bərabərliyi ideologiyasından çıxış etməsidir. İlk dörd xəlifənin hakimiyyəti illərində bu ideya gözlənil-





di. Sonrakı dövrdə bu ideya gözlənilməsə də, açıq nümayiş də etdirilmədi. Digər əsas səbəb, ərəblər Azərbaycanda başlıca olaraq ticarət yolları üzərində, şəhər və qalalarda yerləşdirilirdi. Son dövr köçürülən tayfalar isə əsasən düzən zonada yerləşdirilirdi ki, onlar - da ənənəvi maldar tayfalar idi. Azərbaycana köçürülən ərəb tayfaları arasında ədavət var idi. Azərbaycanda onlar arasında tez-tez toqquşmalar olurdu. Harun ər-Rəşidin dövründə Azərbaycana ərəblərin köçürülməsi zəiflədi, xəlifə Məmunun (809-838) dövründə dayandırıldı. IX əsrin birinci yarısından Xilafətdə, o cümlədən Azərbaycanda feodallaşma gücləndi, Azərbaycanda böyük torpaq sahələri və mülk ələ keçirmiş ərəb feodalları Xilafətdən ayrılmağa can atdılar. Azərbaycanın müstəqilliyi uğrunda mübarizlərə çevrildilər [171, 162-171]. Göstərilən səbəblərin hamısı etnik kökündən ayrılmış etnik qrupu mədəni-mənəvi cəhətdən parçalayan, onu etnik təməlindən ayırıb yerli mədəniyyətə birləşdirən güclü səbəblərdir. Şəhər bir assimilyasiya maşını olduğu kimi, türk el sistemi köçəri maldar ərəbləri içinə alacaq, əridəcək güclü etnik sistem idi.

Hələ ən qədimlərdən Azərbaycan türklərinin etnik sistemi, sosial strukturu şəhər, feodal aristokratik, sənətkar, tacir, əkinçi-maldar və maldarlıq sistemi əsasında ölkənin təbii coğrafi şəraitinə uyğun çox güclü şəkildə sintez olunmuşdur. Odur ki, Azərbaycana miqrasiya etmiş tayfa, əhali burada məskunlaşmaq üçün bu sistemə daxil olmağa məcbur idi. İstər eradan əvvəl və istərsə də orta əsrlərdə Azərbaycana miqrasiya etmiş tayfa və əhalinin heç birinin mədəni səviyyəsi Azərbaycan əhalisinin mədəni səviyyəsindən yüksək olmamışdır. Qurani-Kərimdən doğan İslam ideologiyası ilə ərəb etnik mədəniyyəti arasında böyük fərq var idi. Ərəblər İslam ideologiyasının birləşdiriciliyi sayəsində böyük güc, üstünlük nümayiş etdirsələr də, Azərbaycanda özlərindən yüksək milli mədəniyyət şəraitinə düşdülər. Odur ki, yerli əhalinin mədəni təsiri altında sürətlə assimilyasiya olunub türkləşdilər, Azərbaycan türklərinin etnik tarixində iştirak etdilər. Lakin Azərbaycan türklərinin etnik tərkibində, tarixində iştirak edən Qafqaz və irandilli əhali etnik kökləri ilə əlaqəni

itirmədiyindən, əsasən dağlıq ərazilərdə məskunlaşdıqlarından onların Azərbaycan türkləri ilə etnokonsolidasiyası tamamilə başqa formada gedirdi. Qafqaz dilli əhali Zaqafqaziyanın Şərqində, Şimalında və Şimali Qafqazda məskun olmuşlar. X əsr ərəb müəllifi əl-Məsudi Böyük Qafqazda 72 dildə danışan millət yaşadığını yazır [222, 39]. Böyük Qafqazın relyefi, Xüsusilə zəngin bitki və heyvanat aləmi, meşələri, böyük dağ və dərə vadiləri, su ilə zənginliyi, iqlimin sabitliyi buradan əhalinin miqrasiyasına zərurət yaratmamışdır. Nə qədim dövrdə, nə orta əsrlərdə heç bir işğalçı bu dağlara girə bilmədi, girənlər də böyük itki ilə tərk etməli oldu. Kənar tayfa və xalq gəlib burada məskunlaşa bilmədi. Qafqaz dağlarının əhalisi məskunlaşdıqları bölgələrdə qapalı həyat keçirdilər, qapalılıq o dərəcədə güclü olmuşdu ki, hətta bəzi kəndlərin ayrıca dili vardı. Qapalılıq ulu dilin bir qolu olan Qafqaz dil ailəsi üçün ortaq bir dil, ədəbi dil yaranmasına imkan vermədi. Arxeoloji materiallar və mənbələr göstərir ki, ilk tunc dövründə, birinci ictimai əmək bölgüsü yaranan zamandan tədricən Qafqaz dağ otlaqları düzən zona əhalisi tərəfindən mənimsənildi. Zaqafqaziyanın düzən əhalisi ilə dağlıq ərazisinin iqtisadi birliyi yarandı, bu prosesdə də iqtisadi və etnomədəni əməkdaşlıq quruldu. Bu əlaqələr, ünsiyyət zaman-zaman davam etdi. İlkin olaraq xristian dini Qafqazda yayılsa da, burada tam qələbə çala bilmədi. Regiona İslam dininin daxil olması və üstünlük qazanması burada etnik prosesləri canlandırdı. İslam və xristian dininin ideoloji rəqabəti etnik prosesləri daha da gücləndirdi. Qafqazın cənub və şərq hissəsində İslam dini tam qalib gəldi. Bu, həm Qafqazın dağlıq zonalarında qafqazdilli əhalinin etnomədəni birliyini gücləndirdi, həm də Azərbaycan türkləri ilə tarixən mövcud olan mədəni əlaqələri daha da canlandırdı, islam dini ideologiyası zəminində ideoloji birliyini yaratdı. İslam dininə məxsus etnik qruplarla Azərbaycan türkləri arasında qarşılıqlı nikaha mane olan səbəbləri aradan qaldırdı, qarşılıqlı nikahları kütləviləşdirdi. İslam dininin qəbulundan sonra da Qafqazda qafqazdilli əhali ilə türklərin yerləşdiyi coğrafi şərait, iqtisadi-mədəni əlaqələrin səviyyəsi qarşılıqlı assimilyasiyaya





imkan vermirdi. Türklər - böyük çoxluq, şəhər əhalisinə, sənətkarlıq və başlıca suvarma əkinçiliyi üzərində nəzarət imkanına malik idilər. Qafqazdilli əhali isə dağlarda məskunlaşıb fasiləsiz etnik zəminində yaşayan əhali idi. Qafqazdilli əhali ilə türklər arasında qarşılıqlı nikah tarixən mövcud olmuşdur, İslam dini isə bunu daha da canlandırdı. Türklərdən Qafqazdilli əhalinin nümayəndəsinə ərə gedən qadın türk mədəniyyətinin, qafqazdilli əhalidən türklərə ərə gedən qadın qafqazdilli mədəniyyətin təmsilçisinə çevrilməklə, etnik əlaqələri qohumluq əlaqələrinə çevirir və gücləndirirdi. Etnomədəni əlaqələrin belə forması hər iki mədəniyyətin qarşılıqlı yaşadılması və bir-birinə qovuşmasına güclü təsir göstərirdi. Azərbaycan türklərinin Qafqaz qəbilələri ilə qaynayıb-qarışması onların təbiiliyini daha da artırmışdı [224, 55].

Belə iqtisadi, etnik-mədəni, ideoloji birlik qafqazdilli əhalinin Azərbaycanın düzən zonalarına miqrasiyasına şərait yaradır, türk, ləzgi, udin və s. qafqazdilli əhali qonşuluqda məskunlaşır, vahid, ümumi mədəniyyət nümayiş etdirirdilər. Qafqazdilli əhali Azərbaycanın içərilərinə doğru köç edir, hətta şəhərlərdə məskunlaşırdı. Məskunlaşma zamanı hər bir etnik qrup ayrıca məhəllə salır, məhəlləyə adını verir, ləzgi məhəlləsi, lak məhəlləsi, və s. adlarla tanınırdı, etnik nüvə ilə əlaqəsini heç vaxt kəsmirdi, qırmırdı. Azərbaycan türklərinin eynilə belə etnomədəni əlaqəsi vaxtı ilə buraya köçürülən irandilli əhali ilə mövcud idi. Qafqazdilli əhalidən fərqli olaraq onlarda Azərbaycan türklərinə qarşı etnik siyasi rəqib şüuru mövcud idi. Onlar Azərbaycanın hərbi strateji əhəmiyyətli ərazilərində məskunlaşdırılmışdır. Sasani imperiyasının süqutundan, islam dinini qəbul etdikdən sonra Azərbaycan türkləri ilə dini ideoloji birliklərinin yaranması etnomədəni əlaqələri daha da gücləndirdi. Dini, iqtisadi, sosial-mədəni əlaqələrə qarşılıqlı nikah da əlavə olundu. Azərbaycan türkləri ilə irandilli əhalinin nikah əlaqələrinin qarşılıqlı mədəni təsiri Qafqazdilli etnik qruplarla olduğu kimi idi.

Ərəb işğalı dövründə də Sasani idarəçiliyi ənənələrindən istifadə edilməsi, sonralar da fars dilindən dövlət idarəçiliyində istifadə edil-

məsi, farsdilli əhalinin yüksək imtiyazını saxladı. Həmçinin fars dilinin Azərbaycanda poeziya dilinə çevrilməsi fars etnik şüurunu, fars dilini daima canlandırırdı. Fars dilinin Azərbaycanda xüsusi mövqe qazanması farsdilli əhalinin Azərbaycan şəraitində assimilyasiya mühitinin olmadığını göstərir. Göstərilən etnomədəni əməkdaşlıq tat və talışları Azərbaycan türkləri ilə ümumi etnomədəni dəyərlərə yiyələndirməklə bərabər onlarda etnik şüuru heç vaxt zəiflətməmişdi. Azərbaycan tarixinin heç bir mərhələsində Azərbaycan türkləri hakimillətçilik siyasəti yeritməmişdi. Azərbaycanın müsəlman etnik qrupları türklərlə eyni etnomədəni xüsusiyyətlərə, etnik psixologiyaya yiyələnib vahid xalq kimi formalaşmaqla bərabər, etnik şüurlarını da yaşatmışlar.

Etnik birliyin yaranmasında, etnosun formalaşmasında, eyni mənşəyə və mədəniyyətə malik toplumların parçalanıb digər etnosun tərkibinə keçməsində dini ideologiya güclü rol oynayır, hətta başlıca faktor kimi də çıxış edə bilir. Bu faktorun hər ikisi Azərbaycan xalqının təşəkkülü prosesində özünü aydın göstərdi. Azərbaycanın bütün düzən zonasında, şəhərlərində islam dininin sürətlə yayılması ilə türklərin xalq kimi təşəkkülü daha da gücləndi, Azərbaycanın islam dinini qəbul etmiş etnik qruplarının türk etnomədəni birliyinə transferi sürətləndi. Onların vahid etnos kimi təşəkkülündə əhəmiyyətli rol oynadı.

Ərəblər əsasən düzən əraziləri tutur, kitab əhlinə və onların ibadətxanalarına fəaliyyət məhdudiyyəti qoymurdular. Odur ki, xristian məbədləri fəaliyyətlərini davam etdirirdi. Azərbaycanın dağlıq zonalarındakı Alban məbədlərində Alban-türk icmaları xristianlıqda qalırdılar, erməni-gürcü xristian ideoloji birliyinə daxil olmaqla erməni və gürcülərlə ideoloji və etnomədəni əlaqə yaratdılar [223, 115-116]. Lakin xristian alban-gürcü etnomədəni əlaqələri, gürcü etnosuna etnotransferi ilə alban-erməni mədəni-ideoloji əlaqələri tamamilə fərqli idi. Gürcülərlə-albanlar regional mədəniyyətə malik olmaqla yaxın xalqlar idi. Odur ki, etnomədəni diferensiallaşma asan idi. Ermənilər uzaq xalq olub, qonşuluqda yaşamırdılar,





ermənilərlə-alban türkləri arasında birbaşa etnomədəni əlaqə yox idi. Ermənilərin Qafqaz xalqı olması XIX-XX əsr rus tarixşünaslığının uydurmasından başqa bir şey deyildir. Ermənilərin Qafqaza köçürülməsi və bunun məqsədləri rus tarixşünaslığında yetərincə əks olunmuşdur [225; 226; 227; 228; 229; 230; 231; 232; 233; 234].

E.ə. I minillik hüdudlarında Balkanlardan Ön Asiyaya miqrasiya etmiş hay tayfaları e.ə. VIII əsrdə Kiçik Asiyanın şərqində, Fərat çayının yuxarı axarı hövzəsində Arme adlanan ərazidə məskunlaşdılar [48, 140; 79, 19-44; 235; 236, 5-7; 230, 55-56]. Onlar Ön Asiya tayfaları ilə qaynayıb-qarışaraq, avropoid irqin cənub qolunun uzunbaş "mediteron" və girdəbaş (broxkofel) ermənioid olmaqla, iki irq tipini yaratdılar. Şimali və cənubi Azərbaycana XVII-XIX əsrlərdə ermənilər köçürülənə qədər burada ermənioid tipini təmsil edən paleoantropoloji qalıq tapılmamışdır [59, 22, 44], yazılı mənbələrdə də hayların (ermənilərin) hərbi münaqişələri istisna olmaqla, Zaqafqaziyada məskunlaşması faktı qeydə alınmamışdır. IV əsrdən Erməni kilsəsi Alban kilsəsinə təsir göstərməyə cəhd edirdi. Baxmayaraq ki, Albaniyada xristian dini 270 il ermənilərdən öncə qəbul olunmuşdu və rəhbərlıyi Qüdsdən təyin olunan müstəqil katalikosluq idi [160, 167; 76, 215, 221].

Albaniyaya gəlib burada müəmmalı təbliğat aparan Armeniyanın baş keşişi Qrıqorun fəaliyyətində "erməni çarının hiyləsini" görən Alban-Hun çarı Sanatürkün göstərişi ilə onu "Xam atın quyruğuna bağlayıb Vatenan adlanan çölə buraxmaqla" öldürdülər. Onun yoldaşları isə Armeniyaya qaçdılar [160, 24-25; 48, 206]. Bunun ardınca Sanatürk 336-337-ci illərdə Armeniyanı tutub, bu ölkəni bir il hakimiyyətində saxladı [48, 179-180; 76, 88]. 387-ci ildə Armeniya Sasani imperiyası ilə Bizans imperiyası arasında bölündü, 428-ci ildə Sasani imperiyasının canişinliyinə çevrildi. Erməni dövlətçiliyinə son qoyuldu [48, 184; 76, 33]. Elə bu vaxtdan ermənilər yunanları "əbədi düşmənləri" elan etdilər [236, 22]. Ərəb Xilafətinin Bizans imperiyası ilə müharibələrinin başlanması ilə erməni kilsəsi ərəblərin xeyrinə casusluğa başladı. Albaniyada qriqorian təriqətini

yaymaqla Alban kilsəsini öz təsirinə salmağa çoxdan çalışan Erməni kilsəsi Xilafətdən məharətlə istifadə etdi. Erməni katalikosu İlya 704-cü ildə xəlifə Əbdülməlikə yazdı: "Hakimi-mütləq Allahın hökmü ilə bizim ölkə itaətlə sizin hakimiyyətinizə tabedir. Biz və Albanlar vahid İsa dininə etiqad edirik. Bərdə taxtında oturan indiki Albaniya Katalikosu Bizans imperatoru ilə sazişə girib, öz ibadətlərində onun adını çəkir və ölkəni məcbur edir ki, hamı dini etiqadda ona qoşulsun" [160, 176] Xəlifə Əbdülməlik erməni katalikosu İlyaya yazır və göstəriş verir: "Sənin səmimi məktubunu oxudum və sənin yanına öz sədaqətli nökərimi böyük qoşunla birlikdə göndərirəm. Əmr etdik ki, bizim hökmranlığımıza qarşı qıyam edən albanlar arasında sizin dininizə uyğun dəyişiklik edilsin" [160, 177]. Ərəb qoşunları ilə Bərdə şəhərinə gələn erməni katalikosu İlya Alban katalikosu Bakuru xalqın gözü qarşısında təhqiramiz şəkildə, işgəncə ilə məhv etdi. Bununla bərabər Alban kilsə ədəbiyyatını və alban əlifbası ilə yazılmış bütün ədəbiyyatı məhv etdirdi. "Erməni ruhaniləri Arran kilsəsinin nüfuzunu yerli əhali arasında tədricən heçə çıxarmış və ərəb hakimlərinin əli ilə albanların bütün ədəbi abidələrini dağıdıb Alban mədəniyyətini (xristian və dil abidələri nəzərdə tutulur - X.X.) heç olmazsa, azacıq xatırlada biləcək hər şeyi məhv etmişlər" [171, 94-95]. Ərəblərin gedib çıxmadığı, müsəlmanlaşdırmadığı dağlıq zonada yerləşən Alban kilsələrinin hamısını erməni Qriqorian təriqətinə keçirdilər. Beləliklə, xristianlıqda qalan albanlar ermənilərlə eyni dini təriqətin, ideologiyanın daşıyıcıları oldular. Qriqorian kilsə xadimləri Alban ədəbi abidələrini məhv edərkən əvvəlcə onu qrabara çevirirdilər.

Albanlar xristian dininin qriqorian təriqəti vasitəsi ilə ermənilərlə etnik təmasa girsələr də, hələ eramızdan əvvəl Ön Asiyada türk etnosu say və mədəniyyət etibarı ilə üstün hakim mövqeyə malik idilər. Eranın ilk əsrlərində, ərəblərin gəlişinə qədər erməni müəllifləri etiraf edir ki, "türk dillərinin təsiri nəticəsində erməni dilinin sintaksisi xeyli dəyişərək Hind-Avropa dillərinin sintaksisindən uzaqlaşmış, iltisaqiləşmişdir" [82, 78-80]. Qeyd edək ki, ərəblərin





hakimiyyəti illərində Azərbaycanda və bütün Ön Asiyada türklərin mədəni və siyasi mövqeyi nəinki durğunluq keçirmiş, zəifləmiş, əksinə güclənmişdir [239; 240]. Ərəblər Albaniya xristian kilsəsini ermənilərin nəzarətinə versələr də, onların Qafqaza miqrasiyasına şərait yaratmadılar, buranın bütün şəhərləri, çoxsaylı əhali məntəqələri ərəblərin əlində idi və İslam dinini qəbul etmişdilər. Xilafət ermənilərin yunanlara düşmən münasibətini nəzərə alıb onları Kiçik Asiyadan yunanlarla həmsərhəd olan Qara dənizin cənub sahillərinə köçürdülər [236, 22].

Xilafət imperiyasında VIII əsrin ikinci yarısından ona qarşı üsyanlar başlayır, bu üsyanda Azərbaycan türkləri aparıcı, fəal mövqe tutur. Artıq IX əsrin 70-ci illərində "Xəlifələr türk qvardiyası komandanlığının əlində bir növ oyuncağa çevrilmişdilər" [195, 99-105; 171, 176-272]. Elə bu dövrdə Xilafətin görkəmli türk sərkərdələrindən "IX əsrin ikinci yarısında meydana gəlib Azərbaycan və Ermənistana (Kiçik Asiyaya - X.X.) bir neçə bacarıqlı hökmdar verən türk sülaləsi" Sacilər müstəqillik uğrunda mübarizəyə başladılar. IX əsrin üçüncü rübündən Azərbaycanın müstəqilliyini elan edib xilafətə tabeçilik göstərmədilər. Sülalənin görkəmli nümayəndəsi Yusif ibn Əbu-s-Sac 914-cü ildə Ermənistanı tutub erməni hakimi I Sumbatı Dıvində dar ağacından asdı, Ermənistanı da öz hakimiyyəti altına aldı. Xilafətin tərkibindən çıxıb müstəqil Azərbaycan türk Sacilər dövlətini qurdu. Sacilər dövləti qərbdə Ani və Divin şəhərlərindən, Şərqdə Xəzər dənizinədək, cənubda Zəncandan, Şimalda Dərbənd şəhərinədək ərazini əhatə edərək ilk dəfə Şimali və Cənubi Azərbaycanı əhatə edən müstəqil vahid Azərbaycan dövlət idi [171, 196-212]. Artıq bu dövrdən Azərbaycanda etnik proseslərdə türk etnomədəni konsolidasiyasına, türk milli şüurunun inkişafına və islam ideologiyasına müqavimət göstərən mənəvi, ideoloji siyasi şərait qalmır. Türk milli mədəniyyəti hakim mədəniyyət olaraq etnik proseslərə təsirini davam etdirir. XI əsrin ortalarında Mərkəzi Asiyadan Ön Asiyaya doğru türklərin növbəti miqrasiyası başlayır. Prosesə Səlcuqlar sülaləsi rəhbərlik etdiyindən bu dövrdə Azərbaycandan

keçib Ön Asiyaya miqrasiya edən türklər Səlcuq türkləri adlandırılır. Səlcuqlar Ərəb Xilafətində siyasi hakimiyyəti ələ aldılar, Kiçik Asiyada kökləri tarixin ən dərin qatlarında olan, e.ə. VII əsrdən başlayaraq, zaman-zaman canlanmaqda olan türkləri vahid etnos halında birləşdirdilər, burada hakim etnosa çevrildilər. XII əsrin sonlarında Kiçik Asiyadakı "Ərmənıyə" adı türklərin təsiri altında unuduldu, tarix səhnəsindən silindi [79, 33].

Hələ VII əsrin əvvəllərində Azərbaycan türklərinin birmənalı özünüadlandırmasına çevrilən türk adı, səlcuqlar gələnə qədər milli sərvət, əxlaq məzmunu kəsb edib, qürur mənbəyinə çevrilmişdi. Səlcuqlar Şərq-Qərb, İslam - Xristian ideologiyasını Türk-İslam dünyasının xeyrinə dəyişən "Asiya mədəniyyətini yox, onun döyüş qabiliyyətini təmsil edən" [185, 251] hərbçi cəngavərlər olsalar da, mədəni cəhətdən Azərbaycan türklərindən aşağı səviyyədə idilər. Onların davranış normaları xüsusilə şəhər həyatı ilə ziddiyyət təşkil edirdi. Səlcuq sultanı Səncərin idarəçiliyinin çatışmazlığı türk adına yaraşmadığı qoca qarının dili ilə Nizami Gəncəvi tərəfindən tənqid olunaraq deyilir:

Şan-şöhrəti dünyaya sığmazdı türklərin,
Ölkəsi ədalətlə güllü yazdı türklərin.
Zalımlığın bəllidir, işin-peşən talandır.
Sən ki, hindu quldursan, türk olmağın yalandır [241, 86].

XII əsrin sonları - XIII əsrin əvvəllərində Azərbaycanda, Ön Asiyada türklərin etnomədəni sistemində səlcuqların döyüş ruhu ilə şəhər, əkinçi mədəniyyətinin sintezi getdiyi bir dövrdə, Asiyadan dünyaya hərbi və qanunu, intizamı diqtə edən yeni bir türk "vulkan püskürməsi" baş verdi. "Onları dayandıra biləcək bir kəs yox idi" [185, 297]. Monqol-tatar tayfa ağsaqqalları tarixdə dövlət başçısını ilk dəfə qurultayda seçdilər, Çingiz xan ləqəbi verdilər. Çingiz xan dövlətini idarə etmək üçün "Yasa"-"qanun" qəbul etdi [242]. Çingiz xan imperiyasını Avrasiyada vulkana bənzədən onun qanununun





gücü idi, "İmperator bu qanuna əməl edirdi", "monqolların döyüş meydanında böyük zəfər çalması da sayca üstün olmaları sayəsində yox, intizamlı və mütəşəkkil olmaları sayəsində idi" [185, 298; 302]. Monqollar bu qanunları tutduğu ərazilərdə də tətbiq edir və gözləyirdilər. Odur ki, monqol-tatarların tutduqları ölkələrdə az sonra tərəqqi başlayırdı. Azərbaycan tarixşünaslığında Səlcuq və Monqol dövrü işğalçılıq - dağıdıcı müharibələr dövrü kimi izah edilməklə bərabər, həm də - intibah dövrü, mədəniyyətin çiçəklənməsi, "qızıl dövrü" adlandırılır [48, 389-347; 243; 244, 221-232].

XI-XII əsr Azərbaycan mədəniyyətinin inkişafı ümumşərq islam dünyasının inkişafının bir hissəsi olaraq baş versə də, bu mədəniyyətin nüvəsi, yaradıcı gücü, buradakı etnik durum, etnik mədəni proses idi. Bu fikir eynilə XIII əsrin mədəni yüksəlişinə aiddir. Təsadüfi deyil ki, monqolların yürüşü Azərbaycana və Anadoluya yeni türk axınları ilə müşayiət olundu [208, 141; 48, 338]. Tarixdən məlum olduğu kimi, monqol dövrü Azərbaycana gələn türk elləri də burada sürətlə məskunlaşdı, yeni bir mədəni iz qoymayacaq səviyyədə etnokonsolidə olundular. Ona görə ki, monqol dövlət təşkilatı, onun hüquq sistemi türk dövlətçilik ənənələrinin davamı idi və onlar bu ənənəni türklərdən öyrənmişdilər. Dövlət təşkilatının bu forması (el) türklər üçün doğma idi və onunla ünsiyyət qaydalarını yaxşı bilirdilər [208, 141]. Odur ki, burada etnik proseslər, öldürücü, assimilyasiya edici deyil, yaradıcı olduğundan o, mədəniyyətin bütün sahələrində inkişafa təkan verirdi. Etnogenez və etnik tarix problemlərinin görkəmli tədqiqatçısı Q.Qeybullayev yazır ki, məhz XII-XIII əsrlərdə baş verən etnomədəni proseslər Azərbaycanda "türk" özünüadlandırmasına hərtərəfli vətəndaşlıq hüququ qazandırdı [174, 81]. Lakin Azərbaycan, Anadolu, Orta Asiya türkləri XIII-XV, hətta XVI əsrdə ümumtürk etnoniminə daxil olmaqla bərabər tayfa və el adlarını da saxlayırdılar. Azərbaycandan Anadoluya və ya əksinə, Azərbaycandan Orta Asiyaya və ya əksinə köçmələr də olurdu. Bunlar ən çox türkman və tərəkəmə adlanan ellər idi. Azərbaycanda ayrı-ayrı etnoqrafik və etnik qruplar yaşasa da, vahid

Azərbaycan türk mədəniyyəti mövcud idi. Qaraqoyunlu, Ağqoyunlu sülaləsinin hakimiyyəti illərində türk milli mədəniyyəti yüksələn xətlə inkişaf etmədə idi. Səfəvilər sülaləsinin hakimiyyət başına gəlməsi, onların iqtisadi, siyasi, sosial-mədəni tədbirləri Azərbaycan türk mədəniyyətinin ölkədə şəriksiz hakim mədəniyyətə çevirdi. Səlcuqlar sülaləsinin sarayda fars dilinin kargüzarlıq dili, dövlət dili kimi istifadə edilməsi ənənəsinə son qoydu. Səfəvi imperiyasında türklər hakim millətə, türk dili isə rəsmi dövlət dilinə çevrildi. Sovet tarixşünaslığında qəsdən, yanlış olaraq uydurulur ki, guya XVI-XVII əsr mənbələri Səfəvilərin hakimiyyətində olan azərbaycanlılar etnik mənşəyindən asılı olmayaraq hamısı qızılbaş adlandırılmışdır [219, 209]. Bu, mənbələrin və həqiqətin təhrifindən başqa bir şey deyildir. Qızılbaşlıq dini təriqət ideologiyası idi ki, bu təriqətin daşıyıcıları olaraq sünnilərdən fərqlənmək üçün geyimlərində xüsusi nişan qoyardılar. Səfəvi sülaləsi Azərbaycanda milli türk şüurunun, özünüadlandırmasının zirvə nümayəndələri idi. Şeyx Səfinin ətrafında da türklərə üstünlük verilmişdi, Səfəvi şeyxlərin "türkün piri" adlandırırdılar [245, 35]. Səfəvi sülaləsinin hakimiyyəti dövründə türk milli şüuru həmişə yüksələn xətlə inkişaf etmişdir. Şah Süleymanın [1666-1694] hakimiyyəti dövründə Səfəvi sarayında olmuş alman alimi Engelbert Kempfer yazırdı: "Səfəvilər sülaləsinin ana dili olan türk dili saraydan tutmuş yüksək rütbəli və mötəbər şəxslərin evlərinə kimi yayılmış və nəticədə elə olmuşdur ki, şahın hörmətini qazanmaq istəyən hər kəs bu dildə danışır. İndi iş o yerə çatmışdır ki, başı bədəni üçün dəyərli olan hər kəs üçün türk dilini bilməmək suç sayılır. Türk dili bütün şərq dillərindən asandır. Türkcənin danışıq tərzindəki vüqar və səslənmə əzəməti onun sarayda və səltənət qəsrində yeganə danışıq dili olmasına gətirib çıxarmışdır [167, 185].

Səfəvi sülaləsinin hakimiyyəti illərində Azərbaycana gələn, etnik komponent kimi Azərbaycan türklərinin etnik tarixinə daxil olan etnik qruplardan biri kürdlərdir. Onlar ilk dəfə Səfəvi-Osmanlı müharibəsi zamanı 1589-cu ildə indiki Laçın rayonu ərazisinə daxil





olmuş və burada məskunlaşmışlar [246, 2; 184, 138; 247; 248]. Lakin kürdləri Azərbaycana əsasən XIX əsrdə ermənilərlə birlikdə Ön Asiyadan Rus imperiyası siyasi məqsədlərlə köçürüb gətirmişdir. Onlar Azərbaycanın Çuxur-Səd-İrəvan, Zəngəzur mahallarında məskunlaşdırılmış, sonradan isə onların bir hissəsi Qarabağın Laçın və Kəlbəcər rayonlarına köçürülmüşdür. Kürdlər yezidi dini təriqətinə, İslam dininin şiə və sünni təriqətlərinə malikdirlər. Yezidi təriqətinin daşıyıcıları Azərbaycanın İslam dininin daşıyıcısı olan etnik və etnoqrafik qrupları tərəfindən qəbul edilməyərək, onlarla qarışıq nikah qurmadıqlarından azərbaycan türklərinin etnik tərkibinə daxil ola bilməmişlər. Lakin müsəlman dininə mənsub kürdlərlə Azərbaycanın müsəlman dininin daşıyıcısı bütün etnik və etnoqrafik qrupları ailə-nikah münasibətinə daxil olmuşlar. Bununla da müsəlman kürdlər XVI əsrlərdən Azərbaycan türklərinin etnik tarixində iştirak etmişlər. Kürdlər Azərbaycanın dağlıq zonalarında məskunlaşdığından və o cümlədən planlı assimilyasiya siyasətinə məruz qalmadıqlarından etnik şüurlarını saxlamış, Azərbaycan türkləri ilə ümumi mədəniyyətə yiyələnmişlər [184, 135-166; 246, 1-16; 220, 134-168; 247; 248].

Biz yuxarıda Xilafət hakimiyyəti illərində türk-albanların dağlıq zonada, xüsusən xristian dinində qalan hissəsinin ermənilərlə eyni ideoloji sistemə daxil olmaları haqqında məlumat verdik. Alban kilsəsi kiçik bir ərazidə olsa da, öz müstəqilliyini uzun müddət qoruyub saxlaya bildi [250, 142]. Alban kilsəsi erməni qriqorian kilsəsinin tabeliyinə keçsə də, qriqorian təriqəti burada asanlıqla qəbul edilmədi, ona qarşı ciddi müqavimət göstərildi. Bunu Albaniyanın epiqrafik abidələri də təsdiq edir. Belə ki, Alban xristian abidələrində erməni dilli epiqrafika yalnız X əsrdən yaranır və elə bu dövrdən də erməni dilindən tədricən kilsə dili kimi istifadə edilməyə başlandı [252, 36; 250, 142].

İstər X əsrdə və istərsə də sonrakı dövrlərdə erməni dilli epiqrafikaya yalnız dini məbədlərdə rast gəlinir. Dini məbədlərdən kənarda erməni dilli epiqrafikaya rast gəlinməmişdir. Bu fakt göstərir ki,

Albaniyada erməni təsiri kilsədən kənara çıxa bilməmişdir.

Alban kilsəsi erməni qriqorian kilsəsinin təsirinə keçsə də, regionda bütünlüklə islam ideologiyası və türk etnosu hakim idi. Erməni kilsəsinin Alban kilsəsinə və buradakı əhaliyə ideoloji və etnomədəni təsir gücü nəzərə çarpacaq səviyyədə deyildi. Kiçik Asiyada Armeniya da daxil olmaqla, ideoloji və etnik proseslər islam dininin və türk etnosunun üstünlüyü şəraitində onların xeyrinə dəyişirdi. Elə bu ideoloji və etnik təsirin nəticəsində Armeniya XII əsrdə toponim kimi tarix səhnəsindən silindi, ermənilər Kiçik Asiyanın cənub-qərb dərinliklərinə çəkildilər. Hətta erməni kilsəsi o qədər zəifləmişdi ki, onun vahid mərkəzi belə qalmamışdı [151, 16; 76, 227]. Belə bir şəraitdə Xaçın hökmdarı Həsən Cəlalın dövründə (XIII əsr) alban kilsəsi daha da gücləndi, alban katalikosluğunun mərkəzi yaradıldı, xolkedonizm təmayülü gücləndi. Alban kilsəsinin hökmran mövqeyi ilə erməni kilsə xadimləri razılaşmalı oldular [250, 242].

Ermənilərin Albaniyada mövqeyini XIII əsr erməni müəllifi Kırakos Qandzaketsinin bu məlumatı müəyyən etməyə imkan verir. O yazır ki, "...erməni dilini yalnız Alban rəislərinin (kilsə rəislərinin - X.X.) əksəriyyəti" bilirdi [249, 99]. Göründüyü kimi, XIII əsrdə Alban kilsə rəhbərliyinin hələ hamısı erməni dilini bilmirdi və Alban kilsəsi tam erməni dilində işləməmişdi. Belə bir şəraitdə Alban xristianlarının erməniləşməsi, ermənilər tərəfindən assimilyasiya olunmasını demək etnik problemi bilməməkdən və ya siyasi məqsəddən irəli gəlir. Qarabağın, Göyçənin, İrəvanın dağlıq xristian məbədləri ətrafındakı alban türklərinin bütün iqtisadi, mədəni əlaqələri, mühitləri türk mühiti idi. Bir faiz təhsil almış əhalisi olmayan, yazıb-oxumağı bacarmayan, regionda erməni əhalisinin olmadığı halda erməni dili regionda heç bir etnik qrup arasında ünsiyyət vasitəsi olmadığı şəraitdə xristian albanların erməniləşməsini ehtimal etmək belə mümkün deyil.

Azərbaycan məscidləri VII əsrdən ərəb dilində işləyir, hələ bir nəfərdə olsun türk, ləzgi, tat, talış etnik şüurunu itirib ərəbləşməyib.





Ermənilər Monqol xanlarının antiislam siyasətindən istifadə edib, Kiçik Asiyada möhkəmlənməyə səy göstərdilər. 1253-cü ildə Kilikiya erməni çarı I Hetum Ali Monqol xanı Menku Qaanın (1251-1260) yanına gedib, onunla Misir məmlüklərinə və islam dininə qarşı müttəfiq olacağı haqqında müqavilə bağlayır. Monqollar bunun müqabilində erməniləri Hələb və Şamda yerləşdirdi. Ermənilər eyni zamanda Misir məmlüku ilə belə müqavilə bağlayır. İki ildən sonra onların xəyanəti aşkar olur. Misir sultanı onları nəinki Hələb və Şamdan qovur, Kilikyanı da işğal etməklə onları darmadağın edir. Ermənilər müxtəlif ərazilərə dağılırlar [48, 339; 251, 17-18].

Ermənilərin Azərbaycana gəlməsi və burada məskunlaşması haqqında XIX əsr mütəfəkkiri V.L.Veliçkonun, tarixçi R.Hüseynov və H.Verdiyevanın qənaətləri daha obyektivdir. Ermənilərin Azərbaycanın Çuxur-Səd mahalında məskunlaşması islamaqədər Alban dini məbədi, sonradan müsəlman ibadətgahı olmuş binanın 1441-ci ildə erməni din xadimləri tərəfindən satın alınıb kilsə kimi restavrasiyası ilə başlanmışdır [230, 86; 236, 23]. Elə bu dövrdən ermənilər Eçmiədzin kilsəsi ətrafındakı torpaqları yerli türk əhalidən satın alıb burada məskunlaşmağa başlayırlar [253, 45-57]. Amerika, Avropa müəlliflərinin əsərlərindən və digər mənbə və tədqiqatlardan aydın olur ki, 1828-ci ildə Rusiyanın Azərbaycanın işğalını başa çatdırıb, həmin ildə İrəvana "Erməni əyaləti" adı verənə qədər (bu adı da sonradan Rus imperiyası özü ləğv etdi) ermənilərin Azərbaycanda ən çox məskunlaşdığı bu vilayətdə ermənilərin sayı ümumi əhalinin 20 faizindən artıq olmamışdır [256, 116; 236; 228; 229; 230]. İstər İrəvan mahalında, istərsə də Qarabağın Arsax vilayətində türk mədəniyyəti hakim mədəniyyət olmuşdur. İlk orta əsrlərdə erməni dilinə və ədəbiyyatına güclü təsir edən türk mədəniyyəti, orta əsrlərdə XV-XVIII əsrlərdə erməniləri assimiliyasiya edəcək səviyyədə olmuşdur. Erməni alimləri etiraf edirlər ki, Azərbaycanın bədii söz yaradıcılarının əcdadları ozan və yanşaq adlanmasının XV-XVI əsrlərdən etibarən aşıq ad-titulu ilə əvəzlənməsini eyni ilə erməni aşığı

keçirmiş, qədimdə varsaq, qusan, mütrib adlanan həmin sənətkarlar XVI-XVII əsrlərdən etibarən aşıq adlanmışlar [257, 7]. Akademik M.Abeğyan yazır: "Qusanlar-sazəndələr" toy və şənlik məclislərində, adətən, çoxdan bəri türk dilində oxumuşlar və indi də tez-tez oxuyurlar". O yazır ki, "Əlimizdə müxtəlif variantları ilə 1700-ə yaxın dördlük olmaqla, görürük ki, bədbəxtlikdən dilimiz qafiyə cəhətdən yoxsuldur. Həmahəng sözlər məhdud miqdardadır. Bu səbəbdən də xalq çox zaman qafiyə üçün ancaq tanış olduğu türk dilinə müraciət edir". Toy adətlərindən bəhs edən erməni müəllifi Y.Canikyan isə yazır: "Kürəkən tərəfin quda qadınları qız evinə getdikdə təbillə türkcə 4-5 hayren (mahnı) oxuyur, sonra tərifləyici mahnılara başlayırlar ki, adətən, türkcədir və onlara şer deyirlər" [iqtibaslar 257, 14-15-dən götürülüb].

Qarabağın özünü adlandırması alban olan, milli şüura malik xristian türklər dini ibadət istisna olmaqla, bütünlüklə türk mədəniyyətinə malik olmuşlar. Qarabağın Zəngəzur vilayətinin Sisyan rayonunun Urud kəndindəki orta əsr qəbristanlığında 1478-ci il tarixli məzar daşında fars dilində "ağvan nəslindən kəndxuda oğlu Amursam", digər baş daşında "min evladi uğvan (ağvan sözləri yazılmışdır. 1578-ci ilə aid baş daşında isə türk (azərbaycan) dilində "Ağvan nəslindən" ("övladi ağvan") İftıxar" sözləri yazılmışdır [81, 55; 258, 41-42]. Xristian təəssübkeşliyi ilə, özləri də bilmədən Avropa və erməni siyasətçilərinin, işğalçılarının əlində alətə çevrilib məhv olan albanlar I Pyotra məktublarında dönə-dönə vətənlərini "Albaniya", "Alban torpağı", "Alban ölkəsi", millətlərini "Biz ağvanlarıq, milliyyəti utilərik" deyə vətənlərini və millətlərini ermənilərdən ayırmışlar. "Xaç düşmənləri", "İsanın düşmənləri" üzərində qələbə çalmaq naminə onlarla birləşdiklərini göstərirlər [225, 157-162; 317; 328; 382]. Alban katolikosu Yesayi Həsən Cəlal "Alban ölkəsinin qısa tarixi" (1702-1722) əsərində Rus imperiyasının ermənilərin əli ilə I Pyotrun qarşılanması üçün Albaniyada gizli təşkil etdiyi tədbirdən bəhs edərək yazır: "Qarabağ məlikləri ilə Ağvan ölkəsinin bütün cəsur və mərd gənclərini öz ətrafında birləşdirərək böyük,





12000 adamdan artıq qoşun təşkil etmiş və Arsaxın əlçatmaz yerlərində möhkəmlənmişdilər"... Vaxtanqın "əmri ilə biz onların yanına gəldik, onları hərbi qaydaya uyğun vəziyyətə gətirdik, çünki onlara hərbi iş öyrətməmişdilər və 1000-ə yaxın seçmə və silahlanmış kışini, onlarla birlikdə isə keşişlər dəstəsini və müdavimlərimizi toplayıb alban dövlətini bərqərar olmuş hesab edərək böyük dəbdəbə və təntənə ilə tərpəndik" [259, 35). Göründüyü kimi, Qarabağda heç bir erməni qoşunundan bəhs olunmur, onların idealı da xristian alban dövlətini bərpa etməkdir. Qəti əminliklə deyirik ki, başqa mənbələr kimi bu əsərdə də Rus imperiyasının yerli əlaltıları və ermənilər tərəfindən xristian və alban sözləri mümkün olan yerlərdə erməni sözü ilə əvəzlənmişdir.

Çar Rusiyasının işğalından sonra 1822-ci ildə Qarabağ xanlığı ləğv edilərkən rus hökumətinin tərtib etdiyi "Opisanie Karabaxskoy provintsie, sostavlennoe na 1823 qodu po raspoiyajenıyu qlavnoupravlyayuşeqo v Qruzii Ermolova deystvıtelno statskim sovetnikom Moqılevskim i polkovnıkom Ermolovım 2-m." (Tiflis - 1866) və M. A. Skibitskının tərtib etdiyi «Karabaxskie kazennıe letnie pastbiha». MUKLPİSK, t.IV, (Tiflis, 1899) adlı sənədlərdən aydın olur ki, 1828-ci ildə Rusiyanın Qarabağa erməniləri köçürməsinə qədər dini məbədlər istisna olmaqla, Qarabağda bir dənə də olsun erməni dilli toponim yoxdur. Alban etnonimi ilə varlığını davam etdirən əhalinin dili və mədəniyyəti türk mədəniyyəti idi. Bunu ermənilərlə birlikdə Qarabağda tədqiqat aparmış böyük rus alimi İ.İ.Petruşevski də çoxtərəfli adət-ənənə, toponim və s. ilə təsdiq etmişdir. O, fikrini belə yekunlaşdırır: "Qarabağ heç vaxt erməni mədəniyyətinin mərkəzi olmamışdır. Qarabağ mədəniyyəti vahid mədəniyyət olub, Azərbaycan xalqına məxsusdur" [260]. Qarabağın xristian və müsəlman əhalisinin vahid türk mədəniyyətinə malik olmasını XVIII əsrdə Osmanlı hakimiyyətində olduğu zaman tərtib olunan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" (B. 2000) adlı vergi dəftəri də təsdiq edir. XVIII əsrdə Çuxur-səd - İrəvan və Naxçıvan mahallarında etnik vəziyyəti Osmanlı imperiyasının "İrəvan əyalətinin ic-

mal dəftəri" (B. 1996), "Naxçıvan sancağının müfəssəl dəftəri" (B. 1997) adlı sənədlərdə əks olunmuşdur. Adlarını çəkdiyimiz ilkin mənbələr hətta erməni katalikosluğunun yarandığı İrəvan mahalında belə ermənilərin əyalət əhalisinin 20 faizini təşkil etmədiyini deməyə əsas verir. Azərbaycanın bütün vilayətlərində etnomədəni, etnokonsolidasiya prosesi türk mədəniyyətinin təsiri altında getdiyini göstərir. Erməni müəlliflərin özlərinin etiraf etdiyi kimi, maddi və mənəvi mədəniyyətlərində bütünlüklə türk mədəniyyəti hakim olmuşdur [257].

Hələ ibtidai icma quruluşundan etnosun intellektual səviyyəsini yüksəldib yeni əmək aləti kəşf etməsi ilə həmin toplumun sürətlə inkişaf etdiyini, qonşu etnosları öz təsirinə sala bildiyi dünya tarixşünaslığında qədimlərdən izlənmədədir. Avropanın qədim Şərqin elm və mədəniyyətini mənimsəyib təkmilləşdirməklə, Aristotelin (e.ə. 384-322) elmləri və fəlsəfəni sistemləşdirməsi ilə Avropa etnosunun inkişafına təkan verdiyi də məlumdur. VII əsrdə ərəblərin elmləri acgözlüklə mənimsəməklə dünyaya hökmranlıq etdiyinin, IX əsrdə Əl-Fərabi-ət-türkinin elm və fəlsəfəni yenidən sistemləşdirməklə müsəlman və türklərin dünya xalqları arasında mövqeyini gücləndirdiyi tarixin yaddaşına həkk olunmuşdur. Artıq XV-XVI əsrdən elmi üstünlüyün Avropaya keçməsi ilə XVII əsrdən Avropa işğalçılıq müharibələrinə, dünya hegemonluğuna başladı və bu hegemonluğun bu gün də davam etdiyi göz önündədir [269, 127; 264, 91-92; 265].

Beləliklə, dünyada elmi-texniki üstünlüyə yiyələnən Avropa imperialist dövlətləri - İngiltərə, Fransa, Avstriya və Rusiya XVIII əsrdə "Şərq məsələsi" adlanan məsələ uydurdular. Onlar "Şərq məsələsi" adı altında Osmanlı imperiyasını və Asiya qitəsini bölüşdürməyi planlaşdırdılar. Bu siyasətin əsas şüarı "xristianları müsəlmanların zülmündən azad etmək uğrunda mübarizə" idi (266, 296-297; 267, 317-351]. Beləliklə, Rus imperiyası I Pyotrun hakimiyyəti illərindən Azərbaycan ərazisində yaşayan xristianlardan dayaq yaradaraq Azərbaycan dövlətini daxildən zəiflətməklə onu işğal planını gizli





surətdə həyata keçirməyə başladılar [225; 227; 228; 229].

Bütün imperiyaların çöküşü tarixin qanunauyğunluğudur. Sacilər sülaləsinin hakimiyyəti dövründən Azərbaycan türklərinin yeritdiyi imperiya siyasəti Səfəvilər sülaləsinin hakimiyyətinin son dövründə artıq zəifləmişdi. Odur ki, daxili səbəblərlə bərabər Avropa və Rus imperiyasının ermənilər vasitəsilə yaratdığı maliyyə böhranı Səfəvi imperiyasını və sülaləsini asanlıqla çökdürdü.

Azərbaycan türkləri zəifləsə də, hələ tükənməmişdi. Malik olduqları siyasi hakimiyyət sürəru və hərbi qüdrət onları imperiyanı bərpa etməyə təlqin etdi. Bu vəzifənin liderliyini artıq xalq içərisində yetərincə hərbi nüfuzu olan Nadir üzərinə götürdü. Başlıca olaraq Əfşar ellərindən, bütünlüklə Azərbaycan türklərindən təşkil etdiyi ordu ilə Səfəvi imperiyasını işğal etmiş əfqan, Rus və Osmanlı imperiyası qoşunları üzərində çaldığı qələbələrlə dünya hərb tarixinə parlaq səhifələr yazaraq ölkəni işğaldan azad etdi, hətta onun hüdudlarını bir qədər də genişləndirdi [257; 358]. Nadir şah Əfşar lider kimi imperiyanı bərpa etməyə, hətta sərhədlərini genişləndirməyə nail olsa da, əsarət altında olan xalqların müstəqillik istəyini görür və dərk edirdi. Ölkədə milli dövlətçilik ideyaları özünü aydın göstərirdi. Azərbaycan türklərinin özündə milli dövlətçilik ideyaları daha güclü idi. Belə siyasi xadimlərdən biri elə Nadir şah özü idi. Bu zaman müsəlman və türk dünyasında Avropa və Rus imperiyasının siyasi xəttini aydın dərk edən, onu vaxtında dəf etmək zərurətini başa düşən yeganə siyasi xadim Nadir şah idi. Avropa və rus işğalına qarşı müsəlman dövlətləri ilə birlik yaratmaq istəyirdi. Bu məqsədlə Osmanlı imperiyası ilə, müsəlman dünyası ziyalı və din xadimləri ilə də ciddi danışıqlar apardı. Əfsuslar olsun ki, türk və müsəlman dünyasında onu heç kim başa düşmürdü. Onun fəaliyyətini diqqətlə izləyən Avropa imperializmi və Rus imperiyası ölkəsində ona qarşı narazılığı süni üsullarla daha da qızışdırdı. Nadir şah Əfşar sui-qəsdin qurbanı oldu. Nadir şahin ölümü ilə onun imperiyası süqut etdi, ölkə xanlıqlara parçalandı [257; 258]. Ölkənin təbii proses kimi tarixən formalaşmış etnoqrafik əyalətləri - xanlıqlar özlə-

rini müstəqil dövlət elan etdilər. Feodalizm mərhələsində belə siyasi-sosial hadisə bütün dünya xalqlarının həyatında baş vermişdir. Ölkənin feodallıqlara parçalanmış vəziyyətdə qalması ayrı-ayrı ölkələrdə müxtəlif müddətlərdə davam etmişdir. Misal üçün Rusiyada XII əsrin 30-cu illərindən XV əsrin sonuna kimi.

Maraqlıdır, Sovet tarixşünaslığı onun tərkib hissəsi olan Azərbaycan Sovet tarixşünaslığı Rusiyada və bütün dünyada mərkəzi hakimiyyətin süqutunu, ölkənin feodallıqlara parçalanmasının xalqın tarixinə və həyatına mənfi təsir edən hadisə hesab etdikləri halda, Nadir şaha sui-qəsdlə Azərbaycanın feodallıqlara parçalanmasını, müstəqil xanlıqların yaranmasını müstəqil dövlətçiliyin yaranması, müsbət hadisə kimi izah edirlər. Rusiya və bütün dünya xalqlarının tarixində ayrı-ayrı feodal-hərbçi liderlərin parçalanmış ölkəni, seperatçı feodalları vahid dövlətdə birləşdirmək uğrunda apardığı müharibəni xalqın gələcək taleyi üçün mütərəqqi hadisə, onun liderini mütərəqqi şəxsiyyət kimi qiymətləndirdiyi halda, Azərbaycan xanlarının ölkəni feodal parçalanmasından qurtarmaq, onu vahid dövlətdə birləşdirmək uğrunda apardığı müharibəni xanlıqların bir-birini işğalı kimi izah edirlər.

Maraqlıdır, 1866-1870-ci illərdə Almaniya knyazlıqlarından Prusiyanın lideri Otto Fon Bismarkın "dövrün böyük məsələləri parlament nitqləri və səsvermə yolu ilə deyil, dəmir və qanla həll olunur" deyərək 22 alman knyazlığını qan içində boğaraq onları vahid dövlətdə birləşdirməsi Alman xalqının tarixində mütərəqqi hadisə, Bismark mütərəqqi şəxsiyyət kimi qiymətləndirildiyi halda, feodallıqlara parçalanmış 22 Azərbaycan xanlığını vahid dövlətdə birləşdirmək üçün Ağa Məhəmməd xan Qacarın apardığı müharibə işğalçılıq, onun özü isə bəşəriyyətin ən irticaçı, işğalçı şəxsiyyəti kimi qiymətləndirilir, yaddaşlara yeridilir. Fikirlərini belə əsaslandırmağa çalışırlar ki, guya Ağa Məhəmməd xan Qacar "iranlıdır", o, İran dövlətini bərpa etmək üçün Azərbaycan xanlıqlarını işğal edirmiş. Halbuki 1935-ci ilə kimi tarixdə nə coğrafi məfhum kimi İran anlayışı nə də İran dövləti adlı siyasi subyekt olmamasıdır. Tarixdə bu





anlayışları təsdiq edəcək heç bir sənəd yoxdur. Söhbət fars xalqı və ölkəsindən gedir ki, onlar da IX əsrin üçüncü rübündən, yəni Sacilər sülaləsinin hakimiyyətindən - 889-cu ildən 1925-ci ilə kimi Azərbaycan dövlətlərinin əyaləti kimi idarə olunmuşdur.

Sovet tarixşünaslığının uydurmasına görə guya I Şah Abbasın hakimiyyəti illərində fars ünsürləri sarayda üstünlüyü ələ almaqla Səfəvi dövlətini Azərbaycan dövlətindən fars dövlətinə çevirmişlər. Faktlar bütünlüklə bunun əksini deyir. Əksinə I şah Abbas Səfəvi sarayını, ali dövlət vəzifələrini bütünlüklə farslardan təmizləmişdir. Səfəvi sülaləsinin varlığı dövründə farslar heç vaxt orduya cəlb olunmamışdır. Səfəvi sülaləsinin süqutu zamanı fars feodalları sülalənin və mərkəzi hakimiyyətin bərpasına qəti təşəbbüs etmədilər, onun bərpasında da iştirak etmədilər. Səfəvi sülaləsinin və mərkəzi hakimiyyətin bərpası uğrunda ancaq Azərbaycan türkləri mübarizə apardı. Mərkəzi hakimiyyəti bərpa edəndən sonra Əfqan, Rus və Osmanlı qoşunlarına qarşı döyüşlərdə ordu və xalq arasında son dərəcə məşhurlaşmış Nadir xan hakimiyyətini qurub ölkənin şahı oldu. Səfəvi türk sülaləsini Əfşar türk sülaləsi əvəz etdi. Siyasi səbəblərdən Nadir şah farsları orduya cəlb etsə də, tezliklə etimadsız ünsür kimi onları ordudan qovdu.

Nadir şahın ölümündən sonra süqut edən mərkəzi hakimiyyəti bərpa iddiasına yenə Azərbaycan türk feodalları düşdü. İmperiyanın digər xalqlarından yalnız bir nəfər lor feodalı Kərim xan Zənd şiə olaraq Səfəvi sülaləsinin vəkili pərdəsi altında bu iddiaya düşdü ki, onun da qoşunları başlıca olaraq Qaşqay türklərindən ibarət idi. Lakin heç bir Azərbaycan xanlığı üzərində hakimiyyət qura bilmədi. Ancaq fars əyalətlərini özünə tabe edə bildi. Mərkəzi hakimiyyətin bərpası uğrunda mübarizə Azərbaycanda və Azərbaycan feodalları arasında gedirdi. Lider olaraq dövrünün ən savadlı, elmli və məlumatlı sərkərdəsi Ağa Məhəmməd Qacar üstünlüyü ələ almışdı. Cənubi Azərbaycan xanlıqlarının və ölkənin cənub sərhədlərini bərpa etmişdi. Şimal hüdudlarını birləşdirmək uğrunda diplomatik və hərbi mübarizəsini davam etdirirdi. Hər bir dövlətin əsası, sütunu, da-

yağı onun ordusudur. Farslar Səfəvi, Əfşar və Qacarlar dövlətinin ordusuna etimadsız element kimi qəbul edilmədiyi halda, bu dövlətləri necə fars-İran dövləti adlandırmaq olar? İran dövləti və coğrafiyası anlayışı 1935-ci ildən Sovet və Avropa imperializminin geopolitik siyasətini həyata keçirmək üçün uydurulub Yaxın və Orta Şərqin tarixinə sırınmışdır. Bu, kommunist Rus imperiyasının Azərbaycan türklərini qəhrəmanlıq, milli mübarizə tarixindən məhrum etmək siyasətindən başqa bir şey deyildir. Mənbə və tədqiqatlar yeni dövrdə də Azərbaycan türklərinin milli ləyaqət və şərəfini, mədəni-siyasi dəyərlərini qoruyub yaşatmaq uğrunda mübariz bir həyat yolu keçdiyini göstərir.





# IV FƏSİL

## YENİ DÖVRDƏ AZƏRBAYCAN TÜRKLƏRİNİN ETNOMƏDƏNİ, ETNOSOSİAL İNKİŞAFI VƏ MİLLƏT KİMİ FORMALAŞMASI

XVIII əsrin ikinci yarısından Rus ordusu Balkanlarda və Qaradəniz sahili ərazilərdə Türk ordusuna qalib gəlsələr də, ruslarda hələ türklərlə döyüş üçün psixoloji üstünlük, qələbə inamı yaranmamışdı. Rus əsgərinin türklər üzərində az-çox yaranmış qələbə inamını Nadir Şah Əfşar Azərbaycanın Xəzərsahili vilayətlərinin rus işğalından azad edilməsi zamanı öldürdü. Odur ki, Rus imperiyası Azərbaycanı yenidən işğala hazırlaşarkən Azərbaycanı tatar ölkəsi, türkləri tatar adlandırdı. Rusiya əhalisi arasında Azərbaycan tatarlar ölkəsi kimi təbliğ olundu. Döyüş üçün səfərbər olunmuş rus əsgərlərinə də tatarlarla döyüşəcəyi təbliğ olunurdu. Bu təbliğatla rus imperiya ideoloqları iki məqsədə nail olurdular. Əvvəla, rus əsgərini Azərbaycanda hərbi qabiliyyət göstərmək üçün psixoloji üstünlüyə yiyələndirir, ona döyüş ruhu verirdilər. Çünki artıq neçə əsrdi ki, ruslar tatarlara qalib gəlib, onları mənəvi cəhətdən alçaldıb özünəinamsız qorxaq psixoloji duruma salmışdılar. Digər tərəfdən Rusiyada, Avropada tarixən yaradılmış vəhşi tatar obrazı Rus imperiyasının burada törətdiyi bütün vəhşiliyə dəstək qazandıracaqdı. Bütün siyasi, ideoloji, psixoloji, hərbi-texniki hazırlıqdan sonra 1803-cü ildə Rus imperiyası Azərbaycana hərbi təcavüzə başladı, 1828-ci ildə Şimali Azərbaycanın işğalını başa çatdırdı.

Rus imperiyası ilə Qacarlar monarxiyası arasında 10 fevral 1828-ci ildə bağlanan Türkmənçay sülh müqaviləsinə əsasən Qacarlar monarxiyası ərazisindən Şimali Azərbaycana ilk öncə 8248 erməni ailəsi köçürülüb İrəvan, Qarabağ və Şirvan əyalətlərində yerləşdirildi. Türkmənçay müqaviləsindən keçən bir neçə ay ərzində Qacarlar monarxiyası ərazisindən Şimali Azərbaycana 40 min erməni ailəsi, 1828-1830-cu illər ərzində isə Türkiyədən Zaqafqaziyaya 84600 er-

məni köçürüldü. Elə bu illərdə Qarabağın dağlıq zonalarına 200.000 erməni gətirildi. Krım müharibəsi illərində və 1877-1878-ci illər Rus-Türk müharibəsi illərində Zaqafqaziyaya ermənilərin köçürülməsi davam etmişdir. Ən çox köçürülmə isə 1893-1894-cü illərdə olmuşdur. N.N.Şavrov yazır ki, 1908-ci ildə Zaqafqaziyada gəlmələrin hesabına ermənilərin sayı artıb 1.300.000 çatmışdı ki, bunun da 1.000.000-dan çoxunu çarizm xarici ölkələrdən köçürüb gətirmişdir [228; 229; 236; 237; 238]. Azərbaycan ərazisində erməni dövləti yaratmağı planlaşdıran Rus imperiyası burada əhalinin siyahıya alınması zamanı ermənilərin yerli əhali kimi gələcək nəsillərə aşılamaq məqsədilə xristian albanlardan bir kəlmə bəhs etmədən onları sənədlərdə erməni kimi qeyd etmişlər. Hansı ki, imperiya 1783-cü ildə, 60 il əvvəl Qarabağda Xristian Alban dövləti yaratmağı planlaşdırdı [227, 169; 372, 36-37; 373; 186-198]. Qarabağa ermənilərin köçürülməsinə qədər 1823-ci ildə çarizmin burada erməni kimi qeyd etdiyi 4366 xristian ailə əsasən albanlar idi [268; 21]. Əgər hər bir ailəni orta hesabla beş nəfərdən hesablasaq, aydın olur ki, 1828-ci ilə qədər Qafqazda ermənilərin sayı 100.000-ə çatmamışdır. Bunu Rusiyanın dövlət sənədləri, erməni müəllifləri də etiraf edirlər. 1828-ci ilə qədər ermənilərin məskunlaşıb yeganə erməni kilsəsi yarada bildikləri Rus imperiyasının "Erməni əyaləti" adı verdiyi İrəvan mahalında onların sayı gəlmələrin hesabına artıb 1832-ci ildə 81.610 nəfərə çatmışdır [332, 166-167]. Bunu XIX əsr erməni müəlliflərinin özləri də etiraf etmişlər. Erməni müəllifi S.P.Zelinski yazır ki, "Zəngəzurun Mehri, Sisyan bölgələrində Əxlətian, Pirnaxot və Şınataqdan başqa bütün erməni kəndləri 1828-1829-cu illərdə İran əyaləti Qaradağ, Gərməli və Səlmasdan gəlmişlər. Gəlmələr yerlılərin dilini başa düşmürlər" [232, 10]. S.P.Zelinskinin erməni adlandırdığı üç xristian kəndinin adından görünür ki, bu adlar alban (türk) adlarıdır. Erməni dilini bilməyən bu yerli əhalinin erməni adlandırılması Azərbaycan xalqının etnik tarixinin saxtalaşdırılması, ermənilərin zorla Qafqazın, Azərbaycanın yerli əhalisi olduğu fikrini aşılamaq siyasətidir. Bu cəhətdən digər erməni





müəllifi A.E.Xan-Aqovun məlumatı daha tutarlıdır. O yazır: "Cavanşir qəzasının (Dağlıq Qarabağın - X.X.) əhalisi başlıca olaraq tatarlardır (türklər - X.X.), ermənilər bu rayona başqa yerlərdən gəlmişlər". O, fikrini belə tamamlayır: "İrandan gəlmə ermənilər, yerli Qarabağ ermənilərindən (albanlardan - X.X.) dilləri ilə, hətta geyimləri ilə də fərqlənirlər. İran erməniləri yerli ermənilərin (albanların - X.X.) dilini başa düşmürlər, lakin gəlmələr tezliklə yerlilərin dilini unutdurdular" [233, 338]. XIX əsrin görkəmli mütəfəkkiri V.L.Veliçko Qarabağda gəlmə ermənilərlə yerli erməni adlandırılan əhalinin məşğuliyyətinə, xarakterinə mənşəyinə görə fərqləndiyini göstərərək yazır: "Ermənilər ticarətlə məşğul olurdular, xan qamçısı qabağında zağ-zağ əsirdilər, bəylərin yanında alçalırdılar və hətta xəncər gəzdirən adam görən kimi dümağ ağarırdılar... Lakin Qarabağın yerli, yanlış olaraq erməni adlandırılan əhalisi üç-dörd əsr bundan əvvəl qriqoriyanlaşmış dağlı və türk tayfalarıdır. Qarabağ (Albaniya və yaxud Ağvaniya) sakinləri istisna təşkil edir. Xristian qarabağlılar hərbi psixologiyaya malik idilər, yerli xanlar onlarla hesablaşırdılar" [269, 154].

Rusiyanın müstəmləkəçilik siyasəti Azərbaycanda heç də asanlıqla getmirdi. Azərbaycan xalqı, xristian təəssübkeşliyinə aldanmış Alban kilsəsi rus-erməni işğalına qarşı bütün üsul və vasitələrlə mübarizə aparırdı. Siyasətdə Rus və Osmanlı imperiyalarını aldatmağa müvəffəq olan erməni katalikosluğu Alban patriarxlığını əvvəlcə sıxışdırdı, nəhayət 1836-cı ildə rus çarizminin xüsusi fərmanı ilə alban kilsəsini ləğv edib, erməni kilsəsinin bir qoluna çevrildi [230, 48, 59-60; 250, 142; 270]. Beləliklə, erməni katalikosluğu və naxararlarının mənafeyi hər dəfə tələb etdikdə erməni kilsəsi həmişə yadelli işğalçıların köməyinə əl atır, "xaç bayrağı ilə öz yolu üzərində tarixi Aqvaniya və onun bir hissəsi olan Qarabağ (Arsax) xalqlarını" yox edirdi [271].

Rus imperiyası hələ Şimali Azərbaycanı tam işğal etməmiş tutduğu ərazilərdə yerli idarəçilik üsullarını ləğv edib, hərbi komendant rejimi yaradaraq, rus zabitləri vasitəsi ilə ölkəni idarə edirdi.

Rus imperiyası işğala başlayan vaxtdan bilavasitə ermənilərin məsləhəti ilə Qafqazın müsəlman əhalisinə qarşı qorxu və vahimə yaratmaqla buradan türk və müsəlman əhalini sıxışdırıb çıxarmaq siyasəti yeridirdi. İşğalçıların bütün amansızlıqlarına baxmayaraq, bütün Qafqaz müsəlmanları Rus imperiyasına qarşı yekdil iradə nümayiş etdirə bildi. Bu birliyin yaranmasında islam dini başlıca birləşdirici və səfərbəredici ideologiya idi. Xristian dininə mənsubluqlarına baxmayaraq, gürcü xalqı Qafqazın müstəqilliyi mübarizəsini və müsəlmanların istiqlal mübarizəsini ardıcıl müdafiə edirdi.

Cəmiyyət həyatının bir sahəsində baş verən dəyişiklik həmişə bütün sahələrə təsir edir. Azərbaycanda yaranmış müstəmləkə rejimi etnik proseslərə, siyasi, mədəni-mənəvi həyata da təsir edirdi.

Etnik proseslərdə etnosun milli qürurunun və ləyaqətinin qorunması başlıca yer tutur. Burada isə hakim sosial təbəqənin, elitanın nümunəsi başlıca rola malikdir. Odur ki, Rus imperiyası birinci olaraq Azərbaycanın xanlarını, bəylərini fiziki cəhətdən məhv etmək, sürgün etmək, didərgin salmaq siyasəti yürütdü. Bu zümrədən tək-tək adamlar vətənini tərk etsə də, böyük çoxluq çarizmə qarşı mübarizə apardı, ölkəsinin sahibi olmaq yolunda fədakarlıq göstərdi. Azərbaycan elitasının bu mübariz mövqeyi digər sosial qruplarda Rus imperiyasına qarşı mübarizə ruhu doğururdu. İmperiyanın Azərbaycanın xan, bəy və ağalarını torpaq mülkiyyətindən məhrum etmək, onların zadəgan silki kimi, sosial təbəqə kimi sıradan çıxarmaq siyasətinin dəf edilməsi uğrunda mübarizə Azərbaycan xalqına yeni səfərbərlik imkanı verdi, özünəgüvənmə ruhu yaratdı.

Rus imperiyasının bütün siyasəti Azərbaycanda müqavimətlə qarşılansa da, o müəyyən üsullarla burada möhkəmlənməyə çalışır, şəxsi mənafe, qarın düşüncəsi, heyvani hisslərə malik adamları ələ keçirib, onların vasitəsilə yerli əhali içərisinə yol tapıb xalqı parçalamaqla burada möhkəmlənmək siyasətini davam etdirirdi.

Azərbaycanın Rus imperiyasına qarşı mübarizəsini çətinləşdirən başlıca çətinlik vahid milli ideologiyanın olmaması idi. Səfəvi sülaləsinin təriqətçilik siyasəti nəticə etibarı ilə Azərbaycan xalqının





ideoloji birliyini pozub sülalənin süqutu və ölkənin feodallıqlara parçalanması ilə nəticələnmişdi. Nadir şah dini islahat keçirib, bu ideoloji parçalanmanı aradan qaldırmaq siyasəti yeridərək müəyyən uğurlar qazansa da, ona sui-qəsdlə bu iş yarımçıq qaldı. Ondan sonra Ağa Məhəmməd Qacar türk milli şüuru və islam ideologiyası zəminində ölkənin müəyyən hissəsini birləşdirə bilsə də, sui-qəsd onun da milli siyasətini yarımçıq qoydu. Ağa Məhəmməd xan Qacarın Urmiya xanı Əli xan Əfşara yazdığı məktubdan aydın olur ki, Azərbaycan liderləri islam dinindən birləşdirici ideologiya kimi istifadə etsələr də, onlar birmənalı şəkildə Azərbaycan türklərinin gələcək taleyi məsələsini məhz milli türk şüuru zəminində həll etmək istəyirdilər. Ağaməhəmməd xan Qacar Urmiya xanı Əli xan Əfşara yazırdı: "Türk tayfaları əfşarlar və qacarlar bir-biri ilə müharibə aparmaqla ümumi düşmənin qələbəsi üçün imkan yaradırlar. Qacar tayfaları ilə ittifaq bağlamaqla əfşar tayfaları öz vilayətlərinin müstəqilliyini qoruya bilirlər və heç kimin onların torpaqlarına hücum etməyə cəsarəti çatmaz" [347, 58-59].

Rus imperiyasının pərakəndə şəkildə yaxalamış olduğu Azərbaycan xalqını birləşdirəcək yeganə ideologiya islam dini idi. Rus təcavüzünə qarşı mübarizə dövründə Osmanlı imperiyası Azərbaycanda təriqətçiliyi qızışdırmaqdan əl çəkdi, zərurət isə onu xalqa tezliklə unutdurdu. Lakin bütün İslam dünyasında, o cümlədən Azərbaycanda təhsil sistemindəki naqislik "Qurani-Kərim"in, İslam dininin cövhərini, elmi məntiqini unutdurmuş, mövhumata çevirmiş, "din xadimləri" isə avara, parazit bir zümrəyə çevrilmişdi. Mənbə və tədqiqatlardan aydın olur ki, İslam dininin elmi məntiqini bilməyən xalq öz adət-ənənəsini islam qanunları kimi qiymətləndirmişlər. Bu da İslam dininə sədaqəti, əxlaqi dəyərlərin müqəddəsliyinə inamı qorumuşdur.

Rus imperiyasının Azərbaycanı işğalı müddətində erməni keşişləri rus generallarının siyasi, ideoloji, psixoloji məsləhətçiləri olduğu günlərdə Azərbaycanda dini zümrənin, din xadimlərinin varlığı özünü büruzə vermədi. Rus qoşunları Təbrizə daxil olarkən onların

yoxluğu deyil, parazitliyi üzə çıxdı. Düşmənə nifrətlə köklənmiş döyüşə hazır əhali məsləhət almaq, təşkilatlanmaq üçün inam evi məscidə toplaşdılar. Bu zaman din xadimlərindən biri minbərə çıxaraq "toplanmış, həyəcana, qəzəbə gəlmiş camaata Rusiya çarını və Paskeviçi tərifləməyə başlamış, xalqı heç bir həyəcan göstərmədən Rusiya dövlətinə itaət etməyə çağırmışdır. Qeyrətli, vətənpərvər Azərbaycan xalqı birdən-birə həyəcana gəlib qəzəbli tufan dalğaları tək onun üstünə cummuş, onu tikə-tikə doğramışlar" [172, 107]. Elə bu zaman Təbriz şəhər valisi Allahyar minbərə qalxıb Azərbaycan xalqına müraciət etmişdi. Müraciətdə deyilir: "Təbriz xalqımızın qeyrətidir. Bu yolda ölmək hər bir azərbaycanlı türk üçün şərəfli iş olmalıdır. Çalışmalıyıq ki, kafirlər (ruslar) bu gözəl şəhərimizdə at oynatmasınlar. Sizi mübarizəyə səsləyirəm". "Sonra məsciddəki adamlar kəfən geyərək şəhərdən çıxmışlar" [270, 121; 272, 107].

Milli ad etnosun şüurunda, psixikasında görmə, eşitmə, dadbilmə duyğusu, siniri kimi yer tutur. Ona görə də milli adla olan hər bir çağırış etnosun tarixi yaddaşında olan, bütün varlığı dövründə qazandığı mənəvi dəyərləri səfərbər edir, hərəkətə gətirir. Məhz ona görə də şəhər valisi Allahyarın Təbriz əhalisinə "Bu yolda ölmək hər bir azərbaycanlı türk üçün şərəf işi olmalıdır" müraciəti ilə əhalinin dərhal kəfən geyinib düşmən önünə çıxması rus qoşunlarının Təbrizə girməsini dayandırmaqla nəticələndi.

Xristian dünyası əsrlərlə xaç bayrağı altında müsəlmanlara qarşı müharibələr aparsa da, "Qurani-Kərim"də digər kitab əhlinə qarşı mübarizə, onları düşmən hesab etmə ideyası olmadığından, buna icazə verilmədiyindən müsəlmanlar heç vaxt xristian məbədlərinə toxunmamış, xristianlara düşmən kimi yanaşmamışdılar. Odur ki, Car-Balakəndə rusların amansızlıqla, təhqiramiz şəkildə məscidləri uçurub-dağıdıb yerində kilsə tikməsi xalqın heysiyyatına toxundu, onlara qarşı barışmazlıq hissi yaratdı. Ruslar özləri zorakı surətdə Azərbaycanda xristian-müsəlman qarşıdurması yaratdılar. Əxlaqi ideologiya olan islam həmçinin ruslara qarşı siyasi birlik ideologiyasına çevrildi. Bu ideologiyanın yaradıcısı din xadimləri





deyil, məhz xalq özü oldu.

1826-cı ildə Gəncədə ruslara qarşı başlayan üsyan Car-Balakəndə, Şəkidə, Qubada davam edir, xalq rus ordusuna ağır zərbələr endirirdi. Bu üsyanların ideoloji mənbəyi Cavad xanın, Bakı xanı Hüseynqulu xanın, İrəvan xanı Həsən xanın döyüşləri idi. Xalq tərəfindən onlara şerlər qoşulur, tərənnüm olunur, rus qoşunları ilə döyüşə girməmiş xanlar nifrətlə yad edilirdi.

Gəncə döyüşünün şahidi olmuş qazaxlı Əbdürrəhman ağa Dilbazoğlunun Cavad xana ithaf etdiyi şeri dillər əzbəri olub, xalq içərisində yaşayan müxəmməsində deyilir:

Ol Ziyad oğlunu sanma mülki əbədi viran ola,
Hardadır onlar kimi sərdar, əgər meydan ola,
Hər zaman zan intiqamdan əmr ola, fərman ola,
Şaira, heyraniyəm ol gün ki, bu divan ola,
Ol Ziyad oğlu deyən bir gün gələn sərdardan.

Həsən Səyyarın "Hüseynqulu xan" adlı müxəmməsində oxuyuruq:

İgidlər rəhbəri, şəhlər əfsəri,
Şanlı qəhrəmandır Hüseynqulu xan.
Aslanlar susduran, bəbirlər yıxan,
O şiri-qırandır Hüseynqulu xan.
Cəsuri-dövrandır Hüseynqulu xan.
Məharət sahibi, kani-nəcabət,
Şəklində bəllidir səhmi-səlabət,
Qoparmış Bakıda şuri-qiyamət,
Rəşidi-meydandır Hüseynqulu xan,
Şanlı qəhrəmandır Hüseynqulu xan.

...Bu İbrahim deyil, Qarabağ xanı,
Düşmənlər əlinə verib meydanı.

Qeyrətlə öldürüb ibni-Sisyanı,
Aləmə dastandır Hüseynqulu xan.
Şanlı qəhrəmandır Hüseynqulu xan.
Səlim xana bunu eyləmə nisbət,
Şəkiyə düşməni buraxıb sərbəst,
Düşməni etmişdir davalarda pəst,
Qüvvətli bir candır Hüseynqulu xan,
Şanlı qəhrəmandır Hüseynqulu xan.
Mustafa xan kimi olmayıb qorxaq,
Amansız düşmənə açsın ağ bayraq,
Davaya, əsgərdən getmişdir qabaq,
Böyük pəhləvandır Hüseynqulu xan,
Şanlı qəhrəmandır Hüseynqulu xan.
Sisyanovu vurub öldürən zaman,
Rusiya ordusun etmiş pərişan,
Düşmənin qucağı olmuş Həştərxan,
Ali hökmrandır Hüseynqulu xan,
Şanlı qəhrəmandır Hüseyqulu xan.
Zamanında etmiş Bakını cənnət,
Qazanıb dünyada çox şanü-şöhrət,
Səyyar oxur daim naminə rəhmət,
Layiqi-cinandır Hüseynqulu xan,
Şanlı qəhrəmandır Hüseynqulu xan [273, 87-98].

İrəvan xanı Həsən xan haqqında folklor nümunəsini isə İrəvan şəhəri 69, mənzil 69-da yaşamış, 1929-cu il təvəllüdlü, 1989-cu ildə vətənindən didərgin salınmış Səkinə Həsənovanın yaddaşından götürdüm.

Nə gəzirsən sən aranda,
Gah o yanda, gah bu yanda.
Xanlıq nişanı var yaxanda,
Həsən xan, Həsən xan.





Həsən xandır sənin adın,
Aləmi yandırır odun.
Həm şöhrətin, həm büsatın,
Həsən xan, Həsən xan.

Həsən xan deyərlər adına,
Haqq özü yetsin dadına.
Erməni susamış qanına,
Həsən xan, Həsən xan.

Səkinə nənə deyir: "Binamızda türklər hamısı köçüb dağıldı. Təkcə bizim ailə qalmışdı. Hamısı xaricdən gələn ermənilər idi. Türkcə danışmağa kimsə qalmamışdı. Bu üç bənd şer dilimi, millətimi unutmağa, məni tək qalmağa qoymurdu. İrəvanda yaşayacağım, babamın, nənəmin məzarına gül, çiçək qoyacağım, onların arasında dəfn olunacağım, nəvələrimin məni ziyarət edəcəyi fikri heç vaxt başımdan çıxmır".

Göründüyü kimi, Rus imperiyası heç vaxt Azərbaycan xalqının milli ruhunu sındıra bilməmişdir. Rus imperiyasına qarşı qaçaq hərəkatı, "xalq intiqamçıları" deyilən silahlı mübarizə Azərbaycanın müstəqilliyinə qədər davam etmişdir [274, 248].

"Xalq intiqamçıları" Rus ordusuna, idarələrinə basqın edir, onları məhv edirdi. Bu hərəkat ruslarla bərabər onlara satılmış yerli nümayəndələrə, əlaltılara qarşı daha amansız idi. Rus imperiyası Azərbaycan xalqının təşkilatlanmaq qabiliyyətini, hərbi ruhunu öldürmək üçün türk və müsəlman əhalinin orduya daxil edilməsini qadağan etdi.

Rus imperiyası Azərbaycanda özünə etibarlı, etnik sosial dayaq yarada bilmirdi. Onun Azərbaycanda açmış olduğu rus dilli məktəblərdə təhsil almış azərbaycanlılardan özünə sosial dayaq yaratmaq ümidləri də bir nəticə vermədi. Odur ki, Azərbaycana rusları, digər xristian millətləri köçürməyə üstünlük verdi [275, 80-82].

Əksinə, bütün bu tədbirlər öz növbəsində Rus imperiyasına, rus-

lara qarşı mənfi münasibət doğururdu. Ona görə ki, Azərbaycana köçürülən bu əhali azərbaycanlıların - türk və müsəlman əhalinin sıxışdırılması hesabına məskunlaşdırılırdı. Rus müəllifinin özünün etirafına görə, azərbaycanlılarla ruslar arasında etnopsixoloji qarşıdurma o səviyyəyə çatmışdı ki, hətta XIX əsrin sonunda azərbaycanlılar rus həkimınə müraciət etmirdilər, hamilə qadına isə, ümumiyyətlə, rus həkiminin, hər hansı tibb işçisinin baxmasına icazə vermirdilər [276].

Göründüyü kimi, yaradılmış müstəmləkə şəraiti, dəyişmiş sosial-iqtisadi, siyasi-ideoloji mühit xalqın psixi vəziyyətinə də təsir etmişdir. Zorakı xristianlaşdırma, xristianlara aşkar hakim mövqe vermək, İslam dinini alçaldıcı vəziyyətdə saxlamaq xalqın dini hisslərinə toxunur, onları imperiyaya qarşı birləşdirirdi. Qafqazın müsəlman xalqlarında İslam birliyi ideologiyası doğururdu. Ümumiyyətlə, Azərbaycana köçürülmüş bütün xristian əhali adət-ənənəsi, inam və etiqadı, mənəvi dəyərləri ilə Qafqaz müsəlmanları ilə ziddiyyət təşkil edirdi. Yaranmış iqtisadi-sosial, siyasi-iqtisadi mühit Qafqazda etnik proseslərə təsir edir, milli şüurun canlanmasına səbəb olur, xristianları xristian ideologiyası zəminində, müsəlmanları İslam dini ideologiyası zəminində birləşdirirdi.

Qədim dövrlərdə, orta əsrlərdə və bütün feodalizm dövründə bir etnosun digərini assimilyasiyası ancaq birinin digərindən ən azı 5-6 dəfə çoxluğu şəraitində mümkün olmuşdur. Odur ki, Rus imperiyasının Azərbaycana köçürdüyü xristian əhali burada müsəlmanlara assimilyasiyaedici təsir göstərə bilmədi. Lakin Azərbaycanın qriqorianlaşmış alban türkləri ilə eyni yaşayış məntəqələrində ondan 10 dəfədən artıq ermənin gətirilib məskunlaşdırılması, alban kilsəsinin ləğv edilib, onların ibadətlərinin erməni kilsəsinə birləşdirilməsi albanların sürətlə erməniləşib türk mənşəyini unutması ilə nəticələndi.

Mənbələrin məlumatlarından aydın olur ki, bu dövrdə albanların heç də hamısı erməniləşməmiş, onların zadəgan hissəsinin əksəriyyəti, Rus imperiyasının xristianlara böyük üstünlük verdiyi şəraitdə





islam dinini qəbul edib, türk etnoniminə keçmişlər. XIX-XX əsr Azərbaycanın, xüsusilə Qarabağ bölgəsinin zadəgan-ziyalı zümrəsində Məlikov familiyası daşıyanların əksəriyyəti albanların zorakı surətdə erməniləşdirildıyi dövrdə İslam dinini qəbul etməklə türk etnik mənşəyini itirməyən, qoruyub saxlayan alban nəsilləridir [277, 23-34]. Bizcə, xristianlara böyük üstünlük verildiyi şəraitdə, qriqorianlaşmış albanların kütləvi erməniləşdıyi dövrdə albanların məhz zadəgan hissəsinin İslam dininə, türk etnoniminə keçməsi zümrənin etnik mənşəyi haqqında aydın təsəvvürə, yüksək milli şüura malik olması ilə izah oluna bilər.

XIX əsr Azərbaycan tarixçisi "Tarixi-safi", "Məcmuəyi-Vaqif və müasirıni - digər" əsərinin müəllifi, Mirzə Yusif Qarabağı - Nersesov, türkcə poeziya inciləri yaradan Mirzəcan Mədətov da Qarabağ albanları idi. Xristian təəssübkeşliyi ilə Rus imperiyasına, qriqorian təriqəti ilə erməniliyə xidmət etsələr də, ədəbi yaradıcılıqları ilə türklüyə xidmət etmişlər. Onlar mənəviyyatca parçalansalar da, bütünlüklə assimilyasiya olunub milli mədəniyyətdən tam ayrılmamışdılar.

Rus imperiyası Azərbaycan zadəganlarının milli iradəsini qırıb onlardan özünə sosial dayaq yarada bilmədikdə rus hökumət idarələrinə xidmətə girmiş, ona qulluq göstərən azərbaycanlı məmurları zadəgan silkinə daxil edib, satqın bir zümrə yaratmaqla, zadəgan silkini xalqın gözündən salmaqla, ona etimadsızlıq yaradıb zadəgan silkini və xalqı parçalamaq siyasəti yeritməyə başladı. Eyni zamanda Azərbaycanda açdığı rus məktəbləri vasitəsi ilə zadəganların uşaqlarının şüuruna rus adət-ənənəsi və ideyası yeritmək kimi vasitədən də istifadə etdi. Təhsil vasitəsilə dini məktəblərdən də bəhrələnmək istədi. Bunun üçün Qacarlar monarxiyasına, Türkiyə və digər müsəlman ölkələrinə dini təhsil almaq üçün getməyi qadağan etdi. I Pyotrun vəsiyyəti üzrə 1847-ci ildə Tiflis şəhərində şiə "Əli məktəbi" və 1849-cu ildə sünnü "Ömər məktəbi" adlı dini məktəblər açdı. Bunun ardınca təriqətlər nəzərə alınmadan əyalətlərdə yanaşı olaraq şiə və sünnü məktəblərinin açılması davam etdirildi.

Bu məktəblərin proqramına rus dili, rus qanunşünaslığı və rus ideyasını şüura yeridən dərslər daxil edildi. Lakin Rus imperiyasının siyasi-ideoloji, sosial-iqtisadi, mədəni-mənəvi təsirləri Azərbaycan xalqının - türk, tat, talış, ləzgi, avar, kürd və digər etnik qruplardan ibarət olan birliyini poza bilmədi. Əksinə, tarixən yaranmış və yekdilləşdirmiş adət-ənənələri, inam və etiqadları, islam ideologiyası zəminində onun etnomədəni və ideoloji birliyi daha da möhkəmləndi. Azərbaycan türkcəsi Qafqazda hakim dil, ümumi ünsiyyət vasitəsi idi. Dağıstan, gürcü, erməni aşıqları əsərlərini Azərbaycan türkcəsində yazıb, yaradırdı. M.Y.Lermontov bu dili "Asiyanın fransızcası" adlandırıb öyrənirdi. A.A.Bestujev-Marlinski isə bu dildə "bütün Asiyanı başdan-başa dolaşmaq olar" yazırdı. Erməni şairi Xaçatur Abouyan isə "Türkü lənətə gəlsin, amma onun dili [Tanrı] xeyir-duası görmüşdür", ermənilər "hər hansı bir təntənəli toplantı və ya toy [olardısa] türkcə oxuyurdular" yazmaqla Azərbaycan türklərinin mədəni-mənəvi təsiri altında olduqlarını etiraf edirdi [50, 724-725, 732, 742; 257].

Vahid toplum olaraq Azərbaycan xalqının etnomədəni, etnososial inkişafı Şimali Azərbaycan hüdudunda deyil, vahid Azərbaycan hüdudunda davam edirdi. Buna Rus imperiyasının siyasəti də imkan verirdi. Belə ki, Qacarlar monarxiyasını yenidən parçalamaq uğrunda İngilis imperiyası ilə Rus imperiyası arasında mübarizə gedirdi. Cənubi Azərbaycan isə bilavasitə Rus imperiyasının təsir dairəsində idi. Burada öz nüfuzunu, siyasi, iqtisadi təsirini gücləndirmək istəyən Rusiya Şimali Azərbaycanla Cənubi Azərbaycan arasında əlaqələrə mane olmur, əksinə bu əlaqələrin inkişafına şərait yaradırdı. Rus imperiyasının Qacarlar monarxiyası ilə ticarətində Cənubi Azərbaycan, azərbaycanlılar aparıcı mövqeyə malik idilər [278]. Şimali Azərbaycanla Cənubi Azərbaycan arasında Rusiyanın sərhəd məntəqələri olsa da, Şimali Azərbaycanla Cənubi Azərbaycan arasındakı bütün münasibətlərə, əlaqələrə nəzarət edə bilmirdi. Rus imperiyasının hakimiyyətinə keçən Muğan düzündən Cənubi Azərbaycan əhalisi 1884-cü ilə kimi qışlaq kimi istifadə etdi. İmperiya-





nın Şimali Azərbaycanla Cənubi Azərbaycan arasında gediş-gəlişə bürokratik əngəlləri vahid etnomədəni inkişafı pozacaq səviyyədə deyildi. Əksinə, Rus imperiyasının yaratdığı siyasi-ideoloji, iqtisadi təsir hər iki tərəfin əhalisi üçün qıcıqlandırıcı, milli, siyasi şüura oyadıcı, canlandırıcı təsir göstərməklə etnomədəni əlaqələrə, inkişafa impuls verirdi.

Rus imperiyası siyasi məqsədlərlə Şimali Azərbaycanla Cənubi Azərbaycan arasında əlaqələrə imkan yaratsa da, gizli planı Şimali Azərbaycan əhalisinin etnik mənəvi birliyini pozmaq, onun vətənpərvərlik hisslərini, vətən şüurunu öldürməklə Şimali Azərbaycandan türk və müsəlman əhalini deportasiya etmək idi. Bu məqsədlə Azərbaycan vətən anlayışını ona unutdurmaq üçün müxtəlif üsullardan istifadə edirdi. Azərbaycan ölkə adı kimi heç bir sənəddə göstərilmir və bu anlayışdan istifadə edilmirdi. Burada yaradılmış əyalətlərin adı ilə Qafqazın bir hissəsi kimi qeyd olunurdu. XIX əsrin 50-ci illərin sonunda Qafqazın siyasi fəthini başa çatdıran Rus imperiyası bütün sahələrdə geniş və ardıcıl ruslaşdırma siyasətinə keçdi. Bununla bağlı millətlərarası qarşılıqlı anlaşma və ticarət dili olan Azərbaycan türkcəsi sıxışdırılmağa başlandı, üzərinə saysız yasaq və qadağalar qoyuldu. Rəsmi yazışma, dəftərxana və idarəçilik qapıları onun üzünə bütünlüklə qapandı. Lakin Rus imperiyasının heç bir tədbiri, amansızlığı Azərbaycan xalqının milli birliyini pozub, iradəsini qıra bilmirdi. Müstəqillik ideyası xalqın bütün sosial təbəqəsini əhatə edən qaçaq hərəkatında özünü göstərirdi. "Yüzlərlə igid xalq sərkərdələri vətənpərvər oğulları öz ətrafında toplayaraq imperiya ordusuna, onun yerli orqanlarına, əlaltılarına fasiləsiz zərbələr vurmaqla düşmənə bir an da olsun rahatlıq vermir, onu fasiləsiz olaraq qorxu və vahimə altında saxlayırdılar. Qaçaq adlanan bu xalq sərkərdələrini əsgər, silah, ərzaq, geyim və s. ilə təchiz edən xalqımız, onlar haqqında yaratdıqları dastan, nağıl, şer, nəğmə və mahnılarda müstəqillik ideya və ideologiyasının mənəvi, psixoloji, hərbi və siyasi müstəqilliyin müxtəlif çalarları ali dəyərlərini xalqa yiyələndirirdilər. Xalqın yaratdığı qəhrəmanlıq dastanları, şer, nəğ-

mə, mahnı və nağıllar xalqın mənəvi-əxlaqi hisslərini, ruhunu müstəqillik yönümündə səfərbər etməklə milli-azadlıq ideyalarına dönməzlik və müstəqillik verirdi" [179, 151].

Milli varlığın qorunmasında zadəgan silki şərəfli yer tuturdu. Sibir sürgünü kimi məşəqqətli həyat, Rus imperiyasının siyasi, psixoloji təsiri Cəfərqulu xanın iradəsini qıra bilməmişdi. Vətənə qayıdan kimi bəyləri Rus imperiyasına qarşı səfərbər olmağa çağıraraq demişdir ki, bir zamanlar tatarların da "Qarabağ bəyləri kimi" güclü zadəgan zümrəsi (xanları, bəyləri, əsilzadələri) olmuşdur. "...Ruslar onları bütünlüklə yox etdilər, buna görə bu iş sizin də başınıza gələ bilər. Buna yol verməmək üçün isə onlar (bəylər - red.) Rus hökumətinə qarşı... elə davranmalıdırlar ki, bu hökumət onlardan çəkinib qorxsun" [50, 664].

Rus hərb tarixçisi, general B.Potta Azərbaycanın bu zadəgan nümayəndəsinin iradəsini qıra bilmədiklərindən təəssüflə yazırdı: "1857-ci ildə Cəfəri görən səyyahlardan biri qeyd edir ki, o, artıq hörmətli ağsaqqal idi və hələ o zaman uzun həyat yolunun buraxdığı izlərə baxmayaraq, keçmişdə cismində böyük həyati qüvvə olan bu şəxsin sıx saqqallarının xüsusi çalar verdiyi gözəl və xarakterik çöhrəsi, uca qaməti adamı heyrətə gətirirdi. Təmkinli davranışı, boy-buxunu, bütün bunlar onu boy-buxunda heç də ondan geri qalmayan, sayılıb-seçilən Azərbaycan türk bəylərindən fərqləndirirdi. Şərqdə isə boy-buxunluluq, qamət qanın saflığı və zadəganlıq rəmzi kimi qiymətləndirilir. O, ən iradəli şəxsiyyətlərdən biri idi ki, onun iradəsini heç bir qüvvə, ağır illər qıra bilməmişdir" [280, 420].

Göründüyü kimi Rus imperiyası Azərbaycan xalqının əxlaqi bütövlüyünü pozmaq üçün milli əxlaqın başlıca mənbəyi, yaradıcısı, daşıyıcısı zadəgan silkini sındırıb xalqın gözündən salmaqla onun bütövlüyünü pozmaq istəyirdi. Lakin buna nail ola bilmirdi. Elə bu illərdə Qafqazda olmuş böyük fransız yazıçısı A.Düma da bunları sezmiş və Azərbaycan xalqının xarakterik cəhətlərini qələmə alaraq yazmışdır: "Bu xalq vaxtı ilə müzəffər olmuş, ürəyində indinin özündə də döyüşkən olaraq qalır". O, Qarabağ xanı Mehdiqulu xa-





nın arvadı və qızı ilə görüşünü belə xatırlayır: "Anaya qırx, qızına isə iyirmi yaş vermək olardı. Hər ikisi milli geyimdə idi. Qəşənglikdən daha çox bahalı olması ilə seçilən nazik paltarda cazibədar görünən gənc xanımın yanında iki uşağı da vardı. Anası kimi milli geyimdə olan üç-dörd yaşlı qız uşağı maraq dolu, böyük qara gözlərini bizdən çəkmirdi. Beş-altı yaşlı oğlan uşağı isə nənəsinin dizinə sıxılmış və sövq-təbii ilə kiçik əlini belindən asılan xəncərin üstünə qoymuşdu. Mən mat qalmışdım. Bu fransız qadınının uşağının oynatmasına icazə verə biləcəyi oyuncaq xəncər deyildi, oğlanın belindəki əsil iti xəncər idi. Azərbaycan qadınları üçün bu birinci uşaq oyuncağı hesab olunur" [224, 45, 55].

XIX əsr müstəmləkə şəraitində Azərbaycan xalqının mənəvi dəyərlərinin, vəhdətinin qorunmasında ziyalı zümrəsinin rolu böyükdür. Bu sahədə Baba bəy Şakirin şəxsiyyəti və yaradıcılığı daha qabarıq görünməkdədir. Onun Rus imperiyasına və təslimçiliyə qarşı ifşaedici çıxışı onlara qarşı inqilabi mübarizə çağırışı Azərbaycan xalqının mənəvi səfərbərliyində mühüm rol oynamışdır. O, yazırdı:

Quberniya bina olandan bəri
Oğrunun hər biri bir xana dönüb.
Çox yetişib ərzə divan eyləyən,
Dağılıb vilayət viranə dönüb.

Bu nə qubernator, bu necə sərdar?!
Dağılıb vilayət oldu tarimar.
Cəmlənibdi rüşvətə murovlar,
Xalqın işi ahü-fəğanə dönüb.

Vilayətdə urus olub ixtiyar,
Eyləyib bir bina, yoxdu görən kar.
Tamam işlər olub cahılə bazar,
Heyif bu vilayət, heyahatu heyhat!

Qorxuram naçalnik düşə böhtana,
Çünki xalqi-aləm yetibdi cana.
Baş götürüb gedək hərə bir yana,
Son qoymasa karüfara, ərz elə [281].

Azərbaycan xalqının adət-ənənəsi, əxlaqi saflığı, düşmənə qarşı barışmazlığı düşməni dəf etməsi üçün kifayət etmirdi. Rus imperiyası aşkar şəkildə onları "dünənki köləsləri" ermənilərin əlaltısı etmişdir. "Qafqazda qırx il yaşamalarına baxmayaraq, de fakto sözün tam mənasında onlar(ermənilər – X. X.) buranın sahibidirlər" [230, 65, 94]. Bütün bunlar bütövlükdə Azərbaycan xalqının heysiyyətinə toxunurdu. Lakin düşməni dəf etmək xalqı məğlub vəziyyətdən qurtulması üçün kifayət etmirdi. Azərbaycan ziyalıları xalqı bu məğlub vəziyyətə gətirən səbəbi onun özündə, təbiətində, dünyagörüşündə axtarmağa təşəbbüs göstərdilər. A.A.Bakıxanov Azərbaycan xalqının düşdüyü məğlub vəziyyəti onun öz tarixi haqqında, ümumiyyətlə tarixi bilgisizliyi ilə izah edib bu qənaətə gəldi ki, xalq yaşamaq, digər etnoslarla rəqabət apara bilmək üçün tarixini bilməli, onunla əlaqədə və münasibətdə olan xalqların xasiyyətini, xüsusiyyətlərini öyrənməlidir. O yazırdı ki, "tarix hökmsüz və zülmsüz elə bir hökmrandır ki, bütün Adəm övladları onun əmrinə boyun əyməkdədir. Onun təlim məktəbində dünyanın müəllimləri əlifba oxuyan bir uşaqdırlar... Tarix elə bir danışmayan natiqdir ki, sələflərin vəsiyyətlərini bütün təfsilat və tərəfləri ilə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır. Gələcəkdə törəyə bilən əhvalatı keçmişin libasında insanların ibrət nəzərinə çatdırır... Tarix elmi dünyanın təcrübəsini bizə kəşf edir. Bundan daha yaxşı nə ola bilər? Xüsusən hər bir ölkənin tarixi orada yaşayan xalq üçün faydalıdır, çünki tarix ona öz millətinin təbiət və adətlərindəki xüsusiyyətləri bildirər, qonşu tayfaların rəftarından məlumat verər, müxtəlif xalqlarla saxlanan əlaqənin əsas xeyir və zərərini ona məlum edər. Buna görə də mən işin çətinliyindən xəbərdar olduğum halda yol göstərmək məqsədilə bir kitab yazmağa başladım" [282, 10].





A.A.Bakıxanovun dediyi bu kəlamlar zəmanəsi üçün həqiqətən elmi kəşf idi. Xalqı tərəfindən mənimsənilməsi mümkün olsaydı, ona böyük fayda verərdi. O, "Gülüstani-İrəm" əsəri ilə Azərbaycan salnamə tarixçiliyini elmi tarixə çevirməklə böyük xidmət göstərmişdir. Lakin A.A.Bakıxanov Azərbaycan ziyalı ənənəsini poza bilmədi, bu əsəri fars dilində yazıb sonra rus dilinə tərcümə etdi. Odur ki, bu böyük kəşfin zamanında xalqına heç bir faydası olmadı. Əsrlərlə Azərbaycan yazarları əsərlərini fars və ərəb dillərində yazdıqlarından bu əsərlərdən bu dilin sahibləri kütləvi surətdə bəhrələnə bildi. Bu əsərlərdən Azərbaycan əhalisinin cüzi bir hissəsi istifadə edə bildilər. Elə bu səbəbdən də zaman-zaman qonşu xalqların elmi səviyyəsi yüksəldiyi halda, Azərbaycan xalqı orta əsrlərin hərbi qəhrəmanlıq səhifələrinin təsirindən qürurlanmaqla kifayətlənməli olurdu. Azərbaycan xalqında elmi şüur fərdlər səviyyəsində qalıb, kütləviləşə bilmədi. Odur ki, Azərbaycan xalqı elmi təfəkkürə malik xalqlarla mübarizədə asanlıqla uduzurdu.

Erməni din xadimləri ilə müqayisədə Azərbaycanın dini zümrəsi nəinki xalqa az-çox fayda verirdi, əksinə, elmi şüurdan məhrum Azərbaycan xalqı üçün əngələ çevrilmişdilər. Dini ibadətgahlarda fəaliyyət göstərən molla-mirzələrin çoxu ərəb dilini bilmirdi. Onlar öz nadanlıqları ilə İslam dinini də gözdən salırdılar. Bu zümrəni təsəvvür etmək üçün Cəlil Məmmədquluzadənin "Axund ilə keşişin vəzi" adlı məqaləsini Kiçik ixtisarla əsərimizə daxil edirik:

“İrəvan quberniyasında bir kənd var, adı "Samanlıq"dır. Kəndin camaatı yarıya qədər erməni və yarısı müsəlmandır. Bir gün at ilə həmin kəndin mülkədarı Rəhim bəyə qonaq gedirdim. Yay fəsli idi. Uca atın üstündə oturub kəndin alçaq divarlarından həyətlərin hamısını görürdüm. Həyətin birində bir erməni arvadı toyuq-cücəyə dən səpirdi. Bir həyətdə bir müsəlman arvadı arxın kənarında qab yuyurdu. Həyətin birində bir erməni uşağı ağacın kölgəsində oturub kitab oxuyurdu. Bir həyətdə 12-13 yaşında bir müsəlman uşağı pişiyin quyruğuna ip bağlayıb həyətin o tərəfinə, bu tərəfinə qaçırdı və pişik movuldaya-movuldaya uşağın dalınca dal-dalı hərəkət edirdi.

Həyatin birində böyük tut ağacının kölgəsində bir neçə erməni oturub çörək yeyirdilər. Keşiş ayaq üstə durub sağ əlini yuxarı qovzayıb danışırdı. İstəyirdim keçib gedəm, haman keşişdən bir söz eşidib atı saxladım. Keşiş uca səslə dedi: "Hayreniq, hayreniq, hayreniq!" (hayreniq erməni dilində "vətən" deməkdir).

Çünki mən erməni dilini başa düşürəm, bir qədər dayandım keşişin sözlərinə qulaq asam. Bu heyndə küçənin bir tərəfindən müsəlman danışığı eşitdim. Atı qabağa sürüb gördüm ki, küçə ayrımında divarın kölgəsində 4 müsəlman oturub. Bunların biri Axund Molla Qurbanqulu Molla Qurban Əliyev idi. Bu axundu mən çoxdan tanıyırdım, özü də İran əhlidir. Molla Qurbanqulunun əlində bir kitab var idi. Molla kitabı oxuyurdu və kəndlilər diqqəti-tam ilə qulaq asırdılar.

Keşiş uca səslə kəndlilərə bu sözləri deyirdi: "Erməni millətinin dünyada üç sevgili balası var "vətən", "millət" və "dil" və nə qədər ki, biz həmin üç sevgili balaların yolunda fəda olmağa qadirik, nə osmanlının həmidiyyə əsgəri və kürdləri, nə Rusiyanın Qalitsinləri və nə zəmanənin qeyri bir təqazası erməni millətinin bəqasına xələl yetirə bilməyəcəklər".

Keşişin bu sözlərindən sonra Qurbanqulunun səsi gəldi. Molla kitabdan bu sözləri oxuyurdu: "Babi-həftum: Əgər bir şəxs yata, yuxusunda həcəmət görə, haman şəxs dünyada heç bir bəlaya və naxoşluğa giriftar olmayacaq".

Keşişin belə səsi gəlirdi: "Ey mənim erməni qardaşlarım. Dünya xəlq olunandan indiyə kimi erməni tayfası müxtəlif millətlərin cövr və zülmünə düçar olub, qarışqalar at nalının altında əzilən kimi ermənilər qüvvətli və bimürüvvət tayfaların yumruğunun altında pamal olublar. Bununla belə, erməni ölüm halında can verə-verə genə deyib: "Vətən, vətən, millət, hayreniq". Ey mənim qardaşlarım, nə qədər ki, millət, dil və vətən yolunda fəda olmağa biz qadirik, cəmi dünyanın tayfaları müttəfiq olub bizim üstümüzə hücum gətirələr, biz genə onların qabağında dayanıb dilimizi və vətənimizi mühafizət edə biləcəyik. Yaşasın vətən yolunda fəda olan erməni





milləti, yaşasın millət uğrunda şəhid olan qardaşlar. Getsə, getsə, hayreniq!"

Molla Qurbanqulu kəndlilərə deyirdi: "Ağacın altında, suyun qırağına böv etmək yaxşı deyil, çünki həmzad, əcinna, şəyatin insana zərər yetirər. Çaharşənbə, şənbə və tək günü qəbiristana və hamama getmək olmaz, çünki bu günlərdə əcinnə və divlər qəbiristana və hamama cəm olub qonaqlıq edərlər və həmin günlər bunların bayramıdır, insanı görsələr zərər yetirərlər. Əgər bir kəsin belə bir qəza başına gəlsə, durmayıb gəlsin mənim yanıma, vaxt ikən ona "həft həsar" duası yazım" [283, 37-38].

Din nümayəndələrinin bu miskin vəziyyəti XIX əsr Azərbaycan ziyalıları tərəfindən kəskin tənqid olunur. Xalqın dini bilgilərinin "Qurani-Kərim" zəminində canlandırılması tövsiyə olunurdu.

XIX əsrdə artıq müstəmləkəçilikdən azad olmaq Şərq xalqları ilə Avropa imperializminin mübarizəsi məsələsinə çevrilmişdir. İmperializm beynəlxalq qüvvə olduğu kimi müstəqillik uğrunda mübarizə aparan Şərq xalqları da beynəlxalq qüvvə kimi çıxış etməli idi. Bunun üçün də onun elmi, nəzəri, fəlsəfi, ideoloji və siyasi prinsipləri yaradılmalı idi. Şərqin bu tarixi missiyasını azadlıq və müstəqillik ideologiyasını avropalıların "Böyük bir müsəlman" və yaxud "Böyük bir şərqli", müsəlman aləminin "Müsəlman dünyasının mümtaz siması" adlandırdığı Cənubi azərbaycanlı soydaşımız Şeyx Cəmaləddin Əfqani yaratdı. Cəmaləddin Əfqani bütün şüurlu həyatının mənasını islam dünyasının geriləmə və tənəzzülünün səbəblərini araşdırıb öyrənməkdə və bunun dərdinə çarə axtarıb tapmaqda görmüşdür. O, gələcək üçün yararlı köhnə ideyaları yenidən canlandırır, nöqsanları aradan qaldıran və ya xalqları imperializmə qarşı mübarizədə birləşdirən yeni ideyalar yaradırdı. Onun yeni ruh verdiyi ideyalardan biri islam birliyi (panislamizm) idi. İlk dəfə Azərbaycanın görkəmli dövlət xadimi, hərbi və siyasi mütəfəkkiri Nadir şah Əfşar tərəfindən Avropa müstəmləkəçiliyinə qarşı yaradılan islam birliyi ideyasını dəqiqləşdirərək göstərdi ki, islam birliyinə milli birlik kimi yanaşmaq xalqların tərəqqisinə mane olar

əlavə tənəzzüllər doğurar. İslam birliyinə milli birlik deyil, imperializmə qarşı mübarizədə siyasi birlik, müttəfiqlik kimi yanaşılmalıdır. Ş.C.Əfqani tərəqqinin, müstəqilliyin birinci və başlıca şərtini xalqın elmə yiyələnməsində görürdü. O yazırdı ki, "bütün dünyanı öz təsiri altında saxlayan Avropanı, Əfqanıstanı tutan ingilisi, Tunisi işğal edən Fransanı götürün. Bunlar nə ingilisin hünəridir, nə də fransızların, bunlar yalnız onların elminin gücünədir. Gerilik və nadanlıq isə hər yerdə başını zəlillik torpağına qoymaqdan başqa bir çarə tapmamışdır". O, sözünə davam edərək yazırdı: "Dünya elm üstündə bərqərar olur..." Elm bir nəfərin gücünü on nəfərə, yüz nəfərə, min və on min nəfərə bərabər edir" [284, 197].

Şərq tarixində ilk dəfə milli inkişaf ideyasının müəllifi Ş.C.Əfqanidir. O, "Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti" adlı məşhur əsərində Avropaya çatmağın yolunu belə göstərirdi. Hər kəs öz millətinin tərəqqisinə nail olmaq istəyirsə, birinci növbədə özünü tanımalıdır, soyuna-kökünə bağlanmalıdır, dilinə, dininə sarınmalıdır. Böyük mütəfəkkir tərəqqidə milli fəlsəfənin olmasını zəruri şərt hesab edərək yazırdı: "Bir millətin fəlsəfəsi yoxdursa, əgər o millətin hamısı alim olsa da, o millətdə elmlər inkişaf tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımi nəticə çıxarmaqda çətinlik çəkər... fəlsəfi ruha malik olan bir millətdə ayrı-ayrı elmlər olmasa da, şübhəsiz həmin fəlsəfi ruh milləti başqa elmlərə yiyələnməyə vadar edəcək" [284, 197-198].

Ş.C.Əfqani şərq və islam ölkələri tarixində milli tərəqqinin və müstəqillik ideyasının bitkin bir nəzəriyyəsini yaratmışdır. Ondan sonra gələn nəsillərin əsas xidməti onun nəzəriyyəsini zamana müvafiq təkmilləşdirməkdən və dövrün tələbindən doğan yeni müddəalar əlavə etməkdən ibarət olmuşdur.

Ş.C.Əfqani liberal islahatçı idi. O yazırdı ki, xalqı düşdüyü yerdən qaldırmaq üçün iki şey lazımdır: "Şüuru - milli və məfkurə". Lakin tarixin müəyyən məqamlarında qan tökməkdən çəkinməməyi tövsiyə edirdi. "Firəng tarixinə nəzər salın! Böyük məqsədlərə çatmaq üçün nə qədər qan tökdülər? Qansız məqsədə yetmək olmaz" [284, 60-61, 197-198].





Göründüyü kimi, Azərbaycan xalqı Avropa xalqları ilə müqayisədə elmi səviyyəsinə görə geri qalsa da, onun tarixi mədəni ənənələri yaradıcılıq gücünü bütünlüklə itirməmişdir. Elə bu milli yaradıcılıq zəminində Azərbaycanın görkəmli mütəfəkkiri Ş.C.Əfqani Şərq xalqlarının inkişafına yol açacaq, Avropa müstəmləkəçiliyinə qarşı mübarizə aparacaq ideoloji əsasları yaratdı.

Özünün bədii və elmi yaradıcılığı ilə Şərq xalqlarının oyanışına, istiqlal mübarizəsinə təkan vermiş ən görkəmli şəxsiyyətlərdən biri M.F.Axundov idi. O yazırdı: "Təbiətin qanununun hökmünə görə başlanğıcı olan hər bir şeyin sonu olmalıdır. Yadların ardınca gedənlərin hakimiyyət dövrünün başlanğıc və orta dövrü keçmişdir. İndi onun son dövrüdür. Sağlıq olsa, yaxın gələcəkdə vətənimiz yadların ardınca gedənlərin mənhus vücudundan təmizlənəcəkdir! Yurdumuz yenidən gülüstana çevriləcək... Təəssüf ki, bizim ömrümüz o gözəl və səadətli günləri görməyə vəfa etməyəcəkdir" [285, 392-393].

M.F.Axundov inqilabçı idi. Azadlığa nail olmağın iki yoluna münasibət göstərərək yazırdı ki, "Zülmü aradan qaldırmaq üçün moizələr və nəsihətlər zalımın təbiətinə qətiyyən təsir göstərməmişdir. ...zülmü aradan qaldırmaq üçün heç də zalıma müraciət etmək lazım deyildir, bəlkə əksinə, məzluma demək lazımdır ki, "Ey nadan, sən ki, qüdrət, say və bacarıq cəhətdən zalımdan qat-qat artıqsan, bəs nə üçün zülmə qatlaşırsan? Qəflət yuxusundan oyan və zalımın atasının goruna od vur!" Xalqının zalımın zülmünə itaətinə tamaşa etməyə səbri çatmayan Axundov yazırdı: "Adamların damarlarına təzə və isti qan dağıtmaq və onları hərəkətə gətirmək lazımdır, göz qabağında olan bu əsas kökündən, dibindən qoparılmalıdır" [285, 257-258; 286, 196].

Rus imperiyasının Azərbaycan xalqını assimiliyasiya cəhdləri ardıcıl olaraq uğursuzluğa məruz qalırdı. Nə rus məktəbində təhsil alan azərbaycanlılara rus adət-ənənəsini qəbul etdirmək mümkün oldu, nə də onun imperiyaya xidməti müqabilində süni yaratdığı "bəy

və zadəganları" xalqa zadəgan kimi qəbul etdirmək mümkün olmadı. Əksinə, xalq bu zümrəni satqın dəstə kimi qiymətləndirdi. Milli ənənəyə görə, mülkiyyət sahibi olmaqdan əlavə vətənin müdafiəsində parlaq xidmət göstərən, yüksək əxlaqi keyfiyyətləri ilə fərqlənən şəxslər bəy və zadəgan rütbəsi ala bilərdi.

Hər hansı bir xalqın mənəvi mədəniyyətini - inam, etiqad, din, əxlaq, psixika, toy, yas, milli bayram, mərasim ənənələrini, yemək, içmək, geyim və s. pozub oraya assimilyasiya etmək istəyən xalqın adət-ənənə ünsürlərini daxil etmədən heç bir etnosu mənəvi cəhətdən məğlub edib, assimilyasiyaya etmək mümkün deyil. Odur ki, Azərbaycan xalqı mənəvi dəyərlərini fədakarcasına qoruya bildiyindən mütəşəkkilcəsinə Rus imperiyasına müqavimət göstərir, dövlətçiliyini bərpa etmək uğrunda mübarizə aparırdı.

1861-ci il təhkimçılik islahatı ilə Rus imperiyası kapitalist inkişafı yoluna qədəm qoydu. Elə bu vaxtdan rus, erməni, alman, fransız, isveç kapitalı sürətlə Azərbaycana axdı. Birinci olaraq neftçıxarma və neft emalı müəssisələrinə kapital qoyuldu. Bunun ardınca dağ-mədən sənayesi, gəmiçilik, yüngül sənaye-tütünçülük, ipəkçilik, şərabçılıq, bunun ardınca kənd təsərrüfatı-əkinçilik və maldarlıq kapitalistcəsinə quruldu. Bakı ilə bərabər Azərbaycanın bütün qəzalarında kapitalist müəssisələri yarandı [274, 237-270]. Yaranmış yeni - sosial-iqtisadi şərait Azərbaycanda milli inkişafa, etnomədəni proseslərə təkan verdi. Yuxarıda gördüyümüz kimi, XIX əsrin əvvəllərindən Azərbaycan xalqı öz adət-ənənəsi, əxlaqı, dili, dini, inam və etiqadı və s. mənəvi dəyərləri ilə özünü bu mənəvi dəyərlərə qarşı qoymuş rus və ermənilərə qarşı mübarizə aparır, onlarla hər hansı etnik təmasa, qarşılıqlı nikaha yol vermirdi. Hətta rus paltarı geyənlər rus adlandırılıb məsğərəyə qoyulur, məhəllələrdən, kəndlərdən qovulurdu. Beləlləri oba, el məclislərinə buraxılmırdı. İqtisadiyyatın kapitalistcəsinə qurulması, Avropa xristian ölkələrin kapital nümayəndələrinin, onlarla birlikdə müəyyən qədər mütəxəssis və fəhlələrin də Azərbaycana gəlməsi nəticəsində onun sənaye mərkəzlərində, xüsusən Bakı şəhərində xristianlar kifayət qədər artdılar. Azərbaycanda yaranan fəhlə sosial təbəqəsinin tərkibi 30 millətin nümayəndəsindən ibarət oldu [274, 257]. Xristian ölkələrindən gəlmiş fəhlələr Bakı və digər sənaye mərkəzlərində məskunlaşdılar. Bu dövrdə Azərbaycana Avropa ölkələrindən gələn əhali, əvvəllər buraya köçürülmüş kənd təsərrüfatı ilə məşğul olan rus təriqətçilərindən, hakimiyyətdən narazı olan almanlardan, erməni kütləsindən fərqli olaraq yüksək elmi səviyyəyə malik kapital nümayəndələri, alimlər, mühəndis və ixtisaslaşmış neftçıxarma və dağ-mədən sənaye fəhlələri idi. Avropa kapitalistlərinin Azərbaycandakı bu rəqabətinə davam gətirmək üçün Rusiya da buraya çıxdaş əhalidən fərqli olaraq yüksək elmi səviyyəyə malik alim, mühəndis, ixtisaslı fəhlə göndərməyə məcbur oldu. Rusiya dünya kimya elminin banilərindən biri M.İ.Mendeleyevi Azərbaycana ezam etdi. Beləliklə, XIX əsrin ikinci yarısında dünya elminin son nailiyyətləri Azərbaycanda cəmləşdi və burada rəqabətə girdi. "Əqli və mənəvi inkişafa qabil" azərbaycanlılar onu sürətlə mənimsədilər [230, 128].

Bu dövrdə Azərbaycan xalqının sosial tərkibində yeni, sosial təbəqə, milli burjuaziya yarandı. Tarixi səbəblərdənmi, təsadüfənmi dünya xalqlarının burjua sosial təbəqəsi ilə müqayisədə Azərbaycan burjuaziyasının özünəməxsusluğu ondan ibarət idi ki, Azərbaycan milli burjuaziyası əsasən yoxsul təbəqə içərisindən çıxmışdı. Sosial-iqtisadi, siyasi-mənəvi həyatın bütün sahələrində millətə sədaqətli idi.

Xarici kapital nümayəndələri Azərbaycanda açıq şəkildə özünü işğalçı kimi aparır, ölkənin təbii sərvətlərini talan edir, azərbaycanlılara, müsəlmanlara alçaldıcı münasibət göstərirdi. Xristian fəhlələrlə müqayisədə müsəlman fəhlələrin əməyini ucuz qiymətləndirirdi. Cənubi Azərbaycandan gəlmiş fəhlələrin əməyi isə daha ucuz dəyərləndirilirdi. Rus imperiyası işçi əməyini istismar etmək üçün Cənubi Azərbaycandan Şimali Azərbaycana işçi axınına mane olmurdu. Odur ki, həyat şəraiti aşağı olan Cənubi Azərbaycan əhalisi nəinki Şimali Azərbaycana, bütün Qafqaza, Rus imperiyasının türk və müsəlman əyalətlərinə axırdı. Yaranmış sosial-iqtisadi, siyasi şə-

rait təbii olaraq müsəlman təəssübkeşliyi, islam və milli birlik ideologiyası doğururdu. Eyni zamanda elmi səviyyənin yüksəldilməsi zərurəti xalq tərəfindən dərk olunmuşdu. İqtisadiyyatın qurulması, əmək məhsuldarlığını yüksəltmək, iqtisadi, siyasi, milli rəqabətə davam gətirmək üçün xalq təhsilə can atırdı. Rus məktəblərində, Avropa kapitalistlərinin müəssisələrdə açdığı peşə və ixtisasartırma kurslarında təhsil alırdılar. Zadəgan və burjuaziya nümayəndələri ali təhsil almaq üçün Rusiya və Avropaya gedir, onun qabaqcıl ali məktəblərində təhsil alırdılar. Rusiyadan, Avropadan və başqa ölkələrdən Azərbaycana gələn xristianlar burada əhalinin 30 faizə qədərini təşkil etmirdi. Azərbaycanlılar doğma etnomədəni, dini, ideoloji, mənəvi mühitdə yaşayırdı. Xristian əhali və imperiyanın burada açdığı məktəblər yerli əhalini assimilyasiya edəcək səviyyədə deyildi. Əksinə, bu məktəblər və sənaye müəssisələri elmi şüurun yüksəlişinə təkan verir, xristian irqçiliyi isə milli-dini şüura qıcıqlandırıcı, oyadıcı təsir göstərirdi.

Rus imperiyasının siyasi-iqtisadi təsiri altında olan Qacarlar monarxiyası, Xüsusilə Cənubi Azərbaycanla iqtisadi-ticarət əlaqələri bilavasitə Şimali Azərbaycan vasitəsilə qurulurdu, təşkil olunurdu. Cənubi Azərbaycana can atan ingilis, fransız, digər xarici ölkə kapitalını Rusiya məhz Şimali Azərbaycan vasitəsilə sıxışdırırdı. Yaranmış vəziyyət Şimali Azərbaycanla Cənubi Azərbaycanın iqtisadi-ticarət, mədəni-mənəvi əlaqələrini o qədər canlandırmışdı ki, onların siyasi parçalanması az qala nəzərə çarpmırdı [278]. Azərbaycan xalqının etnomədəni birliyində hər hansı parçalanma yaranmamışdı. Kapitalist münasibətlərinin sürətlə inkişaf etdiyi Şimali Azərbaycandan Cənubi Azərbaycan bir əyalət geriliyi kimi fərqlənirdi. O, vahid etnos kimi inkişaf edirdi.

Yuxarıda gördüyümüz kimi, Avropa xristian dövlətləri Şərqin müsəlman və türk xalqları arasında onlara həmişə təsir etmək, münaqişəyə cəlb etmək üçün əhalisi xarakter etibarı ilə buna imkan verən bir xristian dövləti yaratmağı planlaşdırırdı. "Casusluğu və xəyanəti" [230, 29] peşə etmiş ermənilər bu məqsəd üçün seçilib





Qafqaza, Azərbaycana gətirilmişdi. Xristian Alban türklərini ermənilərə assimilyasiya etdirib, onların yaşayış məskənlərinə erməni dilində yazılmış daşlar basdırmaq, Qafqazlı olmaları haqqında əsərlər yazıb, təbliğat aparmaqla onları burada möhkəmləndirmişdilər [230, 94; 234]. Artıq Qafqazda erməni dövləti qurmaq istiqamətində addımlar atırdılar. Şərq məsələsinə erməni məsələsi kimi baxan Fransa və İngiltərə Türkiyədə ermənilərə muxtariyyət verilməsinin, burada onlara dövlət yaradılmasının mümkün olmaması qənaətinə gəlmişdilər [230, 77]. Sonda İngiltərə "Tiflis paytaxt olmaqla" Qafqazda erməni dövləti yaratmağı planlaşdırırdı [230, 87]. Erməni burjuaziyası və ziyalıları isə Azərbaycanın Çuxur-səd-İrəvan vilayətində ermənilərin demoqrafik üstünlüyünü yaratmaqla İrəvanı Qafqazda yaradılacaq "Böyük Ermənistan" dövlətinin paytaxtına çevirməyi planlaşdırırdı [250, 148; 289]. Bu planlarını reallaşdırmaq üçün böyük kapitala malik erməni maliyyəçiləri Azərbaycan kapitalist sənayesinin bütün sahələrində üstünlüyü ələ aldılar, 1879-cu ildə 70 erməni sahibkarı neft sənayesi ilə məşğul olurdu. Rus və Avropa kapitalistləri Bakıda 79 buruğa malik olduqları halda, ermənilər 155 buruğa malik idi. XX əsrin əvvəlində Azərbaycanda 167 neft sənaye müəssisəsindən 55-i erməni sahibkarlarına məxsus idi [256, 160-164]. Digər sənaye sahələrində də üstünlük ermənilərə məxsus idi. Erməni kapitalistləri məhz erməni fəhlələrini işə götürür, qeyri millətləri işə qəbul etmir, müsəlmanları isə nadir hallarda işə götürürdülər [256, 167].

Yaranmış vəziyyət Azərbaycanda xristian-müsəlman qarşıdurması yaratmışdı. Azərbaycan ziyalıları və milli burjuaziya xalqın varlığını qoruya, rəqabətə davam gətirə bilməsi üçün onun elmi, milli, siyasi şüurun inkişafı yolunda inqilabi fədakarlıq göstərirdilər. XIX əsrin ikinci yarısında yetişən ziyalı nəsli Rusiya və Avropada təhsil almalarına baxmayaraq, milli ziyalı kimi yetişirdi. Ona görə ki, Rusiya burada hələ assimilyasiya üçün ideoloji, mənəvi-psixoloji mühit yaratmağa nail ola bilməmişdi. Rusiya xalqın inqilabi dəyişiklik tələb etdiyi bir ölkə idi. Azərbaycanda açılmış rus mək-

təblərində işləyən müəllimlərin əksəriyyəti inqilabi ideyaların daşıyıcıları idi. Belə bir mühit assimilyasiya deyil, milli şüuru canlandırırdı. Məhz elə bu mühit Azərbaycan ziyalılarına fars dilində yazmaq ənənəsinə son qoyub, ana dilində yazmağın zəruriliyini dərk etdirdi. Hansı dildə təhsil almasından asılı olmayaraq, Azərbaycan ziyalıları türkcə yazıb yaratmağa başladılar. Eyni zamanda yaranmış şərait, təhsil və istehsal mühiti Azərbaycan ziyalıları içində təbiətşünaslıq, riyazi, texniki elm nümayəndələrinin yetişməsinə imkan verdi. Onun ən parlaq nümayəndəsi H.B.Zərdabi, N.B.Vəzirov və b. idi.

H.B.Zərdabinin nəşr etdiyi "Əkinçi" qəzeti Azərbaycan xalqının elmi, siyasi şüurunun inkişafında mısilsiz rol oynadı. Birinci sayı çapdan çıxanda naşiri, yazarı, mürəttibi bir nəfər - H. B. Zərdabidən ibarət olan qəzetin ətrafında az müddətdə görkəmli ziyalılar səfərbər olundu. Bunun ardınca "Ziya", "Ziyayi-Qafqaziyyə" və "Kəşkül" qəzetləri nəşr olundu. Bununla da xalqda elmi, siyasi və milli şüurun inkişafının ən mühüm vasitəsi yaradıldı.

Feodalizm qalıqları hələ güclü olsa da, kapitalist istehsalı, ticarət, yeni məktəb və mətbuat məhəlli feodal ideyalarını, psixologiyasını dağıtmış, Azərbaycan hüdudlarını aşan milli varlıq, düşüncə ideyaları yaratmışdı. Bakı şəhəri milli inkişafdan doğan proseslərin nəticəsi olaraq Azərbaycanın elmi-mədəni, mənəvi və iqtisadi mərkəzinə çevrilmişdi. Azərbaycan xalqı yeni - elmi, mədəni, mənəvi, sosial-iqtisadi, siyasi bir həyat yaşamaqda idi. Xalqda elmi şüur kütləviləşmiş, yaradıcı qüvvəyə çevrilmişdi. Böyük mütəfəkkir M.F.Axundov Azərbaycan xalqının bu yeni - sosial-iqtisadi, mədəni-mənəvi təşəkkülünü "millət" kimi dəyərləndirdi. "Kəşkül" qəzeti isə bu təşəkküldən "türk milləti" deyərək bəhs edirdi [287, 81]. Yarım əsrdən artıq Rus imperiyası və bu ideyanı dəstəkləyən avropalılar Azərbaycan türklərini tatar adlandırsalar da, onlara bu adı qəbul etdirə bilməmişdilər, onlar özlərini türk adlandırmaqda davam edirdilər. Bir çox rus müəllifləri də onları türk adlandırırdılar. Mütərəqqi rus ziyalıları biososial gen qanunlarını nəzərə alaraq, onlara yanlış münasibətdə olmamaq üçün Azərbaycan türklərini öz adları ilə türk adlandırmağı Rus imperiyası qarşısında xüsusi məsələ olaraq qaldırırdılar. V.L.Veliçko yazırdı: "Azərbaycanlıları tatar adlandırırlar, lakin bu qəti düz deyil... Əsas mənşələrinə görə azərbaycanlılar türklərdir... Peterburqun kosmopolitizm hopmuş saraylarında tayfa mənşəyi haqqında heç kimin məsələ qaldırmaması tələb olunur. Lakin Qafqazda və ümumiyyətlə bütün ölkələrdə insanların fəaliyyətini nəinki bu gün, həm də keçmiş idarə edir, insanlarda əcdadlarının qanı danışır... Azərbaycanlıların qanı şəksiz nəcibdir, onlar anadangəlmə rəhmdil, mərd, alicənabdırlar, əqli və əxlaqi inkişafa qabildirlər" [269, 154].





Kapitalist istehsal üsulunun yaratdığı yeni təsərrüfat ukladları, sosial təbəqələr, yeni idarəçilik üsulları ilə bərabər hərbi feodal imperializmi, Avropanın jandarmı, Asiyanın cəlladı Rusiyada yeni ideyalar da doğururdu. Onun birinci doğurduğu ideologiya hakim Slavyanofil millətçiliyi oldu və Şərqi Avropa və Asiya qitəsində türk və müsəlmanlara qarşı yönəldi. Odur ki, imperiya Rusiya və digər xristian əyalətlərində keçirdiyi torpaq, məhkəmə və şəhər idarəçiliyi və s. islahatları müsəlman əyalətlərində müxtəlif üsullarla ləngıdərək həyata keçirmirdi. Keçirdıyi islahat isə yarımçıq, natamam olduğundan heç bir fayda vermirdi. Müsəlman əhaliyə xristianlarla bərabər hüquqlar vermir, seçkilərdə müsəlmanlara böyük səs senzi qoyurdu. Bütün bunlar Qafqaz, Azərbaycan müsəlmanlarının heysiyyatına toxunurdu. Lakin Rus imperiyasından əlavə Qafqaz xalqlarına qarşı yönəlmiş beynəlxalq imperializmin aləti ermənilər də var idi. Artıq XIX əsrin üçüncü rübündə Qafqazın iqtisadi, inzibati, siyasi idarəçiliyini ələ keçirən ermənilər nəinki türk və müsəlmanları, xristian gürcüləri də Qafqazın xəritəsindən silməyə hazırlaşırdılar [234; 269; 236, 52-72; 289].

387-ci ildə erməni dövlətçiliyi süquta uğrayandan erməni kilsəsi milli mərkəz və milli idarəçilik funksiyasını da icra etdi. Odur ki, erməni kilsəsi zəminində erməniləri daimi çevik hərəkətə gətirə bilən ideoloji-siyasi təsir gücünə malik xalq idarəçiliyi aparatı möv-

cud idi. Kəşfiyyat xidməti ilə beynəlxalq imperializmin Şərq siyasətinin açarı ermənilər Fransa, İngiltərə, Rusiya və digər xristian kapitalist dövlətlərin himayəsini qazanaraq, Qafqazı türk və müsəlmanlardan təmizləyərək burada "Böyük Ermənistan" ideyasını reallaşdırmaq üçün praktiki addımlar atmağa başladılar. Erməniləri bu məqsəd ətrafında birləşdirmək üçün 1887-ci ildə "Qıncak" (zəng), 1890-cı ildə "Daşnaksütyun" partiyalarını yaratdılar. Bu partiyaların, xüsusilə "Daşnaksütyun"un silahlı orqanı yaradıldı. Təşkilatın silahlı hissələri terror vasitəsilə türk və müsəlman əhalini, onun liderlərini məhv etməli, xalqı qorxu və vahimədə saxlamaqla Qafqazı türk və müsəlmanlardan təmizləyərək burada "Böyük Ermənistan" yaratmalı idi. Erməniləri bu məqsəd ətrafında birləşdirmək üçün onların yayılmış olduğu ölkələrdə onlarla mətbuat orqanları, qəzetləri nəşr olunurdu. Bundan əlavə, ermənilər yayıldıqları ölkələrin mətbuat orqanlarından da öz məqsədləri üçün sərbəst istifadə edə bilirdilər. Ermənilər yayıldıqları ölkələrin mətbuat orqanlarında yetərincə təmsil olunurdular.

Azərbaycan xalqı vətənini və istiqlalını müdafiə etməli olduğu rus və ermənilərdən fərqli etnik durumda və siyasi təşkilatlanma psixologiyasına və imkanına malik idi. Millət kimi təşəkkülünün ilkin mərhələsində idi. Kütləvi elmi şüura yiyələnmək zərurəti, elmi siyasi şüurun kütləviləşdirilməsinin vasitəsi mətbuatın ana dilində yaradılması zərurəti yenicə dərk olunmuşdu. İmperiya bunun da yaradılmasına müxtəlif bəhanələrlə imkan vermirdi. Qəzetləri tez-tez bağlayırdı. Lakin Azərbaycan xalqının tarixən yaranıb formalaşmış mənəvi sistemi - inam və etiqadları, adət-ənənəsi, əxlaqi dəyərləri bundan doğan "azad yaşamağı üstün tutmaq" ruhu [264, 55] onun vahid sosial-mənəvi orqanizm olaraq iradə göstərməsinə imkan verir, rus-erməni işğalına qarşı özünü bir millət olaraq qoya bilirdi. Ən başlıca müsbət keyfiyyəti özünü dəyərləndirmək, özünə tənqidi yanaşmaqla, özünü mənfi vərdişlərdən azad etmək idi. Tək-tək fərdlərin iradəsizliyi, aldanışı istisna olmaqla millət öz nümayəndələrinin düşmənə satılmasına qəti imkan verilmirdi. Beləlıəri dərhal məhv





edilirdi [274, 247-248; 287, 82, 97] ki, milli əxlaq, həyat tərzi pozulmaqla milli dəyərlərin parçalanıb süqut etməsinə, yadelli-düşmən hakimiyyəti ilə barışılmasına yol verilməsin. Bütün yeniləşmə məhz milli əxlaq zəminində qəbul edilirdi.

Azərbaycan ziyalılarını bəşəriyyətin ən böyük yaradıcı dini, Azərbaycan və islam dünyası xalqlarının ideoloji birliyinin əsası olan İslam dininin elmi cövhərindən istifadə edə bilmədiklərindən, din idarələrin onu xurafata, mifə çevirmələri ciddi narahat edirdi. XIX əsrin 40-cı illərindən Qacarlar monarxiyası ərazisindən başlayıb bütün Qafqazı əhatə edən Babilər hərəkatı İslam din idarələrinin, xadimlərinin "Qurani-Kərim"in elmi təməlindən uzaqlaşıb, təriqətləşməsinin, xüsusilə fars şiə təriqətçiliyinin İslam dininə süni əlavələrinin yaratdığı dini-ideoloji böhran idi. "Qurani-Kərim" təməlində İslam dinini canlandırmaqla bu böhranı məhz Ş.C.Əfqani aradan qaldırdı. Bu işdə M.F.Axundovun da yetərincə xidməti oldu. Bir sosial təbəqə olaraq Azərbaycan ziyalısı və burjuaziyası millətin qarşısında duran problemləri həll etməklə, milli orqanizm kimi milləti yaşadacaq, inkişaf etdirəcək funksiyasını nəinki layiqincə yerinə yetirirdi, imkanından qat-qat artıq işlər görürdü. Rus imperiyasına qarşı dağlarda silahlı döyüşə girən Azərbaycan cəngavərləri ilə Azərbaycan ziyalısı və burjuaziyasının fədakarlığı eyniyyət təşkil edirdi. Azərbaycan xalqı vahid sosial-mənəvi orqanizm, toplum olaraq Rus imperiyasına, onun əlaltısı ermənilərə qarşı fasiləsiz olaraq mübarizəni davam etdirirdi. Rus məktəblərində təhsilin Azərbaycan xalqının tələbatını ödəmədiyini (belə ki, 1890-cı ildə Azərbaycanda 12 gimnaziya və realnı məktəbin 5700 tələbəsindən 91 nəfəri türk idi) [287, 53] nəzərə alan Azərbaycan burjuaziyasının iqtisadi himayəsilə ziyalılar milli məktəblər yaratmaqda fədakarlıq göstərirdi. Azərbaycanın mədəni-siyasi mərkəzi Bakıda və qəzalarda Azərbaycan türkcəsində dünyəvi elmləri tədris edən məktəblər təşkil olundu. Şamaxıda S.Ə.Şirvaninin, Şuşada M.M.Nəvvabın, Naxçıvanda M.T.Sidqinin açdığı məktəblər tezliklə şöhrət qazandı, İrəvan, Gəncə, Quba şəhərlərində və digər böyük yaşayış məntəqələrində milli

məktəblər açıldı. 1888-ci ildən H.Z.Tağıyevin himayəçiliyi ilə Bakıda açılan orta-texniki məktəb (1894), Mərdəkanda bağçılıq məktəbi (1894), yaşlı müsəlmanların savad alması kursu (1898), kommersiya məktəbi (1900), qızlar məktəbi (1901), 1906-cı ildə təşkil etdiyi "Nəşri-maarif" cəmiyyəti bilavasitə xalqın elmi siyasi səviyyəsini yüksəldib, iqtisadiyyatda, siyasətdə mövqe qazanmaqla Rus imperiyasına, ermənilərə, Azərbaycana soxulmuş digər talançılara qarşı mübarizə aparmaq məqsədilə yaradılırdı. H.Z.Tağıyevin fəaliyyəti bununla məhdudlaşmırdı, Azərbaycanın hər hansı bir guşəsində, bütün islam dünyasında, müsəlmanların dünyanın hər hansı bir guşəsində açdığı məktəb və maarifçilik işi onun tərəfindən maliyyə dəstəyi və digər yardımlarla himayə olunurdu.

H.B.Zərdabi, N.B.Vəzirov, S.M.Qənizadə, M.T.Sidqi, R.Əfəndiyev, H.Mahmudbəyov maarif fədailəri idi. Azərbaycan ziyalıları və burjuaziyasının səyi ilə qısa müddətdə maarifçilik sahəsində atılan addımlar öz bəhrəsini verdi; milli orqanizmdə müəllimlər milli sosial təbəqə, qüvvə kimi yarandılar, formalaşdılar. 1906-cı ildə H.B.Zərdabinin rəhbərliyi ilə milli pedaqoji işi vahid məcrada sistemləşdirmək və canlandırmaq üçün Bakıda Azərbaycan müəllimlərinin ilk qurultayı keçirildi. Pedaqoji fəaliyyəti Şimali və Cənubi Azərbaycanı əhatə edən M.H.Rüşdünün yaratdığı məktəb tezliklə "Mədrəseyi-Rüşdiyyə" adı ilə tanındı və Cənubi Azərbaycanda milli təhsilin əsaslarını yaratdı. Qacarlar monarxiyasında Azərbaycan türklərinin farsca təhsil alması ənənəsini qırdı. Doğma türkcədə "Ana dili", "Vətən dili" adlı dərsliklər yaratdı. Qacarlar monarxiyasının, nadan "din xadimlərinin" təqiblərinə baxmayaraq, M.H.Rüşdinin tələbələri onun pedaqoji üslub və tədris proqramları əsasında məktəblər yaratdılar. Az müddətdə M.H.Rüşdü "Azərbaycan maarifinin atası" adını qazandı [274, 163-164; 278, 221-225; 287, 52-54; 291; 292]. Xalqın elmi, siyasi, mədəni səviyyəsini yüksəltmək məqsədilə kitabxana və qiraətxanalarda yaradılırdı. M.F.Axundovun dram əsərləri vasitəsilə maarifçilik işini Ə.B.Haqverdiyev və N.B.Vəzirov davam etdirirdi. Milli-siyasi şüuru yüksəltməklə xalqı





müstəmləkəçiliyə qarşı səfərbər etmənin bütün vasitələrindən istifadə edilirdi. Milli mətbuatın inkişaf etdirilməsi başlıca məsələ olaraq diqqət mərkəzində saxlanılırdı. Milli burjuaziyanın himayəsində bu iş ardıcıl olaraq gücləndirilirdi.

Rus imperiyasının siyasi, inzibati-idarəçilik, tədris, mətbuat vasitəsi ilə xalqı xristianlaşdırmaq, onun adət-ənənəsini pozmaq, milli liderlərini məhv etmək kimi tədbirləri Azərbaycan xalqının sosial-mənəvi birliyini, milli sistemini poza bilmirdi. O, vahid milli orqanizm kimi varlığını davam etdirir, imperiyaya müqavimət göstərirdi. Azərbaycan ziyalısı Azərbaycan türklərini dünya xalqları sisteminin bir hissəsi hesab edir, bu sistemdə rəqabətə davam gətirmək üçün onun strateji ideologiyasını yaratmağa çalışırdı. Şərq xalqlarının "mədəniyyət və demokratiya" donu geymiş Avropa imperializminin "yem bazasına" çevrilməsinin səbəbini müəyyən etmək və onu aradan qaldırmaq yollarını arayırdı. Artıq bu zaman Şərq xalqlarının milli-azadlıq hərəkatının lideri kimi nüfuz qazanan, Avropa imperatorlarının, Şərq diktatorlarının və üləmalarının qorxduğu Ş.C.Əfqani birmənalı göstərdi ki, Şərq xalqlarını Avropanın yem bazasına çevirən səbəb onun elmisizliyidir. "Məsələyə diqqətlə yanaşdıqda, aydın olur ki, bu müsəlman aləminin tənəzzülü, pozğunluq əvvəlcə din başçılarında, üləmalarda əmələ gəlmiş, sonra ümmətə sirayət etmişdir [284, 21; 294, 186-200].

Ş.C.Əfqani göstərirdi ki, Şərqin müsəlman xalqları beynəlxalq imperializm üzərində qələbə çalaraq vətənlərini azad edib istiqlala nail olmaq üçün birinci növbədə dirçəlişə nail olmalıdır. Dirçəlişə nail olmağın yolunu isə aşağıdakı elmi-mədəni, mənəvi nailiyyətlərə nail olmaqda görürdü. O, yazırdı: "İnsanları bir-birinə bağlayan qüvvə iki vacib şeyi tələb edir: bunlar olmasa, birlik də ola bilməz. Bunlardan biri məhz həmin dil birliyidir. Buna milli vəhdət də deyirlər". Ş.C.Əfqani sözünə davam edərək yazır: "Buna görə də alimlər millətin mahiyyətini və ariflər onun məziyyətlərini o zaman yaxşı aşkar və zahir edərlər ki, təhsil, təlim, tədris, milli təbəqələrin fənlərdən və sənətlərdən istifadəsi o millətin öz dilində olsun. Onda

millət möhkəm, sabit və əbədi ömür sürə bilər, millətin əsas gözə görünən səadət və xoşbəxtliyi kimi əlamətləri isə onun bütün üzvlərinə nəsib olar... Əksinə, əgər elmlər və fənlər yad bir dildə tədris olunarsa, xalqın dili az bir zaman ərzində dəyişib başqası ilə əvəz olunar, cüzi bir təbəddülat nəticəsində məhv olub sıradan çıxar... Millətin öz dilində faydalı elmlər mövcud olmasa, o millət daim yaşaya bilməz" [294, 187-190].

Ş.C.Əfqani dini milli vəhdətin ikinci mühüm vasitəsi hesab edərək yazırdı ki, din hansı adı daşıyırsa-daşısın, hamısı bir-birinə bənzəyir, "insana inam və inanc təlqin edir", "elmə və mədəniyyətə ən yaxın və ən doğma din İslam dinidir, elm və maarifin inkişafı ilə islam qanunları arasında heç bir ziddiyyət yoxdur" [294, 187; 295, 200; 298, 214]. Ş.C.Əfqani yazır ki, din birliyi islam ölkələrində güclüdür. Bunu Avropa xaçpərəstləri də hiss edir və görürlər. Onlar Şərqi öz nüfuz dairəsində saxlamaq üçün birinci zərbəni islamın bu nöqtəsinə yönəldirlər. Ş. C. Əfqani yazır ki, "Qərb dünyası azadlıq maskası taxaraq müsəlman Şərqindəki təəssübü pisləyir", ona görə ki, "Avropalılar müsəlmanların dini etiqadlarını onların arasında ən möhkəm peyvənd kimi tanıyırlar, ona görə də dini təəssübə qarşı müxtəlif ad altında bu peyvəndi və bağı süstləşdirməyə çalışırlar. Halbuki avropalılar özləri hər bir dəstə və məzhəbdən daha çox dini təəssübə mübtəla olublar" [284, 51]. O, sözünə davam edərək yazırdı ki, "İslam elmi dindir, cihad və mübarizə dinidir, yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək dinidir, izzət dini və zilləti qəbul etməmək dinidir, məsuliyyət dinidir" [284, 52].

Ş.C.Əfqaninin həmsöhbətlərindən biri yazır ki, bir gün seyid Cəmaləddin həzrətlərindən soruşdum: "Müsəlmanları bu günkü zəbunluqlarından, fikirsizliklərindən qurtarmaq üçün çarə varmı, varsa nədir?"

Cavab verdi ki, "Bu afaqa bir çarə dəxi var, bu da dini hərəkatdan ibarətdir. Təkcə müsəlmanlar deyil, avropalıların da bu qədər tərəqqi edib irəli getmələrinə səbəb dini hərəkat oldu. Hərgah dini hərəkatdan avropalılar kənar olsa idilər, həmişəki hallarında, bəlkə





ondan da betər hallarda qalardılar. Bugünkü müsəlmanları qəflətdən, gücsüz və qeyrətsizlikdən xilas etməyə ancaq dini hərəkatın gücü çata bilər". Ş.C.Əfqani deyirdi ki, "Dini hərəkatdan sonra heç şübhə yoxdur ki, müsəlmanlar özlərinin ictimai və iqtisadi, elmi və ədəbi hallarını özləri islah edəcəklər, çünki bu sonuncular əvvəlkilərinə malikdir" [284, 90].

Ş.C.Əfqani yazırdı ki, "İrandakı indiki cəhalətin islam qanunlarına qətiyyən dəxli yoxdur. Bunlar nadan və cahil təfsirçilərin islama etdikləri əlavələrin nəticəsidir. Tarixi təkamül və inkişaf onların bu səhvlərini üzə çıxarıb islah edəcəkdir" [284, 14].

Ş.C.Əfqani yazırdı ki, milli varlığın qorunması, inkişafı üçün hər bir millətin içində ana dilində vəhdət yaradan inkişaf yollarını axtarıb tapan təbəqələr olmalıdır: "Faydalı elmləri yayan ziyalılar, cəmiyyət üçün xeyirli fənləri təsis edən yaradıcı fazil və alimlər, insan hüququnu mühafizə edən siyasi xadimlər, fəzilətin və ədalətin keşikçiləri olan qanunşünaslar, xalqın əxlaqını saflaşdırmağa çalışan nəsihətçilər, lətif və şairanə kəlamlarla yatmış insanları oyadan və xalqın xarakterini qüvvətləndirən ədiblər və şairlər, öz sənətlərini elmi əsaslar üzərində inkişaf etdirən sənayeçilər, torpağını əkinçilik fənni əsasında əkib-becərən əkinçilər, iqtisadiyyat qanunları əsasında millətin ticarət yollarını arayıb tapan tacirlər". Böyük mütəfəkkir sözünə davam edərək yazır: "Əgər bu təbəqələr hər hansı bir millətdə mövcud olmasa, əlbəttə, o millətin fərdləri arasında məişət və həyati əhəmiyyətli əlaqələr get-gedə qırılar və millət məhv olar. Nəticədə o millətin üzvləri digər millətlə birləşər və yeni libasda həyat səhnəsinə qədəm qoyar. Bu təbəqələrin formalaşması və yaşaması o zaman müvəffəqiyyətli olur ki, o millətin dili sənət və peşə sahiblərinə lazım olan bütün gərəkli terminlərə və kəlmələrə malik olsun" [294, 188].

Ş.C.Əfqani milli vəhdətin mövcudluğu şəraitində elmi milli inkişafın başlıca vasitəsi hesab edərək yazır: "Dünya elm üzərində bərqərar olur, elmi bəşəriyyətin əlindən alsan daha dünyada insan qalmaz. Elm bir nəfərin gücünü on nəfərə, yüz nəfərə, min və on

min nəfərə bərabər edir... İndi isə bütün dünyanı öz təsiri altında saxlayan Avropanı, Əfqanıstanı tutan ingilisi, Tunisi işğal edən Fransanı götürün. Bunlar nə ingilisin hünəridir, nə də fransızların, bunlar yalnız onların elminin gücünədir. Gerilik və nadanlıq isə hər yerdə başını zəlillik torpağına qoymaqdan başqa bir çarə tapmamışdır" [295, 196-197]. Ş.C.Əfqani yazır: "Qəribə burasıdır ki, bizim alimlər elmi iki yerə bölürlər. Müsəlman elmləri və Avropa elmləri. Buna görə də onlar camaatı xeyirli elmlərin mənimsənilməsindən çəkindirirlər. Onlar başa düşmürlər ki, şərafətli elm heç bir millətin malı deyil, kim ona yiyələnsə, onundur, elmin yiyəsi alimdir, ölçüsü də onun elmliyindən asılıdır. Hər bir millət elmi ilə məşhurlaşır. İnsanları elmi ilə qiymətləndirmək, elmi ilə tanıtmaq lazımdır, elmi insanlarla yox. Təəccüblü burasıdır ki, müsəlmanlar Aristoteli o dərəcədə rəğbətlə oxuyurlar ki, elə bil o, müsəlmandır. Amma Qalileyi, Nyutonu, Kepleri kafir hesab edirlər... Haqqı, həqiqəti sübut edən elmi bizim alimlər qadağan edirlər, elə bilirlər ki, bununla islamı qoruyub saxlayırlar. Belə adamlar əslində islamın düşmənləridir" [295, 199-200]. O, elmin milli inkişafın başlıca vasitəsi olmasının sübutu üçün tarixə müraciətlə yazır ki, "Yüz illər boyunca mədəniyyət yoluna atılmış yunanlar və romalılar elmin və fəlsəfənin geniş sahəsində inamlı addımlarla irəliləmişlər. Bununla bərabər, bir zaman gəldi ki, onlarda elmi araşdırmalar tərk edildi və elmi incələmələr kəsildi. Elm sahəsində yaratdıqları abidələr yıxıldı və ən dəyərli kitablar unuduldu.

Mənşələri etibarı ilə cahil və vəhşi olan ərəblər mədəni millətlər tərəfindən tərk edilən elmləri ələ aldılar və sönmüş olan elm ocaqlarını yenidən canlandırdılar, inkişaf etdirdilər və ona heç bir zaman olmayan parlaqlıq bəxş etdilər...

Üstəlik fransızlar, almanlar və ingilislər mərkəzi Bağdad olan ərəblər kimi Roma və Bizansdan çox da uzaqda deyildilər. Onlar üçün bu böyük şəhərdə yaranmış olan elmi xəzinələrdən faydalanmaq daha asan idi. Ərəb mədəniyyəti Piriney təpələrinə və Qərbə öz parlaq işıqlarını və zəkalarını saçan günə qədər Avropa millətləri





(yəni fransızlar, almanlar və ingilislər ("çevrənin notu") mədəniyyət sahəsində heç bir fəaliyyət göstərməmişdilər.

Avropalılar Aristoteli ərəb paltarında çox yaxşı qarşılamışdılar. Halbuki, onlar yunanlarla qonşu olduqları zaman heç Aristotel yadlarına da düşmürdü. Ərəblərin mədəni yüksəkliyinə və fəlsəfəyə bağlı olduqlarına bu bariz dəlil deyildimi? Bu aydın bir məsələdir ki, ərəb krallığının Şərqdə və Qərbdə süqutundan sonra elmin böyük qaynaqları halına gələn İraq və Əndəlüs kimi məmləkətlər təkrar keçmiş cəhalətə düşüb dini təəssüb və fanatizmin halına gəldilər" [298, 211-212]. Ş.C.Əfqani düzgün müəyyən etmişdi ki, hər bir elmin öz sahəsi var, lakin onların heç biri ayrılıqda yaşaya və fayda verə bilməz, heç tərəqqi də edə bilməz. "Deməli, elə bir elm gərəkdir ki, bütün elmlərin ümumi ruhu kimi olsun və onların hər birini qoruyub saxlasın, onların hər birinin tərəqqi və inkişafına zəmin yaratsın. Bu, fəlsəfə elmidir" [295, 197]. Ş.C.Əfqani yazır ki, "Bir millətdə fəlsəfə yoxdursa, əgər o millətin hamısı alim olsa da, o millətdə elmlər intişar tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımi nəticə çıxarmaqda çətinlik çəkər". O, sözünə belə davam edir: "Deyə bilərəm ki, fəlsəfi ruha malik olan bir millətdə ayrı-ayrı elmlər olmasa da, şübhəsiz, həmin fəlsəfi ruh milləti başqa elmlərə yiyələnməyə vadar edəcək. İslamın ilk dövrlərində müsəlmanlar heç bir elmə malik deyildilər. Ancaq islam dəyanəti ucundan onlarda əmələ gələn fəlsəfi ruh vasitəsi ilə dünya və insan haqqında mübahisələrə başladılar. Elə həmin fəlsəfi ruh da Mənsur Dəvanəqi zamanında ayrı-ayrı elmləri suryani, fars və yunan dillərindən ərəbcəyə çevirməyə və az bir müddət ərzində onları öyrənməyə səbəb oldu. İnsanda insanlığı oyadan, insan şərəfini bəyan edən, insana doğru yolu göstərən də fəlsəfədir. Mənən tənəzzülə uğrayan millətin, hər bir şeydən əvvəl, fəlsəfi ruhu zərər çəkir, bundan sonra ayrı-ayrı elmləri və ədəb-ərkan qaydaları tamam yox olub aradan gedir" [295, 197-198].

Ş.C.Əfqani etnosun birliyini yaradan dil, din, mənəvi, maddi, sosial-iqtisadi münasibətləri, son nəticədə "fəlsəfi ruhu" doğuran əlaqə

və münasibətləri "həyat ruhu" adlandıraraq yazır: "Nə qədər ki, həyat ruhu öz qüvvə və qüdrətini saxlayır, onda bir-birindən fərqli və təzadlı üzvlərin qarşılıqlı rabitəsi pozulmur, əksinə daha da artır, onların fəaliyyətinin vahid yaşama meyli də çoxalır. Hətta qeyri-həyati xarici üzvlər də həyat ruhunun cazibəsi sayəsində daxili üzvlərə birləşərək onların iş və vəzifələrini icra etməyə şərik olur və kömək edir. Həyat ruhu söndükdə və ya zavala uğradıqda həmin müxtəlif ünsürlərin birliyi də yavaş-yavaş pozulur", "millətin fərdləri arasında məişət və həyati əhəmiyyətli əlaqələr get-gedə qırılır və millət məhv olur" [294, 186-188].

Ş. C. Əfqani Avropa imperializminin əsarətində olan müsəlman Şərqinin istiqlalının çatacağına inanaraq yazırdı: "Bütün yenilən millətlər mənəvi muxtariyyətlərini təkrar qazanacaqlar və zəfəri paylaşacaqlar. Bu əsasları qoyan və inkişaf etdirən qüvvət həmin zəfərin bir parçasını qanuni bir şəkildə istəməyəcəkdir? Beləcə İtaliya Fransaya qarşı Mazarin və Bonapartın özlərinə aid olmadığını söyləyəcəkdir. Almaniya və ya İngiltərə növbə ilə Fransaya gəlib kürsüləri dolduraraq elmin şöhrətini yüksəldən elm adamları istəyəcəkdilər. Digər tərəfdən fransızlar Nantes fərmanından sonra bütün Avropaya hicrət etmiş məşhur ailələrin nəvələrinin əldə etdikləri zəfəri özlərinə mal etmək istəyəcəklər. Əgər bütün avropalılar eyni nəslə mənsubdurlarsa, onda Sami olan harzanlılar və suriyalılar da böyük ərəb ailəsinə mənsub olduqlarını haqlı olaraq iddia edə bilərlər" [298, 214].

Mövzumuzla bağlı yaradıcılığından gətirdiyimiz iqtibaslardan aydın olur ki, Ş.C.Əfqani etnosun yaranış və inkişaf qanunlarını mükəmməl bilmiş, müsəlman xalqlarını isə ruhuna qədər təsəvvür etmişdir. Elə bu səbəbdən də Şərq xalqlarının inkişaf və istiqlal mübarizəsinin ideya və ideologiyasının, strategiyasının ümumi prinsiplərini yaratmışdır. İstiqlal mübarizəsi aparan Şərq xalqlarının və onların liderlərinin qarşısında Ş.C.Əfqani irsindən zamana və məkana uyğun yaradıcılıqla bəhrələnmək məsələsi dayanırdı. Ş.C.Əfqani Azərbaycan türkü olsa da, o, bəşəri mütəfəkkir idi. "Əfqanıstanda





dövrü mətbuatın, Misirdə satirik mətbuatın banisi, İranda milli-azadlıq hərəkatının ideya rəhbəri, zülmün və istibdadın, Şərqi soyub-talayan Avropa müstəmləkəçiliyinin düşməni idi. Fikirlərini həyata keçirmək üçün dünyanı gəzib dolaşmışdı. Bir çox dillərə də bələd idi. Onun İstanbul Universitetinin tələbələri qarşısında Anadolu türkcəsində, Bakıda Azərbaycan türkcəsində, Peterburqda rusca, Parisdə fransızca danışdığı məlumdur" [284, 4]. Ş.C.Əfqaninin Azərbaycan türk mühitindən çıxması, harada yaşamasından asılı olmayaraq, ətrafında daha çox Azərbaycan türklərinin olması, inqilabi yaradıcılığının fasiləsiz olaraq Azərbaycan inqilabçıları tərəfindən buranın şəraitinə uyğun inkişaf etdirilməsi, ideyasının qələbəsini ilk dəfə burada tapması Azərbaycan mühitinin müsəlman dünyasının ən qabaqcıl mühiti olmasını deməyə əsas verir.

Ş.C.Əfqani ilə bir dövrdə yaşayan əksər Azərbaycan ziyalılarının, xüsusilə inqilabçı demokratların onunla yaxın əlaqəsi məlumdur. O, "Ziyayi-Qafqaziyə" qəzeti ilə əməkdaşlıq etmişdir. Ondan sonra yetişən türk milli ideoloqlarından Əhməd Ağaoğlu onunla bilavasitə təmasda olmuş və özünü Ş.C.Əfqaninin tələbəsi hesab etmişdir.

Az vaxtda Ş.C.Əfqaninin ideyaları Azərbaycan və bütünlüklə Şərqin müsəlman xalqlarının milli inkişaf və milli-azadlıq hərəkatının sistemli ideologiyasına çevrildi. Panislamizm ideologiyasının elə birinci qayəsi islamı sağlamlaşdırmaq idi. Ə.Ağaoğlu yazır ki, müsəlman aləminin bu xəstə vəziyyəti hamını düşündürür və hərə özünə görə bir çıxış yolu tapmağa çalışırdı. "Bax belə, öldürücü zərbədən özünü itirmiş müsəlmanlar bədbəxtliyin haradan gəldiyini öyrənmək və xəstə cəsədi necə sağaltmaq haqqında baş sındırırdılar". Bu düşüncələr üç cərəyan doğurdu: "Onlardan birincisi mütərəqqi, yaxud yeni müsəlmanlar, ikincisi mürtəce, yaxud köhnə müsəlmanlar və nəhayət, bu iki cərəyanın arasında orta xətt götürən panislamistlərdir" [284, 22]. Ə.Ağaoğlunun fikrincə ittihadi-islam Quranın təbiətindən doğsa da, o, siyasi bir cərəyan kimi ancaq "Seyid Cəmaləddin Əfqanının zühuru ilə dünya üzü gördü, çünki Cəmaləd-

din Allah kəlamlarına başqa yöndən yanaşır, dövrün tələblərindən və Quranın təbiətindən çıxış edərək ciddi islahatlar irəli sürür və ittıhadi-islama Şərq xalqlarının nıcatı kimi baxırdı" [284, 22]. O, sözünə davam edərək yazır ki, "Panislamizm daxili məzmununa görə əslində geriyə dönməkdir, amma köhnəlik girdabında qapanıb qalmaq deyildir. Bu geriyə dönüş daha inamla, daha böyük qüvvətlə irəliyə atılmaq üçün vasitədir". O, fikrini bir qədər də geniş şərh edərək deyirdi: "Keçmişə qayıtmağı tələb edən panislamizm eyni zamanda müsəlmanlar arasında müasir həyatın köklü və birdəfəlik dəyişdirilməsini təkid edir. Bu, bir vaxtlar müsəlmanlara məxsus olan iqtisadi, siyasi və mədəni nailiyyətlərin qaytarılmasına təkid idi. Bir sözlə, Avropa düşüncə tərzi ilə yeni müsəlman meyli arasında panislamizm və avropalaşmaq anlayışı sinonim xarakteri kəsb etmişdir" [284, 23].

M.Ə.Rəsulzadə yazırdı: "Şərq mühitində yaranan millətçilik ideyası klerikal ideologiya ilə yoluxmaya bilməzdi. Odur ki, müsəlman aləmində panislamizm ideologiyasını yaradan ilkin millətçilik dini xarakterə malikdir. Buna görə də panislamizm bir vaxtlar bütün müsəlman türk xalqlarını cüzi istisna ilə ilhama gətirmişdir. Çünki bu xalq ictimai-siyasi hərəkatında İslam dini konsepsiyası uzun müddət həlledici rol oynamışdır. Tarixin müəyyən mərhələlərində bir çox dini ideoloqlar müsəlman aləmini tam tənəzzüldən qurtarmaq üçün bir tərəfdən dinin əsas ehkamlarına qayıtmaq, o biri tərəfdən də bütün müsəlmanları vahid siyasi cəbhədə birləşdirmək haqqında düşünürdülər.

İslam ideologiyasında bu dini-siyasi ikitirəlik sonralar panislamizmdə iki cərəyanın meydana çıxmasına səbəb oldu. Bunlardan ortadoks-mühafizəkar cərəyan xarici axına qarşı mübarizə aparsa da, bütün yeniliklərin əleyhinə idi və hər cür "avropaçılığa müharibə elan edirdi. İkinci cərəyan islahatçılar adlanırdı. Onlar da Avropa axınına qarşı idilər, amma bu sahədə siyasi cəhətdən mübarizə aparır, dövrün Avropa ilə bağlı problemlərini şəraitin tələbləri ilə barışdırmağa çalışırdılar" [284, 20]. Göründüyü kimi, panislamizm bütün





müsəlmanları islam bayrağı altına yığmaq deyil, əksinə İslam dinini islah etməklə milli şüurun inkişafına yol açmaq, dünyanın qabaqcıl yeniliklərini qəbul etmək və zərurət halında məzhəbdaşlarının istiqlal mübarizəsinə yardım etmək məqsədi güdürdü. Ş.C.Əfqani bütün müsəlman ölkələrini fırtınaya düşmüş gəmiyə bənzədirdi. Belə halda bu gəminin sərnişinləri nə etməlidir? Ya hamı birlikdə əl-ələ verib gəmini xilas etməli, ya da hər kəs öz başının hayına qalmalıdır. Onun fikrincə, hər bir həqiqi müsəlman islam gəmisinin xilasına çalışmalıdır [284, 31].

Ş.C.Əfqaninin Şərq xalqlarının istiqlal mübarizəsi strategiyasında milli şüurun oyanması "milli varlığın dərk edilməsi" zəruriliyi mühüm yer tutur [294, 191; 284, 28]. M.Ə.Rəsulzadənin təbirincə, Ş.C.Əfqanının bu müddəaları zəminində "türkçülük ideologiyası siyasi sistem kimi birinci plana çıxdı" [294, 28]. Bir sıra müəlliflər türkçülüyün meydana gəlməsində və bir ideya cərəyanına çevrilməsində Ə.Ağaoğlunun adını Ş.C.Əfqaninin adı ilə yanaşı qoyurlar [299, 5]. Türkçülük siyasi fikir cərəyanı heç də bütünlüklə Azərbaycan türklərinin milli şüurunun oyadılması, milli varlığının dərk etdirilməsi tələbatından yaradılmamışdı. Yuxarıda gördüyümüz kimi, Göytürk imperiyasının süqutundan sonra türk xalqlarından türk özünüadlandırması ilə yaşayan yeganə xalq Azərbaycan türkləri idi. Rus imperiyasının onu türk özünüadlandırmasından ayırmaq cəhdi, əksinə, milli şüurun inkişafına təkanverici təsir göstərdi. Bu dövrdə Osmanlı türkləri Balkanlardan Kiçik Asiyaya sıxışdırılmışdı. Osmanlılardan başqa bütün türk torpaqları və xalqları Rus imperiyasının əsarəti altında idi. Rus imperiyasının əsarəti altında olan 30 milyon müsəlmanın 29 milyonu türk idi [300, 90]. Osmanlı türkləri dövlət müstəqilliklərinə malik olsalar da, milli şüura malik olmayıb, milli varlıqlarını dərk etməmişdilər. Özlərini sadəcə olaraq osmanlı adlandırırdılar. Azərbaycanlıların türk özünüadlandırmasındakı milli mənşəyə işarətdən başqa türk xalqlarının heç birində tarix, milli varlıqların əks etdirən ideoloji anlam yox idi. Bu dövrdə Azərbaycan türklərinin bütünlüklə milli şüura malik olması fikrin-

dən uzağıq. Mənbə və tədqiqatlardan məlum olduğu kimi, Azərbaycan ziyalısı və yüksək sosial təbəqə həmişə türk milli şüuruna malik olmuşdur. Ancaq əhalinin aşağı təbəqəsinin savadsızlığı müsəlmanlıqla etnik özünüadlandırmadakı türk sözünün mahiyyətini, məna çalarını dəqiq fərqləndirə bilməmişlər. Lakin türk özünüadlandırması passiv də olsa, azərbaycanlılarda milli şüur doğurur, milli varlığın dərk edilməsini təlqin edirdi. Ş.C.Əfqanının milli oyanış sistemindəki türkçülük ideologiyası, sistemi bütün türk xalqlarının milli varlığını dərk etməsi, milli oyanış ideologiyası idi. Türkçülük ideologiyasının yaranması və yayılması tarixi göstərir ki, Osmanlı imperiyasında da türkçülük ideologiyasının baniləri Azərbaycan türkləri olmuşdur. Türk xalqları arasında Azərbaycan türklərinin türkçük ideologiyasının baniləri kimi yetişmələrinin səbəbi onların içərisindən çıxdıqları xalqın türk özünüadlandırmasıdır. Ş.C.Əfqanının türkçü davamçılarından Z.Gökalp türk xalqlarının istiqlal mübarizəsini "türkləşmək, islamlaşmaq, avropalaşmaq" kimi formulə etmişdir. Digər formulə "Türk qanlı, islam imanlı, firəng qiyafəli" kimi təsbit olunmuşdur. Hər iki formulə Ə. Hüseynzadə tərəfindən tənqid olunaraq deyilir: "Avropalaşın, firəngləşin deyirsiniz?!

Lakin, ey qare, müraciətdən müraciətə fərq vardır. Biz avropalıların ədəbiyyatına, sənayelərinə, ülum və maariflərinə, kəşfiyyat və ixtiralarına müraciət etmək istəyiriz ki, islam ölkəsinə onların beyinləri, dimağları girsin. Biz istəmiriz ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın. Bu gün onların mədələrində həzm olunmamaq üçün bir çarə varsa, o da onların məhsulati dimağiyyətlərini alıb həzm etməkdən başqa bir şey deyildir" [284, 23]. Avropa mentalıtetini qəbul etmək kimi başa düşülən "avropalaşmaq" "firəngləşmək" onların "mədələrində həzm olunmaqdan başqa bir şey deyildir". Ş. C. Əfqanı islam dünyasının Avropadan onların maarifini, elmini, texnikasını, sənayesini mənimsəməyi tövsiyə edirdi. Bildirirdi ki, bir vaxtlar avropalılar elmləri Şərqdən əxz etmişlər, indi "biz Avropaya müraciət ediriksə, öz malımızı geri istəmiş oluruq". Burada pis heç nə yoxdur [284, 23].





Ş.C.Əfqani yaradıcılığını dərindən təhlil edən Ə.Hüseynzadə türk xalqlarının istiqlal mübarizəsinin ideologiyasını "türkləşmək, islamlaşmaq və müasirləşmək" formasında sistemləşdirir [300, 44]. Çox uğurlu yaradılmış bu ideoloji sistem Azərbaycan türklərini siyasi məqsədlərinə çatdırmaq üçün onun bütün inam və etiqadlarını, inanclarını, əxlaqi dəyərlərini, bütün mənəvi aləmini, ruhunu səfərbər etmək imkanına malik idi.

Rus imperiyasının bütün cəhdlərinə baxmayaraq Azərbaycan elitası onun xalqın mənəvi sistemini pozub məişətə xristianlıq, rus adət-ənənəsi, ünsürləri daxil etməsinə imkan vermirdi. Azərbaycan xalqının fitrətən elmə və idarəçiliyə qabilliyi kapitalist istehsal üsuluna keçid şəraitində yeni iqtisadi institutların yaradılmasında iştirak edərək cəmiyyətin idarə olunmasında təmsil olunan burjua sosial təbəqəsinin yaranmasına imkan verdi. Milli burjuaziya qısa vaxtda yaradılması bəlkə də dünyada heç bir xalqa nəsib olmamış elitanın yaranmasına yol açdı, onu təmin etdi. Yaranan bu elita təbəqəsi yaradıcılıq qabiliyyətinə malik millətin qarşısında duran problemləri dərk və həll etməyə qadir idi. Yaranan yeni ziyalı elitası dərin elmi axtarışlar nəticəsində milli ideologiyanı "türkləşmək, islamlaşmaq və müasirləşmək" kimi sistemləşdirdi. Bu ideologiya milli mənəviyyatın sağlamlığını qorumağı və təmin etməyi, xalqın kütləvi surətdə elmi-siyasi şüura yiyələndirməsi vəzifəsini qarşıya qoyurdu. Dövlət müstəqilliyinə malik olmaq bu işin nəticəsi kimi gözlənilirdi. Ana dilli məktəb və mətbuatın yaradılması bu məqsədə çatmağın başlıca vasitəsi hesab olunurdu.

Azərbaycan ziyalıları Peterburq Baş Mətbuat İdarəsinə türkcə qəzet açılmasına icazə istədilər. Baş idarənin cavabı belə idi: "Qəzet xalqın nəyinə lazımdır? Ziyalı tatarlar qoy rus dilində oxusunlar, sadə tatarlar isə gedib qoyunlarını otarsınlar" [284, 98; 299, 11]. Rus imperiyasının bu yanaşmasına cavab olaraq "millət atası", "müsəlman dünyasının qürur günəşi", "müsəlmanların qeyri-rəsmi hökmdarı" kimi tanınan H.Z.Tağıyev "Kaspi" qəzetini mətbəəsi ilə birlikdə satın alıb Azərbaycan ziyalılarının sərəncamına verdi. Əyalətə

sürgün olunmuş H.B.Zərdabını oradan, Əhməd bəy Ağaoğlunu Tiflisdən, Əli bəy Hüseynzadəni Türkiyədən, Əlimərdan bəy Topçubaşovu Rusiyadan, Haşım bəy Vəzirovu Şuşadan Bakıya dəvət edib, onları bu qəzet ətrafında birləşdirdi.

Azərbaycan xalqının "hər iki hissəsinin əhalisinin tarixi, dil və mənəvi birliyini dövlət sərhədləri poza bilməmişdi". Şimali Azərbaycanın mədəni həyatında baş verən yeniliklər bu və ya digər dərəcədə Cənubi Azərbaycanda öz inikasını tapırdı [278, 210]. Cənubi Azərbaycan türkləri Şimali Azərbaycanın bütün sənaye mərkəzlərində təmsil olunurdular. Hər il Cənubi Azərbaycandan Şimali Azərbaycana yüz mindən çox işçi, xüsusilə fəhlə gəlirdi. Şimali Azərbaycanın fəhlə sosial təbəqəsində onların xüsusi çəkisi vardı. 1899-cu ildə Cənubi Azərbaycandan Bakı quberniyasına gələnlərin sayı təxminən 76 min nəfər idi. Dünya müharibəsi ərəfəsində onların sayı 150 min nəfərə çatmışdı. Bu artım Yelızavetpol (Gəncə) quberniyasında da özünü göstərmişdi. 1895-ci ildə Cənubi Azərbaycandan buraya gələnlərin sayı 42200 nəfər olmuşdusa, 1913-cü ildə 100 mini ötmüşdü. Onların əksəriyyəti burada ailə qurur, vahid Azərbaycan miqyasında etnomədəni, mənəvi, iqtisadi-sosial əlaqələri canlandırır və inkişaf etdirirdilər [287, 71-73; 301, 211-213]. Azərbaycanda etnomədəni proseslərə müsbət təsir göstərən etnik elementlərdən biri tatar və osmanlı türk fəhlələri idi [301, 211]. Kapitalizmin inkişafı prosesində əhalinin mütəhərrikliyi bütün Azərbaycanı əhatə edirdi. Kənd rayonlarında və kənd təsərrüfatında kapitalist istehsal üsulunun sürətli inkişafı bu mütəhərriklıyi daha da canlandırırdı [301, 213]. Beləliklə, kapitalist istehsalı sürətlə Azərbaycanın sosial-iqtisadi, mədəni-mənəvi əlaqələrini canlandırmaqla əyalət qapalılığını aradan qaldırır, onu vahid etnomədəni-mənəvi dəyərlər sisteminə yiyələndirməklə vahid milli orqanizmə çevirirdi. Kapitalist istehsal üsulunun yaratdığı iqtisadi sosial, mədəni-mənəvi mühit Azərbaycanın etnoqrafik qrupları ilə etnik qruplarını vahid milli orqanizmə çevrilməsi ilə nəticələndi. Azərbaycanın İran və Qafqaz mənşəli etnik qrupları etnik şüurlarını yaşatmaqla bərabər





türk etnonimində daşıyıcılarına çevrildilər. Qafqazın Qafqaz və iran mənşəli müsəlman etnik qruplarının mədəniyyətlərindəki türklük bilavasitə Azərbaycan türklərindən gəlsə də, rusların Qafqazı işğala başladığı dövrdən Osmanlı türklərinin müsəlman təəssübkeşliyi, Qafqaz müsəlmanlarına yardımı türklüyə rəğbət doğuran səbəblərdəndir. Fikrimizcə, Azərbaycanda milli-siyasi şüurun inkişafında, Azərbaycan türkləri ilə müsəlman etnik qrupların sürətli etnokonsolidasiyasında, vahid milli şüura yiyələnməsində Rus imperiyasının özünü açıq və kobud şəkildə türk və müsəlman düşməni kimi aparması da yetərincə rol oynadı. Tarixən Azərbaycanın şəhər məişətində xüsusi yeri olan İran etnik qrupları müstəmləkəçiliyə qarşı qoyulmuş "türkləşmək, islamlaşmaq və müasirləşmək" ideoloji sistemindəki türkləşmək ideologiyasını rəğbətlə qarşıladılar. İran mənşəli ziyalılar imperializmə qarşı yönəlmiş türkləşmək və pantürkizmi ideologiyasının yayılmasında fəal iştirak etdilər. Azərbaycanın bütün etnik qrupları türk etnonimi adı altında Rus imperiyasına qarşı vahid milli orqanizm kimi mübarizə apardı. Elmi tədqiqatlar sübut edir ki, zorakı "assimilyasiya obyektinə bir-birinin alternativi olan: ya həyatını, ya da vicdanını itirmək yolu qoyulur. Ölümdən xilas olmaq - qaliblər arasında ikinci növ adama çevrilmək naminə bütün qiymətli və əziz olanlardan imtina etməklə mümkün olur. Bundan qaliblər də az udur, ona görə ki, ikiüzlü və bir qayda olaraq, tam yararlı olmayan soydaş qazanır. Çünki məğlub edilmiş etnosun əhvali-ruhiyyəsini yox, davranışının yalnız zahiri təzahürlərini nəzarətdə saxlamaq mümkündür" [120, 84].

XIX-XX əsrin əvvəllərinə aid azərbaycanlılar haqqında - türk, tatar, müsəlman adı altında məlumat verən müəlliflər onu təşkil edən etnoqrafik və etnik qrupları yekdil milli xarakterə malik vahid etnos kimi təsvir etmişlər. Hər hansı etnik qrupu digərindən fərqləndirən xarakterik cəhətlərdən bəhs etməmişlər. Azərbaycanın etnik qruplarını fərqləndirən xüsusiyyətlər dağda yaşayan maldar türklə, əkinçi türkün psixoloji fərqi qədər idi. Odur ki, Azərbaycanın etnik qrupları ilə etnoqrafik qruplar arasında ciddi fərqləndirici xarakterik cəhət-

lər diqqəti cəlb etməmişdir. Bu, deməyə əsas verir ki, Azərbaycan türkünü təşkil edən etnik komponentlər assimiliyasiya prosesindən keçməmişdir. Azərbaycanda yaşayan türk, Qafqaz və İran mənşəli etnik qrupların hər biri öz etnik zəminində iqtisadi-sosial, mədəni-mənəvi, qarşılıqlı nikah əlaqələri, islam ideoloji birliyi şəraitində min illər boyu yanaşı yaşamışlar. Zaman-zaman bir-birini qarşılıqlı əxz etmiş, mənimsəmiş, vahid mədəniyyətə, inam və etiqada, xarakterə, ümumünsiyyət vasitəsi olan dilə, vahid özünüadlandırmaya yiyələnməklə millətə çevrilmişdir. Türk etnonimi bu toplumun ümumi özünüadlandırması, türk dili ümumi ünsiyyət vasitəsi idi [302, 10-16; 303, 24-67; 304, 11; 305, 12].

Göründüyü kimi, Azərbaycan türklərinin mənəvi bütövlüyü, öz qüvvəsinə inam, inadkarlıq, igidlik, silaha və silah gəzdirməyə sevgi, fəallıq, döyüşgənlik, sözübütövlük, vətənsevərlik, vətən və xalq işini şəxsi mənafedən üstün tutmaq, millətini və dinini başqa millət və dindən üstün tutmaq, üstünlüyü qorumaq cəhdi, elmə qabillik və elmə can atma, azadlıq ruhu və azad yaşamağı hər şeydən yüksək qiymətləndirmək, milli adət-ənənəyə sədaqət, onun pozulmasına qarşı barışmazlıq, milli ad və dil şərəfini qorumaq, ona qarşı hər hansı hörmətsizliyə dözümsüzlük, belə xətaları bağışlamamaq və s. milli mental xüsusiyyətlərə, sağlam mənəvi orqanizmə malik idi [224; 269; 302, 39; 307]. Bu mənəvi keyfiyyət Azərbaycan türklərinə Rus imperiyası ilə rəqabət şəraitində yüksək sosial-iqtisadi, mədəni-mənəvi, elmi-siyasi inkişafa nail olmağa imkan verdi. Qısa vaxtda Avropa elm və təhsilindən istifadə etməklə "savada görə onlar müxtəlif ərazilərdə ruslardan irəlidədirlər. Çünki əksəriyyəti oxumağı bacarır: onların çoxu türkcə "padşahlar dilində" təmiz yazırlar; öz dillərindən başqa dilləri də bilirdilər" [307, 12].

Azərbaycan türklərinin istiqlal uğrunda yekdil iradə nümayiş etdirdiyi, yenilikləri acgözlüklə mənimsədiyi bir dövrdə Rus imperiyası tənəzzül keçirirdi. Hakim millət olan ruslar elmi-texniki cəhətdən imperiyanın digər xalqlarından üstün olsalar da, əyalətlər, sosial təbəqələr arasında elmi-texniki, intellektual səviyyə çox fərqli





idi. Rusiyaya bitişik Avropada 200 ildən artıq müddət idi ki, istehsal üsulu, elm-texnika, hüquq qanunları inkişaf etdiyi halda, Rusiyada kapitalizmlə təhkimçi feodal qaydaları çulğaşıq yaşayırdı. Hələ də insanlar satılıb-alınır, zifaf gecəsi hüququ feodala və ya ərazisində yaşadığı güclü sahibkara məxsus idi. XX əsrin başlanğıcında Rusiya kəndli islahatını hələ də keçirib başa çatdıra bilməmişdi. Müstəmləkə ucqarlarda islahatı qəsdən ləngidirdi. Rusiyada təhkimçilikdən azad olan və ya torpağını itirən kəndlilər şəhərlərə üz tutsalar da, nə onları təmin edəcək iş yerləri, nə də onların texnika ilə işləmək səviyyələri var idi. Rusiyada milyonlarla qul əməyindən ayrılmış kölə ruhlu, əsrlərlə qəlbində hakimiyyətinə "acıq və intiqam" yaşadan işsizlər ordusu yaranmışdı. Rus hakimiyyəti ona qarşı yönəlmiş bu kin-küdurət ordusunu müstəmləkələrə istiqamətləndirir, onları burada məskunlaşdırmaqla özünə dayaq yaratmaq istəyirdi. Lakin onlar üçün münasib olmayan iqlim şəraitində köçkün ruslara tezliklə lazımi şərait yaratmaq istəsə də, bu, mümkün olmurdu. Yaranmış vəziyyət kütlə ordusunun imperiyaya nifrətini daha da artırır, "əsrlərin illəti, keçmiş səhvlərin məntiqi nəticələri... bolşeviklik rus təbiətindən çıxan bir vulkan" kimi yetişirdi [308, 42]. Beləliklə, Azərbaycan Rus imperiyasının milli, sosial-iqtisadi və siyasi ziddiyyətlərinin ocağına çevrildi. Rus imperiyasının yararsız hesab edib Azərbaycana sürgün etdiyi rus və digər xristianlardan, türk və müsəlman düşmənçiliyi təbliğatı ilə psixoz edilmiş ermənilərdən yaranmış xristian fəhlə cəmiyyəti içərisində aldadıcı sosial bərabərlik təşkilatı RSDFP-nin asanlıqla rəğbət qazanacağı tamamilə təbiidir. Azərbaycanda yaranmış bu psixoz səfillər ordusunu Qış sarayından idarə edəcək dövlət başçıları və nazirlər olacağı vədi onları elə eyforiyaya salmışdı ki, bütün hakim sosial təbəqənin, xüsusi mülkiyyət sahiblərinin məhv edilməsi üçün RSDFP-nin işarəsini gözləyirdilər. Tarixən bütün xalqlar arasında mövcud olmuş utopik sosial bərabərlik ideologiyasının Rusiyada birdən-birə bolşevik-fəhlə və kəndli dövlət quruculuğu ideologiyası kimi möhkəmlənməsinin səbəbi mülkiyyətçilik şüuru olmayan milyonlarla savadsız təhkimli kənd-

linin qısa müddətdə fəhlə ordusuna çevrilməsi, ümummilli intellektual səviyyənin aşağı olması idi. Əsrlərlə onların üzərində hökmran olmuş Romanovlardan və varlılardan qisas alıb Qış sarayından idarə edəcək nazirlərə və ictimailəşmiş mülkiyyətin - bankların, zavodların, fabriklərin sahiblərinə çevrilmək ideyası Azərbaycana toplanmış xristian psixoz kütləni elə eyforiyaya gətirmişdir ki, şüurları məcradan çıxmış, nəyi isə təhlil etməyə, dərk etməyə qadir deyildi. Odur ki, Romanovlar sülaləsinə, Rus imperiyasına qarşı inqilab da ilkin olaraq Azərbaycandan başladı.

Azərbaycan türk mentalitetində yaddaşa hopmuş "ot kökü üstə bitər", "itin balası it, atın balası at olar", "budağa calaq vurmaqla ağacın kökü dəyişməz", atla eşşəyin cütləşməsindən alınan qatırı mısal çəkərək "nəsli kəsən cütləşmə, nəticə etibarı ilə faydalı ola bilməz" kimi adi empirik düşüncə ilə yanaşdıqda bolşevik ideologiyasının ziyanlı bir şey olduğu görünürdü. Azərbaycan ziyalıları isə bu ideologiyanın "dağıdıcılığını" dərhal kəşf etdilər. Görkəmli Azərbaycan mütəfəkkiri Y.V.Çəmənzəminli bu ideologiyanın rus mentalitetindən doğduğunu göstərib yazırdı ki, "bolşeviklik rus təbiətindən çıxan bir vulkandır. Bizi maraqlandıran bir şey var: əcəba, bu rus vulkanı başqa millətlərin də malı ola bilərmi, yoxsa ola bilməz?..

Bu gün etiraf edəriksə, Şərq dəxi bolşevikliyə alışmadadır.

Həqiqətən, tabe və sadiq, hər bir sıxıntıya səbr edən, hakimiyyəti təsdiq və təqdir edən Şərq də bu gün bolşeviklik xəstəliyinə bac verməyi istəyir. Türküstan hadisələrində və başqa hərəkətlərdə müsəlman kommunistlərin adı çəkilir.

Burada əsri intiqamlar və acıqlar görünür. İntiqam hissi dindar və millətpərvər Şərqi dinsiz və millət tanımayan bolşeviklik qucağına atmaq istəyir.

Nə qorxulu addımlar! Bizim mühitdə bolşeviklik nə dəhşətli şəkillər ala bilər! Bu tufanın önünü almaq, çarələrini düşünməli, yəqin etməli ki, bu axın bizi götürsə bütün Şərqə sirayət edib, uzun müddətlər anarxiyaya səbəb ola bilər.





Düşünməli və çox düşünməlidir.

Bolşevikliyi doğuran səbəbləri təkrar-təkrar təhlil etməli və məhvinə çalışılmalıdır" [308, 42-43].

Göründüyü kimi, Azərbaycan ziyalısı Rusiyadan doğan bu təhlükəni düzgün başa düşmüşdü.

1901-ci ildə RSDP-nin Bakı komitəsi yarandı və Bakıda partiyanın orqanı "İskra" qəzetinin gizli "Nina" mətbəəsini yaratdı. Partiyanın rəhbərliyi ilə elə bu vaxtdan Bakının ardınca digər qəzalarda yerləşən sənaye ocaqlarında tətil və mitinqlər başlandı və yüksələn xətlə davam etdi. Rus sosial-demokratlarının rəhbərliyi ilə hakimiyyətə qarşı inqilabi hərəkatın başlandığı bir dövrdə Rusiyadan çoxlu kənd əhalisinin Azərbaycana köçürülüb türk və müsəlman əhalinin torpaqlarının zorla əlindən alınıb onlara verilməsi və Azərbaycan sənaye mərkəzlərində xristian fəhlələrə müsəlmanlardan qat-qat artıq əmək haqqı verildiyi səbəbindən Rusiyanın mərkəzi rayonlarından Azərbaycana fəhlə axını güclənirdi [275, 475-476].

Rus və xristian fəhlələr tətil və mitinqlər vasitəsilə sahibkarlardan güzəştlər almağa can atırdılar, mədən və müəssisələri yandırmaqdan belə çəkinmirdilər [205, 560-563]. Beləliklə, hər şeylərini itirmək qorxusu qarşısında 1904-cü il dekabrın 30-da fəhlə nümayəndələri ilə neft sahibkarları arasında bağlanan müqaviləyə əsasən fəhlələr güzəştlərə nail oldu. Bakı fəhləsinin bu qələbəsinin təsiri altında bütün Rusiyada, Xüsusilə onun sənaye mərkəzlərində 1905-ci ildən fəhlə hərəkatı yüksəldi. 1901-ci ildən Rus imperiyasında Bakıdan başlayan sosial-demokrat hərəkatında sosial-demokrat rəhbərliyi ilə Rus imperiyasının türk və müsəlmanlara münasibəti eyni idi. Rus sosial-demokrat rəhbərliyi də türk və müsəlmanlara ikinci dərəcəli xalq kimi baxır, bir xalq olaraq onlara əhəmiyyət vermirdilər. Bu isə Azərbaycanın türk və müsəlman fəhlələrin heysiyyatına toxunurdu [274, 278]. Bu hadisə bütün Azərbaycanı əhatə edən böyük bir sosial təbəqənin (fəhlənin) milli və siyasi şüurunun aydınlaşması və passiv kəndli təbəqəsini də oyatması, milli məqsəd uğrunda səfərbər etməsi üçün təkanverici hadisə idi. Düzgün olaraq bu dövr

Azərbaycan milli-azadlıq hərəkatında yeni mərhələ kimi qiymətləndirilir. Rus imperiyasının bütün sosial-siyasi təbəqələrinin müstəmləkələrin üzərindəki şovinist hakim-millətçi siyasəti Azərbaycanda cavab reaksiyası doğurur, milli özünüdərki və müstəqillik ideologiyasını kütləviləşdirir və gücləndirirdi.

Yaranmış tarixi şərait və Azərbaycan türklərinin mənəvi, ideoloji, sosial-iqtisadi və milli strukturu onun milli funksiyasını tam icra etməyə imkan verirdi. Rus imperiyasının yüz illik müstəmləkəçi assimilyasiya siyasəti Azərbaycan xalqının milli-ideoloji və əxlaqi dəyərlərini poza bilməmişdi.

İslam dini ideologiyası yeniləşməyə mühafizəkar olduğu qədər də ideoloji birliyin qorunmasında mühafizəkar idi. Azərbaycan xalqının etnososial strukturunda yeniləşmədən yaranan burjua və ziyalı sosial təbəqəsi bütün mənəvi dəyərləri ilə milli idi. Elmi, hüquqi-siyasi səviyyəsinə görə dünyanın ən inkişaf etmiş ölkələrinin eyni adlı sosial təbəqəsi ilə müqayisədə onlardan geri qalmırdı. O, bir sosial təbəqə olaraq özünün və mənsub olduğu millətin ikinci dərəcəli hesab edilməsi ilə qəti şəkildə razılaşmırdı. Dünyanın qabaqcıl xalqları ilə eyni səviyyədə olmalarını, əxlaqi dəyərlərinin bir çox xüsusiyyətləri ilə onlardan üstün olduqlarını sübut etməyə çalışırdılar. Milli burjuaziya və ziyalı millətin qarşısında duran problemləri üzə çıxarır, xalqa aşılayır və mərhələlərlə həyata keçirir, milli mənəvi dəyərlərin pozulmasına qəti imkan vermirdi.

Dünyanın heç bir xalqında XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan burjuaziyası və ziyalıları qədər öz funksiyasını aydın, dəqiq, planlı icra edən sosial təbəqə olmamışdır. O, yarandığı gündən milli-mənəvi dəyərləri qorumuş, elmi-siyasi şüuru bütün vasitələrlə yüksəltmiş, dini-ideoloji şüurda yaranmış pozuntuları aradan qaldırmaqla onun islam prinsipləri əsasında yeniləşməsini bütün vasitələrlə həyata keçirmiş və məqsədə nail olmaq üçün bütün vasitələrdən istifadə etmişdir. Zamanında və sonradan təhlilçilər tərəfindən burjuaziya və ziyalılar liberal və inqilabçı cərəyanlara bölünmüşlər. Lakin faktlar göstərir ki, Azərbaycanın həmin dövrü





üçün bu bölgü tamamilə yanlışdır. Hər iki cərəyan şəraitdən asılı olaraq bir halda liberal, digər halda inqilabçı olurdu. Bələdiyyə də, Duma da qələmi ilə, küçədə terrora qarşı silahla döyüşürdü, vahid milli mübarizənin təşkilatçısı və iştirakçı idi. İnqilabçı kimi görünən liderlərlə liberal demokrat kimi görünən cərəyan üzvləri həmişə birgə fəaliyyətdə idilər.

Dövrün mənbələrinin və təhlilçilərin məlumatlarından aydın olur ki, burjuaziya və ziyalılar əxlaqları, davranış stereotipləri ilə nümunə göstərən, milli ruhu canlandıran şəxsiyyətlər olmuşlar. Bütövlükdə sosial təbəqə kimi milli davranış stereotiplərinin qorunması və inkişafını təmin edirdilər.

Bu dövr ziyalıların yeritdiyi siyasəti düzgün başa düşmək üçün milli azadlıq hərəkatının ideologiyasında "pantürkizm", "panturanizm", "panislamizm", "islamlaşmaq" ideologiyalarının mahiyyətinə aydınlıq gətirmək lazımdır. Azərbaycan milli-azadlıq hərəkatının ideoloqları islamlaşmaq deyərkən islam dinini xürafatdan təmizləmək və Quranın elmi təməli üzərində inkişaf etdirməyi nəzərdə tuturdu, hər hansı yad din nümayəndəsinin islamlaşdırılması yada belə düşmürdü. Panislamizm siyasəti bütünlüklə müstəmləkəyə çevrilmiş islam xalqlarının müstəqillik uğrunda mübarizəsini birləşdirməyi, ölkəsinə sahib olmağı nəzərdə tuturdu. Panislamizm ideologiyasında hər hansı dinə mənsub ölkənin, xalqın işğalı və onun üzərində dini-siyasi hakimiyyətdən qətiyyən bəhs olunmamışdır. Pantürkizm və panturanizm Rus imperiyasına qarşı yönəlmişdi. Bu imperiyanın işğal etdiyi, əsarətdə saxladığı torpaqların 90 faizi türk torpaqları və türklər idi. Bu ideologiyada da başqa xalqın torpağının işğalı və kimsəni əsarət altına almaq, irqçilik ideyası zərrə qədər yox idi. Panislamizm, pantürkizm, panturanizm milli istiqlal, milli özünümüdafiə ideologiyası idi. İstiqlaldan sonra nə müsəlmanları, nə də türkləri bir bayraq altına toplamağı qətiyyən nəzərdə tutmurdu. Yuxarıda gördüyünüz kimi, hər bir xalqın soyuna, kökünə bağlanması, dilini və mədəniyyətini inkişaf etdirməsi bu nəzəriyyələrin banisi Ş.C.Əfqani tərəfindən qoyulmuşdu və onun türk və müsəlman da-

vamçıları tərəfindən də gözlənirdi, inkişaf etdirilirdi.

Milli ziyalı və burjuaziya daima müstəqillik ideologiyasını canlandırıb, milləti buna hazırlamaqla Rusiyada gedən demokratikləşmə prosesindən istifadə edərək müstəqillik elan etmənin məqamını gözləyirdisə, Rusiyada kütlə ideologiyası, bolşevizmin onun terrorçu təşkilatı RSDFP-nın meydana çıxması şəraiti tamamilə dəyişdi. Azərbaycanda milli özünümüdafiə təşkilatının yaradılması və milli səfərbərliyin sürətləndirilməsini, bu məqsədlə milli təşkilatlar yaradılmasını zərurətə çevirirdi [309,20]. Bu dövrü xarakterizə edən M.Ə.Rəsulzadə yazır: "Milli Azərbaycan hərəkatının hər dürlü siyasi, sosial, iqtisadi və kültürəl (mədəni) hərəkatları üzərində müəssir olan mərkəzi müəssisələr əksəriyyətlə burada bulunurdu. Bakı sənayesində, petrol ocaqlarında çalışan işçilərin böyük bir qismi ilə orta məktəblərdə təhsil edən gəncliyin mühüm qismini Azərbaycan türkləri təşkil edirdilər. Bu səbəblə burada fəaliyyətdə bulunan ümumi ixtilal və müxalifət cərəyanlarının yanında müstəqilən hərəkatda bulunan yerli və milli qruplarla təşkilatlar da vardı. O cümlədən tərəfimdən təşkil olunmuş, üzvləri müxtəlif rus liselərində və digər orta məktəblərdə oxuyan Azərbaycan türk tələbələrindən ibarət gizli bir dərnək vardı... Cəmiyyət xüsusilə gənclik içindəki hər cür qaynaşma və birləşmələri öz nüfuzları altına almaq üçün rəqabət edən bolşeviklərlə menşeviklərin fürsət qaçırmayan propoqandistləri, təbii, bizim dərnəyə də soxulur, hər necə olsa da, bizləri öz hesablarına qazanmaq istəyirdilər. Bolşevik fraksiyası Tiflısə nisbətən Bakıda qüvvətli idi" [309, 13-14].

Beləliklə, 1904-cü ildə M.Ə.Rəsulzadə tərəfindən Bakıda "Hümmət" təşkilatı yaradıldı. İstər M.Ə.Rəsulzadədən iqtibas etdiyimiz fikrindən, istərsə də tarixi tədqiqatlardan aydın olur ki, bu dövrdə M.Ə.Rəsulzadə və təşkilatın üzvləri rus sosial-demokratlarının məstedici sosial ədalət təbliğatının təsirində olmuşlar. Lakin rus sosial-demokratların liderləri ilə birbaşa təmasdan sonra M.Ə.Rəsulzadə təşkilatdan uzaqlaşmış, M.Əzizbəyov, N.Nərimanov, S.M.Əfəndiyev və b. bu təşkilatın yaşamasını təmin etsələr də, "Hümmət"





milli təşkilat kimi nüfuz qazana bilməmiş, RSDP-nin kiçik əlaltısı olaraq yaşadılmışdır.

1904-cü ilin dekabrında Bakı fəhlələrinin hakimiyyəti güzəştlər etməyə məcbur etməsi Rusiya kütlələrini - proletariata qələbə, yaradıcılıq fantaziyası verdi. Rusiyanın paytaxt Peterburq və Moskva şəhərlərində rus proletariatının mübarizəsi hər şeyi məhv etmək səviyyəsinə çatmışdı ki, hökumət 1905-ci ilin oktyabrın 17-də xüsusi fərmanla manifest verərək söz, mətbuat, yığıncaq, ittifaq azadlıqları tətbiq etməyi və qanunverici duma çağırmağı vəd etdi. Rusiyada ilk dəfə fəhlə və kəndlilərin müəyyən hissəsinə seçki hüququ verildi.

Artıq bu dövrdə Azərbaycan milli burjuaziyası, onun lideri H.Z.Tağıyev Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterinin qarşısını alıb, onun milli məqsədləri təmin etmək istiqamətində qurulmasına cüzi də olsa nail olmuşdu. Onun 1901-ci ildə fəaliyyətə başlayan toxuculuq fabriki birbaşa milli inkişafa xidmət edirdi [48, 611] və iqtisadiyyatın bütünlüklə milli istiqamətdə qurulması ideyasını reallaşdırmışdır. "Ziyalılar həm də burjuaziyanın nümayəndələri millət qarşısında öz milli vəzifələrini başa düşür, ona uyğun da fəaliyyət göstərirdilər" [310, 13]. Yaranmış şəraitdən istifadə edən Azərbaycan ziyalıları və burjuaziyası milli mətbuat və məktəblərin yaradılmasında fədakarlıq göstərdilər. 1905-ci ildə H.Z.Tağıyevin vəsaiti müsəlman və türk dünyasının liderləri Əli bəy Hüseynzadənin və Əhməd bəy Ağaoğlunun rəhbərliyi ilə nəşrə başlayan "Həyat" qəzeti, İsmayıl bəy Qaspiralının Krımda nəşrə başlayan "Tərcüman" qəzeti, bunun ardınca Əli bəy Hüseynzadənin redaktorluğu ilə nəşrə başlayan "Füyuzat" qəzetləri yalnız Azərbaycan türklərinin deyil, türk və müsəlman dünyasına müstəqillik ideologiyasını, ruhunu verirdi. Bunun ardınca "Molla Nəsrəddin", "Dəbistan", "Bəhlul", "Tərəqqi", "İttifaq" və "Məktəb" jurnalları nəşr olundu. Bir qədər sonra "Yeni füyuzat", "Şəlalə" və "Açıq söz" və s. qezet və jurnallar burjuaziyanın və ziyalıların vəsaiti və fədakarlığı ilə nəşr olunurdu. Bu qəzet və jurnallar milli şüurun oyadılması və müstəqillik

ideologiyasının canlandırılmasına xidmət edirdi.

Rus imperiyasının Azərbaycanda təhsilə münasibətini və Azərbaycan burjuaziyasının bu sahədəki xidmətini dəyərləndirmək üçün 1902-ci ildə Azərbaycanda təhsilin vəziyyəti ilə bağlı aşağıdakı faktlara diqqət yetirmək kifayət edər.

1902-ci ildə Bakı quberniyasında maarifə adam başına 79,3 qəpik, Yelızavetpol quberniyasında 37 qəpik vəsait ayrılmışdı. Həmin ildə Zaqafqaziyada polisi saxlamaq üçün 4,4 milyon manat ayırdığı halda, təhsilə 1,7 milyon manat ayrılmışdı. Azərbaycanda adambaşına maarifə 64 qəpik xərclənmişdi. Yelızavetpol quberniyasında 230 ibtidai məktəbdə təhsil alan 15 min şagirddən 3,6 min nəfəri, yəni 24%-i, sənət məktəbində təhsil alan 472 şagirddən 91 nəfəri, yəni 19%-i, Bakı, Gəncə və Şuşada yerləşən natamam orta və orta məktəblərdə təhsil alan 4,2 min şagirddən cəmi 235 nəfəri, yaxud 5,6%-i türk-müsəlman idi. Orta hesabla məktəblərdə təhsil alan şagirdlərin 20 faizi türk və müsəlman idi. Göstərilən rəqəmlərdən aydın olur ki, azərbaycanlıların hər nəfərinin təhsilinə 1 qəpik belə düşmürdü. Azərbaycanlıların təhsildə az təmsil olunmasının səbəbi təhsilin ana dilində olmaması idi. İbtidai məktəblərin 92,4 faizində dərslər istisnasız rus dilində idi; məktəblərin qalan 7,6 faizində ana dili tətbiq olunurdu. "Müəllimlər tərəfindən uşaqların ibtidai məktəbə daxil olduğu ilk gündən onların ana dilində bir kəlmə də olsun danışmağı qadağan etməsi" halları müşahidə olunurdu [275, 827-828, 839].

Yarandığı gündən Azərbaycan burjuaziyası maarif müəssisələrinin yaranmasına, türkdilli təhsilin qurulmasına xüsusi əhəmiyyət verirdi. Qadınların təhsilə cəlb olunmasını isə zəruri, ən başlıca vəzifə kimi qiymətləndirirdi. "Anaları, qadınları bisavad olan camaat kor kimidir" [291, 23] deyən H.Z.Tağıyev imperiyanın, cahil mollaların müqavimətini qıraraq Bakıda, onun ardınca Azərbaycanın əyalətlərində qız məktəbləri açmağa nail oldu. 1906-cı ildə Tiflisdə açılan müsəlman qız məktəbinə 25 min manat toxunulmaz kapital ayırdı ki, bundan gələn gəlir məktəbin ehtiyacına sərf olunmalı idi [310,





46]. Milli burjuaziya və ziyalıların təhsilə və maarif işinə sistemli, mütəşəkkil yanaşması, 1905-ci il inqilabının təzyiqi ilə Rus imperiyasının güzəştlərindən sonra başlandı. 1906-cı ildən başlayaraq yaradılan "Nicat", "Nəşri-maarif", "Səadət", "Ümid", "Səfa", "Cəmiyyəti-xeyriyyə" və başqa xeyriyyə cəmiyyətlərinin fəaliyyətində milli-məktəblərin açılması, müəllim kadrların hazırlanması, türk dilində dərsliklərin yaradılması başlıca yer tuturdu. H.Z.Tağıyev, M. Muxtarov, Ş.Əsədullayev və b. burjua nümayəndələri bu cəmiyyətlərin fəxri üzvü və maliyyəçiləri idilər. Bu cəmiyyətlərdə birləşən ziyalılar savadsızlığın ləğv olunması uğrunda fədakarcasına mübarizə aparırdılar.

1906-cı ildən başlayaraq yaradılan xeyriyyə cəmiyyətlərində maarifçilik planlı, sistemli vahid dövlət siyasəti xarakteri daşıyırdı. Onların həyata keçirdiyi bütün tədbirlər milləti başqa xalqlarla rəqabətdə varlığını qorumağa və yaşatmağa imkan verməyi nəzərdə tuturdu. Sənət məktəbləri, gecə kursları türk-müsəlman tələbələrini qısa vaxtda peşəyə yiyələndirməklə texniki bilik tələb edən müəssisələrdə işləyə bilməsini təmin etmək üçün təşkil olunurdu. Sənət məktəblərinin və "yetimlər məktəbi"nin açılmasının məqsədi haqqında deyilirdi ki, "bir sənət şöbəsi bulundurmaq, bununla... bir parça yemək üçün daha məsum çağlarında küçələrdə... başqalarının çəkmələrini silməklə, dilənməklə əxlaqsızlıq və tərbiyəsizlik çirkabları içərisində çürüyən... millət balalarının gələcəklərini, onların məişət yollarını təmin etməkdən ibarət idi" [310, 33].

Ölkədə orta texniki ziyalıların yetişməsi üçün açılan məktəblərdə eyni məqsədi güdürdü. Milli burjuaziya, xüsusilə H.Z.Tağıyev bu işə xüsusi əhəmiyyət verirdi. Bakıda ilk texniki məktəbin əsası onun tərəfindən qoyulmuş və sonrakı inkişafı, yəni onun orta məktəbə çevrilməsi üçün də Tağıyev öz köməyini əsirgəməmişdi. H.Z.Tağıyev 1904-cü ildə Bakı texniki məktəbin direktoruna göndərdiyi teleqramda yazırdı: "Sizin ixtiyarınızda olan texniki məktəbin orta məktəbə çevrilməsi üçün maddi vəsaitə Uzaq Şərqdə olan hadisələrin təsir etməsini Xalq Təhsili Nazirliyinin bu il 6 aprel ta-

rixli xəbərindən öyrəndikdə, nəinki Bakıda və Bakı quberniyasında, habelə Qafqaz ölkəsində orta savadlı texniklərə böyük ehtiyac olduğunu nəzərə alaraq, dövlətin düşdüyü belə ağır şəraitdə hazırki binanın orta texniki məktəbə çevrilməsi üçün bütün xərcləri öz üzərimə götürdüyümü bildirirəm" [311, 18].

Quranı türkcəyə tərcümə etdirib nəşr etməsi H.Z.Tağıyevin bütün xidmətləri qədər dəyərli idi. İslam dininin böyük yaradıcılıq gücündən kütləvi istifadə etməklə xalqın "Sağlam dini və milli ideologiyaya, bəşəri düşüncələrə yiyələnməsi üçün bundan qiymətli heç nə ola bilməzdi. Xeyriyyə cəmiyyətləri, məktəblər açmaqla bərabər dərs vəsaitləri hazırlamağa və nəşr etdirməyə xüsusi əhəmiyyət verirdilər. Abdulla Şaiq və başqa müəlliflər "Uşaq çeşməyi", "Gülzar" və s. bu kimi dərsliklər yaratmışdılar. H.Mahmudbəyovun başqa müəlliflərlə birlikdə "İkinci il", "Üçüncü il", "Türk ədəbiyyatına ilk qədəm", "Yeni türk əlifbası" dərslikləri bu dövrdə yazılıb xeyriyyə cəmiyyətləri tərəfindən nəşr olunan qiymətli dərsliklərdəndir. Ü.Hacıbəyovun ilk dəfə yazıb nəşr etdirdiyi "Türk-rus və rus-türk lüğəti" rus dilində mövcud olan elmi ədəbiyyatdan istifadə etməklə millətdə elmi şüurun inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. Yetim uşaqların təhsilinin və yaşamasının təmin edilməsi, istedadlı şagird və tələbələrin aşkar edilib onlara xüsusi təqaüd verilməsi, Rusiya və Avropada təhsil alan tələbələrin təhsil haqqının ödənməsi və yaşamaları üçün təqaüd verilməsini Azərbaycan milli burjuaziyası sanki rəsmi bir vəzifə olaraq yerinə yetirmişdir. Məsələn, M.Nağıyev digər xərclərdən əlavə hər il tələbələrə təqaüd kimi verilmək üçün xeyriyyə cəmiyyətinə 8 min manat pul vermişdir. H.Z.Tağıyev 1890-1917-ci illərdə tələbələrə təqaüd kimi 143,3 min manat pul vermişdir. Xeyriyyə cəmiyyətlərinə, məktəblərə, mətbuata anonim şəkildə ciddi maliyyə yardımlarının olması haqqında çoxsaylı məlumatlar deməyə əsas verir ki, Azərbaycan burjuaziyasının milli inkişaf naminə xərclədiyi kapitalı dövrün sənəd və məlumatları tam əks etdirmir. Bu kapitalın miqdarı qeyd olunandan qat-qat yüksək olmuşdur. Azərbaycan milli burjuaziyası rəsmi dövlət hakimiyyətindən də yüksək və mütəşəkkil səviyyədə milli varlığın qorunması və inkişafını təmin etmişdir [291; 292; 309; 310; 311].





Xeyriyyə cəmiyyətlərinin xalqın siyasi maarifləndirilməsində əhəmiyyət verib həyata keçirdiyi tədbirlər içərisində milli yazarların əsərləri ilə bərabər siyasi şüuru inkişaf etdirən dünya ədəbiyyatı nümunələrini türkcəyə tərcümə etdirməsi və səhnəyə qoyması da xüsusi əhəmiyyət kəsb edirdi. "Nicat" cəmiyyətinin tamaşaya qoyduğu M.Ə.Rəsulzadənin "Qaranlıqda işıqlar" pyesində Azərbaycan dramaturgiyasında ilk dəfə rus müstəmləkəçiliyinə qarşı çıxılırdı. Ə.Haqverdiyevin tərcüməsində tamaşaya qoyulan Şeyx Şamilin istiqlal mübarizəsindən bəhs edən "Qazavat" pyesi sensasiya doğurmuşdu [293, 75; 299, 87-94]. Ü.Hacıbəyovun "Arşın mal alan", "Əsli və Kərəm" komediyaları, M.Qorkinin "Meşşanlar" pyesi tamaşaya qoyulmuşdur.

Azərbaycan ziyalıları Avropa mədəniyyətindən xalqa əxz etdirmək istədikləri başlıca şey elm və hüquqi biliklər idi. Azərbaycanda Avropa mənəvi mədəniyyətinin əxlaq və digər sahələrindən ancaq milli mədəniyyətə və əxlaqa uyğun gələn, onu pozmayan xüsusiyyətlərinin lazımi ölçüdə qəbul edilməsini arzu edir və buna çalışırdılar. Azərbaycan milli burjuaziyanın Vətənə və millətə sədaqəti, onun vəsaiti, ziyalılarının zəkası, fədakar əməyi sayəsində müxtəlif təmayüllü və formalı məktəblər vasitəsilə elmi və mənəvi cəhətdən zənginləşib yeniləşirdi, Bakı şəhərində nəşr olunan 63 qəzet vasitəsilə istiqlal uğrunda mübarizəyə səfərbər olunurdu [288, 17; 313, 272]. Azərbaycan Rus imperiyası tərəfindən işğal olunan gündən azadlıq mübarizəsi bir gün də olsun dayanmamış, pərakəndə formada fasiləsiz davam etmişdir. Ona görə ki, Rus imperiyası Azərbaycanda siyasi cəhətdən qalib gəlsə də, iqtisadiyyatına daxil olsa da, Azərbaycan türk və müsəlmanlarının mənəviyyatına nəinki qalib gəlmişdi, ona heç toxuna da bilməmişdi. Pərakəndə, fasiləsiz davam edən mübarizə Rus imperiyasına siyasi itaətsizlik də bundan doğurdu.

Azərbaycan milli burjuaziyası yarandığı gündən təhsil, mətbuat,

xeyriyyə təşkilatları və s. üsul və vasitələrlə xalqı müstəqillik uğrunda mübarizəyə təşkilatlandırırdı. Milli burjuaziyanın şəhər özünüidarə orqanlarındakı fəaliyyəti, xüsusilə Bakı şəhər dumasındakı fəaliyyəti də bütünlüklə milli mövqedə idi. Artıq uzun müddət milli burjuazıya və ziyalıların müstəqillik ideyasını kütləviləşdirmək istıqamətində fəaliyyəti nəticəsini göstərmədə idi, xalqın aşağıdan təşkilatlanması müşahidə olunurdu. 1905-ci ilin fevralında "Sosial-federalistlərin türk inqilab komitəsi" adlı təşkilatı yarandı, yazda Gəncədə "Qeyrət" qrupu fəaliyyətə başladı. Hər iki təşkilat müstəqillik yolunda Qafqaz xalqlarını birliyə çağırırdı. İmperiyada yaranmış inqilabi şərait bunu zərurətə çevirməklə bərabər, ona imkan da verirdi. Rus imperiyasının əsarəti altında olan türk və müsəlman xalqlarının ziyalı və burjuaziyasının istiqlal ideyası və fəaliyyəti yetərincə əlaqəli idi. Azərbaycan və Tatar burjua və ziyalıları bu işdə öndə idilər və türk və müsəlman xalqların bütün qüvvələrini birləşdirərək, birgə fəaliyyət göstərməklə başlayan inqilabdan müstəqillik yolunda maksimum faydalanmaq üçün bütün imkanlardan istifadə edirdilər. Bu məqsədlə Ə.M.Topçubaşov, A.İbrahimov, Y.Akçuraoğlu, İ.Qaspıralı Ümumrusiya Müsəlmanlar İttifaqının yaradılması üçün təşəbbüs göstərərək, 1905-ci ilin martında Kazan şəhərində 80 nəfər təmsilçinin iştirakı ilə müsəlmanların qurultayını keçirmək üçün təşkilatı işlər gördülər. 1905-ci il 15 avqustda Ə. M. Topçubaşov, İ.Qspıralı və Y.Akçuraoğlunun rəhbərliyi və təşkilatçılığı ilə Nijni-Novqorod şəhərində "Rusiya Müsəlmanlar İttifaqı"nın təsis qurultayı keçirildi, "Rusiya Müsəlmanları İttifaqı" təşkilatı yaradıldı. Növbəti qurultaya qədər təşkilatın proqram və nizamnaməsinin hazırlanması qərara alındı. "Ümumrusiya Müsəlmanlar İttifaqının" ikinci qurultayı 13 yanvar 1906-cı ildə Peterburq şəhərində keçirildi. Qurultaya sədrliyi Ə.M.Topçubaşov edirdi. Qurultay onun yazdığı proqram və nizamnaməni qəbul etdi və I Dövlət Dumasında "Rusiya Müsəlmanlar İttifaqı"nın taktikasını müəyyən etdi, Rusiyanın müsəlman deputatlarının fraksiya yaratması, fəaliyyətini Dumada Kadet partiyası ilə uzlaşdırılması qərara alındı. Beləliklə,





"Azərbaycan ziyalılarının uzun sürən səyi nəticəsində hər gün bir az daha artan bu fəaliyyət xalqı firavan bir gələcəyə və xoşbəxt bir istiqlala aparırdı" [306, 16].

Rus imperiyası Azərbaycan xalqının milli-azadlıq hərəkatını etnik münaqişəyə çevirir, ermənilər və Rus imperiyası məqsədləri üçün biri digərindən məharətlə istifadə edirdi. Bu mübarizədə Azərbaycan türklərinin milli mentaliteti özünü aşkar göstərirdi. 1890-cı ildən yaranan erməni "Daşnaksütyun" partiyasının silahlı dəstələri Azərbaycanın türk və müsəlman əhalisinə qarşı tətbiq etdiyi terror, nəhayət 1905-ci ilin 6 fevralında rus polis və ordusunun himayəçiliyi ilə Bakı şəhərində açıq silahlı hücuma keçdi. Erməni silahlı hücumu bir neçə günə İrəvan, Şuşa, Gəncə, Tiflis və b. şəhər və yaşayış məntəqələrini əhatə elədi. Onlar "məmləkətin müsəlman əhalisini məhv etmək və gələcəkdə onların torpaqlarından istifadə üçün müsəlmanların adlarını bədnam etmək istəyirdilər... Nəticədə qismən Kutaisi quberniyasından başqa, bütün müsəlman Zaqafqaziyasının qalan yerləri artıq erməni toruna düşmüşdü" [230, 92; 314; 315]. Yaranmış faciəvi şəraitdə "azərbaycanlılar xalqın ehtiyaclarına atalıq qayğısına görə onun bayraqları altında qazanılmış əmin-amanlığa, gücə və şan-şöhrətə görə hörmət və minnətdarlıq haqqı qazanan səlahiyyətli şəxsə siyasəti həvalə etməyi üstün tuturlar. Bu, məhz, siyasi və məişət nəticələri doğura biləcək dünyagörüşlərində təbii fərqdir" [230, 129]. Azərbaycanlılarla ermənilərin "dünyagörüşlərindəki təbii fərq" erməni dini idarəsi ilə Azərbaycan dini idarəsinin millətlərinin taleyindəki rolundan doğmuşdur. Erməni dini idarəsi əsrlərlə xalqı üçün bilavasitə dövlət idarəçiliyi funksiyasını yerinə yetirməklə bərabər, milli şüurun mənbəyi idisə [230, 97], əsrlərlə Azərbaycanın dini idarələrinə toplanmış "din xadimləri" bəşəriyyətin ən böyük və mütərəqqi dini islamı xürafata çevirmiş, bununla da Azərbaycan türklərinin inkişafında, yeniləşməsində əngələ çevrilmişdilər [314; 315]. Lakin əxlaqi saflıqdan doğan milli təəssübkeşlik Azərbaycan türklərini zamanla ayaqlaşan yeniləşməyə təhrik edirdi. Azərbaycan ziyalıları və milli burjuaziya-

sı bu zərurəti dərk edir və xalqı bu istiqamətdə tərbiyəyə, yeniləşməyə sövq edirdi.

Rus imperiyasının polis və ordusunun gözü qarşısında müsəlmanlara qarşı Qafqazda erməni terroru və kütləvi silahlı basqınlar baş alıb gedirdi. Qafqazın türk və müsəlmanlarının pərakəndə müqaviməti ilə erməni hücumlarının dəf edilməsinin mümkünsüzlüyü göz önündə idi. Dövlət tərəfindən müdafiə olunmayan, müdafiə üçün milli bir qurumu olmayan əhali çox yerdə qaçmağa məcbur olurdu. Milli vəhdətin pozulması bir qədər də davam edərsə, milli ruhda məğlubiyyət hissinin yaranacağını Azərbaycan ziyalısı dərhal dərk etdi. Xalqın ruhunda qorxu və məğlubiyyət hissinin kök salmasının qarşısını almaq zərurəti günün tələbinə çevrilmişdi. Xeyriyyəçi, maarifçi təşkilatlardan əlavə millətin bilavasitə təhlükəsizliyini təmin edən bir təşkilatın yaradılması zərurətini Azərbaycan ziyalı və burjuaziyası artıq dərk edirdi. Bu ideyanın reallaşması gündəlikdə olduğu bir vaxtda milli mentalitetdən doğan bir xüsusiyyət idi ki, Azərbaycan ziyalıları erməni terrorunun qarşısını almaq üçün hakimiyyətə müraciət etməyə qərar verdilər. Tiflis şəhərinə Qafqaz canişini Voronsov-Daşkonun yanına Əhməd bəy Ağaoğlu, Kərbəlayi İsrafil Hacıyev, Əlimərdan bəy Topçubaşov, Məmmədağa Vəkilov, Qarabəy Qarabəyov, Ələkbər bəy Xasməmmədov, Ədil xan Ziyadcanov və b. ibarət nümayəndə heyəti getdi. 1906-cı il fevralın 20-də Qafqaz canişini Voronsov-Doskov canişinliyin nümayəndələri, Qafqaz quberniyalarının qubernatorları və erməni nümayəndələrinin iştirakı ilə Azərbaycan nümayəndə heyətini qəbul etdi. Danışıqlar çox ağır, Qafqazda yaranmış "Allah erməni şərindən qorusun" şəraitində keçirdi. Azərbaycan nümayəndə heyətinin rəhbəri Əhməd bəy Ağaoğlu Qafqaz canişinliyi nümayəndəsinə aşkar bildirdi ki, “nəinki xalq terrordan qorxur, dövlət özü erməni terrorunun əlində oyuncağa çevrilib. Hal-hazırda qulluqçuların çoxu, bəlkə də hamısı boyunlarını alçaqcasına terror dəstələrinin qabağında əyib, ancaq onlara xoş gələn işlər tutub bu tərəfə hər cür cövr, zülm, sitəm, sonsuz cəfa etməkdədir" [315,112]. Əhməd bəy Ağaoğlu bir yazar,





ideoloq olmaqla bərabər təbiətən sərt və cəsarətli, istənilən anda silah işlətməyi bacaran bir şəxsiyyət kimi tanındığı üçün onun birbaşa hökumətin üzünə bu çıxışı hamı tərəfindən gözlənilirdi. Mənbələr göstərir ki, Azərbaycan nümayəndə heyətinin digər üzvlərinin çıxışlarında sərtlik və qətiyyətlilik eyni ilə Əhməd bəy Ağaoğlunun çıxışlarında olduğu kimi idi [315, 105-116; 299]. Əhməd bəy Ağaoğlu görüşün məqsədini və ondan aldığı qənaəti belə ifadə edir: "Biz terror məsələsini qaldırdıqda ancaq sülhü, asayişi nəzərə almışıq. Çünki müsəlman camaatının əqidəsincə nə qədər ki, Qafqazda terror var, bir o qədər sülh olmayacaq... Biz deyirik ki, terror götürülsün. Lakin ermənilərin xəyalına Daşnaksütyun gəlir. Görünür ki, Daşnaksütyunun bu terrorla əlaqəsi vardır. Lakin yenə təkrar edirəm ki, bizim Daşnaksütyun ilə işimiz yoxdur. Yoxdur! Çünki keçən gün cənab Xatısov öz bəlağətli və fəsahətli çıxışında aşkar dedi ki, bu Daşnaksütyun Rusiyanın böyük şəxslərinin, generallarının və hətta Qafqaz canışini həzrətlərinin fikir və əqidələrinə qulluq edir və on beş ildir ki, təşkil olunub və onun qoşunu, xəzinəsi, əsgəri də vardır. Biz müsəlman vəkilləri bunu eşidəndə təəccüb və heyrət barmağımızı dişimizə tutub öz-özümüzə fikir etdik: "İndi ki, belədir, indi ki, bir müsəlləh partiya on beş ildən bəri təşkil olunub və hökumət adamları bunu bilib və nəinki əlac etməyir, bəlkə onunla həməqidədirlər. Bizim istər hökumətdən, istər ermənilərdən belə partiyanın götürülməyini təmənna etməyimiz faydasızdır. Biz ancaq özümüz öz əlacımızı edək. Bizim də gərək mükəmməl və müsəlləh partiyamız olsun. Bizim də gərək daşnaksütyunlarımız olsun. Bir hökumət ki, bir tərəfdən belə işlərə dözür, gərək o biri tərəfdən də dözə, yoxsa ki, hərc-mərclik olar" [315, 114-115].

Qafqaz canişinliyi ilə görüşdə Azərbaycan nümayəndə heyətinin hakimiyyətin erməni terroruna son qoymayacaqları təqdirdə xalqın özü bu işi görmək, "özümüz öz əlacımızı edək" fikri hamının funksiyası kimi deyil, məhz ziyalının funksiyası kimi irəli sürülmüşdür. Çünki xalq bütün dövrlərdə bu və ya digər hadisəyə qarşı ziyalı liderlər tərəfindən hazırlanan kütlədir. Xalqın fəallığı isə el-

mi-siyasi şüurunun səviyyəsindən, inam və etiqadlarının, adət-ənənəsinin bütövlüyündən, onu təşkil edən sosial təbəqələrin hər birinin funksiyasının necə yerinə yetirməsindən asılıdır. Göründüyü kimi, dövrün ziyalıları Azərbaycan xalqının qarşısında duran vəzifələri kəşf etməyə, bütün sosial təbəqələrini vahid milli məqsəd uğrunda səfərbər etməyə qadir bir qüvvə kimi özünü göstərirdi. Xalqda milli-siyasi şüurun yüksəldilməsi sahəsində xidmətinə görə "söz adamı" kimi tanınan Əhməd bəy Ağaoğlu 1905-ci ildən milli varlığın qorunması və yaşadılmasının zəruri şərti olan hərbi ruhun canlandırılması, milli-sosial orqanizmdə hərbçi təbəqənin yaradılmasının ideoloqu və təşkilatçısı kimi fəaliyyət göstərdi. Qafqaz canişinliyindəki görüşdən sonra Əhməd bəy Ağaoğlu Gəncə şəhərində ziyalı və zadəganların iştirakı ilə 1906-cı ildə "Difai" ("Müdafiə") partiyasını yaradır [299, 21; 306, 19-20].

Özünü "Qafqaz müsəlman müdafiə komitəsi" adlandıran "Dıfai" partiyasının proqramında Qafqazın türk və müsəlmanlarının istiqlal məsələləri ətraflı şərh olunur, hərbi təşkilatlanma isə xüsusi vurğulanırdı. Ə.Ağaoğlu yazırdı ki, hökumətə ümid bəsləmək hədərdir, hökumət nümayəndələri Vorontsov Daşkovun biabırçı canişinlıyi dövründə "Daşnaksütyun" təşkilatının güllə və bomba atəşləri altında qorxaqcasına boyunlarını əyərək bu təşkilatın Qafqazdakı itaətkar alətinə çevrilmişlər. Rus hakimiyyəti nümayəndələri ilə əl-ələ verən və onların vasitəsi ilə silah-sursat və pulla təchiz edilən daşnaklar Zəngəzurun və Qarabağın etnik təmizlənməsi işinə başlamışlar. Belə bir şəraitdə xalqın düşmənə qarşı mübarizəsini təşkil etmək əvəzinə, intriqa ilə məşğul olan, ancaq öz şəxsi mənafeyini düşünən şəxslər düşməndən betər" millətin məşğuliyyətini və məhvini sürətləndirəndirirlər" [299, 21-22]. "Difai" partiyası düşmənlərə xəbərdarlıq edərək proqramında yazırdı:

"Mütəşəkkil hərbi qüvvəyə malik, eyni zamanda yeni silahlarla, hətta toplarla təchiz edilmiş Daşnak partiyası, bir tərəfdən silah gücü ilə bütün erməniləri, digər tərəfdən də Qafqaz hökumətini özünə tabe edib, ən ümdə məqsədlərinə nail olmağa çalışırlar. Onların əsas





məqsədləri Qafqazda yaşayan bütün müsəlmanları qırdıqdan sonra onların torpaqlarını işğal etməkdir. Ermənilər məqsədlərinə nail olduqdan sonra fikirləri Qafqazda erməni xalqı üçün milli, müstəqil bir dövlət yaratmaqdır. Partiyamızın əsas məqsədi Qafqazda yaşayan bütün xalqlar arasında səmimi qardaşlıq və birlik yaratmaqdır. Hərgah Daşnak partiyası namus və səmimiyyətlə öz hərəkət və fəaliyyətlərinin həqiqi proqramını aşkar söyləsə, əgər bu proqram Qafqazda yaşayan bütün millətlərin azadlıq və müstəqilliyinə xələl gətirmirsə, o zaman biz öz birlik əlimizi həmişə ona uzatmağa hazırıq. Əksinə, əvvəllər olduğu kimi, müsəlmanların üzərinə xain və qəddarcasına hücumlar edərsə, bizdən layiqli cavab alar və Qafqaz başdan-başa, bitməz-tükənməz qanlı səhnə halına düşər.

Daşnak partiyası əmin olsun ki, heç bir vaxt biz öz millətimizin bədbəxtliyi üzərində erməni millətinin səadət və xoşbəxtlik qurmasına yol verməzik" [287, 121-122].

Az vaxtda Azərbaycanın bütün şəhər və bölgələrində "Difai" partiyasının ilk təşkilatları yaradıldı və ermənilərə qarşı kütləvi mübarizəyə başlandı. "Difai" partiyası ermənilərin hərəkəti üzərində apardığı müşahidələrə və əldə etdiyi məlumatlara əsasən müəyyənləşdirdi ki, ermənilərin türk və müsəlmanlara hərbi təcavüzləri onların arzularından doğmaqla bərabər, çox vaxt onları bu işə rus idarələri təhrik edir. "Difai" partiyası bildirdi ki, türk və müsəlmanlara qarşı terrorla məşğul olan ermənilərlə bərabər, onları bu işə təhrik edən rus idarəsinin yüksək vəzifəli məmurları və yerli satqınlar da aradan götürüləcək [287, 124]. Beləliklə, "Difai" partiyası tərəfindən Şuşada ermənilər qırğın törədərkən onlara kömək etmiş general Qolaşapov, Gəncə qubernatorunun müşaviri Kerçinski, Şuşada xalq arasında "dəli sudya" adı ilə tanınan rus hərbi məhkəmələrinin prokuroru Lunyakin, Gəncənin polis rəisi Bannikov, Tərtərin polis rəisi Teliksinski məhv edildilər. "Difai" partiyasının çətinliklə aşkar edib, başqaları üçün ibrət olacaq bir şəkildə məhv etdiyi yerli satqınlardan biri Gəncə həbsxanasının imamı molla Hadi idi [287, 124-125; 293, 92-94; 306, 20-21]. Elə bu günlərdə Gəncə qubernatoru

Qafqaz canişininə raportunda yazır ki, "Artıq indi qara kütlə də şiələrlə sünnilər arasında fərq qoymur, birincilərlə ikincilər arasında daha əvvəlki ədavət də yoxdur. Xalq artıq məktəbə, yazılı sözün qüdrətinə inanmağa başlayıb, son bir-iki ildə yerli tatarlar (türklər - X.X.) ictimai işlərə maraq baxımından nəzərə çarpacaq dərəcədə irəliləmişlər. Bu cəhət xüsusilə Qarabağda daha aydın şəkildə nəzərə çarpır. İnanıram ki, tezliklə "Difai" öz şəbəkəsini daha da genişləndirəcək.

Bir neçə ay bundan əvvəl belə bir partiyanın mövcudluğundan xəbəri olmayanlar da indi "Difai"ni tanıyırlar, hamı onun hərəkətlərini təqdir edir, ona inanır. Məhz buna görə də partiyanın nümayəndələrinə qarşı cəza tədbirlərindən çəkinirəm. Həm də hamı hər yerdə partiyanın üzvlərinin adını və hərəkətlərini son dərəcə məxfi saxlayır" [299, 24]. "Difai" təşkilatının hərbi təlim və tədbirləri rus əsgərlərini, hətta ermənilərі də qorxudurdu" [306, 27]. "Difai" partiyası qısa müddətdə əhali içərisində yüksək nüfuz qazandı. İmperiya məmurları etiraf edirdilər ki, xalq hakimiyyətdən çox bu partiyaya inanır. Partiyanın ən güclü şöbələrindən biri "Qarabağ" birlik məclisi idi. Onun fəaliyyəti bütün Qarabağı - Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edirdi. 400 nəfərlik döyüş drujinası var idi. Şöbəyə Kərim bəy Mehmandarov rəhbərlik edirdi [274, 280]. "Difai" partiyası dövlət qurumu olmayan bir xalqın milli təhlükəsizliyini təmin etməklə onun mənəvi dəyərlərinin möhkəmlənib bir millət kimi inkişafında yetərincə rol oynadı.

Rus imperiyasının bütün cəhdləri, üsul və vasitələri Azərbaycan türklərinin mənəviyyatını, əxlaqi dəyərlərini poza bilməmişdi. Odur ki, sağlam mənəviyyatla xristianlaşdırmaya, irqçiliyə, müstəmləkəçiliyə qarşı mübarizə Azərbaycan türklərinin milli kimlik şüurunun bütün incəliyinə qədər dərk edilməsi ilə nəticələndi. Artıq "Difai" yarandığı günlərdə Azərbaycanda Rus imperiyasına qarşı mübarizənin gündəliyində olan başlıca məsələlərdən biri türk özünüadlandırmasının bərpası və şərəfinin qorunması idi. Xalqın kütləvi, ciddi etirazları sayəsində imperiya idarələrində Azərbaycan türklərinə tatar deyilməsinin, dilinin tatar dili adlandırılmasının qarşısı alındı [306, 27]. Rus imperiyasının Azərbaycan türklərinə yeni adqoyma cəhdi boşa çıxdı. Tam bir əsr Rus imperiyasının unutdurmağa çalışdığı türk özünüadlandırması yeni funksiyada - Azərbaycan müsəlmanlarının ümumi, birləşdirici etnonimi kimi xalq tərəfindən bərpa olundu, etnik mənşəyindən asılı olmayaraq Azərbaycanın bütün ziyalılarının yaradıcılığında hakim ideologiyaya çevrildi. Azərbaycan türklərinin özünütəsdiq, istiqlal mübarizəsi milli varlığın bütün sahəsini əhatə edirdi. Azərbaycanın ucqar bir dağ kəndindəki qaradamdan tutmuş imperiyanın paytaxtı Peterburqun Qış sarayında Azərbaycan türkünün milli varlığının təsdiqi uğrunda istiqlal mübarizəsi gedirdi. I Dövlət Dumasındakı çıxışında Azərbaycan türklərinin millət vəkili İsmayılxan Ziyadxan oğlu deyir: "Zaqafqaziya bir əsr bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir. Bu əsr ərzində biz müsəlmanlar əsir kimi həyat sürmüşük, təqiblərə məruz qalmışıq, bizə heç bir haqq və hüquq verilməmiş, kölə halına salınmışıq. Sözün əsl mənasında yüz il ərzində bir hökumətin şiddətli hücumlarına və böhtanlarına məruz qalmışıq. Siyasi, sosial və iqtisadi sahənin hansına nəzər salsanız, hamısında bizim haqqımızda haqsızlığın hökm sürdüyünün şahidi olacaqsınız. Ölkəmiz istila edilən kimi dərhal milli varlığımıza təcavüz edildi. Dinimizə və müqəddəs yerlərimizə müdaxilə edildi, şəriət müəllimlərimizin seçilməsinə mane olundu, bizə hökumət tərəfindən 20 manat maaş alan müsəlman məmurlar göndərildi". Sözünə davam edən İ.Ziyadxan oğlu Rus imperiyasının bir əsr müddətində törətdiyi vəhşilikləri ifşa edir və hazırda Qafqazda gedən erməni-müsəlman müharibəsinin də təşkilatçısı olduğunu bəyan edirdi [287, 126-130]. Azərbaycan millət vəkilləri tərəfindən Rus imperiyası kəskin tənqid olunur, milli və hüquqi azadlıqlar tələb edilirdi. "Rusiya Müsəlmanlar İttifaqı"nın qərarına müvafiq olaraq milli və hüquqi azadlıqlar uğrunda mübarizə aparan müsəlman millət vəkilləri Parlamentdə vahid fraksiyada birləşdilər. Fraksiyanın sədri Ə.Topçubaşov seçildi. İnqilabi çıxışlı millət vəkillərinin çoxluq təşkil etdiyinə görə 1906-cı

ilin iyulunda hökumət I Dövlət Dumasını buraxdı, II Dumaya seçkilər elan etdi. Müsəlman fraksiyasının Dumada birgə fəaliyyət göstərdiyi Kadet partiyası buna etiraz etdi. Bu etiraz bəyannaməsini Azərbaycan deputatlarından Ə.Topçubaşov və İ.Ziyadxanov da imzalamışdılar. Odur ki, Ə.Topçubaşov və Ə.Ziyadxanov üç ay azadlıqdan məhrum olunmaqla bərabər bir daha Dövlət Dumasına seçilmək hüququndan məhrum edildilər.

Ölkədə yaranmış siyasi vəziyyəti müzakirə etmək və qarşıda duran vəzifələri müəyyən etmək məqsədilə 1906-cı il avqustun 10-da Nijni-Novqorod şəhərində "Rusiya Müsəlmanlar İttifaqı"nın III qurultayı işə başladı və əvvəlki qurultaylarla müqayisədə daha canlı keçdi. Ə.M.Topçubaşov və İ.Qaspirdinin məruzələri xüsusi maraq doğurdu. Qurultay Ə.M.Topçubaşovun rəhbərliyi ilə keçdi və təşkilatı rəsmi olaraq siyasi partiya elan etdi. Rus imperiyası türk və müsəlman əhalisinin milli-azadlıq hərəkatının onların birgə mübarizəsi şəraitində mümkünlüyünü başa düşdü. Qurultayda 15 avqust hər il bütün Rus imperiyası müsəlmanlarının birlik günü kimi qeyd edilməsi qərara alındı. Bakı Rusiya imperiyası müsəlmanlarının müvəqqəti mərkəzi elan edildi [287, 163].

1907-ci il fevralın 20-də açılan II Dövlət Dumasına Rus imperiyası müsəlmanları daha mütəşəkkil gəlmişdilər. Kadet partiyasının platformasını müdafiə etsələr də, özlərinin xüsusi proqramı vardı. F.Xoyski və X.Xasməmmədov Dumanın müsəlman fraksiyasının büro üzvü seçilmişdilər. Ə.M.Topçubaşov deputat seçilməsə də, Dumanın müsəlman fraksiyasının işində yaxından iştirak edirdi. Həlledici, gərgin anlarda isə fraksiyanın iclaslarına şəxsən rəhbərlik edirdi.

II Dövlət Duması inqilabi olub çara xidmət etmədiyi üçün 3 iyun 1907-ci ildə qovuldu. Fərmanda deyilir: "Rus dövlətini möhkəmlətmək məqsədilə yaradılmış Dövlət Duması öz ruhu etibarilə rus Duması olmalıdır. Dövlətimizin tərkibinə daxil olan başqa xalqların nümayəndələri yalnız öz ehtiyaclarının nümayəndələri olmalıdırlar. Onlar xalis rus məsələsinin həll edilməsində qəti səsə malik olmalı və olmayacaqlar. Dövlət vətəndaşlığının kifayət qədər inkişaf etmədiyi ucqarlarda Dövlət Dumasına seçkilər müvəqqəti olaraq dayandırılır" [313,163]. Rus imperiyası ölkənin türk və müsəlman əhalisini "qeyri-yetkin" elan edərək, onun seçki hüququnu daha da məhdudlaşdırdı. Orta Asiya əhalisini bütünlüklə seçki hüququndan məhrum etdi. III Dövlət Dumasında Zaqafqaziya əhalisinə cəmi 5 deputat yeri, ruslara isə xüsusi olaraq I deputat yeri verilmişdi [275, 670; 313, 163]. Əvvəlki Dumalarda 46 millət vəkili ilə təmsil olunan müsəlman fraksiyası 1907-ci il noyabrın 1-də işə başlayan III Dövlət Dumasında 8 nəfərlə təmsil olunmuşdu [287, 118; 293, 71]. Deputat seçilməməsinə baxmayaraq, Dumanın müsəlman fraksiyasına yenə Ə.M.Topçubaşov rəhbərlik edirdi. Azərbaycan türk millət vəkili X. Xasməmmədov artıq istiqlal mübarizəsini birbaşa parlamentə keçirmişdi. O, Rus imperiyasının türk və müsəlman xalqlara qarşı müstəmləkəçi, qeyri-insani siyasətini bütün açıqlığı ilə tənqid və ifşa edirdi [316, 70-96]. 1912-ci ilin oktyabrında işə başlayıb 1917-ci ilə qədər fəaliyyətini davam etdirən IV Dövlət Dumasında Qafqaz müsəlmanlarının yeganə deputatı 27 yaşlı M.H.Cəfərov idi. Gəncliyinə baxmayaraq, dumada fəaliyyəti çox məhsuldar və inqilabi idi. O, hökumətə etimadsızlıq göstərən deputatların sırasında idi. IV Dövlət Dumasında da parlamentin müsəlman fraksiyası fəaliyyət göstərirdi. Əvvəllər olduğu kimi, IV Dövlət Dumasının fəaliyyəti dövründə də Ə.M.Topçubaşov və başqa Azərbaycan ziyalıları Peterburqa gedib müsəlman deputat fraksiyasına kömək edirdilər [316, 96-119].

Tarixdə "Rus inqilabı" kimi adlandırılan 1905-1907-ci illər inqilabının Azərbaycanda özünün ən yüksək zirvəsinə çataraq hakimiyyəti güzəştlərə məcbur etməsi xəbəri dünyaya yayılandan sonra Rusiyada tətil və nümayişlər başladı. Rus imperiyası xalqların milli-azadlıq hərəkatı ilə çulğalaşmış iqtisadi-sosial, siyasi-hüquqi dəyişiklik uğrunda inqilabi mübarizəsinin bu hərəkatın inqilabi səviyyəyə yüksəlməsində Azərbaycan cəmiyyətinin, Azərbaycan türklərinin bir millət olaraq yeri və rolu obyektiv dəyərləndirilmə-

lidir. Rus imperiyasında 1905-1907-ci illər inqilabından bəhs edərkən unudulmamalıdır ki, 1803-cü ildən - Rus qoşunları Azərbaycana daxil olan gündən burada ona qarşı silahlı mübarizə bir gün də olsun dayanmamışdır. Rus imperiyasına qarşı döyüşən silahlı dəstələr rus qoşunlarını Azərbaycandan çıxara bilməsələr də, düşmənin xalqın mənəviyyatına hakim kəsilməsinə imkan vermirdilər. "Xalq intiqamçıları" adlanan bu hərbi hissələr rus hökumətinin məmurlarına, onların yerli əlaltılarına xalqın heysiyyatına toxunmasını qəti bağışlamırdılar. M. Ə. Rəsulzadə Azərbaycan türklərinin həyatında bu cəhəti aydın sezərək yazmışdı: "Azərbaycan mənən heç bir zaman rus dövlətinə ram olmadı" [323, 90].

Xalq tərəfindən Rus imperiyasına qarşı döyüşən qaçaqlara qoşulmuş dastanları, nəğmələri aşıqlar toy məclislərində, el şənlik və mərasimlərində oxumaqla istiqlal ideologiyasını daima canlandırırdılar [279, 151-152]. M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycan davasının da qüvvət həyatiyatı, bu böyük fikrin, istiqlal ideologiyasının nəsildən-nəslə keçməsindədir" [317, 11].

1905-1907-ci illər inqilabı illərində Azərbaycan milli hərəkatı Rus imperiyasından ana dilində məktəb və mətbuat yaratmaq icazəsi, müsəlmanlara xristianlarla bərabər hüquq verilməsi tələbi ilə çıxış edirdilər. Bəzi tədqiqatçılar bu tələbləri dövlət müstəqilliyi ideyası olmayan liberal tələblər kimi şərh edirlər. Tamamilə yanlış izahdır. Tədqiqat obyekti etnos olan etnoqrafİya, tarix, fəlsəfə, sosiologiya, politologiya, etnopsixologiya sahəsində aparılmış tədqiqatların nəticələrindən aydın olur ki, hər bir etnosun özünü qonşuları və digər təmasda olduqları xalqlarla biz və onlar müqayisəsi, qarşıdurması etnosun milli şüura malik olmasını və inkişafda olmasını göstərən əlamətlərdir. Onun bərabər hüquqluluq iddiası isə yüksək səviyyədə milli özünüdərki, başqaları ilə müqayisədə özü haqqında üstün fikirdə olması, tarixi ilə qürur, iftixar duymaqla müstəqil dövlətçilik tələbindən başqa bir şey deyildir. Dünya milli-azadlıq hərəkatı tarixi belə deməyə əsas verir. Milli təşkilat və liderlərin müstəqillik məsələsini nə vaxt elan etməsi siyasi taktikadır. Cəsarət





və əminliklə bildirirəm ki, dünyanın heç bir xalqında XIX əsrin sonu - XX əsrin əvvəlləri Azərbaycan milli burjuaziyası və ziyalısı qədər xalqı ilə bağlı, praqmatik sosial təbəqə olmamışdır. Bütün ziyalıların əsərləri istiqlaldan, burjuaziyanın fəaliyyəti müstəqillik istiqamətində addımlarından ibarət olsa da, məqamı çatmayana qədər bu ideyanı sənədləşdirmədilər. Tarix elmləri doktoru X.Məmmədovun "Müsavat" partiyasına aid dediyi "Partiya real siyasi mübarizə yolunu tutmuş, avantürizmə qapılmamış, tarixi gerçəklikdən və mövcud siyasi vəziyyətdən çıxış etmişdir" [293,109] sözlərinin eyni ilə milli burjuaziya və ziyalılara aid edilməsi bütünlüklə ədalətli olardı.

Hadisələr göstərir ki, Azərbaycan türkləri siyasi cəhətdən parçalansalar da, etnomədəni, mənəvi cəhətdən vahid orqanizm olaraq yaşayırdı. Cənubi Azərbaycandakı demokratik hərəkat Şimaldakı hərəkatla sıx bağlı idi. Hərəkatın nəzəri-siyasi əsasları da eyni idi. Ölkənin hansı hissəsində doğulub böyüməsi, yaşamasından asılı olmayaraq, bütün sosial təbəqələr üçün vahid vətən - Azərbaycan, vahid millət - Azərbaycan türkü vardı. Cənubi Azərbaycan demokratik hərəkatı Şimali Azərbaycan burjuaziyası və ziyalısının daimi yardım və müdafiəsini görürdü [278, 209-214; 302; 318, 21; 319].

Azərbaycan demokratik və milli-azadlıq hərəkatı 1905-1907-ci illər Rus inqilabına həmişə impuls verirdi. Odur ki, Rus imperiyası ermənilər vasitəsilə Azərbaycan türklərinin milli-azadlıq hərəkatını etnik münaqişəyə çevirib, məhv etmək siyasəti yeritdi. İrəvandan Bakıya qədər Azərbaycanın bütün şəhər və kəndlərində rus ordusu və polisin himayəsi ilə türk və müsəlmanlara qarşı erməni silahlı basqını təşkil olunurdu. Rus imperiyası birinci növbədə milli siyasi şüurun, mütəşəkkilliyin daha yüksək olduğu şəhər və qəsəbələrdə əhalinin iradəsini qırmaq, gözünü qorxutmaq istəyirdi. Susdurulmalı şəhərlərdən birincisi Gəncə seçilmişdi. Gəncə şəhəri rus ordusu və polisinin gözü qarşısında ermənilər tərəfindən oda qalandı. Çox adam ölüm və yanğın belə davam edərsə, Gəncədən heç nə qalmayacağı haqqında düşünürdü. Lakin gecənin düşməsi ilə hər şey

əksinə dəyişmişdir. Dəli Alının silahlı hissələri ilə birləşən vətənpərvərlər erməni hərbi hissələrini məhv etmiş, erməni məhəllələrini mühasirəyə almışdılar. Dəli Alının ətrafında toplanmış vətənpərvərlərlə döyüşə girməyə cəsarət etməyən rus hərbi rəhbərliyi döyüşün dayandırılması xahişi ilə Ələkbər bəy Rəfibəylinin yanına nümayəndə göndərdi. Bütün Azərbaycan miqyasında ermənilər məğlub olan anlarda rus rəhbərliyi Azərbaycanın burjuaziyası, bəyləri, ziyalıları və ağsaqqalları vasitəsilə döyüşləri dayandırmağa nail oldu, erməniləri xilas etdi. Milli mentalitet öz işini görürdü. Ermənilər və ruslar Azərbaycan türklərinin barış istəyini, bağışlamaq, kimliyindən asılı olmayaraq verdiyi sözə əməl etmək xasiyyətindən asanlıqla istifadə edərək istədiyi məqamda onları danışığa, barışa cəlb edib vaxt qazanır, fürsət düşən kimi ona arxadan zərbə vururdu. Bu ağır illərdə Azərbaycan türkləri ən çox bu səbəbdən itki verirdi [287, 82-97, 120-126; 306, 26-34; 314; 315].

Yuxarıda Azərbaycan türklərinin həyatından gətirdiyimiz misallardan aydın olur ki, milli inkişaf, millətlər arası rəqabətdə qələbənin kimin tərəfində olması həmişə mənəvi inkişafan, etnosun mənəvi dəyərlərinin məzmun və formasından asılı olur. Milli inkişafda iqtisadi səbəbləri bütünlüklə inkar etmək fikrində deyilik və bu mümkün də deyil. Tarixi faktlar göstərir ki, iqtisadiyyat bütün hallarda milli inkişafın əsası ola bilmir. Əgər iqtisadiyyat milli inkişafın əsası olsaydı, dünyada ən inkişaf etmiş ölkə Azərbaycan, geridə qalmış xalq yaponlar olmalı idi. Göründüyü kimi, hər şey əksinədir. Deməli, milli inkişafın başlıca səbəbləri etnosun mənəvi dünyasında axtarılmalıdır.

İnsanlar dünyaya yayılıb tarixən yaşadığı təbii-coğrafi, iqtisadi-sosial, siyasi-mənəvi şəraitin, etnik tərbiyə və ideologiyanın, dinin təsiri altında qazandığı xüsusiyyətlərilə bir-birindən fərqlənən toplumlar kimi formalaşırlar. Elə bu xüsusiyyətlərin nəticəsində, təsiri altında toplumların bəzisi quldarlığı keçmədən birbaşa feodalizm qurmuş; digəri feodalizmdə qısa müddətdə yaşadığı halda, başqasında feodalizm min illər davam etmişdir. Bəzi toplumların nümayəndələri başqa xalqlar arasında ancaq 2-3 nəsil yaşaya bildiyi halda, elə xalqlar vardır ki, onların nümayəndələri başqa millətlər arasında min illərlə yaşayır, assimilyasiya olunmur. Deyilənlərdən aydın olur ki, milli varlığın qorunması, yaşadılması və inkişafı birinci növbədə etnosun mənəvi dünyası ilə bağlıdır. Etnos (qəbilə, tayfa, xalq, millət) "biz" və "onlar", "biz beləyik", "onlar elədir" müqayisəsi, fərqləndirməsi ilə doğulur və varlığını davam etdirir. Etnosda bu hissin zəifləməsi, kosmopolitləşməsi onun inkişaf yolunu əyir və tədricən parçalanması ilə nəticələnir. Mədəniyyətin (mənəviyyatın) ikiləşməsi etnosa özünüdərkə imkan vermir, inkişaf ləngiyir, təmasda olduğu etnosun təsiri altında mədəniyyət-mənəviyyat dəyişməsinə məruz qalmaqla, assimilyasiya olunur. Uzun müddət süst vəziyyətdə qalır [120]. Bu hal Azərbaycan türklərinin etnik tarixində də özünü aydın göstərir. Azərbaycanın dövlət idarələrində fars dilinin yazı dilinə çevrilməsi Azərbaycan türklərində elmi şüurun kütləviləşməsinin qarşısını almaqla bərabər milli mədəniyyət və mənəviyyatı parçalayıb ikiləşdirməklə uzun müddət milli özünüdərki, millətləşməni ləngitdi. Azərbaycan türklərinin dünyagörüşündə müəyyən dövrdə yaranmış bu kosmopolitizm tarixin həlledici məqamlarında ona lazımınca rəqabət qabiliyyəti göstərməyə imkan vermədi.

Azərbaycan türkləri əsrlərlə İranın hakim milləti olsa da, "xəlqi idarəcə gördüyü ağırlığı başqalarından deyil, öz cinsindən gördüyü üçün həqiqi məhkumiyyətini, mənəviyyatca başqa bir hərsin məhkumu olduğunu dərk etmiyordu. O, get-gedə farslaşıyordu. Xəvass təhsilini farsca görüyor, fars tərbiyəsi alıyor, fars kibi düşünüyor və kəndisini doğrudan-doğruya iranlı olduğuna qane oluyordu. Xalqın həll və əqidini əlində bulunduran bu xəvvas kibi mənəviyyatına hakim olan ülama sinfi dəxi eyni ruhda, eyni tərbiyədə və eyni zehniyyətdə idi... Türkcə, əvam və köylü lisanı əda olunmuş, lisani-rəsmi və ədəbi olmaq üzrə farsi təmin eyləmiş, nəticədə tühəf bir millət vücudə gəlmişdi: dili başqa, yazısı başqa bir millət!

Məvarayi-Əras Azərbaycanın halı bu haldır. Orada hər kəs türkcə söylər, fəqət iş yazıya gəlincə, farsi kəsilir" (320, 14]. M.Ə.Rə-

sulzadənin aşağıda iqtibas edəcəyimiz fikrindən aydın olur ki, yuxarıda iqtibas etdiyimiz fikir əsasən ziyalı təbəqəyə aiddir. M.Ə.Rəsulzadə yazır: "Əvət! Rəhləsi üstündən enməyən Füzulısi, Koroğlu ilə bağlı Yanıq Kərəmə ağlayan aşiqləri, bu aşiqlərin ürək dağlayan sazları ilə çobanların ruhə sinən türküləri, cocuqların sevə-sevə oxuduqları maniləri, anaların yavrularını uydurarkən çağırdıqları ninniləri - xəvvasının düşüncəsi ilə kəndisini iranlı bilən bu xəlqin müdhiş bir zəlalətdə olduğunu göstəriyor:

- Xayır, değil, sən türksən! - deyiyordu" [320, 13]. M. Ə. Rəsulzadə Azərbaycan türkələrinin hissiyatını oyadan səbəbi belə izah edir: "Rus istilasının xeyiri bu oldu ki, azərbaycanlılar özlərini ictimai bir vücud, xüsusi mədəniyyət toxumlarını daşıyan bir cəmiyyət, yəni ruslardan ayrı bir millət olduqlarını hiss etməyə başladılar" [321,34]. M.Ə.Rəsulzadə Azərbaycan türklərinin milli hisslərinin bütün incəliyinə qədər oyanmasının səbəbi haqqında yazır: "Şimali Azərbaycan, Rus təhti-idarəsinə keçdikdən sonra siyasi hüququnu kamilən itirmiş, məhkumiyyətin acısını tamamilə dadmışdı. Əvvəlki zamanda, o gördüyü hərs məhkumiyyətini müştərək bir din və müştərək mədəniyyət təsiri ilə sezməyirdi. Çünki o zaman milliyyətini - sözün bu günkü mənası ilə - daha müdrik deyildi. Getdikcə farslaşan Azərbaycan türkü bu dəfə ruslaşdırmaq siyasətinə məruz qalıyordu. Təbii idi ki, bu hal xalqın həssas əsəblərinə toxunuyor, müdafiəyi-nəfs hisslərini dərindən qıcıqıyordu. Bunun üçün dəxi xəlq kəndısini düşünməyə məcbur idi" [320,16]. Azərbaycan türklərinin dili, dini, inam və etiqadları, adət-ənənəsi, təsərrüfat məişəti və ümumiyyətlə, dünyagörüşü ilə ona zidd olan bir etnosun əsarətinə düşməsi onun bütün hiss və duyğularını oyatdı. O, nəinki rusa qarşı çıxdı, islam ideologiyası zəminində farslarla müştərək mədəniyyət yaradıcılığına da son qoydu. M.F.Axundovla başlayan türk dramaturgiyası və ədəbiyyatı, ədəbi-bədii həyatın bütün sahələrində canlanma yaratmaqla bütün sahələrdə milli hissləri və şüuru oyadırdı. Nəhayət, Ü.Hacıbəyovun əsərləri milli ruhu bütün incəliyinə qədər oyandırdı və səfərbər etdi. Milli türk məktəblərinin açılması və inkişafı uğrunda mübarizənin əks-sədası milli şüurda fasiləsiz rezonans doğururdu. İqtisadi yüksəliş, kapitalist münasibətlərinin inkişafı, bunun əsasını təşkil edən elmi mühit nəinki elmi-siyasi şüurun inkişafına imkan verir, milli inkişafa kompleks şərait yaradırdı.





Sadə bənzətmə ilə desək, millətin varlığı adi bir insan orqanizmini xatırladır. İnsan baş, göz, əl, ayaq, qan dövranı və s. hissələrdən ibarət olduğu kimi, etnos da ziyalı, burjuaziya, fəhlə, kəndli, sənətkar və s. sosial təbəqələrdən ibarətdir. Milli orqanizmdə hər bir sosial təbəqənin öz funksiyası var. Sosial təbəqələr öz funksiyasını normal icra etdiyi şəraitdə toplum vahid orqanizmə çevrilə, milli iradə nümayiş etdirə bilir. Fərdi orqanizmdə başın-beynin funksiyası etnososial orqanizmdə ziyalı sosial təbəqənin funksiyasına uyğun gəlir. Baş-beyin zədələnəndə bütün bədənin fəaliyyəti iflic olduğu kimi, ziyalı qeyri-sağlam, kosmopolit, ümumiyyətlə, milli tələbatı ödəyəcək səviyyədə olmayanda, millət iflic olur, onun vəhdəti pozulur. Sosial təbəqələr normal və harmonik işləmədikdə əhali topluma çevrilə və milli iradə nümayiş etdirə bilmir, etnosun parçalanıb tədricən başqa etnosun hissələrinə çevrilməsi, onun içərisində əriyib yox olması, ölməsi prosesi gedir. Bunu lazımınca bilən Rus imperiyası milli varlığın təşkilatlandırılması, tənzimlənməsində əsas yer tutan xan, bəy, hərbçi, zadəgan, ziyalı, dini zümrələri ona xidmət edəcək süni yaradılmış sosial təbəqələrlə əvəz etməklə bu sosial təbəqələri məhv etmək siyasəti yeridirdi. Dövrün mənbə və tədqiqatlarından aydın olur ki, imperiya istəyinə nail ola bilmədi. XIX əsrin sonu - XX əsrin əvvəlləri Azərbaycanın bəy, zadəgan, ziyalı, burjuaziyası dünyanın heç bir xalqının eyni adlı sosial təbəqəsi ilə müqayisəyə gəlməyəcək üstünlüklərə malik milli zümrələr olmaqla siyasi hakimiyyətin, müstəqilliyin olmadığı bir şəraitdə milli inkişafı təmin etdilər. Millətin "Qurani-Kərim" təməlində, islam mövqeyində durmayan, yeniləşməyən yeganə sosial təbəqəsi dini idarələrdə kök salmış zümrə idi [320,16]. Azərbaycan ziyalıla-

rının fədakar əməyi, düzgün siyasəti nəticəsində İslam dini milli varlığın qorunması, yaşadılması və inkişafında böyük rol oynadı.

1905-ci il inqilabına qədər Azərbaycan milli hərəkatında, onun təsir vasitələrində fasilələlik və pərakəndəlik var idisə, bu inqilabda Azərbaycan türkləri milli iradə nümayiş etdirdi. "Fəqət Rusiya inqilabi-sağirini təşkil edən 1905-ci il sənəsi, Rusiya türkləri üçün milli inkişaf dövrünün ibtidasını təşkil eyləmişdir. Müəssısati-ictımaıyə ilə hürriyyəti-mətbuat nöqteyi-nəzərindən bir parça müsaidat ilə nəticəpəzir olan bu inqilabdan bilavasitə bütün Rusiya türklərində olduğu kimi, Azərbaycan türklərində də sürətli bir hərəkəti-milliyə başladı. Bu hərəkət bir tərəfdən milli mətbuat təsisi, digər tərəfdən də milli məktəb və ümuri-diniyyənin millətin kəndisi tərəfindən müntəxab əşxas və müəssisat vasitəsilə idarə edilməsi dəvasından ibarət idi" [320, 18]. Artıq bu hisslər varlığa hakim kəsilmişdi. Rus imperiyası isə onun istiqlal davasını erməni-müsəlman davasına çevirirdi. Çünki ermənilərin onları məhv edə biləcəyinə inanırdı. Qafqazın türk və müsəlmanları orduya aparılmırdı, onlara silah gəzdirmək də qadağan edilmişdi. Lakin müharibənin başlanması ilə Rus imperiyasının ümidləri puç oldu. Ziyalılar milli varlığın qorunması üçün silahlı birlik yaradılmasının vacibliyini elan edən kimi "Difai" təşkilatı yarandı, vətənin, xalqın şərəfinin, varlığının qorunması naminə canını və malını təmənnasız qurban verməyə hazır minlərlə insan meydana çıxdı. Hərbi ruhu ölmüş hesab edilən Qafqazın türk və müsəlmanları erməni təcavüzünü nəinki dayandırdılar, onu məğlub etdilər. Bu müharibənin təşkilatçıları "rusların da gözlərini qorxutdular" [306, 20]. Artıq hərbçi sosial təbəqənin də olduğu aşkarlanmaqla Azərbaycanda müstəqil dövlətçiliyə layiq, onun varlığını təmin edəcək bütün sosial təbəqələrin yetişdiyi meydana çıxdı. M. Ə. Rəsulzadənin sözləri ilə desək, "istiqlal davası" dönməz idi. Çünki ölkənin iqtisadi-sosial, mədəni-mənəvi, siyasi həyatının bütün sahələrinə nəzarət edəcək, milli tərbiyə sisteminə və həyat tərzinə malik toplum - Azərbaycan türk milləti vardı. O, millət olaraq iradə nümayiş etdirirdi.





Dövrün mənbələrindən aydın olur ki, Qafqaz xalqlarının istiqlal mübarizəsi vahid milli hərəkat xarakteri daşıyırdı. Bu, Qafqaz müsəlmanlarını birləşdirən siyasi məqsədlərdən deyil, doğuluşdan birgə yaratdıqları mədəniyyət, adət-ənənə, inam və etiqadlardan irəli gəlirdi. Eyniyyət o qədər güclü idi ki, ailələrə daxil olarkən eşıdilən yeni bir dil, burada ikinci bir xalqın yaşaması fikri doğura bilmirdi. Qafqazın müsəlman etnik qrupları arasında tarixən mövcud olmuş sərbəst nikahlar onların vahid mədəniyyətə, adət-ənənəyə, dilə, psixologiyaya yiyələnməklə millətləşməsinin səbəblərindəndir. Rus işğalçıları Azərbaycanın etnik qruplarını türklərdən fərqləndirə bilmədiklərindən, onları türklərlə eyniləşdirib tatar adlandırırdı. Rusların fəaliyyətində, təbliğatında türklərdən və ümumiyyətlə, türklükdən qorxduğu həmişə hiss olunurdu. Qafqaz müsəlmanları - avar, tat, talış, ləzgi və b. etnik qrupları rusların qorxduğu türklərlə eyniləşdirməsi bu etnik qruplarda qürur və türklüyə rəğbət doğururdu. Onlar türklərlə birlikdə tatar adı altında alçalmaya müqavimət göstərir, türklüyü qoruyurdular. Bu vahid mədəniyyətə, adət-ənənəyə, inam və etiqada, dinə malik etnik və etnoqrafik qrupların vahid milli şüura yiyələnməklə millətləşməsi mərhələsi idi. Millətləşməyə təsir edən iqtisadi-sosial, siyasi-mənəvi səbəblərlə bərabər 1905-ci ildən yaranan çoxsaylı milli mətbuatın türk özünüadlandırması uğrunda apardığı mübarizə türk etnoniminin Qafqaz türklərinin etnik özünüadlandırmasından mədəniyyəti, adət-ənənəsi, inam və etiqadı, dini eyni olan Azərbaycanın etnik və etnoqrafik qruplarının vahid özünüadlandırmasına çevrilməsində yetərincə xidməti oldu.

1937-ci ildə Rus Sovet imperiyası Azərbaycan türklərində "türk" sözünün doğurduğu hərbi məğlubedilməzlik psixoloji impulsunu öldürmək, onları türk mənəvi-psixoloji dəyərlər sistemindən ayırmaq məqsədilə zorakı surətdə türk etnonimini qadağan edib süni surətdə Azərbaycan türkləri üçün azərbaycanlı etnonimi yaratdı. Sonra Azərbaycanın etnik qruplarında yaranan azərbaycanlı-talış, azərbaycanlı-tat, azərbaycanlı-avar və s. ikili etnonimləri yarandı.

Əvvəllər bu etnonimlər türk-tat, türk-avar, türk-talış və s. formasında olmuşdur.

Göründüyü kimi, Azərbaycanın müsəlman etnik qruplarının etnik mənşəyi bildirən özünüadlandırmanı saxlamaqla bərabər türk etnoniminə keçməsinin başlıca səbəbi onların vahid Vətənə, mədəniyyətə, adət-ənənəyə, dinə və dilə malik olmaqla etnokonsolidasiya prosesinin onları tam yekdilləşdirməsidir. Bu prosesdə siyasi amillər də müəyyən dərəcədə rol oynamışdır. Rus imperiyasının Azərbaycanın müsəlman etnik qruplarının türklərdən fərqləndirə bilmədiyindən onları eyni sıxıntıya məruz qoyması, Osmanlı imperiyasının Qafqaz müsəlmanlarını həmişə Rus irticasından müdafiə etməsi də onlarda türklüyə rəğbət doğuran səbəblərdəndir. Dövrün mənbələrindən aydın olur ki, Rus imperiyasının - siyasi hakimiyyətin iradəsinin əleyhinə olaraq türk etnoniminin Azərbaycanın etnik və etnoqrafik qrupları üçün ümumi birləşdirici etnonimə, özünüadlandırmaya çevrilməsini ziyalılar yekdilliklə müdafiə edib reallaşdırmışdır.

Artıq Rus imperiyası Balkanlarda Türkiyəyə qarşı müharibəyə başlayanda Azərbaycanda vahid milli türk şüuruna malik millət vardı. Azərbaycan gəncləri və müəllimləri könüllü Balkanlara gedir, türklərin tərəfində döyüşür, Azərbaycanda türklərə kütləvi yardım toplanır, bu işdə qadınlar da fəallıq göstərirdi. Azərbaycan deputatı IV Dövlət Dumasında Rus imperiyasının antitürk, antimüsəlman siyasətinə müqavimət göstərirdi [288, 43; 320, 23; 316, 96-119]. Göründüyü kimi, Azərbaycan türklərinin sosial təbəqələrinin vahid milli orqanizmə çevrilmiş, vahid davranış stereotipinə malik olmaqla aydın milli mənlik şüuruna, özünü digər etnoslardan fərqləndirmək, müştərək məsələlərdə onlardan özünə qarşı layiq olduğu yeri tələb etmək, milli ləyaqətini və varlığını qorumaq üçün təşkilatlanmaq qabiliyyətinə malik millətin təşəkkül tapdığını nümayiş etdirirdi. Elə bu xüsusiyyətləri nəzərə alan M.Ə.Rəsulzadə yazırdı: "Qafqasiya türklüyü böyük müharibə ərəfəsində və ixtilali-kəbirin partladığı zamanda pək də hazırlıqsız deyildi. Gərçi vəzaif və məqasidi-





milliyyətinin əzəmət və müşkilatı ilə mütənasib bir təşkilata daha malik deyilsə də, artıq siyasi idrakdan məhrum, arzuyi-millisi təzzüv etməmiş şəkilsiz bir kütlə halında dəxi deyildi. Həyatını ibraz edəcək vasitələrə malik, diri və yaşamaq istədiyini hiss etdirəcək zıruh bir vücud halında idi [320,25].

"Difai" partiyası Azərbaycan türklərinin hadisələrə qarşı kütləvi hərbi-siyasi təşkilatlanmasının əsasını qoydu və onu ciddi, dəqiq təşkilatlanma qaydalarına yiyələndirdi. "Difai" təşkilatını da öz içinə alan "Müsavat" partiyası Azərbaycan türklərini şəraitə uyğun olaraq istiqlala doğru ardıcıl təşkilatlandırırdı. "Müsavat" partiyasının lideri M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr olunan "Açıq söz" qəzeti rəsmən elan olunmasa da, əslində "Müsavat" partiyasının orqanı idi və milli ideologiyanın zənginləşdirilməsi və xalqa aşılanmasına xidmət edirdi. Qəzetin ilk sayından sərlövhəsinin altında "gündəlik türk qəzetidir" sözləri yazılmışdı. Dövrün ciddi tədqiqatçılarından T. Svyatoxovski yazır ki, "Açıq söz" qəzetinin "türk dili", "türk milləti", "türk qəzeti" ifadələri "heç bir etiraz doğurmadan" Qafqaz müsəlmanları olan azərbaycanlılara verilən ad qarışıqlığına son qoydu [293, 120], türk özünüadlandırması milli şüurda bütün incəliyi ilə öz yerini tutdu.

I Dünya müharibəsinin başlanması dünyada, xüsusilə Şərqin müsəlman xalqlarında milli-azadlıq hərəkatlarını daha da canlandırdı. Müsəlman xalqlar arasında Azərbaycan milli-azadlıq hərəkatı mütəşəkkilliyi ilə fərqlənirdi. Milli-azadlıq hərəkatının liderlərindən M.Ə.Rəsulzadənin yaradıcılığında əvvəlki dövrlərdə milli varlığın qorunması və yaşadılmasının müxtəlif səbəb və şərtlərindən bəhs olunurdusa, bu illərdən onun yaradıcılığında milli istiqlal milli varlığın yaşadılmasının başlıca şərti kimi izah olunurdu: "Dünyanın mütəmadi millətləri öz diriliklərini təmin üçün cəhənnəmi silahlarla müsəlləh olub bir-birlərinin üstünə hücum edirlər. Nə əcaib bir tələqqi ki, istədikləri kimi dirilə bilmək üçün ölümü qəbul edirlər. Dirilmək üçün ölürlər" [287, 51-56; 293, 109, 118]. Göründüyü kimi, Azərbaycan xalqı istiqlalını qazanmaq üçün savaşa hazırlanır-

dı. Azərbaycan milli azadlıq hərəkatının mütəşəkkil yüksələn xətlə inkişafının başlıca səbəbi ziyalı və elitanın müstəqillik ideyasını dəstəkləməklə bərabər, onu zənginləşdirib kütlələrə aşılaması idi. Milli hərəkatın yüksələn xətlə inkişaf etməsinin digər səbəbi Rus imperiyasının özünü türk və müsəlman xalqların düşməni kimi aparması idi. Rus ordusu keçdiyi bütün yerlərdə müsəlman əhalini talayır və təhqir edirdi. Rus imperiyasının müsəlman əhalinin milli hisslərini açıq təhqir etməsi xalqda antirus əhvali-ruhiyyəni gücləndirirdi. İmperiyanın bu hərəkəti IV Dövlət Dumasının deputatı M.Y.Cəfərovun kəskin etirazı ilə qarşılandı. Azərbaycanda dövlət müstəqilliyi ideyasının açıqlanması ilə nəticələndi [293, 112-113]. Qafqaz müsəlmanlarının nifrətini, qəzəbini sakitləşdirmək üçün imperiya bəzi güzəştlərə getməyə məcbur oldu. 1916-cı ildə gözlənilmədən Qafqaz cəbhəsində Rus qoşunları Osmanlı qoşunlarına qalib gəldi, çoxlu türk əsgərləri əsr götürüldü. Türk əsirlərinin Bakının küçələrindən Nargin adalarına aparılmasını görən "Rus qoşunlarının Ərzurumu istila etməsini dua və mərasimlərlə alqışlayan din xadimləri öz həmdinlərinini əsir və qolubağlı gördükdə həyəcan və sarsıntı keçirməyə başladılar" [293, 114]. Nəhayət ki, bu zümrənin də vicdanı və milli hissi oyandı.

Azərbaycan türkləri Nargin adasında saxlanılan türk əsgər və zabitlərini himayə etməyə və qaçırmağa başladılar. Azərbaycanda kütləvi surətdə türk ordusuna ianə toplandı. Rus kəşfiyyatı müəyyən etmişdi ki, Türkiyəyə rəğbət kütləvi olub, əhalinin bütün təbəqələrini əhatə edir. Tədqiqatçıların qənaətinə görə, islam ideologiyası nə qədər güclü olsa da, artıq bu illərdə türkçülük ideologiya kimi ön mövqeyə çıxmışdı [293, 117].

Rus imperiyasının Qafqaz cəbhəsində Türkiyəyə qələbəsi keçici, təsadüfi idi. Rus ordusu başıpozuq qüvvə kimi ardıcıl dağılmaqda idi. Əlacsızlıqdan, zərurət qarşısında qalan Rus imperiyası 1915-ci il iyunun 15-də "Özgə xalqlar" adlandırdığı müsəlman xalqların 18-45 yaşlı kişiləri arxa işlərdə istifadə edilmək üçün səfərbərlik haqqında fərman verdi. Lakin Çar hökuməti Qafqaz müsəlmanları arasında bu səfərbərliyi lazımınca həyata keçirə bilmədi. Bunun bir səbəbi bir əsr müddətində müsəlmanların orduya aparılmaması idisə, digər başlıca səbəb Rus imperiyasının özünü açıq türk və müsəlman düşməni kimi aparması idi. Əlacsız qalan hökumət Qafqaz ruhani idarəsinə 80 min əsgər toplanmasına yardım etməyi xahiş etdi [293, 127-128]. Ruhani idarəsinin də kömək etmək təşəbbüsü bir nəticə vermədi. Rus hökumətinin heç bir tədbiri vəziyyəti yaxşılığa doğru dəyişə bilmir, iqtisadiyyat dağılır, istehsal çökür, müharibə cəbhələrində Rus ordusunun ardıcıl məğlubiyyətləri hər yerdə xaos, başıpozuqluq yaradırdı. Ardıcıl olaraq hakimiyyətə inam itirdi. Kəndli və fəhlə hərəkatı ölkəni bürümüşdü. İqtisadiyyatda hakim sosial təbəqə burjuaziya və digərləri vəziyyətdən çıxış yolu axtarırdılar. İstiqlal savaşında olan xalqlar isə yaranmış şəraitdən bəhrələnmək istəyirdilər. Artıq Azərbaycanda rus hakimiyyətinə qarşı çevrilmiş 5-dən 200 nəfərə qədər döyüşçüsü olan silahlı dəstələr yaranmışdı. İmperiya milli-azadlıq hərəkatını yatırmağa cəbhədəki məğlubiyyətləri aradan qaldırmaqdan çox vəsait və güc sərf edirdi. Rus imperiyası Qafqaz müsəlmanlarına qarşı daha amansız idi. Lakin heç bir tədbiri vəziyyəti dəyişdirə bilmirdi. Çoxdan davam edən nümayiş və tətillər nəhayət 1917-ci il fevralın 14-də Peterburqda "Rədd olsun çar mütləqiyyəti!", "Rədd olsun müharibə!", "Yaşasın II Rus inqilabı!" və başqa tələblərlə çıxış etdi, bütün ölkəni inqilabi hərəkat bürüdü, fevralın 26-da tətil hərəkatı silahlı üsyana çevrildi, 300 il hökmranlıq etmiş Romanovlar sülaləsi devrildi. 1917-ci il martın 1-də Q.Y.Lvovun başçılığı ilə Müvəqqəti hökumət yaradıldı. Müvəqqəti hökumət Transqafqazdan olan Dövlət Dumasının deputatlarının təşəbbüsü ilə mart ayının 9-da Zaqafqaziyanı idarə etmək üçün Dövlət Dumasının yerli üzvlərindən ibarət xüsusi Zaqafqaziya Komitəsi yaratdı. Komitənin sədri kadet V.A.Xarlamov, tərkibi menşevik A.İ.Çexenkeli, sosial-federalist K.Abasidze, bitərəf M.Y.Cəfərov və kadet M.M.Papacanovdan ibarət idi. Müvəqqəti hökumətə tabe olan xüsusi Zaqafqaziya Komitəsi mülki işlər idarəçiliyi səlahiyyətinə malik idi. Qanunvericilik hüququ yox idi. Xüsusi Zaqafqaziya Ko-

mitəsi yaradılarkən Zaqafqaziyada hərbi-siyasi, milli-azadlıq hərəkatları, müxtəlif baxışlı partiyaların fəaliyyəti, hadisələrə beynəlxalq imperializmin təsiri burada siyasi, milli, mənəvi hərəkatları o qədər canlandırmışdır ki, komitə hadisələrə nəzarət etmək gücündə deyildi. Müstəqillik ideyaları o qədər güclü idi ki, bu istiqamətdə aşağıdan təşkilatlanma gedirdi. Azərbaycanın bütün şəhərlərində, böyük yaşayış məntəqələrində yaranan Müsəlman Milli Şuraları və onların tədbirləri müstəqilliyə doğru təşkilatlanmadan ibarət idi. Bakıda müxtəlif milli qruplar, neft sənayeçiləri ittifaqlarının da daxil olduğu ictimai təşkilatların İcraiyyə Komitələri özünüidarə istiqamətində addımlar atmaqda idi.

Xüsusi Zaqafqaziya Komitəsi güclü bir idarəetmə orqanı kimi formalaşa bilmədiyindən, yerlərdə milli tərkibli yerli idarəetmə orqanlarının təşkılini öz fəaliyyətində əsas tutmağa çalışırdı. Buna görə də ölkəni əvvəlki canişinlərin, qəza rəislərinin əvəzinə xalq tərəfindən seçilən komissiyalar idarə edirdi. Şəhərlərdə bələdiyyə idarələri xalqın nümayəndələrinin əlinə keçmişdi. Belə idarəçilik orqanları əsasən ictimai təşkilatların icraiyyə komitələrinin əlində cəmlənmişdi. Yelizavetpolda (Gəncədə) belə icraiyyə komitəsinə X.Xasməmmədov, Lənkəranda isə A.Talışınski rəhbərlik edirdi [325, 20]. Lakin siyasi vəziyyət elə bir həddə gəlib çatmışdı ki, milli hərbi "qüvvələrin olmaması milli azadlıq mübarizəsində əldə edilən nəticələrin qorunub saxlanacağını da şübhə altında qoyurdu" [324, 32]. Y.V.Çəmənzəminli yaranmış vəziyyəti dərindən təhlil edərək yazırdı: "Rusiya bu saat alt-üst olur. Başsızlıq o qədər artıb ki, sabaha sağ çıxmağa ümid yoxdur. Azərbaycan da Rusiya kimidir. Bir tərəfdən də rus soldatları camaatımıza qorxu çəkdirir... Ölkə nizama salınmalıdır. Köhnə rus hökuməti öldü. Təzəsi yoxdur. Olsa da, ondan bızə bir o qədər fayda olmayacaq... Bizim milli və dini ehtiyaclarımızı özümüzdən başqa özgəsi düşünə bilməz. Böylə olduqda cəmi məsələlərimizin həllini Milli Məclisdən gözləməli. Ən əvvəl millət məclisinin borcudur ki, ölkəmizi dərəbəylik bəlasından qurtarsın. Çünki bu nizamsızlıq uzun çəksə, camaatımız tərk olub gedər. Ümid budur ki, muxtariyyətimiz başa gələn kimi milli qoşunumuz vasitəsilə Azərbaycanda əmin-amanlıq hasil olar [326, 28].





Göründüyü kimi, Azərbaycan ziyalıları, elitası milli varlığın qorunması və yaşadılması üçün milli strukturda hər bir sosial təbəqənin vəziyyətini və funksiyasını dəqiqliklə dəyərləndirə bilirdi. Hərbçi sosial təbəqənin olmaması milli varlıq üçün aşkar təhlükə yaradırdı. Rus imperiyası Qafqazın türk və müsəlman əhalisini orduya cəlb etmədiyindən milli varlığın qorunmasının və yaşadılmasının zəruri şərti olan hərbçi sosial təbəqə yaranmamışdı. Bu dövrdə rus ordusunda cəmi 200 nəfər azərbaycanlı zabit xidmət edirdi. Bu da milli tələbatı ödəyəcək səviyyədə deyildi. Lakin mənbələrin məlumatından aydın olur ki, Azərbaycan türklərinin orduya cəlb edilməməsi onun hərbi təşkilatlanma qabiliyyətinə mane olsa da, hərbi ruhunu öldürə bilməmişdi. 1905-ci ildən Rus imperiyasının təşkil etdiyi erməni-müsəlman savaşları, I Dünya müharibəsi zamanı rus ordusunun müsəlman xalqlara düşmən münasibəti Qafqazın türk və müsəlmanlarının yüksək hərbi təşkilatlanma qabiliyyətinə malik olduğunu göstərdi. Odur ki, Azərbaycan ziyalıları, elita ordu quruculuğu məsələsində çox da pessimist deyildilər. Bu işin sürətlə təşkili zərurətə çevrilmişdi. Məhz buna görə onlar milli hərbi strukturlar yaradılana qədər istiqlal ideyasını rəsmiləşdirmir, müstəqilliyin ilkin zəruri şərtlərini hazırlayırdılar. Milli təşkilat və qüvvələrin birləşməsi istiqamətində fəaliyyət göstərirdilər. Bakıda yaradılan müsəlman milli təşkilat və cəmiyyətləri Ə.Topçubaşovun rəhbərliyi ilə müsəlman ictimai cəmiyyətlərinin şurasını yaratdılar. Şuranın icraiyyə komitəsinə M.H.Hacınski rəhbərlik edirdi. Azərbaycanın milli-azadlıq hərəkatının liderləri M.Ə.Rəsulzadə, F.Xoyski və b. görkəmli şəxsiyyətlər bu ictimai təşkilatda birləşmişdilər. Şurada ən böyük nüfuza malik partiya "Müsavat" partiyası idi. Artıq o, ümumazərbaycan partiyasına çevrildi [325, 20; 327, 31]. İctimai təşkilatlar şurasının Müvəqqəti İcraiyyə Komitəsi ətrafında birləşən milli qüvvələrin sayı daha da artırdı. Komitənin ideyaları zəhmətkeş kütlələr arasında da geniş əks-səda tapırdı. Özünün ümummilli xətti ilə getdikcə küt-

ləviliyini artıran Müsəlman İctimai Təşkilatları Şurası Bakıda siyasi qüvvələr nisbətinin də dəyişməsinə ciddi təsir göstərirdi. Çünki Müsəlman Şurasının bazasının genişlənməsi bolşeviklərin cəmiyyətə ictimai rəhbərlikdən sıxışdırılmasına səbəb ola bilərdi [325, 21]. Fevral burjua inqilabının qələbəsi ilə leqal fəaliyyətə keçən partiyalardan biri RSDFP idi. İnqilabi mübarizənin Romanovlar sülaləsini süpürüb atmasının doğurduğu qalib gəlmək hissi, I Dünya müharibəsinin ölkədə yaratdığı ağır iqtisadi-sosial şərait, Müvəqqəti hökumətin müharibəni davam etdirməklə dərhal məğlubiyyətə uğraması ilə özünə qarşı heç bir inam hissi yarada bilməməsi, zəif hakimiyyət şəraiti bolşevik - kütlə ideologiyası Rusiyada, məhz rus proletariatı arasında özünə maksimum münbit şərait tapmaqla onda sosial-ədalət dövləti qurmağa layiq sinif olması illüziyası yaratmışdı.

Azərbaycan türklərinin ictimai şüurunda bolşevizmə yer olmadığı üçün Azərbaycanda RSDFP-nin müstəqil partiyası da yox idi. RSDFP-nin Qafqaz təşkilatı vardı ki, o da rus və xristian millətlərin nümayəndələri arasında fəaliyyət göstərirdi. Rəhbərliyi də rus, erməni, gürcü və b. xristian millətlərdən ibarət idi. N.Nərimanovun rəhbərlik etdiyi bolşevik təmayüllü "Hümmət" təşkilatı bolşeviklərin əlaltısından ibarət olmaqla əhali arasında tərəfdar qazana bilməmişdi. Onun tərəfdarlarının sayı 300 nəfərdən çox deyildi [323, 92]. Ona görə ki, bu ideologiya milli-ictimai şüura yol açmadığından, xalq bu ideologiyanı qəbul etmirdi. Fevral burjua inqilabından sonra Rus imperiyasının paytaxtı Peterburq və başqa şəhərlərdə sovetlər yarandı. Azərbaycanda yaranmış ən güclü sovet Bakı Soveti idi. 1917-ci ilin martın 6-da 52 nümayəndədən yaranan Bakı Soveti tərkibində cəmi 9 nəfər, aprel seçkisində isə 113 deputatdan 25 nəfəri bolşevik fraksiyası idi. Bunlar da xristian əhali içərisindən seçilmişdi. Bolşeviklərin təsiri ilə Bakıdan əlavə Yelizavetpolda, Şamaxıda, Lənkəranda, Nuxada, Şuşada, Qubada, Naxçıvanda fəhlə və əsgər deputatları sovetləri yaransa da, bolşeviklər bu təşkilatlarda rəhbərliyi əldə saxlaya bilmədi, milli qüvvələr bu təşkilatların rəhbərliyinə seçildilər [325, 21].





"Milli hərəkat fəallarının, o cümlədən onun aparıcı qüvvəsi olan və fevral inqilabından sonra leqal fəaliyyət imkanı tapmış "Müsavat" partiyasının xalqın milli hüquqlarının təmin edilməsi yolunda irəli sürdüyü tələblər milli-siyasi ideallarının təcəssümü kimi cəmiyyətdə əməli surətdə müdafiə olunurdu. Özü də bu tələblər yalnız xalqın ağır yaşayışından doğan cari problemlərin həllinə deyil, eyni zamanda ümummilli mənafeləri əks etdirən strateji xarakterli vəzifələrin həllinə doğru istiqamətləndirilmişdi [325, 21]. Beləliklə, Azərbaycan milli qüvvələri konkret şəraitdə millətin qarşısında duran vəzifələri və müstəqilliyə doğru praktiki hərəkat yolunu müəyyən etmək üçün 1917-ci il aprel ayının 15-20-də Bakı şəhərində Qafqaz müsəlmanlarının qurultayını keçirdilər. Qurultay "Müsavat" və "Türk Ədəmi-mərkəziyyət" partiyalarının rəhbərliyi altında keçirdi. Ə. Topçubaşovun "Müstəqil demokratik qrupu" birmənalı onların mövqeyini müdafiə edir, özü isə qurultaya sədrlik edirdi. Fevral inqilabından sonra yaranmış "islamçı" "İttihad" partiyasının "İttihad-İslam" və "Rusiyada müsəlmançılıq" adlanan cərəyanları, "Hümmət" - bolşevik partiyasının liderləri N.Nərimanov və M.Əzizbəyov bolşevikləri təmsil etməklə Azərbaycanın bütün siyasi qüvvələri iştirak edirdi. M.Ə.Rəsulzadənin ölkənin siyasi vəziyyəti və qarşıda duran vəzifələr haqqında siyasi məruzəsi qurultayda ciddi diskussiya doğurdu. M.Ə.Rəsulzadə və digər Azərbaycan ziyalılarının yaradıcılığında, qarşıya tam müstəqillik vəzifəsi qoyulduğu halda, tarixi şərait nəzərə alınaraq ilkin olaraq Rusiya daxilində federativ demokratik respublika quruculuğuna nail olmaq cari vəzifə olaraq irəli sürülürdü. Ciddi diskussiyadan sonra M.Ə.Rəsulzadənin irəli sürdüyü ideya məqbul hesab olunaraq "Qafqazıyə müsəlman qurultayı milli-siyasi məqsədə aid məsələni müzakirə edərək müsəlman qövmlərin mənafeyini ən ziyadə təmin edən Rusiya şəkili - idarəsinin məhəlli federasion əsası üzərinə qurulu cümhuriyyət müctəmeyi-inam olduğu qəbula qərar verir" [320, 27]. Azərbaycan milli-azadlıq hərəkatının liderləri ərazi muxtariyyətinin əldə edilməsini gələcəkdə milli hüquqların təmin edilməsi

və milli azadlığın qazanılması yolunda bir mərhələ hesab edirdilər. Qurultayın milli ordu quruculuğu haqqında qərarı müstəqilliyə doğru ilk praktiki addım idi. Qurultay birmənalı şəkildə milli tərkibli hərbi strukturların yaradılması vəzifəsini irəli sürdü. Qurultayda qərara alındı ki, Azərbaycanın səfərbərlik imkanlarını müəyyənləşdirmək üçün müsəlman əhalisinin siyahıya alınması aparılsın və bu tədbirin həyata keçirilməsi üçün qurultay tərəfindən xüsusi bir büro da yaradıldı. Müsəlman alaylarının təşkil edilməsi və onların silahlandırılması da bu büronun qarşısında duran başlıca vəzifə kimi qoyuldu [325, 22].

Qurultay ictimai-siyasi, mədəni, maarif və digər qarşıya qoyulan vəzifələrin icrasına başlamaq üçün milli fond yaratdı. Çıxışı gurultulu alqışlarla qarşılanan qurultayın fəxri qonağı H.Z.Tağıyev elə oradaca fonda 50 min rubl pul verdi [328, 37]. M.Ə.Rəsulzadənin təşəbbüsü ilə qurultay qadın məsələsi ilə bağlı qətnamə qəbul etdi. Qətnamədə deyilir: "...Bütün başqa xalqlarda qadınlar kişilərlə birlikdə cəmiyyətin ictimai-siyasi həyatında iştirak edir və öz millətinin tərəqqisi üçün çalışırsa, Azərbaycan qadını cəmiyyətdən kənarda qala bilməz və qalmamalıdır" [293, 138].

Azərbaycan milli-azadlıq hərəkatının görkəmli tədqiqatçısı A.Balayev haqlı olaraq yazır ki, "...qurultay Azərbaycan milli hərəkatında demokratik qüvvələrin əsas triumfu oldu. Qurultayın qərarları göstərdi ki, Azərbaycan milli hərəkatına hər cür milli məhdudiyyət və konservatizm yaddır və o, nəinki müsəlman və türk xalqları arasında, habelə bütün Rusiyada inqilabi hərəkatın avanqardı kimi çıxış edir [329, 9].

Qurultayda diqqəti çəkən hadisələrdən biri allahsız bolşeviklərlə, tarixşünaslıqda "islamçı" adlandırılan əsasən dini müəssisələrin nümayəndələrindən ibarət "İttihad" partiyasının mövqeyinin üst-üstə düşməklə bölünməz Rusiya ideyasını müdafiə etməsi milli məsələnin məhəlli muxtariyyət deyil, mədəni muxtariyyət formasında həll olunması ideyasının qəbul edilməsinə çalışmalarıdır [293, 136; 325, 21].

İslam dini idarələrinin nümayəndələrinin "Quran"ın əsarətə, zalımın zülmünə, qul həyatına dözməyi qadağan edən [bax, 2-ci surə, 177-ci ayə, 4-cü surə 59-cu ayə, 10-cu surə 85-ci ayə, 11-ci surə 113-cü ayə] ideyasını deyil, əsarəti müdafiə etməsi nə ilə izah oluna bılər?





Başlıca səbəb Şərq təhsil sisteminin, o cümlədən dini təhsilin Ş.C.Əfqaninin sözləri ilə desək, "elm dini" olan islamı dərk edəcək səviyyədə olmaması idi. Odur ki, İslam dini müəssisələri bu dini xürafata, onun rəhbərləri isə hakimiyyətlərin əlində oyuncağa çevrilmişdi. Göründüyü kimi, bunun əksinə olaraq İslam dini Azərbaycan ziyalılarının əsərlərində və fəaliyyətində müdafiə olunur, nüfuz qazanır, milli varlığın qorunması, müstəqillik ideologiyası kimi yüksək əxlaqı - mənəvi səfərbəredici və yaradıcılıq qüvvəsini göstərirdi.

Azərbaycan milli-azadlıq hərəkatının liderləri Rus imperiyasında 1905-ci il inqilabının başlanmasından Azərbaycan milli-azadlıq hərəkatını imperiyanın digər xalqlarının, birinci növbədə türk və müsəlman xalqların istiqlal hərəkatları ilə uzlaşdırmaq, onların vahid hərəkət xəttini yaratmağa çalışırdılar. Həmin dövrdən də Azərbaycan milli-azadlıq hərəkatının liderləri Rus imperiyasının türk və müsəlman xalqlarının milli-azadlıq hərəkatının liderlərinə çevrilmişdilər. Odur ki, Azərbaycan milli-azadlıq hərəkatının liderləri Qafqaz müsəlmanlarının qurultayını başa çatdıran kimi Azərbaycan milli-azadlıq hərəkatını Rus imperiyasının türk və müsəlman xalqlarının hərəkatı ilə uzlaşdırmaq məqsədilə Ümumrusiya müsəlmanlarının qurultayının keçirilməsinin təşkilinə başladılar. Ümumrusiya müsəlmanlarının qurultayı 1917-ci il mayın 1-dən 11-ə kimi Moskvada Şəmsi Əsədullayevin Moskva müsəlmanlarına hədiyyə etdiyi binada keçirildi. Qurultaya 600 nümayəndə dəvət edildiyi halda 900 nəfər iştirak edirdi. Qurultayda mübahisə doğuran əsas məsələ Rusiyanın gələcək idarə şəkli - mədəni və məhəlli muxtariyyət məsələsi idi. Qurultaya müzakirə üçün tatarların nümayəndəsi Əhməd Salikovun milli-mədəni muxtariyyat, M.Ə.Rəsulzadənin təqdim etdiyi milli ərazi federasiya prinsipləri əsasında yaradılmış demokratik respublika layihələri təqdim olunmuşdu [293, 140]. M.Ə.Rəsulzadə

Ə.Salikovun məruzəsində irəli sürülən "federasiya idarə şəklinin türk müsəlman qövmlərini parçalayacaq" iddiasına cavab olaraq bildirdi ki, "Biz türk-tatar övladı bir millətin övladlarıyıq. Biz türk oğlu türküz. Bununla iftıxar edəriz. Türk mədəniyyəti, türk mənliyi vücuda gətirmək istəriz. Rusiyada yaşayan 30 milyonluq müsəlmanın böyük qismi, təxminən bu millətə mənsubdur. Əsrlərdən bəri cəhalət bəlası, məzhəb ayrılığı üzündən bir-birindən ayrı düşən, yalnız bir-birindən deyil, öz mənliyindən belə ayrı qalan bu milyonlarda indi birləşmək meyli var və meyl çox şiddətlidir.

...Biz türk-tatar millətləri eyni soydan türk oğlu türk olmaqla bərabər ayrı şivələrə və çeşidli özəlliklərə də malik olduğumuz inkar edilməz. Bu gün Volqa boyundakı tatarların özlərinə məxsus ədəbiyyatı, mətbuatı, ədibləri və şairləri var. Türküstan cğataycası zəngin bir ədəbiyyata malikdir. Qazax və qırğızların mətbuatı da yol almaqdadır. Bunlardan heç birisi cəbrə təslim olub kəndi özəlliyini fəda etməz.

Azərbaycan türkü də öz dilinə, ədəbiyyatına və adətlərinə əlvida deyəməz.

Bu özəllikləri qaldırmaq nə gərəklidir, nə də faydalıdır. Buraxın hər kəs öz yolunda təbii surətdə yürüsün. Çeşidli türk ırmaqlarının axıb nəhayət, tökülləcəkləri bir dəniz var: Böyük Türk dənizi" [293, 141] M.Ə.Rəsulzadənin çıxış və ətraflı izahlarından sonra onun irəli sürdüyü Rusiyanın gələcək idarə şəkli məhəlli-muxtariyyət ideyası qurultayda 271 səsə qarşı 446 səs çoxluğu ilə qəbul edildi [328, 39].

Qurultayda iştirak etmiş görkəmli tarixçi Zəki Vəlidi Toğan Azərbaycan nümayəndələrini qurultaydakı fəaliyyətini xatırlayaraq yazır ki, Moskvada "toplanan ümumrusiya müsəlmanları qurultayına azərbaycanlı Əlimərdan bəy Topçubaşov rəyasət ediyordu. Emin bəy qonuşuyordu. Bütün konqreyə azərbaycanlıların hakim olduğu görünür və Azərbaycan liderlik edirdi. Əgər 700 kişi içərisində Emin bəy və arkadaşları olmasaydılar, konfrans istiqlal və muxtariyyət tezisinə rəy verməzdi" [300, 61].





Qurultayın digər iştirakçısı, mühacir tatar istiqlal mübarizi Abdulla Taymas M.Ə.Rəsulzadənin qurultaydakı rolunu xatırlayaraq yazır: "Bu parlaq fikri sayəsində Məhəmməd Əmini bütün Rusiya türklüyü tanımış, artıq o, sadəcə Azərbaycan türkçülüyünün deyil, bütün Rus türkçülüyünün əzizi olmuşdur" [293, 146].

Göründüyü kimi Azərbaycan ziyalısı, burjuaziyası, elitası fevral inqilabının verdiyi imkanlardan milli istiqlala çatmaq üçün maksimum bəhrələnir, xalqı istiqlal yolunda mənəvi, ideoloji, iqtisadi, hərbi-siyasi cəhətdən fasiləsiz təşkilatlandırırdılar. Azərbaycan ziyalısının, burjuaziyasının, elitasının hər biri əhali içində fərdi vətənpərvərlik nümunəsi göstərirdi. Yuxarıda istifadə etdiyimiz mənbə və ədəbiyyatlar göstərir ki, Azərbaycan elitası vətənpərvərliyi ilə bərabər intellektual səviyyəsi ilə də Rus imperiyası, türk və müsəlman dünyası üçün nümunə idi.

1917-ci ilin aprelində keçirilən Qafqaz müsəlmanlarının qurultayında N.Yusifbəylinin rəhbərlik etdiyi "Türk ədəmi-mərkəziyyət xalq partiyası" ilə M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyasının nəinki proqramlarının, partiya üzvlərinin amal, istək, inam və etiqad, hətta psixoloji yönümlərinin eyniyyəti üzə çıxdı və onları birləşdirdi. Partiya rəhbərləri birləşməni tezliklə sənədləşdirməyə qərar verdilər. Partiya rəhbərləri Ümumrusiya Müsəlmanları Qurultayından qayıtdıqdan sonra 1917-ci il iyun ayının 17-də "Müsavat" partiyası ilə "Türk ədəmi-mərkəziyyət xalq partiyasının" birləşdirici qurultayı keçirildi. N.Yusifbəylinin təklifi ilə birləşmiş partiya "Türk Ədəmi-Mərkəziyyət firqəsi Müsəvat" adlandırıldı. "Türk ədəmi-mərkəziyyət xalq partiyası" ilə "Müsəvat" partiyasının birləşməsi Azərbaycanın türk və müsəlman əhalisinin milli, dini və siyasi, ideoloji birliyinin daha da güclənməsində həlledici hadisə oldu, Azərbaycanın siyasi qüvvələr nisbətinin tənzimlənməsində, istiqlal uğrunda mübarizənin bir səmtə yönəlməsində mühüm rol oynadı. Azərbaycan muxtariyyəti və sonra istiqlaliyyəti ideyasının gerçəkləşməsinin zəminini qoydu, ölkənin siyasi həyatına aydınlıq

gətirdi. Bu dövrü Qafqaz hadisələrindən bəhs edən erməni tarixçisi B.İşxanyan yazırdı ki, "Zaqafqaziyanın erməni və gürcü millətlərindən fərqli olaraq, türk-tatar əhalisinin ictimai-siyasi həyatında... demək olar ki, ideya ayrılığı və firqə qruplaşması yoxdu" [293, 146-147]. Bunu "Müsavat partiyasının 1917-ci il oktyabr ayının 22-də Bakı Sovetinə seçkilərdə qazandığı birincilik də sübut edirdi. Səslər seçkidə iştirak edən partiyalar arasında aşağıdakı nisbətdə qazanılmışdı:

Müsavat - 9617
Eserlər - 6305
Daşnaksütyun - 5288
Bolşeviklər - 3823
Menşeviklər - 687 [293, 154]

Müsavat partiyası bütün seçicilərin 40 faiz səsini aldığı halda bolşeviklərin aldığı 3823 səsdən 2600-ünü ruslardan ibarət olan Bakı Qarnizonunun əsgərlərinin vermiş olduğu nəzərə alınarsa, bu partiyanın Azərbaycanda sosial-siyasi dayağı olmadığı aydınlaşır. Müsavat partiyasının topladığı səslər Azərbaycanın bütün milli sosial təbəqələrinin milli siyasi şüura malik olmaqla müsavat ideyaları ətrafında səfərbər olunduğunu göstərir.

Rus imperiyasının sosial-siyasi və milli hüquqlar uğrunda mübarizə aparan qüvvələri sıvil üsullarla ölkəni demokratikləşdirmək, milli, mülki və siyasi hüquqlara nail olmaq üçün Müəssilər Məclisinə seçkilər keçirib, parlament üsulu ilə problemləri həll etməyə hazırlaşdığı vaxtda bolşeviklər gözlənilmədən 1917-ci il oktyabr ayının 25-də dövlət çevrilişi ilə Müvəqqəti hökuməti devirib, hakimiyyəti ələ keçirdilər.

1917-ci il oktyabr ayının 26-da Müsavat partiyasının işə başlayan I qurultayı, bu dövrdə cərəyan edən sosial-siyasi hadisələrə xalqın, onu təşkil edən sosial təbəqələrin və onun ruhundan doğan "Müsavat" partiyasının münasibəti Azərbaycan xalqının bir toplum olaraq





millət səviyyəsinə yüksəldiyini göstərir. Azərbaycan türk milli istiqlal liderlərinin, onları birləşdirən "Müsavat" partiyasının istiqlalı ilk dəfə rəsmiləşdirən qurultaylarının bolşeviklərin Oktyabr çevrilişi ilə eyni vaxta düşməsi "Müsavat" partiyası liderlərinin sosial-siyasi hadisələri incəliyinə qədər qiymətləndirə bilmələrinin nəticəsi idi. Bəzi tarixçilərin bu dövrdə "Müsavat" partiyasının mövqeyinin bolşevik partiyası ilə eyniyyət təşkil etməsi fikri bütünlüklə yanlışdır. "Müsavat" partiyası milli və beynəlmiləl partiya olaraq qarşıya milli və beynəlmiləl vəzifələr qoymuşdu, onun ideologiyası, məqsədləri bütün sosial təbəqələri əhatə edirdi. Müsavat partiyasının qəbul etdiyi proqramda bu aydın ifadə edilərək deyilir: "Millət siniflərdən ibarətdir. Fəqət, əksəriyyəti təşkil edən sinif zəhmətkeşlər sinfidir. Bu etibarla millət demək, xalq (demokratiya) deməkdir...

Bir milli hökumət ancaq o zaman həqiqi millət hökuməti olar ki, ondakı əsaslar xas sinfi deyil, ümum cəmiyyəti gözləsin, onların halını islahə yarasın" [330, 179]. "Müsavat" partiyası bütün varlığı dövründə bu ideyaya sadiq qalmışdır. Onun həyatiliyi və gücü də elə bunda idi.

RSDF(b)P isə şüarlar partiyası idi. Özünü fəhlə-kəndli sinfinin, məzlum millətlərin partiyası elan etmişdi. Hakimiyyət uğrunda mübarizəsini savadsız kütlə - fəhlə və kəndlilər vasitəsilə həyata keçirirdi. Hakimiyyətə gələn kimi Şüarlar partiyası olaraq proqramında irəli sürdüyü heç bir müddəaya sadiq olmadı. Bütün torpaqların əvəzsiz kəndlilərə verilməsi şüarı ilə çıxış etdiyi halda kəndlinin pay torpağını, yorğanına qədər bütün əmlakını da əlindən aldı. Bolşeviklərin kommunist ideologiyasının terrorçu, irqçi, imperialist, ideoloji-maniakal, avantürizm ideologiyası olduğu ortaya çıxdı. Bütün hakimiyyəti dövründə digər sosial təbəqələri fiziki, mənəvi cəhətdən məhv etmək üçün fəhlələrdən alət kimi istifadə etdi.

"Müsavat" partiyasının həmişə sadiq olduğu milli və bəşəri ideyalar onun proqramında belə ifadə edilmişdi: "Biz milli arzumuza doğru gedirik, lakin bizim arzularımız başqa millətlər üzərində hökm-

ranlıq etmək və yaxud onlara təzyiq etmək deyil. Bizim arzumuz başqa millətlərlə birlikdə sakit və xoşbəxt yaşamaqdan ibarətdir. Biz bəşəriyyətin üzvü olaraq, bütün millətlərlə birlikdə mədəni və mütərəqqi millət olmağa can atırıq. Türkçülük fikirləri başqalarına hücum etmək demək deyildir və islama ziddiyyət təşkil etmir" [330, 161].

İmperialist qüvvələr İslam dini idarə nümayəndələrinin savadsızlığından istifadə edib, onların ayrı-ayrı nümayəndələrini milli istiqlala, "Müsavat" partiyasına qarşı qoyurdular. Qurultayın birinci günü Şeyx Qəni adlı birisi "Müsavat" partiyasını şəriətdən kənar elan etmişdi. Buna cavab olaraq XX əsrin bəşəriyyətə verdiyi ən böyük şəxsiyyətlərdən biri Ə.Topçubaşov qurultayda istiqlalçıların İslam dininə münasibətini belə ifadə etmişdir: "Müsavat" partiyasının qurultayı böyük əhəmiyyət kəsb edir. Mən şəxsən qeyd edim ki, sizin bayrağınızda yazılan "türkçülük-islamçılıq" şüarı anadan olandan ürəyimizdə olmalıdır. Biz hamımız bu şüarın tərəfdarı olmalıyıq. Türk xalqları içərisində islam qarşısında xidmətləri ilə seçilən görkəmli xalqlar olub. Son 7 ildə islamı müdafiə edən və islam bayrağını yüksəklərə qaldıran türk milləti olub. Heç vaxt türk sözü islam sözündən ayrı olmayıb. Biz iki parlaq ulduza - türkçülük və islamçılığa malikik. İndiyə qədər bu iki ulduza xidmət etmişik və bundan sonra da edəcəyik" [330, 163-164]. M.Ə.Rəsulzadə qurultayda Şeyx Qəninin çıxışına və İslam dininə münasibətini belə ifadə etmişdir: "Birincisi, onun çıxışı siyasi mübarizədən xaricdir, ikincisi, yaratdığımız partiya islama ziddiyyət təşkil etmir, əksinə, o, millətin müdafiəçisidir. Biz ruhanilərdən belə çıxış gözləmirdik. Üçüncüsü, siyasi mübarizədə məscid neytral olmalı və o, əgər siyasi partiyalar arasında mübarizənin nəticəsində mübahisə düşərsə, onda məscid bu partiyaları barışdırmalıdır. Məscidə daxil olan insan siyasəti, partiyanı, ideyanı yaddan çıxarmalı, Allaha dua etməli, ümumiyyətlə, ruhanilər siyasətlə məşğul olmamalıdır. Buna görə Türk Ədəmi-Mərkəziyyət Partiyası Müsavat ruhaninin nəzakətsiz çıxışına öz





etirazını bildirir" [330,169].

Göründüyü kimi, milli və bəşəri, dini ideyalardan yoğrulmuş "Müsavat" partiyası ilə heç bir əxlaqa qail olmayan bolşeviklər arasında oxşar cəhətlər axtarmaq ciddi yanlışlıqdan başqa bir şey deyildir. Oktyabr çevrilişindən sonra "Müsavat" partiyası ilə bolşeviklərin bir sıra siyasi hadisələrə münasibətinin eyniyyəti bu partiyaların eyni məramlılığına dəlalət etmir. Zaman göstərdi ki, bu münasibətlər "Müsavatın" həqiqi münasibəti, bolşeviklərin isə məqsədə çatmaq üçün müvəqqəti taktiki gedişlərindən başqa bir şey deyildir.

Tarixçi X.Məmmədov və digərləri doğru olaraq yazırlar ki, "Müsavat"la bolşeviklərin əlaqəsi, müəyyən məqamlarda eyni mövqedən çıxış etmələri səthi və formal səciyyə daşıyırdı. Dövrün bəzi tarixçiləri də qeyd edirlər ki, Azərbaycan milli hərəkatının liderləri tezliklə hiss etdilər ki, "1917-ci il inqilabı mahiyyətcə rus inqilabıdır", qarşısına da "başlıca olaraq rus problemini həll etmək" məqsədini qoymuşdur. Digər tarixçi V.Kozlar isə yazırdı: "1917-ci il Oktyabr inqilabı rus müstəmləkəçiliyinə son qoymaq əvəzinə, ona yeni təkan verdi" [293, 152]. Belə bir şəraitdə "Müsavat" partiyası bütün daxili və beynəlxalq siyasi hadisələri, milli gücü dəqiq qiymətləndirməklə I qurultayda demokratik quruluşa malik, irqindən, cinsindən, milliyyətindən, dinindən asılı olmayaraq, insanların hüquq bərabərliyini təmin edən, normal milli təhsil və iş şəraiti ilə insanların fiziki, mənəvi, mədəni, milli inkişafını təmin edən demokratik dövlət quruculuğu proqramı qəbul etdi. Qurulacaq dövlətin quruluşu isə proqramda "Rusiya dövlətinin şəkli-idarəsi milli-məhəlli muxtariyyət əsası üzərinə qurulu qoşma xalq cümhuriyyətindən ibarət olmalıdır" qərarını verdi [330, 161-186]. Əsrlərlə türklüyün qələbə simvolu kimi bu torpaqlar üzərində dalğalanmış Elxanilərin göy bayrağı partiya bayrağı kimi qəbul edildi. "Müstəqil yaşamaq istəyən millətlərə böyük fırtınalar mane ola və onları məhv edə bilməz" deyən qurultay müstəqil dövlət quruculuğuna elə qurultayın gedişində başlamaq üçün konkret göstərişlər verdi. "Milli istiqlala malik olmayan

bir millət hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal" şüarı ilə müstəqil dövlət quruculuğu fəaliyyətinə başladı [328, 42; 330, 43, 163, 175-177].

Bakı Sovetinə oktyabrın 22-də seçkilərdə "Müsavat" partiyasının qələbəsi yalnız bolşevikləri deyil, eser, menşevik və daşnakları bərk narahat etdi. Oktyabr ayının 24-də RK(b)P-nın Bakı Komitəsi "Müsavat" partiyasının qələbə çaldığı seçkilərin nəticəsini tanımadı. "Müsavat" partiyası və digər demokratik partiyalar Bakı Sovetinə daxil olmayacaqlarını bildirdilər. Belə şərait Bakı Sovetində bolşeviklərin və sol eserlərin mövqeyini gücləndirmişdi. Oktyabrın 26-da Peterburqda Oktyabr çevrilişi haqqında xəbər Bakıya çatan kimi oktyabrın 26-27-dəki Bakı Sovetinin iclaslarında bolşeviklər bütün hakimiyyətin Bakı Sovetinə verilməsi, Rusiya Xalq Komissarlar Sovetinin tanınması təşəbbüsləri uğursuzluqla nəticələndi. Bolşeviklər bir sıra mədən-zavod komissiyalarının, ordu komitələrinin, xüsusi hazırlanmış tərəfdarlarının təzyiqi altında oktyabrın 31-də yenidən Bakı Sovetinin iclasını çağırıb hakimiyyəti ələ almaq haqqında qətnamə qəbul etdilər. Noyabr ayının 2-də Bakı Sovetinin həmin tərkibi ilə Bakıda Sovet hakimiyyətini elan etdilər. S.G.Şaumyan Bakı Soveti İcraiyyə Komitəsinin sədri seçildi. Beləliklə, bolşevik-daşnak birliyi Bakıda olan rus-erməni əsgərləri vasitəsilə hakimiyyəti ələ keçirməyə başladılar. Lakin bolşeviklərin bütün cəhdlərinə baxmayaraq, Bakıda hakimiyyəti bütünlüklə ələ ala bilmirdilər. Şəhər duması, milli şuralar, Müsəlman İctimai Cəmiyyətlər Şurası, milli partiyalar buna imkan vermir, müsəlman əhalisinin təhlükəsizliyi üçün tədbirlər görürdülər. Müsəlman əhalisi, onun bütün sosial təbəqələri "Müsavat" partiyası ətrafında birləşmişdi. "Müsavat" partiyası hakimiyyət məsələsini sivil, demokratik yolla həll etməyə çalışırdı. M.Ə.Rəsulzadənin etiraf etdiyi kimi, milli ordunun olmaması milli qüvvələri ehtiyatlı hərəkət etməyə vadar edirdi [330, 198]. "Müsavat" partiyasının müstəqillik istiqamətində atdığı addımlar onunla Bakı Soveti arasında münasibətləri kəskinləşdirdi.





1917-ci il noyabr ayının 8-12-də Bakıda Qafqaz Müsəlmanları Milli Komitəsinin konfransı oldu. "Müsavat" partiyasının rəhbərliyi altında keçən həmin konfransda Azərbaycanın öz müqəddəratını təyin etməsi hüququnun reallaşdırılması və muxtariyyətini yaratması üçün təcili olaraq Milli Təşəbbüs Məclisinin çağırılması qərara alındı. Konfrans qeyd etdi ki, "mövcud vəziyyət hakimiyyətdən daha qətiyyətli addımlar atmağı... Rusiya Federasiyasında yeni muxtar birliklərin yaradılmasını tələb edir" [293, 152]. Göründüyü kimi, Azərbaycan cəmiyyəti ardıcıl olaraq müstəqillik uğrunda səfərbər olunurdu. Bu özünü 1917-ci il noyabr ayının 26-28-də Ümumrusiya Müəssislər Məclisinə keçirilən seçkilərdə "Müsavat" partiyasının əldə etdiyi nəticələrdə bir daha göstərdi. "Müsavat" partiyası ətrafında təkcə Bakı şəhəri, Azərbaycanın türk və müsəlman əhalisi deyil, Zaqafqaziyanın müsəlmanları da səfərbər olunmuşdu. Ümumrusiya Müəssislər Məclisinə seçkilərdə səslər partiyalar arasında aşağıdakı kimi bölünmüşdü:

Menşeviklər - 661.934
Müsavat - 615.816
Daşnak - 558.400
Müsəlman sosialist bloku - 159.700
Eserlər - 117.522
Bolşevik - 95.581
Hümmət - 84.748
İttihad - 66.504 [293,154]

Bakı seçki dairəsinin rus əsgərləri və fəhlələrinin səsi hesabına bolşeviklər ancaq I yer əldə edə bilmişdilər.

Dövrün ziddiyyətli, təlatümlü çağlarında, tarixin xalqa qarşı yönəlmiş amansızlığı şəraitində belə millətin mənəvi bütövlüyü ona yaşamaq enerjisi verir, barometri kimi çıxış edirdi. Milli tarixin belə məqamlarında intellektual səviyyəsi təbliğatın mahiyyətini dərk etməyə qadir olmayan kütlə, milli kimlik şüurundan məhrum metislər, zəif iradəlilər yaxşı yaşayış vəd edən güclü və avantüristlərin, ya-

dellilərin əlində doğma vətənə və millətə qarşı yönəlmiş alətə çevrilirlər. Belə təbəqə az-çox bütün xalqların tərkibində var. Elə ki, xalqın tərkibində onların sayı üstünlük təşkil etdi, millət iradə nümayiş etdirə bilmir, güclülərin köləsinə çevrilir, parçalanıb dağılır, süquta uğrayır.

Azərbaycanda xalqın içərisində irsiyyət, temperament tipi, təhsilin bütün əhalini lazımınca əhatə etməməsindən yaranan belə az miqdar əhali yadelli təsirə düşsə də, milli-siyasi iradəyə qarşı çıxa bilmirdi. Ümumrusiya Müəssislər Məclisinə seçkilər Azərbaycan türklərinin milli iradə nümayiş etdirməyə imkan verən mənəvi-ideoloji bütövlüyünü göstərən barometr oldu. Göründüyü kimi, Zaqafqaziya müsəlmanları başlıca olaraq milli ideologiyanın daşıyıcısı "Müsavat" partiyasının, cüzi bir hissəsi islam ideologiyasının və bir deputat səviyyəsində yer qazanmaq sayda olmayan əhali yerli kütlə ideologiyasının daşıyıcısı "Hümmət" təşkilatının təsirində olmuşdur [329, 123-128].

Ölkədə milli sosial-siyasi problemlərin nizamlanması üçün hamının intizarla gözlədiyi Ümumrusiya Müəssislər Məclisi 1918-ci il yanvar ayının 5-də Peterburqda Tavriya sarayında işə başladı. 707 deputatdan 175-nin bolşevik olmasına baxmayaraq, onlar iclasın gündəliyinə öz diktələrini etməyə başladılar, lakin səs qazana bilmədilər. Ertəsi gün Müəssislər Məclisi rus proletariatının qırmızı qvardiyasının təzyiqi altında buraxıldı. Fevral burjua inqilabının demokratik addımları elə bu anda, buradaca sona çatdı. Bolşeviklərin "Rusiya xalqlarının hüquq bəyannaməsi", "Rusiya və Şərqin bütün müsəlman zəhmətkeşlərinə" müraciətlərindəki Rusiya imperiyası xalqlarının hüquq bərabərliyi, azad surətdə ayrılıb öz müstəqil dövlətlərini yaratmaq haqqında hüquqi təminatlarının aldadıcı, taktiki bir şüar olduğu birmənalı aydınlaşdı.

Elə bu vaxtdan bolşeviklər Rus imperiyasını bərpa etmək istiqamətində açıq silahlı fəaliyyətə başladılar. Ən təhlükəli vəziyyət Azərbaycan türkləri üçün yaranmışdı. Bolşeviklər ermənilərin bütün





siyasi cərəyan və partiyalarıyla birgə fəaliyyətə girdi, Rusiya Xalq Komissarları tərəfindən Qafqaza fövqəladə komissar təyin edilmiş Şaumyana erməni dövləti yaradılacağına dair rəsmi sənəd verilmişdi. Komissarlar tərəfindən general rütbəsi ilə təltif olunmuş Andronik isə ermənilərə müraciət edərək deyirdi: "Erməni xalqı ya onun xalq qəhrəmanı adını geri alsın, ya da ona o qədər döyüşçü versin ki, o, vətəni qarşısında öz borcunu şərəflə yerinə yetirsin". 17 min nəfərlik erməni hərbi hissələri Azərbaycan türklərinə qarşı terror əməliyyatına başlamışdı [327, 37, 42, 45]. Bəzi məlumatlara görə, bu dövrdə Qafqazda rus ordusu tərkibində 150 min erməni xidmət keçmiş, Andranik və Nazarbekov kimilərinin rəhbərliyi altında 50 minə kimi erməni könüllüsü toplaşıb, türk ordusuna qarşı döyüşlərdə iştirak etmişdi. Türklərin fiziki məhvini ümummilli vəzifə kimi qarşılarına qoymuş daşnak qüvvələrinin təcavüzünün azərbaycanlılara qarşı yeni bir vüsət alacağı təqdirdə onları qoruyacaq etibarlı qüvvə mövcud deyildi" [325, 24]. Ən təhlükəlisi isə Rus imperiyasının bir əsr müddətində siyasi məqsədlərlə Bakı şəhərində yerləşdirilən rus və erməni əhalisini, əsgərləri milli-siyasi dayağa çevrilməklə bolşeviklərin siyasi-icra hakimiyyəti orqanı Bakı Sovetinin yaradılması idi. 1917-ci ilin sonları və 1918-ci ilin əvvəllərində Cənubi Qafqazın bütün yerlərindən antiazərbaycan qüvvələr Bakıya cəmləşmişdilər. Lenin tərəfindən Qafqazın fövqəladə komissarı təyin edilmiş S.Şaumyan, erməni Korqanovun başçılığı ilə yaradılmış hərbi inqilab Komitəsi Bakıya gəlmiş və burada möhkəmlənə bilmişdilər. Fevral inqilabından sonra Çar Rusiyası ordusunun dağılması ilə Qafqaz cəbhəsindən 6 min rus, 8 min erməni əsgəri də Bakıya gəlmişdi. Bolşevik-daşnak birliyi Bakı Sovetinin ixtiyarında 20 minlik silahlı qüvvə cəmlənmişdi [331, 17-128; 325, 79-80]. Bolşeviklər Bakı şəhərini ələ keçirmiş, bütün hakimiyyətlərini Qafqaza yaymaq uğrunda mübarizəyə başlamışdılar.

Fiziki məhvolma təhlükəsi, çətin siyasi vəziyyət Azərbaycan türklərinin iradəsini qırıb ruh düşgünlüyü, istiqlal mübarizəsində tə-

rəddüd yarada bilmədi. Azadlıq mübarizəsini daha qətiyyətli, daha yüksək səviyyədə apararaq, muxtariyyat deyil, müstəqil dövlətçilik uğrunda mübarizəyə çevirdilər. Azərbaycan istiqlal mübarizəsinin liderlərinin ən təhlükəli məqamda qətiyyət göstərib millətin önündə getməyə türklərin mənəvi bütövlüyü, inam və etiqadı, sözübütövlüyü, əhdə, verdiyi sözə sədaqəti, namusu və əyilməzliyi, çalışqanlığı, əməksevərliyi, müqəddəs vətən hissi, onunla bağlı inanc və andları, milli arzusu, azadlıq ruhu, istiqlalı ən yüksək mənəvi amal hesab etməsi, qorxmazlığı, cəsarət və əsgəri ruhu, yüksək təşkilatlanma qabiliyyəti və s. mental xüsusiyyətləri imkan verirdi [224,35,45,53-55; 269; 307,11-12,160-161,170,189-192,196,199,214; 330,161].

Müəssislər məclisinin bolşeviklər tərəfindən buraxılmasından sonra xalqının iradəsinə söykənən Azərbaycan millət vəkillərinin səyi nəticəsində bütün maneçiliklərə baxmayaraq, Məclisin Zaqafqaziyadan seçilmiş millət vəkilləri hakimiyyətsizlik vəziyyətini aradan qaldırmaq məqsədilə 1918-ci il fevral ayının 10-da Müəssisələr Məclisinə seçkilərdə topladıqları səslərə uyğun Tiflisdə Zaqafqaziya Seymini təşkil etdilər. Zaqafqaziya seymində Azərbaycan müsəlman partiyaları blok təşkil etdi. Seymdə menşeviklər 33, daşnaklar 27, eserlər 5, "Müsavat" partiyası müstəqil demokratik qrupla birlikdə 30, Azərbaycanın müsəlman sosialist bloku 7, hümmətçilər 4, ittihadçılar 3 yerə malik idilər. 44 nəfər Azərbaycanın millət vəkili müsəlman fraksiyasında birləşmişdilər. Fraksiyanın lideri M.Ə.Rəsulzadə idi. Seymi təşkil edən millətlərin partiyalarının nümayəndələrinin hər biri ondan öz siyasi baxışlarına uyğun milli-siyasi məqsədlər üçün istifadə etmək xətti yeridirdi. Yalnız "Müsavat" partiyası və bütün siyasi baxışları onlarla üst-üstə düşən müstəqil demokratik qrup Seymdə Qafqaz xalqlarının müstəqil dövlətçilik ideyasını diktə edir, siyasi-demokratik üsullarla onun fəaliyyətini bu istiqamətə yönəldirdi [288, 75-79, 84; 327, 43-83; 329, 129-139]. Azadlıq uğrunda mübarizəyə Azərbaycan türk millətini təşkil edən etnoqrafik və etnik qruplar - türklər, tatlar, talışlar, avarlar, ləzgilər vahid





milli orqanizm, bir fədai kimi yanaşırdılar. Tülkü-çaqqalsız meşə olmadığı, hər bir biososial orqanizmdə zaman-zaman tullantı meydana çıxdığı kimi, Azərbaycan xalqının tərkibində "Hümmətçi" adlanan tullantılar göründü. Seymdə onlar Azərbaycan milli qüvvələri tərəfindən "bir ağızdan lənətlənərək" dəf olunurdular [288, 85-86].

Bakı şəhəri rus-erməni bolşevik-daşnak qoşunlarının nəzarəti altında idi, İrəvan, Zəngəzur, Qarabağ vilayətləri erməni silahlı qüvvələri tərəfindən qırğın və talana məruz qalmışdı. Gəncə şəhəri hər an erməni silahlı qüvvələrinin hücumuna məruz qalacaq vəziyyətdə idi. Belə bir ağır vəziyyətdə Azərbaycan türkləri inadkarcasına istiqlal mübarizəsini davam etdirir, dövlət quruculuğu ilə məşğul idilər. Dövrün bütün mənbələri "Müsavat" partiyasının bu mübarizənin, quruculuğun lideri olduğunu təsdiq edir. Bu bir həqiqətdir. Lakin bu dövrdə hər bir Azərbaycan türkü üçün hər şeydən yüksəkdə bir istiqlal ruhunun olduğu aydın görünür. Zadəgan nəsillərindən olan rus ordusunda xidmət etmiş Azərbaycan türk zabitləri vətənə axışır, kimisi hərbi məktəblər açır, kimisi birbaşa əsgəri hissələr yaradır, ölkə vətəndaşlarından kimisi qurulan bu məktəblərin, əsgəri hissələrin silah və başqa təminatı ilə məşğul olur, kimisi övladını, kimisi həm malını, həm də övladını orduya verirdi. Vətən üçün hər şeydə birinci olan H.Z.Tağıyev beləəri arasında yenə birinci idi. Milyonçu Şəmsi Əsədullayevin oğlu qurulan milli ordunun gənc zabitlərindən idi. Xalq içində mənfi imic qazanmış Bakı qoçuları da millətin qoruyucularına çevrilmişdilər. İstiqlal uğrunda millətdən asılı olan hər şey edilirdi. Qurulan gənc orduda silah çatışmazlığı vətənpərvər cəngavərlərin rus ordusunu tərksilah edib, silahlarını orduya verməsi ilə ödənildi. Belə ağır vəziyyətdə Azərbaycan diplomatları Azərbaycan türklərinin müstəqilliyinin təşkili və tanınması üçün beynəlxalq əlaqələr yaradırdılar [311,331; 324, 31-54; 325, 19-62; 327, 34-74]. Azərbaycan türklərinin istiqlal mübarizəsi arı, qarışqa ailəsini xatırladırdı. Bu quruculuqda hər kəs öz vəzifəsini icra edir, əməyini sərf edirdi. İstiqlal mübarizəsi hər kəsin vicdan işinə çevril-

mişdi.

Azərbaycan türklərinin istiqlal uğrunda mütəşəkkil təşkilatlanması cildini dəyişmiş rus bolşevik imperialistlərini ciddi narahat etməyə başladı. Bolşevizmin ideoloqu, Rusiya Xalq Komissarlar Sovetinin sədri Lenin amansızlıqla Azərbaycan türklərinin iradəsini qırıb, onu yenidən əsarət altına almaq üçün göstəriş verdi. O, Bakı bolşevik təşkilatına yazırdı: "Bakı bizim üçün hər şeydir və onu müdafiə edib saxlamaq lazımdır" [325, 60]. Bu məqsədlə Bakıda qərar tutmuş bolşevik-daşnak ordularını silah, sursat və maliyyə ilə təchiz edib, Azərbaycan istiqlalının, milli dövlət quruculuğunun qarşısını almaq üçün fəaliyyətə başlandı [325, 57-62; 329,163-169; 331, 95-119]. Bakıda dayaq tapmış bolşevik-daşnak qüvvələrin birinci məqsədi "Azərbaycan millətçilərinin arzuları" "Müsavat" partiyasını məhv etməklə xalqı siyasi rəhbərlikdən məhrum etmək, Bakını müsəlmanlardan təmizləməklə onun Azərbaycanın paytaxtı olması ideyasına və amansızlıqla milli ruhu sındırıb Azərbaycanın istiqlalı ideyasına son qoymaq idi. Birinci növbədə Bakı şəhəri və quberniyası ərazisində bu məqsədə nail olub, ardınca Zaqafqaziya miqyasında planın reallaşdırılması məqsədi güdülürdü. Rus və erməni əhalisi məskunlaşmış yaşayış məntəqələri bolşevik-daşnakların əsas dayaq mərkəzləri seçilmişdi. 1918-ci il mart ayının 14-də S. Şaumyanın əmri ilə erməni Əmiryanın komandanlığı altında Şamaxı şəhərinə, Salyan, Hacıqabul, Muğan və Lənkəran bölgələrinə bolşevik-daşnak qoşunları yeridilməklə fəaliyyətə başlandı. Hərbi əməliyyatlar üçün strateji məntəqələr tutulduqdan sonra mart ayının 15-də Bakı Sovetinin iclasında S. Şaumyan "Bakı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir" əmrini verib, hərbi əməliyyat başlayarkən birinci olaraq "Müsavat" partiyasının tutulması göstərişini verdi [293, 161-163].

Hərbi əməliyyatlara başlamaq üçün bəhanə H.Z.Tağıyevin milli ordu quruculuğunda iştirakı zamanı şəhid olmuş oğlu Məhəmməd Tağıyevin cənazəsini Lənkərandan Bakıya gətirmiş "Evelına"





gəmisi ilə Bakıya gəlmiş 18 nəfər Azərbaycan milli ordu hərbçilərinin bolşevik-daşnak ordusu tərəfindən zorakılıqla tərkisilah edilməsi oldu [325, 63-65]. Erməni daşnakları əsgərlər və matroslar, eser və menşevik partiyaları, rus milli şurası arasında şayiə yaydılar ki, "Evelına" gəmisinin komandanlığı Muğandakı Malakan kəndini dağıtmaq üçün göstəriş almışdır. Tədbir Malakan kəndlərinin dağıdılmasının qarşısını almaq üçün keçirilir. Beləliklə, Bakı şəhərinin bütün rus, erməni və digər xristian əhalisi yerli türk və müsəlmanlara qarşı qoyuldu. Onlarda türk və müsəlmanlara qarşı intiqam və qisas hissi alovlandırıldı. Şəhərin xristian əhalisi bir tərəfdə "Evelina" gəmisi hərbçilərinin tərkisilah edilməsinin müdafiəsini nümayiş etdirir, digər məhəllələrində isə türk və müsəlmanlar alınmış silahların qaytarılması tələbi ilə mitinqlər keçirirdilər. Hadisə millətin hissiyyatına toxunmuşdu, müsəlmanlar əsgərlərin tərksilah edilməsini "ordunun və xalqın şərəfinə qanlı təhqir" kimi qiymətləndirirdilər. Milli toqquşma üçün hər saniyə bəhanə var idi. Bolşevik-daşnakların işarəsi gözlənilirdi. Azərbaycan milli liderləri, ziyalıları, ağsaqqalları milli toqquşmanın qarşısını almaq üçün N.Nərimanovun vasitəsilə şəxsən S.Şaumyanın iştirakı ilə Bakı Soveti rəhbərliyi ilə danışıqlara başladı. S.Şaumyan sabah "Hümmət" təşkilatı vasitəsilə alınmış silahların qaytarılacağını vəd etdi. Lakin elə nümayəndələrin Bakı Sovetində danışıqlar apardığı zaman - 1918-ci il martın 30-u, saat 16.40 dəqiqədə erməni kilsəsi yanında toplaşan daşnak dəstələri müsəlmanlara ilk atəşi açdı, bununla da milli qırğın başlandı. Bolşevik və daşnaklar döyüşlərə rəhbərlik etmək üçün S.Şaumyan, A.Çaparidze, Q.Korqanov, İ.Suxartsev, S.Saakyan və M.Lalayev daxil olmaqla, Bakı Soveti yanında inqilabi müdafiə Komitəsi yaratdılar [293, 162; 322, 171-172].

"Martın 30-da axşamdan xeyli keçmiş bütün şəhər qaynar qazana çevrildi. Bakı Sovetinin silahlı dəstələri "İsmailiyyə"ni və İçərişəhəri mühasirəyə alaraq oradakı milli qoşun bölmələrini və müsavatçı silahlıları susdurmağa çalışırdılar. Avakyanın təklifi ilə bir dəstə

silahlı adam Dənizkənarı bulvar boyunca mövqelər tutub İçərişəhəri hədəfə almışdı. Başqa bir çevik dəstə isə İçərişəhərdə mövqe tutmuş Azərbaycan qüvvələrinin diqqətini özünə cəlb etməklə "İsmailiyyə" və Qoşa Qala qapısı yaxınlığında vuruşan qvardiyaçıların işini yüngülləşdirməli idi. Burada isə "Metropol" mehmanxanasının (indiki Nizami adına Ədəbiyyat muzeyi) və onunla Qoşa Qala qapıları arasındakı binanın damında qvardiyaçıların pulemyotları qoyulmuşdu. Bu pulemyotlar "İsmailiyyə" binasını və İçərişəhərdə olan atəş mövqelərini hədəfə almışdılar" [325, 66-67]. Atəş bütün gecə kəsilmədi və səhərisi, yəni martın 31-də xüsusilə geniş vüsət aldı. Bakı milli qoşun bölmələri və vətənpərvərlərin təşkil etdiyi silahlı dəstələr xeyli az olsa da, bolşevik-daşnak qüvvələrinə çox ciddi müqavimət göstərirdilər. Mart ayının 31-də milli qüvvələrin bir dəstəsi Yasamal istiqamətində qvardiyaçı dəstələrlə üzbəüz gəlmiş, onlarla döyüşə girməkdən çəkinməmişdi. Burada hətta qvardiyaçıların mühasirəyə alınması təhlükəsi yaranmışdı. Bakı Soveti bura zirehli avtomobil və əlavə əsgəri hissələr göndərəndən sonra milli qüvvələr geri çəkilmişdi [325, 67]. Elə həmin gün milli qoşun bölməsi Suraxanıda olan qvardiyaçılar dəstəsini tərkisilah etdi. Sonra isə həmin bölmə Əmircan və Bülbülədən keçib Sabunçu neft rayonuna doğru hərəkət etdi. Milli qoşunlardan olan başqa bir dəstə isə Bayıl-Bibiheybət istiqamətində gərgin döyüşlər aparırdı. Həmin bölmə hərbi dəniz limanına xeyli yaxınlaşa bilmişdi. Lakin qüvvələr qeyri-bərabər olduğundan, qvardiyaçıların müqavimətini qırmaq mümkün olmadı [325, 67].

Ermənilər Bakının cənub kəndləri istiqamətində hücuma keçmək istəyəndə Bakı qoçularının təşkil etdiyi dəstələr onları cəsarətlə dəf edərək Mərdəkan, Bülbülə, Binə və Qala kəndlərinə buraxmamışdılar. Bakı qoçuları ilə bolşevik-daşnak hərbi hissələri arasında döyüş çox amansız olmuşdu. Bakı qoçuları çoxlu şəhid versələr də, düşməni bir addım da irəli buraxmamışdılar" [311, 331].

Döyüşlərin ən qanlı nöqtəsi Qoşa Qala qapısı və "İsmailiyyə"





binaları ətrafında idi. Ətrafdakı binaların damında qoyulmuş pulemyotların aramsız atəşi altında milli qüvvələrin mövqeyinə hücum çəkən bolşevik-daşnak dəstələrinin birinə A.Mikoyanla M. Əzizbəyov rəhbərlik edirdilər. Ancaq bu dəstələr də milli qüvvələrin atəş mövqelərini susdurmaqda hələlik aciz idilər [311, 361; 325, 67]. Belə olanda döyüşə yeni qüvvələr gətirildi. Fəhlə qırmızı qvardiyası, 1-ci Beynəlmiləl alayı, 36-cı Türküstan alayı Bakı Sovetinin əmri ilə döyüşə qoşuldu. Bunun ardınca Xəzər donanmasının şəxsi heyəti döyüşə cəlb olundu. Bununla da Bakı Soveti və daşnak cəbhəsi xeyli gücləndirildi. Donanmanın matros və zabitlərinin diqqətini şəhərdə baş verənlərin əsas mahiyyətindən yayındırmaq üçün onların arasında belə bir şayiə yaymışdılar ki, guya müsavatçı qüvvələr İçəri şəhərdə rus əhalisini qırıb-çatırlar. Həmin xəbəri eşidən matroslar bütün hərbi texnikalarını döyüş vəziyyətinə gətirdilər. Matroslardan 200 nəfərlik bir dəstə küçə döyüşlərinə qoşuldu [325, 67]. Bolşevik-daşnaklar piyada qüvvələri ilə tezliklə qarşılarına qoyduqları məqsədlərinə çatmağın mümkün olmadığını gördükdə Xəzər donanmasının güclü hərbi texnikasını işə saldılar. Mart ayının 31-də donanmaya məxsus olan hidrotəyyarələri havaya qaldırdılar və qəti hücuma keçdilər [325, 68; 331, 120].

Aprel ayının 1-də isə "Ərdahan" gəmisinin toplarından şəhər atəşə tutuldu. Gəmilərin döyüşə qoşulmasının səbəbini İnqilabi Müdafiə Komitəsi belə əsaslandırır: "İnqilabi Müdafiə Komitəsinin qarşısında belə sual dayanırdı - biz ya əlimizdə bomba hər bir ev uğrunda mübarizə aparmalı idik, ya da hərəkatı başqa vasitələrlə dayandırmalı idik [325, 68]. Atılan mərmilərdən biri müsavatçıların son qərargahı "İsmailiyyə" binasına, digəri milli-hərbi qüvvələrin yerləşdiyi binaya düşdü. Bununla da ağır toplarla döyüşə girməyə texnikası olmayan, hərbi yardımdan məhrum olmuş milli hərbi qüvvələrin müqaviməti qırıldı.

Ermənilərin İçəri şəhərdə rusların müsəlmanlar tərəfindən qırılıb-çatılması şayiəsi ilə rus matroslarını psixoz vəziyyətə salıb müsəl-

manların məhv edilməsinə cəlb edilməsi zamanı rus əsgər və zabitləri bunun rusları da bu işə qoşmaq üçün xüsusi məqsədlə hazırlanmış plan olduğunu anladılar. Onlar gördülər ki, ermənilər Bakıda türk və müsəlmanlara məxsus bütün mədəniyyət ocaqlarını - "İsmailiyyə"ni, məktəbləri, məscidləri, mətbəələri, qəzet redaksiyalarını, teatrları, xəstəxanaları dağıdıb yandırır, xarabazara çevirir, mağazaları qarət edib viran qoyur, müsəlmanlar yaşayan məhəllələri topa tutur, yandırır, uşaqdan tutmuş qocaya qədər hamını güllələyir, qılıncdan keçirir, süngülərlə dəlik-deşik edirdilər. Evlərə od vurur, uşaqları, ixtiyar qocaları oda ataraq diri-diri yandırır, gənc oğlan və qızları diri-diri divara mıxlayır, onların burun və qulaqlarını kəsir, gözlərini çıxararaq əzab-əziyyətlə öldürürlər. Kimsəyə rəhm edilmirdi. Öldürmədikləri qadınları çılpaq soyundurur, saçlarını bir-birinə bağlayaraq küçələrdə tüfənglərinin qundaqları ilə vuraraq qaçmağa məcbur edirdilər. Musiqi çaldırıb meyitlər arasında qadınları oynamağa məcbur edirdilər. Rus və yəhudi məhəllələrində yaşayan müsəlmanların ünvanları əvvəlcədən əldə edilmişdi. Bu məhəllələrdə yaşayan rus və yəhudilər tərəfindən gizlədilmiş müsəlman uşaqları tapılıb güllələnirdi. Bəşər tarixində görünməmiş, insanlığın təsəvvür edə bilməyəcəyi faciə törədilmişdi.

Heç bir döyüş meydanında, əsir düşərgəsində rastlaşmadıqları bu amansızlıq, qanlı faciə rus zabit və əsgərlərini dəhşətə gətirirdi. 36-cı Türküstan alayı, dənizçilər müsəlman qırğınının dərhal dayandırılmasını tələb etdilər. "Ərdahan" və "Krasnovodsk" hərbi gəmiləri şərq limanına yan alıb, müsəlman qırğınına son qoyulmayacağı təqdirdə şəhərin erməni məhəllələrini toplardan atəşə tutacaqları xəbərdarlığından sonra S. Şaumyan müsəlman qırğınının dayandırılması haqqında erməni qoşunlarına və silahlı dəstələrinə göstəriş verdi. Lakin müxtəlif hiylələrlə ermənilər aprelin 2-si gecə yarısına qədər qırğını davam etdirdilər [332; 333]. Azərbaycan bolşeviklərinin lideri N.Nərimanov isə mart qırğınını belə xatırlayır: "Müsəlmanlar yaşayan məhəllələrin əhalisi qılıncdan keçirilirdi, müsəlman hətta





bolşevik olsaydı belə, ona aman vermirdilər. Daşnaklar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə müsəlman olmağın kifayətdir". Bolşevizmin digər ideoloqu S.M.Əfəndiyev isə mart soyqırımı haqqında belə məlumat verir: "Daşnaklar yalnız müsavatçıları deyil, bütövlükdə bütün müsəlmanları məhv edirdilər". M. Əzizbəyovun isə milli qüvvələrin ocağı "İsmailiyyə" binasının məhv edilməsində A.Mikoyanla çiyin-çiyinə döyüşdüyü faktdır. Millətin varlığı üçün təhlükə yaranan gündə xalq arasında nifrət edilən Bakı qoçularının vicdan, millət və vətən hissləri oyanıb millət və vətən yolunda şəhid olduqları halda, M. Əzizbəyovun xalqına qarşı düşmən tərəfdən döyüşməsi, N.Nərimanovun təkrar rus-erməni qoşununu Azərbaycana çağırması, xalqının istiqlalının məhv edilməsində iştirakı onlarda "manyak"lıqdan əlavə bilmədiyimiz başqa irsi xüsusiyyətlərin olduğunu deməyə əsas verir. Məhz elə bunu nəzərə alaraq mütəfəkkir yazıçı Y.V.Çəmənzəminli bütün bəşəriyyətə müraciətlə yazırdı: "Bolşevikliyi doğuran səbəbləri təkrar-təkrar təhlil etməli və məhvinə çalışılmalıdır" [308, 43].

Mart hadisələri bir daha sübut etdi ki, adi bir insan bədənində hər bir orqanın xüsusi funksiyası olub, başqa orqanı əvəz edə bilmədiyi kimi, milli sosial orqanizmdə də funksiyasını lazımınca icra edən hər bir sosial təbəqənin (orqanın) olması zəruridir. Milli sosial orqanizmin müəyyən hissələri (təbəqələri) öz funksiyasını yüksək səviyyədə yerinə yetirsə də, digər sosial hissələrin olmaması və ya funksiyasını lazımınca icra edə bilməməsi etnosun bir toplum kimi iradə nümayişinə imkan vermir. Bu özünü mart hadisələri zamanı hərbi sosial təbəqənin lazımi səviyyədə formalaşmamasında göstərdi. Odur ki, milli qüvvələr bolşevik-daşnak İnqilabi Müdafiə Komitəsinin Bakı Sovetinin hakimiyyətini tanımağa, Bakı və onun rayonlarından milli silahlı qüvvələrin çıxarmağa, Bakı, Tiflis və Petrovski dəniz yolunun açılması üçün təcili tədbirlər görülməsi haqqında ultimatumunu qəbul etməyə məcbur oldu.

Mart qırğını zamanı Bakıda 13 mindən çox müsəlman əhali

məhv edilmişdi. Erməni daşnak liderlərindən O. Kaçaznuni yazırdı: "Bizim köməkliyimizlə Bakıda bolşeviklər "Müsavat"ı darmadağın etdilər (1918-ci ilin martında), biz isə bolşeviklərin və rus elementlərinin köməyi ilə Bakını türk-tatar hücumundan qoruya bildik" [334, 35]. Lakin tarixdən məlum olduğu kimi, bu dövrdə Bakıya heç bir türk-tatar hücumu gözlənilmirdi. O, Bakını türk-müsəlman əhalidən təmizləmək məqsədini pərdələmək istəmişdir. Onun bolşevik maskalı daşnak həmkarı S.Şaumyanın əsərlərində bu, aydın ifadə edilmişdi. O, Leninə mart hadisələri haqqında hesabatında yazırdı: "Müsəlman millətçi partiyalarının müqaviməti üzündən Bakıda Sovet hakimiyyəti tükdən asılı idi. Yelizavetpolda və Tiflisdə yerini möhkəmləndirmiş feodal (bəy və xan) ziyalıları başda olmaqla partiyalar menşeviklərin alçaq və qorxaq siyasəti nəticəsində özlərini son zamanlarda Bakıda da çox təcavüzkarcasına aparırdılar. Əgər onlar Bakıda üstün gəlsə idilər, şəhəri Azərbaycanın paytaxtı elan edər, bütün qeyri müsəlman ünsürləri tərkisilah edib qırardılar". O, sözünə davam edərək yazır ki, "Daşnakstyun"un da... milli hissələri... bizim ixtiyarımızda idi. Milli hissələrin (daşnakların) iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi... Biz bilərəkdən buna yol verdik" [293, 166]. Göründüyü kimi, Şaumyanın da yazısında erməni xisləti özünü açıq göstərir. Azərbaycan tarixinin heç bir dövründə başqa xalqların nümayəndələrinə qarşı təqib, təzyiq olmamışdır. Mənbələrin məlumatından göründüyü kimi, mart qırğını zamanı Bakıda ermənilərdən başqa bütün millətlərin nümayəndələri yerli türk və müsəlmanları qorumağa çalışmışlar. Yerli müsəlman əhali ilə gəlmə xristian əhali arasında heç bir milli və dini ziddiyyət olmamışdır. O. Kaçaznuninin aydın ifadə etdiyi kimi bolşeviklər öz məqsədləri üçün ermənilərdən, ermənilər isə bolşeviklərdən bəhrələnmişdilər.

Aprelin 2-də Bakı şəhərində qırğın dayandırılsa da, aprelin 3-də Bakı quberniyası rayonlarında bolşevik-daşnakların yerli müsəlman əhaliyə qarşı yeni qırğını başladı.





Quba qəzasına göndərilən bolşevik-daşnak ordusunun komandiri Hamazasp burada müsəlmanlara elan etmişdi ki, "Mən erməni xalqının qəhrəmanıyam və onun mənafeyinin müdafiəçisiyəm. Mən buraya cəza dəstələri ilə gəlmişəm ki, iki həftə bundan qabaq burada öldürülən ermənilərin qısasını alım. Mən bura qayda-qanun yaratmaq və sovet hakimiyyətini qurmaq üçün gəlmişəm. Mən Xəzər dənizinin sahillərindən Şahdağına qədər bütün müsəlmanları məhv etmək, onların yaşayış yerlərini yerlə-yeksan etmək əmri ilə gəlmişəm" [322, 174-175]. Hamazspın komandanlıq etdiyi hərbi hissələr Quba qəzasının 122 kəndini yandırıb məhv etdi. Bolşevik-daşnak qoşunları bunun ardınca Kürdəmir, Salyan və Lənkəran qəzalarında daha dəhşətli amansızlıqlar törətdilər. Bakı quberniyasında müsəlman soyqırımı 1918-ci il sentyabrın ortalarına qədər davam etdi. Bu soyqırım zamanı 20 mindən çox müsəlman həlak oldu [322, 175].

Bakıda bütün hakimiyyət ermənilərin əlinə keçmişdi. Vətən övladları dalanlara sıxışdırılmışdı, ermənilər milli ruhu qırmaq üçün bütün amansızlıq və psixoloji vasitələrdən istifadə edirdilər. Türk-müsəlmanların sağ qaldıqları küçələrdə onlar şadlıq edir, ucadan oxuyurdular:

Bir, iki, Bakı oldu bizimki,
Bir, iki, Qafqaz oldu bizimki,
Dənizdən dənizə
Qara dəniz, Aralıq dənizi,
Üstəlik Krit adası
Yaşa, çox yaşa, Andronik Paşa! [300, 74; 333, 27].

Azərbaycan türklərinin milli ruhunu, istiqlal ruhunu qıra biləcəyinə inananlar yanılırdı. Azərbaycan türklərinin milli vicdanı və imanı onlara şərəfli ölüm və həyat yolu göstərə bilərdi, düşmən qarşısında əyilməyə, yenidən kölə həyatı yaşamağa imkan verməzdi.

Hələ dörd il əvvəl M.Ə.Rəsulzadənin müəyyənləşdirib xalqa aşıladığı milli diriliyin başlıca şərti istiqlaldır. "Dünyanın mütəməddin millətləri öz diriliklərini təmin etmək üçün cəhənnəmi silahlarla müsəlləh olub... istədikləri kibi dirilə bilmək üçün ölümü qəbul edirlər. Dirilik üçün ölürlər" ideyası onun müxtəlif məqalələrində, ardıcıl zənginləşdirilə-zənginləşdirilə qəzet və jurnallarda nəşr olunaraq xalqa aşılanmışdı. Mart günlərində Azərbaycan türklərinin gördüyü dəhşətli amansızlıq və milli heysiyyatı tapdalayan alçaldıcı hadisələr M.Ə.Rəsulzadənin dediklərinin doğruluğuna xalqı əyani surətdə inandırdı. Odur ki, milli birliyi daha da gücləndirdi, xalqı istiqlal ideyasına səfərbər etdi, bu məqsədlə savaşa hazırladı. Bu savaşın üsul və vasitələrinin, həyata keçirilməsi taktikasının planlaşdırılması və icrası üçün Azərbaycan ziyalıları, elitası, bütün zəka sahibləri fövqəladə vəziyyətdə fəaliyyətə keçdilər. Başlıca vəzifə çeviklikə kiçikdə olsa, düşmən üzərində ardıcıl qələbələrlə məğlubiyyət hissini xalq ruhuna yaxın buraxmamaq, milli özünə inam hissini daha da canlandırmaqla, bütün milli enerjini səfərbər etməklə düşmən üzərində həlledici qələbəyə nail olub, istiqlala çatmaqdan ibarət idi. Azərbaycan milli liderləri daxili milli səfərbərliklə bərabər beynəlxalq qüvvələrdən və beynəlxalq şəraitin imkanlarından da maksimum istifadə etməyə səy göstərdilər. Aprelin 2-də Zaqafqaziya Seymi Bakı hadisələrini ciddi müzakirə etdi. Hümmətçilər və ermənilər istisna olmaqla, Seymin müsəlman fraksiyası və gürcü deputatları bolşeviklərin Bakıda hakimiyyəti ələ keçirməsini Zaqafqaziyada hakimiyyətin ələ keçirilməsinin başlanğıcı kimi qiymətləndirdilər. Azərbaycan deputatları Bakıda bolşevik və daşnakların əl-qol açа bilməsinin əsas səbəbini Seymin milli qoşun hissələrini vaxtında lazımınca silahlandırmaması ilə izah etdilər. Deputatlardan A.Səfikürdski qətiyyətlə bildirdi ki, Zaqafqaziya Seymi bolşevizmin ləğvi istiqamətində təcili tədbirlər görməsə, müsəlman sosialist bloku özü bu müharibəyə qoşulacaq. M.Ə.Rəsulzadə daha kəskin və qəti tələblərlə çıxış etdi. Azərbaycan və gürcü deputatların bir hissəsinin ciddi səyi ilə Seym Zaqafqaziya hökumətinə bolşevik çıxışlarını ləğv etmək üçün xüsusi tapşırıqlar verdi. Tapşırığın icrası Hərbi Nazirliyə tapşırıldı və Bakı quberniyasının bolşeviklərdən təmizlənməsi üçün 100 min rubl pul, piyada və süvari hissələri, iki təyyarə, zirehli qatar, silah və sursat ayırmaq üçün göstəriş verildi.





Azərbaycan milli liderləri eyni zamanda Bakıda bolşevizmi ləğv etmək üçün Dağıstan milli lideri imam Qotsinski ilə danışıqlar apardı. Bolşevik-daşnak qüvvələrinin Bakıda müsəlmanlara qarşı törətdiyi vəhşiliyi nəinki imam Qotsinski, bütün Dağıstan xalqı həyəcanla, həssaslıqla qarşıladı. Daşnak və bolşeviklərin heç bir insanı əxlaqa sığmayan vəhşi, amansız hərəkətləri onların milli və dini hisslərinə toxundu. Dağıstanın xalqının bu reaksiyası onların Azərbaycan türk və müsəlmanları ilə bir millət qədər yaxın və doğma olduğunun ifadəsi idi. Dağıstan qəzetləri dərhal Bakı hadisəsi haqqında məlumatlar dərc edib, onları millət və din qardaşlarının köməyinə çağırdı. Bakıya hərbi köməyə gəlmək üçün Qotsinskinin 1500 nəfərlik nizami hərbi hissələrinə 1000 nəfər könüllü qoşuldu [325, 71-72; 331, 122-123].

Şimaldan imam Qotsinskinin hərbi hissəsi, Qərbdən Zaqafqaziya hökumətinin qüvvələri, Hacıqabul və Şamaxı istiqamətlərindən Müsəlman korpusunun bölmələri hərbi əməliyyata başladı. Yeni fəaliyyətə başlamış Milli hərbiyə məktəbində tədris dayandırılaraq onun zabit heyəti Hacıqabul cəbhəsinə göndərildi. Hacıqabul cəbhəsində gürcü silahlı bölmələri də iştirak edirdi. Dəstəyə knyaz Maqalov rəhbərlik edirdi.

S.Şaumyan və məsləkdaşlarının gözlədiklərinin əksinə olaraq, mart hadisələri nəinki Azərbaycan türklərinin ruhunu qırmış, əksinə onu səfərbər etmiş, hətta Dağıstan müsəlmanları da bu xalqın bir hissəsi kimi çıxış etmişdi. Bu gözlənilməz vəziyyət S.Şaumyan və onun komandasını həyəcana saldı. O, dərhal sərəncamında olan rus və erməni hərbi hissə və dəstələrini hərəkətə gətirdi. Saritsin Şurasına məlumat verib, imam Qotsinskinin hərbi hissəsi Bakıya çatana

qədər ona təcili olaraq hidroaeroplan, döyüş aeroplanı, hərbi sursat göndərməsini tələb etdi. Bakıda səfərbərlik elan edib hərbçiləri və silaha malik olanları orduya cəlb etdi. Bakı varlılarından zorla 50 milyon rubl pul toplamaqla bolşevik-daşnak ordusunun təchızını təşkil etdi [325, 71-73]. Bütün bolşevik və daşnak ordularını hərbi vəziyyətə gətirdi.

Zaqafqaziya Seyminin müsəlman fraksiyası (hümmətçilərdən başqa - X.X.), Müsəlman korpusunun komandiri, təcrübəli general Ə.Şıxlinski tam komplektləşməmiş, lazımi səviyyədə təlim görməmiş ordunun qarşıya qoyulmuş döyüş əməliyyatını adətən lazımi səviyyədə həyata keçirə bilmədiyini bilirdi. Lakin o, hərb tarixindən və təcrübəsindən ordunun döyüş ruhunun və təşkilatlanma qabiliyyətinin başlıca olaraq vətən və milli hisslərdən yarandığını da dəqiq bilirdi. O, hələ tam koplektləşməmiş, lazımi təlim keçməmiş Azərbaycan hərbi hissələrinə xüsusi təhsil və təlim görmüş rus-erməni ordusu ilə döyüşə girməsinə əmr verəndə, onların Azərbaycan türkünün vətən və millət sevgisi, milli ləyaqət uğrunda döyüşü qarşısında dayana bilməyəcəyinə inanırdı. Elə bu inamla da milli qoşun hissələrinə və köməyə gəlmiş gürcü hərbi hissələrinə Bakıdan Gəncə-Tiflis istiqamətində hərəkət edən bolşevik-daşnak ordusuna qarşı hücum əmri verdi. Müsəlman korpusunun milli hərbi hissələri və köməyə gəlmiş gürcü hərbi hissələrinin çevik döyüş əməliyyatı nəticəsində aprelin ilk günlərində bolşevik-daşnakların əlində olan Hacıqabul şəhəri tutuldu. General-leytenant Ə.Şıxlinski tərəfindən Azərbaycan və gürcü hərbçilərinin bu qələbədəki vətənpərvərlik hissləri yüksək qiymətləndirilirdi.

Eyni vaxtda İsmayıl xan Ziyadxanovun rəhbərliyi altında 3 min nəfərlik milli hərbi hissə Şamaxı şəhərində cəmləşmiş bolşevik-daşnak hərbi qüvvələri üzərinə hücuma keçdi və dəqiqliklə planlaşdırılmış döyüş əməliyyatı nəticəsində Şamaxı şəhərini tutdular. Hacıqabul və Şamaxını tutan hərbi dəstələr burada möhkəmlənib, imam Qotsinskinin hərbi hissələri ilə eyni vaxtda Bakıda möhkəmlənmiş





bolşevik və daşnak orduları üzərinə hücuma keçmək üçün məqam gözlədilər [325, 71-72].

Bu zaman imam Qotsinskinin hərbi dəstələri Bakıya doğru hərəkət edirdi. Yol boyu Qubada, Xaçmazda və Dəvəçidə mövcud olan milli qoşun hissələri və silahlılar da onlara qoşulurdular. Onlar artıq aprelin 7-də Xırdalana çatıb dərhal burada döyüş mövqeyi tutdular. Müsəlman korpusunun Bakıdan çıxmağa məcbur olmuş bəzi bölmələri də onlarla birləşdi. İmam Qotsinskinin dəstəsinin Xırdalan ətrafında döyüş qabağı mövqe tutması bolşevik-daşnakları ciddi təşvişə saldı. İnqilabi Müdafiə Komitəsinin Xırdalan istiqamətində göndərilən zirehli avtomobili Dağıstan qüvvələri tərəfindən top atəşinə tutulub geri qayıtmağa məcbur edildi [325, 72-73].

Milli qüvvələrin Bakı istiqamətində əks hücumu nəticəsində Bakı neftini itirəcəyi Moskvanı qorxuya saldı. Odur ki, Bakıdan gəlmiş nümayəndə S.Ter-Qabrielyan və V.Boytsevi Lenin şəxsən qəbul etdi. Təcili Bakıdakı bolşevik-daşnak ordusuna lazım olduğu qədər silah və təchizat göndərilməsinə şəxsən sərəncam verdi. Hərbi-Dəniz Kollegiyasının fövqəladə komissarı və Poluxin başda olmaqla Baltik donanmasının bir qrup hərbi dənizçisi Bakıya göndərildi. Bunlardan əlavə, Moskvadan Bakıya səyyar inqilabi dəstələr də göndərildi [331, 125]. Beləliklə, Moskvadan göndərilən hərbi-texnika və qoşun hissələri ilə gücləndirilən Bakı Sovetinin bolşevik-daşnak qoşunları milli qüvvələr üzərinə hücuma keçdilər. Bakı Soveti İnqilabi Müdafiə Komitəsinin sərəncamında olan bütün silahlı hərbi qüvvələr Bakı şəhəri ətrafı boyu yerləşdirildi. İlk döyüşlər Xırdalan ətrafında imam Qotsinskinin dəstəsi ilə birləşmiş Azərbaycan milli qoşun hissələri ilə başladı. Bu cəbhəyə erməni Qəhrəmanovun komandanlığı ilə piyadalar, matros Yelsovun komandanlığı ilə Xəzər donanmasının bir bölməsi və birinci zirehli qatar cəlb edilmişdi. Bolşeviklərin süvarilərdən ibarət çevik kəşfiyyat qrupu da bu cəbhəyə cəlb edilmişdi. İrəliyə çıxarılmış bu qrup elə ilk döyüşlərdə geriyə çəkilməyə məcbur oldu. Xırdalan ətrafında döyüşlər aprel

ayının 8-10-da çox gərgin oldu [325, 73-74].

Zaqafqaziya Seyminin müstəqillik ideyalarının daşıyıcısı olan deputatları Bakının bolşeviklər tərəfindən tutulmasını Rus imperiyasının Zaqafqaziyanı yenidən işğalının başlanğıcı kimi qiymətləndirir və qarşısını almaq üçün səylə çalışırdılar. Xaç ataları Leninin siyasətdə lazım gələndə fahişələrdən də istifadə etmək tövsiyəsinə əməl edən bolşevik liderləri siyasi-mənəvi fahışələr olmaqla heç bir əxlaqa qail olmadan çarizmin, müharibənin xalqın həyatında yaratdığı çətinliklərdən, müstəqillik şüarından, "parçala, hökm sür", zorakılıq və s. üsullardan paralel istifadə etməklə Azərbaycanı, bütünlüklə Qafqazı yenidən işğal edirdilər. Azərbaycanın istiqlal mübarizlərinin, Zaqafqaziya seyminin Bakının azad edilməsi tədbirlərinə qarşı bolşevik Rus imperiyası yalnız hərbi üsul deyil, beynəlxalq vasitələr, təxribat, Zaqafqaziya seymini və əhalini parçalamaq və s. üsul və vasitələrdən istifadə edirdi. Dağıstanın müsəlman əhalisinin mütəşəkkil surətdə Azərbaycanı müdafiə etdiyinə görə bolşeviklər Dağıstanı Bakı ilə eyni vaxtda tutmağı planlaşdırır, Zaqafqaziya Seymində Azərbaycan türk deputatlarını gürcülərdən təcrid etmək üçün onların müstəqilliyini tanıyacağı və başqa vədlərlə Zaqafqaziya Seymini parçalamaq, türk deputatlarını oradan sıxışdırıb çıxarmaq və s. gizli tədbirlər həyata keçirirdi [322, 176-201; 327, 47-85; 335, 45].

Faktlardan aydın olur ki, bolşeviklərin bu təxribatları, hərbi-siyasi gedişləri ilkin mərhələdə baş tutmuşdur. Bolşeviklərin Bakı ilə eyni vaxtda Xəzər dənizindən Dağıstana hücuma hazırlaşması haqqında xəbər imam Qotsinskinin hərbi hissələrini Dağıstana qayıtmağa məcbur etdi. Bu, Azərbaycan milli qüvvələrinin Bakını düşməndən azad etmək planını pozdu, bolşevik-daşnakların hücum imkanını asanlaşdırdı. Xırdalan istiqamətində gözlənilən təhlükənin aradan qalxması Bakı bolşeviklərinə əsas hərbi qüvvələri Hacıqabul üzərinə cəmləşdirmək imkanı verdi [325, 74].

Xəzər dənizində sərbəst hərəkət etmək, burdan istənilən əraziyə





qoşun çıxarmaq bolşevik-daşnak qüvvələrinə geniş hərbi üstünlük qazandırdı. İmam Qotsinskinin hərbi dəstələri Xırdalandan çıxararkən Şamaxıda milli hərbi hissələr əks hücumla bolşevik qüvvələrini geri çəkilməyə məcbur etdilər. Aprelin 12-də Bakı Soveti əlavə hərbi qüvvə və texnika göndərməklə Şamaxıda milli qüvvələrin əks-hücumunun qarşısını aldı. Aprel ayının 14-də gəmi ilə Lənkərana qoşun göndərildi. Lənkərandakı milli qoşun hissələrinin Hacıqabula göndərilməsi burada milli qüvvələrin xeyli zəifləməsinə səbəb olmuşdu. Bolşevik-daşnak qüvvələrinin aprelin 14-də Lənkəran şəhəri üzərinə başlayan hücumu aprelin 19-da onların şəhəri ələ keçirməsinə imkan verdi.

Ən gərgin döyüş Hacıqabul ətrafında gedirdi. Knyaz Maqalovun rəhbərlik etdiyi müsəlman və gürcü korpusunun hissələri hücumla düşmənin müdafiə xəttini yarmağa təşəbbüs göstərdi. Lakin cinahlarda yerləşdirilmiş bolşevik hərbi hissələri buna imkan vermədi. Bolşevik-daşnak orduları əks hücumla Hacıqabulu adlayıb milli-qüvvələrin arxasına keçməyə təşəbbüs göstərdilər. Lakin Azərbaycan və gürcü hərbi hissələri onları geri çəkilməyə məcbur etdilər. Bolşevik-daşnak hərbi rəhbərliyi milli qüvvələrin mövqelərini və sayını dəqiqləşdirmək üçün hidroplanlardan istifadə etdi. Hərbi üstünlüyü ələ almaq üçün Hacıqabula əlavə canlı qüvvə və hərbi texnika, zirehli qatar gətirdi [325, 74-75]. Azərbaycan milli qüvvələri Bakı quberniyasında vəziyyəti həssaslıqla izləyirdi. Əslində Zaqafqaziya seymi dağılmış vəziyyətdə idi. Seymin bolşevik-daşnak və hümmətçi fraksiyası Moskvaya üz tutmuş, onların təsiri altında aprelin 13-də Türkiyəyə müharibə elan edilmiş, Seymin fəaliyyəti 2 həftəyə dayandırılmışdı. Hökumətin sədri Y.P.Gegeçokri, daxili işlər naziri N.V.Ramişvili, maliyyə naziri X.Korçukyan Ali Müdafiə Şurası yaratmaqla faktiki hakimiyyəti ələ keçirmişdilər. Zaqafqaziyanın bütün hərbi gücünü Türkiyəyə qarşı səfərbər etməyə çalışırdılar. Seymin Azərbaycan milli fraksiyası hadisələrdən təcrid edilmişdi. Elə həmin axşam Seymin Azərbaycan milli fraksiyası ayrıca

iclas çağırıb ümumən siyasi vəziyyət, Seymdə erməni və gürcülərlə işləməyin mümkünlüyü, Hacıqabulda ağır döyüşlərin getdiyi vaxtda hərbi yardımın qəsdən ləngidilməsi, yaranmış ağır vəziyyətdən çıxış yolunun tapılması və s. məsələlər ciddi müzakirə olundu. M.Ə.Rəsulzadə bildirdi ki, birinci növbədə öz gücümüzə arxalanmalı və Türkiyədən kömək istəməyin lazımlıyi diqqət mərkəzinə çəkilməlidir. Seymin Azərbaycan milli fraksiyası Seymin birdən-birə dağılmasına imkan vermədən milli mənafeyə qarşı getməyən gürcü deputatlarla birgə fəaliyyəti davam etdirmək, Azərbaycanın müstəqilliyini elan etməyin beynəlxalq zəruri məqamlarının araşdırılması istiqamətində iş aparmaq haqqında qərar qəbul etdi [327, 61-64; 335, 45-46].

Zaqafqaziya Seyminin Azərbaycan milli fraksiyasının gərgin səyi ilə Zaqafqaziya hökuməti 16 aprel tarixli iclasında Bakı və onun ətrafında yaranmış vəziyyəti müzakirə etdi. Azərbaycan milli fraksiyasının təzyiqi ilə Zaqafqaziya hökuməti Bakının bolşevik-daşnaklardan azad edilməsi üçün əlavə qüvvə və vəsait ayırdı. Artıq bu zaman hərbi üstünlüyü ələ almış bolşevik-daşnak orduları Şamaxıda və Hacıqabulda əks hücuma keçmişdilər. Şamaxıda bolşevik-daşnak hərbi hissələrinə Bakı qırğınının rəhbərləri T.Əmirov və S.Lalayev komandanlıq edirdi. S.Şaumyanın təklifi və təkidi ilə bu adamların sovet hökuməti qüvvələrinin rəhbəri təyin edilməsində məqsəd Şamaxıdakı milli qüvvələrə, bütünlüklə türk və müsəlmanlara güclü zərbə vurmaqla burada bolşevik-daşnakları möhkəmləndirmək idi. Aprel ayının 17-də Şamaxı döyüşündə milli qüvvələr ağır itkilərlə, döyüşə-döyüşə geri çəkilməyə məcbur oldu. Bolşevik-daşnak qoşunlarının Şamaxıda kütləvi qırğın və talanı başlandı.

Şamaxıya göndərilən qoşunların şüarı "müsəlmanlara rəhm yoxdur, onların hamısı məhv edilməlidir", - amansızlığından ibarət idi. Elə bu şüarın psixoloji təsiri altında onlar Şamaxıda Bakıdakından da amansızlıq göstərdilər. Silahsız, heç bir müqavimət göstərməyən insanları, qoca, uşaq və qadınları işgəncə ilə öldürür, insanları diri-





diri divarlara mismarlayır, meyitlər üzərində ehtikarlıq edirdi, müsəlman dini məbədlərini dağıdırdılar. Bolşevik-daşnak orduları burada məskunlaşmış erməni və malakan kəndlərinin yardımı ilə Şamaxıda 7 mindən artıq insanı məhv etdilər, 15 min əhali qaçqın düşdü, 80 kəndi xarabazara çevirdi [216, 71; 293, 165; 325, 76-77].

Zaqafqaziya hökumətinin Hacıqabul hərbi hissələrinə yardımı burada cəmləşmiş bolşevik-daşnak qüvvələrini dəf etmək üçün yetərli deyildi. Hərbi üstünlüyü bütünlüklə ələ almış bolşevik-daşnak qüvvələrinin hücumu qarşısında knyaz Maqalovun komandanlıq etdiyi Azərbaycan və gürcü milli hərbi hissələri aprelin 20-də 4 saatlıq gərgin döyüşdən sonra geri çəkilməyə məcbur oldu [325, 76]. Elə bu günlərdə Brest-Litovsk sülh müqaviləsinin şərtlərinə əməl etməyərək Ərdahan, Qars və Batumu Türkiyəyə qaytarmaqdan imtina edib, ona müharibə elan etmiş Zaqafqaziya Seyminin erməni-gürcü orduları Türkiyə orduları tərəfindən məğlub edildi və Batumun tutulması vəziyyəti daha da gərginləşdirdi. Azərbaycanın türk və müsəlmanları qərbdən və cənubi-qərbdən bir əsr ərzində rus və ingilis imperialistləri tərəfindən siyasi, ideoloji və psixoloji manipulyasiya edilmiş erməni və aysor silahlı hərbi hissələri, şimali-şərqdən bolşevik-daşnak silahlı qüvvələri qarşısında təklənmiş vəziyyətdə qalmışdı. Əgər Şimali Azərbaycanda kiçik də olsa, hərbi hissələr, xalqı təmsil edən siyasi qüvvələr var idisə, Cənubi Azərbaycanda bunların heç biri yox idi. Qacarlar sülaləsinin son nümayəndəsi Əhməd şahın adı var idi. Qacarlar monarxiyasının Rusiya ilə İngiltərə arasında nüfuz dairəsinə bölünməsi haqqında 1907-ci il müqaviləsinin 1915-ci ildə təzələnmiş yeni variantı ilə faktiki ölkə işğal olunmuşdu və işğal ordularının nəzarəti altında idi. Əhməd şah bütün səlahiyyətlərini itirmişdi, hakimiyyətinin rəmzi adı vardı. Rusiya ilə İngiltərə arasında yeni müqaviləyə Türkmənçay müqaviləsinin ermənilər haqqında 15-ci maddəsi daxil edilmiş, çoxlu erməni yaşayan İsfahan Rusiyanın nüfuz dairəsinə daxil edilmişdi. Rusiya və İngiltərə Cənubi Azərbaycan ərazisində ermənilərə və

aysorlara dövlət yaradacağını vəd etmişdi. Odur ki, cənubi Azərbaycandakı milli-azadlıq hərəkatı rus, ingilis qoşunları və ermani-aysor silahlıları tərəfindən dərhal amansızlıqla yatırıldı [336]. Batum, Qars və Ərdahanda Türk qoşunlarına məğlub olmuş erməni hərbi hissələri Andronikin başçılığı ilə Qacarlar monarxıyası ərazisindəki ingilis qoşunları ilə birləşmək üçün hərəkət etdilər. Onlar yol boyu qarşılarına çıxan bütün türk və müsəlman əhalini, yaşayış məntəqələrini amansızlıqla məhv edirdilər və Qars vilayətinin 82, İrəvan quberniyasının 211, Zəngəzurun 119 türk və müsəlman kəndlərini yandırmışdı. İrəvanda qaçqınların sayı 80 mindən, Zəngəzurda 50 mindən artıq idi. Andronikin qoşunları Naxçıvanı talayıb, Culfaya daxil oldu. O, Culfadan Bakı Sovetinin sədri S.Şaumyana teleqramla məlumat verərək bildirdi ki, "Culfa mənim əlimdədir, istədiyiniz vaxt onu sizin sərəncamınıza verə bilərəm". Şaumyan isə ona cavab teleqramında bildirir: "Culfa, xalq qəhrəmanı Andronikə. Sızin 577 saylı teleqramınızı aldım. Tam mətnini Moskvaya, Mərkəzi hökumətə göndərdim. Öz tərəfimdən sizin şəxsinizdə həqiqi xalq qəhrəmanını təbrik edirəm" [327, 71; 335, 110-111]. Eyni vaxtda cənubi Azərbaycanda aysor və ermənilər Salmas şəhərində 2 gün ərzində 10 minə yaxın, Urmiyada 10 min türk və müsəlmanı məhv etdilər. Onlara ən ciddi müqavimət Xoy şəhəri ətrafında oldu. Xoy ətrafındakı döyüşlərdə hər iki tərəfdən ölənlərin sayı 130 min nəfərə çatırdı. Xristianların silahlı mütəşəkkil qüvvə olduğunu nəzərə alsaq, ölənlərin çoxu türk və müsəlmanlar idi. Bu günlərdə döyüş gedən ərazilərdə rus hərbi hissələri türk və müsəlmanları tərkisilah edirdi. Bu qırğınlar, soyqırım Azərbaycan ərazisində xristian erməni və aysor dövləti yaratmaq məqsədilə dünya "demokratları" ABŞ, İngiltərə, Fransa və Rusiya tərəfindən maliyyələşdirilir, silahlandırılır və ruhlandırılırdı [336]. İstiqlal, demokratik, hüquqi cəmiyyət quruculuğu uğrunda mübarizə aparan Azərbaycan türkləri soyqırımla üzləşmişdi.

Vəziyyətdən çıxış yolu, xilas yolu axtaran, xalqının iradəsinə,





qürur və ləyaqətinə inanan M.Ə.Rəsulzadə bildirdi ki, Azərbaycan birinci növbədə öz gücünə arxalanmalıdır. N.Yusifbəyli Azərbaycan milli liderlərindən milli zəka və siyasi məsuliyyəti üzərinə götürməyi tələb edirdi: "Təhlükənin gözünün içinə dik baxmalı, baş verəcək hadisələri qabaqcadan görüb, vaxtında müvafiq addımlar atmalıyıq" [327,61;335,48]. O, hamını cəsarət, qətiyyət və düşünülmüş, yüz ölçüb, bir dəfə bıçilmiş addımlar atmağa səslədi. Azərbaycan milli liderləri ciddi axtarışlara girişdilər. Bu zaman Azərbaycanın yaşayış məntəqələrində türk və müsəlmanlar kiçik hərbi dəstələr təşkil edərək imperializmin, onun ideoloqlarının xristianların türk və müsəlmanlar üzərində ağalığı ideyası ilə Azərbaycan üzərinə qısqırdığı erməni və aysorlara, maskalanmış rus bolşeviklərinə qarşı döyüşürdülər. Bu işin təşkilində ona I Dünya müharibəsində əsr düşüb Azərbaycana gətirilmiş Anadolu türk zabitləri köməklik edirdi [324,107-108]. Azərbaycan türklərinin düşmənə lazımınca əks zərbə vurmasına imkan verməyən başlıca səbəb hərbçi sosial təbəqənin olmaması idi. Bunu doğuran səbəb Azərbaycan istiqlal mübarizələrindən N.Şeyxzamanlının Türkiyə rəhbərliyi ilə görüşündə aydınlığı ilə ifadə edilmişdir: "Qafqaz ruslar tərəfindən işğal olunarkən səkkiz xanlığın xalqı olan azərilər ki, dini bir, adət və ənənələri bir olan millətimiz türk millətidir, rus idarəsinə qarşı gecəli-gündüzlü, hər fədakarlığı gözə alaraq vuruşdular. Bu vuruşmaların rus çarlığının devrilməsində böyük rolu olmuşdur. Qafqazda başsız qalan rus ordusu qatmaqarışıq vəziyyətdədir. Xalqımızın silahlı qüvvələrinin hücumuna, təzyiqinə dözə bilmədilər. Qısa bir vaxt ərzində silahlarını ataraq çəkildilər. Azərbaycanın hər tərəfində xalqı idarə edə biləcək milli Komitələr quruldu. Tezliklə anarxiyadan əsər-əlamət qalmadı. Ancaq bu gün üçün əlverişli olan vəziyyət sabah təhlükəlidir. İqtisadiyyatımız, cəmiyyətimiz, imanımız, mədəniyyətimiz, hər sahədə rus millətindən qat-qat üstün olduğu halda, azəri türklərinin gələcəyi qaranlıq görünür. Müstəqil yaşamağa əzm etmiş millətimizin böyük bir nöqsanı vardır. Xalqımızın vaxtilə hərbi tə-

lim və tərbiyədən məhrum olunması və rus çarı I Pyotrun göstərişinə əsasən İran və Türkiyənin rus himayəsi və təsiri altına düşməyincə Qafqazdan əsgər alınmamasını əmr etməsi bu çatışmazlığı yaratmışdır. Azərbaycan xalqı sizdən kömək gözləyir... Bizə böyük hərbi qüvvə göndərməyin. Bizə hərbi təlimçilər və serjant korpusu göndərin. Bizdə qısa bir vaxt ərzində hərbi qüvvə yaratmağın imkanı vardır. Türk olduğumuz üçün lazım olan qüvvə qanımızda mövcuddur. Xalqımızın milli qüvvəsinə güvənərək qısa bir müddət ərzində rusları torpağımızdan təmizləyib ata bilərik" [306, 68-69].

Azərbaycan milli liderləri dünyanı qan içində boğan, yenidən bölən imperialist dövlətlərin ziddiyyətləri, mənafeləri arasından xalqına çıxış yolu axtarırdı. Bu zaman I Dünya müharibəsində məğlub olmuş Rus imperiyasını yenidən bərpa etmək üçün bolşeviklər ondan qopmaların qarşısını almaq üçün aldadıcı şüarlardan istifadə edərək vaxt qazanırdı. Güzəştə getmək istəmədiyi Bakı nefti idi. Bu məqsədlə imperiyanın keçmiş müttəfiqləri və rəqibləri ilə yeni münasibətlər qururdu. Yeni Rus imperiyası ilə onun keçmiş müttəfiqləri İngiltərə və Fransa arasında ideoloji barışmazlıq yaranmışdı. Odur ki, İngiltərə və Fransa gizli müqavilə bağlamış, Qafqaz İngiltərənin təsir dairəsinə verilmişdi. Rusiya isə Brest-Litovskidə Almaniya ilə müqavilə bağlayaraq işğal etmək niyyətində olduğu Türkiyəyə Qars, Ərdəhan və Batumi güzəştə getmiş, Almaniyaya Bakı neftindən pay verəcəyini vəd etməklə Türkiyəni Qafqaza - Azərbaycana buraxmamağa razı salmışdı. Həmçinin Gürcüstanı müstəqilliyini tanıyacağı ilə şirnikdirərək onu Türkiyəyə qarşı yönəltmişdi. Rus imperiyasının ermənilərə vəd etdiyi əraziləri Türkiyəyə güzəştə getməsi erməniləri ondan narazı salmış, həm də onları gözləmə mövqeyi tutmağa məcbur etmişdi. Erməni siyasi qüvvələri parçalanıb Rusiya ilə bərabər ABŞ, İngiltərə və Fransaya işləməyə başlamışdılar. Lakin tarixdən məlum olduğu kimi, ermənilərin siyasi-ideoloji parçalanması heç vaxt erməni xalqının məğlubiyyətinə səbəb olmamışdı. Onlar milli mənafe baxımından





hər an birləşə bilərlər. Eyni zamanda Almaniya da gürcülər vasitəsilə müttəfiqi Türkiyənin mənafeyinə qarşı çıxırdı. Türkiyə ilə Almaniya arasında Qafqaz məsələsi bütünlüklə ziddiyyət təşkil edirdi. Rusiyanın zəifləməsindən istifadə edən Türkiyə Yaxın Şərqdə itirdiyi iqtisadi-siyasi mövqelərini Qafqazlar vasitəsi ilə bərpa etmək istəyirdi. Avropa imperialistlərinin xristian təəssübkeşliyi siyasətinin Qafqazda doğurduğu islam birliyi təəssübkeşliyi və Qafqaz və Rus imperiyası türklərin oyanmış milli şüuru Türkiyəyə meyl yaratmışdı. Türkiyə bunlardan yararlanmaq istəyirdi. Türkiyədə onun geopolitik məqsədlərini nəzərə almadan türk-islam təəssübkeşliyi göstərən qüvvələr də var idi [322; 327; 335; 337, 319-357]. Onların başında Türkiyədə böyük nüfuza malik hərbiyə naziri Ənvər paşa dururdu. İddiasını dünyaya diqtə edən beynəlxalq qüvvələrin belə kəskin qarşıdurması şəraitində Azərbaycanın istiqlalı uğrunda mübarizə aparan milli liderləri Azərbaycan türklərini fiziki cəhətdən məhv olmaq təhlükəsindən xilas etmək məcburiyyətində qalmışdılar. İngiltərə, Fransa, ABŞ-dan siyasi dəstək alan, Rusiya tərəfindən silahlandırılan ermənilər siyasi və hüquqi məsuliyyətdən kənarda qalacaqlarına əmin olduqlarından, heç bir qorxu və tərəddüd keçirmədən açıq şəkildə Azərbaycanda türk və müsəlmanların soyqırımını həyata keçirdilər. Azərbaycanın, birinci növbədə Bakının türk və müsəlmanlardan etnik təmizlənməsi ideyası I Pyotrdan başlayaraq rus imperatorları tərəfindən müdafiə olunsa da, bu siyasət örtülü aparılmışdır. Lakin Lenin başda olmaqla bolşeviklər hakimiyyətə gələn kimi Azərbaycanda türk və müsəlmanların etnik təmizlənməsini Bakıdan başlayaraq amansızlıqla həyata keçirməyə başladılar. Kommunistlər hakimiyyətdə olduqları müddətdə bu siyasəti bir neçə dəfə zorakı surətdə həyata keçirmək istəsələr də, Azərbaycan türkləri böyük məhrumiyyətlərə, ərazi itkisinə məruz qalsa da, imperiya istəklərinə bütünlüklə nail ola bilmədi.

Bolşevik Rus imperiyası və ermənilər bütün Azərbaycan miqyasında kütləvi hərbi hücuma keçmək üçün Bakıya əlavə hərbi qüvvə

və texnika cəmləyirdi, ermənilərin Azərbaycanda yerləşmiş hərbi qüvvələrinin əməliyyat, əlaqələndirmə planı hazırlanırdı. Azərbaycan xalqının yeganə milli dayaq kimi istifadə etdiyi Gəncənin itirilməsi təhlükəsi yaranmışdı [320, 36-37; 325, 79-80, 91-94; 331, 154-155]. Azərbaycanın hər qarışını silahlı mübarizə, döyüş meydanına çevirmə zərurəti yaranmışdı. İtirilən hər saniyə milli məhvolma imkanı yaradırdı.

Azərbaycanın milli silahlı qüvvələrinin sayını artırmaq və onu zəruri anlarda lazımınca silahlandırmaq imkanının olmaması hərbi yardım üçün Türkiyəyə müraciət etmək zərurətini ortaya qoymuşdu. Artıq bu istiqamətdə Azərbaycan milli liderlərinin Türkiyə ilə müəyyən anlaşmaları var idi. Lakin I Dünya müharibəsində məğlub olmuş Türkiyə ehtiyatlı hərəkət edərək bu yardım üçün hüquqi baza yaradılmasını istəyirdi. Bu hüquqi baza isə Zaqafqaziya Seyminin Zaqafqaziyanın müstəqilliyini elan etməsi ilə yarana bilərdi. Ermənilərin, bolşeviklərin, rusların təsiri ilə gürcülər Türkiyəni özləri üçün təhlükə kimi qiymətləndirir, həmçinin Zaqafqaziyanın müstəqilliyini elan edilməsindən sonra Türkiyədən bəhrələnməklə Azərbaycanın imkanlarının artacağı fikri ilə gürcülər müstəqilliyin elan edilməsini ləngidirdilər.

Aprel ayının 19-da Azərbaycan türklərinin varlığı üçün yaranmış təhlükəni aradan qaldırmaq üçün Zaqafqaziya Seyminin Azərbaycan milli fraksiyası yaranmış vəziyyəti müzakirə edib ultimativ şəkildə Seymdən Zaqafqaziyanın müstəqilliyinin elan edilməsini tələb etdilər. Türkiyəyə qarşı açdıqları müharibədə az bir vaxtda məğlubiyyət Seymin gürcü-erməni fraksiyasının iradəsini qırdığından aprel ayının 22-də Zaqafqaziya Seymi Transqafqazı müstəqil Zaqafqaziya Federativ Demokratik Respublika elan etdi [322, 183-185; 327, 68; 335, 47]. Aprel ayının 26-da Seym Zaqafqaziya Federativ Demokratik Respublikasının hökumətini təsdiq etdi. A.Çxenkelının təşkil etdiyi hökumətdə F.X.Xoyski ədliyyə naziri, N. Yusifbəyli xalq maarif naziri, X.Məlikaslanov yollar naziri, M.Hacınski





ticarət və sənaye naziri, İ.Heydərov dövlət nəzarətçisi vəzifələrini tutdular. Zaqafqaziya Federativ Demokratik hökumətinin tərkibində Azərbaycan türklərinin rolunun artdığını onların tutduğu vəzifələr də aydın göstərir. Gürcü menşevik qəzeti yazırdı ki, "E.Gegeçkori kabınetının getməsi və yeni kabınəyə A. Çxenkelının rəhbərlik etməsi Müsavat partiyasının böyük qələbəsidir" [327, 70]. A.Çxenkeli hökumətin elan edilməsi zamanı onun vəzifəsi haqqında məruzə edərkən M.Ə.Rəsulzadə Bakını xarici casusların hakimiyyətindən azad etmək və Transqafqaz federasiyasına daxil olmaq arzusunda olan Dağıstan məsələsinə baxmağı hökumətin proqramına daxil etməyin zəruriliyini baş nazirin diqqətinə çatdırdı. Aprel ayının 28-də Türkiyə Zaqafqaziya Federativ Demokratik Respublikasını tanıdı [327, 70]. Beləliklə, Zaqafqaziya Seyminin Azərbaycan deputatlarının milli fraksiyasının gərgin əməyi, Türkiyənin hərbi siyasi təzyiqi ilə Zaqafqaziya Federativ Demokratik Respublikasının yaranmasının elan edilməsi Azərbaycanla Türkiyə arasında hərbi-siyasi əlaqələrin qurulması üçün hüquqi baza yaratmış oldu. Zaqafqaziya Federativ Demokratik Respublikası ilə Türkiyə arasında sülh müqaviləsi bağlanması üçün may ayının 11-də Batumda konfrans çağırılması Türkiyə ilə razılaşdırıldı.

Maraqlıdır, 1917-ci il Oktyabr çevrilişindən sonra RSDF(b) P Qafqazı silahlı üsulla tutmaq məsələsini müzakirə edərkən gürcü bolşevikləri Gürcüstanda silahlı yolla, hətta "adi bir atəşlə" hakimiyyətin ələ alınması məsələsində Lenin və Stalinə etirazlarını bildirdilər və onların bu etirazı qəbul olundu [322, 173]. Lakin Lenin başda olmaqla rus bolşevikləri Azərbaycanda hakimiyyətin ələ alınması üçün soyqırıma qədər amansızlıqdan çəkinmirdilər. Azərbaycan türklərinin milli iradə nümayiş etdirməsi rus bolşeviklərinin, hakim millətçilik, velikorus şovinizmini daha da amansızlaşdırırdı. Bu özünü Azərbaycan türklərinin təzyiqi altında Zaqafqaziya Seyminin Zaqafqaziya Federativ Demokratik Respublikasının yaranmasını elan etməsində göstərdi. Bu xəbəri Moskva və Bakıda hakimiy-

yəti ələ almış bolşevik və daşnaklar böyük həyəcan və qəzəblə qarşıladılar. İstiqlal uğrunda mübarizə aparan milli qüvvələri məhv etməklə hakimiyyətlərini bütün Azərbaycana yaymaq məqsədilə işğal olunmuş "Bakı qubemiyasında proletariat (rus-erməni - X.X.) diktaturasını möhkəmləndirmək", onun çevik icra orqanı Bakı Xalq Komissarlar Sovetini yaratmaq qərara alındı. Aprel ayının 24-də Bakı XKS yaradılması başa çatdırıldı. Bakı Xalq Komissarlar Sovetinin sədri və xarici işlər komissarı vəzifəsinə S.Şaumyan, daxili işlər komissarı vəzifəsinə P.Çaparidze, hərbi və dəniz işləri komissarı vəzifəsinə Q. Korqanov, xalq təsərrüfatı şurası komissarı vəzifəsinə İ.Fioletov, ədliyyə komissarı vəzifəsinə A.Karinyan (Qabrelyan), maarif komissarı vəzifəsinə N.N.Kolesnikova, yollar, poçt və teleqraf komissarı vəzifəsinə İ.Suxartsev, əmək komissarı vəzifəsinə Y.Zevin, şəhər təsərrüfatı komissarı vəzifəsinə N.Nərimanov, torpaq komissarı vəzifəsinə M.H.Vəzirov və qubemiya komissarı vəzifəsinə M.Əzizbəyov təyin olundular. Erməni milli liderlərindən A.Xatisov S.Şaumyanın başçılıq etdiyi Bakı XKS-ni "Erməni Sovet hökuməti" adlandırırdı.

Hadisələrin gedişinin şərhindən kənara çıxıb bir məsələni oxucunun diqqətinə çatdırmaq istəyirik.

Artıq tarix elmi birmənalı sübut etmişdir ki, hər bir xalqın yüksəlişi və tənəzzülündə onun öz tarixini hansı səviyyədə bilməsi və ondan necə nəticə çıxara bilməsi mühüm əhəmiyyət kəsb edir. Bu da birmənalı sübut edilmişdir ki, türklərin, o cümlədən Azərbaycan türklərinin tənəzzülünün başlıca səbəbi tarixlərini bilməmələri və ona biganəlikləridir. Onlarda bu xüsusiyyət milli xarakter səviyyəsinə çatmışdır.

Tarixdə çox az siyasətçi və yazarların mahiyyəti onların çıxış, nitq və əsərlərindəki ideyalarla üst-üstə düşmüşdür. Humanitar ideyalarla zəngin gözəl çıxışların və əsərlərin müəlliflərinin ən irticaçı, bütünlüklə dediklərinin əksi olduğunu, bu çıxışlara, əsərlərə inanmanın millətlərə fəlakət gətirdiyi hadisələr tarixdə az deyil. Bakıda





mart soyqırımı əsərləri gözəl bədii və milli ideyalarla yoğrulan N.Nərimanovun gözü qarşısında, Bakı və Şamaxı faciəsi M. Əzizbəyovun iştirakı ilə baş vermişdi. Bu adamların yenidən S.Şaumyanın qurduğu hökumətdə iştirak edib, millətinin qanına susamış erməni qoşunlarının qabağına düşməsi heç bir ideoloji aldanışın və səhvin nəticəsi ola bilməzdi. Milli don geymiş bu adamların mahiyyəti manyaklıq və mənsəbpərəstlikdən başqa bir şey deyildi. Ermənilərin də, gürcülərin də bolşeviki, menşeviki, daşnakı ən çətin məqamlarda birləşib milli mənafedən çıxış etdikləri halda, onların ermənilərdən ayrıla bilməməsi qan qoxusundan və insan əzabından zövq alan manyaklıqdan başqa heç nə ilə izah oluna bilməz. Bunları nəzərə alaraq tariximizin bu çətin məqamında Azərbaycan türkləri siyasətə və siyasətçilərə ehtiyatla yanaşmalıdır.

Zaqafqaziya Federativ Demokratik Respublikasının yaranmasının elan edilməsi bolşevikləri qəzəbləndirsə də, uzun müddət gərgin vəziyyətdə yaşayan Azərbaycanın türk və müsəlmanlarını psixoloji cəhətdən səfərbər etdi, onların müqavimət ruhunu daha da canlandırdı.

Yaranmış Bakı XKS bütün sahələrdə, birinci növbədə hərbi sahədə sürətlə təşkilatlanaraq elan etdi ki, Sovet hakimiyyətinin son təntənəsi və bu hakimiyyətin bütün Zaqafqaziyaya yayılması üçün qalibiyyətlə başlanmış vətəndaş müharibəsi davam etdirilməlidir. Bunun üçün isə hər şeydən əvvəl güclü Qırmızı orduya malik olmaq lazımdır [325, 79]. Bakı XKS qəbul etmiş olduğu qərara müvafiq olaraq hərbi sahədə sürətli təşkilatlanma işi apardı. Qırmızı ordunun yeni-yeni atıcı taborları, pulemyot bölmələri, dağ-atlı topçu bölmələri təşkil olundu; texniki qoşun hissələri, hərbi texniki tabor, 1-ci Qırmızı dəmiryol texniki bölüyü yaradıldı. Erməni milli qoşun hissələri Qırmızı ordu ilə birləşdirildi. Qısa müddətdə Bakıda 18 min nəfərlik ordu yaradıldı ki, onun da 13 min nəfəri, zabitlərin isə demək olar ki, hamısı erməni idi. Bu ordu Qafqaz Qırmızı ordusunun birinci Qafqaz korpusu adlandırıldı və komandiri erməni Qazarov,

qərərgah rəisi Avetısov təyin edildi. Yaranmış bu orduya Rusiyadan ardıcıl olaraq hərbi sursat, texnika, əsgəri hissə və s. kömək göndərilirdi [325, 79-80; 331, 114-160].

Qafqazda milli qüvvələr üzərinə son hücuma keçən bolşevik-daşnaklar birinci növbədə Xəzərsahili vilayətlərdə hakimiyyəti tam ələ almaq və ərazini milli qüvvələrdən təmizləmək üçün hərbi əməliyyata başladılar. Qisas, qəzəb və intiqam hissi ilə coşdurulmuş daşnak-bolşevik qoşunları aprelin 23-də Quba şəhərinə daxil olub, Sovet hakimiyyətinin tanınması haqqında əhaliyə ultimatum verdilər. Milli-azadlıq hərəkatı liderlərinin mövqeyindən məlumatı olmayan, qəflətən yaxalanmış əhali, ağsaqqallar müəyyən danışıqlardan sonra Sovet hakimiyyətini tanıdıqlarını bildirdilər. Lakin bir neçə gündən sonra milli qüvvələrin Zaqafqaziyanın müstəqilliyini elan etməsini və bu istiqamətdə fəaliyyətindən xəbər tutan əhali, ləzgi silahlıları Qubanı mühasirəyə alıb, bolşeviklərin şəhərdən çıxmasını tələb etdilər. Əhalinin tələbinə bolşeviklər atəşlə cavab verdilər. Bununla da tərəflər arasında döyüş başlandı. Bolşeviklərə əlavə kömək gəlsə də, əhalinin qarşısında davam gətirə bilmədilər və Qubanı tərk etməyə məcbur oldular.

Bu xəbər Bakı bolşevik-daşnak rəhbərliyini son dərəcə qəzəbləndirdi. Sovet hakimiyyətinin elan edilməsinin Bakı-Şamaxı təcrübəsinin Qubaya tətbiq edilməsi qərara alındı. Bu məqsədlə hamısı erməni-daşnak elementlərindən ibarət 2000 nəfərlik xüsusi dəstə yaradıldı, Amazaps isə komandir təyin olundu. Bu dəstə mayın 1-də güclü top atəşinin himayəsi ilə Qubaya daxil oldu. Bununla da şəhərdə qırğın və talan başlandı. Şəhərdə əhali kütləvi məhv edildi, evlər yandırıldı. Amazaps qubalıların qarşısında çıxışında açıqdan-açığa bildirdi ki, bura qisas almaq üçün gəlmişdir və Şamaxıda olduğu kimi Xəzər dənizindən Dağıstan sərhələrinədək bütün kəndləri yerlə-yeksan etmək tapşırığı almışdır [325, 78].

Beynəlxalq imperializm - Rusiya, İngiltərə, Fransa, ABŞ, Almaniya Qafqazın türk və müsəlmanlarının elan etdiyi istiqlalına, yenicə





doğulmuş, ayaqlanıb yuvasından çıxmamış Bozqud balasını udmaq istəyən kaftar dəstəsi kimi hücum etmişdi. Kaftarlar onu diri-diri udmağa çalışır, yanında gəzən erməni küçükləri və digər həşəratlar isə onların ağzından düşəcək hissələrdən pay götürmək üçün qabaqda qaçır, bir-birini ayaqlayırdılar. Bozqurd balası yaşamaq üçün çırpınır, bütün varlığı ilə xilas olmağa çalışırdı.

Azərbaycan ziyalısı, elitası əhalinin qorxu hissi keçirib ruhdan düşməməsi üçün həyəcanını büruzə verməməyə çalışsa da, mümkün olmurdu, övladını itirmək qorxusu keçirən gənc ana vəziyyətində idi. Bu həyəcan və həssaslıqla Zaqafqaziya Seyminin Azərbaycan milli fraksiyası Bakıdakı vəziyyətdən çıxış yolu tapmaq, Bakının xilas yolunu aramaq məqsədilə Seymdə işini daha da gücləndirdi. Bakının düşməndən xilası məsələsini Seymdə müzakirəyə çıxardı. Məsələnin müzakirəsi zamanı Seymin erməni fraksiyası "Bakıda gələcək hökumətin sırf müsəlman deyil, beynəlmiləl xarakterdə olması və erməni hərbi hissələrinin Bakıda qalması" müqabilində Bakı Sovetini buraxmağı ("Bakı hadisələrini ləğv etməyi") öz öhdələrinə götürdüklərini bildirdilər. Azərbaycan millət vəkilləri ermənilərin bu həyasız şərtlərini çətinliklə rədd edib "Bakı şəhərində hakimiyyətin bölünməzliyini bildirdilər" [335, 48]. X. Xasməmmədov bildirdi ki, "Bakı və Şərqi Zaqafqaziyada bütün hakimiyyət müsəlmanlara məxsus olmalıdır, biz bu hakimiyyəti müvəqqəti itirmişiksə də, lakin onu bütünlüklə və əbədi olaraq qaytarmalıyıq" [322, 48]. Hələ Seymin Zaqafqaziyanın müstəqilliyini elan etməsi zamanı Azərbaycan milli liderləri "Bakını siz görməyəcəksiniz, avtonomiyanızı, federasiyanızı elan edin, ancaq Bakını bizə saxlayın, biz bəlkə də Moskvadan imtina edə bilərik, ancaq Bakıdan heç vaxt imtina etməyəcəyik", - deyən kadet partiyasının üzvü Semenovu dəf etməli olmuşdular [322, 186].

Göründüyü kimi, Bakı və onun neftinin Azərbaycandan qoparılmasında Rus imperiyasının xristian millətləri partiyalarının siyasi-ideoloji təmayülündən asılı olmayaraq, mövqeləri eyni idi və bu

məqsədə nail olmaq üçün hər zaman birləşə bılirdilər. Lakin Azərbaycan müsəlmanlarının azsaylı bolşevik təmayüllü üzvləri heç vaxt milli mövqeyə keçə bilmir, ardıcıl bolşevik-daşnak mövqeyində dayanırdılar. Bu qətiyyən kor-koranəlik və ideoloji səbəblərlə izah oluna bilməz. Əgər bu səbəblərdən doğsaydı, özünü az-çox ruslarda, gürcü və ermənilərdə göstərməli idi. Bu biososial genimizin, milli xarakterimizin, milli tərbiyəmizin və ya mənəviyyatımızın hansısa sahəsində gizli mövcud olan səbəblərdən doğur. Genetiklərimiz, etnopsixoloqlarımız, ideologiya sahəsində tədqiqat aparan alimlərimiz etnik xüsusiyyətimizdəki bu mənfi xüsusiyyəti doğuran səbəbi aşkar etməli və bu xəstəlik müalicə olunmalıdır. Yoxsa bu mənfi genlər zaman-zaman artıb tariximizin ziddiyyətli, tənəzzüllü məqamlarında millətə daxildən zərbə vurmaqda davam edəcək.

Dünyada təklənmiş Azərbaycan türklərinin liderləri ağır sosial-siyasi vəziyyətdə və milli xainlərin də yetişdiyi bir şəraitdə xalqa qarşı yönəlmiş bütün düşmənləri və düşmən mövqeləri ardıcıl dəf edərək müstəqilliyi reallaşdırmaq istiqamətində addımlar atırdı.

1918-ci il mart ayının 14-də Trabzonda Zaqafqaziya Seyminin nümayəndələri ilə Türkiyə arasında sülh danışıqları zamanı ermənilərlə ingilislər, gürcülərlə almanlar arasında əlaqələr gücləndikcə Azərbaycan türklərinin təkləndıyi görünürdü. Batum konfransı başlanmazdan əvvəl gürcülər Berlinə nümayəndə göndərib, himayə edilmələrini xahiş etmişdilər. Almanlar isə öz növbəsində gürcüləri inandırmışdılar ki, əlaqələri möhkəm olarsa, Batumu türklərdən alıb onlara qaytaracaqlar. Almanlar gürcülər vasitəsi ilə Türkiyənin Bakıya yolunu kəsmək, Qafqazdakı nəqliyyat dəhlizini ələ keçirmək istəyirdilər [324, 77-78]. Belə bir şəraitdə Azərbaycan milli liderləri etibarlı müttəfiq axtarışını daha da gücləndirdilər. Müttəfiq kimi birinci olaraq Türkiyə seçilmişdi. Ona görə ki, əsrin başlanğıcından Azərbaycan və Türkiyənin eyni milli ideologiya zəminində inkişafı, güclü mədəni-ideoloji əlaqələri onları bir xalq qədər yaxınlaşdırmışdı. Odur ki, hələ 1918-ci ilin yanvarından





Azərbaycan milli liderlərində Türkiyə hərbi yardımına ehtiyac olacağı anlanılmış və bu istiqamətdə müəyyən işlər görülmüşdü [324, 73].

Artıq mart qırğınları günlərində Türkiyədə Azərbaycana hərbi yardıma ehtiyatla yanaşan dövlət adamlarında belə dili, dini, adı, adət-ənənəsi eyni olan bir xalqın soyqırımına biganə yanaşmağın yolverilməzliyi fikri ortaya çıxmışdı. Odur ki, Qafqazda sülh yaratmaq və milli maraqları təmin etmək məqsədi ilə Batum konfransı çağırılana qədər artıq burada siyasi və milli maraqlar yetərincə aydınlaşmışdı. Batum konfransı 1918-ci il may ayının 11-də açıldı. Konfransda Türkiyə, Almaniya, Zaqafqaziya Federativ Demokratik Respublikasının nümayəndələri ilə bərabər Şimali Qafqaz dağlılarının da nümayəndələri iştirak edirdi. Konfrans işə başlaması prosesində Alman nümayəndə heyətinin rəhbəri general Otto fon Losov konfransın Bilavasitə almanların nüfuzu, təsiri altında keçməsinə təşəbbüs göstərib, hətta tərəflər arasında vasitəçi olmağı tələb etdi. Almanların bu təklifi gürcülər və ermənilər tərəfindən alqışla qarşılansa da, Azərbaycan və türk nümayəndə heyəti tərəfindən qətiyyətlə rədd edildi [324, 79; 335, 49].

Konfrans işinə Türkiyənin siyasi-psixoloji üstünlüyü şəraitində başladı. Türkiyənin nümayəndəsi Xəlil bəy konfransı açıb, giriş sözü ilə çıxış etdikdən sonra Türkiyə tərəfindən hazırlanmış on iki maddədən və üç əlavədən ibarət olan "Osmanlı imperiyası ilə Transqafqaz Konfederasion Respublikası arasında sülh və dostluq haqqında" müqavilənin layihəsini müzakirə üçün nümayəndələrə verdi. Layihədə dünya müharibəsi qurtarana qədər Türkiyənin ingilislərə qarşı hərbi əməliyyat aparmaları üçün Transqafqaz dəmiryol şəbəkələrindən istifadə etməsi səlahıyəti verilməsi də nəzərdə tutulmuşdu [327, 73]. Konfransın gedişindən aydın oldu ki, Zaqafqaziya seyminin nümayəndələri arasında fikir və məqsəd birliyi olmadığı kimi, müttəfiqlər Almaniya və Türkiyə arasında da məqsəd ayrılığı mövcuddur. Almaniya bütün imkanlardan istifadə

edərək Türkiyənin Qafqazda nüfuz və mövqeyinin artmasına imkan vermək istəmirdi. Bu məqsədlə gürcülərdən istifadə etmək istəyirdi. Odur ki, gürcüləri ardıcıl olaraq Türkiyə və Azərbaycan siyasətinə qarşı yönəldir, onları praktiki olaraq hərbi-siyasi qüvvə kimi Türkiyəyə qarşı qoymağa hazırlayırdılar. Ermənilər almanlar tərəfindən dəstəklənməsə də, konfransda onlardan da Türkiyəyə qarşı lazımınca istifadə olunurdu [327, 64-84].

Konfransın işinin gərgin vaxtında Gəncə Milli Şurasından Zaqafqaziya Seyminə gəlmiş nümayəndələr Bakıdan bolşevik-daşnak qüvvələrin dəmiryol xətti boyu hücuma hazırlaşması, ümumən erməni-bolşevik təhlükəsinin daha da güclənməsi haqqında məlumat verib, Türkiyədən hərbi yardım alınması zərurətini bildirdilər. Seymin Azərbaycan millət vəkilləri M.Cəfərov, N.Yusifbəyli və X.Xasməmmədovun Batuma və İstanbula ezam olunub Türkiyə hərbi yardımının sürətləndirilməsi qərara alındı [324, 80-82; 327, 74]. Elə bu zaman ingilis qoşununun da Bakı istiqamətində hərəkət etməsi haqqında məlumat alındı. May ayının 14-də Türkiyənin geosiyasi maraqlarını təmin etmək, Qafqazın türk və müsəlman əhalisini yaranmış təhlükədən xilas etmək, Bakıya doğru hərəkət edən ingilis qoşunlarının qarşısını almaq üçün türk qoşunlarının Zaqafqaziya daxilində hərəkətinə razılıq verilməsi üçün Zaqafqaziya Seyminin nümayəndə heyətinə Xəlil bəy nota təqdim etdi [324, 82; 327, 75]. Bilavasitə almanların fitvası ilə gürcü və erməni nümayəndələri notada irəli sürülən təklifi qəbul etmədilər. Bu hadisə ilə Almaniya ilə Türkiyənin münasibətləri pisləşdi, Zaqafqaziya Seyminin nümayəndələri arasında ziddiyyətlər daha da kəskinləşdi. Elə həmin gün Gürcü milli şurası gizli iclas keçirərək, general Otto fon Losov vasitəsilə Almaniya hökumətindən onun qəyyumluğuna keçmək xahiş olundu. Əslində bu razılıq Berlində olan gürcü nümayəndə heyəti tərəfindən alınmışdı. Milli Şuranın məqsədi bunu rəsmiləşdirmək idi. Artıq Almaniya hökuməti general Otto fon Losova Gürcüstan hökuməti ilə Gürcüstanın təhlükəsizliyini qorumaq haqqında müqavilə bağlamaq və bir sıra hərbi-siyasi vəzifələrin icrasına başlamağı tapşırmışdı. Bu tapşırıqlar içərisində Alman ordusunun Şimali Qafqazdan Türkiyə sərhədərinə doğru hərəkətini təşkil etmək, Qafqazdakı alman hərbi əsirləri və zabitlərindən, burada yaşayan almanlardan ibarət ordu yaratmaq, gürcü-alman müştərək hərbi qüvvələri təşkil etmək, Gürcüstanın Zaqafqaziya Federativ Demokratik Respublikası tərkibindən çıxıb, müstəqilliyini elan etməsi və s. tədbirlərin icrası tapşırılmışdı [324, 89-92; 327, 80-83].





Bir neçə gündən sonra bundan xəbər tutan Türkiyə hökuməti qoşunlarına Zaqafqaziyanın içərilərinə doğru irəliləmək əmri verdi [324, 82]. Türkiyə hökuməti dünya miqyasında təklənmiş olduğu vəziyyətdə bu addımı atarkən onun etimad edib güvəndiyi əsas qüvvə, doğma ordusu ilə bərabər Azərbaycan türklərinin mənəvi dəyərləri, ən çətin anlarda belə ideayalarına sədaqəti, mənəvi-psixoloji bütövlüyü, hərbi təşkilatlanma imkanı idi. Türkiyənin rəhbər və hərbi dairələri Azərbaycan türklərində bu keyfiyyətləri müxtəlif əlaqələr və vasitələrlə daima izləyib öyrənsələr də, onların döyüş və yüksək təşkilatlanma qabiliyyətinə malik olduğunu Türkiyənin hərbi dairələrinə, şəxsən hərbiyə naziri Ənvər paşaya 1917-ci ilin dekabrında ruslara əsir düşmüş və buradan qaçıb Türkiyə tərəfə keçmiş bir avstriyalı zabit birmənalı aşılamış və inandırmışdı. Ənvər paşa bu Avstriya zabiti ilə görüşündən gəldiyi qənaəti belə ifadə etmişdir: "Görüşdüyüm avstriyalı yarbayın Bakının durumu haqqında verdiyi məlumatlardan anlaşıldığına görə, Azərbaycan xalqının düşmənə qarşı təşkilatlanmaya və savaşmağa istəkli olduğu, ancaq onları təşkilatlandıracaq və idarə edəcək bir lider bulunmaması nədəniylə (səbəbiylə) hərəkətə keçə bilmədikləri qənaətini edindim" [324, 71]. Onun sonrakı izahından aydın olur ki, Azərbaycan türklərini "təşkilatlandıracaq və idarə edəcək bir lider bulunmaması" ifadəsində hərbi liderin olmamasından bəhs olunur [324, 71-72]. Göründüyü kimi, Azərbaycan həqiqəti çox dəqiq ifadə olunmuşdur.

Rusiya ordusunda xidmət etmiş azsaylı Azərbaycan türk zabitləri yüksək istedada və milli şüura malik olsalar da, uzun müddət vətəndən uzaq, qeyri-milli mühitdə yaşamaq onlarda doğma xalqla psixoloji uyuşmazlıqlar yaratmışdı. Onlar Azərbaycan türkcəsini yaxşı bilmir və onun imkanlarından lazımınca, maksimum istifadə edə bilmirdilər. Bu səbəblər Azərbaycan zabitlərinin hərbi quruculuq, təşkilatlandırma imkanlarından, qabiliyyət və bacarıqlarından lazımınca istifadə edib, hərbi lider səviyyəsinə yüksəlməsinə imkan vermirdi. Elə bu səbəblərdən də Azərbaycanda ilk ordu hissələrinin, silahlı özünümüdafiə dəstələrinin yaradılması zamanı Rusiyada yetişmiş Azərbaycan türk zabitləri ilə müqayisədə ruslara əsir düşüb Azərbaycana gətirilmiş Anadolu türk zabitləri daha tez uğur qazanırdılar [324, 107]. Azərbaycanda etnopsixoloji durumun imkanlarını nəzərə alaraq, Türkiyənin Azərbaycan türklərini düşmənə qarşı təşkilatlandırmaq məqsədilə onlara birinci növbədə türk zabitləri göndərmək qərarı düzgün seçim idi. Hadisələrin gedişi bu yardımın tezliklə öz bəhrəsini verdiyini göstərdi.

İmperiya yeganə canlıdır ki, mövcudluğu parçalamaq gücündədir. O, bölə, parçalaya bilmədiyi anda ölür. Həyatı parçalamaq gücündə olan dünyanın bütün imperiyalarının əli dünya gözəli Qafqaza, onun həyat enerjisi Bakıya uzanmışdı. Onu əldə etmək üçün kimisi qoşun göndərir, kimisi satın alır, iblisanə vasitələrlə onu bölmək, parçalamaqla heç olmasa bir hissəsini ələ keçirmək istəyirdi. Hadisələr elə sürətlə dəyişir, dramatikləşirdi ki, icrasına qərar verilən işdən, hərəkətdən bir neçə dəqiqədən sonra imtina edilməli olunurdu. Həqiqəti ancaq hadisələrin ən dərin qatlarında gizlənmiş mahiyyətləri fəhm etməklə dərk etmək mümkün idi. Azərbaycan türkləri tarixinin bu dövrü üçün millətinə lazım olacaq bu mütəfəkkirləri yetişdirmişdi. Onlar "Müsavat" partiyasında birləşərək dünyanın ən dərin ziddiyyətləri arasından millətinin istiqlal yollarını tapırdı. Odur ki, Qafqazda hər şeyin sürətlə dəyişdiyi bir şəraitdə yeganə dəyişməyən Azərbaycan türklərinin müstəqillik ideyası, ona





doğru sürətlə hərəkəti idi.

Qafqazın federasiyası ideyası Azərbaycan milli liderlərinin taktiki gedişi deyildi. Onlar Qafqazın, Azərbaycanın əbədi müstəqilliyini Qafqaz xalqlarının birliyində görürdülər. Ona görə də bu birlikdə daha israrlı idilər. Bu birlikdə olan Qafqaz xalqlarından birinin hər hansı imperiya ilə müttəfiqlik meylinin onların birliyini pozacağı Azərbaycan milli liderləri üçün gözlənilən idi və gözlənirdi də. Odur ki, Azərbaycan milli liderləri Qafqaz federasiyasını qorumaqla yanaşı, onun parçalanacağı anda Azərbaycanın müstəqil idarəsi və müdafiəsi istiqamətində tədbirlər görürdülər [324; 325; 327, 80-82; 335, 46-49]. Nəhayət, Azərbaycan milli liderlərinin qarşısını almağa çalışdığı və gözlədiyi hadisə baş verdi. Almaniyanın təkidi ilə gürcü liderləri Zaqafqaziya federasiyasından çıxmaq işini sürətləndirirdi. May ayının 25-də Batum danışıqlarından qayıtmış gürcü nümayəndəsi menşeviklərin konfransında Gürcüstanın Transqafqaz federasiyasından çıxıb müstəqilliyini elan etməsi məsələsini qoydu [327, 80-81].

Bu xəbəri eşidən kimi Zaqafqaziya Seymının Azərbaycan fraksiyası təcili toplaşıb fövqəladə vəziyyətdə yaranmış şəraitdə necə hərəkət etmək, hansı tədbirləri həyata keçirmək məsələsini səhər və axşam iclaslarında iki dəfə müzakirə etdilər. Səhər iclasında bildirildi ki, etibarlı mənbələrdən alınan məlumatlara görə, gürcü fraksiyası Batumda olan gürcü nümayəndələri ilə birlikdə Gürcüstanın ayrılmasına və müstəqilliyini elan etməsinə dair gizli danışıqlar aparırlar. Qərara alındı ki, Gürcüstanın ayrılması məsələsi demək olar ki, həll edilib. Seymin müsəlman fraksiyası qabaqcadan bu akta hazır olmalıdır. İclasda bütün Seym fraksiyası belə bir qəti qərara gəldi ki, "Gürcüstanın ayrılıb müstəqilliyini elan edəcəyi halda, Azərbaycan da öz müstəqilliyini elan etməlidir" [327, 82]. Seymin Azərbaycan fraksiyası axşam iclasında işinə F.X.Xoyskinin sədrliyi ilə başladı. Nümayəndələr F.X.Xoyskiyə təcili Batumdakı Azərbaycan nümayəndələri ilə birbaşa əlaqəyə girməyi və Zaqafqaziya Sey-

minin sabahki iclasda gündəliyini öyrənməyi tapşırdı. Ondan sonra iclasa sədrlik edən X.Xasməmmədov bütünlüklə ölkədə yaranmış vəziyyət haqqında məlumat verdikdən sonra bildirdi ki, bolşevik ordularının Kürdəmirə doğru hərəkətinin qarşısını almaq üçün Zaqafqaziya hökuməti heç bir əməli tədbir görmür. Elə bu zaman Azərbaycan milli fraksiyasının iclasına gələn Zaqafqaziya Seyminin sədri Çxeidze, Seym üzvləri Seriteli və Gegeçkori Gürcüstanın müstəqilliyini elan edəcəkləri haqqında bəyanat verdilər. Azərbaycan milli fraksiyası adından onlara cavab verən F.X.Xoyski bildirdi ki, Transqafqaz xalqları mənafeləri baxımından bir-biri ilə sıx surətdə bağlıdır. Onların ayrılması o qədər də asan deyildir, lakin gürcü xalqının iradəsi beləlirsə, biz ona mane olmaq iqtidarında deyilik. Yeni vəziyyətə müvafiq olaraq Azərbaycan türkləri lazımi addımlar atacaq [327, 82-83].

Gürcü siyasətçilərinin bu addımı atdığı günlərdə Tiflisdən hərbi yardım istəyən, lakin adi cavab ala bilməyən gürcü zabiti knyaz Maqalov Kürdəmir istiqamətində cəmləşdirilib, sayı 13 minə çatmaqda olan bolşevik-daşnak ordusunu azsaylı Azərbaycan milli hərbi hissələri və gürcü hərbi dəstələrinin çevik manevrləri ilə ləngidir, Gəncə-Tiflis istiqamətində irəliləməsinə imkan yaranması şəraitini pozurdu [325, 94]. "Böylə bir təhlükə qarşısında milləti müdafiə edəcək yalnız bir Gəncə qalmışdı. Gəncə öhdəsinə düşən bu ağır vəzifəni təkbaşına davam etdirə bilməzdi. Müdafiə günləri uzandıqca rişteyi-umur əldən çıxıyor, bolşevik əlinə keçməyən yerlərdə dəxi şiddətli bir itaətsizlik və anarşi zühr ediyordu". Elə həmin gün - mayın 25-də Nuru paşa 20 nəfər türk zabiti ilə Gəncəyə daxil oldu. "Müdhiş bir anarşiyaya məruz, digər tərəfdən də bolşevik təcəvüzü ilə təhdid olunan Gəncə Nuru paşanı göydən enmiş xilaskar bir mələk kimi tələqqi etmişdi. Xəlqin kəndisinə yapdığı istiqbal Gəncə tarixində görünməmişdir" [320, 37, 39; 324, 106; 325, 84].

Nuru paşanın Gəncəyə gəlməsi əhalidə uzun müddət yaşanılan qeyri-müəyyən vəziyyətdən, hər an gözlənilən erməni-rus təhlükəsindən yaranan yorğunluğu və həyəcanı unutdurdu, hərbi səfərbərlik ruhunu daha da gücləndirdi. Bu səfərbərlik ruhu Nuru paşa Zəngəzura daxil olandan başlanmışdı. Zəngəzurda vüsət almış erməni təcavüzünə qarşı əhalidə döyüş ruhunu görən Nuru paşa onları təşkilatlandırmaq üçün zabit ayırdı, Ordubad və Naxçıvana zabit göndərdi [324, 106]. Azərbaycan türklərinin vətənpərvərliyi, əsgəri ruhu, təşkilatlanma qabiliyyəti də Nuru paşaya Azərbaycan və Türkiyə milli və siyasi məqsədlərini həyata keçirmək üçün ümidverici və ruhlandırıcı oldu. Göründüyü kimi, milli psixologiyanın, milli psixi xüsusiyyətlərin düzgün qiymətləndirilməsi, ona düzgün yanaşılması milli enerjini səfərbər edib qarşıya qoyulmuş məqsədə çatmaq üçün ən düzgün yoldur, vasitədir. Bu cəhətdən bir avstriyalı zabitin qısa müddətdə Azərbaycan türklərinin mənəvi keyfiyyətlərini düzgün qiymətləndirməsi, ona necə yanaşılması haqqında tövsiyəsi Azərbaycanda milli-siyasi məqsədlərə nail olunması üçün Azərbaycan milli liderlərinin və Türkiyə hakim dairələrinin səyi qədər faydalı oldu.

Gəncəyə çatan kimi Nuru paşa burada qərargahını yaratdı, dərhal Müsəlman Korpusunun vəziyyəti, onun tərkibi, şəxsi heyətlə komplektləşdirilməsi səviyyəsi, hissələrin dislokasiyası ilə tanış oldu. Belə bir qənaətə gəldi ki, bu qüvvə ilə Bakının bolşeviklərdən təmizlənməsi qeyri-mümkündür və bu barədə o, öz fikirlərini Türkiyə qoşunlarının Baş komandanlığına çatdırdı. Nuru paşa yazırdı: "Bolşeviklər Dağıstan və quzey Qafqaziyanı tamamilə ələ keçirmək üzrədirlər. Hər yerdə ermənilərin təcavüzü artmaqdadır. Bakı sürətlə zəbt edilməzsə, buralarda durum daha da təhlükəli bir hal alacaqdır. Bakıya, müsəlmanlara yardıma gələn gürcü qüvvələrinə çəkilmək əmri verilib" [325, 84]. Nuru paşa həmçinin məktubunda bildirirdi ki, türk qoşun hissələri Azərbaycana gəlməsə, burada genişlənən bolşevik təcavüzünün qarşısını almaq mümkün olmayacaq [325, 87].

Azərbaycan türklərinin yüksək əsgəri ruhu, xüsusilə cavanların

orduda xidmətə namus işi kimi baxması [338, 86], yüksək təşkilatlanma qabiliyyəti olsa da, zəngin döyüş təcrübəsinə malik Nuru paşa dəqiq bilirdi ki, döyüş təcrübəsi olmayan, səfərbərlikdən sonra lazımi təlim keçməmiş döyüşə göndərilən əsgəri hissə peşəkar döyüş təcrübəsi olan, yüksək səviyyədə silahlanmış ordu ilə uzun müddət, ardıcıl döyüş aparmaq imkanına malik olmur. Digər tərəfdən bütün Azərbaycana yayılmış, XIX əsrdən burada düşünülərək planlı surətdə hərbi strateji əhəmiyyətli ərazilərdə məskunlaşdırılmış, yüksək səviyyədə silahlandırılmış ermənilər [20, 461] tərksilah olunmadan, nəzarət altına alınmadan türk kəndlərindəki silahlı özünümüdafiə dəstələrini buradan çıxarıb orduya səfərbər etməklə bu kəndləri, yaşayış məntəqələrini ermənilərin talan və qırğınına məruz qoymaq olardı. Odur ki, Nuru paşa Gəncəyə doğru hərəkət edən, döyüş təcrübəsinə malik bolşevik-daşnak ordusunu dəf etmək üçün döyüş təcrübəsinə malik ordu göndərilməsi vacibliyini Türkiyə hakim dairələri qarşısında qaldırdı.

Beləcə Nuru paşa Türkiyədən ordu gələnə qədər Azərbaycan əhalisinin hərbi təşkilatlanma işləri ilə məşğul oldu. Onunla gəlmiş türk zabitləri vasitəsilə Azərbaycanın ayrı-ayrı əyalətlərində yerli özünümüdafiə dəstələri təşkil edir, türk zabitlərini bu əyalətlərin komandiri təyin edirdi. Nuru paşa bir neçə günə Gəncə-Qazax, Zaqatala, Nuxa, Ağdam, Ağdaş, Cəbrayıl və Zəngəzurun şərq tərəflərini əhatə edən məntəqələrdə asayişi təmini üzrə idarə və komandalar yaratdı. Azərbaycan əhalisinin vətənpərvərliyi, təşkilatlanması, düşmənə müqavimət əhvali-ruhiyyəsini Nuru paşa yüksək qiymətləndirirdi [324, 107-108].

Bu zaman Azərbaycan türklərinin milli liderləri xalqın hər hansı yadelli əsarətinə əyilməzliyini, istiqlal arzusunun dünyaya çatdırılması, qəbul etdirilməsi yolunda əsgəri bir fədakarlıqla çalışır, mübarizə aparırdı. May ayının 26-da Zaqafqaziya Seymı gürcü və Azərbaycan-türk millət vəkilləri qarşılıqlı ittihamı, kəskin mübarizə, həyəcanlı bir əsəbilik şəraitində işinə başladı. Almaniyanın himayə-





sini qazanmış gürcü millət vəkilləri Zaqafqaziya Seymindən çıxıb, öz müstəqilliklərini elan etmək məqsədlərini bildirdilər və bu haqda bəyanatla çıxış etdilər. Bunun ardınca Zaqafqaziya Seymi özünü buraxmaq haqqında qərar qəbul etdi. Elə həmin gün Gürcü Milli Şurası Gürcüstanın müstəqilliyini elan etdi. Yeni yaranmış Gürcü hökuməti əvvəlcədən hazırlanmış razılaşmaya əsasən Almaniya ilə müqavilə bağlayaraq onun qəyyumluğuna girdi [327, 84].

Mart hadisələrindən fövqəladə şəraitdə işləyən Zaqafqaziya Seyminin Azərbaycan milli fraksiyası daha gərgin fəaliyyətə məhkum oldu. Yaranmış vəziyyətdə necə hərəkət etmək, nə kimi tədbirlər görmək, hansı işlərin icrasına başlamaq kimi məsələləri müzakirələrdə müəyyənləşdirmək üçün Zaqafqaziya Seyminin Azərbaycan millət vəkilləri mayın 27-də fövqəladə iclas keçirdi. Yaranmış şəraitdə Qafqazda və Azərbaycanda siyasi prosesləri tənzimləmək, Azərbaycanı idarə etmək üçün legitim hakimiyyət orqanı yaradılmasının zəruriliyini nəzərə alaraq, hakimiyyəti öz üzərinə götürəcək Milli Şura yaradılmasını qərara aldı. Zaqafqaziya Seymindəki bütün müsəlman fraksiyaların nümayəndələrindən ibarət Milli Şura və onun rəyasət heyəti yaradıldı. Batum danışıqlarında olan M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. Onun namizədliyini "İttihad"dan başqa bütün partiyaların nümayəndələri müdafiə etdilər (bir daha təkrar etməyə lüzum görürük ki, Azərbaycan istiqlal mübarizəsinin ən ziddiyyətli məqamlarında özünü "islamçı" adlandıran nümayəndələrin xəyanəti İslam dininin mahiyyətindən deyil, bu, qrupun elmsizliyindən doğurdu). H. Ağayev və M. Seyidov sədrin müavinləri seçildilər. Milli Şuranın 9 nəfər üzvündən ibarət icraiyyə orqanı yaradıldı. F.X.Xoyski yekdilliklə icraiyyə orqanının sədri seçildi [327, 84; 335, 51].

Mayın 28-də Milli Şuranın ilk iclası keçirildi. M.Ə.Rəsulzadənin Batumdan göndərdiyi məlumatların dinlənilməsi və qiymətləndirilməsi, Gəncədə son dövrdə yaranmış vəziyyət, Zaqafqaziya Seyminin buraxılmasından sonra Azərbaycanda yaranmış siyasi vəziy-

yət və Azərbaycanın istiqlalının elan edilməsi məsələləri müzakirə olundu. Milli Şuranın müzakirəsinə çıxarılan bütün məsələlər diqqətlə, incəliyinə qədər həssaslıqla dinlənildi və təhlil olunaraq təxirə salınmadan Azərbaycanın müstəqil Respublika elan olunmasının zəruriliyi əsaslandırıldı. Məsələ Milli Şura üzvlərinin səs verməsinə çıxarıldı. Milli Şura üzvləri 24 səslə, 2 nəfər bitərəf olmaqla Azərbaycanın müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul etdi və 6 bənddən ibarət "İstiqlaliyyət bəyannaməsi"ni elan etdi [328, 47-50]. Sənəddə deyilirdi:

"1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan dəxi kamiləl hüquq, müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi Xalq Cümhuriyyəti olaraq təqərrür edir.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlə münasibəti həsnə təsisinə əzm edər.

4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, məslək və cins fərqi gözləmədən qələmrovunda (hüdudi daxilində) yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.

5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.

6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında areyi ümumiyyə ilə intixab olunmuş şurayi milli və şurayi milliyyə qarşı hökuməti müvəqqətə durur" [328, 48-49].

İclasda iştirak edən bütün Milli Şura üzvləri "İstiqlaliyyət bəyannaməsi"ni ayaq üstə dinlədilər. "İstiqlaliyyət bəyannaməsi" elan olunduqdan sonra Azərbaycan hökumətinin yaradılmasını Milli Şura F.X.Xoyskiyə tapşırdı. Bir saatlıq fasilədən sonra F.X.Xoyskinin hökumətin yaradılması haqqında məruzəsini dinləmək üçün Milli Şura iclasını davam etdirdi. İlk Azərbaycan müvəqqəti hökumətini F.X.Xoyski aşağıdakı tərkibdə təqdim etdi: Nazirlər Şurasının sədri





və daxili işlər naziri - F.X.Xoyski, hərbi nazir - Xosrovpaşa bəy Sultanov, xalq maarif və maliyyə naziri - Nəsib bəy Yusifbəyli, xarici işlər naziri - Məmməd-Həsən Hacinski, poçt-teleqraf və yollar naziri - Xudat bəy Məlik-Aslanov, əkinçilik və əmək naziri - Əkbər ağa Şeyxülislamov, ədliyyə naziri - Xəlil bəy Xasməmmədov, ticarət və sənaye naziri - Məmməd Yusif Cəfərov, dövlət nəzarəti naziri - Cəmo bəy Hacınski [327, 87].

Bununla Milli Şura yüz il davam edən Azərbaycan türklərinin istiqlal mübarizəsinin, milli iradəsinin dünyaya qəbul edilməsinin hüquqi əsaslarını yaratmaqla müstəqilliyin əsasını qoydu.

Hökumət kabinəsinin yaradılması başa çatan kimi Azərbaycan Cümhuriyyətinin xarici işlər naziri M.H.Hacinski Batumda olan, Türkiyə xarici işlər naziri vəzifəsini icra edən, sülh danışıqlarında Türkiyə nümayəndə heyətinin rəhbəri Xəlil bəyə Azərbaycan Milli Şurasının və hökumət kabinəsinin yaranması haqqında məlumat verdi. Mayın 30-da isə Nazirlər Şurasının sədri F.X.Xoyskinin imzaladığı radioteleqrafla dünya dövlətlərinin xarici işlər nazirlərinə, onların paytaxtı - İstanbul, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Xristaniya (Oslo) və Kopenhagenə bu haqda xəbər göndərildi [339, 34].

"İstiqlal bəyannaməsi"nin tarixi əhəmiyyəti haqqında M.Ə.Rəsulzadə yazırdı: "28 mayis 1918-ci il Bəyannaməsini nəşr etməklə Azərbaycan Şurayi-Millisi, sözün siyasi mənası ilə, bir Azərbaycan millətinin varlığını təsbit etmişdir. Belə ki, Azərbaycan kəlməsi sadə coğrafi, etnoqrafik və linqivistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir aləm olmuşdur [327, 87].

Azərbaycan türklərinin istiqlal mübarizəsi istiqamətində hər addımı dünyada ona münasibəti dramatikləşdirir, hətta tarixi müttəfiqlərini ona qarşı rəqibə çevirirdi. Kürdəmir istiqamətində bolşevik-daşnak ordularının irəlilədiyi vaxtda Alman hərbçiləri tərəfindən rəhbərlik edilən müştərək gürcü-alman hərbi bölmələri Gürcüstanın

bütün hərbi nəqliyyat qovşaqlarını nəzarət altına almaqla Sadaxlı ilə Qarayazını da işğal etdilər. Bununla kifayətlənməyən müştərək qüvvələr Poylu körpüsünün cənubuna adlayaraq Pyolu və Ağstafa stansiyalarını da nəzarət altına aldılar. Bu stansiyanın hər birində bir müştərək dəstə yerləşdirməklə bərabər, orada alman və gürcü bayraqları qaldırdılar. Bu hadisə yerli əhalinin hissinə, qüruruna toxundu, onları fırtına kimi hərəkətə gətirdi. Əhali gözlənilməz kütləvi hücumla gürcü-alman hərbi hissələrini darmadağın edib, onların sağ qalanlarını Kür çayının o biri tərəfinə qədər qovdular [324, 107-108].

M.Ə.Rəsulzadə yazır ki, "bu hadisə göstərdi ki, azərbaycanlılar bütün aləmə göstərdilər ki, istiqlaldan əl çəkməyəcəklər". İstiqlal "Azərbaycan xalqının, türk millətinin milli, ən müqəddəs idealıdır". Bu hadisə Azərbaycan türklərinin müttəfiqi Osmanlı türklərinin də onlara rəğbətini daha da gücləndirdi. Düşmənlərin hər tərəfdən üzərinə qalxması ilə onun zəiflənməsinə yol verməmək üçün Azərbaycan Cümhuriyyəti ilə qarşılıqlı yardım haqqında müqavilə bağlanmasını sürətləndirməyə sövq etdi.

İyun ayının 4-də "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq müqaviləsi" imzalandı. Müqaviləni Türkiyə tərəfindən ədliyyə naziri Xəlil Menteşə, Qafqaz cəbhəsinin Baş komandanı Veheb Paşa, Azərbaycan tərəfindən xarici işlər naziri M.H.Hacinski, Milli Şuranın sədri M.Ə.Rəsulzadə imzaladılar. Müqavilənin 4-cü bəndi bilavasitə hərbi yardım haqqında idi. Bu bənddə deyilirdi ki, Osmanlı hökuməti "qayda-qanunu və ölkənin təhlükəsizliyini təmin etmək üçün ehtiyac olduğu təqdirdə Azərbaycan hökumətinə silahlı qüvvələrlə yardım etməyi" öz öhdəsinə götürür [335, 53]. Beləliklə, Türkiyə ilə Azərbaycan Cümhuriyyəti arasında 4 iyunda Batumda bağlanmış "Sülh və Dostluq" haqqında müqavilənin 4-cü bəndi ilə Türkiyənin Azərbaycana hərbi yardımı üçün hüquqi baza yaranmış oldu. Həmin müqavilənin şərtlərinə əsasən Azərbaycan hökuməti Nuru Paşadan Azərbaycan or-





dusunun təşkilinə rəhbərliyi öz üzərinə götürməsini xahiş etdi [325, 87]. Elə danışıqların getdiyi vaxtda Türkiyə Hərbi Komandanlığı Azərbaycana getməsi planlaşdırılmış hərbi hissələrin hərəkətinə əmr verdi [324, 88-89]. Türkiyə Qafqaz, Bakı nefti uğrunda mübarizə aparan müttəfiqi Almaniya və digər beynəlxalq qüvvələrlə münasibətləri gərginləşdirməmək üçün böyük olmayan bu yardım türk zabitlərinin Azərbaycan könüllülərindən ibarət "İslam ordusu" yaratmaq səviyyəsində və formasında nəzərdə tuturdu. Lakin beynəlxalq qüvvələr nisbətinin birdən-birə kəskin dəyişməsi ilə Azərbaycana qarşı yönəlmiş hərbi-siyasi qüvvələrin artması və güclənməsi Türkiyəni Azərbaycana ordu göndərmək məcburiyyətində qoydu [324, 67-89; 325, 83].

Maraqlıdır, Almaniyanın Rusiyanın böyük ərazilərini tutub ölkənin içərilərinə doğru irəliləməsi Rusiyanın bolşevik hökumətində elə bir ciddi narahatçılıq yaratmadığı halda, Azərbaycanın müstəqilliyini elan etməsi, onun yardım istəməsi ilə Türkiyə qoşunlarının Azərbaycan istiqamətində hərəkəti Rus hökumətini həyəcana saldı. Lenin başda olmaqla Rus hökuməti həyəcan təbili çaldı. Dərhal Bakını əldə saxlayan bolşevik-daşnak hökumətinə hərbi-əsgəri, maliyyə yardımını gücləndirməklə bərabər, diplomatik səylərini beynəlxalq qüvvələrin köməyi ilə Türk qoşunlarının Azərbaycana girməsinin qarşısını almağa səfərbər etdi [324, 82-91; 325, 79-82, 93; 322, 220-228; 327, 95].

Rusiya dəstəyi alman istəyini bir qədər də canlandırdığından Türkiyə qoşunları Azərbaycan istiqamətində hərəkətə başlayan kimi Almaniya müttəfiqi olan Türkiyəyə Azərbaycana yardımı və bu istiqamətdə hərəkət edən ordusunun dayandırılması və geri çəkilməsi haqqında xəbərdarlıq etdi. Cavab gözləmədən bunun ardınca Almaniya Silahlı Qüvvələri Baş Qərargah rəisi marşal Hindenburq Türkiyə ordusunun Azərbaycana doğru irəliləməsinə etiraz notası verdi [324, 98-91].

Türkiyənin milli dövlət maraqları nəzərə alınmazsa, xristian dün-

yasının soyqırımına məruz qalmış onlarla mənşə, dil, adət-ənənə, ad və din birliyinə malik Azərbaycan türklərinə hərbi yardımı dayandırması haqqında Almaniya hərbi liderlərinin hədə-qorxusu Ənvər paşanın, yüksək rütbəli türk hərbçilərinin, Türkiyə dövlət və hökumət rəhbərlərinin milli hisslərinə toxunur, onlarda hiddət doğururdu. Elə bunun nəticəsi idi ki, almanların hədə-qorxusuna cavab olaraq Məhəmməd Veheb paşa tabeçiliyində olan hissələrin Aleksandropoldan Tiflisə doğru hərəkət etməsi barədə əmr verdi. 9-cu Qafqaz piyada diviziyasının hərəkətə başlayan hissələri iyun ayının 10-da Borçalı vadisindən keçən dəmir yolu üzərindən, habelə Xram vadisindən keçib Tiflisə gedən əsas yol üzərində yerləşən Voronsovkada alman-gürcü hərbi birləşmələrinin müqaviməti ilə üzləşdi. Onun yolunu kəsmək istəyən alman-gürcü hərbi hissələri türk ordusu tərəfindən darmadağın edildi, çoxlu əsir götürüldü. Bu hadisə almanları daha da qəzəbləndirib, onların yeni xəbərdarlığını doğursa da [324, 91-92], milli ləyaqəti hər şeydən yüksək tutan türk ordusunu dayandırmağa qadir deyildi. Türk qoşunlarının keçdiyi bütün ərazilərdə əhalinin hərbi ruhu daha da canlanır, gənclər könüllü olaraq orduya daxil olurdular [324, 110; 325, 89]. Gərgin hərbi-siyasi müqavimətləri dəf edən Cəlaloğlu-Sadaxlı-Kəmərli-Aslanbəyli-Qazax marşrutu ilə hərəkət edən türk qoşunlarının birinci qrupu iyunun 11-də, ikinci qrupu isə iyunun 12-də Qazağa çatdı və dərhal dəmir yolu vasitəsi ilə Gəncəyə göndərildi. Artıq bu zaman Hacıqabulda bütün hərbi qüvvələrini, texnikanı cəmləyib, əsgəri hissələri psixoloji cəhətdən döyüş əhval-ruhiyyəsinə gətirmiş Qafqaz Qırmızı ordu rəhbərliyi Lenini qələbəyə əmin edərək iyunun 10-dan Hacıqabuldan dəmir yolu boyunca Gəncə istiqamətində hücuma keçmişdi. 18 min nəfərlik təyyarə, top, zirehli qatar və digər atıcı silahlarla silahlanmış bolşevik-daşnak ordusunun qarşısında Azərbaycan Cümhuriyyətinin Müsəlman Korpusunun azsaylı hərbi hissələri dayanmışdı [325, 92-94; 331, 154-156]. Onlar say və hərbi texniki imkana görə Qırmızı ordunu bütünlüklə dayandırmaq gücündə deyildilər. Lakin onların vətənpərvərlik hisslərindən doğan fədakarlığı, çevik hərbi manevrləri böyük hərbi üstünlüyə malik düşməni gözlənilməz itkilərə məruz qoyur, irəliləməsinə imkan vermirdilər. Qırmızı ordu rəhbərliyinin bir neçə aya hazırladığı hücum planı onların arzu etdiyi nəticəni vermədi. Qırmızı ordu böyük çətinliklə iyunun 11-də, axşam saat 9-da Sığırlı stansiyasını tuta bildilər. Qırmızı ordunun ilk qələbəsi haqqında S.Şaumyan dərhal Moskvaya, Leninə teleqram göndərdi: "Yelızavetpol istiqamətində hərbi əməliyyatlara başlamış Bakı sovet qoşunları komandanının ilk məlumatını göndərirəm. Məlumat bu gün, iyun ayının 11-də axşam saat 9-da alınmışdır. Bizim qoşunların ön dəstələri Sığırlı stansiyasını tutmuşdur. Bizim kəşfiyyat qatarımız Kərrar stansiyası istiqamətindən düşmən topları vasitəsi ilə atəşə tutulmuşdur. Qoşunlarımız irəliyə hərəkət edir." [324, 191]. İyunun 12-də Qırmızı ordunun davam edən hücumunu Müsəlman korpusu süvarilərinin çevik, gözlənilməz əks zərbələri pozdu, onun sürətlə irəliləməsinə imkan vermədi. Düşmən cüzi irəliləyib Kürdəmir kəndini və stansiyasını tutmaqla kifayətlənməli oldu.





Kürdəmir stansiyasını tutduqdan sonra Bakı XKS-in hərbi komissarı erməni Q.Korqanov qərargahını buraya köçürdü. Qırmızı ordu buradakı hərbi strateji əhəmiyyətli əraziləri ələ keçirdi. Cəbhə mərkəzində çox dar sahədə Azərbaycan milli qoşun hissələri hücumla düşmənin bu planının qarşısını almağa çalışsalar da, qüvvələr nisbəti buna imkan vermədi [324, 191-192].

Azərbaycan püskürəcək vulkanın ilkin təkanlarının doğurduğu bir həyəcanı keçirirdi. Türk qoşunlarının alman-gürcü hərbi hissələrini əsir götürməsi Gürcü-Azərbaycan münasibətlərini kəskinləşdirmişdi. Gürcüstan hökuməti Azərbaycan Milli Şurasının və Azərbaycan hökumətinin ölkəsindən çıxmasını tələb edir və onları iddiasında olduqları əraziləri tutacaqları ilə hədələyirdi. Azərbaycan kəndləri ilə qonşuluqda məskunlaşmış erməni, rus kəndlərinin əhalisi, Gəncə şəhərində məskunlaşmış 20.000 erməni, onun 600

nəfərlik bir taboru, Qarabağ ermənilləri Gəncə istiqamətində hərəkət edən bolşevik-daşnak ordusu ilə birləşməyə imkan yaranması məqamını gözləyirdilər.

Bu təklənmiş vəziyyət Azərbaycan türklərini qorxutmur, onlar mənəvi-psixoloji cəhətdən təhlükəni dəf etməyə hazır idilər. Elə bunun nəticəsi idi ki, cəbhədə qüvvələrin qeyri-bərabərliyi şəraitində azsaylı milli qüvvələr döyüş mövqelərini asanlıqla tərk etmir, ardıcıl mövqe döyüşləri keçirirdilər.

Biz yuxarıda Azərbaycan türklərinin etnomədəni inkişafı, milli istiqlal mübarizəsinin gedişindən gördük ki, toplumun milli iradə nümayiş etdirə bilməsi üçün onun daxilində harmonik fəaliyyət və əlaqədə olan bütün sosial təbəqələrin, kütlələrin yiyələndıyi milli-ideologiya, siyasət və ümummilli liderin olması ilə bərabər, milli ideologiya və siyasətin hər bir sahəsinin liderinin olması xüsusi əhəmiyyət kəsb edən vacib etnopsixoloji şərtlərdəndir. Azərbaycan türklərinin bütün mənəvi, etnopsixoloji dəyərləri, "Müsavat" partiyası və onun liderlərinin şəxsində ideoloji-siyasi birliyi nə qədər güclü olsa da, hərbi liderin olmaması ona milli gücün hərbi təcəssümünü nümayiş etdirməyə imkan vermirdi. Nuru paşanın Azərbaycana gəlməsi və xalq tərəfindən hərbi lider kimi dəyərləndirməsi nəticəsində Azərbaycan türklərinin daxilən, öz-özünə hərbi təşkilatlanması baş verdi. Odur ki, yaranmış təhlükəli şəraitdə xalq qorxu hissi keçirmədən hərbi birlik istiqamətində təşkilatlandı.

Döyüş şəraitində kömək məqsədi ilə Azərbaycana daxil olmuş Türk ordusu ilə Azərbaycan hərbi kontingentinin yaxın, bir çox cəhətdən eyniyyət təşkil edən etnopsixoloji durumu, istəyi onun yenidən komplektləşdirilməsinə xüsusi vaxt ayırmaq zərurəti yaratmadı, ordunun hərəkət şəraitində Nuru paşanın düzgün rəhbərliyi ilə təbii pross kimi tənzimləndi. Türkiyə-Azərbaycan ordusu Qafqaz İslam Ordusu adı altında bütün cəbhə boyu düşmənə qarşı döyüşə girdi. Ən təhlükəli cəbhə Rusiyadan fasiləsiz köməyin davam etdiyi, Kürdəmirdən hücuma keçmiş bolşevik-daşnak ordusu idi.





Hakimiyyətini bütün Azərbaycana yaymaq üçün Rus imperiyasının bolşevik-daşnak rəhbərliyi döyüş ərəfəsi təbliğatla Azərbaycanın bütün xristian əhalisini türk-müsəlmanlara qələbə çalınacağına inandırmışdı. Xüsusi məqsədli təbliğat nəticəsində döyüşlərin başlanması ilə ermənilər və digər xristian əhalinin Qırmızı ordu ilə birlikdə türk və müsəlmanlara hücumu gözlənilirdi. Bu əhval-ruhiyyə Gəncədə daha güclü idi. Bakı, Şamaxı, Quba hadisələri nəticə çıxarmağa imkan verirdi ki, ermənilər burada üstünlüyü ələ almağa imkan tapsalar, Gəncə faciəsi də yaranacaq, Azərbaycan mədəniyyətinin beşiklərindən biri məhv olacaq, milli qüvvələr yeganə dayağını itirəcək.

Bolşevik-daşnakların tezliklə qələbə çalacağına inanan Gəncə ermənilləri türk-müsəlman əhalini şəhərin şərq hissəsinə buraxmırdılar. Ermənilərin yaşadığı ərazilər türk-müsəlmanlar üçün təhlükə mənbəyinə çevrilmişdi. Bu təhlükənin aradan qaldırılması zərurətini görən Nuru paşa Gəncə ermənilərini tərksilah etmək haqqında əmr verdi.

İyunun 10-da gecə saat 23.30-da Azərbaycan-türk qoşun hissələri Gəncənin ermənilər yaşayan ərazisini mühasirəyə alıb onların erməni kəndləri ilə əlaqəsini kəsdilər. Elə bu prosesdə Alman kəşfiyyatı vasitəsilə Yelendrofda (indiki Xanlar) yaradılmış alman taboru da zərərsizləşdirildi. Azərbaycan milli qoşun hissəsinin iki nəfər zabiti erməni rəhbərləri ilə danışıq aparmaq üçün erməni məhəlləsinə girmək istəyərkən ermənilər onlara atəş açıb, Azərbaycan-Türk qoşununa hücuma keçdilər. Azərbaycan-Türk qoşun hissəsinin 13 nəfər əsgəri şəhid oldu, bir nəfəri zabit olmaqla, 7 nəfər yaralandı [324, 184]. Azərbaycan-Türk qoşun hissəsi geri çəkilməyə məcbur olsa da, mövqe tutub axşama kimi döyüşü davam etdirdilər. Bu itki və uğursuzluq orduya və əhaliyə ciddi mənfi təsir göstərdi, qələbəyə şübhə hissləri yaratmağa başladı. Psixoloji üstünlüyü ələ almış ermənilər daha da fəallaşdı. Azərbaycan-Türk ordusunun Gəncədəki bu kiçik uğursuzluğu ordunun və əhalinin hisslərində iz qoysa, bu

xəbər Gəncədən kənara çıxsa, Qafqaz İslam Ordusu Qırmızı ordudan qat-qat üstün olsa belə, ona qalib gəlmək mümkün olmayacaqdı. Müəyyən strateji nöqtələrdə, döyüşün müəyyən məqamlarındakı qazanılan qələbənin və psixoloji üstünlüyün təsir gücünü Nuru paşa hərbçi olaraq yaxşı bilirdi. Odur ki, ermənilər üzərində sürətlə, birmənalı qələbə qazanılmalı idi ki, onların bir gün əvvəlki üstünlüyü haqqında xəbər yayılsa belə, şayiə təsiri bağışlasın. Nuru paşa ordunun döyüş taktikasına düzəlişlər edib, vəziyyəti ildırım sürəti ilə dəyişməsini əmr etdi. Azərbaycan-Türk qoşunları ermənilərin mühasirəsini daraltdı və xəbərdarlıq edildi ki, təslim olmayacaqları təqdirdə erməni məhəlləsi toplardan atəşə tutulacaq. Xəbərdarlığın ardınca erməni məhəlləsinə bir neçə xəbərdarlıq top atəşi də atıldı. Bundan sonra keşiş, bir neçə erməni zabiti və bir komissar əllərində ağ bayraq Azərbaycan-Türk qoşunları komandanlığı qərargahına gəlib təslim olduqlarını bildirdilər. Gün ərzində cəmi 150 silah təhvil verdilər. Erməni xisləti haqqında yetərincə məlumatlı olan Nuru paşanın əmri ilə iyunun 13-14-də də erməni məhəlləsini mühasirədə saxlayıb tərkisilah edilməsi davam etdirildi. Bununla da Gəncə əhalisinin, Kürdəmir istiqamətində hərəkət edən Qafqaz İslam Ordusunun arxadan təhlükəsizliyi qismən də olsa təmin olundu.

Türkiyə qoşunlarının Azərbaycana daxil olması ilə Azərbaycan türklərinin işğalçı Qırmızı Orduya qarşı müharibəsinin yeni mərhələsi başlandı. Orduya yenicə səfərbər olmuş əsgərlər təlim, məşq keçmədən, ölkəyə daxil olmuş türk qoşunlarına heç bir istirahət vermədən birbaşa cəbhəyə göndərilirdi. Çünki bolşevik-daşnak orduları dəmiryol xətti boyunca Gəncə istiqamətində irəliləyirdi. Bu ordunun vəziyyəti haqqında S.Şaumyanın Moskvaya məlumatında deyilir: "...bu adi sovet ordusu deyil, əsl nizami qoşunlardır. Rusiyadan gələn bütün yoldaşlar bu ordu ilə tanış olduqdan sonra heyrətlərini gizlədə bilmirlər" [324, 188].

İyun ayının 13-14-də türk qoşunları Ucar, Müsüslü və Bərgüşad stansiyalarında qatardan düşüb birbaşa döyüş mövqelərinə göndərildilər. Qırmızı ordunun dəmiryol xətti boyunca Yevlağa çatıb Kür çayı üzərində körpünü nəzarətə almaq təhlükəsi yarandığı halda, Nuru paşa əsas diqqəti Göyçay-Qaraməryəm şosse yolu istiqamətində cəmləşdirdi və 10-cu Qafqaz alayını Qaraməryəm ətrafına göndərdi. Hərbi tarixçi M. Süleymanov yazır ki, hadisələrin sonrakı inkişafı göstərdi ki, bu qərar çox incəliklə düşünülmüş, Nuru paşanın döyüşlərin gedişində qəbul etdiyi strateji əhəmiyyətli ən mühüm qərarlardan bir idi [324, 192]. Müsəlman Korpusunun qüvvələri ilə türk qoşun hissələri üç dəstədə qruplaşdırıldı. Bir dəstə Bakı-Tiflis dəmiryolu boyunca, bir dəstə Şimalda, Göyçay-Şamaxı və Bakı xətti boyunca, digər dəstə isə cənubi-Muğana doğru irəliləməli idi [325, 94-95]. Qafqaz İslam Ordusu ərkani-hərb rəisi Nazim bəy bu qolda komandan təyin olundu. Nazim bəy sürətlə ordunun komplektləşməsini, bolşevik-daşnak qoşunlarının vəziyyətini öyrənməklə Qafqaz İslam Ordusunun sayca azlığı, silah və hərbi sursat çatışmazlığı haqqında Nuru paşaya məlumat verdi, o da öz növbəsində 3-cü ordu komandanı Vehab paşadan kömək istədi. Türkiyədən kömək göndəriləcəyi bildirilsə də, yaxın vaxt üçün heç nə vəd edilmirdi. Nazim bəy Qırmızı Ordu ilə döyüşün planını hazırlasa da, əlavə kömək gələnə qədər həlledici döyüşdən yayınıb, bolşevik-daşnak ordusunun irəliləməsinin qarşısını almaq zərurəti üzərində düşünürdü. Belə gərgin vəziyyətdə Müsəlman Korpusu vasitəsilə Qafqaz İslam Ordusuna daxil olmuş rus-gürcü teleqrafçılarının ordudan qaçması ordunun əlaqələndirilməsində xüsusi çətinlik yaratdı.

Qafqaz İslam Ordusu rəhbərliyi ordunu komplektləşdirmək, yerli şəraitə qismən də olsa, adaptasiya olmaq, əlavə kömək almaq üçün vaxt qazanmağa çalışacağı halda, Qımızı Ordu rəqib ordudakı bu vəziyyətdən bəhrələnmək üçün döyüşə girəcəyini büruzə verirdi. Qaraməryəmlə Göyçay arasındakı erməni kəndlərinin silahlı dəstələri nümayişkaranə fəallıq göstərirdilər. İyunun 15-də Qafqaz İslam Ordusundan 10-cu Qafqaz alayının 30-cu taboru bu qüvvələri zərərsizləşdirmək üçün ayrıldı. İyunun 15-16-da bu taborun heç bir itki

verməən keçirdiyi uğurlu hərbi əməliyyatı türk-Azərbaycan hərbi qüvvələri və yerli əhalini ruhlandırsa da, digər hərbi hissələr bu uğuru davam etdirə bilmədi [324, 194-195].

İyun ayının 16-da səhər saat 9-da Qaraməryəmdə Qırmızı ordu Azərbaycan türkləri, gürcü və dağıstanlılardan ibarət hərbi dəstə üzərinə hücuma keçdi. Qeyri-bərabər döyüş 7 saat davam etdi. Qırmızı Ordu Qaraməryəmi tutmağa müvəffəq oldu. Elə bu həyəcanlı gündə Azərbaycan Milli Şurası və hökuməti Gəncəyə köçdü. Qaraməryəm ətrafındakı qələbədən ruhlanan bolşevik-daşnak orduları iyunun 17-də Müsüslü istiqamətində hücumu davam etdirsə də, Qafqaz İslam Ordusu hərbi hissələri tərəfindən itkiyə məruz qalaraq geri çəkilməyə məcbur oldular [324, 195]. İyun ayının 18-də Müsüslü yaxınlığında Qırmızı Ordunun 21-ci taborunun iki bölüyü ilə əsasını Azərbaycan milli qüvvələri təşkil edən Müsüslü dəstəsinin döyüşçüləri üz-üzə gəldilər. Sovet qoşunlarının əsgərləri bu döyüşdə ciddi bir təşəbbüskarlıq nümayiş etdirə bilməyərək mövqelərini tərk etdilər [324, 197; 325, 96]. İyun ayının 18-də Qaraməryəm ətrafında daha bir döyüş baş verdi. Həmin döyüşdə artıq türk qoşunlarının 10-cu alayı da iştirak edirdi. Əvvəlcə üstünlük onların əlində idi. Saat 12-də başlanan döyüşdə Qafqaz İslam Ordusunun hissələri düşmənin sol cinahını xeyli sıxışdıraraq 20 verst irəliləyə bilmişdilər. Lakin döyüşün təşkilində yol verilən səhvlər tezliklə hərbi təşəbbüsün əldən verilməsi ilə nəticələndi. Sovet qoşunlarının 16-cı və 17-ci taborları sol cinahla irəliləməyə çalışan süvarilərin qarşısını kəsməklə bərabər onları güclü atəş altına saldılar. Düşmən mövqelərinin dərinliklərinə doğru irəliləmiş olan türk süvariləri cınahlarda etibarlı mühafizəni təmin edə bilmədikləri üçün elə ilk döyüşdə çox ciddi itkilərə yol verdilər. Qafqaz İslam Ordusunun 28-ci taboru iki ədəd dağ topu, 200-dən artıq döyüşçü itirdi [324, 195-197; 325, 95].

Beləliklə, gün ərzində gedən döyüşlər havanın qaralması ilə səngidi və türk qüvvələrinin ilk böyük hücumu gözlənilən nəticəni vermədi. 10-cu Qafqaz alayının hissə və bölmələri Qaraməryəmdən geri çəkilmək məcburiyyətində qaldılar. Hamazaspın komandir olduğu 3-cü briqadanın hissələri isə əksinə, Qaraməryəmdə daha da möhkəmləndilər və Göyçay üzərinə uğurlu hücum üçün əlverişli mövqeləri ələ keçirdilər [324, 196-197].

Qaraməryəm ətrafındakı məğlubiyyət Azərbaycanda, Türkiyə rəhbərliyində ciddi narahatçılıq doğurdu. Nuru paşa dərhal Əlağa Şıxlinski ilə birlikdə Göyçaya gəldi. Məğlubiyyətin səbəbləri dərindən araşdırıldı. Döyüşün düzgün planlaşdırılmaması, silah çatışmazlığı, döyüşün gedişində buraxılan səhvlər, əsgərlərin döyüşə psixoloji cəhətdən lazımınca hazırlanmaması, qüvvələrin qeyri-bərabərliyi türk-Azərbaycan ordusunun məğlubiyyətinin səbəbləri idi.

Nuru paşa bolşevik-daşnak ordusunun təşəbbüsü - psixoloji üstünlüyü ələ almasına imkan verməmək üçün Azərbaycanın yerli hərbi imkanlarını lazımınca səfərbər edib, düşmən üzərinə hücumu ardıcıl davam etdirməyə qərar verdi, Azərbaycan hökumətinin səyini bu istiqamətə yönəltdi. Bölgələrdən, ətraf ərazilərdən gətirilən əsgəri hissələrin və könüllülərin yeni hücum əməliyyatı üçün hazırlanmasına başlandı. Yeni döyüşün hazırlanması və təşkilinə birbaşa rəhbərliyi gücləndirmək məqsədilə 5-ci Qafqaz firqəsi komandanı Mürsəl bəyi qərargahı ilə birlikdə Göyçaya köçürdü. Ona Türkiyədən yardım gözləmədən qələbə döyüşünün planını hazırlamağı və döyüşü keçirmək məsuliyyətini üzərinə götürməyi əmr etdi. Nuru paşa lazımi qədər əsgəri hissənin Göyçaya toplanıb döyüşə hazırlanmasını əmr etdi. Əmrdə əsgərlərin döyüşə psixoloji hazırlığı xüsusi vurğulanırdı. Nuru paşa Göyçayda olarkən mülki əhali ilə görüşlər keçirdi. Onların əsgərlərə imkan daxilində yardım etməsini tövsiyə etdi. Qaraməryəm döyüşündə əsgər və zabitlər əsasən isti havada susuzluqdan ölmüşdü. Nuru paşa yerli əhaliyə, əsgərləri su ilə təmin etməyi tapşırdı. Gəlişi ilə məğlubiyyət hissinin ordunun və əhalinin ruhuna daxil olmasına imkan verməyən Nuru paşa düşmənlə mübarizə üçün canlanma yaratdı. Azərbaycan-türk ordusu ilə Qırmızı işğalçı daşnak-bolşevik ordusu - hər iki tərəf onlar üçün

həlledici olacaq döyüş hazırlığına keçdilər. Azərbaycan-Türk qoşunları üçün növbəti döyüşün məqsədi "əvvəlki uğursuzluqların əvəzini çıxmaq və irəli hərəkət etməklə təşəbbüsü əllərinə almaq", işğalçı bolşevik-daşnak ordusu isə qarşıya daha böyük vəzifə qoymuşdu: Türk-Azərbaycan qoşunlarına şimaldan zərbə vurmaq, sağ cinahdan Qafqaz İslam Ordusu hissələrini əhatə etməklə dəmir yoluna çıxmaq, buradakı hissələrə də zərbə vurub Kür çayı boyunca müdafiə mövqeyi tutub, Kür çayı üzərindəki körpüyə nəzarəti ələ keçirmək, Hacıqabul-Ağsu arasındakı dağlardan keçən, Bakı şəhərini əhatə edən hündürlüklər boyunca müdafiə xətləri yaratmaq bolşevik-daşnak ordusunun bu döyüşdə nail olmaq istədiyi əsas məqsəd idi [324, 201-202; 325, 98].

Qafqaz İslam Ordusu yeni hücum əməliyyatına iyunun 28-də başlamağı planlaşdırmışdı. Düşmənin hazırlıqdan xəbər tutmaması üçün bütün tədbirləri ehtiyatla icra etməsinə baxmayaraq, iyunun 26-da bolşevik-daşnak kəşfiyyatı Qafqaz İslam Ordusunun iyunun 28-də hücuma keçəcəyindən xəbər tutan kimi iyunun 27-də səhər saat 6-da "Sovetlərin üç taboru əvvəldən planlaşdırıldığı kimi, cəbhənin sağ cinahından Göyçayla Qaraməryəm arasında şosse yolunun şimal tərəfində yerləşən 10-cu Qafqaz alayını şimal tərəfindən adlayaraq ona arxadan zərbə vurmağa cəhd göstərdi. Bu qəfil başlanan hücuma bolşevik qüvvələrindən 6-7 tabor, 11 ədəd top və 12-14 pulemyot cəlb edilmişdi. Həmin qüvvələr sürətli hücumla Türk-Azərbaycan qoşunlarını çaşbaş salıb irimiqyaslı döyüş üçün uğurlu zəmin yaratmağa cəhd göstərsələr də, qarşıya qoyulan məqsədə nail ola bilmədilər. İslam Ordusu cəbhəsində həyata keçirilən operativ tədbirlər düşməni dəf etməyə imkan verdi: 5-ci Qafqaz diviziyasının ehtiyat qüvvəsi 25-ci taborun və 2-ci süvari alayının döyüşə girməsi ilə bolşevik-daşnak qüvvələrinin irəliləməsi təxminən saat 3 radələrində dayandırıldı, sürətli əks-hücumla onlar əvvəlki mövqelərinə sıxışdırıldı. 5-ci Qafqaz firqəsi komandanlığı əks-hücumun davam etdirilməsi haqqında əmr verdi. 10-cu alay əks-hücuma keçib düşməni 3 kilometr geriyə atdı. Havanın qaralması ilə döyüşün dayandırılıb alayın mövqeyinə çəkilməsi üçün əmr verildi [324, 202-203; 325, 98].





İyunun 28-də cəbhədə nisbi sakitlik oldu. 5-ci Qafqaz firqəsinin komandanlığı qazanılmış uğurları genişləndirmək üçün düşmən üzərinə hücumu davam etdirməyə qərar verdi. "İyunun 29-da səhər tezdən Qafqaz İslam Ordusu hissələrinin daha böyük uğurla nəticələnən döyüşü başlandı. Döyüşə qoşulan hissə və bölmələrin mübarizlik əzmi, qətiyyəti və yüksək əhvali-ruhiyyəsi nəticəsində elə ilk anlardan təşəbbüs ələ alındı. Şosse yolu boyunca hərəkət edən 13-cü alayın sol cinahındakı döyüşçülərin əzmkarlığı ilə onların qarşısında olan düşmən Şərqə doğru geri çəkilmək məcburiyyətində qaldı. Bu alayın önündə olan bolşevik-daşnak qüvvələri də təzyiqə davam gətirməyib mövqelərini tərk etdilər. 10-cu alayın döyüşçüləri də düşmənə heç bir imkan vermədi və cəbhə boyu başlanan uğurlu hücum onlar tərəfindən də davam etdirildi.

Azərbaycanlı süvarilərinin Veysəlli kəndi istiqamətindən çox böyük sürətlə döyüşə qoşulmaları isə hətta türk zabitlərini də heyrətə saldı" [324, 204]. "Döyüşdə mövqe dəyişikliyini də məhz bu süvari alayı yaratdı. Alay süvarilərinin sürətlə sovet qüvvələrinin sol cinahına çıxması və onları əhatəyə almaq təhlükəsi buradakı Qırmızı ordu hissələrinin geri çəkilməsi ilə nəticələndi. Onların geri çəkilməsi isə cəbhənin digər sahələrindəki bolşevik qüvvələrinin fəaliyyətinə təsir göstərdi. Nəticədə Qaraməryəmin qərb tərəfi Qafqaz İslam ordusu hissələrinin əlinə keçdi" [325, 99].

Döyüşlər axşam saat 18.15-dək davam etdi və Qırmızı ordu hissələrinin məğlubiyyəti ilə başa çatdı. Döyüşlərin sonunda Qaraməryəmin qərb hissəsi tamamilə, şərq hissəsi isə qismən Qafqaz İslam Ordusu hissələrinin nəzarəti altına keçdi. Uğursuzluğa düçar olduqlarını Qırmızı ordu komandirləri etiraf etmək məcburiyyətində qaldılar. Bakıya göndərilən raportda deyilirdi ki, iki günlük qızğın döyüşlərdən sonra düşmən iyunun 29-da səhər Göyçay istiqamətində

bizim qüvvələrimizi Ağsuya doğru geri çəkilməyə məcbur etdi [324, 207].

İyunun 30-u səhər saat 6.15 dəqiqədə Qırmızı Ordunun Göyçaya hücumu ilə açıldı. "Bu hücum elə qəfil və sürətlə baş verdi ki, qısa vaxt ərzində bolşevik-daşnak qoşunları Göyçayın şimal məhəllələrini işğal edə bildilər" [324, 205]. Ona görə ki, Qafqaz İslam Ordusu rəhbərliyi Qırmızı ordunun bir gün əvvəl aldığı zərbədən sonra belə sürətlə əks-hücuma keçə biləcəyinə inanmadığından, Göyçay ətrafında heç bir qoşun hissəsi saxlamadan bütün qüvvələri düşmənlə təmas xəttində yerləşdirmişdi. Türk psixologiyasını yaxşı bilən və yeri gələndə bundan lazımınca istifadə edən erməni komandirləri "bunu vaxtında və dəqiqliklə qiymətləndirə bilmiş və bütün gecəni çətin dağ şəraiti ilə cinahla irəliləyərək səhər tezdən Göyçaya hücum etmişdilər. Bu çox incə düşünülmüş bir plan idi. Onun həyata keçirilməsinə kifayət qədər ardıcıllıq və hərbi duyum nümayiş etdirilsəydi. Göyçay qəsəbəsi işğal edilməklə Qafqaz İslam Ordusu qoşunları da mühasirəyə düşə bilərdi" [324, 205].

Bu haqda məlumat alan kimi Nuru paşa Qafqaz İslam Ordusu qərargahı rəisi Nazim bəyi 300 süvari ilə dərhal Göyçaya göndərdi. Azərbaycan könüllü süvari bölməsi, 5-ci diviziyanın bir taqımı, Gəncə, Ağdaş, Qazax könüllüləri Göyçaya göndərildi. Təhlükənin tez aradan qaldırılması üçün Türk-Azərbaycan qoşunları komandanlığı zəngin döyüş təcrübəsi olan 10-cu Qafqaz alayını Qaraməryəm xəttindən çıxarıb Göyçaya göndərdi. Lakin onlar yolda Əmirovun hərbi hissəsinin Göyçayda çoxlu itki verib, 2 ədəd top, 2 ədəd pulemyot qoyub qaçmağa məcbur edildiyini eşidib dislokasiya yerinə qayıtdılar [325, 100].

Sürətlə Göyçay üçün yaranan təhlükəni aradan qaldıran Türk-Azərbaycan qoşunları yeni ərazilərdə hərbi əməliyyatlara başladılar. Göyçayı tutmaqla Qafqaz İslam Ordusunun arxasına keçməyə cəhd göstərən bolşevik qüvvələri geri atıldıqdan sonra əsas diqqət Qaraməryəmin şərqində olan mövqelərin tutulmasına istiqamətləndirildi.





Türkiyə-Azərbaycan qoşun hissələri Qaraməryəmin şərq tərəfindən sürətlə hücuma keçib İncə, Ərəbmehdibəy, Padar kəndləri istiqamətində irəliləməli və sovet qüvvələrinin geriyə çəkilmək yolunu kəsməli idi. 10-cu, 13-cü alayların qətiyyəti bu planı müəyyən qədər həyata keçirməyə, Qaraməryəmin şərq tərəfini nəzarət altına almağa imkan verdi. Nəticədə Türk-Azərbaycan qoşunlarını mühasirəyə salmaq istəyən Qırmızı ordunun hissələrinin mühasirəyə düşmək təhlükəsi yarandı. Gərgin döyüşlər Qırmızı ordunun hissələrinə ciddi itkilər verdi və onlar Bakıdan yenicə gəlib çıxmış olan zirehli avtomobillərin köməyi ilə məhv olmaq təhlükəsindən xilas ola bildilər [325, 100].

Beləliklə, iyunun 27-30 arasında Göyçay-Qaraməryəm ətrafındakı döyüşdə tərkibi hələ tam komplektləşdirilməmiş, əksəriyyəti könüllülərdən ibarət olub lazımınca hərbi təlim görməmiş Qafqaz İslam Ordusu sayca ondan çox, böyük hərbi texniki üstünlüyə malik işğalçı Qırmızı ordu üzərində həlledici qələbə çaldı. Göyçay-Qaraməryəm ətrafındakı döyüşlər cəbhədə dönüş nöqtəsinin başlanğıcını qoydu. Qafqaz Qırmızı Ordusunun hücumları dayandırıldı və onlar dərin müdafiəyə çəkildilər. Bolşevik qüvvələri bu döyüşdən sonra bir daha hərbi təşəbbüsü ələ ala bilmədilər [324, 210-211; 325, 100].

Etnomədəni, etnosiyasi inkişafın psixoloji məqamı haqqında oxucuda aydın təsəvvür yaratmaq üçün Göyçay-Qaraməryəm döyüşü dövründə Azərbaycan türklərinin psixoloji vəziyyətinə qısa, nəzər salmağa lüzum görürük.

Hərb tarixçisi M. Süleymanovun qənaətinə görə, Qırmızı ordu Qafqaz İslam Ordusunun iyunun 29-da onun üzərindəki qələbəsini "məntiqi saymadı", bunu sübut etmək üçün iyunun 30-da gecə uzaq məsafədən, çətin yol keçərək səhər saat 6.15-də Türk-Azərbaycan ordusu xəbər tutana qədər Göyçay qəsəbəsini tutdular: "Bu, çox incə düşünülmüş bir plan idi. Onun həyata keçirilməsinə kifayət qədər ardıcıllıq və hərbi duyum nümayiş etdirilsəydi... Qafqaz İslam Or-

dusu qoşunları da mühasirəyə düşə bilərdi" [224, 205]. Təsadüfi deyil ki, Qafqaz İslam Ordusu komandanlığı bu hücumu "təhlükə" kimi qiymətləndirdi [324, 205-210]. Hərb tarixçisi M. Süleymanovun düzgün müəyyənləşdirdiyi kimi, Əmirovun bu hücumunun müvəffəqiyyətini Türk-Azərbaycan ordu rəhbərliyinin buraxdığı səhvdən maksimum istifadə etmək bacarığı təmin etmişdi. Lakin bir məsələni diqqətə çatdırmaq istəyirik ki, Qırmızı Ordu rəhbərliyini, eləcə də Əmirovu bu hərbi əməliyyata sövq edən başlıca səbəb onların Azərbaycan türklərinin psixoloji durumu haqqında Bakı, Quba, Şamaxı hadisələri zamanı yaranmış təsəvvürləri idi. Qafqaz İslam Ordusunun dayanmış döyüş vəziyyətindən, əlavə hərbi qüvvənin olmaması haqqında kəşfiyyat məlumatlarından Qırmızı ordu rəhbərliyi qənaətə gəlmişdi ki, Türk-Azərbaycan ordu rəhbərliyi cəbhə xətlərindən hərbi hissəni çıxarıb, Əmirovun hücum edən qoşununa qarşı göndərə bilməyəcək [325, 99]. Bakı, Quba, Şamaxı şəhərlərinə hücum zamanı qonşu ərazilərdən, ümumiyyətlə, Azərbaycanın digər əyalətlərindən kömək görünmədiyi kimi, indi də bölgə və Azərbaycanın digər əyalətlərinin əhalisindən maneçilik görməyəcəkləri arxayınçılığı ilə Qırmızı Ordu rəhbərliyi "qəhrəman" sərkərdəsi Əmirovun hərbi əməliyyatına əmr verdi. Əmirovun hərbi hissəsi sürətlə Göyçayı tutub, buradan Qafqaz İslam Ordusunun arxasına keçməklə onun mühasirəyə alınması zəminini yaratmalı idi. Hadisələrin gedişi göstərdi ki, Qırmızı Ordu rəhbərliyi Türk-Azərbaycan hərbi rəhbərliyinin buraxdığı səhvi incəliyinə kimi görə bilsə də, qısa müddətdə Azərbaycan türklərinin psixoloji durumunda baş vermiş yeniləşməni görə bilməmişdi. Azərbaycan türklərinin psixoloji cəhətdən inqilabi yeniləşməsini Türkiyə zabit heyəti Əmirova qarşı döyüşlərdə görə bildi. Belə ki, Əmirovun Göyçaya gözlənilməz sürətli hücumu ətraf ərazilərin əhalisinin, bütün Azərbaycan bölgələrinin könüllülərinin döyüş reaksiyası, ildırım sürətli əks-hücumu ilə qarşılandı. Hərb tarixçisi M. Süleymanovun aşkarladığı kimi, döyüş təcrübəsinə malik Türk-Azərbaycan qoşun hissələri Göyçaya





yaxınlaşana qədər artıq Ağdaşdan, Şəkidən, Qazaxdan, Gəncədən və b. bölgələrdən gəlmiş könüllülər Əmirovun hərbi hissəsi üzərində millətə yeni döyüş ruhu verəcək parlaq hərbi qələbə çalmaqla bolşevik-Daşnak qoşununun qalıqlarını Göyçayın 5-6 kilometrliyinə qovmuşdular. Qırmızı ordu rəhbərliyinin ordusunu məğlubiyyət hissindən qorumaq üçün bu "qəhrəman" sərkərdəsinin komandirliyi ilə yeni hücumu da biabırçı, rüsvayçı uğursuzluqla nəticələndi. Bu uğursuzluğu Lenin, Şaumyan başda olmaqla Rusiya bolşevik rəhbərliyi ört-basdır etməyə nə qədər cəhd etsə də, mümkün olmadı. Qırmızı ordu "qəhrəmanlarının" hərbi-psixoloji üstünlüyü əldə saxlamaq üçün bütün cəhdləri Azərbaycan könüllüləri, Türk-Azərbaycan hərbi hissələri tərəfindən dəf edildi, puça çıxarıldı.

Göyçay-Qaraməryəm döyüşləri zamanı Azərbaycan türklərinin qələbəsini təmin edən mənəvi səbəblərin əsaslarına qısaca toxunmağa lüzum görürük.

Hər bir etnosun kollektiv iradə nümayiş etdirə bilməsi üçün onun mənəvi bütövlüyü mühüm şərtdir. Etnosun mənəvi dünyasının əsası, hərəkətverici qüvvəsi onun inancları, inam və etiqadlarıdır. Etnosun müəyyən məqsədlər ətrafında hansı səviyyədə birləşməsi imkanı onun inam və etiqadlarının bütövlüyü dərəcəsindən asılıdır. Elə ki, etnosun qarşısına qoyulan məqsədin kökləri onun inam və etiqadlarında mövcud oldu və ya qarşıya qoyulmuş məqsəd ətrafında inam və etiqadları vasitəsi ilə birləşdirilməsinə səy göstərildi, müəyyən məqsəd ətrafında xalqın birliyinin yaradılması çətin olmur. Məqsədin elan edilməsi milyonların bu hərəkata qoşulması ilə nəticələnir. İnam və etiqada söykənməyən müəyyən şüarlar ətrafında birlik yaratmaq mümkün olsa da, bu birlik dözümsüz, qısa müddətli olur [216; 217; 138]. Bu qanunları yetərincə bilən imperialist dövlətlər işğal etdikləri ölkələrin xalqlarını əsarət altında saxlamaq üçün birinci növbədə onların mənəvi dünyasını, müqəddəs inam və etiqadlarını, inanclarını pozmağa və unutdurmağa çalışırlar.

Forma və məzmununa görə təsnif olunan insan hissləri içərisində

vətənlə bağlı hisslər - inanclar bütün dünya xalqlarında eyni məzmun daşıyır, müqəddəs ali hisslər kimi dəyərləndirilərək milli andlara çevrilmişdir [217]. Bütün imperiyalar kimi Rus imperiyası da Azərbaycanı işğal edən kimi Azərbaycan türklərinin müqəddəs mənəvi dünyasını pozmaqla onun üzərində hökmranlığını qurmaq siyasəti yeritmişdir. Bu məqsədlə Azərbaycan türklərinin inam və etiqadlarında Vətənlə bağlı ali hisslərin unudulması üçün ölkədə Azərbaycan adı qadağan edildi, azərbaycanlılar əsgəri funksiyadan məhrum edildi. Beləliklə, Azərbaycan adı və əsgəri ilə bağlı müqəddəs inam və etiqadlar, andlar tədricən unutduruldu. Odur ki, Azərbaycan ziyalıları, milli liderləri Azərbaycanın müstəqil dövlətçiliyi məsələsini milli vəzifə olaraq irəli sürəndə, birinci növbədə Vətənlə - Azərbaycan adı ilə bağlı imperiyanın unutdurmuş olduğu inam və etiqadları, andları, müqəddəs hissləri xalqın yaddaşında oyatmağa və canlandırmağa səy göstərdilər. Əsgəri hisslərin yaddaşda oyadılması, inam, etiqad və müqəddəs anda çevrilməsi müəyyən vaxt apardı. Vətən, Azərbaycan, millət və əsgərlə bağlı andlar millətin inam və etiqadları içərisində ən ali səviyyə çatması ilə milli birliyin yaranması başa çatdı, Göyçay-Qaraməryəm döyüşündə milli iradə birmənalı nümayiş etdirildi. Bunu Azərbaycan ordu quruculuğu əyani göstərir. Hərb tarixçisi M. Süleymanov yazır ki, Müsəlman Korpusunun təşkilinə başlanması xalqın psixologiyasında bir dəyişiklik yaratdı. Ziyalı və elita Azərbaycan, Vətən və əsgərlə bağlı inam və etiqadların, andların təbliğatçı-maarifçiləri deyil, şəxsi nümunə göstəriciləri idilər. Azərbaycanın ilk könüllü əsgərlərindən və şəhidlərindən biri H.Z.Tağıyevin oğlu idi. Ş. Əsədullayevin oğlu Azərbaycanın ilk könüllü əsgərlərindən olub, fədakar zabitlərindən biri kimi məşhurlaşmışdı. Odur ki, Azərbaycanın, əsgəri şəhidliyin və ya qazıliyin müqəddəsliyinə inam sürətlə xalqın şüuruna hakim oldu. Balkan müharibəsi zamanı türklüyün şərəfini qorumaq üçün Osmanlı türklərinə köməyə getmiş Azərbaycan gəncləri Nuru paşanın ordu ilə Azərbaycana köməyə gəlməsini türklüyün şərəfinin qorunması kimi qiymətləndirirdi. Nuru paşanın Azərbaycana gəlişinin doğurduğu əsgəri və türkçülük ruhu Azərbaycanın siyasi xadimlərinin də əsərlərində və nitqlərində ifadə olunmuşdu.





Həmin günlərin bir mənəvi-psixoloji məqamına da nəzər yetirməyə lüzum görürük. Azərbaycanın türk və müsəlmanlarının mənəvi, əxlaqi, dini bütövlüyü Bakı, Şamaxı, Quba qırğınları zamanı əhalinin iradəsinin qırılıb, harada gəldi, kimə isə sığınıb yaşamaq hissi doğurmadı. Şərəflə yaşamaq üçün Azərbaycanın şərəfini, müqəddəsliyini qorumaq zərurətini diktə etdi.

Yuxarıda göstərdiyimiz mənəvi-psixoloji səbəblər Göyçay-Qaraməryəm döyüşlərində Azərbaycan türklərinin təşkilatlanmasının başlıca səbəblərindəndir. Bu mənəvi-psixoloji səbəblər ölkənin hər tərəfindən əhalinin silahlanaraq Göyçay-Qaraməryəmə gəlib, Qırmızı ordu üzərində qələbə çalmasına imkan verdi. Rus imperiyasının unutdurmağa çalışdığı mənəvi dəyərlərin bərpasının başa çatması Azərbaycan türklərinin tam təşkilatlanması ilə nəticələndi. Odur ki, Türk-Azərbaycan ordu komandanlığı bu qələbədən sonra tərəddüd etmədən Bakının düşməndən geri alınması, təmizlənməsi üçün hücumun davam etdirilməsinə əmr verdi.

Qırmızı ordunun məğlubiyyət xəbəri Lenin başda olmaqla Rus imperiyasını həyəcana gətirdi. Rus imperiyası Bakı XKS-yə hərbi və diplomatik yardımı sürətləndirdi. Ukrayna cəbhəsindən Q.K.Petrovun komandanlığı altında bir eskadron süvari, bir bölük dənizçi və topxanadan ibarət qoşun göndərildi. Bundan başqa 4 top və 170 nəfərlik komandadan ibarət bir süvari dəstəsi və bir dəstə matros da Bakıya gəldi. Həştərxandan 8 yelkənli gəmi ilə hərbi ləvazimat göndərildi [331, 162]. İrandan rus kazak dəstəsinin komandiri L.Bıçeraxov əsgəri hissəsi ilə birlikdə Qırmızı orduya köməyə çağırıldı. L.Bıçeraxov 1500 nəfərlik Terek və Kuban kazaklarından ibarət yüksək hərbi təlim görmüş dəstəsi ilə iyulun 5-də Xəzər dənizindən Ələt stansıyasına çıxdı və Qırmızı ordunun sağ cinah komandiri təyin edildi. Lenin Bakı neftinin 1/4-ni Almaniyaya vəd etməklə

Türk-Azərbaycan qoşununun Bakıya daxil olmasının qarşısını almaqda ona yardımçı olmağa yalvarırdı. Bolşeviklərin manyak rəhbəri Lenin S.Şaumyana göstəriş verdi ki, Bakını əldə saxlaya bilmədiyi təqdirdə neft müəssisələrini məhv etsin.

Qırmızı ordunun sağ cinah komandiri təyin olunmuş L.Bıçeroxovun, sağ cinah və mərkəz komandiri Q.Korqanovun bütün cəhdləri uğursuzluqla nəticələndi və hərbi təşəbbüsü`ələ ala bilmədilər. Döyüşlər o qədər kəskin qarşıdurma şəraitində gedirdi ki, hər iki tərəf geri çəkilməyəcəyini nümayiş etdirsə də, Qırmızı ordu addım-addım geri çəkilirdi. L.Bıçeraxov Türk-Azərbaycan ordusunun hücumunu dayandıra bilmirdi. Azərbaycan türkləri, onun gənc ordusu vətənini işğalçılardan təmizləyirdi. Onun apardığı bu döyüş azadlığın zərurət kimi qiymətləndirilməsinin nümayişi idi. Türk-Azərbaycan ordusunun fasiləsiz hücumla qazandığı ardıcıl qələbələr Qırmızı orduda və Bakı XKS-də böhran yaradırdı. Çünki nə bu hökumətin, nə də onun ordusunun Azərbaycana heç bir dəxli yox idi. Onun rəhbəri də, əsgəri də Azərbaycanı talamağa, varlanmağa gəlmişdi və Vətəninə sahib olmaq istəyi ilə döyüşən bir ordu ilə qarşılaşan kimi qarət etdiyi sərvətləri götürüb qaçmaq haqqında düşünəcəyi aydın idi.

İyulun ortalarında Salyanın, Kür çayının mənsəbinin, iyulun 19-da Şamaxının hücumla daşnak-bolşevik qüvvələrindən təmizlənməsi Azərbaycan türklərinin milli ruhunu daha da canlandırırdı. Hər iki döyüşdə yerli əhalinin təşkil etdiyi döyüşçü dəstələrin əsgərlərə qoşulması Türk-Azərbaycan ordusunun qələbəsində mühüm rol oynamışdı. Türk-Azərbaycan ordusunun bolşevik-daşnak ordusu üzərində qələbəsi Qırmızı orduda yaranmış böhranı daha da dərinləşdirdi. Nəinki əsgərlər arasında, komandir heyəti arasında da inamsızlıq yarandı [324, 232-241].

Şamaxı şəhərinin milli qüvvələr tərəfindən alınması günü Ukraynada quldurluğu ilə ad çıxarmış Q.K.Petrovun dəstəsinin Bakıya çatması S.Şaumyanı bir qədər sakitləşdirsə də, sakitlik bir neçə gün çəkdi. S.Şaumyan Q.K.Petrovu Bakı rayonunun hərbi komissarı təyin etdi. İyunun 23-24-də Rusiyadan alınmış əlavə hərbi yardımla Q.K.Petrov Şamaxı-Bakı istiqamətində irəliləyən Qafqaz İslam Ordusunun qarşısını almaq kimi mühüm hərbi əməliyyata şəxsən özü komandanlıq etdi. Ancaq biabırcasına məğlub olub, cəbhə xəttindən geri çəkildi. Bıçerexov kimi Petrova da bağlanan ümidlər boşa çıxdı. Bakı XKS-də böhran, orduda fərarilik qarşısı alınmaz oldu. İyulun 25-də Şamaxı yolundakı bütün Qırmızı ordu hissələrinin Bakıya qədər geri çəkilməsi Bakının türk və müsəlman əhalisinə qarşı amansızlıq etmiş daşnaklarda vahimə və təlaş yaratdı [325, 113]. İyulun 31-də Qafqaz İslam Ordusunun Xırdalanı tutaraq Bakı üzərinə hücum üçün strateji əhəmiyyətli əraziləri ələ keçirməsi ilə Bakı Sovetində manevr edən S.Şaumyanın da hiylələri tükəndi. Saat 11-də Bakı XKS istefa verdi. Avqustun 1-də Bakıda hakimiyyət eserlərin, menşeviklərin və daşnakların əlinə keçdi. Onlar "Sentrokaspi və Sovetin Müvəqqəti İcraiyyə Komitəsi Rəyasət Heyətinin diktaturası" adlı hakimiyyət orqanı yarandığını elan etdilər. Bu hakimiyyət orqanında əsas yeri erməni-daşnaklar tuturdu. Erməni Milli Şurası xeyli vaxt idi ki, İranda olan ingilis komandanlığı ilə onlardan kömək alınması haqqında gizli danışıq aparırdılar. Sentrokaspi diktaturasının yaranması ilə onlar dərhal bu planlarına nail oldular.

S.Şaumyan başda olmaqla, Bakı Komissarları hakimiyyəti təhvil verən kimi Azərbaycandan qarət etdikləri ləl-cəvahiratı götürüb qaçmağa təşəbbüs göstərsələr də, Xəzər donanmasının gəmiləri tərəfindən tutulub Bakıya qaytarıldılar. Lakin onlar Petrov və Əmirovun silahlı dəstələrinin təzyiqi ilə həbsdən azad edildilər.

Sentrokaspi diktaturası onun hakimiyyətinə keçmiş hərbi hissələri "Qafqaz Qırmızı Döyüşən Ordusu" adlandırdı və L.Bıçerexov bu ordunun baş komandanı təyin olundu.

Sentrokaspi diktaturası hakimiyyəti ələ alan kimi Türk-Azərbaycan qoşunlarının Bakıya buraxılmaması üçün bütün tədbirləri gördü. Türk-Azərbaycan qoşunlarının Bakıya girməsinə qarşı müəyyən müqavimət göstərsələr də, əsaslı bir şeyə nail ola bilmədilər, artıq

avqustun 3-də Bakı qurudan mühasirəyə alınmışdı. Minlərlə insanı qaçqın düşmüş doğma Bakıda yeni dağıntılara yol verməmək, həmçinin oyuncaq yadelli rejimlərin rəhbərlərinin məğlubiyyət anlarında həmişə mülki əhalini qırğına verməklə qaçıb canlarını qurtarması, sonradan mülki əhalinin qırğını haqqında beynəlxalq aləmdə hay-küy qaldırmaları haqqında bəhanəyə`yol verməmək üçün avqustun 3-də Mürsəl paşa Sentrokaspi diktaturası və Erməni Milli Şurası rəhbərliyinə Bakı şəhərinin dinc yolla milli hakimiyyətə qaytarılması haqqında müraciət etdi. Müraciətdə bildirilirdi ki, Bakı döyüşsüz sahibinə - milli qanuni hakimiyyətinə qaytarılarsa, dinindən və milliyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquqlarının qorunacağına təminat verilir. Əks halda, tökülən qanların və şəhərə dəyən ziyanın məsuliyyəti onların üzərində qalacaq. Bıçeroxovdan onun komandanlıq etdiyi ordunun Türk-Azərbaycan qoşunları üzərinə hücuma keçməsi haqqında teleqram alan Sentrokaspi diktaturası və Erməni Milli Şurası rəhbərliyi Mürsəl paşanın müraciətini müzakirə etsələr də, ona cavab vermədilər.

Avqustun 4-də polkovnik Stoksun komandanlığı altında İrandakı ingilis qoşunlarının ilk dəstəsinin Bakıya daxil olması Sentrokaspi diktaturası və Erməni Milli Şurası rəhbərliyini daha da ruhlandırdı, onların müqavimət gücünü artırdı [325, 119]. Belə bir şəraitdə Türk-Azərbaycan ordusuna Bakını düşməndən yalnız hərbi üsulla azad edilməsi variantı qalırdı. Odur ki, avqustun 5-də saat 4.25-də Türk-Azərbaycan qoşunlarının Bayıl istiqamətindən Bakıya sürətli hücumu başlandı. Sentrokaspi diktaturası qoşunları hücumu dayandıra bilməyib geri çəkildi. Sovet qoşunlarını Sentrokaspi diktaturası ordusuna təhvil verməmiş, Lenindən aldığı növbəti təlimat əsasında Bakıda hakimiyyəti yenidən ələ keçirmək üçün gizli-açıq mübarizə aparan S.Şaumyan Petrova gəmilərdən bir batereya götürüb Türk-Azərbaycan ordusuna qarşı döyüşməyə göstəriş verdi [324, 283-284; 325, 121; 331, 166]. Beləliklə, ingilislərin və bolşeviklərin köməyi ilə Sentrokaspi diktaturası ordusu Türk-Azərbaycan qoşunlarının Bakıya hücumunu dayandıra bildilər. Sentrokaspi diktaturasında daşnak elementlərin bütünlüklə üstünlüyü ələ almasının nəticəsi olaraq 5 avqust döyüşündən sonra L.Bıçeroxov Sentrokaspi diktaturası ordusunun komandiri vəzifəsindən azad olundu və Avetisov komandir təyin olundu.





Türk-Azərbaycan ordu komandanlığı 5 avqust hücumunda qarşıya qoyulan məqsədə nail oluna bilməməsinin səbəblərini müəyyən etmək üçün döyüşü ciddi təhlil edərək planlaşdırılmış hərbi əməliyyatların bütünlüklə icra edilməməsi və döyüşün gedişində buraxılan taktiki səhvlərin qarşıya qoyulan məqsədə nail olmağa imkan vermədiyi qənaətinə gəldilər [325, 120-122].

5 avqust döyüşündən sonra müəyyən müddət cəbhədə tərəflər arasında nisbi sabitlik yarandı. Əslində bu sakitlik deyil, tərəflərin məsələni birdəfəlik həll etmək üçün yeni hazırlıq müddəti idi. Bu günlərdə Azərbaycanı ələ keçirmək uğrunda mübarizə aparan Rusiya, Almaniya, İngiltərə arasında gedən danışıqlardan, ümumiyyətlə, dünya diplomatiya tarixindən aydın olur ki, "beynəlxalq hüquq" məfhumu güclü dövlətlərin (xalqların) özlərindən zəifləri aralarında bölüşdürməsi zamanı qarşılıqlı razılaşma termini və anlayışından başqa bir şey deyildir. Avropanın imperialist dövlətləri geopolitik məqsədləri üçün Bakıya, ümumiyyətlə, Azərbaycana yerləşdirdikləri xristian əhali və kəşfiyyat qrupları vasitəsilə milli müstəqilliyə imkan vermir, Bakının işğal rejimini qorumağa çalışırdı. Bu casus şəbəkəsində xristian etnik qruplar o qədər həyasızlaşmışdı ki, kim çox pul versə, ona işləyirdilər. Bu cəhətdən ermənilər birinci idilər. Onlar qruplara bölünərək Rusiyaya, ABŞ-a, İngiltərəyə, Fransaya və s. imperialist dövlətlərə xidmət edir, onları Bakıya dəvət edirdilər. Sürətlə dəyişən beynəlxalq vəziyyətdə imperialist dövlətlər Bakıdakı maraqlarını tamamlamaq üçün son şansdan istifadəyə qərar verərək daha da fəallaşdılar. I Dünya müharibəsinin bütün cəbhələrində üstünlüyü ələ almış ingilislər Bakını tutmaq üçün praktiki addımlar atdılar. Avqustun 17-də İrandakı ingilis qo-

şunlarının rəhbəri Denistervil və onun qərargahı Bakıya köçürüldü. O, 1000-ə yaxın əsgər, zabit və kifayət qədər hərbi sursat gətirmişdi. Əsrlərlə türk və müsəlmanların qarət edilməsində bələdçilik etməklə parazit həyat sürmüş ermənilər Denistervilin belə heyətlə gəlişi qane etməsə də, imkanlarını daha da artırdı, bir qədər də fəallaşdılar. Denistervilin hərbi heyəti əsasını ermənilərin təşkil etdiyi Sentrokaspi diktaturası ordusunu yenidən qurdu. Lenin başda olmaqla bolşevik Rusiyası Bakıda hakimiyyətin doğma xalqına keçməməsi üçün son dərəcə fəallıq göstərir və Bakıda hakimiyyətin yenidən bolşeviklərə keçməsini təşkil etməyə çalışır, Azərbaycanda məskunlaşdırılmış erməniləri, rusları və digər xristianları milli hakimiyyətə qarşı silahlandırırdı. Avqustun 27-də Almaniya ilə yeni müqavilə bağlayaraq, Bakı neftindən ona konkret payını göstərir və digər güzəştlər vəd edərək Azərbaycan-Türk ordusunun Bakıya girməsinin qarşısını almağa təhrik edirdi. Azərbaycanın yeganə müttəfiqi, hərbi-siyasi durumu son dərəcə pis olan Türkiyəyə Rusiyanın təhrik və şirnikdirmələri, Almaniyanın təzyiqi hökumət böhranı yaratmaq səviyyəsinə çatmışdı. Belə bir şəraitdə Ənvər paşanın Bakını erməni-rus işğalından təmizləmək naminə istefaya getməyə hazır olması onun türk əxlaqi-mənəvi dəyərlərinin əsgəri olduğunu bir daha təsdiq etdi [324, 283-292]. Odur ki, Türkiyə hərbi komandanlığı mücərrəd gələcəyin doğuracağı gözlənilməzliklərlə üzləşməmək üçün Bakını düşməndən təmizləmək üçün şimşək sürətli bir hərbi əməliyyata qərar verdi. Sentyabrın 11 Türk-Azərbaycan ordusunun Bakı üzərində şimşəyə çevriləcəyi gün kimi müəyyən edildi. Bu vaxta qədər qısa müddətdə Bakı ətrafında bütün hərbi strateji nöqtələrin ələ keçirilməsi, hücum əməliyyatını başa vuracaq təchizat və ordu kontingentinin yaradılmasına əmr verildi. Türkiyənin tərkibində 5541 əsgər və 191 zabit olan 15-ci diviziyası sentyabr ayının 8-də Bakı cəbhəsinə yetişdi. Son qələbəyə planlaşdırılmış və qərar verilmiş döyüşə rəhbərlik etmək üçün Nuru paşa da sentyabrın 10-da Bakı ətrafına gəldi [325, 132]. Türkiyənin 15-ci piyada diviziyası





Bakı ətrafına çatdıqdan sonra, sentyabrın 10-da Türk-Azərbaycan qoşunları yenidən qruplaşdırıldı. Bakı üzərinə həlledici hücumun əsas zərbə qüvvəsini 5-ci Qafqaz diviziyası təşkil etməli idi. General Mürsəl paşanın komandanlığı altında olan bu diviziyaya 9-cu, 10-cu, 13-cü Qafqaz piyada alayları, 56-cı piyada alayı, 33 topçu alayı və köməkçi hissələr daxil idi. Polkovnik Süleyman İzzət bəyin komandanlığı altında olan 15-ci diviziyaya isə 38-ci piyada alayı, 106-cı Qafqaz alayı, 12-ci topçu alayı və köməkçi hissələr daxil idi [325, 132].

General Denistervelin rəhbərliyi ilə ingilis komandanlığı Sentrokaspi diktaturası, Erməni Milli Şurası qoşunları və hərbi silahlı dəstələri vasitəsilə Türk-Azərbaycan qoşunlarının gözlənilən hücumunu dəf etmək və əks-hücumla onların üzərində həlledici qələbə çalmaqla yenicə elan olunmuş Azərbaycan Cümhuriyyətini beşiyindəcə məhv etmək məqsədilə 72 min adam səfərbərliyə almışdı. Qoşun hissələrinin yerləşdirilməsi, hərəkəti, hücum və manevri ingilis komandanlığı tərəfindən planlaşdırılır və həyata keçirilirdi [325, 134-136].

Düşmən əlində əsir olan Bakını azad etmək əmrini Nuru paşa sentyabr ayının 13-də saat 17.11-də Xoca Həsən kəndində müşahidə məntəqəsində imzaladı. Hücum əməliyyatına sentyabrın 13-dən 14-nə keçən gecə saat 1.00-da başlandı. 5-ci Qafqaz diviziyasının 9-cu Qafqaz alayı Bakı-Şubanı yolunun cənubundan, 56-cı piyada alayı isə bu yolun şimalından şəhərə doğru hərəkət etdi. Saat 03.30-da düşmənin ilk mövqeləri artıq ələ keçirilmişdi [325, 136].

Təcrübəli ingilis qoşunları və zabitləri Türk-Azərbaycan qoşun qruplarının ani hərəkət uyğunsuzluğundan, məharətlə istifadə edərək müəyyən ərazilərdə onların sürətini ləngitməklə bərabər, çaş-baş düşmüş Sentrokaspi diktaturası hərbi hissələrinin hücumunu təşkil etməyə cəhd etsələr də, müsbət nəticə əldə edə bilmədilər. Türk-Azərbaycan qoşunları ardıcıl irəliləyir, düşmən əlində olan strateji məntəqələri tuturdular [324, 338-350]. Günortadan sonra 15-ci

piyada diviziyasının toplarının atəşi Biləcəri istiqamətində 38-ci piyada alayına xeyli irəliləməyə və Biləcəri yüksəkliklərini ələ keçirməyə imkan verdi. Davam etdirilən hücum axşama yaxın Ermənikəndə hakim olan yüksəkliklərin də tutulması ilə nəticələndi. 15-ci piyada diviziyasının komandanlığı şimaldan hücumu gücləndirmək tapşırığı almış 107-ci Qafqaz alayının komandanlığı ilə rabitə yaratdıqdan sonra bu alay da 38-ci alayın sağ cinahında döyüşlərə qoşuldu. Döyüşlərin belə gedişi ingilis qoşunları rəhbərliyini Bakının doğmalarına qovuşması qənaətinə gətirmişdi [325, 137].

Bakı şəhərində sentyabrın 15-də hücumu qələbə ilə başa çatdırmaq üçün Nuru paşa sentyabrın 14-də axşam saat 20.30-da növbəti əmr imzaladı.

Sentyabrın 14-ü gecəsi general Denistervil başda olmaqla ingilis qoşunları Xəzər dənizi ilə Bakıdan qaçdı [324, 347].

Türk-Azərbaycan qoşunlarının Bakını azad etmək uğrunda hücumu sentyabrın 15-də saat 15.30-da topların atəşi ilə başladı. Bu hazırlıq 6.30-a qədər davam etməli idi. Lakin 56-cı alayın qüvvələri topçu hazırlığının sona yetməsini gözləmədən irəli hərəkət etdilər. Qısa vaxtda 56-cı alayla bərabər, 9-cu və 13-cü alaylar artıq şəhərin kənarına çatmışdılar. Bu hücum elə bir sürətlə başladı ki, Sentrokaspi diktaturası orduları ancaq canlarını qurtarmaq haqqında düşünə bildilər [324, 353; 325, 137-138]. Artıq saat 10.30-da Sentrokaspi diktaturası ordusunun qərb cəbhəsinin komandanlığı İran konsulu vasitəsi ilə bir maşın üzərinə İran bayrağı və ağ bayraq qaldıraraq 13-cü piyada alayının mövqelərinə daxil olub, Qafqaz İslam Ordusu rəhbərliyinə təslim oldu [324, 355].

Lakin Bakının ayrı-ayrı ərazilərində döyüşlər günortadan sonraya qədər davam etdi. Türk-Azərbaycan qoşunları Rus imperiyası və digər xristian dövlətlərin burada özləri üçün etnik yadro kimi istifadə etmək məqsədilə zaman-zaman yerləşdirdiyi erməni, rus və digər parazit ünsürlərin hərbi dəstələrini bütünlüklə məğlub edib, nəzarət altına aldı. Qafqaz İslam Ordusunun rəhbərliyi Amerika,





İran, İsveç və Danimarka konsullarının iştirakı ilə Bakı şəhərində hakimiyyəti ələ keçirmiş yadelli qrupları Azərbaycan Cümhuriyyətini tanıtmağa məcbur etdi.

Yeddi ay Bakıda yadellilərin quldur, qarətçi, ədalətsiz hakimiyyətin, yeritdiyi milli siyasətin yaratdığı qisasçılıq fırtına kimi hərəkətə gəlmişdi. Bu qisasçılığın söndürülüb qayda-qanun yaradılması Qafqaz İslam Ordusu qarşısında düşmən orduları üzərində qələbədən çətin bir vəziyyət yaratmışdı. Vəziyyəti nəzarət altına almaq üçün günahı meyitinin üzərinə yazılıb asılmaqla 100 nəfərə güllələnmə və dar ağacından asılma hökmü vermiş Nuru paşa sentyabrın 18-i axşam saat 6-ya qədər silahı təhvil verməyənlərə qarşı ölüm hökmü tətbiq edilməsinə əmr verdi [338, 89]. Şəhərin idarəetmə orqanlarının işini nizamlamaq, normal rejimi təmin etmək və qanun pozğunluqlarının qarşısını almaq üçün Cəmil Cahid bəy Bakı şəhərinin komandanı, Nazim bəy isə Bakı şəhərinin komendantı təyin edildi [325, 139].

Sentyabrın 17-də Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü və bir gün sonra F.Xoyskinin imzası ilə Azərbaycan Cümhuriyyətinin bəyanatı yayıldı. Bəyanatda Azərbaycan türklərinin 100 il fasiləsiz davam edən, on minlərlə şəhidin qanı bahasına bərpa etdiyi istiqlalı, milli dövlətçiliyi təbrik olunaraq deyilirdi: "Paytaxt olan Bakıya təzə varid olmuş Azərbaycan hökuməti - Cümhuriyyəsi bununla şəhərdə və ətrafda yaşayan ümumi əhaliyə bilafərq din və millət əmr edir ki, Azərbaycan hökumətinin təhti-təbiətində yaşayan heç bir millətə təfavüt qoyulmayaraq caniləri, qarətkərləri, qatilləri və camaatın asayişini pozanları hökumət böyük cəzaya, edama varıncaya qədər düçar edəcəkdir. Əhali bunu bilməlidir ki, türk millətinəticəsinin qəhrəman və fateh əsgərlərinə əmr vermişdir ki, cinayət, qətl və qarətlə məşğul olanları harada görsələr gülləboran etsinlər, türk Azərbaycan hökumətinin şan-şərəfinə yaraşmaz ki, onun paytaxtında günahsız adamların haqq və hüququna təcavüz olunsun" [324, 365].

Nuru paşanın çevik, təsirli tədbirləri sayəsində 3-4 günə Bakıda asayiş tam təmin olundu [338, 89].

Şairlərin, istiqlal sevincini poetik ifadə edən insanların yaratdığı şerlər Bakı küçələrində uşaqların xorla oxuduğu nəğməyə, Azərbaycan türklərinin zümzüməsinə çevrilmişdi.

İstiqlal, o yaşayan millətin qəlbində qan,
İstiqlal, o səadət, həyat, zəfər, şərəf, şan.
İstiqlal, o sönməyən məhəbbət bir məşələ,
Könüllərdə tutuşur, gözlərdə sönsə belə.
(Gültəkin).

...Ay işığı, gözəlliyin, qızlığın,
Çiçəklərlə öpüşündən yarandın!
Sərinlətdin baxışınla könlümü.
Buludların uçuşundan yarandın!

Qaranlıqda boğularkən ümidim,
Dan yıldızı yürüşündən yarandın!
Masivədan uçmuş bır ər kölgənin
Dan yeriylə görüşündən yarandın! [330, 90, 118-119].
(Ə. Cavad)

Yuxarıdakı iqtibasdan göründüyü kimi, istiqlal milli şərəfi qoruyacaq iş, türk kosmoqonik görüşlərinə, inancına uyğun təbiət gözəlliklərinin izdivacından doğulan mənəvi varlıq kimi dəyərləndirilir. Bu fakt istiqlal ideologiyasının Azərbaycan türklərinin mənəviyyat məsələsinə çevrildiyini deməyə əsas verir. Dünya milli-azadlıq hərəkatı tarixi göstərir ki, bu yol milli istiqlalın yeganə yoludur. İstiqlal ideyası elmi-texniki, iqtisadi-siyasi, hərbi, psixoloji və s. məsələlər olmaqla, dərin çalarlara malikdir. Bunlar hamısı öz yerində olmaqla istiqlal o zaman reallaşır ki, millətin mənəviyyat məsələsinə





çevrilmiş olsun. Yuxarıda izlədiyimiz Azərbaycan milli-azadlıq hərəkatı tarixi də bir daha təsdiq edir ki, istiqlal ideyası Azərbaycan türklərinin bütünlüklə mənəviyyatına hakim olub, milli şərəf, namus işi kimi dəyərləndiriləndən sonra bu yolda aparılan siyasi ideoloji mübarizə qalib gəldi.

Təəssüf ki, Azərbaycan Sovet tarixşünaslığında Azərbaycan türklərinin istiqlal mübarizəsinin bu xüsusiyyətləri öz əksini lazımınca tapmamışdır. XIX-XX əsr Azərbaycan türklərinin istiqlal mübarizəsi tarixi əsasən erməni-müsəlman etnik münaqişəsi tarixi kimi şərh olunmuşdur. Azərbaycan milli-azadlıq hərəkatı dünya milli-azadlıq hərəkatı hadisələri ilə müqayisədə ciddi özünəməxsusluqlara malikdir. Fevral burjua inqilabından Türk-Azərbaycan qoşunlarının Bakını işğalçılardan təmizləməsinə qədər olan dövr dünya milli-azadlıq hərəkatı tarixində heç bir xalqın rastlaşmadığı, keçmədiyi mənəvi-siyasi proseslərlə üzləşmişdi. Xalq imperiyanın onun həyatında öldürmüş olduğu mənəvi-sosial institutları, milli ənənələr zəminində idarəçilik institutlarını bərpa etdi. Azərbaycan türklərinin istiqlal mübarizəsinin ən güclü özünəməxsusluğu onun tam müharibə şəraitində milli ağsaqqallıq institutları zəminində inzibati-siyasi, hərbi idarəçilik institutları yaratmağa qədər təşkilatlanması idi. Bu cəhət Azərbaycan türklərinin etnomədəni, mənəvi bütövlüyünün göstəricisi olmaqla istiqlal ideyasının onun psixikasında canlandığını deməyə əsas verir. Təsadüfi deyil ki, fevral burjua inqilabından 15 sentyabr 1918-ci il Türk-Azərbaycan qoşunlarının Bakını düşməndən təmizləməsinə qədər Azərbaycan türklərinin fiziki təhlükəsizliyinin təmin olunması xalqın daxili tənzimlənməsi, yaranmış könüllü hərbi hissələr vasitəsilə həyata keçirilmişdir [324; 325]. Təəssüf ki, Bakının azad edilməsi uğrunda döyüşlərdə Osmanlı türklərindən 800-1000 nəfər hərbçi şəhid olduğu, ümumiyyətlə, avqust döyüşlərində 1130 osmanlı türk hərbçisinin, o cümlədən, 30 zabitin şəhid olması haqqında məlumat verildiyi halda [325, 138-139], şəhid olmuş Azərbaycan əsgər və könüllülərinin sayı haqqın-

da heç bir məlumat verilmir. Baxmayaraq ki, mənbə və tədqiqatlarda Azərbaycan əsgər və könüllülərinin ən qaynar döyüş nöqtələrində, düşmənin ən sürətli hücumlarının dəf edilməsində zərbə qüvvəsi kimi iştirak etdiyi göstərilir. Bunları xatırlatmaqla heç də Azərbaycanın istiqlalı yolunda şəhid olmuş Osmanlı türk əsgərlərinin xidmətinə kölgə salmaq fikrində deyilik. Onların ruhu qarşısında baş əyərək bildirmək istəyirik ki, xalqın heç bir qəhrəmanlığı ordu mütəşəkkilliyini, döyüş qəhrəmanlığını əvəz edə bilməz, necə ki, Azərbaycan türkləri nə qədər qəhrəmancasına döyüşsə də, düşmən üzərində həlledici qələbə qazana bilmirdi. Əsgəri ruha malik Azərbaycan türkləri istiqlal ideyalarına sədaqət göstərib, Osmanlı türk zabitləri vasitəsi ilə hərbi təşkilatlanma və döyüş qaydalarına yiyələnməklə düşmən üzərində həlledici qələbəyə nail oldular. 1918-ci ilin sonunda Osmanlı türk ordusu Azərbaycandan çıxanda Azərbaycan türk ordusu parlaq döyüş qabiliyyəti nümayiş etdirməklə Respublikaya tam nəzarət edirdi, onun sərhədlərini qoruyurdu.

Tarix göstərir ki, millətləri yaşadan, bu və ya digər fəaliyyətə təhrik edən ideologiyadır. Balkan müharibəsində (1912) Osmanlı türkləri təklənib məğlubiyyət hissi keçirərkən Azərbaycan türklərini silahlandırıb Balkanlara göndərməklə türkləri tənhalıq hissindən xilas edib milli qürur və döyüş ruhunu canlandıran, Türkiyənin bəzi dairələrinin Azərbaycanda qazanc haqqında düşünərkən, Türk əsgərinə Azərbaycana "kənar silahlı qüvvə daxil olarsa, onlara silahla da cavab vermək", "əgər bu tələblə kimsə razılaşmasa, onları məhv etmək" əmrini [324, 186-187] verən Ş.C.Əfqani, Ə.Hüseynzadə, Ə.Ağaoğlunun yaratdığı, Z.Göyalp və M.Ə.Rəsulzadənin daha da canlandırdığı Osmanlı və Azərbaycan türklərinin ruhuna hopdurduğu "Türkləşmək, islamlaşmaq, müasirləşmək" ideologiyası, bu ideologiyanın canlandırdığı mənəvi dəyərlər idi. Bu Ənvər paşanın Bakının düşməndən azad edilməsi münasibətilə Şərq Ordular Qrupu komandanı Xəlil paşaya təbrik teleqramında dediyi "Bakı başarısından dolayı gözlərindən öpərək təbrik edirəm" sözlərindən aydın görünmədədir. Zamanın məntiqi deməyə əsas verir ki, türk xalqlarının oyanışı və istiqlalı bu ideologiyanın müxtəlif formalarından keçəcək.





Bu ideologiyanın təsir gücü Bakının azad edilməsi münasibəti ilə F.Xoyskinin çıxışında dediyi "Bizim də həyatda azad yaşamağa hüququmuz vardır. Heç bir zirehli maşın, hidroplan, aeroplan, kanonerka, məftilli çəpər, mina və sairə texniki qurğu, heç bir ingilis, heç bir qüvvə və onların havadarları tarixin təbii axarına mane ola bilmədilər. Bakının 50 minlik qoşun və texnika ilə birlikdə kiçik bir qüvvənin həmləsi qarşısında süqutu başqasının fəlakəti üzərində öz xoşbəxtliyini qurmaq istəyənlərə ibrət dərsi olmalıdır" - sözlərində də incəliklə ifadə edilmişdir.

Azərbaycan türklərinin özünü dünya xalqları arasında millət kimi təsdiqi üçün onun qarşısında istiqlalın elan edilməsinə qədər olan dövrdən də ağır bir mərhələ dururdu. Dövlət quruculuğu, dövlətin sərhədlərinin qorunması, xalqın milli dəyərlər zəminində mənəvi, sosial-iqtisadi və siyasi həyatının qurulması və beynəlxalq hüququn subyekti kimi tanıdılması kimi çətin vəzifələr dururdu. Bu məqsədə imperialist dövlətlərin dünyanı bölmək uğrunda davam edən hərbi-siyasi mübarizəsində güclülərə yem olmaqdan xilas olmaqla nail olmaq olardı. Kiçik bir səhv xalqın həyatını qaçaraq özünü ilanın ağzına soxan dovşanın həyatına çevirə bilərdi.

Azərbaycan Milli Şurası, Azərbaycan nazirləri qarşıya qoyulan məqsədə nail olmaq üçün fədakarcasına çalışırdı. Azərbaycan Cümhuriyyəti şərqdə türk-müsəlman xalqları arasında Azərbaycan türklərinin qurduğu ilk demokratik dövlət olmaqla bərabər o, Avropa və ABŞ demokratiyasından da irəli getməklə mövcud demokratiyanın ikili xarakterindən qəti imtina edirdi. Avropa dövlətləri, o cümlədən ABŞ öz xalqı üçün demokratik olub, digər xalqlar üçün, xüsusilə müsəlmanlara qarşı irqçi, despot olduqları halda, Azərbaycan Cümhuriyyəti daxili və xarici siyasətində irqindən, cinsindən, milliyyətindən asılı olmayaraq bütün millətlərin hüquq bərabərliyini

elan etməklə hər hansı millətə qarşı üstünlük nümayiş etdirilməsini qəti qadağan edirdi. O, yalnız öz xalqının deyil, bütün dünya xalqlarının sosial-mənəvi və iqtisadi-siyasi cəhətdən azad, demokratik inkişafına şərait yaradılmasını istəyirdi.

Azərbaycan Cümhuriyyəti iqtisadi-siyasi, dövlət quruculuğu işlərinə kompleks yanaşsa da, mənəvi sahəyə prioritetlik verilirdi. İqtisad-siyasi, elmi-texniki hər şey milli mənəviyyatın inkişafına, yüksəldilməsinə istiqamətləndirilirdi. Azərbaycan Cümhuriyyətinin ideoloqları düzgün müəyyənləşdirmişdilər ki, sağlam milli mənəviyyata nail olmadan ölkənin dövlətçiliyinin, iqtisadi-siyasi, sosial inkişafında hər hansı uğur qazanmaq mümkün deyil.

Rus imperiyası hakimiyyəti dövründə Azərbaycanda türk və müsəlmanların mənəviyyatının bütün sahələrini pozmaq siyasəti yeridilmişdir. Məqsədinə bütünlüklə nail ola bilməsə də, milli təfəkkürdə, xarakterdə müəyyən pozuntular, qüsurlar yarada bilmişdi. Odur ki, Azərbaycan Cümhuriyyəti birinci növbədə milli təfəkkürdəki qüsurları, natamamlığı aradan qaldırmağa, milli mənəviyyatı bərpa etməyə çalışırdı. Elə bu məqsədlə milli hisslərin kompleks mənbəyi türk adı bərpa edildi [340, 103]. Azərbaycan parlamentinin ilk qərarlarından biri türk dilinə dövlət idarələrində, məktəb və maarif müəssisələrində məcburi dövlət dili statusu verilməsi haqqında idi.

Vətənin adı - Azərbaycan sözünün də bərpası beynəlxalq müqavimətlə qarşılandı. Milli qüvvələrin Rus imperiyasının Qafqazda unutdurmağa çalışdığı Azərbaycan - vətən anlayışını yaddaşda coğrafi, milli anlayış kimi canlandırması, nəhayət, ona siyasi məna verməsi Şimalla bərabər, Cənubi Azərbaycanda da əhalinin şüurunda milli birlik və siyasi müstəqillik ideyalarını gücləndirirdi. Azərbaycan türkləri Qacarlar monarxiyası əhalisinin etnoqrafik və etnik qrupları arasında mədəni-siyasi səviyyəsinə görə üstün mövqeyə malik olub, imperiya ərazisində demokratik və antimüstəmləkə hərəkatına liderlik edirdi, müstəqillik ideyası tam hökm sürməkdə





idi. Odur ki, Şimali Azərbaycanın müstəqilliyi Cənubi Azərbaycanda müstəqillik ideyasına təkan verib, birlik ideyası ilə nəticələnəcəyi obyektiv, təbii bir proses idi. Tehran qəzetləri farsların təsiri altında Şimali Azərbaycanda yaranan dövlətin "Azərbaycan" adlandırılmasının düzgün olmadığını yazaraq adının dəyişdirilməsini təklif edirdilər. Əks təqdirdə Qacarlar monarxiyası ilə yeni yaranan Azərbaycan dövləti arasında narazıçılıq düşəcəyi ilə hədələyirdilər. M.Ə.Rəsulzadə qətiyyətlə bildirdi ki, Azərbaycanın yalnız Qacarlar monarxiyasının hakimiyyətində olan hissəsi deyil, vaxtı ilə rus işğalı altında olan hissəsi də tam ixtiyarla Azərbaycan adlanır. Bu adı hər hansı siyasi qüvvə deyil, Azərbaycan türklərinin ulu babaları verib, ondan sonrakı nəsillər vətən və and olaraq yaşadıblar. Biz bu adı yaşatmalı və gələcək nəsillərin də yaşatmasını təmin etməliyik.

Azərbaycan dövlətçiliyinin simvolları üçün milli ideologiyanın "türkləşmək, islamlaşmaq və müasirləşmək" şüarı əsas götürülmüşdür. Göy, qırmızı və yaşıl rəngli milli bayrağın ortasında müasirləşmənin timsalı olan qırmızı və yaşıl rəngin fonunda türk xalqlarının qədim simvolları - aypara və 8 guşəli ulduz verilmişdir. Dairəvi qalxan formalı dövlət gerbində də həmin rənglər və simvollar, eləcə də dəfinə və sünbül çələngləri əsas yer tutur [340, 165].

Rus imperiyasına qarşı mübarizənin qürur mənbəyi Gəncə şəhəri üzərindən Yelizavetpol adı götürüldü, bəşəri sivilizasiyanın beşiklərindən biri Qarabağın Cəbrayıl qəzasının adı üzərindən erməni casusu Qaryaginin adı silinməklə milli tarixi adlar bərpa olundu.

Azərbaycan Cümhuriyyəti milli intellektual səviyyəni yüksəltməyə dünya xalqları arasında layiqli yer tutmağın, qazanılmış istiqlalı qorumağın başlıca vasitəsi kimi baxırdı. Odur ki, Xalq Maarif Nazirliyi yaradıldı və məktəblər milliləşdirildi. Bütün məktəblərdə tədris türk dilində aparıldı. Tədris rus dilində olan məktəblərdə türk dili 3-4 saat məcburi fənn kimi tədris olundu. Milli müəllim kadrlara olan tələbatı ödəmək məqsədilə Bakı, Gəncə, Şuşa, Qazax və b. şəhərlərdə xüsusi pedaqoji kurslar açıldı. Qori Müəllimlər Semina-

riyasının Azərbaycan şöbəsi Qazağa köçürüldü. Bakı, Gəncə və Şəkidəki "Nına" qızlar məktəbinin adı dəyişdirilərək "Qız gimnaziyası" adlandırıldı. Yeddi kişi gimnaziyası açıldı. Müəllimlərin və dərsliklərin çatışmazlığını aradan qaldırmaq üçün Türkiyədən 50-dən çox müəllim gətirildi.

1919-cu ildə artıq Azərbaycanda 700-ə qədər məktəb var idi. Burada 48 min şagird oxuyurdu. Bunlardan 22261-i Azərbaycan türkü idi. Bunun da 2 mini qız idi. M.Ə.Rəsulzadənin təşəbbüsü ilə Bakı Dövlət Universiteti açıldı. Yüz nəfər tələbə təhsil almaq üçün xaricə göndərildi. Azərbaycan Cümhuriyyəti yaşlılar arasında savadsızlığı aradan qaldırmaq üçün bütün qəzalarda türk dilində axşam kursları təşkil etdi [340, 182].

Millətin mənəvi, sosial-siyasi inkişafı üçün onun ölkədə və dünya xalqları arasında müstəqil iradə nümayiş etdirə bilməsi üçün Azərbaycan hökuməti, millət vəkilləri, ziyalılar fədakarcasına çalışırdılar. Azərbaycan türklərinin dövlət müstəqilliyinə qarşı beynəlxalq miqyasda yönəlmiş erməni, rus hərbi-siyasi təbliğatı ardıcıl dəf olunurdu. Dünyada hadisələrin gedişi Azərbaycanın ziyanına idi. ABŞ-ın Antanta tərəfindən müharibəyə qoşulması və Amerika əsgərinin Qərbi Avropaya gətirilməsi ilə dördlər ittifaqı, onun lideri Almaniya, onunla birlikdə Türkiyə məğlub oldu. 1918-ci il oktyabrın 30-da Leos adasındakı Mudros limanında ingilis hərbi gəmisi - "Aqamemnon" kreyserində Türkiyənin yeni hökuməti Antantanın təklif etdiyi şərtlər əsasında təslim oldu. Bu müqavilənin şərtləri əslində Türkiyənin müttəfiqlər tərəfindən bölüşdürülməsi idi. İngilislər dərhal Gənc türklərə, milli qüvvələrə divan tutdular. Mudros müqaviləsinin 14-cü maddəsinə əsasən Osmanlı türk qoşunları bütün Azərbaycanı və Bakı şəhərini ingilis qoşunlarına təhvil verməli idilər.

Türkiyənin yeni hərb naziri İzzət paşadan noyabrın 16-na kimi türk qoşunlarının Azərbaycandan çıxarılması haqqında alınan teleqram Azərbaycan Cümhuriyyəti rəhbərliyinin əsəblərini tarıma çəkdi.





Teleqramda arzu edən türk zabitlərinin qalıb Azərbaycanda işləməsinə icazə verilməsi ümidverici hisslər doğururdu. Nuru paşa başda olmaqla türk zabitləri Azərbaycan vətəndaşlığını qəbul edib, onun istiqlalını qorumağa hazır olduğunu bildirdilər. Nuru paşa bildirdi ki, Azərbaycanın mənafeyi naminə bundan sonra da lazım olanları etməyə hazırıq. "Qardaş Azərbaycan türkünün mənafeyi hər bir türk üçün müqəddəsdir... Əgər Azərbaycanın azadlığı yolunda yeni qurbanlar lazım olarsa, ona da hazırıq" [324, 414]. Lakin türk zabitlərinin Azərbaycanda qalmasına ingilislər qəti etiraz etdilər. Bu xəbərdən Nuru paşanın son dərəcə narahat olmasını, həyəcanlanmasını, keçirdiyi təlatümlü hissləri M.Ə.Rəsulzadə həmişə məhəbbətlə xatırlayırmış [300, 99]. Bu fakt göstərir ki, Nuru paşanın Azərbaycana gəlişi zamanı onun buraxdığı siyasi səhvlər Türkiyənin və yerli ilhaqçıların onda yaratdığı keçici hisslər olmuşdur. O, böyük türk milli ideologiyasına sahib olmaqla bu ideologiya yolunda bütün fədakarlığa hazır olduğunu nümayiş etdirdi.

Azərbaycan milli liderləri situasiyanın çətinləşməsinin hökumətdə, milli şura üzvləri və əhali arasında vəziyyətin mümkünsüzlüyü hisslərinin, fikirlərinin yaranmasına imkan vermirdilər. Dəyişən hər bir şəraitdə istiqlalın qorunması və tanıdılması yollarının və vasitələrinin tapılması istiqamətində fəaliyyət göstərirdilər. Mudros müqaviləsi haqqında məlumat alan kimi Ə. M. Topçubaşov (bu zaman o, İstanbulda idi) Azərbaycan Cümhuriyyəti rəhbərlərinə məsləhət gördü ki, Ənzəlidə olan ingilis nümayəndəliyi ilə danışığa girsinlər və Milli Şuranın fəaliyyətini bərpa etsinlər. N.Yusifbəyli, Ə.Ağayev və M.Rəfiyevdən ibarət Azərbaycan nümayəndə heyəti təcili Ənzəliyə gedib, Böyük Britaniyanın buradakı - Şimali İrandakı ordularının komandanı general V.Tomsonla danışığa başladılar. Danışıqlar son dərəcə gərgin keçdi. İngilis generalı V.Tomson Azərbaycan adlı dövlətin mövcudluğunu qəbul etmək istəmirdi. Azərbaycan nümayəndə heyətinin məntiqli dəlilləri, dözümlü mübahisələri nəhayət generalın fikrini dəyişə bildi. O bildirdi: "Bizə mə-

lum olduğuna görə, Azərbaycan xalqının ümumi fikrindən meydana gəlmiş bir Respublika mövcud deyil, yalnız türk komandanlığının intriqası ilə təşəkkül tapmış bir hökumət vardır. Madam ki, siz bunun əksini iddia edirsiniz, bu halda hər şeyi yerində yoxlayıb, buna münasibətdə qərar verərik". Danışıqların sonunda V.Tomson bəyanat verərək bildirdi ki, noyabr ayının 17-si səhər saat 10-a qədər Bakı istər Azərbaycan və istərsə də türk ordusundan təmizlənməlidir [327, 147]. İngilis nümayəndə heyəti ilə danışıq və onun nəticələri Azərbaycan diplomatıyasının ilk uğurlarından idi. Azərbaycan nümayəndə heyəti ingilis nümayəndəliyinə Azərbaycan dövlətçiliyinin varlığını de-fakto qəbul etdirmişdilər, onun daha yüksək səviyyədə tanıtdırılması üçün vaxt və imkan qazanmışdılar.

Noyabr ayının 16-da hələ iyun ayından fəaliyyətini dayandırmış, yaranmış şəraitdə fəaliyyəti böyük hüquqi əhəmiyyət kəsb edən Milli Şuranın işini bərpa etmək və yaranmış fövqəlada şəraitdə hökumətin taktikasını dəqiq müəyyən etmək üçün Milli Şura yenidən toplandı. Yaranmış vəziyyət ətraflı təhlil edildi. Milli Şura və hökumət üzvlərinə hər hansı iradəsizliyin qəti yol verilməz olduğu bildirilərək, Azərbaycanın müstəqilliyini tanıması barədə bütün dünya dövlətlərinə müraciət qəbul edildi. Həmçinin Milli Şuranın qərarı, Nazirlər Şurasının sədri F.X.Xoyskinin imzası ilə general Tomsona teleqramla müraciət edildi. Müraciətdə deyilirdi: "Azərbaycan hökuməti tərəfindən sizin komandanız altında Bakıya gəlməyə müttəfiq orduya mane yoxdur. Hökumət əmindir ki, müttəfiq ordunun Azərbaycana gəlməsi Azərbaycan hökumətinin daxili işlərinə qarışmadığı surətdə istiqlaliyyətimizə və məmləkətimizin tamamiliynə xəta toxunmaz. Hökumət yenə ümid edir ki, nümayəndələrimizlə edilən danışıqdan sonra bir daha şəxsi görüşməklə əlaqəmiz və münasibətlərimiz daha da aydın olacaq". Cavab teleqramında general Tomson Azərbaycan hökumətinin müəyyən etdiyi istiqamətdə əməkdaşlığa hazır olduğunu bildirirdi [327, 148; 330, 62; 339, 42-43].





1918-ci il 17 noyabrda Tomsonun komandası altında ingilis qoşunları Bakıya daxil oldu. Onu daxili işlər naziri B.Cavanşir, xarici işlər nazirinin əvəzi A.Ziyadxanlı və digər rəsmi şəxslər qarşıladı. General Tomson özünü Bakının hərbi qubernatoru elan etdi. İngilis polkovniki Kokkereli isə Bakı polisinin başçısı təyin etdi. İngilis komandanlığı eyni zamanda Gəncə, Şuşa və Naxçıvanda öz nümayəndəliklərini yaratdı.

Lakin Antantanın müttəfiqi L.Bıçeroxovun əsasən ermənilərdən ibarət olan ordusunun Bakıya daxil olması ilə vəziyyət dəyişdi. Onun ordusu birinci növbədə Azərbaycan bayrağını, milli hökumətin digər rəmzlərini təhqir etməyə başladılar. Onların bu hərəkəti xristian əhali tərəfindən dəstəkləndi. Erməni və rus milli şuraları qərar çıxardılar ki, "heç bir Azərbaycan yoxdur, yalnız Rusiya vardır. Azərbaycan hakimiyyəti devrilməlidir və L.Bıçeroxovun başçılıq etdiyi Xəzəryanı hökumətlə əvəz edilməlidir" [327, 149].

Ölkədə yadelli əsgərin görünməsinin Vətən və millət üçün faciəsini görmüş Bakı əhalisini qəzəb və çaşqınlıq bürümüşdü. İngilislərin bu saymaz hərəkətləri Bakı əhalisinin hisslərinə toxunurdu. İngilislərin hərəkətlərinin əhalinin etirazı ilə qarşılanacağı hər an gözlənirdi. Bu etirazın qara camaatdan deyil, ali zadəgan silkindən başlaması milli mübarizə əhval-ruhiyyəsini, vətənpərvərlik hisslərini daha da canlandırdı. General S.Mehmandarov Birinci Dünya müharibəsi zamanı ingilis komandanlığı tərəfindən təltif olunaraq ona verilən ordenləri Bakıdakı ingilis komandanlığına qaytararaq bildirdi:

"- Torpağımı, xalqımı fəth edən ikiüzlü bir ölkənin ordeni mənə lazım deyil. Xalqıma silah qaldıran bir ölkənin ordenini gəzdirmək mənim üçün ən böyük təhqirdir" [341, 58].

Belə bir şəraitdə milli birliyi və istiqlal ideyasını qoruyub saxlamaq, hərbi qüvvələrin təşkilatlandırılması və möhkəmləndirilməsi, qazanılmış müstəqilliyin dünya dövlətlərinə tanıtdırılması Azərbaycanın dövlət müstəqilliyinin qorunmasının başlıca şərtləri idi. Cüm-

huriyyət rəhbərləri tərəfindən düzgün müəyyənləşdirilmiş bütün səylər bu istiqamətlərə yönəldilmişdi.

Elə bu günlərdə dünya şöhrətli Azərbaycan türk sərkərdəsi general S.Mehmandarov vətənin ordu quruculuğu vəzifəsinin məsuliyyətini üzərinə götürdüyünü elan edərək bildirdi: "İndi isə qoşun düzəltməyi öz üzərimə götürmüşəm və cəmi vətəndaşları... əsgərliyə çağırıram" [343, 65].

Ancaq milli tarixi yaddaşı oyatmaq, bərpa etməklə, mənəvi yaradıcılığı tam canlandırmaqla bu başlıca vəzifənin həyata keçirməyin mümkün olduğunu S. Mehmandarov dəqiq bilirdi. Öhdəsinə götürdüyü milli vəzifənin həyata keçirilməsinə yardımçı olması üçün Azərbaycan ziyalılarına müraciət edərək bildirdi: "Bolşevizmə qarşı mübarizənin istiqamətlərindən biri xalq içərisində sağlam milli hisslərin yaradılmasıdır. Azərbaycanın yaranmaqda olan gənc ordusu üçün bu, xüsusilə lazımdır. Yalnız azərbaycanlılardan təşkil olunmuş hərbi qüvvələrimiz öz xalqının ümumdünya tarixinin səhifələrinə yazmış olduğu və bizdən daha çox Avropa xalqlarının danışdıqları çoxlu igidlikləri, şərəfli döyüş keçmişini bilməlidirlər. Bir əsrdən də artıqdır ki, rus ağalığından xilas olmuş türk xalqı bilməlidir ki, biz heç də həmişə əsarətdə olmamışıq, həm də öz iradəmizi Avropa və Asiyaya nümayiş etdirmişik. Güman edirəm türk tarixinin bilicilərindən kimsə xalqımızın müxtəsər tarixini və bu günümüzə qədər olan ən mühüm hadisələri əks etdirən kütləvi kitabçaların tərtib və nəşr edilməsinin tapşırılması faydalı olardı. Sadə xəritələrin əlavə edilməsi də yaxşı olardı. Burada bizim tarixi qəhrəmanlığımız və yad hakimiyyətlər altında olduğumuz vaxt çəkdiyimiz iztirablar güzgüdə olduğu kimi öz əksini tapmalıdır. Onların ifadə tərzi, obyektiv və təmkinli olmalıdır ki, millətçilik barədə təsəvvür yox, bəlkə əsrlik yuxudan oyanan millətdə sağlam hisslər yaratsın".

O, sözünə davam edərək deyir: "Bizim bir sıra müsəlman mütəfəkkirlərin meyl etdiyi ifrat sosial təlimlər müsəlman xalq kütlələrindən yüksək mədəni inkişaf tələb edir. Onların qaranlıq, nadan kütlələrə calaşdırılması bütün Avropa Rusiyasının məruz qaldığı anarxıya və terrora yol aça bilər. Biz müsəlmanlar şüurlu həyata və milli yaradıcılığa yenicə qədəm qoymuşuq. İnternasional ideyaları hələlik bizdən çox uzaqdır.





Bax, buna görə də bizim ziyalılarımızın ən mühüm vəzifələrindən biri xalqı və ordunu onun tarixi keçmişi ilə tanış etməkdir. Bu, bizim internasional səylərimizin əsassızlığı, habelə xalqda milli hisslərin və türk irqinə mənsubluqdan qürur keçirməyin inkişaf etdirilməsi üçün yaxşı sübut olardı. Belə kütləvi tarixi nəşrlər xalq arasında və qoşunlarda geniş yayılmalı və bunun üçün hər bir kənd müəllimi, hər bir müsəlman zabiti ondan geniş istifadə etməlidir. Gələcəkdə ümumxalq qərarı ilə, hökumətin köməyi ilə türk xalqının böyük xadimləri və rəhbərlərilə müvafiq abidələr qoyulmaqla əbədiləşdirilməlidirlər".

Sonda S.Mehmandarov deyir: "Müharibə vaxtı bacarıq və təcrübə şəxsi praktika ilə əldə edilir. Sülh vaxtı isə nizamnamələrlə, müharibə və sülh vaxtı rəhbər tutduğumuz göstərişlərlə ətraflı tanışlıq, taktiki vəzifələrin həlli üçün sahəyə çıxış, ikitərəfli manevrlər, komanda heyətinin çöl səfərləri, hərbi oyunlar, hərb tarixinin öyrənilməsi və s. belə vasitələr ola bilər.

Bu vasitələr üzərində çox dayanmayacağam. Yalnız öyrənilməsinə böyük əhəmiyyət verdiyim hərb tarixi üzərində dayanacağam. Hərb tarixinin öyrənilməsi əqli dünyagörüşünü genişləndirir, tənqidi mühakiməni, diribaşlıq və zirəkliyi inkişaf etdirir. Hərb tarixini öyrənməklə siz ovçunuzun içində olduğu kimi bu və ya digər tərəfin bütün səhvlərini, nəyi etməyin lazım gəlmədiyini və necə hərəkət lazım olduğunu görürsünüz, hərb tarixini öyrənməklə siz ən çətin vəziyyətdən baş çıxarmaq və müvafiq qərarı çıxarmaq vərdişləri əldə edirsiniz. Hərb tarixini öyrənməklə döyüş zamanı qoşunlara çox baha başa gələn səhvlərin buraxılmasından özünüzü müəyyən qədər qorumuş olursunuz. Güman edirəm ki, deyilənlər

hərb tarixinin öyrənilməsinin əhəmiyyətini başa düşməyə kifayətdir. Bunun üçün də mən belə hesab edirəm ki, hərb tarixi hər bir hərbi adam üçün stolüstü kitaba çevrilməlidir. Onu öyrənməklə siz, heç şübhəsiz ki, özünüzü həsr etdiyiniz yolda uğurlar qazanacaqsınız" [343, 109-110].

47 il vətənindən uzaqlarda şəxsi qürur, ləyaqət və qabiliyyəti ilə Rus imperiyasının xalqına həqarətli baxışının əsassız olduğunu və vətəninin və millətinin hərbi qabiliyyətini dünyaya sübut etmək üçün Rus hərb tarixinə fərdi qəhrəmanlıq səhifəsi yazmış 62 yaşlı general S.Mehmandarov gənclik ehtirası ilə çalışırdı. O, qarşısına qoyduğu məqsədinə nail olacağına əmin idi, çünki millətinin "fitri" qabiliyyətinə inanırdı [341, 50]. Dünya hərb tarixinə qəhrəmanlıq səhifəsi yazmış S.Mehmandarov sanki psixologiya akademiyası idi. O, millətin inam və etiqadına, milli və dini hisslərinə, adət-ənənəsinə uyğun incə psixoloji yanaşma üsulları ilə əhalini orduya cəlb edir, hərbi təlimlərlə onların döyüş ruhunu və qabiliyyətini möhkəmləndirib, nizami ordu kimi düşmən üzərinə göndərirdi. S.Mehmandarov qısa müddətdə qurduğu ordu vasitəsilə Zəngəzura, Qarabağın digər ərazilərinə soxulmuş erməni silahlı dəstələri, əsgəri hissələri üzərində qələbə çaldı. Qarabağda yaşayan separatçı erməniləri Azərbaycan Cümhuriyyətinə tabe etdi. Bolşevik tör-töküntülərinin Muğanda malakan kəndlərini etnik-siyasi baza etməklə yaratdıqları separatçı qurumu darmadağın etdi. S.Mehmandarovun bütün qoşun növləri üzrə apardığı Ordu quruculuğu işi nümunəyə çevrilmişdi. Onun orduya rəhbərliyə başlaması ilə Azərbaycan ordusu xalqın nəğmələr qoşduğu bir orduya çevrildi.

Qafqazda qan olacaq,
Tarixlər şan olacaq.
Bu yerlərə Moskva deyil,
Azərbaycan xan olacaq.





İştə görün biz əsgərləriz,
Cəngdən qorxmaz, cəng edəriz.
Qafqaziyaya şan gəliyor,
Dərdlərə dərman gəliyor.
Aç qoynunu nazlı Qafqaz,
Sevdiyin Səməd gəliyor.

Qafqaziyaya qan gəliyor,
Tarixlərə şan gəliyor.
Aç sinəni nazlı vətən
Sevdiyin ordu gəliyor.

***

Səhər oldu, sular, çaylar,
Səsimizə yerlər, dağlar
Dünyaların gözəl yeri
Gümüş kimi nəhrləri
Ölmək var, var, var
Dönmək yox, yox, yox.
Dönərisək biz, türklük bizə ar olsun.

Yurdumuzun yağıları
Keçmək istər hüdudları
Əldə süngü, öndə sancaq
Köks gərəlim irəli

Ölmək var, var, var
Dönmək yox, yox, yox.
Dönərisək biz, namus bizə ar olsun,
Evimizi unudalım
Düşmənlərə saldıralım
Marş irəli, marş irəli

Komandanımız Səməd bəyi
Təqib edəlim irəli
Ölmək var, var, var
Dönmək yox, yox, yox
Dönər isək biz, namus bizə ar olsun.

Xoş gəldiniz, ey şövkət-məab,
Millət sizə eylər salam
Siz millətin göz nurusuz
Minlər yaşa, Səməd paşa.

Çoxdan bəri gözlər idik
Qafqaziyanı əfv ediniz
Onun sizə salamı var
Minlər yaşa, Səməd paşa.

***

Aslan ürəkli Səməd paşamız
Şanlı komandan, sənsən babamız.
Sənə qurban olsun ata-anamız.
Al bir düşməndən türkün qanını [343, 112-119]

Orduya və S. Mehmandarova xalq tərəfindən qoşulmuş nəğmələr də xalqın inam və etiqadlarının, bütün milli hisslərinin Vətənin müdafiəsinə səfərbər olunduğunu, xalqla rəhbərlik arasında qarşılıqlı etimad və güvənc olduğunu göstərir. Bu da tarixin ziddiyyətli məqamlarında millətin qələbəsini təmin edən əsas səbəblərdir.

General V.Tomson bir neçə gün Bakıda vəziyyətlə yaxından tanış olduqdan sonra yəqinlik hasil etdi ki, rus kadetlərinin "Azərbaycan bir neçə siyasi fırıldaqçının uydurduğu xəyaldan başqa bir şey deyildir" fikri həqiqətdən tam uzaqdır. O, elan etdi ki, Britaniya komandanlığı Azərbaycan hökumətinə və onun baş nazirinə böyük





hörmət bəsləyir, F.X.Xoyski "Bakıda ən bacarıqlı adamlardan biridir" və yeni koalisyon hökumət təşkil olana qədər onun hökuməti ölkədə yeganə təsirli hökumət olaraq qalır. V.Tomsonun belə mövqeyi müttəfiqlərin gəlişi ilə imperiya ənənələrinin bərpa olunacağına böyük ümid bəsləyən rus Milli Şurasının üzvlərini məyus etdi [327, 150].

Milli Şura noyabrın 19-da "Azərbaycan parlamentinin yaradılması haqqında" qanun qəbul etdi. Qanuna əsasən tək palatalı parlament 120 millət vəkilindən ibarət olmalı idi. Əhalinin çoxmillətli tərkibinə uyğun olaraq 80 yer Azərbaycan türklərinə, 21 yer ermənilərə, 10 yer ruslara verilməli idi. Yəhudi, alman, gürcü, polyak xalqlarının hər biri üçün bir yer, həmkarlar ittifaqları təşkilatları üçün 5 yer nəzərdə tutulmuşdu. Respublika ərazisində yaşayan bütün xalqların və hər iki cinsin bərabər seçki hüququ qanunla təsbit edilirdi. Bununla Azərbaycan Şərqdə qadınlara seçki hüququ verən ilk ölkə oldu.

Azərbaycan istiqlalının elan edilməsindən az sonra yaradılan milli bayrağın milli şərəf, kosmoqonik bir müqəddəslik simvolu kimi təqdim olunmasından yuxarıda bəhs etmişik. 17 noyabrda ingilis qoşunlarının Bakıya girməsi zamanı bu deyimin həqiqiliyini həyat təsdiq etdi. İngilis komandanlığı milli müstəqillik rəmzi olan 3 rəngli bayrağın parlament binası üzərindən götürülməsini tələb etdi. Diplomatik güzəşt olaraq Azərbaycan hökuməti bununla müvəqqəti razılaşsa da, xalq bayrağın parlament binası üzərindən götürülməsinə qarşı dözümsüzlük göstərirdi. Parlament binası üzərində milli bayrağın dalğalanmaması Azərbaycan xalqında hürriyyətin itiriləcəyi qorxusu yaradırdı. Parlament binası üzərində milli bayrağın dalğalanmasının "rus və erməniləri" həyəcanlandırması [300, 101] Rus imperiyasının siyasətinin bu xalqlarda yaratdığı milli psixi xəstəlik idi. Əvvələ, Azərbaycan türkləri bu xalqlar üzərində heç vaxt hökmran olmamışdır ki, ondan müəyyən zıyan görsün. Digər tərəfdən, hər iki xalqı Rus imperiyası xüsusi məqsədlərlə Azərbay-

cana köçürmüşdür, bu prosesdə onlara çoxlu əzablar vermişdir. Rus imperiyasından fərqli olaraq Azərbaycan Cümhuriyyəti onlara yerli xalqla bərabər hüquq vermişdir. Bəs onda bu xalqlar Azərbaycan türklərinin istiqlalına nə üçün düşmən kəsilmişdi?

Görkəmli Azərbaycan mütəfəkkiri Y.V.Çəmənzəminli dərin araşdırmaları sayəsində bunu rus milli təbiətindən doğan xəstəlik kimi dəyərləndirmişdir [308, 38-43].

Parlament binası üzərində üç rəngli milli bayrağın doğurduğu psixoloji təsiri tənzimləmək üçün Milli Şura ilə ingilis komandanlığı arasında razılığa gəlindi ki, bina üzərində bayraq məclisin toplandığı günlərdə, iş vaxtı asılsın [300, 101; 311, 367].

Azərbaycan türklərinin istiqlal ruhunun ölməməsi və üç rəngli bayrağın parlament binası üzərindən enməməsi üçün Milli Şura iş saatını 24 saata çatdırmağa çalışırdı. Üç rəngli milli bayrağın parlament binası üzərindən enməməsi naminə Milli Şuranın fədakarcasına işləməsi milli istiqlal ruhunu qorumaqla bərabər ingilis nümayəndə heyətinin də rəğbətini qazanırdı [327, 152].

Millət vəkillərinin və Azərbaycan hökumətinin gərgin əməyi sayəsində çətinlik və maneələr aradan qaldırılmaqla dekabrın 7-də Azərbaycan parlamenti açıldı. Azərbaycan parlamentinin açılışı milli zəkanın yaradıcılıq gücünün göstərilməsi, milli iradə nümayiş etdirilməsi, dövlət quruculuğunun çevik təkmilləşdirilməsi üçün böyük əhəmiyyətə malik idi. Parlamentin açılışında 120 deputatdan 97-si iştirak edirdi. Erməni deputatların bir hissəsi parlamenti boykot etdi. Parlamentin açılışında müttəfiq dövlətlərin Bakıda olan hərbi qüvvələrinin nümayəndəsi polkovnik Q. Kokkerl, İranın baş konsulu Sədülvəzir, İranın maliyyə agenti Vəkilülmülk, dağlıların nümayəndəsi, hökumətin sədri T.Çermoyev və Azərbaycanda Dağlılar İttifaqının səlahiyyətli nümayəndəsi Ə.Qandəmirov, Gürcüstan Respublikasının nümayəndəsi Korçevadze və b. nümayəndələr iştirak edirdi. Parlamentin ilk iclasını Milli Şuranın sədri M.Ə.Rəsulzadə açıb, təbrik nitqi söylədi.





"...Əfəndilər! Rusiyada zühur edən inqilabi-kəbir digər həqiqətlər arasında bir həqiqəti-bahirəyi dəxi elan etmişdi. Bu həqiqət millətlərin həqqi-hürriyyət və istiqlalları idi...

Ərz edim ki, biz Rusiya camaatının düçar olduğu fəlakətdən qurtulmasını ürəklə istəriz. Biz Rusiya hökumətinin həqiqi rus demokratiyası əlinə keçməsi tərəfdarıyız. Çünki, Qafqaziya dağlarının Şimalında təşəkkül edən müstəbid və təcavüzkar bir hökumətə biz laqeyd qala bilməriz (alqışlar). Biz Rusiyanın səadətini istəriz, Rusiya camaatını sevəriz, fəqət kəndi istiqlalımızı da əziz tutarız (alqışlar). Cəbr ilə qəbul etdirilən bir şeydə səadət olmaz. Çünki səadət və hürriyyət istiqlaldır (alqışlar). İştə bunun üçün əfəndilər, müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı-əhrarinəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha endirilməyəcəkdir...

Mən buna iman edərəm. Mənim bu imanımı millətlərin qəlbində doğmuş olan əməl günəşi işıqlandırır. Mən vicdani-bəşəriyyətə inanıram. Milyonlar ilə insan bahasına mal olan qıtali-ümumidən sonra vicdanı-bəşər qazandığı həqiqətləri asanlıqla əlindən verəmməz. "Cəmiyyəti-əvvam" fıkri bu gün hər kəscə qəbul edilmiş bir fikirdir. Bu mənə ümid verir, qüvvətlə inanıram ki, artıq milləti öldürmək, millətin hüququnu pamal etmək qətiyyən mümkün deyildir. Qaliblər də, məğlublar da millətlərin hüququ təslim ediləmməz deyirlər (alqışlar)... Biz azərbaycanlılar bütün mövcudiyyətimiz ilə kəndi müqəddəratımızı, kəndi istiqllımızı müdafiə və mühafizədə israr edər, səbat və mətanət göstərər isək, heç şübhəsiz ki, Azərbaycan Cümhuriyyəti payıdar olar. Fəqət, bunun üçün, təkrar edirəm səbat və mətanət, fədakarlıq istər. İstər ki, biz kəndimizin istiqlala layiq olduğumuzu isbat edəlim. Bu oldumu, sizi əmin edirəm ki, kimsə hüququmuzu təslim etməmək cəsarətində bulunmaz. Hanki vicdandır ki, istiqlal istəyən və ona ləyaqətini isbat edən bir milləti

təhqir etsin (alqışlar).

Əfəndilər, bu gün Azərbaycanın paytaxtında Məclisi-Məbusan ittihatındayıq. Azərbaycan bir atəş mənbəyidir. Vətənimiz hər zaman kəndi sinəsində bir atəşi-müqəddəs bəsləmişdir. Bu atəş əski zamanlardan bəri həqiqətpərəstlərə rəhbər şəkil ümid və iman təşkil eyləmişdir. O atəş ki, bu gün də sərvət və saman səbəbi və baisi-təməddüdündür. Qəvi bir atəş Azərbaycan övladının sinələrinə düşən milyonlar ilə bürkü yağan bu atəş əbədi sönməz, bir müşkül təşkil edib də hürriyyət və istiqlalə doğru getdiyimiz maneli yolları işıqlandırsın. Bu atəş sönməmək üçün əl-ələ verib müttəhidən çalışalım, əfəndilər! Mən sizi belə bir ittihadə dəvət edirəm" [342, 33-36].

İclasın stenoqramından aydın olur ki, M.Ə.Rəsulzadənin təbrik nitqindəki ideyalar müxtəlif fraksiyanı təmsil edən millət vəkillərini parlamentin qarşısında duran vəzifələri milli mövqedən həlli üçün səfərbər edə bilmişdi. Parlament beynəlxalq aləmdə dünyəvi hüquqşünas və siyasi xadim kimi tanınan Ə.M.Topçubaşovu parlamentin sədri, H.Ağayevi sədrin birinci müavini, R.Vəkilovu isə katib seçdi. Parlamentin qarşısında duran həlli vacib məsələlərdən biri yeni hökumətin təşkili idi. Müsavat partiyası parlamentdə böyük nüfuza malik olsa da, Milli Şura dövründən fərqli olaraq hökumətin təşkili üçün yerlərin əksəriyyətinə malik deyildi. Odur ki, hökumət müxtəlif partiyaların nümayəndələrindən ibarət koalisyon formada olmalı idi. İngilislərin təkidi ilə yeni hökumətdə 3 yer ruslara, 2 yer ermənilərə verilmişdi. Lakin ermənilər onlara təklif olunan yerlərdən imtina etdilər.

Parlament yeni hökumətin təşkilini F.X.Xoyskiyə tapşırdı. F.X.Xoyski dekabrın 26-da hökumətin yeni tərkibini parlamentə təqdim etdi. Yeni kabinetdə F.X.Xoyski Nazirlər Şurasının sədri və xarici işlər naziri, X.Xasməmmədov daxili işlər naziri, N.Yusifbəyli - xalq təhsili naziri, S.Mehmandarov - hərbi nazir, M.Əsədullayev - ticarət və sənaye naziri, K.Lazqar (polyak) - ərzaq naziri, X.Məlikaslanov - yollar naziri, A.Səfikürdski - poçt, teleqraf və əmək





naziri, R.Xoyski - himayəçilik naziri, M.Hacinski - dövlət nəzarətçisi, T.Makinski ədliyyə naziri, X.Sultanov - əkinçilik naziri, Ü.Kindes - xalq səhiyyəsi naziri, İ.Protasyev - maliyyə naziri vəzifəsinə təsdiq edildilər.

Dekabrın 28-də müttəfiqlərin Bakıda olan nümayəndəsi V.Tomson Azərbaycan hökumətini tanıdığını bildirdi. O, bəyanatında bildirirdi ki, bütün Azərbaycan koalisyon hökuməti yeganə qanuni hakimiyyətdir və müttəfiq ölkələrin hərbi qüvvələrinin komandanlığı bu hökumətə hərtərəfli yardım göstərəcəkdir.

Artıq Azərbaycan türklərinin mentaliteti, bəşəri dəyərləri ilə sürətli mənəvi inkişafı onun müstəqilliyə layiq olduğunu göstərirdi və dünya bunu etiraf etməyə başlamışdı. Odur ki, 1918-ci ilin sonlarından ingilis hökuməti Azərbaycanın dövlət müstəqilliyini müdafiə etməyə qərar verdi. Elə həmin iclasda ingilis hökuməti məhz mentalitetlərinə görə erməniləri Fransaya güzəştə getdi. Ermənilər haqqında deyilirdi: "Ermənistan Fransaya verilməlidir, ona görə ki, Fransadan başqa heç kim bu qeyri-adi, ürəyə yatmayan adamlarla hər hansı formada əlaqədə olmaq istəmir" [327, 157].

Gəlişi zamanı Azərbaycana gələcək müstəmləkəsi kimi baxan, ənənəvi imperiya siyasətini davam etdirərək Azərbaycan sözünü dilinə gətirməyən müttəfiq qoşunların komandanlığının rəhbərliyi Azərbaycan türklərinin mütəşəkkilliyi, milli ləyaqət və qürur ifadə edən rəftar və davranış normaları, milli ideyadan dönməzliyi, ziyalı və siyasi xadimlərinin səyi nəticəsində Azərbaycanın dövlət müstəqilliyini de-fakto tanımaqda idilər.

Azərbaycan hökuməti ölkənin təbii sərvətlərindən, xüsusilə neftindən ingilislərə güzəştlər etməklə bəzi daxili və xarici siyasi məqsədlərini həyata keçirirdilər. Bakıda dövlət çevrilişi təşkil etmək istəyən Bıçeroxovu və sonra onu əvəz etmiş, siyasətini davam etdirmiş Prejevalskinini ingilis komandanlığı vasitəsi ilə tərkisilah edib, Azərbaycandan qovdu [338, 95]. Azərbaycan hökuməti ingilislərlə iş birliyinə məcbur olsalar da, maksimum ehtiyatlı hərəkət edirdilər.

İngilis dövlət siyasəti, "ingilislərin nə dostu var, nə də düşməni, mənafeyi var" deyən ingilis xalqının siyasəti idi. İngilislərin Bakıda qaldığı qısa müddətdə onların mentaliteti haqqında Azərbaycan cəmiyyətində təsəvvür yarandı. Verdiyi sözün məsuliyyətini dərk etməyən, tez-tez fikrini dəyişən adamlara "ingilis bayrağı" adı verdilər. Azərbaycanı beynəlxalq aləmdə yeganə dəstəkləyən, dünya siyasətində mənafeyindən başqa heç nəyə sadiq olmayan, mənafeyi tələb edərsə, hər saniyə siyasətini dəyişən ingilislər idi. Bu fakt Azərbaycan üçün beynəlxalq vəziyyətin nə dərəcədə təhlükəli olduğunu göstərirdi.

I Dünya müharibəsinin yekununa həsr olunacaq beynəlxalq münasibətləri tənzimləyəcək Paris sülh konfransının təşkilatçıları Fransa, İngiltərə, ABŞ, İtaliya və Yaponiya idi. Bütün təşkilatı məsələlər, hansı dövlətlərin konfransa çağırılması məsələsini də onlar həll edirdi. Göründüyü kimi qaliblərin iradəsi qanun idi. Onların müəyyən etdiyi reqlamentə görə, neytral və yeni yaranmada olan dövlətlər 4-cü, sonuncu kateqoriya dövlətlər idi. Dördüncü kateqoriyaya aid olan dövlətlər 1-ci kateqoriyaya daxil olan 5 dövlətdən birinin zəmanəti ilə konfransa dəvət oluna bilərdi.

Paris sülh konfransı I Dünya müharibəsinin daha da varlandırıb, iqtisadi cəhətdən dünyada ən qüvvətli dövlətə çevrilmiş ABŞ prezidenti V.Vilsonun 1919-cu ilin yanvarın 8-də bəyan etdiyi "14 maddə" əsasında yeni "demokratik" prinsipləri rəhbər tuturdu. Guya bu prinsiplər içərisində "xalqların öz müqəddəratını təyin etmək hüququnun tanınması" əsasında müharibədən sonra dünyanın "demokratik" prinsiplər əsasında qurulması haqqında müddəalar vardır. V.Vilsonun beynəlxalq münasibətlərin tənzimlənməsi haqqında müddəalarındakı yeniliklər qaliblərin, güclülərin siyasi manevrlərini genişləndirməkdən başqa bir şey deyildir. V.Vilson prinsiplərinin kimə tətbiq olunması güclülərin, hakimlərin səlahiyyətində idi. Bu prinsiplərə birinci məhəl qoymayan elə V.Vilsonun özü və ABŞ dövləti idi. Beynəlxalq münasibətlər bizim eradan əvvəl 7-ci əsrdə





yaşamış yunan şairi Hesodun "Bülbül və çalağan" təmsilində yazdığı kimi davam etmədə idi. Təmsildə deyilirdi ki, bir gün güclü bir çalağan parlaq gözlü bir bülbülü caynağına alıb uca buludlara qaldırmışdı. Bədəninə caynaq batan yazıq bülbül civildədi. Çalağansa amiranə bir səslə ona dedi: "Civildəmə, sən, ey bədbəxt! Mən ki, səndən çox güclüyəm! Sən hey oxu... Kefim hara desə, səni apararam; Həm yeyərəm, həm də əgər arzu etsəm, buraxaram" [344, 12-54; 345, 58].

Azərbaycan hökumətinin nümayəndə heyəti Paris sülh konfransında iştirak etmək üçün İngiltərədən zəmanət almışdı. 1918-ci il dekabr ayının 28-də F.X.Xoyskinin rəhbərlik etdiyi 3-cü hökumət kabinəsinin təşkili başa çatan kimi elə həmin gün Paris sülh konfransında iştirak edəcək nümayəndə heyətinin tərkibini müəyyən etdilər. Nümayəndə heyətinin sədri Ə.M.Topçubaşov, üzvləri M.Hacinski, Ə.Ağaoğlu, Ə.Şeyxülislamov, C. Hacıbəyli, M.Mehdıyev, M.Məhərrəmov oldular.

Vəziyyətin gərginliyi, Azərbaycan türklərinin dünya miqyasında təklənməsi Azərbaycanın bəzi siyasətçilərində ümidsizlik doğururdu. Ə.M.Topçubaşov ümidsizlik hissinin meydana çıxmasını yolverilməz hesab edərək, konfransa lazımınca hazırlaşmağın vacibliyini göstərərək yazırdı ki, yaranmış vəziyyətlə əlaqədar bizim hər birimiz daha gərgin və səmərəli işləməliyik, taleyin gətirdiyi şıltaqlıqlara və zərbələrə hazır olmalıyıq. Durub fal açmamalıyıq ki, bizi nə gözləyir, indiyə qədər nə olubsa, hər halda ondan pis olmayacaq. Yalnız lazımdır ki, qüvvələri düzgün bölək, hərə öz yerində olsun, öz gücünə inansın [327, 161].

Azərbaycan nümayəndə heyəti Ə.M.Topçubaşovla birlikdə Parisə yola düşmək üçün yanvarın 20-də İstanbula çatdı. Lakin Fransa hökuməti müxtəlif bəhanələrlə Azərbaycan nümayəndə heyətinə Parisə getmək üçün viza vermirdi. Azərbaycan nümayəndə heyəti İstanbulda gözləməyə məcbur edildi. Nümayəndə heyəti tərkibində yüksək intellektə və nüfuza, siyasi polemika və mübarizə mədəniy-

yətinə malik şəxslərə ləkə və böhtanlar yaxmaqla onların təmsilçilikdən çıxarılması istiqamətində işlər aparılırdı. Əhmədbəy Ağaoğlu və İstanbulda Azərbaycan nümayəndə heyətinin tərkibinə daxil edilmiş Əli bəy Hüseynzadə ittihad və tərəqqi Komitəsinin üzvləri ilə birlikdə həbs olundular. Ə. Hüseynzadəni azad etdirmək mümkün olsa da, Parisə getməsinə icazə vermədilər. Əhmədbəy Ağaoğlunu isə Malta adasına sürgün etdilər. Bunun ardınca soyuqqanlılığı, zəkası, dünyəvi və dini hüquqi biliyi ilə hər kəsi fəth etməyə qadir Ə.M.Topçubaşovu ləkələmək kompaniyası başlandı. Antanta rəhbərliyi ilə aparılan danışıqlardan aydın oldu ki, hətta Azərbaycan Cümhuriyyətinin nümayəndə heyətinin Paris sülh konfransında iştirakına zəmanət verən İngilis hökuməti belə Ə.M.Topçubaşovun Parisə buraxılmasına razı deyildi. Göründüyü kimi, Avropa imperializmi öz şəxsiyyəti və zəkası ilə xalqı haqqında obyektiv təsəvvür yarada biləcək, haqlarını yüksək elmi və hüquqi əsaslarla tələb etməyə qadir şəxsiyyətlərlə təmsil olunmasına belə imkan vermirdilər. T.Styatoçovski bu hadisəni müttəfiqlərin Azərbaycan nümayəndə heyətinə hörmətsizliyi kimi qiymətləndirir [327, 176].

Azərbaycan nümayəndə heyətindən isə kimsə Ə.M.Topçubaşovu əvəz etmək məsuliyyətini üstünə götürməyə cəsarət etmirdi. Azərbaycan hökumətinin başçısı F.X.Xoyskinin nümayəndə heyətinin başçısı kimi Parisə getməsi fikri yaransa da, onun da düşmənlər tərəfindən ləkələnəcəyi qorxusu meydana çıxdı. Uzun və gərgin müzakirələrdən sonra M.H.Hacinskini Paris sülh konfransında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin başçısı təyin etməyə və Ə.M.Topçubaşovun başqa vasitələrlə Parisə getməsinə qərar verildi. Yeni "demokratik" V.Vilson prinsipləri ilə işləyən, V.Vilsonun özünün də iştirak etdiyi Paris sülh konfransına Fransa hökuməti Azərbaycan parlamentinin müəyyən etdiyi nümayəndə heyətini deyil, yalnız 3 nəfərə konfransa gəlmək üçün viza verəcəyini bildirirdi. Üç ay davam edən Paris sülh konfransında ermənilər və gürcülər iştirak etdikləri halda, Azərbaycandan hələ kimsə Parisə buraxılmamışdı [327, 159-189].





Təəssüf ki, müasir Azərbaycan tarixçiləri Avropanın böyük dövlətlərinin türk-müsəlman Azərbaycan dövlətinə qarşı bu siyasətini erməni təbliğatının nəticəsi kimi şərh etmişlər. Yuxarıda oxucunun diqqətinə çatdırdığımız çoxsaylı faktlar sübut edir ki, Avropa imperialist dövlətlərin Türkiyə və Azərbaycana münasibəti erməni təbliğatının nəticəsi deyil, əksinə, Türkiyə və Azərbaycana qarşı erməni təbliğatı "mədəni-demokratik Avropa" siyasətinin nəticəsidir. Ermənilərlə Osmanlı və Azərbaycan türkləri arasında düşmənçilik münasibətini "mədəni demokratik Avropa" yaratmışdı. Azərbaycanı əsarətdə saxlamaq, ona istədiyi vaxt təsir göstərmək üçün ermənilər Avropa imperialistlərinin əlində bir vasitəyə, alətə çevrilmişdir.

İstanbulda olan Azərbaycan nümayəndə heyəti və Azərbaycan hökuməti bütün diplomatik vasitələrdən istifadə etməklə Fransaya getmək, Paris sülh konfransında iştirak etməklə Azərbaycanın dövlət müstəqilliyinin tanıdılmasına nail olmaq uğrunda mübarizəni davam etdirirdilər.

Gözlənilmədən ABŞ-ın prezidenti V.Vilsonun təklifi ilə Paris sülh konfransında Azərbaycan məsələsinin qoyulmasına bir neçə gün qalmış təcili Azərbaycan nümayəndəliyini Parisə çağırdılar. Azərbaycan parlamentinin müəyyən etdiyi nümayəndə heyətinin bütün üzvlərinə Parisə getmək üçün pasport verildi. Azərbaycan nümayəndə heyəti hələ Parisə gəlib çatmamışdı ki, may ayının 2-də ABŞ prezidenti V.Vilsonun təşəbbüsü ilə ilk dəfə Azərbaycan məsələsi ABŞ, Böyük Britanıya, Fransa və İtaliya hökumət başçılarından ibarət olan Dördlər Şurasının iclasında müzakirə edildi. Amerika prezidenti V.Vilson bildirdi ki, Azərbaycan Cümhuriyyətinin nümayəndələri Versal sülh konfransına buraxılsınlar və Ə.M.Topçubaşov Azərbaycan nümayəndə heyətinin sədri kimi tanınsın. ABŞ prezidentinin tutduğu mövqe Azərbaycan nümayəndə heyətinin vəziyyətini bir qədər yüngülləşdirdi.

Azərbaycan nümayəndə heyətinin Parisə çatması ilə onların

Azərbaycan Cümhuriyyətini tanıtmaq üçün fədakarcasına işi və mübarizəsi başladı. Birinci olaraq Azərbaycan haqqında rəsmi məlumat verəcək "Qafqaz Azərbaycan Respublikasının Paris sülh konfransına memorandumu" adlı sənədi fransız və ingilis dilində nəşr edilib konfrans nümayəndələrinə paylandı və Avropa ictimaiyyəti arasında yayıldı.

Ayrı-ayrı ölkə səyyah və nümayəndələrinin qeyri-rəsmi təəssürat məlumatları, Rus imperiyasının Azərbaycan türkləri haqqında qərəzli milli məlumatlar istisna olmaqla Paris sülh konfransındakı Azərbaycan nümayəndə heyətinin Azərbaycan haqqında yaydığı sənədlər vətən övladlarının ilk dəfə onun haqqında yaydığı obyektiv məlumat idi. Artıq bu zaman ermənilərin və Avropa müstəmləkə ideoloqlarının yaratdıqları Azərbaycandakı "vəhşi türk", "vəhşi müsəlman" obrazı mövcud idi. Azərbaycan nümayəndə heyəti öz şəxsi nümunələrində və yaydıqları məlumatlarda Azərbaycan türklərinin Avropada mövcud insan haqları və seçkili dövlət quruculuğu və idarəçiliyinə malik bir millət olmasını Avropa cəmiyyətinə inandırmağa çalışırdılar və çətinliklə də olsa, tədricən məqsədlərinə nail olurdular. Azərbaycan nümayəndə heyətinin səyi nəticəsində artıq Paris mətbuat orqanlarında Azərbaycan haqqında nəşr olunan obyektiv məlumatlar cəmiyyətdə onun haqqında olan yanlış, qərəzli fikir və münasibətləri müsbət istiqamətdə dəyişdirmədə idi.

Azərbaycan nümayəndə heyətinin Parisə çatandan sonra onun diplomatik gücünə inanan Azərbaycan hökuməti Bakıdakı ingilis general-qubernatorluğunun ləğv olunması, onun ölkənin daxili işlərinə müdaxiləsinin qarşısını almaq üçün cəsarətli addımlar atdı [327, 193].

1919-cu il may ayının 28-də Azərbaycan Cümhuriyyətinin ildönümü günü ABŞ prezidenti V.Vilson Azərbaycan nümayəndə heyətini qəbul etdi. Ə.M.Topçubaşov bunu "çox böyük hadisə" kimi qiymətləndirirdi. Təbii ki, bu, ABŞ-ın Azərbaycanda maraqları ilə bağlı idi. Lakin Azərbaycan nümayəndə heyətinin gərgin və diqqəti





çəkən fəaliyyəti birinci idi. Çünki bu yeganə hadisə deyildi. Azərbaycan nümayəndə heyəti Avropa cəmiyyətinin Azərbaycana rəyini dəyişdi və Dördlər Şurası rəhbərliyinin rəğbətini qazandığı, onları Azərbaycan həqiqətlərinə, Azərbaycan türklərinin müstəqil dövlətçiliyə layiq olduğuna inandıra bildikləri artıq duyulmada idi.

Görüş zamanı Azərbaycan nümayəndə heyətinin sədri Ə.M.Topçubaşov V.Vilsonu salamladıqdan sonra bildirdi: "Qüdrətli Amerikanın nümayəndəsi kimi Sizə müraciət edib xahiş edirik ki, cənab prezident bizim ölkəmiz, bizim xalqımız və elə bizim özümüz haqqında məlumatları bizdən eşidəsiniz. Çünki biz Avropa və Amerika mətbuatında tez-tez Azərbaycan haqqında səhv, saxtalaşdırılmış və həqiqətə uyğun olmayan məlumatların verilməsini eşitməli oluruq. Düzdür, bizi hələ yaxşı tanımırlar, biz indi birinci dəfədir ki, Avropadayıq, lakin Sizi əmin edirik ki, müstəqil yaşamaq üçün bizdə hər şey vardır. Biz ümid edirik ki, konfrans bizi dinləyəcək və biz Millətlər Cəmiyyətinə buraxılacağıq.

Biz bildirirk ki, nə Kolçakın, nə Denikinin, nə də köhnə Rusiya imperiyasının hüdudlarında hakimiyyəti bərpa etmək niyyətində olan qeyri birisini tanımayacağıq. Biz Azərbaycan üçün yalnız öz parlamentimizi və öz hökumətimizi tanıyırıq və tanıyacağıq" [327, 195].

Ə.M.Topçubaşov tək Azərbaycanın deyil, Qafqaz xalqlarının müstəqilliyinin qorunub saxlanması vacibliyi və onun yolları haqqında ABŞ prezidentinə ətraflı məlumat verdikdən sonra Qafqaz Azərbaycan Respublikasının ərazisini, təbii sərvətlərini, iqtisadi imkanlarını, əhalisini, mentalitetini və tələblərini V.Vilsona təqdim etdi [307, 114-155; 446]. Görüş zamanı V.Vilson Azərbaycanın müstəqilliyinin tanınması məsələsini açıq saxlayaraq bildirdi ki, "Azərbaycan məsələsi rus məsələsindən əvvəl həll edilə bilməz" [327, 197].

Azərbaycanın tanınması məsələsi açıq qalsa belə, V.Vilsonun Azərbaycan nümayəndələrini qəbul etməsi onun siyasi mövqeyinin

yüksəlməsi üçün mühüm əhəmiyyətə malik idi. Təsadüfi deyil ki, Ə. M. Topçubaşov bu görüşü "böyük hadisə hesab" edirdi [327, 195].

Danışıq zamanı vəziyyəti yerində öyrənmək üçün Qafqaza xüsusi Amerika Komissiyası göndərmək haqqında razılıq əldə edildi.

Paris sülh konfransında "erməni nümayəndələri Vilsonu, Lloyd Corcu və Klemensonu izləyərək hər dəqiqə onlara Ermənistan qarşısında borclarını xatırladırdılar". Erməni nümayəndələrinin öz ərazilərini təkcə Türkiyənin hesabına deyil, Azərbaycanın və Gürcüstanın hesabına genişləndirmək niyyətləri hər iki nümayəndəliyin birgə səyi ilə dəf edilirdi.

1919-cu ilin yayında Azərbaycan ərazisində qanlı cinayətlər törətmiş, Azərbaycan hökumətinin diplomatik səyi nəticəsində ingilis komandanlığının təkidi ilə Azərbaycan ərazisindən çıxarılmış O. Andranik Fransaya gəldi və iyun ayının 15-də Fransa prezidenti Raymon Puankere tərəfindən qəbul edildi. Bu zaman Avropa və Amerikada erməni və ermənilərə xidmət göstərən "demokratik Avropanın" mətbuat orqanları yüzlərlə türk-müsəlman kəndini viranəyə çevirmiş, qadına, uşağa, qocaya belə mərhəmət göstərməyən qaniçən cinayətkar Andraniki "Erməni Haribaldisi" kimi cəmiyyətə və siyasi dairələrə təqdim edirdi. Fransa prezidenti ilə görüşündə Andronik müttəfiqlərin Qarabağ məsələsindəki mövqeyindən narazı olduğunu bildirdi və qeyd etdi ki, "ermənilər müttəfiqlərə arxayındırlar" [327, 231-232]. Andranik Fransa prezidenti R.Puankerayə bildirdi ki, erməni xalqı I Dünya müharibəsi dövründə həm Türkiyəyə, həm də Almaniyaya qarşı Antanta ilə çiyin-çiyinə vuruşmuşdur. Qafqazdakı rus ordusunun tərkibində 180 min, Avropada isə 15 min erməni könüllüsü müttəfiqlərin "müqəddəs işi" uğrunda mübarizə aparmışdır. Andronik deyirdi: "Biz bunu ona görə etmişik ki, Fransanın və onun müttəfiqlərinin haqq işini bərqərar etmək uğrunda böyük mübarizəsinə öz töhfəmizi verək". ABŞ-a göndərdiyi teleqramda isə o, Amerikanın "erməni məsələsinin" həllinə müdaxilə etmə-





sini tələb edərək yazırdı: "Biz çox qədim xalqıq. Azadlıq işi naminə millətin sayı nisbətində ermənilər vuruşan ölkələrin hər birindən çox itkilər vermişdir... Ümid edirik ki, müttəfiqlərə görə verdiyimiz itkilər hədər getməyəcəkdir" [327, 232].

Gətirdiyimiz bu və digər faktlar göstərir ki, mədəni-demokratik Avropa və Amerika dövlət rəhbərlərinin "ermənipərəstliyi" haqqında Azərbaycan tarixşünaslığındakı fikirlər qeyri-elmi olub, məsələnin mahiyyətini deyil, görüntüləri əks etdirir. Çoxsaylı tarixi faktlar sübut edir ki, ermənilərin türk və müsəlmanlara qarşı düşmən vəziyyətə gətirilməsi mədəni-demokratik Avropa və Amerika diplomatiyasının onlara dini, ideoloji, siyasi-iqtisadi təsirinin nəticəsidir. Mədəni-demokratik Avropa və Amerika XVIII əsrin sonu - XIX əsrin əvvəllərindən erməniləri Şərq siyasətində birmənalı alətə çevirə bilmişlər. Bu mənada erməni sözü etnosdan əlavə Avropa və Amerikanın Şərq siyasətinin aləti mənasını da ifadə edir.

Bütün Bunlar Azərbaycan nümayəndə heyətinin onlar üçün heç bir əlverişli şəraitin olmadığı, çox ağır siyasi-ideoloji mühitdə işləməyə məcbur olduğunu göstərir. Bu şəraitdə Azərbaycan nümayəndə heyətinin uğurları beynəlxalq münasibətlərin ən çətin məqamında mümkün olmayan kimi görünənləri mümkün olana çevirmək nümunəsi kimi qiymətləndirilə bilər.

Azərbaycan nümayəndə heyəti Parisə gələnə qədər Azərbaycan haqqında Qərbi Avropa və Amerika ictimaiyyətinin qorxudulduğu "vəhşi türk" obrazı var idi. Azərbaycan nümayəndə heyətinin Parisə gəlişindən sonra onların gərgin əməyi sayəsində Fransa, İngiltərə, ABŞ və başqa Avropa ölkələrinin ictimaiyyətində Azərbaycan və onun xalqı haqqında fikirlər dəyişməyə başladı. Azərbaycana rəğbət göstərən, onun haqqında müsbət materiallar nəşr edən mətbuat orqanları, Azərbaycanın haqqını müdafiə edən siyasi xadimlər və nüfuzlu ictimaiyyət nümayəndələri meydana çıxdı. Hətta mentalitetinə görə Azərbaycan türklərinin ermənilərdən üstün, keyfiyyətli millət olması haqqında mətbuat materialları nəşr olundu. Bu fikirlər hətta

siyasi xadimlərin dilindən eşidildi [327, 215-310]. Bütün bunlar Azərbaycan türklərinin dövlət müstəqilliyini tanıtmaq üçün Paris sülh konfransına getmiş Azərbaycan nümayəndə heyətinin diplomatik fəaliyyətinin nəticəsi idi. Hər bir xalqın özünə layiq lider yetişdirməsi aforizmi çoxdan Avropa ictimai fikrində mövcud idi. Odur ki, Ə.M.Topçubaşov və nümayəndə heyətinin digər üzvlərinin şəxsində Avropa sivil Azərbaycan türkünü etiraf edirdi. Azərbaycan nümayəndə heyəti dünyanın böyük dövlətlərinin rəhbərlərinə intellektual diplomatik fəaliyyətləri və davranış stereotipləri ilə Azərbaycan türk millətinin müstəqil dövlətçiliyə layiq olduğuna addımbaaddım inandırırdılar. Lakin ABŞ, İngiltərə və başqa Avropa dövlətlərinin etibarsız davranışı nəticəsində Azərbaycan Cümhuriyyəti rəhbərliyini və Parisdəki nümayəndə heyətini gözlənilməz təhlükə ilə üzləşəcəkləri hissi daim təqib edirdi. Azərbaycan milli liderlərinin gözlədikləri hadisələr nəhayət ki, baş verdi. ABŞ nümayəndə heyətinin Qafqaza gəlişi ilə Azərbaycana qarşı V.Vilson prinsiplərinə uyğun olmayan siyasi gərginliklər yaratdı. Azərbaycan Cümhuriyyəti İngiltərədən onun müstəqilliyi mandatını qəbul etməsini xahiş etmək istədiyi bir anda İngiltərə hökuməti heç bir xəbərdarlıq etmədən 1919-cu ilin avqustunda qoşunlarını Azərbaycandan çıxardı. Elə bununla da Azərbaycana qarşı yeni güclü əks-təbliğat kompaniyası başlandı. Daxildə və xaricdə şayiə yaymağa başladılar ki, Azərbaycan türkləri xüsusi sabitləşmiş milli-mənəvi dəyərlərə, milli şüur zəminində özünü daxilən tənzimləyən, idarə edən, Azərbaycana sahiblik hissi göstərməyə qadir mənəvi, psixoloji, iqtisadi-siyasi gücə, ölkənin və millətin şərəf və ləyaqətinin qorunması duyğusuna malik olmayan idarə olunan kütlədir. Onları ingilislər idarə etmişlər. İngilislərin Azərbaycandan çıxması ilə rusların və ermənilərin dağıdıcı təsirini tənzimləyə bilməyərək asanlıqla dağılacaqlar.

Həmin günlərdə Azərbaycan türklərinin mənəvi-siyasi durumu, daxili birlik gücü, vətənlə bağlı hisslərinin səviyyəsi haqqında ingilis hərbi jurnalisti Skotlend-Liddelin bir məqaləsi obyektiv məlumat verir. O yazır: "Transqafqaz şayiələr ocağıdır. Burada şayiələr külək təpələr arasında yayılan kimi yayılır. Bir çox şayiələr Moskvada quraşdırılır və dövrəyə buraxılır. Bakıda ingilis ordusuna ehtiyac yoxdur. Azərbaycan öz-özünə qayğı göstərə bilər. Mən bura iki gün əvvəl gəlmişəm və açığını deyim ki, bütün gördüklərim məndə dərin təəssürat yaradıb. Mənim şəhərdə olmadığım dörd həftə ərzində burada çox təəccüblü dəyişikliklər olub. Mən buraya gəldim ki, hamının mənə dediyi qarışıqlığı görüm, lakin onu tapa bilmədim. Tam qayda-qanun var. Mənə dedilər ki, mən ordu əvəzinə pozğunlaşmış kütlə görəcəyəm, lakin mən yaxşı, nümunəvi, güclü, odlu-alovlu gənclər gördüm. Doğrudan da mən indi Bakıda elə qayda-qanun gördüm ki, müharibə başlayan vaxtdan bu günə qədər Bakıda olmamışdı... Qayda-qanun ancaq Bakıda hökm sürmür, son dəyişikliklər bütün Respublikada vəziyyəti aydınlaşdırmışdır. Qarabağ şuluqluğunu sülh əvəz etmişdir. Ermənilər və tatarlar (türklər - X.X.) sazişə gəlmişlər. Lənkəranda bolşeviklər Azərbaycan ordusu tərəfindən məğlubiyyətə uğradıldılar. Onlar bütün silah və sursatlarını Azərbaycan hökumətinə təhvil verdilər, adamlar isə xahiş etdilər ki, onları Azərbaycan hökumətinin tabeliyinə götürsünlər... Bütün bunlar şübhəsiz sübut edir ki, Azərbaycan qarmaqarışıqlıqdan qorxmur və bolşeviklərdən çəkinmir. Azərbaycan dövləti indi Transqafqazın bütün qalan xalqları üçün həqiqi nümunəyə çevrilmişdir [327, 259-360; 341, 59-60]. Azərbaycan türklərinin bu mənəvi gücü növbəti olaraq ABŞ imperializminin onun vətəninin bütövlüyünə xələl gətirmək cəhdini dəf etməyə imkan verdi.

Bəşər tarixində zaman və məkan daxilində diktatura, demokratiya, beynəlmiləlçi və s. adlanmasından asılı olmayaraq mahiyyətini dəyişməyən yeganə varlıq imperiyadır. Kiçik xalqların, etnik qrupların hamısı olduğuna hamını inandırmağa çalışar. Təsiri çatdığı ölkədə birinci milli ədavət cücərər, etnik qruplar və gəlmə xalqlar yerliyə, yerli gəlməyə çevrilər, ölkəni milli ədavət bürüyər, imperiya isə öz-özünə hakimə, "ağsaqqal"a çevrilər.

Qafqazda maraqlarını təmin etmək üçün ABŞ öz nümayəndəsi polkovnik V.Haskeli Paris sülh konfransı vasitəsi ilə Dördlər Şurasının Ermənistanda ali komissarı təyin etdirdi. V.Haskeli Amerika yardım Komitəsi maliyyələşdirdiyi üçün o, eyni zamanda "Yaxın Şərqə Amerika yardımı Komitəsinin" sədri təyin edildi. Həmin Komitənin Bakıda və Şuşada bölmələri açılmalı idi [327, 261].

1919-cu ilin yayında V.Haskel elan etdi ki, Ermənistanda və harada yaşamalarından (Gürcüstan, Azərbaycan, Türkiyə) asılı olmayaraq ona erməniləri qorumaq səlahiyyəti verilmişdir. V.Haskelin himayəçiliyi ermənilərin qonşu xalqlara ərazi iddialarını yenidən coşdurdu. Birinci hədəf isə Azərbaycan seçildi. ABŞ-ın ermənilərin ərazi iddialarını açıq müdafiə etməsi erməniləri daha da quduzlaşdırdı. Ermənilər indi təkcə Qarabağ və Zəngəzur məsələsini deyil, Naxçıvan və Şərur-Dərələyəz iddialarını reallaşdırmağa təşəbbüs göstərdilər. Dünya demokratiyasının lideri, Paris sülh konfransında insan haqlarının təminatçısı missiyasını üzərinə götürmüş ABŞ nümayəndəsi V. Haskel Azərbaycan hökumətini hədələyərək bildirdi ki, Azərbaycan hökuməti bu qəzalarla bağlı ermənilərin iddialarını qəbul etməsə, onlar "şəxsi məsuliyyət daşıyacaqlar" [327, 262]. Avqustun 28-də Bakıya gələn V.Haskel Azərbaycan Cümhuriyyəti rəhbərliyi ilə ərazi məsələləri ilə bağlı danışıqlar zamanı Qarabağ və Zəngəzuru Azərbaycanın ayrılmaz hissəsi hesab etdiyini bildirdi. Bununla bərabər V.Haskel təklif etdi ki, İrəvan quberniyasının cənub hissəsində - Naxçıvan və Şərur-Dərələyəzdə neytral zona yaradılmalı və bu zonada ABŞ-ın idarə etdiyi general-qubernatorluq formalaşdırılmalıdır. Bu planda ABŞ və ermənilərin strateji məqsədləri nəzərdə tutulurdu. Amerikanlar nə qədər ki, Qafqaza istədikləri qədər ordu çıxarda bilmirdilər, Naxçıvan qubernatorluğu yaradıb, burada möhkəmlənmək istəyirdilər. Bu strateji nöqtədə möhkəmlənməklə o, Azərbaycan, Ermənistan, İran, Türkiyə, eləcə də çox asanlıqla bütün yaxın və Orta Şərqə nüfuz etməyi planlaşdırırdı [327, 263].





Ermənilər hələ 1918-ci ildə Naxçıvan, Şərur-Dərələyəz ərazilərini etnik təmizləmə yolu ilə ələ keçirmək istəyirdilər. Bu üsulla mümkün olmadıqda İngiltərə hökumətinin himayəçiliyi ilə bu əraziləri ələ keçirməyə təşəbbüs göstərdilər. Hər iki təşəbbüs yerli əhalinin və Azərbaycan hökumətinin qəti səyi nəticəsində dəf olunmuşdu. Növbəti dəfə ermənilər Amerika layihələri üzrə bu əraziləri neytral zonaya çevirib, tədricən ələ keçirməyi planlaşdırırdılar. Ə.M.Topçubaşov sülh konfransının sədrinə xüsusi etiraz notası təqdim edərək, Azərbaycan Respublikasının sərhədlərinə qeyri-qanuni, zorakı müdaxilələrə son qoyulmasını tələb etdi. Azərbaycan hökumətinin qəti, Naxçıvan əhalisinin ciddi, cəsarətli, mütəşəkkil mövqeyi mələk donuna girmiş ABŞ imperializminin planlarını puça çıxartdı. ABŞ nümayəndəsi Naxçıvanda sülh konfransının nümayəndəsi kimi fəaliyyət göstərməyə məcbur oldu [327, 260-272]. Azərbaycan türkləri dünya gücləri qarşısında mənəvi, intellektual, siyasi-hərbi güc nümayiş etdirməklə ardıcıl olaraq milli iradəsini dünyaya qəbul və müstəqil yaşamağa layiq olduğunu dünyaya etiraf etdirirdi. Bu cəhətdən V.Haskelin etirafı daha maraqlıdır. O bildirmişdi ki, Azərbaycan türkləri "çox sülhsevər xalqdır və ümumiyyətlə, erməni xalqının düşməni deyil, əgər siyasətçilər olmasa, ermənilər də sülhlə yaşayarlar" [327, 273]. Doğru etirafdır, yaxşı olardı ki, ABŞ nümayəndəsi bu həqiqətdən öz paylarını götürəydi, söylədiyi bu fikrin və insan haqları barədə verdiyi bəyanatların ardınca, öz mənafeləri naminə xalqları bir-birinin qanını tökməyə təhrik etməyəydi.

1919-cu ilin başlanğıcından həmin ilin payızına kimi mədəni-demokratik Avropa və ABŞ Azərbaycan türklərini, onların Paris sülh konfransındakı nümayəndə heyətini linc məhkəməsinin əzablarına məruz qoymuşdu. Lakin dəyişən siyasi vəziyyət onları Azərbaycan nümayəndə heyətini dinləməyə, tanımağa məcbur etdi. Rus ağqvardiyaçı generallar Yudeniç və Kolçakın məğlubiyyəti, Denikinin məğlubiyyətinin görüntüləri, Rusiyada bolşevizmin qələbəsi demokratiya və insan haqları şüarı ilə dünyanı yenidən bölüşdürən,

hakim millətçilik, avropamərkəzçılik siyasəti yeridən Avropa dövlətlərini vahiməyə saldı. Ayağı dəyən yerdə mədəniyyət və mənəviyyət xarabalığı yaradan bolşevizmin cüzi düşünmək səviyyəsi olan insanı vahiməyə salması təbii bir hadisə idi. Avropa siyasətçilərinin həyəcanı isə təhlükənin səviyyəsini aydın ifadə edirdi. Belə bir ağır siyasi vəziyyətdə Azərbaycan nümayəndə heyətinin aydın və qətiyyətli mövqeyi Avropa siyasi dairələrində və sülh konfransı rəhbərliyində ona rəğbəti daha da artırdı. Azərbaycan nümayəndəsi Rus imperiyası əsarətindən çıxıb istiqlalını elan etmiş ölkə nümayəndələrinin Antanta Ali Şurasına kollektiv notasını təşkil etdi. Azərbaycan nümayəndə heyəti tərəfindən hazırlanan nota Azərbaycan, Gürcüstan, Estoniya, Latviya, Litva, Ukrayna, Kuban və Şimali Qafqaz Respublikaları nümayəndələri tərəfindən imzalandı. Yalnız Ermənistan və Belarusiya nümayəndəliyi notanı imzalamaqdan imtina etdi. Notada istiqlalını elan etmiş adları çəkilən Respublikaların beynəlxalq hüququn subyekti kimi tanınması və bolşevik təhlükəsindən xilas edilməsi, bu məqsədlə onlara beynəlxalq yardımlar edilməsi Avropanın və ümumiyyətlə dünyanın bolşevik təhlükəsindən xilas edilməsi zəruriliyi ifadə olunaraq deyilir: "Bizim dövlətimizin məsələlərinin beynəlxalq həlli bundan sonra yubadılmamalıdır və rus məsələsindən asılı olmayaraq həll edilməlidir. Bunu sülhün, humanizmin və tərəqqinin mənafeyi tələb edir. Bizim dövlətlərimizin beynəlxalq cəhətdən tanınmasının zəruriliyi göz qabağındadır" [327, 294-295]. Siyasi həqiqətləri birmənalı ifadə edən bu notanın 8 oktyabr 1919-cu ildə sülh konfransına təqdim olunması günündən konfrans Azərbaycan Cümhuriyyətinin və digər Respublikaların tanınması istiqamətində fəaliyyət göstərdilər.

Artıq Azərbaycan nümayəndə heyəti, Azərbaycanda olmuş həqiqəti ifadə etmək mədəniyyətinə malik ingilis, Amerikan, fransız jurnalist və hökumət nümayəndələrinin məlumatları nəticəsində Avropa siyasətçilərinin və ermənilərin Azərbaycan haqqında yaratdığı "vəhşi türk" obrazı dağıdılmışdı. Fransız professoru Q.Borşe ingilis,





fransız və Amerikan mətbuatında Azərbaycan türklərinin müstəqil dövlətçiliyə layiq bir millət olması haqqında çıxışlar edirdi. Onun Azərbaycanı tanıtdırmaq baxımından "Jurnal de Jenev" jurnalında çap etdirdiyi "Öz müqəddəratını təyin etmə hüququ və Azərbaycan Respublikası" adlı məqaləsi xüsusi əhəmiyyət kəsb edirdi. O, V. Vilsonun xalqların öz müqəddəratını təyin etməsi hüququ haqqındakı müddəaların onun özünün iştirakçısı olduğu Paris sülh konfransı tərəfindən pozulduğunu tənqid edərək yazırdı: "Biz görürük ki, Azərbaycan xalqların öz müqəddəratını təyin etməsi üçün zəruri olan bütün göstəricilərə malikdir. Mən bunu bütün Qafqazı gəzmiş və öyrənmiş kənar müşahidəçi kimi, bir fransız kimi deyirəm. Mən indiyə qədər təyini müqəddərat hüququnun tanınmasına etiraz edilən bir millətin müdafiəsi üçün səsimi qaldırıram və onların tələbinin ədalətli olduğuna dərindən inanıram" [327, 303-304]. Q.Borşe Avropada yayılmış Polşanın Rus imperiyasından ən çox ziyan çəkən ölkə olması haqqında fikirləri təkzib edərək yazırdı ki, "Polşa heç vaxt rus zülmündən Azərbaycan qədər ziyan çəkməmişdir". Q.Borşe saxta məlumatlar əsasında "ermənipərəstlik azarına" tutulmuş bir cəmiyyətdə ingilis və fransız dillərində çoxtirajlı jurnal vasitəsilə Avropa ictimaiyyətinə müraciət edərək yazırdı: " Protestant etiqadçısı kimi bunu deməyi özümə borc bilirəm ki, azərbaycanlıların mənəvi-etnik keyfiyyətlərinə bələd olan xarici tacirlər onlara daha çox etibar edirlər, nəinki ermənilərə". O, sözünə davam edərək yazırdı: "Azərbaycan artıq sübut etmişdir ki, o, müstəqil olmaq istəyir və öz müstəqilliyini qorumaq və ondan istifadə etmək bacarığına malikdir. Ona görə də Azərbaycan müstəqil Demokratik Respublika kimi sülh konfransı tərəfindən tanınmalıdır" [327, 304-305].

İngiltərədə Azərbaycan haqqında yaradılmış "vəhşi türk" obrazını dağıdıb ingilis siyasi dairələrini Azərbaycanı olduğu kimi qiymətləndirməyə sövq edən birinci şəxs jurnalist Skotlend Liddel idi. O, məqalələrində ingilis ictimaiyyətinə bildirirdi ki, Azərbaycan

haqqında onlarda formalaşdırılan təsəvvürlər düz deyildir. O, ingilis ictimaiyyətinə bildirirdi ki, Azərbaycan Transqafqazda müstəqil yaşamağa qadir birinci Respublikadır. Ermənilərin İngiltərədə və digər ölkələrdə yaydığı Qarabağ hay-küyü ilə bağlı Skotlend Liddel yazırdı: "Öz coğrafi vəziyyətinə görə Qarabağ həqiqətən Azərbaycana məxsus olmalıdır". Skotlend Liddel Avropa ictimaiyyətinə Azərbaycan türklərinin və ermənilərin mentaliteti haqqında məlumat verərək yazırdı: "Nə Rusiyada, nə də Qafqazda elə bir adam tapa bilməzsən ki, ermənilər haqqında hansısa bir yaxşı söz desin. Rusların, tatarların (türklərin - X.X.) və gürcülərin onlardan zəhləsi gedir, onları görməyə gözləri yoxdur. Doğrudur, ya yox, bunu mən demirəm, lakin fakt göz qabağındadır - ermənilər nifrət oyandıran irqdir. Bununla belə, onların xaricdə təbliğatı elədir ki, Avropa eləcə də bütün dünya onların tərəfindədir". Skotlend Liddel sözünə davam edərək yazır ki, mentalitetinə və digər mənəvi dəyərlərinə görə "Tatarlar (türklər - X.X.) ermənilərdən çox üstündür" (327, 309).

Paris sülh konfransında Azərbaycan Cümhuriyyətinin dövlət müstəqilliyinin tanınması məqsədilə Azərbaycan nümayəndə heyətinin Sülh Şurasına təqdim etdiyi "Qafqaz Azərbaycan Respublikası" adlı memorandumda təqdim olunan Memorandumun ilk iki fəsli Azərbaycan əhalisinin mənşəyi, tarixi və mənəviyyatı haqqında idi. Memorandumda deyilir: "Qafqazın şimali şərqində, daha doğrusu, Zaqafqaziyada, Xəzərin sahillərinə kimi uzanmış bir ərazidə ən qədim zamanlardan bir hissəsi türk, bir hissəsi tatar bir xalq yaşayır... Qafqazın bu ərazisindəki yerli əhalini yaşadığı ərazinin adı ilə "azərbaycanlı türkləri" adlandırıblar... Azərbaycanda, onun İran hissəsində, eyni ilə Qafqazda, daha doğrusu Zaqafqaziyada müsəlman əhali türklərdən ibarətdir" [307, 114, 117; 346, 21]. Rus imperiyası Azərbaycanı işğal etdikdən sonra "ərazini parçalayıb yaxın keçmişdəki milli və siyasi azadlığın bütün izlərini silir (ölkənin tarix boyu yaranmış etnoqrafiyasına, dilinə və ədəbiyyatına fikir vermədən), qəsb olunmuş xanlıqlarda yaşayan əhalinin





adını belə dəyişdirməkdən çəkinmir, onlara Qafqaz tatarları, Qafqaz müsəlmanları, yaxud sadəcə olaraq müsəlmanlar adı verirdi". Lakin bu xalqa "türk mənşəli bir xalq olduğunu" heç cür unutdura bilmirdi [307, 116-117]. Paris sülh konfransına 1918-ci ilin noyabrında Ə. M. Topçubaşovun imzası ilə təqdim olunan memorandum və onun sonradan təkmilləşdirilmiş variantı olan "Qafqaz Azərbaycan Respublikası" adlı Azərbaycanın dövlət müstəqilliyinin təməl sənədi kimi müzakirə olunmuş memorandumda Azərbaycanın yerli əhalisinin türklər olduğu göstərilir [307; 346]. Memorandumda onların bir tipik xarakter cəhətindən bəhs olunaraq göstərilir ki, Azərbaycan türklərinə məxsus tipik cəhətlərdən biri də təvazökarlıqdır. Bu cəhətə görə onlar reklamçılığa fikir vermirlər. Azərbaycanlılar özlərini nümayiş etdirməyi, "mənəm-mənəm" qışqırmağı sevmirlər və buna adət etməmişlər. Onlar öz dərdlərini, bəzən isə ağır bədbəxtlikləri iniltisiz çəkir, mətbuatda və el içində şikayətlənmir, güclülərə müraciət etmir, dövlətlərin və xalqların ümumi qayğısına ehtiyacı olduğunu büruzə vermirdi.

Əslində bu, bir nöqsan da sayıla bilər və bizim xalqımıza çox vaxt ziyan vermiş, müsbət milli xüsusiyyətlərini büruzə verməsinə mane olmuşdur. Belə bir şərait isə Avropa və Amerika mətbuatında Azərbaycan türkləri haqqında yalançı məlumatlar yayılmasına səbəb olmuşdur [307, 150-151].

Paris sülh konfransı Ali Şurasının Azərbaycanın təbii-coğrafi şəraiti, iqtisadi-mənəvi gücü, tarixi, istiqlal mübarizəsi ilə tanışlığı, Azərbaycan Cümhuriyyətinin təşkili, bir ilyarım müddətə həyata keçirdiyi dövlət quruculuğu, iqtisadi-siyasi, sosial-mənəvi, hərbi quruculuq və diplomatik fəaliyyəti, dünya xalqları, xüsusilə də Avropa xalqları ilə çoxsahəli əlaqələri Azərbaycan türkləri haqqında obyektiv və subyektiv səbəblərdən yaranmış subyektiv təsəvvürlər və münasibətləri aradan qaldırdı. 10 yanvar 1920-ci ildə İngiltərə hökumətinin təşəbbüsü ilə Paris sülh konfransının Ali Şurası Azərbaycan türklərinin müstəqil dövlətçilik iradəsinə malik millət olması

məsələsini müzakirəyə çıxardı. Müzakirələr zamanı İngiltərənin xarici işlər naziri Kerzon bildirdi ki, Mudros barışığından sonra Britaniya qoşunlarının Qafqazda olması digər müttəfiqlərlə müqayisədə ingilislərə Azərbaycan Respublikasını daha yaxşı tanımağa imkan vermişdir. Odur ki, Azərbaycan türklərinin müstəqilliyinin tanınmasını təklif edir. Paris sülh konfransının Ali Şurası 11 yanvar 1920-ci ildə Azərbaycan Cümhuriyyətini beynəlxalq münasibətlərin subyekti kimi de-fakto tanıdı.

Paris sülh konfransının Ali Şurası tərəfindən Azərbaycanın dövlət müstəqilliyinin tanınması xəbəri yanvar ayının 12-də Bakıya çatdı. Minlərlə Azərbaycan türkünün yolunda şəhid olduğu İstiqlal xəbəri bir andaca Bakıdan bütün Respublikaya yayıldı. Paris Sülh Konfransının Ali Şurası tərəfindən Azərbaycanın istiqlalının tanınması haqqında xəbər Azərbaycan hökuməti tərəfindən yanvarın 13-də rəsmi surətdə məlumat verildi. Yanvar ayının 14-ü qeyri-iş günü elan edilməklə Respublika miqyasında bayram şənliklərinin təşkilinə göstəriş verildi. Bakı şəhərində mitinq və nümayişlərin keçirilməsi, Azərbaycan ordusunun hərbi paradının və Azərbaycan parlamentinin təntənəli iclasının keçirilməsinə qərar verildi.

Yanvar ayının 14-də Azərbaycan Cümhuriyyətinin Baş naziri H.Yusifbəylinin, Azərbaycan vətəndaşlarına müraciəti elan edildi. Müraciətdə deyilirdi: "Vətəndaşlar, 1918-ci sənənin mayis ayının 28-də Azərbaycan millətinin əzmü qərarı ilə müstəqil elan edildi. Şiddətli hadisələr və fəlakətlər içərisində cümhuriyyət doğmuşdu. Bütün məmləkət qanlı iğtişaş və fəlakətə məruz qalaraq təxrib və təxriş edilməkdə idi. Kəndi müqəddəratını təyin etmiş öz müqəddəs hüququna imal etmiş millət az bir zamanda iğtişaşa xitam verib, dövlət əsasını müvəffəqiyyətlə qurdu. Gələcəkdə milli qayə və amalımızın felən icarəyə qonulması üçün müşkülata baxmayaraq, Azərbaycan öz hissəsinə düşən ağır imtahanlardan şərəflə çıxmağa müvəffəq oldu. Müstəqil həyata və kəndisini idarəyə müqtədir olduğunu göstərən millət kəndi iradəsi ilə hürr və demokratik yeni Azərbaycan Cümhuriyyətinin təsis və davamına təntənəli surətdə müvəffəq oldu... Bu gündən etibarən ruhən və mənən tərəqqi edərək millətin nüvviyi-mənəviyyəsi gün-gündən nəşvü nüma edəcəyinə şübhə yoxdur. Yenidən nə növ manеə və xatirələr baş versə də, hürr və müstəqil məmləkətin səadətini təmin etmək yolunda bütün vətəndaşların yekvücud olaraq müavintət və müzahırətdə bulunacaqlarına hökumət iman edıyor.

Yaşasın müstəqil Azərbaycan xalqı!".

Azərbaycan parlamentinin iclasındakı təbrik nitqində xarici işlər naziri F.X.Xoyski dedi: "1918-ci il may ayının 28-də Azərbaycan xalqı öz istiqlaliyyətini elan etdi. Lakin bunu elan etmək hələ az idi. Bütün dünyaya sübut eləmək lazım idi ki, biz müstəqil həyata layiqik. Və ötən il yarımda Azərbaycan xalqı Avropada sübut etdi ki, o, müstəqil yaşaya bilər, müstəqil idarə edə bilər. Azərbaycan xalqının həyat qabiliyyətinə inanan Avropa bizim müstəqilliyimizi tanımağı lazım bildi".

Parlamentin iclasına sədrlik edən Həsən bəy Ağayev çıxışında dedi ki, "Bu bayram tək bizim bayramımız deyil, bütün türk xalqlarının bayramıdır. Sübut etmək lazım idi ki, biz müstəqil həyata layiqik. Avropa bizim dövlətimizdə olan nümayəndələri vasitəsi ilə bizim xalqın həyat qabiliyyətinə inandı və bizim müstəqilliyimizi tanıdı. Böyük qurbanlar bahasına biz buna nail olduq".

Xalqının bu tarixi qələbəsinin qazanılmasında əxlaqi, intellektual, siyasi-hüquqi iradə nümayişindən qürur duyan Ə.M.Topçubaşov qələbə münasibətilə Parisdən Azərbaycan hökumətinin başçısı N. Yusifbəylıyə göndərdiyi məktubda yazırdı: "Siyasət qədər çox dəyişən və elastik heç nə yoxdur. Elə buna görə də onun qabarması və çəkilməsi həmişə gözlənilməzdir. Biz heç vaxt ümidimizi itirmirdik, hətta keçmiş Rusiyanın bütün xalqları üçün əlverişsiz anlarda belə, hətta o vaxt bizə əbəs yerə zəhmət çəkdiyimiz deyiləndə belə, ümidimizi üzməmişdik. Ona görə belə hərəkət edirdik ki, xalqımızın müstəqil yaşaya biləcəyinə və ən nəhayət, nəyin bahasına olursa

olsun istiqlaliyyət əldə edəcəyimizə inanırdıq".

Azərbaycanın dövlət müstəqilliyinin Paris sülh konfransı Ali Şurası tərəfindən tanınması münasibətilə M.Ə.Rəsulzadə yazırdı: "Hüquqi-siyasiyyə və əhliyyəti-vətəniyyədən məhrum, ümuri-hökuməti idarəyə yaxın buraxılmayan məhkum bir şərq millətinin ilk imkanda bütün müşkülatə rəğmən, bu dərəcədə mədəni bir üsuli-idarə qurmaq qabiliyyətini göstərdiyi bu istedad sayəsində idi ki, Azərbaycan Cümhuriyyəti düvəli-müttəfiqənin və bütün dünyanın nəzəri diqqətini cəlb ilə beynəlmiləl bir həyata girıyordu. 12 kanuni-sani 1920 tarixində iniqad edən düvəli-müttəfiqə şurayi-alisi Azərbaycan Cümhuriyyətini bilfel tanıdı. Rusiya imperatorluğunun ənqaz üzərində vücud bulan cümhuriyyətlər arasında Azərbaycan, Avropaca tanınmış yeganə bir islam mövcudiyyati idi. Bu yeni türk hökuməti eyni zamanda bütün aləmi-islamda ilk dəfə təşəkkül etmiş bir cümhuriyyət idi. Türk aləmində və türk tarixində böyük bir vəqəyi-xeyir təşkil edən bu hadisəni yalnız bilzat əlaqədar olan Azərbaycan təsid etməyordu" [320, 57].

Göründüyü kimi Azərbaycan etnosu ardıcıl, inadkar, heç bir itkidən usanmadan milli varlığını, müstəqil yaşamağa, dövlətçiliyə layiq olduğunu dünyaya tanıtdırıb və qəbul etdirib beynəlxalq hüququn subyekti olana qədər fasiləsiz mübarizə apardı. Dünya xalqlarına və böyük dövlətlərə milli iradəsini qəbul etdirdi. Dünya dövlətləri beynəlxalq hüququn subyekti kimi Azərbaycan etnosunu Azərbaycan türkü adı ilə, onun qurduğu, yaratdığı dövləti Azərbaycan Cümhuriyyəti adı ilə tanıdı.





# NƏTİCƏ

Arxeoloji, antropoloji, pleoantropoloji tədqiqatlar Azərbaycanı Şimali Afrika, Aralıq dənizi sahili ölkələrlə bərabər bəşə sivilizasiyanın ilkin beşiyi olduğunu göstərir. Azərbaycanda insa əcdadlarının məskunlaşması Aralıq dənizi sahili ərazilərdən qədi və sıx olmuşdur. Burada insan əcdadlarının 1,8-2 milyon il yaşı va Həyat fasiləsiz davam etmişdir. Azıxantrop adamının 350-400 mi il yaşı var. Orta paleolitdən Azərbaycanın Quruçay adlı ərazisində Yaxın Şərqə və Qafqazın müxtəlif ərazilərinə güclü miqrasiyalar o muşdur. Şimali Afrikadan Kiçik Asiyaya olan miqrasiyalarla qarş laşmışdır. Kiçik Asiya və Zaqafqaziyada insan əcdadlarının sosia laşması gedir, dilçilərin ulu dil adlandırdığı ünsiyyət vasitəsi dil y ranır. Nəhayət, üst paleolitin sonu və meziolit dövründ Zaqafqaziya və Kiçik Asiyadan Mərkəzi Asiya və Avropa miqrasiyalar başlayır. Buzlaqlar əriyib şimala doğru çəkildikcə A ropa və Asiyanın şimala doğru məskunlaşması davam edir. Antr poloji tədqiqatlar göstərir ki, Cəbəllütariqdən Şimali Hindistana q dər geniş ərazini - Aralıq dənizi rayonlarını, Cənubi və Mərkəzi A ropanı, Şimali Afrika (Saxarıyaya qədər), Qafqaz, Ön və O Asiyanı aralıqdənizi irqi əhatə edir. İlk antropoloji tədqiqatlar zam nı aralıqdənizi irqi adlandırılan bu antropoloji tip, sonra "hind-ə lıqdənizi" irqi adlandırılmış, Avropanın Asiyanı müstəmləkələşdir məsinə başlaması ilə siyasi məqsədlərlə bəzi hissəsi avropoid adla dırılmış, digərlərinə isə fərqli adlar verilmişdir. Aralıqdənizi irqı Asiyada yaşayan bəzi xalqlarını və özünü avropoid-ali irq adland maqla Avropa işğalçıları özlərinə etnik dayaq yaratmaq məqsədi dür. Vahid antropoloji irqin xalqlarına müxtəlif antropoloji ad verməklə onların antropoloji zəmində etnomədəni həmrəyliyinin ranmasına imkan vermirlər.

Üst paleolitin sonu və meziolit dövründə Kiçik Asiya Zaqafqaziyadan başlayan miqrasiyalarla ulu dil parçalanır, on

dialektləri kimi yeni dillər yaranır. Ulu dilin parçalandığı ərazilərin lokal tarixi etnoqrafik əyalətlərində müasir dillərin əsası protodillər - prototürk, prahindavropa, protosami və s. dillər yaranır. Beləliklə, Zaqafqaziya və Kiçik Asiyada ilk ocağı Quruçay mədəniyyəti olan ulu dilin bir dialekti kimi türk dili yaranır və miqrasiyalarla dünyanın müxtəlif ərazilərinə yayılaraq türk dilinin yeni-yeni dialektləri əmələ gəlir.

Meziolit dövrü Azərbaycanda (şimallı-cənublu) yerli vahid antropoloji tipə və mədəniyyətə malik qəbilələrin inkişafı gedir, istehsal təsərrüfatının əsası qoyulur. Neolit inqilabı dövründə etnomədəni inkişaf yüksək vüsət alır. Azərbaycan qəbilələrinin ölkənin yeni ərazilərində məskunlaşması, əhalinin sıxlaşması prosesi daha da sürətlənir. Görkəmli antropoloq R.Qasımova göstərir ki, paleoantropoloji və antropoloji (somatoloji) dəlillərin müqayisəsi göstərir ki, Azərbaycan xalqının etnogenezi hazırda məskun olduğu ərazidə çox qədimə gedib çıxır. O, burada təşəkkül tapıb inkişaf etmişdir. Onun əsas özəyini, fiziki tipini təmsil edən kaspi antropoloji əlamətlər kompleksi elə buradaca yerli avtoxton əhali mühitində formalaşmışdı.

Antropoloji və arxeoloji mədəniyyət nümunələrinin üst-üstə düşməsi, yəni həmin mədəniyyət nümunələrinin, həm də cənub-şərq kaspi kompleksinin Şərqi Zaqafqaziya təmayüllü, onun Şimali Qafqaza Orta Asiyadan yox, qədim Azərbaycandan yayılmasını göstərən əsaslı dəlildir.

Kür-Araz ovalığının torpaq qatlarında eneolitin sonu - tunc dövrünün ilkin mərhələsinə aid mədəniyyət nümunələri zəmanəmizə gəlib çatmışdır. Bu mədəniyyət qalıqları arxeoloji ədəbiyyatda Kür-Araz mədəniyyəti adlanır. Lakin onun yayılma hüdudları Kür-Araz ovalığından çox uzaqları, Şimali Qafqazı, Cənubi Azərbaycanı, Kiçik Asiyanı, xüsusilə Anadolunun Şərq hissəsini əhatə etmişdir. Antropoloq R.Qasımova yazır ki, ilk tunc dövründə inkişaf edib geniş yayılmış Kür-Araz mədəniyyəti yekcinsdir, Şimali və Cənubi





Azərbaycanı əhatə edir. Azərbaycan xalqının etnogenezinin erkən mərhələsində antropoloji dəlillərlə arxeoloji dəlillər üst-üstə düşür, yəni xalqımızın soy-kökündə duran tayfaların həm fiziki tipcə, həm də mədəniyyətcə yekcins olduqlarını deməyə əsas verir. Qədim dövrün tanınmış tədqiqatçılarından İ.M.Dyaknov da "Azərbaycan xalqının təşəkkülündə iştirak etmiş etnik komponenti, fiziki tip və mədəniyyətcə avtoxton" olması qənaətindədir. Etnolinqvistik tədqiqatların nəticəsinə görə Azərbaycan xalqı dilcə də avtoxtondur.

İlk tunc dövrünün sonu və orta tunc dövründə qədim Şumer dövləti ilə həmsərhəd ərazilərdə etnososial proseslər daha da sürətlənir Aratta, Lullibi, Kuti kimi ilk dövlət qurumları yaranır, tayfa ittifaqlarının pozulub xalq kimi təşəkkül prosesi başlayır. Məhz bunun nəticəsi olaraq e.ə. I minilliyin başlanğıcında Manna və Midiya dövlətləri yaranır. Elə bu dövrdə Azərbaycan əhalisi ilə eyni antropoloji tıpə və dilə malik Xəzərətrafı Sakların Kiçik Asiyaya miqrasiyası başlanır. Bu prosesdə saklar Həmçinin Manna, Midiya və Albaniya ərazisində məskunlaşırlar. Azərbaycan ərazisində sak birliyinə daxil olan tayfalarla çoxsaylı eyni adlı tayfaların olması, dil birliyi, mədəniyyət yaxınlığı və s. səbəblərdən saklarla Azərbaycan əhalisi arasında etnopsixoloji fərqləndirmə və ziddiyyət baş vermir. Saklarla Azərbaycan əhalisinin sürətli konsolidasiyası gedir. Saklar Midiyada hakimiyyətə gəlir. Göyçəgöl, Qarabağ, Urmiya ərazisini əhatə edən Sak çarlığı yaranır. Midiya, Manna, Alban və Sak tayfalarının dil birliyi, mədəniyyətcə yaxınlığı onların vahid etnos kimi formalaşmasında, sürətli etnokonsolidasiyasında əsas səbəb kimi çıxış edir.

Midiya Farsı, Assuriyanı, Urartunu və digər əraziləri tutaraq imperiyaya çevrilir. İlkin olaraq Midiya Manna və Sak çarlığını vahid dövlətdə birləşdirmək uğrunda mübarizədən, sonra uzun müddətli müharibədən yorulur. Bundan istifadə edən fars Əhəməni sülaləsi saray çevrilişi edərək Astiaqı hakimiyyətdən devirib, Midiyanı Əhəməni sülaləsinin hakimiyyəti altına salır. Bu dövrdə Midiyalı-

larda yüksək milli şüur var idi. Onlar "keçmişdə Midiyalıların qulu olan farsların onlar üzərində ağalığı" ilə barışmırlar. Farslar isə özlərini nəcabətli, ali irq adlandıraraq bütün başqa xalqlara qarşı qoyurlar. Midiyalıların qullarının qulu olmamaq iddiası və farsların ali irq olaraq özlərini Midiyalılara qarşı qoyması onlar arasında etnik təmasa imkan vermir, əksinə, Midiyalıların etnomədəni birliyini sürətləndirir. Odur ki, Əhəməni imperiyası ilə Makedoniyalı İsgəndər imperiyası arasında olan müharibə zamanı özlərini farslara qarşı qoymuş Midiyalılar və b. xalqlar Əhəməni sülaləsini müdafiə etmir. Əhəməni sülalənin süqutu ilə fars dövlətçiliyi də süqut edir, bunun əksinə olaraq cənubi Azərbaycanda Midiyalılar atropatena etnonimi altında, şimal əhalisi isə alban etnonimi altında xalq kimi ilkin təşəkkül halında milli varlığını davam etdirir. Midiya-Atropatena və Albaniya ərazisində tarixən eyniadlı tayfaların olması və qarşılıqlı iqtisadi, etnomədəni əlaqələri fasiləsiz olaraq Albaniya ilə Atropatena arasında etnomədəni eyniyyəti, iqtisadi və siyasi birliyin yaranması istiqamətində inkişaf etdirirdi. Bu birlik yeni Azərbaycan məkan toponimini və azərbaycanlı anlayışını doğurdu.

Bu dövrdə Azərbaycanda ümumxalq etnonimi kimi yaranmaqda olan özünüadlandırmalardan biri türk etnonimi idi. Türk etnonimi ulu dilin parçalanması dövrü Azərbaycan qəbilələrinin ilkin ümumi etnonimi olmuş, miqrasiya zamanı, qəbilə və tayfaların parçalanıb yeni ərazilərdə məskunlaşması zamanı, yeni ad alması prosesində passiv yaddaşa keçmişdi. Lakin türk etnonimi kimi özünüadlandırmada passiv mövqe tutsa da, milli qürurun mənbəyi kimi türk qəbilə və tayfalarının ali hissinin ifadəçısi idi. Odur ki, müxtəlif adlı Azərbaycan qəbilə və tayfalarının xalq kimi təşəkkülü dövründə birləşdirici etnonim kimi yenidən canlanırdı, mənəvi yaradıcılıq mənbəyi, milli enerji mənbəyi kimi yeni formada meydana çıxırdı. Türk etnoniminin yenidən canlandırılmasında Xəzər ətrafı, bolqar, sabir, hun, Xəzər, qıpçak və s. tayfaların Azərbaycana miqrasiyası və Mərkəzi Asiyada xalq kimi təşəkkülü də yetərli səbəblərdəndir.





Azərbaycanın, o cümlədən Mərkəzi Asiyanın qohum tayfalarının birləşməsi, vahidləşməsi prosesi etnopsixoloji əlaqə və münasibətlərin qurulması passiv yaddaşda olsa da, əcdad bildirən milli etnik qürur mənbəyi kimi çıxış edən türk etnonimi vasitəsilə yaranırdı. Elə bu səbəbdən də tədricən türk etnonimi ümumxalq etnoniminə çevrilirdi. Beləliklə, Atropatena və Albaniyada etnomədəni proseslər sürətlə inkişaf edir, Azərbaycan türkü xalq kimi ilkin təşəkkülünü tapır. Lakin totemizmin, bütpərəstliyin, zərdüştlük, xristianlıq kimi müxtəlif inam və etiqadların, dinlərin mövcudluğu Azərbaycanda türklərin vahid ideoloji birliyinin yaranmasına imkan vermir.

224-cü ildə fars Əhəməni sülaləsi Midiya sarayında hakimiyyəti ələ keçirdiyi üsulla Sasanilər Parfiya Sarayında hakimiyyəti ələ keçirib Sasani imperiyasını qurdu. Atropatena və Albaniyanı da ələ keçirdi. Ənənəvi olaraq farslar özlərini əsarət altına aldıqları xalqlar üzərində ali irq elan etdilər. Bu isə xalqların əsəbinə toxunur, onlarda milli şüuru daha da canlandırırdı. Elə bunun nəticəsi idi ki, Atropatena və Albaniyada Sasani hakimiyyətinə qarşı ən böyük üsyanlar başladı və Sasani sülaləsı hakimiyyətinin sonuna qədər davam etdi. VI - VII əsrdə meydana çıxan İslam dini və ərəb Xilafəti yaradıcı bir qüvvə kimi dünyanın ideoloji-siyasi mənzərəsini dəyişdi.

VII əsrin 30-cu illərində Ərəb Xilafəti Sasani sülaləsinin və imperiyasının varlığına son verdi. İslam dini Asiya qitəsində, xüsusilə türk xalqları arasında sürətlə yayıldı. Ona görə ki, türklər dövlətçilik tarixinə və şüuruna, kifayət qədər təkallahlılıq ideologiyasına malik idilər. Bu prosesin sürətlə baş verdiyi türk ölkələrindən biri də Azərbaycan idi. VII əsrin birinci yarısında islam ideologiyasının təsiri altında Albaniya və Atropatena tam Azərbaycan anlamına, əhali isə türk etnoniminə keçməklə xalq kimi tam təşəkkülünü tamamladı. Azərbaycan türkləri vahid etnomədəni dil, mənəvi, psixoloji, ideoloji iqtisadi və siyasi birliyə malik xalq kimi təşəkkül tapdı. Azərbaycan türklərinin etnik tarixinin yeni mərhələsi başladı. Sasani imperiyasının özünə etnik və siyasi dayaq yaratmaq

məqsədilə Azərbaycana köçürdüyü və özünü Azərbaycan türklərinə qarşı qoyan, ondan fərqlənməyə çalışan irandilli tayfaların Azərbaycan türkləri ilə eyni dinə - islam dininə mənsubluğu, islam dininin müsəlman müsəlmanın qardaşıdır ideoloji siyasəti, irandilli tayfaların digər müsəlmanlarla bərabərliyi, qardaşlığı ideyasını qəbul etməsi və Azərbaycan türklərinin irandilli tayfalara islam ümməti kimi baxmaqla onlar arasında etnomədəni təmaslar, ailə-nikah münasibətləri qurulmaqla irandilli tayfalar Azərbaycan türklərinin etnik tarixində iştirak etməyə başladılar.

Ərəb Xilafəti Azərbaycanda özünə etnik, ideoloji-siyasi dayaq yaratmaq məqsədilə köçürdüyü ərəb tayfalarının mədəni səviyyəsi Azərbaycan türklərinin mədəni səviyyəsindən aşağı olduğundan və kökləri ilə etnomədəni əlaqələr qırıldığından, "müsəlman müsəlmanın qardaşıdır" ideyası ilə yaşayıb, milli iddia ilə çıxış etmədiklərindən sürətlə assimilyasiya olunub Azərbaycan türklərinin tərkibinə daxil oldular.

Bizcə, hələ qədimlərdən birgəyaşayış nəticəsində türklər və qafqazdilli etnik qruplar bir-birinin etnik tarixində iştirak etmişlər.

Azərbaycan türklərinin xalq kimi təşəkkülü ona yüksək passionarlıq göstərmək imkanı verdi. Azərbaycan XI-XIII əsr Şərq intibahının, elminin, mədəniyyətinin ilkin ocağı funksiyasını icra etdi. Azərbaycanda zəngin şəhər və əkinçilik mədəniyyəti XI əsrdə oğuz türklərinin Kiçik Asiyaya miqrasiyası və monqol yürüşləri zamanı burada məskunlaşmış türk tayfalarını konsolidə etdi. Türk-müsəlman dünyasının ən qüdrətli dövlətini yaratdı.

XVI əsrdən Səfəvi ordusunda iştirakı ilə əlaqədar Azərbaycana gəlmiş kürdlər Azərbaycan türklərinin etnik tarixində iştirak etdilər. Kürdlər Azərbaycana əsasən XIX əsrin başlanğıcında Şimali Azərbaycanın Rus işğalı zamanı Türkiyə və Qacarlar monarxiyası ərazisindən köçürülüb gətirilmişlər. İslam dininə mənsubluq kürdlərin Azərbaycan türkləri ilə etnomədəni əlaqəsini sürətləndirmiş, onlar Azərbaycan türklərinin etnik tarixində komponent kimi iştirak etmişlər.





Azərbaycanın dağlıq zonasında xristian alban kilsəsinin fəaliyyəti, təsiri altında xristian albanlar onlarla eyni dil və mədəniyyətə, psixoloji xüsusiyyətə malik müsəlmanlarla vahid türk etnoniminə keçmirdilər. Rus kəşfiyyatının, erməni kilsəsinin təsiri altında xristian təəssübkeşi kimi çıxış edirdilər. Rus imperiyasının xristian təəssübkeşliyi təbliğatının təsiri altında xristian albanlar Azərbaycanın işğalında ruslara və ermənilərə yardımçı oldular. Azərbaycanın işğalının başa çatması ilə xristian təəssübkeşi olan alban kəndlərinə çoxlu erməni köçürüldü. Onlar yaşayış məntəqələrində azlıqda qaldılar. Rus imperiyasının Alban kilsəsini ləğv edib, onun əvəzində erməni kilsəsi yaratması, albanların ideoloji dayaqlarını itirib, zorakı surətdə erməniləşdirilib tarix səhnəsindən silinməsi ilə nəticələndi. Albanların çox cüzi, milli mədəniyyətə şüurlu münasibət bəsləyən zadəgan hissəsi türk etnoniminə, islam dininə keçdi, etnik təməlində qaldı.

Rus imperiyasının Azərbaycanı işğalı burada etnik prosesinin şəraitini dəyişdirdi. Azərbaycan xalqı din, dil, ideologiya, mədəniyyətin bütün komponentləri ilə ziddiyyət təşkil edən xalqın əsarətinə düşdü. Əsarətinə düşdüyü xalqla özündə heç bir ümumi mənəvi dəyər, xüsusiyyət tapmadı. Rus imperiyasının zorakı dini və mənəvi assimilyasiyasına məruz qaldı. İmperiyanın bu hərəkəti xalqın heysiyyətinə toxundu, onun bütün hiss və duyğularını oyatdı. Xalqı öz din və mənəviyyatına güvənməyə sövq etdi. Milli şüurun inkişafına təkan verdi.

Rus imperiyasında təhkimçilik islahatının keçirilməsilə ölkədə inkişaf edən kapitalizmin Azərbaycanı da öz əhatə dairəsinə salması nəticəsində, dünyanın qabaqcıl ölkələrinin, kapital elm-intellektual nümayəndələrinin Azərbaycana axması burada feodal qapallığının dağılması kapitalizmin inkişafı, yeni dünyəvi ziyalı təbəqəsinin və milli burjuaziyanın, digər sosial təbəqələrin yaranması bütövlükdə

Azərbaycanın etnoqrafik və etnik qruplarının türk etnonimihdə millət kimi təşəkkülü ilə nəticələndi.

Azərbaycanda etnik proseslərin özünəməxsus xüsusiyyətləri vardır. Azərbaycan türklərinin etnik tarixində iştirak edən bütün etnik qruplar millət kimi təşəkkül dövründə də ikili etnonimini də yaşadırdı. Məs., tat-türk, talış-türk, ləzgi-türk, avar-türk və s. Etnonimin belə ikiləşməsi etnik qrupların ümumi milli dəyərlər qazanmaqla bərabər, etnik şüurunu saxlamasının nəticəsi idi..

Hər bir etnik qrupun öz etnik mənşəyi zəminində varlığını davam etdirməsi, ölkənin bütün etnik və etnoqrafik qrupları ilə əməkdaşlığı, qarşılıqlı nikah və vahid mədəniyyətinin yaranmasının nəticəsi idi.

Azərbaycan etnik qruplarının siyasi, ideoloji, mədəni assimilyasiyaya məruz qalmaması onların mənəvi simasının bütövlüyü ilə nəticələnmişdi. Azərbaycanda xalqlaşma və istərsə də milliləşmə etnik və etnoqrafik qrupların bir-birini qarşılıqlı mənimsəməsi şəraitində baş vermişdir. Ona görə də hər bir etnik qrup etnik şüurunu, buna müvafiq etnik özünüadlandırma ilə bərabər, ümumi milli mədəniyyətin daşıyıcısı olaraq türk etnoniminin də daşıyıcısı və yaradıcısı kimi çıxış edirdi. XIX əsrin sonu - XX əsrin əvvəlləri Azərbaycanın etnik və etnoqrafik qruplarını təmsil edən ziyalıların yaradıcılığında türkçülükdən vahid milli ideologiya kimi bəhs olunması elə bunun nəticəsi idi. Elə bunun nəticəsi idi ki, XX əsrin başlanğıcında Azərbaycan türkləri Rus imperiyasına qarşı ən yüksək səviyyədə milli iradə və siyasi şüur qoymaqla imperiyada istiqlal mübarizəsi aparan türk və müsəlman xalqların liderinə çevrildilər və istiqlallarına nail oldular.





## ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Sovet Ensiklopedıyası. III cild. B., 1979. s. 600.

2. Mirzə Adıgözəl bəy. Qarabağnamə. - Qarabağnamələr. I kitab. B., "Yazıçı", 1989, s. 190.

3. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. - Qarabağnamələr. I kitab. "Yazıçı", B., 1989, s. 190.

4. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair. - Qarabağnamələr. I kitab. B., "Yazıçı", 1989, s. 190.

5. Mirzə Yusif Qarabaği. Tarixi-safi. - Qarabağnamələr. 2-ci kitab. B., "Yazıçı", 1991, s. 480.

6. Mir Mehdi Xəzani. Kitabi-Tarixi-Qarabağ. - Qarabağnamələr. 2-ci kitab. "Yazıçı", 1991, s. 480.

7. Rzaqulu Mirzə Camal oğlu. Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri. - Qarabağnamələr. 2-ci kitab. B., "Yazıçı", 1991, s. 480.

8. Mirzə Rəhim Fəna. Tarixi-Cədıdi-Qarabağ. - Qarabağnamələr. 2-ci kitab. B., "Yazıçı", 1991, s. 480.

9. Baharlı. Əhvalati-Qarabağ. - Qarabağnamələr. 2-ci kitab. B., "Yazıçı", 1991, s. 480.

10. Həsən İxfa Əlızadə. Şuşa şəhərinin tarixi. Qarabağnamələr. 2-ci kitab. B., "Yazıçı", 1991, s. 480.

11. Həsənəli Qaradaği. Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları. Qarabağnamələr. 2-ci kitab. B., "Yazıçı", 1991, s. 480.

12. Məhəmməd ağa Müctəhidzadə (Müştəri). Qarabağnamə. - "Şuşa nəğmələri", 1-ci kitab. B., "Şuşa", 2001, s. 799.

13. Р.Ф.Итс. Введение в этнографии. Л. Издательство Ленинградского университета. 1974, с. 159.

14. Н.Н.Чебоксаров, И.А.Чебоксарова. Народы, расы, культуры. М., 1985, с. 271.

15. Свод этнографических пониятий и терминов – Этнография и смежные дисциплины этнографические субдисциплины школы и направления методы. М., «Наука», 1988, с. 223.

16. Свод этнографических понятий и терминов. Материальная культура. М., «Наука», 1989, с. 222.

17. Обозрение Российских владений за Кавказом. Часть 3, СПБ, 1836.

18. М.А.Скибитцкий. Карабахские казенные летние пастбища. МУКЛЗПИСК, т. IV, Тифлис, 1899.

19. Н. Дубровин. История войны и владычества русских на Кавказе. Т.1, кн. 2, СПБ, 1871.

20. Акты Собрание Кавказской Археографической Комиссию. Т. 7.

21. Описание Карабахской провинции, составленное в 1823 г. распорижению главноуправляющего в Грузии Ермолова. Тифлис, 1866, с. 416.

22. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. B., "Şuşa", 2000, s. 575.

23. Azərbaycan SSR-in fızıki coğrafıyası. B., "Azərnəşr", 1959, s. 367.

24. Ə.Əyyubov. Azərbaycan SSR-in aqroiqlim ehtiyatları və onlardan kənd təsərrüfatında istifadə edilməsi. B., "Azərnəşr", 1981, s. 78.

25. Ə.C.Əyyubov, Q.Ə.Hacıyev. Azərbaycan SSR-in iqlim ehtiyatları. B., "Elm", 1984, s. 134.

26. B.Ə.Budaqov. Azərbaycanın coğrafi şəraiti və kənd təsərrüfatı. B., 1962, s. 48.

27. Q.Ə.Hacıyev, V.Ə.Rəhimov. Azərbaycan SSR inzıbati rayonlarının iqlim səciyyəsi. B., "Elm", 1977, s. 269.





28. M.Ə.Salayev, Ə.Q.Zeynalov, E. F. Şərıfov, Qarabağ düzünün torpaqları. B., "Elm", 1955, s. 197.

29. M. Həsənov, X. Zamanov, B. Cəfərov, N. Vəliyev. Azərbaycanın çayları, göllləri və su anbarları. B., "Azərnəşr", 1973. s. 136.

30. Klimat Azerbaydcana. B., 1968.

31. H.Quliyev. Kiçik Qafqazda şaquli landşaft qurşaqlarının qanunauyğunluqları. B., "Təbib", 2000, s. 105.

32. M.A.Müseyibov. Azərbaycanın fiziki coğrafiyası. B., "Maarif", 1998. s. 400.

33. E. F. Şərifov. Qarabağ dağ silsıləsinin şimali-şərq yamaclarında əsas meşə cinsləri altında torpaq proseslərinin dinamikası. B., "Elm", 1994, s. 58.

34. G.A.Hacıyeva. Kiçik Qafqazın şimali-şərq yamaclarının landşaft-zonal rayonlaşdırılması. B., "Elm", 1965, s. 107.

35. B.A.Анучун. Географический фактор в развитии общества. М., 1982.

36. İ.A.Talıbzadə. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə. B., "Elm", 1980, s. 150.

37. N.Rzayev. Qayalar danışır. B., "Elm", 1985, s. 99.

38. Ş.Göyçayski. Əhali coğrafıyası. B., "Maarif", 1979,. s. 216.

39. M.M.Hüseynov. Azərbaycanda qədim paleolit (rus dilində). B., "Elm", 1985, s. 73.

40. R. M. Qasımova. SSRİ ərazisində ən qədim ibtıdai insan tapıntısı (Azərbaycan SSR, Azıx) (rus dilində). B., "Elm", 1986. s. 68.

41. Ə.Cəfərov. Quruçay dərəsində. B., "Azərnəşr", 1990, s. 59.

42. Ə.Cəfərov. İnsanlığın səhəri. B., "Azərnəşr", 1994, s. 78.

43. Ə.Cəfərov. Azərbaycanın orta paleoliti (rus dilində). B., "Elm", 1999, s. 345.

44. İ.H.Nərımanov. Qədim Azərbaycan əhalisinin əkinçılik və heyvandarlıq mədəniyyəti (rus dilində). B., "Elm", 1987, s. 260.

45. R.Göyüşov. Azərbaycan arxeologiyası. B., "İşıq", 1986, s. 186.

46. R.B.Göyüşov, A.İ.Martınov. SSRİ Arxeologiyası. B., "Maarif", 1990, s. 240.

47. İ. Əliyev. Dağlıq Qarabağ: tarix, faktlar, hadisələr. B., "Elm", 1989, s. 117.

48. Azərbaycan tarixi. B., "Azərnəşr", 1994, s. 687.

49. M.M.Hüseynov. O.S.İsmayılov, N.M.Qulıyev. Azərbaycanın arxeoloji abidələri. B., "ADU nəşriyyatı", 1981, s. 70.

50. Azərbaycan tarixi. B., "Azərbaycan", 1996, s. 870.

51. Ə.Ş.Haqverdıyev. Azərbaycan tarixi. B., "ADPİ-nin nəşriyyatı", 1985, s. 98.

52. Z.Həsənov, M.Nərımanoğlu. Kəlbəcər - Azərbaycanın qala qapısı. B., "Təfəkkür", 2001, s. 360.

53. М.О.Косвен. Очерки истории первобытной культуры. М., 1953, с. 216.

54. Г.Исмаилзаде, Н.Исмаилзаде. Интеррегиональные связи в эпохи древнейшей земледельческой культуры Азербайджана. Türkmənistanın və gündoğar halklarının tarihy – medeni mirasiy dünya ulqmyında. Aşqabad, 2002, s. 20-25.

55. Дж.Мелларг. Древнейшие цивилизации ближного востока. М., «Наука», 1982, с. 150.

56. В.А.Разин. История военного искусства. Т. 1, М., «Военное издательство», 1955, с. 560.

57. V.Əliyev. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. B., "Elm", 1977, s. 165.

58. Т.Ахундов. Северо-западный Азербайджан в эпоху энеолита и бронзы. Б., «Елм», 2001, с. 332.

59. R.M.Qasımova. Azərbaycan xalqının etnogenezi paleoan-





tropoloji və antropoloji (somatoloji) materiallar əsasında (doktorluq dissertasiyasının avtoreferatı). B., 1997, s. 56.

60. R.Qasımova. Azərbaycan xalqının etnogenezinin paleontropoloji və antropoloji baxımdan öyrənilməsinin yekunları. - Tarix və onun problemləri. N I/(3). B., 1998, s. 181-185.

61. H.F.Cəfərov. Azərbaycan e. IV - minilliyin axırı - I minilliyin əvvəllətində. B., "Elm", 2000, s. 187.

62. V.H.Əliyev. Azərbaycanın orta tunc dövrü mədəniyyəti (rusca). B., "Elm", 1991. c. 254.

63. Т.Расулоглы. Циклопические сооружения на территории Азербайджана. Б., 1993, с. 145.

64. Г.П.Кесаманлы. Археологические памятники эпохи бронзы и раненного железа Дашкесанского района. Б., «Агрыдаг», 1999, с. 180.

65. Q.Əhmədov. Bu günə necə gəlib çıxmışıq. B., "Azərnəşr", 1989, s. 118.

66. Azərbaycan tarixi. I cild. B., "Elm", 1998, s. 474.

67. C.Ə.Xəlılov. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələr. B., "Elm", 1959, s. 172.

68. Ş.F.Mehdıyev, S. Ə. Bəkdaşi, R. N. Məmmədzadə. Təbiət müalıcə edir. B., "Elm", 1974, s. 94.

69. Ə.Xəlılov. Kimya tarixindən səhifələr. B., "Gənclik", 1984. s. 106.

70. F.Engels. Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi. K. Marks, F. Engels. İki cildlik seçilmiş əsərləri, 2-ci cild. B., "Azərnəşr", 1953, s. 546.

71. Е.Б.Тайлор Первобытная культура. М., «Полиздат», 1989, с. 572.

72. А.П.Садохин. Этнология. М., «Гардарики», 2000, с. 25.

73. İ.A.Babayev. E. ə. IV er. III əsrlərdə Qafqaz Albaniyası-

nın şəhərləri (rusca). B., "Elm", 1990, s. 236.

74. K.Əliyev. Antik Qafqaz Albaniyası (rusca). B., "Elm", 1992, s. 238.

75. Т.М.Мамедов. Кавказская Албания. Б., «Маариф», 1993, с. 214.

76. F.Məmmədova. Azərbaycanın siyasi tarixi və tarixi coğrafıyası. B., "Azərnəşr", 1993, s. 262.

77. V.Pırıyev. Azərbaycanın tarixi coğrafıyası. B., "Araz", 2002, s. 154.

78. Ə. Haqverdıyev. Qafqaz Albaniyasının sərhəddi məsələsinə dair (antik dövr), - "Qarabağ dünən, bu gün və sabah" - 2-ci ümumrespublıka elmi əməli konfransın materialları. B., 2003, s. 56-61.

79. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. B., "Natta-Press", 1998, s. 554.

80. Ф.Мамедова. О некоторых вопросах исторической географии Албании I в. до н. е. – VIII в. Историческая география Азербайджана. Б., «Елм», 1987, с. 148.

81. Q. Qeybullayev. Qarabağ (etnik və siyasi tarixinə dair). B., "Elm", 1990. s. 248.

82. Q.Varoşil. Qafqaz Albaniyası. B., "Öyrətmən", 1993, s. 106,

83. Ə.Haqverdıyev, N.Əsədov. Azərbaycan ərazisində sak-skif padşahlığı. B., 2003, s. 52.

84. Р.М.Касимова. К этногенезу Азербайджанского народа. Поданным антропологии. – К проблеме этногенеза Азербайджанского народа. Б., «Елм», 1984, с. 156.

85. Q.Qeybullayev. Azərbaycan türklərinin təşəkkül tarixindən. B., "Azərnəşr", 1994, s. 148.

86. Q.Qeybullayev. Qədim türklər və Ermənistan. B., "Azərnəşr", 1992, s. 140.





87. Azərbaycan incəsənəti. B., "İşıq", 1992, s. 344.

88. F.İsmayılov, Ziqmund Freyd. B., "Gənclik", 1994, s. 120.

89. A.Şükürov. Kulturologiya. B., 1998, s. 236.

90. B.Şərifzadə. Zərdüşt, Avesta, Azərbaycan... B., "Elm", 1996, s. 324.

91. M.Dadaşzadə. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. B., "Elm", 1985, s. 216.

92. N.Şəmsızadə. Azərbaycan ideologiyası. B., "Sabah", 1996, s. 103-104.

93. К.А.Азимов. Ценностный мир человека и религиозно – философский доктрине зароастризма. Б., 1991, с. 124.

94. R.Əsgər. İqlimdən-iqlimə, təqvimdən-təqvımə. B., "İşıq", 1987, s. 104.

95. A.Şükürov, G. Abdullazadə. Azərbaycan fəlsəfəsi. B., "Azərnəşr", 1993, s. 94.

96. Y.Yusifov. Qədim Şərq Tarixi. B., "Bakı Unıversıteti nəşriyyatı", 1993, s. 488.

97. И.Алиев. История Мидии. Б., «Елм», 1960, с. 360.

98. V.Muradov. Orta əsr Azərbaycan şəhərləri. B., "Maarif", 1983, 156.

99. V.V.Bartold. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri. B., "Elm", 1999, s. 160.

100. Ə.Ş.Haqverdıyev. Araz. - Türk dillərinə dair etımoloji tarixi morfoloji tədqiqlər (Elmi əsərlərin tematik məcmuəsi). B., ADU-nəşriyyatı. 1987, s. 59-63.

101. Tomris. - Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 1-ci cild. Bakı, "Elm", 1982, s. 87-92.

102. Astiaq. - Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 1-ci cild. B., "Elm", 1982, s. 74-87.

103. E.Kərımov. Azərbaycanda müasir etnik durum. Tarix və

onun problemləri. 1998, N 1 (3).

104. Ə. Qasımov. Xəzər dənizi. B., "Elm", 1999, s. 204.

105. И.В.Куклина. Этнография скифи. Л., «Наука», 1985, с. 206.

106. М.В.Агбунов. Путешествие в загадочную Скифию. М., «Наука», 1989, с. 192.

107. Ж.Дюмезиль. Скифы и Нарты. М., «Наука», 1990, с. 229.

108. М.Н.Погребова. Закавказские и его связи с Передней Азией и скифское время. М., «Наука», 1984, с. 246.

109. В.Мурзин. Скифская архаика северного причорноморья. Киев ноукова думка. 1984, с. 134.

110. Степи европейской части СССР в скифо-сарматское время. М., «Наука», 1989, с. 464.

111. Ə.Muxtarova. Türk xalqlarının tarixi. B., 1999, s. 362.

112. Г.Ф.Дебец. Антропологические исследования в Дагестане – Антропологическое Сборник. Нов. Сер. Вып. 1. М., 1956.

113. В.П.Алексеев. Происхождение народов Кавказа. М., 1974.

114. Р.М.Касимова. Антропологические исследования современного населения Азербайджанской ССР. Б., 1975.

115. Г.Ф.Дебец, Ю.А.Дурнова. Физическое развитие людей эпохи энеолита в южном Туркмении – Советская этнография. 1971, №1.

116. С.Ш.Гаджиева. Дагестанские терекеменци – XIX начало XX в. М., «Наука», 1990, с.216.

117. S.Qaşqay. Manna dövləti. B., "Azərnəşr", 1993, s. 108.

118. Q.Ə.Qeybullayev. Azərbaycan toponımıyası (rusca). B., "Elm", 1986, s. 192.





119. Q.Ə.Qeybullayev. Azərbaycanlıların etnogenezinə dair (rusca). 1-ci cild. B., "Elm", 1991, s. 550.

120. Л.Н.Гумилйов. Этногенез и биосфера земли. М., «Айрис-прес», 2002, с. 558.

121. M.Axundov. İnsan genetikasına səyahət. B., "Azərnəşr", 1975, s. 128.

122. M.Ş.Babayev, A.S.İsmayılov. Genetik məsələlər və onların izahlı həlli. B., "Azərnəşr", 1996, s. 221.

123. Rəfik Özdək. Türkün qızıl kitabı. Birinci kitab. B., "Yazıçı", 1992, s. 182.

124. Cavad Heyəti. Türklərin tarixi və mədəniyyətinə bir baxış. B., "Azərnəşr", 1993, s. 172.

125. В.И.Авдиев. История Древнего Востока. М., «Высщая школа», 1970, с. 608.

126. История древнего мира. М., «Наука», 1989, с. 411.

127. L.Qumilyov. Qədim türklər. B., "Gənclik", 1993, s. 534.

128. M.Həkımov. Bozqurd - kultum mənim, Türk eli - yurdum mənim. B., 2001, s. 136.

129. Z.Novruzov. Vəhşılər arasında. B., "Azərbaycan ensiklopedıyası", 1998, s. 264.

130. X.Xəlilli. Ulu Bozqurd - "Milliyyət" - qəzeti. 20-27 aprel, 2003-cü il.

131. A.Şükürov. Mıfiologiya. 6-cı kitab. B., "Elm", 1997, s. 224.

132. V.Həbıboğlu. Qədim türklərin dünyagörüşü. B., "Qartal", 1996, s. 224.

133. Cavad Heyəti. Azərbaycan şıfahi xalq ədəbiyyatı. B., "Azərnəşr", 1990, s. 165.

134. Firdovsi. Şahnamə. B., "Yazıçı", 1987, s. 334.

135. Ə.Tağıyev. Fəlsəfədən - siyasətə. B., "Təfəkkür", 2001, s. 222.

136. K.Əliyev. Azərbaycan tarixinə dair antik mənbələr (rusca). B., "Elm", 1986, s. 141.

137. K.Əliyev, F.Əliyeva. Azərbaycan antik dövrdə. B., "Elm", 1997, s. 120.

138. R.Əliyev. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. B., "Araz", 2000, s. 196.

139. Средняя Азия и эпохи камня и бронзы. М.-Л., 1966, с. 290.

140. Р.А.Агаева. Происхождение имен рек и озер. М., «Наука», 1985, с. 144.

141. F.R.Mahmudov. Əlıkömək təpəsinin boyalı qabları və onların bəzi cənub paralelləri. - Qədim və orta əsr Şərqi və Aralıq dənizi hövzəsi. B., "Azərbaycan Unıversıteti nəşriyyatı", 1989, s. 104.

142. A.Fazili. Atropatena e.ə. IV - e. VII əsri. B., "Elm", 1992, s. 216.

143. Д.Айтмуратов. Тюркские этноними. Нукус, «Каракалпакстан», 1986, с. 234.

144. O.Süleymanov. Az-ya. B., "Azərnəşr", 1993, s. 303.

146. A.Babayev. Dilçiliyə gırış. B., "Maarif", 1992, s. 502.

147. Q.Kazımov. Azərbaycan dilinin tarixi. B., "Təhsil", 2003, s. 584.

148. Я.Я.Рогинский, М.Т.Левин. Антропология. М., «Высшая школа», 1978, с. 528.

149. Ə.Rəcəbov. Dil, şüur, cəmiyyət, tarix. B., "Azərnəşr", 1993, s. 158.

150. A.Axundov. Ümumi dilçilik. B., "Maarif", 1979, s. 254.

151. Д.Г.Редер, Е.А.Черкасова. История древнего мира. М., Просвешение, 1985.

152. История древнего Востока. Т. 1. М. 1983.

153. Ə.Dəmirçizadə. Azərbaycan ədəbi dilinin tarixi. I hissə.





B., "Maarif", 1979, s. 267.

154. S.B.Aşurbəyli. Bakı şəhərinin tarixi. B., Azərnəşr, 1992, s. 404.

155. R.Yüzbaşov, K.Əliyev, Ş.Sədıyev. Azərbaycanın coğrafi adları. B., "Maarif", 1972, s. 100.

156. И.М.Мизиев. Шаги к истокам этнической истории центрального Кавказа. «Елбрус», Налчик, 1986, с. 182.

157. Z.Budaqova, T.Hacıyev. Azərbaycan dili. B., 1992, s. 200.

158. S.Aşurbəyli. Şirvanşahlar dövləti (rus dilində). B., "Elm", 1983, s. 344.

159. A.Ə.Axundzadə. Müqəddəs peyğəmbərlər tarixi. B., "Azərnəşr", 1993, s. 140.

160. M.Kalankatyuqlu. Albaniya tarixi. B., 1993, s. 235.

161. S.Y.Qasımova. Cənubi Azərbaycan III-VII əsrlərdə (rus dilində). B., "Elm", 1983, s. 166.

162. Н.Й.Марр. О лингвистической поезкде в восточное Средиземноморе. Л., 1934.

163. Azərbaycan tarixi. I cild, B., "Elm", 1961, s. 448.

164. X.Xəlılov. Tarix sıfarişlə yazılanda - "Ulduz" jurnalı, 1990, N 6, s. 49-54.

165. X.Xəlılov. Tarixşünaslıq, yoxsa təxrıbatçılıq? - "Azadlıq" qəzeti, 7.01.1992.

166. X.Xəlilli. Azərbaycan xalqını dünyaya yenidən millət kimi təqdim edən 20 yanvar. B., "Nıcat-N", 2003, s. 136.

167. T.Hacıyev. Azərbaycan dilinin yazıyaqədərki izləri haqqında - Azərbaycan Filologiyası məsələləri. B., "Elm", 1983, s. 270.

168. A.Məmmədov. Azərbaycan dilinin erkən tarixinə dair materiallar. - Azərbaycan Filologiyası məsələləri. B., "Elm", 1983, s. 270.

169. Azərbaycan tarixi üzrə qaynaqlar. B., "Azərbaycan unıversıtetının nəşriyyatı", 1989, s. 328.
170. L.N.Qumilyov. Xəzərətrafı xalqların minillik tarixi (rusca), B., "Azərnəşr", 1990, s. 312.
171. Z.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. B., "Azərnəşr", 1989, s. 336.
172. E.Kərımov. Azərbaycan etnoqrafİyası XXI əsrin astanasında. - "Azərbaycan" qəzeti. 17 aprel, 1997-ci il.
173. Ю.В.Бромлей. Современные проблемы етнографии. М., «Наука», 1981, с. 390.
174. Q.Qeybullayev. Azərbaycanlıların etnik tarixinə dair. B., "Elm", 1994, s. 102.
175. T.İ.Hacıyev, K.N.Vəliyev. Azərbaycan dili tarixi. B., 1983. s. 188.
176. X.Xəlılov. Dövlətdə dəvə. B., "İşıq", 1989, s. 46.
177. M.İsmayıl. Azərbaycan xalqının yaranması. B., "Azərnəşr", 1995, s. 64.
178. Orta əsrlər tarixi. I cild. B., "Maarif", 1988, s. 528.
179. H.A.Həvılov. Dünya xalqlarının etnoqrafİyası. B., "Altay dünyası" jurnalı, 1999, s. 508.
180. F.Ağasıoğlu. Azər xalqı. B., "Ağrıdağ" nəşriyyatı", 2000, s. 436.
181. А.В.Суперанская. Что такое топономика? М., «Наука», 1985, с. 176.
182. Q.İ.Məşədiyev. Zaqafqazıyanın Azərbaycan toponimləri. B., "Elm", 1990, s. 148.
183. V.Piriyev. Buduq və Buduqlular. B., "Sabah", 1994, s. 138.
184. Q.Cavadov. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. B., "Elm", - 2000, s. 440.
185. Ç.Nehru. Ümumdünya tarixinə nəzər. B., "Gənclik",





1986, s. 362.
186. Y.Səfərov. Qədim Azərbaycan: nə bılırik. B., "Azərnəşr", 1989, s. 158.
187. Y.R.Cəfərov. Hunlar və Azərbaycan (rusca). B., "Elm", 1985, s. 124.
188. E.Əzızov. Azərbaycan dilinin tarixi dialektologiyası. B., "Bakı Unıversıteti nəşriyyatı", 1999, s. 354.
189. F.Zeynalov. Türkologiyanın əsasları. B., "Maarif", 1981, s. 348.
190. B.Ögəl. Böyük Hun imperiyası. 1-ci kitab. B., "Gənclik", 1992, s. 408.
191. B.Ögəl. Böyük Hun imperiyası. 2-ci kitab. B., "Gənclik", 1992, s. 336.
192. "Kitabi-Dədə Qorqudun izahlı lüğəti. B., "Elm", 1999, s. 2004.
193. E.Əzızov. Söz xəzınəsi. B., "Maarif" nəşriyyatı, 1995, s. 128.
194. Азербайджанцы. Б., «Элм», 1998, с. 300.
195. R.Aslanov... Yaxın və Orta şərq ölkələrinin orta əsrlər tarixi. B., "Bakı Unıversıteti nəşriyyatı", 1999, s. 206.
196. А.А.Кудрявцев. Древний Дербент. М., «Наука», 1982, с. 174.
197. С. А. Плетнева. Хазары. М., «Наука», 1986, с. 92.
198. Azərbaycan tarixi. I cild. B., "Elm", 1961, s. 448.
199. F.V.Qədırov. Azərbaycanın şimal müdafiə istehkamları. B., "Elm", 1984, s. 152.
200. İ.A.Babayev, Q.M.Əhmədov. Qəbələ. B., "Elm", 1981, s. 168.
201. V.Alekseyev. Türk xalqlarının əcdadları. Azərbaycan məktəbi, 1971, N 8, s. 51-57.
202. S.Allahverdıyev, Ə.Haqverdıyev. Türk dünyası xalqları-

nın tarixi. B., "Nərgiz-R", 1996, s. 70.

203. С.А.Плетнева. Кочевники Средневековья. М., «Наука», 1982, с. 188.

204. Б.В.Андрианов. Неоседлое население мира. М., «Наука», 1985, с. 280.

205. Материалы по истории древних кочевых народов группы гунху. М., «Наука», 1984, с. 485.

206. З. Ямпольский. Древнейшие сведения о тюрках в зоне Азербайджана. «Ученые записки» (серия языка и литературы), АГУ им. С. М. Кирова, 1966, Ñ2.

207. З.Ямпольский. О тюрках V век до нашей еры. «Ученые записки» (серия языка и литературы), АГУ им. С. М. Кирова, 1970, Ñ5-6.

208. Ə. Əsgər. Türkmanlar. Azərbaycan jurnalı. 2003, N 10, s. 136-146.

209. Əbdülqazi Bahadır xan. Səcəreyi-Fərakımə. B., "Azərbaycan Milli Ensiklopedıyası", 2002, s. 145.

210. Azərbaycan etnoqrafİyası. 1-ci cild. B., "Elm", 1988, s. 454.

211. М.И.Артаманов. История Хазар. Л., Изд, Ермитажа, 1962.

212. Kitabi-Dədə Qorqud. B., "Yazıçı", 1988, s. 266.

213. Ə.Bayramov. "Kitabi-Dədə Qorqud" dastanında etnik psixoloji xüsusiyyətlərin inıkası. B., 2000, s. 146.

214. Əbu Osman. B. Bəhr əl-Cahiz əl-Bəsıri. Türklərin fəzılətləri. B., 2001, s. 78.

215. M.Qəmbərli. Ərəb ədəbi-bədii qaynaqlarında türk. B., "Mütərcim", 1998, s. 256.

216. Ə.S.Bayramov. Etnik psixologiya məsələləri. B., "Elm və həyat" nəşriyyatı, 1996, s. 206.

217. Ə.Ə.Əlızadə. Azərbaycan güzəran psixologiyası məsələləri. B., 1994.





218. Nızami Gəncəvi. Xosrov və Şırin. B., "Yazıçı", 1982, s. 402.

219. Н.Г.Волкова. О названиях азербайджанские на Кавказе – Онамастика Востока. М., 1980, с. 286.

220. А. К. Алекперов. Исследование по археологии и этнографии Азербайджана. Б., «Елм», 1960, с. 252.

221. Quran. Z.Bünyadov və V.Məmmmədəliyevin tərcüməsi. B., "Azərnəşr", 1991, s. 714.

222. N.Vəlixanlı. Ərəb xilafəti və Azərbaycan. B., "Azərnəşr", 1993, s. 158.

223. Ф.Мамедова. К вопросу об Албанском (Кавказском) этносе. Azərb. SSR EA xəbərləri. T.F.H. seriyası 1989, №3, с. 108-117.

224. A. Düma. Qafqaz səfəri. B., "Yazıçı", 1985, s. 142.

225.Г. А. Езов. Сношения Петра Великого с Армянском народам. Документы. 1898, с. 512.

226. Акты собрание Кавказской Археографической Комиссию. Т. 1.

227.П. Г.Бутков. Материалы новый истории Кавказа с 1722 по 1803 г. Часть 3, СПБ 1869, с. 621.

228. Н.Н.Шавров. Новая угроза русскому делу в Кавказе. Б., 1990, с. 155.

229. Qlinko S.İ.Ermənilərin Azərbaycana köçürülməsi. B., "Şuşa", 1995, s. 128.

230. V.Q.Veliçko. Qafqaz. B., "Azərnəşr", 1995, s. 190.

231. С.П.Зелинский. Экономический быт государственных крестян Зангезурского уезда Елизаветпольской губернии. Материалы для изучения экономического быта государственных крестян Закавказского Края. Том IV, Тифлис, 1886.

232. С.П..Зелинский. Племенной состав, религия и проис-

хождение государственных крестьян – Свод материал по изучению экономического быта государственных крестьян Заквказского края. Том 2. Тифлис, 1887.

233.А.Е.Хан-Агов. Экономический быт государственных крестьян Джаванширского уезда Елизаветпольской губернии. Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Том 6, Тифлис, 1887.

234. İ.Q.Çavçavadze. Erməni alimləri və fəryad edən daşlar. B., "Azərbaycan" nəşriyyatı, 1995, s. 80.

235. F.Ağasıoğlu. Haylar Ermənistanı necə qurdular, yaxud N. Gəncəvinin Şırını erməni qızıdırmı? B., "Kür", 2000, s. 28.

236. Н.Вердиева, Р.Гусейнзаде. «Родословная» армян и их миграсия на Кавказ с Балкан. Б., «Елм», 2003, с. 168.

237. Rusiyanın Van və Ərzurumdakı Baş konsulu Mayevskının xatırələri. B., "Şərq-Qərb" nəşriyyatı, 1994, s. 40.

238. X.D.Xəlılov. Qarabağın etnik tarixindən. Azərb. SSR EA xəbərləri. Tarix, fəlsəfə, hüquq serıyası. 1998, N 3, s. 41-44.

239. Р.Гусейнов. Сирийские источники XII-XIII вв - об Азербайджане. Б., «Елм», 1960, с. 182.

240. Ф.М.Асадов. Арабские источники о турках в раннее средневековье. Б., «Елм», 1993, с. 204.

241. Nızami Gəncəvi. Sirlər xəzinəsi. B., "Yazıçı", 1981, s. 196.

242.G.V.Vernadski. Çingiz xanın ulu yasasının quruluşu haqqında. B., 2001, s. 39.

243.Y.Mahmudlu. Azərbaycan tarixi intıbah dövrü. B., "Altay dünyası". 1996, s. 82.

244.Z.M. Bünyadov. Azərbaycan Atabəyləri dövləti. B., "Elm", 1983, s. 268.

245.O.Əfəndıyev. Azərbaycan Səfəvılər dövləti. B., "Azərnəşr", 1993, s. 300.





246. Г.Ф.Чурсин. Азербайджансие курду – Известия Кавказского историко-археологического института в Тифлис. Том 3. Тифлис, 1925. С. 1-16.

247.Е. Керимов. Расскажите про этногенез курдов где они компактно проживали в значителном количество. «Зеркало», 24 август 1996.

248.X.Xəlılov. Xalq həmışə ona sırınmış liderlərin əzabını çəkir. "Müxalıfət" qəzeti. 5-9 iyun, 1999.

249.Киракос Кандзакеци. История. Б., 1946.

250.Р. Б. Геюушев. Христианство в Кавказской Албании. Б., «Елм», 1984, с. 192.

251.M. Sədi Koçaş. Tarixdə ermənilər və türk-erməni münasibətləri. B., "Azərbaycan ensiklopedıyası", 1998, 158.

252.R.Göyüşov. Qarabağın keçmışınə səyahət. B., "Azərnəşr", 1993, s. 82.

253.С.А.Мамедов. Азербайджан по источникам XV – первой половини XVIII вв. Б., «Элм», 1993, с. 238.

256.S. Kərimova. Çarizmin Azərbaycanı işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu. B., "Azərnəşr", 1995, s. 192.

257.Y.Ramazanov. Azərbaycan dilində yazıb yaradan erməni aşıqları. B., "Elm", 1977, s. 132.

258. M. Nemətova. Əsrlərin daş yaddaşı. B., "İşıq", 1987, s. 64.

259.Yesayi Həsən Cəlal. Alban ölkəsinin qısa tarixi (1702-1722) B., "İşıq", 1992, s. 48.

260.И.П.Петрушевски. О дохристианских верованиях крестьян Нагорного Карабах. Б., 1930.

261.İrəvan əyalətinin icmal dəftəri. B., "Elm", 1996, s. 184.

262.Naxçıvan sancağının müfəssəl dəftəri. B., "Sabah", 1997, s. 236.

263. M.Zeynalov. Fəlsəfə tarixi. B., "Azərbaycan", 2000, s. 542.

264. Fəlsəfə. B., "Azərbaycan", 1997, s. 374.

265. F.İsmayılov. XX əsr Qərb fəlsəfəsi tarixi. I hissə. B., "Təhsil", 1999, s. 416.

266.Новая история Зарубежного Востока. Т. 1. М., Издательство Московского Университета, 1952, с. 564.

267.История дипломатии. Т. 1. М., Государственное социально-экономическое издательство. 1941, с. 566.

268. X.Xəlılov. Ermənilər gəlmə və təcavüzkardır və ya tarixdə Azərbaycan genosıdi mövcuddur, yoxsa "erməni genosıdi"? "Femıda" qəzeti, 17-24 fevral, 2001-ci il.

269. В.Л.Величко. Кавказ. СПб. 1904, с. 224.

270. F.Əsədov. S. Kərımova. Çarizmi Azərbaycana gətırənlər. B., "Gənclik", 1993, s. 144.

271. А.С.Вартапетов. К вопросу об историческом исследовании христианских памятников Нагорного Карабаха. Tarix Иnstitutu, Elmi arxiv. Fond 6, v. 9.

272. H.Nəcim. Abbas Mirzə. B., "Yazıçı", 1993, s. 124.

273. Ə.Həşımoğlu. Cavad xan və Hüseynqulu xana həsr olunmuş tarixi şerlər. Azərbaycan Elmlər Akademıyasının xəbərələri. Tarix, fəlsəfə, hüquq serıyası. B., 1994, N 1 - 4, s. 87-98.

274. M.İsmayılov. Azərbaycan tarixi. B., "Azərbaycan ensiklopedıyası", 1997, s. 320.

275. Azərbaycan tarixi. 2-ci cild. B., "Elm", 1964, s. 1000.

276. А.Захаров. Домашний и социальный быт женшин и закавказских татар. СМОМПК вып. 20.

277. Н.А.Джаваншир. О родословной Мелик-Аслановых - Azərbaycan tarixi şəcərə cəmiyyətinin xəbərləri. 2-ci buraxılış. B., "Səda", 2001, s. 102.

278. Cənubi Azərbaycan tarixinin oçerkləri (1828-1917). B., 





"Elm", 1985, s. 314.

279.` X.Xəlılov. Azərbaycan milli-azadlıq hərəkatının ideya mənbələrindən. - "Tarix və onun problemləri", 2000, N 1, s. 150-155.

280. Б.Потто. Кавказская война. Т. 3, вып. 3, СПб, 1887.

281. Baba bəy Şakir. Seçilmiş əsərləri. B., "Yazıçı", 1985, s. 69.

282. A.Bakıxanov. Gülüstani-İrəm. B., "Elm", 1951, s. 255.

283. C.Məmmədquluzadə. Əsərləri, 3-cü cildi. B., "Azərnəşr", 1984, s. 292.

284. Ş. Qurbanov. Cəmaləddin Əfqani və türk dünyası. B., "Azərnəşr", 1996, s. 220.

285. M.F.Axundov. Əsərləri, 3-cü cild. B., "Elm", 1962, s. 567.

286. M.F.Axundov. Əsərləri, 2-ci cild. B., "Elm", 1961, s. 576.

287. H.Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. B., "Azərnəşr", 1992, s. 278.

288. M.B.Məmmədzadə. Milli Azərbaycan hərəkatı. B., "Nıcat", 1992, s. 246.

289. M.B.Məmmədzadə. Ermənilər və İran. B., "Azərnəşr", 1993, s. 42.

290. S.Onullahi. Erməni millətçıləri və İran. B., "Maarif", 2002, s. 88.

291. M.İsmayılov, M.İbrahımov. El atası. B., "Azərnəşr", 1994, s. 120.

292. H.Z.Tağıyev. B., "Azərnəşr", 1993, s. 144.

293. X.Məmmədov. Azərbaycan milli hərəkatı (1875-1918-ci illər). B., "Sabah", 1996, s. 176.

294. Ş.C.Əfqani. Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti. - Ş. Qurbanov. Cəmaləddin Əfqani və türk dünyası. B., "Azərnəşr", 1998, s. 186-194.

295. Ş.C.Əfqani. Təlim-tərbıyə haqqında. - Ş. Qurbanov. Cəmaləddin Əfqani və türk dünyası. B., "Azərnəşr", 1998, s. 195-200.

296. Ş.C.Əfqani. Dağıstanıyə məktub. - Ş. Qurbanov. Cəmaləddin Əfqani və türk dünyası. B., "Azərnəşr", 1998, s. 200-2005.

297. Ş.C.Əfqani. İslami reforma. - Ş. Qurbanov. Cəmaləddin Əfqani və türk dünyası. B., "Azərnəşr", 1998, s. 205.

298. Ş.C.Əfqani. Renana cavab. - Ş. Qurbanov. Cəmaləddin Əfqani və türk dünyası. B., "Azərnəşr", 1998, s. 2008-2015.

299.V.Qulıyev. Ağaoğlular. B., "Ozan", 1997, s. 235.

300. N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. B., "Gənclik", 1991, s. 307.

301. T.Vəliyev. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. B., "Elm", 1987, s. 253.

302. V.Mustafayev. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). B., "İrşad" Mərkəzi, 1998, s. 159.

303. Məhəmmədhəsən Vəlıli. Azərbaycan. B., "Azərnəşr", 1993, s. 205.

304. Y.V.Çəmənzəminli. Tarixi, çoğrafi və iqtisadi Azərbaycan. B., "Bakı Unıversıtetının nəşriyyatı", 1993, s. 55.

305. A.M.Топчибашев. Меморандум. B., "Azerbaycan", 1993, s. 40.

306. N.Şeyxzamanlı. Azərbaycan istiqlal mücadiləsi xatırələri. B., "Azərbaycan", 1997, s. 160.

307. H.Qoca. Fransızlar yurdum haqqında. B., "Yazıçı", 1990, s. 248.

308. Y.V.Çəmənzəminli. Xarıci siyasətımiz. B., "Azərnəşr", 1993, s. 52.

309. M.Ə.Rəsulzadə. Stalinlə ixtılal xatırələri. B., "Elm", 1991, s. 84.

310. H.Əhmədov. Azərbaycan xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti. B., "Mütərcim", 1997, s. 56.





311. Q.İlkin. Hacı Zeynalabdin Tağıyev. B., "İşıq", 1997, s. 78.

312. V.Sultanlı. Ağır yolun yolçusu. B., "Azərnəşr", 1996, s. 190.

313. Q.İlkin. Bakı və bakılılar. B., "Zaman", 1999, s. 388.

314. M.M.Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. B., "Azərbaycan", 1993, s. 128.

315. M. S. Ordubadi. Qanlı illər. B., 1991, s. 144.

316. Д.Б.Сеидзаде. Азербайджанские депутаты в Государственной Думе России. «Азернешр», Б., 1991, с. 139.

317. M.Ə.Rəsulzadə. Azərbaycan davası. B., "Ay-Ulduz", 1998, s. 68.

318. M.Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. B., "Azərnəşr", 1987, s. 320.

319. Görkəmli inqilabçı Səttarxan. B., "Azərnəşr", 1972, s. 48.

320. M.Ə.Rəsulzadə. Azərbaycan cümhuriyyəti. B., "Elm", 1990, s. 114.

321. M.Ə.Rəsulzadə. Əsrımızin Səyavuşu. B., "Gənclik", 1991, s. 112.

322. А.Балаев. Азербайджанское национальное движение в 1917-1918 гг. Б., «Елм», 1998, s. 280.

323. M.Ə.Rəsulzadə. Çağdaş Azərbaycan tarixi. B., "Gənclik", 1991, s. 112.

324. M.Süleymanov. Qafqaz İslam ordusu və Azərbaycan. B., "Hərb nəşriyyatı", 1999, s. 440.

325. M.Süleymanov. Azərbaycan ordusu (1918-1920). B., "Hərb Nəşriyyatı", 1998, s. 488.

326. Y.V.Çəmənzəminli. Müstəqilliyimızi istəyıriksə... B., "Gənclik", 1994, s. 72.

327. C.Həsənov. Azərbaycan beynəlxalq münasibətlər siste-

mində - 1918-1920-ci illər. B., "Azərnəşr", 1993, s. 362.

328. N.Yaqublu. Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. B., 2001, s. 154.

329. А.Балаев. Азербайджанское национально-демократическое движение. 1917-1920 гг. Б., «Елм», 1990, с. 96.

330. M.Orucov. Azərbaycanda və mühacırətdə Müsavat partıyasının fəaliyyəti (1911-1992). B., "Azərnəşr", 2001, s. 272.

331. Azərbaycan tarixi. 3-cü cild. 1-ci hissə. B., "Elm", 1973, s. 548.

332. Qanlı yaddaş. B., 1998, s. 33.

333. M.Muradzadə. Mart hadıseyi-əlıməsi. B., "Azərnəşr", 1996, s. 36.

334. N.Məhərrəmov. Daşnakstyun və Azərbaycanın taleyi. B., "Azərnəşr", 1995, s. 96.

335. N.Nəsibzadə. Azərbaycanın xarıci siyasəti (1918-1920). B., "Ay-Ulduz", 1996, s. 302.

336. H. Əlıbəyli. Cənubi Azərbaycan Çar Rusiyasının geopolıtik planlarında. "İpək yolu" jurnalı, 1997, N 1-2.

337. История дипломатии. Т. 2. М., Политиздат, 1945, с. 424.

338. A.Zıyadxanov. Azərbaycan. B., "Azərnəşr", 1993, s. 176.

339. Fətəli xan Xoyski - həyat və fəaliyyəti. B., "Azərnəşr", 1998, s. 152.

340. Azərbaycan Xalq Cümhuriyyəti. "Elm", B., 1998, s. 288.

341. Ş.Nəzirli. Tam artilleriya generalı Səməd Bəy Mehmandarov. B., "Hərbi nəşriyyat", 1997, s. 118.

342. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament – 1-ci cild. B., "Azərnəşr", 1998, s. 974.

343. M.Süleymanov. Mehmandarov (həyatı, xidmət yolu və silahdaşları). B., "Hərb nəşriyyatı", 2000, s. 376.

344. История дипломатии. Т.3. М-Л., Государственное издательство политической литературы. 1945, с. 883.





345. Antik ədəbiyyat müntəxəbatı. B., "Azərnəşr", 1950, s. 844.

346. А.М.Топчибашов. Меморандум. B., «Azerbaycan», 1993, s. 40.

347. N.Mustafayeva. Cənubi Azərbaycan xanlıqları. B., "Azərnəşr", 1995, s. 96.

348. Э.А.Керимов. Из истории этнографического изучения Азербайджана в русской науке (XV – первая четверт XIX вв). Азербайджанский этнографический сборник. Вып. 1. Б., «Элм», 1964, с. 220.

349. Э.А.Керимов. Из истории изучения этнических и этнографических групп в Азербайджане в XIX в. – Азербайджанский этнографический сборник. Вып. III. Б., «Элм», 1977, с. 228.

350. Д.Е.Еремеев. Этногенез турок (происхождение и основные этапы этнической истории), М., 1971, с. 272.

351. N.Nərımanov. Ucqarlarda inqilabımızın tarixinə dair. "Azərbaycan dövlət nəşriyyat-poliqrafiya birlıyi". B., 1992, s. 80.

352. Ə.Tahirzadə. "Kitabi-Dədə Qorqud"un faciəsi. B., "Kür" nəşriyyatı. 2002, s. 32.

354. История Азербайджана. Том 1. Макет. Б., 1954. Azərbaycan Respublikası MEA Tarix institunun arxivi.

355. Современные этнические процессы в ССР. М., «Наука», 1975, с. 344.

356. H.Ə.Dəlıli. Azərbaycanın cənub xanlıqları. B., "Elm", 1979, s. 144.

357. Məhəmməd Hüseyn Qüddusi. Nadir şah. B., "Gənclik", 1999, s. 240.

358. К.З.Ашрафян, М.Р.Арунова. Государство Надир шаха Афшара. М., 1958.

359. Ə.Dəmirçizadə. 50 söz. B., 1968.

360. Ə.M.Dəmirçizadə. Azəri ədəbi dil tarixi. B., 1969.

361. Р.А.Гусейнов. Концепсия национальной политики Азербайджанской Республики. Б., 2003, с. 28.

362. Azərbaycan tarixi. 1-ci cild. B., "Elm", 1998, s. 476.

363. N.Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.S. Stalinə məktub). B, «Azərbaycan Dövlət nəşriyyat-poliqrafiya birliyi», 1992, s.80.

364. Marksizm-leninizm fəlsəfəsinin əsasları. B., «Maarif», 1980, 478.

365.M.Mirzəyev. Qədim Azərbaycan-Mesopatamiya əlaqələrinə dair.-Tarix və onun problemləri. B.,2003 № 2, s.5 -13

366. M.Mirzəyev. Qədim Azərbaycan tayfalarının Assur hərbi ekspansiyasına qarşı mübarizəsi tarixindən. (e.ə. XVIII əsrin I yarısı)- AMEA xəbərləri, tarix, fəlsəfə, hüquq seriyası. B., "Elm"2005, № 5-6, s. 36-53.

367. Azərbaycan Sovet Ensiklopediyası. I cild. B., 1970, s-508.

368. Sov. İKP XXIV qurultayının qərarları ilə əlaqədar olaraq ideoloji işi daha da gücləndirmək sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında. Azərbaycan KP MK-nın plenumunun materialları. 29-30 oktyabr 1971-ci il. B., 1972

369. Elçibəy. Azərbaycandan başlayan tarix. B, "Adiloğlu" nəşriyyatı, 2003, s.288

370. S.A. Pletneva. Xazari. M, "Nauka"198,6 s.92.

371. Qustav Le Bon. Kütlə psixologiyası. B., 2006. s.327.

372. X.Xəlilli. Qarabağ: etnomənəvi inkişaf tarixi. B., "Günəş", 2006, s.80.

373. T.Mustafazadə. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. B., "Elm", 2002, s.327.





## MÜNDƏRİCAT

Giriş və ya etnososial inkişafda tarix elminin rolu ............... 3

**I fəsil.** Azərbaycan ərazisində bioloji varlığın insan kimi təşəkkülü və etnogenezin ilkin mərhələsi .............. 31

**II fəsil.** Etnogenezin son mərhələsi və Azərbaycan türk xalqının formalaşmasının başa çatması ............... 93

**III fəsil.** Azərbaycanda orta əsrlərdə etnososial proseslər və türklərin milli inkişafı ...................... 130

**IV fəsil.** Yeni dövrdə Azərbaycan türklərinin etnomədəni, etnososial inkişafı və millət kimi formalaşması ...................................................... 153

**Nəticə** ...................................................................... 351

**İstifadə edilmiş mənbə və ədəbiyyatlar** ...................... 359

*Xəliyəddin Xəlilli*

# AZƏRBAYCAN TÜRKLƏRİNİN ETNOGENEZİ VƏ MİLLİ İNKİŞAF TARİXİ

Yığılmağa verilmişdir: 15.08.2007
Çapa imzalanmışdır: 12.11.2007
Tiraj 500; ş.ç.v. 24
«MBM» mətbəəsində
çap olunmuşdur